**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX VƏ ETNOLOGİYA İNSTİTUTU**

# AZƏRBAYCAN ETNOLOGİYASI

**2025, Cild 1, №1**

**BAKI – 2025**

**Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur**

**Baş redaktor:** **Kərim ŞÜKÜROV**
tarix elmləri doktoru, professor

**Redaksiya heyəti:**

**Azərbaycan**

**Şövqü HƏSƏNOV –** tarix üzrə fəlsəfə doktoru, dosent
**Xalyəddin XƏLİLLİ –** tarix üzrə fəlsəfə doktoru, dosent
**Nərgiz QULİYEVA –** tarix elmləri doktoru, professor
**Solmaz MƏHƏRRƏMOVA –** tarix elmləri doktoru, dosent
**İlhamə MƏMMƏDOVA –** tarix elmləri doktoru, dosent, baş redaktorun müavini
**Asəf ORUCOV –** tarix üzrə fəlsəfə doktoru, dosent.
**Tahir ŞAHBAZOV –** tarix üzrə fəlsəfə doktoru, dosent
**Güllü YOLOGLU –** tarix elmləri doktoru, dosent

**Xarici ölkələrdən**

**Yuriy ANÇABADZE –** tarix elmləri doktoru, professor (Rusiya)
**Jambıl ARTIKBAYEV –** tarix elmləri doktoru, professor (Qazaxıstan)
**Aksunkar ABDULİNA –** tarix üzrə fəlsəfə doktoru (Qazaxıstan)
**Alişir Doniyorov –** tarix elmləri doktoru, professor (Özbəkistan)
**Maqomedxan MAQOMEDXANOV** – tarix elmləri doktoru, professor (Rusiya)

**Məsul katib:**
**Bəhmən ƏLİYEV**
tarix üzrə fəlsəfə doktoru, dosent

AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
A.A.BAKIKHANOV INSTITUTE OF HISTORY AND ETHNOLOGY

# AZERBAIJAN ETHNOLOGY

2025, Vol. 1, N1

BAKU – 2025

**Published by the decision of the Scientific Council of A.A.Bakikhanov Institute of History and Ethnology Azerbaijan National Academy of Sciences**

**Editor-in-Chief:** **Kerim SHUKUROV**
Doctor of Historical Sciences, professor

**Editorial board:**

**Azerbaijan**

**Shovgu HASANOV –** Doctor of Philosophy in history, associate professor
**Xalyaddın XALILLİ –** Doctor of Philosophy in history, associate professor
**Nargiz GULİYEVA –** Doctor of Historical Sciences, professor
**Solmaz MAHARRAMOVA –** Doctor of Historical Sciences,, associate professor
**İlhama MAMMADOVA –** Doctor of Historical Sciences, associate professor, Deputy Editor-in-Chief
**Asaf ORUCOV –** Doctor of Philosophy in history, associate professor
**Tahir SHAHBAZOV –** Doctor of Philosophy in history, associate professor
**Gullu YOLOGLU –** Doctor of Historical Sciences, associate professor

**From foreign countries:**

**Yuriy ANÇABADZE –** Doctor of Historical Sciences, professor (Russian)
**Jambıl ARTIKBAYEV –** Doctor of Historical Sciences, professor (Kazakhstan)
**Aksunkar ABDULİNA –** Doctor of Philosophy in history, associate professor (Kazakhstan)
**Alişir DONİYOROV –** Doctor of Historical Sciences, professor (Uzbekistan)
**Maqomedxan MAQOMEDXANOV** – Doctor of Historical Sciences, professor (Russia)

**Executive Secretary**
**Bahman ALİYEV**
Doctor of Philosophy in history, associate professor

# MÜNDƏRİCAT – CONTENTS

## MƏQALƏLƏR – ARTICLES


BAŞ REDAKTORDAN
FROM THE EDITOR-IN CHIEF
ОТ ГЛАВНОГО РЕДАКТОРА 7-8

**ETNOLOGİYANIN TARİXİ – HISTORY OF ETHNOLOGY**

**BƏHMƏN ƏLİYEV** AZƏRBAYCAN ETNOLOGİYASININ TƏSİSATLANMASI TARİXİ: KEÇMİŞ TƏCRÜBƏDƏN GƏLƏCƏYƏ BAXIŞ 9-42

**MADDİ MƏDƏNİYYƏT – MATERIAL CULTURE**

**İLHAMƏ MƏMMƏDOVA** AZƏRBAYCANDA KƏHRİZ MƏDƏNİYYƏTİ 43-56

**KƏMALƏ ƏLİYEVA** AZƏRBAYCAN QADINININ ƏNƏNƏVİ MƏRASİM GEYİM VƏ BƏZƏKLƏRİ (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ) 57-63

**ZƏMİNƏ RƏSULOVA** ƏHMƏD NƏBİYEVİN ƏLYAZMASI: TARİXİ VƏ ETNOQRAFİK MƏNBƏ KİMİ 64-74

**MƏNƏVİ MƏDƏNİYYƏT, DİNİ İNANC VƏ İNAMLAR – SPIRITUAL CULTURE, RELIGIOUS FAITH AND BELIEFS**

**TOFİQ BABAYEV** YOL İLƏ BAĞLI ADƏT VƏ İNAMLAR 75-82

**BAHAR ƏMƏNOVA** QARABAĞ ƏHALİSİNİN İNAM VƏ ETİQADINA DAİR 83-100

**HƏQİQƏT ZAHİDOVA** GƏNCƏNİN XALQ TƏBABƏTİNDƏN 101-108

**ŞÖVQÜ HƏSƏNOV** XIX-XX ƏSRLƏRDƏ NAXÇIVAN DİYARINDA XALQ BAYRAMLARI 109-117

**GÜLLÜ YOLOĞLU** ŞAMANİZM TÜRK XALQLARININ MƏNƏVİ MƏDƏNİYYƏTİNDƏ 118-139

| | | |
|---|---|---|
| **ƏSƏD ƏLİYEV, BAHAR ƏMƏNOVA** | GƏNCƏ ƏHALİSİNİN NİKAH ADƏTLƏRİ HAQQINDA | 140-151 |

**ETNOMƏDƏNİ PROSESLƏR – ETHNOCULTURAL PROCESSES**

| | | |
|---|---|---|
| **TAHİR SAHBAZOV** | XIX ƏSRDƏ ŞİMALİ AZƏRBAY-CANDA ETNOKONFESSİONAL DURUM VƏ MÜSƏLMAN RUHANİ-LİYİNİN İNSTİTUTLAŞDIRILMASI | 152-166 |
| **NƏRGİZ QULİYEVA** | MÜASİR AZƏRBAYCAN QADINI-NIN İCTİMAİ MÖVQEYİNƏ DAİR | 167-175 |

**ETNİK TARİX, ETNOGENEZ – ETHNIC HISTORY, ETHNOGENESIS**

| | | |
|---|---|---|
| **İSMAYIL UMUDLU** | SUVAR TÜRKLƏRİNİN CƏNUBİ QAFQAZDA ETNİK MÖVCUDLUĞU (VI-XIII yüzillər) | 176-188 |
| **FİDAN ŞAHMALIYEVA** | AZƏRBAYCANIN İCTİMAİ-MƏDƏNİ TARİXİNDƏ TATARLARIN ROLU | 189-198 |

**EZAMİYYƏTLƏR HAQQINDA HESABATLAR – REPORTS ON SCIENTIFIC MISSION**

| | |
|---|---|
| ORDUBAD RAYONUNA ETNOLOJİ SƏFƏR | 199-230 |
| GƏNCƏ ŞƏHƏRİNƏ ETNOLOJİ SƏFƏR | 231-252 |
| ŞAMAXI RAYONUNA ELMİ EZAMİYYƏT | 253-255 |
| QUBA RAYONUNA ELMİ EZAMİYYƏT | 256-261 |
| NAXÇIVAN ŞƏHƏRİNƏ ELMİ EZAMİYYƏT | 262-263 |
| AĞSTAFA RAYONUNA ETNOLOJİ SƏFƏR | 264-267 |
| ANKARA ŞƏHƏRİNƏ ELMİ EZAMİYYƏT | 268-273 |

**RESENZİYALAR**

| | | |
|---|---|---|
| **BƏHMƏN ƏLİYEV** | "ESKİ ORTA ASYA TÜRK DEVLET-LERİ'NDE AİLE" ("QƏDİM ORTA ASİYA TÜRK DÖVLƏTLƏRİNDƏ AİLƏ") KİTABINA RESENZİYA | 274-278 |

## BAŞ REDAKTORDAN

AMEA-da aparılan struktur dəyişiklikləri nəticəsində Tarix İnstitutunun bazasında Tarix və Etnologiya İnstitutu yaradılmışdır. Hazırda institutda "Tarixi etnologiya", "Müasir dövr etnologiyası", "Türk xalqlarının tarixi və etnologiyası", "Tətbiqi etnoqrafiya və kulinariya mədəniyyəti" şöbələri fəaliyyət göstərir.

İnstitutun etnoloqları Azərbaycan və türk xalqlarının etnologiyasının prioritet mövzuları üzrə elmi tədqiqat işlərini uğurla davam etdirir. Son dövrdə bu sahə üzrə respublikada və xaricdə monoqrafiyalar və elmi əsərlər çap edilmişdir.

İnstitutun etnoloqları qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Onların içərisində etnoqrafik ekspedisiyaların təşkili və həyata keçirilməsini xüsusi qeyd etmək lazımdır. Etnoqrafiya fondunun yaradılması, gələcəkdə isə Etnoqrafiya muzeyinin təşkili istiqamətində də işlər görülməkdədir.

Tarix və Etnologiya İnstitutunun yaradılmasından sonra qarşıda duran ən mühüm vəzifələrdən biri də elmi dövri nəşrin və onun saytının təşkili olmuşdur. Ölkədə 1964-cü ildə "Azərbaycan etnoqrafik məcmuəsi"nin nəşri başlanmış, 1985-ci ildən isə ayrıca etnoqrafik jurnal nəşr olunmamışdır. Bunun nəticəsidir ki, etnoloqların əsərlərinin vaxtlı-vaxtında nəşri işində çətinliklər olmuşdur. AMEA rəhbərliyi də bu sahədəki çətinliyin aradan qaldırılması üçün etnologiya sahəsində yeni dövri nəşrin həyata keçirilməsinə bütün köməkliyi göstərmiş, onun saytının yaradılmasına xüsusi diqqət yetirmişdir.

"Azərbaycan etnologiyası" jurnalının nəşrə başlaması, yalnız etnologiya deyil, eləcə də Azərbaycan elminin mühüm nailiyyətidir.

## FROM THE EDITOR-IN-CHIEF

As a result of structural changes carried out at ANAS, the Institute of History and Ethnology was established on the basis of the Institute of History. Currently, the departments of Historical Ethnology, Modern Ethnology, History and Ethnology of Turkic Peoples, Applied Ethnography and Culinary Culture operate at the institute.

Ethnologists of the Institute successfully continue their scientific research on priority topics of ethnology of Azerbaijani and Turkic peoples. Recently, monographs and scientific works have been published in this field in the republic and abroad.

A series of measures are being taken to implement the tasks facing the ethnologists of the Institute. Among them, the organization and implementation of ethnographic expeditions is worth noting. Work is also being carried out to form an ethnographic fund and, in the future, create an ethnographic museum.

After the establishment of the Institute of History and Ethnology, one of the most important tasks facing the Institute was the organization of a scientific periodical

and its website. In 1964, the "Azerbaijani Ethnographic Periodical" began to be published in the country, and since 1985, no separate ethnographic edition has been published. As a result, there have been difficulties in the timely publication of the works of ethnologists. In order to overcome the difficulties in this area, the leadership of ANAS has provided all possible assistance in the implementation of a new periodical in the field of ethnology, and has paid special attention to the creation of its website.

The publication of the journal "Azerbaijani Ethnology" is an important achievement not only of ethnology, but also of Azerbaijani science.

## ОТ ГЛАВНОГО РЕДАКТОРА

В результате проведённых структурных изменений в НАНА, на базе института Истории был создан институт Истории и Этнологии. В настоящее время в институте действуют отделы Исторической этнологии, современной этнологии, истории и этнологии Тюркских народов, прикладной этнографии и культуры кулинарии.

Этнологи института успешно продолжают свои научно-исследовательские работы по приоритетным темам этнологии азербайджанского и тюркских народов. В последний период в этой области в республике и за рубежом были опубликованы монографии и научные работы.

Для претворения в жизнь обязанностей, стоящих перед этнологами института, проводятся последовательные мероприятия. Среди них особо надо отметить организацию и претворение в жизнь этнографических экспедиций. Ведутся работы также по созданию фонда этнографии, а в дальнейшем, – по организации музея этнографии.

После создания института Истории и Этнологии самой важной из задач стала организация научно-периодического издания и его сайта. В стране в 1964-ом году было начато издание «Азербайджанского этнографического сборника», а с 1985-го года отдельные этнографические издания не выпускались. И в результате, в своевременном издании работ этнологов создавались трудности. Руководство НАНА приложило все усилия для преодоления всех трудностей в осуществлении в области этнологии нового периодического издания, особое внимание было уделено созданию его сайта.

Начало издания журнала «Этнология Азербайджана» – важное достижение не только этнологии, но и в целом, азербайджанской науки.

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh. 9-42*

# ETNOLOGİYA ELMİNİN TARİXİ

## AZƏRBAYCAN ETNOLOGİYASININ TƏSİSATLANMASI TARİXİ: KEÇMİŞ TƏCRÜBƏDƏN GƏLƏCƏYƏ BAXIŞ

©2025

BƏHMƏN ƏLİYEV*

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ORCID:0000-0003-0281-9899; email: behmenaa@gmail.com; https://doi.org

***Xülasə:*** *Hər bir elm sahəsinin, o cümlədən Azərbaycan etnologiya elminin inkişafı, tədqiqat istiqamətləri, tədqiqat mövzuları, kadr potensialının formalaşması və s. bu elmin təsisatlanması, elmi müəssisələrin yaranması, dövrün elmi tələblərinə, çağırışlarına uyğun olaraq yenidən təşkili ilə sıx bağlıdır. Azərbaycan etnologiya elminin təsisatlanmasının öyrənilməsi elmin inkişaf xüsusiyyətlərinin daha dərindən tədqiqinə imkan verir.*

*Azərbaycanda etnoloji fikir XIX əsrin ikinci yarısından formalaşmağa başlasa da, ilk olaraq XX yüzilin 20-ci illərində – Bakı Universitetinin Şərq bölməsində (1919-cu il), Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ölkəşünaslıq-pedaqoji dərnəyində, Xalq Maarifi Komissarlığının muzey-ekskursiya şöbəsində (1920-ci il), Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti (bundan sonra: Cəmiyyət) (1923) (1923-cü il) çərçivəsində etnoloji-etnoqrafik tədqiqatlar aparılmışdır. Xalq Maarif Komissarlığı nəzdindəki muzey-ekskursiya şöbəsi 1924-cü ildə Azərbaycan Dövlət Muzeyinə çevrilmişdir. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti 1925-ci ildə Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sərəncamına keçirilmiş, Birinci Ümumazərbaycan Diyarşünaslıq qurultayı (1924), Birinci Ümumittifaq Türkoloji qurultayı (1926) baş tutmuşdur.*

*Keçmiş SSRİ-də siyasi-ideoloji yanaşmaların təsiri altında 1929-cu ildə "etnologiya" sözündən imtina edilmiş, bu elm sahəsinin "etnoqrafiya" adlandırılması qərara alınmışdır.*

*Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin əsasında 1929-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu yaradılmış, onun tərkibində tarix-etnoqrafiya şöbəsi (və ya ölkəşünaslıq) fəaliyyət göstərmişdir. 1932-ci ildə SSRİ Elmlər Akademiyasının Zaqafqaziya filialının Azərbaycan Bölməsi yaradılandan sonra etnoqrafik tədqiqatlar tarix şöbəsində, maddi-mədəniyyət bölməsində mərkəzləşdirilmişdir. 1935-ci il oktyabrın 25-də SSR Elmlər Akademiyasının Azərbaycan Filialı nəzdində Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu yaradılmışdır. SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı tərkibində Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunda (1944), Azərbaycan SSR Elmlər Akademiyası (1945) Tarix İnstitutunun maddi mədəniyyət şöbəsində, Azərbaycan Tarixi Muzeyinin etnoqrafiya şöbəsində (1954), Azərbaycan SSR EA-nın Kirovabad (Gəncə) elmi bazasında (1945-ci ildə)*

*etnoqrafik tədqiqatlar aparılmışdır. Azərbaycan Tarixi Muzeyinin etnoqrafiya şöbəsi sonralar Tarix İnstitutuna köçürülmüşdür.*

*Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutunda 1974-cü ildə Arxeologiya və Etnoqrafiya sektoru yaradılmış, 1976-cı ildə isə Azərbaycan Dövlət Universitetində arxeologiya və etnoqrafiya kafedrası fəaliyyətə başlamışdır.*

*1989-cu ildə Qazaxıstanın paytaxtı Almatı şəhərində keçirilmiş elmi konfransda bu elm sahəsinin yenidən "etnologiya" adlandırılmasına qərar verilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabineti 1993-cü il iyulun 8-də isə Tarix İnstitutunun Arxeologiya və etnoqrafiya sektorunun genişləndirilərək instituta çevrilməsi haqqında 366 saylı qərar vermişdir. 1996-cı ildən Azərbaycan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunda "etnoqrafiya və etnologiya" ixtisası üzrə aspiranturaya qəbul aparılmışdır.*

*AMEA Rəyasət Heyətinin 26 may 2023-cü il tarixli 14/3 nömrəli qərarı ilə AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun etnoqrafiya üzrə şöbələri AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun strukturuna keçirilmişdir. AMEA Ümumi Yığıncağının 29 noyabr 2023-cü il tarixli qərarı ilə Tarix İnstitutunun AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu adlandırılması məqsədəuyğun sayılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabineti 19 yanvar 2024-cü il tarixində institutun AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu adlandırılması haqqında qərar qəbul etmişdir.*

***Açar sözlər:*** *Etnoloji fikir tarixi, elmi müəssisələr, arxeologiya və etnoqrafiya, tarix və etnologiya*

## ESTABLISHMENT HISTORY OF ETHNOLOGICAL SCIENCE OF AZERBAIJAN: A SIGHT INTO THE FUTURE FROM THE EXPERIENCE OF THE PAST

©2025

BAHMAN ALIYEV*

*A.A.Bakikhanov Institute of History and Ethnology of ANAS
ORCID: 0000-0003-0281-9899; e-mail: behmenaa@gmail.com;
https://doi.org

***Abstract:*** *The development of each field of science, including Azerbaijani ethnology, research directions, research topics, formation of human resources, etc. are closely related to the institutionalization of science, the creation of scientific institutions, reorganization in accordance with scientific requirements and challenges of the time. The study of the formation of Azerbaijani ethnological science allows us to study in more depth the features of the development of this science. Ethnological thought began to form in Azerbaijan in the second half of the 19th century, but first ethnological and ethnographic research was carried out within the framework of the 20s of the 20th century – in the regional studies and pedagogical association of the Oriental Faculty of Baku University, a year later – at the Faculty of Oriental Studies*

*of Azerbaijan State University, in the Museum and Excursion Department of the People's Commissariat of Education (1920), in the Azerbaijan Scientific Research Society (1923). In 1924, the Museum and Excursion Department of the People's Commissariat of Education was transformed into the State Museum of Azerbaijan. In 1925, the Azerbaijan Society for Research and Development was transferred to the Central Executive Committee of the Azerbaijan SSR, a congress of regional studies experts (1925) and the First Turkological Congress (1926) were held.*

*Under the influence of political and ideological approaches in the former USSR, in 1929, the word "ethnology" was abandoned, and it was decided to call this field of science only "ethnography".*

*In 1929, the Azerbaijan State Research Institute was established on the basis of the Azerbaijan Scientific and Educational Society, and the Department of History and Ethnography (or Regional Studies) operated within it. After the establishment of the Azerbaijan Sector of the Transcaucasian Branch of the USSR Academy of Sciences in 1932, ethnographic research was centralized in the History Faculty and the Material Culture Department. On October 25, 1935, the Institute of History, Archaeology and Ethnography was established under the Azerbaijan Branch of the USSR Academy of Sciences. Ethnographic research was conducted as part of the Azerbaijan Branch of the USSR Academy of Sciences: the Abbasgulu Aga Bakikhanov Institute of History (1940), the Material Culture Department of the Institute of History of the Academy of Sciences of the Azerbaijan SSR (1945), the Ethnographic Department of the Museum of History of Azerbaijan (1954), and the scientific base of the EA Azerbaijan SSR in Ganja (1945). The Ethnography Department of the Museum of History of Azerbaijan was later transferred to the Institute of History.*

*In 1974, the Department of Archeology and Ethnography was established at the Institute of History of the Academy of Sciences of Azerbaijan, and in 1976, the Department of Archeology and Ethnography at the Azerbaijan State University.*

*In 1989, at a scientific conference held in the capital of Kazakhstan, Almaty, was decided to rename this field of science back to "ethnology". On July 8, 1993, the Cabinet of Ministers of the Republic of Azerbaijan adopted Decision No. 366 on expanding the archeology and ethnography sector of the Institute of History and transforming it into an institute.*

*According to the decision of the Presidium of ANAS No. 14/3 dated May 26, 2023, the ethnography departments of the Institute of Archeology, Ethnography and Anthropology of ANAS were transferred to the structure of the Institute of History named after Abbasgulu Aga Bakikhanov of ANAS. By the decision of the General Assembly of ANAS dated November 29, 2023, it was considered appropriate to name the Institute of History the Institute of History and Ethnology named after Abbasgulu Aga Bakikhanov of ANAS. On January 19, 2024, the Cabinet of Ministers of the Republic of Azerbaijan made a decision to name the Institute the Institute of History and Ethnology named after Abbasgulu Aga Bakikhanov of ANAS.*

***Keywords:*** *History of ethnological thought, scientific institutions, archeology and ethnography, history and ethnology*

# ИСТОРИЯ СОЗДАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ЭТНОЛОГИЧЕСКОЙ НАУКИ: ВЗГЛЯД В БУДУЩЕЕ ИЗ ОПЫТА ПРОШЛОГО

©2025

БАХМАН АЛИЕВ*

*Институт Истории и Этнологии НАНА имени А.А.Бакиханова
ORCİD: 0000-0003-0281-9899; email: behmenaa@gmail.com; https://doi.org

***Резюме:*** *Развитие каждой области науки, в том числе и азербайджанской этнологии, направления и темы ее исследований, формирование кадрового потенциала и т.д. тесно связано с институционализацией науки, созданием научных учреждений, реорганизацией в соответствии с научными требованиями и вызовами времени. Изучение проблемы становления азербайджанской этнологической науки позволяет глубже изучить особенности развития этой отрасли науки.*

*Этнологическая мысль в Азербайджане начала формироваться со второй половины XIX века, но этнологические и этнографические исследования проводились в 20-х годах XX века – в страноведческо-педагогическом отделениеи Восточного факультета Бакинского университета, годом позже – на факультете востоковедения Азербайджанского государственного университета, в музейно-экскурсионном отделе Народного комиссариата просвещения (1920), Общества обследования и изучения Азербайджана (1923). В 1924 году Музейно-экскурсионный отдел Народного комиссариата просвещения был преобразован в Государственный музей Азербайджана. В 1925 году Общества обследования и изучения Азербайджана было передано в ведение ЦИК Азербайджанской ССР, Первый Всеазербайджанский Краеведческий съезд (1924) и Первый Всесоюзный Тюркологический съезд (1926).*

*Под влиянием политико-идеологических подходов в бывшем СССР в 1929 году от слова «этнология» отказались, и эту отрасль науки было решено называть только «этнографией».*

*В 1929 году на базе Общества обследования и изучения Азербайджана был создан Азербайджанский государственный научно-исследовательский институт, в его составе действовал отдел истории и этнографии (или страноведения). После создания в 1932 году Азербайджанского филиале Закавказского отделения Академии наук СССР этнографические исследования были централизованы на историческом факультете и отделе материальной культуры. 25 октября 1935 года при Азербайджанском филиале Академии наук СССР был создан Институт истории, археологии и этнографии. Этнографические исследования в эти годы проводились в Институте истории Азербайджанского филиала Академии наук СССР (1940 г.), в отделе материальной культуры Института истории АН Азербайджанской ССР (1945 г.), в этнографическом отделе Музея истории Азербайджана (1954 г.), в научной базе АН Азербайджанской ССР в Кировабаде (в Гяндже) (1945 г.). Этногра-*

*фическом отделе Музея истории Азербайджана позже был передан в Институт истории.*

*В 1974 году в Институте истории Академии наук Азербайджана был создан отдел Археологии и этнографии, а в 1976 году – кафедра археологии и этнографии в Азербайджанском государственном университете.*

*В 1989 году на научной конференции, состоявшейся в столице Казахстана Алматы, было решено вновь переименовать эту область науки в «этнологию». 8 июля 1993 года Кабинет Министров Азербайджанской Республики принял решение №366 о расширении сектора археологии и этнографии Института истории и преобразовании его в отдельный институт.*

*Согласно решению Президиума НАНА №14/3 от 26 мая 2023 года этнографические отделы Института археологии, этнографии и антропологии НАНА были переданы в структуру Института истории имени Аббасгулу Ага Бакиханова НАНА. Решением Президиума НАНА от 29 ноября 2023 года было признано целесообразным переименовать Институт истории в Институт истории и этнологии имени Аббасгулу Ага Бакиханова НАНА. 19 января 2024 года Кабинет Министров Азербайджанской Республики принял решение переименовании института в Института истории и этнологии имени Аббасгулу Ага Бакиханова НАНА.*

***Ключевые слова:*** *История этнологической мысли, научные учреждения, археология и этнография, история и этнология*

***Giriş***

Azərbaycanın XIX əsrin əvvəllərindən Çar Rusiyasının işğalı altına düşməsi, 1920-ci ilin sovet işğalından sonra qərarlaşmış şərait həyatın bütün sahələrində olduğu kimi, elmlərin formalaşmasına, təsisatlanmasına, təşkilatlanmasına, elmi metod və metodologiyaların, tədqiqat istiqamətlərinin müəyyənləşməsində və s. həlledici olmuşdur.

XIX əsrin ortalarında Rusiyanın Peterburq, Moskva şəhərləri ilə yanaşı Tiflis də Qafqazşünaslığın mərkəzinə çevrilmişdir. 1840-1860-cı illərdə Rusiya İmperator Coğrafiya Cəmiyyətinin Qafqaz filialı (1845), Tiflisdə Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti (1850), Qafqaz Arxeocoğrafiya Komissiyası, Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı şöbəsi (1879-cu il) yaradılmışdır, bu və digər elmi müəssisələr Qafqazın, o cümlədən Azərbaycan etnoqrafiyasının, maddi və mənəvi mədəniyyətinin öyrənilməsində mühüm rol oynamışdır.

Hələ XIX əsrin 40-50-ci illərində Rusiya Coğrafiya Cəmiyyətinin nəzdində fəaliyyət göstərən etnoloji şöbənin üzvləri K.M.Ber, N.İ.Nadejdin, K.D.Kavelin etnoqrafiya elminin əsas prinsiplərini işləyib hazırlamışdılar.

Rusiya Coğrafiya Cəmiyyətinin yaradıcılarından, etnoqrafiya şöbəsinə rəhbərlik edən N.İ.Nadejdin 1846-cı ildə cəmiyyətin iclaslarının birində "Rus xalqlarının etnoqrafik tədqiqi haqqında" adlı çıxışında etnoqrafiyanı müstəqil elm sahəsi kimi qiymətləndirərək, onun üç tədqiqat istiqamətini − dil, fiziki etnoqrafiya və psixoloji

etnoqrafiyanı fərqləndirmişdir.[1] Rusiya İmperator Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinə 1951-ci ildə üzv seçilən Mirzə Fətəli Axundov, yazıçı İsmayıl bəy Qutqaşınlı (1806-1869), M.Məhərrəmov sonralar Qafqaz Arxeoqrafiya Komissiyasında tədqiqat işlərinə cəlb olunmuşdular. Qafqaz müftisi Məmməd Əfəndi Müftizadə (1851), Hüseyn bəy Ağalarov (1864), İsa sultan Şaxtaxtinski (1880), A.S.Yuzbaşov (1882), Yusif Məlik Babaxanov (1900), Məhəmməd Sultan Şahtaxtlı (1903) kimi Azərbaycan ziyalıları coğrafiya cəmiyyətinin işində iştirak etmişlər. Bundan başqa, Məmməd Həsən Əfəndiyev, Səfər Əli Tuqanov, Hacı Səlim Sultanov, Məşədi Cahangir, İ.Q.Əlibəyov Rusiya Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinin üzvü olmuşlar. Qafqaz, o cümlədən Azərbaycan tarixinin elmi bazası üçün materialların nəşrində Qafqaz Sərdarı Baş İdarəsinin 12 cildlik "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları" («Акты Кавказской Археографической Комиссии», АКАК, 1866-1904-cü illər), "Zaqafqaziya vilayətinin dövlət kəndlilərinin iqtisadi məişətinin öyrənilməsi materialları" («Материалы для изучения экономического быта государственных крестьян Закавказского края», "Zaqafqaziya vilayətinin dövlət kəndlilərinin iqtisadi məişətinin öyrənilməsi materiallarının icmalı" (Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края»), "Tarix və Arxeologiya Cəmiyyətinin Xəbərləri" («Известия Общества истории и археологии») mühüm rol oynamış, Azərbaycanın coğrafiyası, tarixi, etnoqrafiyası, iqtisadiyyatının öyrənilməsi sonrakı tədqiqatlar üçün baza yaratmışdır.[2]

Moskva Universitetində etnoqrafiya fənninin tədrisi 1860-cı ildə başlamışdır, həmin il Moskva Universitetinin Təbiət elmləri, antropologiya və etnoqrafiya Həvəskarları Cəmiyyəti yaradılmışdı. MU-da D.N.Anuçinin rəhbərliyi ilə 1884-cü ildə coğrafiya və etnoqrafiya kafedrası yaradılmış, elə onun sayəsində universitetdə Antropologiya, arxeologiya və etnoqrafiya muzeyi təşkil olunmuşdur. D.N.Anuçinin elmi ideyaları xalqlar haqqında elmin inkişafına mühüm təsir göstərmişdir, öz tədqiqatlarında o, antropologiya, arxeologiya və etnoqrafiya elmlərinin birləşdirilməsi ilə "üçlük" konsepsiyasını əsaslandırmışdır. Bu təlimin çoxsaylı tərəfdarları olmaqla yanaşı, indi də əhəmiyyətini itirməmişdir. D.N.Anuçin xalqlar haqqında elmi, yəni etnologiyanı "ümumi etnologiya və ya ibtidai mədəniyyət tarixi", "xalqların təsnifatı və xalq həyatının müxtəlif aspektləri"nə görə xüsusi etnoqrafiyanı və ya xalqşünaslığı özündə birləşdirən elm sahəsi kimi müəyyənləşdirmişdir.[3] D.N.Anuçin inqilabın ilk illərində yarımçıq qalmış fəaliyyətini 1919-cu ildə bərpa etmiş, əvvəlcə Fizika-riyaziyyat fakültəsinin coğrafiya kafedrasında dərs demiş, 1919-cu ildə Antropologiya kafedrasını yaratmış, etnoqrafiyadan mühazirələr oxumuşdur.

---

[1] Гамлет Темирович Тавадов. **Этнология. Учебник для вузов.** Москва: Проект, 2002, 352 с., с.50.

[2] Тамилла Керимова. **Из истории Национальной Академии наук Азербайджана.** Баку, Издательство «Тахсил», 2005, с.40.

[3] Геннадий Евгеневич Марков, Татьяна Дмитриевна Соловей. Этнографическое образование в Московском Государственном Университете (К 50-летию кафедры этнографии исторического факультета МГУ). **«Этнографическое обозрение»,** 1990, №6, с.79-91

Dünyada yayılmış nəzəriyyələr, elmi məktəblər Çar Rusiyası dövründə bir sıra ictimai-humanitar elm sahələrinin formalaşmasına güclü təsir göstərmişdir. Bu tendensiyanın imperiyanın ucqarlarında, o cümlədən Azərbaycanda hansı şəkildə özünü göstərməsi daha geniş tədqiqatların mövzusu olsa da, qeyd etməliyik ki, xüsusi ilə XIX əsrin ortalarından başlayaraq maarifçilik hərəkatının genişlənməsi, ilk dram əsərlərinin, ilk qəzetin, ilk teatrın yaranması, əsrin sonlarına doğru qəzetlərin sayının artması və s. etnoloji fikrin təşəkkülündə əhəmiyyətli olmuşdur.

***XX əsrin birinci yarısında Azərbaycanda etnologiya elminin təsisatlanması***

Birinci Rus inqilabı, Rus-Yapon müharibəsi, Birinci Dünya müharibəsi, 1917-ci ilin fevral burjua inqilabı, 1917-ci ilin oktyabr çevrilişi, bolşevik-sovet rejiminin qurulması, vətəndaş müharibəsi və s. prosesləri yaşayan Rusiyada, eləcə də yenidən bolşevik istilası ilə üzləmiş müstəmləkələrdə müxtəlif elm sahələrinin inkişafına, təsisatlanmasına mühüm təsir göstərmişdir. İlk növbədə qeyd etmək lazımdır ki, XX əsrin 30-cu illərinədək təkcə təbiət elmlərində deyil, eləcə də ictimai elmlərdə aparıcı olan evolyusionizm etnologiya elminin formalaşmasında öz sözünü demişdir.

Azərbaycan etnologiya elminin formalaşmasına, nəzəri əsaslarının, təsisatlarının yaranmasına Çar Rusiyasının, eləcə də Sovet Rusiyasının (SSRİ) elm mərkəzlərində − Moskvada, Sankt-Peterburqda gedən elmi-ideoloji müzakirələrin, yenidən təsisatlanma, təşkilatlanma prosesinin təsirini nəzərə almaq lazımdır. Təxminən 100 illik Çar Rusiyası dövrü, sonra sovet dövrünün başlaması Azərbaycanın etnologiya elminin nəzəri əsaslarının formalaşmasına, təsisatlanması və təşkilatlanmasına ciddi təsir göstərmişdir.

Oktyabr çevrilişindən sonra Rusiya xalqlarının öyrənilməsi məqsədi ilə yeni elmi müəssisələr təsis edilmişdir, 1918-ci ildə Petroqrad Coğrafiya İnstitutunda etnologiya fakültəsi, 1919-cu ildə Moskva və Petroqradda etnoqrafik mərkəzlər yaradılmışdır. Moskva Dövlət Universitetində ictimai elmlər fakültəsi yenidən təşkil edilmiş, onun əsasında 1925-ci ildə bütün tarix fənlərinin tədris olunduğu etnoloji fakültə ("etnofak") yaradılmışdır.[4]

Hələ 1919-cu ildə Bakı Universitetinin Şərq bölməsinin nəzdində etnoqrafik iş aparılmış, bu məqsədlə ölkəşünaslıq-pedaqoji dərnəyi yaradılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakıda "Şərq arxeologiyasını və tarixini sevənlər" dərnəyi yaradılmış, dekabr ayının 7-də, Azərbaycan parlamentinin fəaliyyətə başlamasının ildönümündə "İstiqlal" adlanan dövlət muzeyi təşkil edilmişdir. Bu muzeyin kolleksiyaları sonralar Azərbaycan Dövlət Muzeyinin kolleksiyalarının əsasını təşkil etmişdir.

Həmin il dekabrın 29-da dərnəyin üzvləri Bakı Universitetinin nəzdində "Müsəlman Şərqini Öyrənən Cəmiyyət"i yaratmışdılar. Cəmiyyət müsəlman Şərqinin, əsasən Azərbaycan, Türkiyə, İran və Türküstanın tarixinin linqvistik, arxeoloji və etnoqrafik baxımdan öyrənilməsinə xüsusi önəm verirdi. Gəncədə də bu cəmiyyətin

[4] Кирилл Василевич Чистов. Из истории советской этнографии 30-80 гг. XX века. К 50-летию Института Этнографии АН СССР. **Советская этнография.** 1987, №3, с.4, с.3-17

filialı açılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan, bolşevik işğalından sonra "Müsəlman Şərqini Öyrənən Cəmiyyət"in fəaliyyəti dayandırılmışdır.[5]

Bakı Universitetinin əsasında 1920-ci ildə Azərbaycan Dövlət Universiteti təşkil edilmişdir. Universitetdə 1922-ci il mart ayının 30-da Şərqşünaslıq fakültəsi (tarix və folklor bölmələri ilə birlikdə 22 kafedra) yaradılmış, "Xəbərlər" jurnalının nəşrinə başlanılmışdır. Lakin Maarif Komissarlığı Şərq xalqlarının qurultayının qərarı ilə 1920-ci ildə yaradılmış Şərqşünaslıq İnstitutunun Bakıda fəaliyyət göstərməsi məqsədəuyğun saymamışdır, institut təcili olaraq Moskvaya köçürülmüşdür. Universitetin fəaliyyəti Azərbaycan, Yaxın və Orta Şərq ölkələrinin tarixini, eləcə də iqtisadi və sosial həyatını, dillərini, ədəbiyyatını, etnoqrafiyasını və dinlərini tədqiq edən şərqşünas mütəxəssislər yetişdirən elmi məktəbin yaranmasına gətirib çıxarmışdır.[6] Universitetin tarix və filologiya fakültəsi 1923-cü il aprelin 19-da ictimai elmlər fakültəsinə (tarix, dil və iqtisadiyyat şöbələri olmaqla) çevrilmişdir.[7]

XX əsrin birinci yarısı üçün xarakterik olan sosial-siyasi proseslər formalaşmaqda olan etnoqrafiya elminin tədqiqat istiqamətlərinin müəyyənləşməsinə mühüm təsir göstərmişdir.[8]

Azərbaycan etnoqrafiya elminin təsisatlanması elmin inkişaf problemlərini üzə çıxarmağa imkan verir, dövrün xüsusiyyətlərindən asılı olaraq elmin inkişaf istiqamətlərini müəyyən edirdi. Belə ki, Bakıda 1920-ci ildə Xalq Maarifi Komissarlığı nəzdindəki dərnəyin bazası əsasında yaradılmış muzey-ekskursiya şöbəsinin, 1923-cü ildə isə Nəriman Nərimanovun təşəbbüsü və Əbdürrəhim bəy Haqverdiyevin sədrliyi ilə yaradılan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin təşkili respublikada tarix, arxeologiya və etnoqrafiya elmlərinin inkişafında xüsusi mərhələ olmuşdur.[9]

Respublikada elmi tədqiqatların aparıldığı əsas və birinci mərkəz olan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin (1923-1929-cü illər) bazasında müxtəlif elm sahələrinə aid bölmələr və komissiyalar yaradılmış, yerli gənc kadrlar yetişdirilmişdir. Cəmiyyət elə ilk dövrlərdən özünü gələcək Elmlər Akademiyasının təməli kimi göstərmişdir. Cəmiyyət elm sahələrinin qorunub-saxlanılması və inkişaf etdirilməsində mühüm rol oynamış, yerli və xarici tədqiqatçıların diqqətini Azərbaycan xalqının elm və mədəniyyətinin müxtəlif sahələri ilə bağlı tədqiqatlar aparılmasına cəlb edə bilmişdi. Dərin və məqsədyönlü iş aparmaq üçün Azərbaycanı

---

[5] Тамилла Керимова. **Из истории Национальной Академии наук Азербайджана**. Баку, Издательство. «Тахсил», 2005, 568 с., с.46.

[6] Тамилла Керимова-Коджаева. **Этапы становления и развития востоковедческой науки в Азербайджанской ССР. История Востока**. Историография, источниковедение, методы исторического исследования. Ориенталистика, https://doi.org/10.31696/2618-7043-2023-6-1-097-1172023 год, vol.6, №1, с.100.

[7] Səbinə İsmayılova. BDU-nun tarix fakültəsinin tarixindən. **Bakı Universitetinin Xəbərləri.** Humanitar Elmlər Seriyası. №3, 2015, s.78-84, s.79.

[8] Sevdagül Əliyeva. **XX əsrin birinci yarısında Azərbaycan etnoqrafiya elminin inkişafı (tarixi-etnoqrafik tədqiqat)**, tar.elm.nam.diss... avtoreferatı. Bakı: 2001, 18 s.

[9] Bəhmən Əliyev. **XX əsrin ikinci yarısında Azərbaycanda etnoqrafiya elminin inkişafı**. Tarix elmləri namizədi dissertasiyası. Bakı, 2007, 188 s., s.9.

Tədqiq və Tətəbbö Cəmiyyətinin tərkibində tarix-etnoqrafiya, iqtisad və təbiət elmləri, daha sonra türkoloji komissiyaları, alt komissiyaları, eləcə də bir sıra bürolar yaradılmışdır. Respublikada tarix, arxeologiya və etnoqrafiyanın öyrənilməsində ilk elmi özək olan cəmiyyətin 1923-cü il noyabrın 9-da yaradılan tarix-etnoqrafiya bölməsinin (sədri Tağı Şahbazi) 204 üzvü vardı. Cəmiyyət intensiv nəşriyyat işi ilə də məşğul idi, 1925-ci ildən "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Xəbərləri" nəşr edilməyə başlamış, az vaxtda özünü respublikada ən mühüm elmi nəşrlərdən biri kimi göstərmişdi.[10]

Bu illərdə etnoqrafik fəaliyyət Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində, 1920-ci ildə yaradılmış Diyarşünaslıq və Pedoqoji dərnəyin əsasında Xalq Maarif Komissarlığı nəzdində təşkil edilmiş muzey-ekskursiya şöbəsində də cəmləşmiş, 1924-cü ildən bu şöbə Azərbaycan Dövlət Muzeyinə çevrilmişdir.[11]

Muzey ekskursiya şöbəsi 1924-cü ildə Azərbaycan Dövlət Muzeyinə çevrilmiş, 1925-ci ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sərəncamına keçirilmişdir.[12] Bakıda 1924-cü ilin sentyabr ayında keçirilmiş Birinci Ümumazərbaycan Diyarşünaslıq qurultayı da tarix, arxeologiya və etnoqrafiyanın inkişafına, diyarşünaslıq hərəkatının inkişafına güclü təkan vermişdir. Cəmiyyət çərçivəsində Azərbaycana yaxın Xarici Şərq ölkələrinin hərtərəfli tədqiqini nəzərdə tutan büronun yaradılması (1928-ci il) onun fəaliyyət sahəsini genişləndirmişdir. Xarici Şərq bürosunun yaradılması Azərbaycanda şərqşünaslıq elminin inkişafında mühüm rol oynamışdır.

Bakıda Birinci Türkoloji qurultayda (26 fevral − 5 mart 1926-cı il) türk xalqlarının əski əlifbadan latın qrafikalı əlifbaya keçməsi, türk xalqlarının tarixi və etnologiyası ilə bağlı qərarlar ictimai-humanitar elmlərin inkişafında pozitiv rol oynamışdır.[13]

Keçmiş SSRİ-də 1920-ci illərin sonu, 1930-cu illərin əvvəllərində "yeni məişət uğrunda", "sovet həyat tərzi uğrunda", "məişətin sosialistləşdirilməsi uğrunda" kimi şüarlar irəli sürüldüyü, kollektivləşmə prosesinin var gücü ilə davam etdiyi bir dövrdə etnologiya elminin nəzəri əsasları, metod və metodologiyası ilə bağlı ciddi müzakirələr gedirdi.

---

[10] Тамилла Керимова-Коджаева. **Этапы становления и развития востоковедческой науки в Азербайджанской ССР. История Востока.** Историография, источниковедение, методы исторического исследования. Ориенталистика, https://doi.org /10.31696 / 2618-7043-2023-6-1-097-1172023 год, vol 6, №1, с.99; Тамилла Керимова. **Из истории Национальной Академии наук Азербайджана**. Баку, Издательство «Тахсил», 2005, с.56.

[11] Гасан Гулиев. Музей истории Азербайджана. **Советская этнография,** 1955, №2, с.131-133; Гулиев Г.А. Этнография Азербайджане за 40 лет. **Советская этнография**. 1961, №4, с.166-170.

[12] Bəhmən Əliyev. **XX əsrin ikinci yarısında Azərbaycanda etnoqrafiya elminin inkişafı.** Tarix elmləri namizədi dissertasiyası. Bakı, 2007.188 s.

[13] Тамилла Керимова. Съезд, объединивший тюркский мир (посвящается 90-летнему юбилею Первого Всесоюзного Тюркологического съезда). **Известия НАН Азербайджана. Серия общественных наук,** 2016, №3, s.20-34, с.26

Moskva Dövlət Universitetində 1925-ci ildə yaradılan Etnologiya fakültəsi etnoqrafiya, ədəbiyyat, təsviri sənət, tarix arxivi şöbələrindən və arxeoloji-etnoqrafik muzeydən (rəhbəri L.İ.Nekrasov), tarix-etnoloji kabinetdən (rəhbəri P.F.Preobrajenski) ibarət idi. Fakültənin vəzifələrinə tarix, arxeologiya, etnoqrafiya, ədəbiyyatşünaslıq və sənətşünaslıq sahələri üçün yüksək ixtisaslı kadrlar, eləcə də praktik yönümlü muzey əməkdaşları, nəşriyyat redaktorları, ədəbiyyat tənqidçiləri, arxiv işçiləri, eləcə də "azsaylı xalqlar üçün mədəniyyət və siyasi təbliğat işçiləri" hazırlayırdı. MDU-nun Etnologiya fakültəsində tədris olunan etnoqrafik fənlərin tarixi mövzularla sıx əlaqəsinə önəm verilməsi müharibədən sonrakı illərdə etnoqrafiya kafedrasının əsas prinsiplərindən birinə çevrildi. Moskva və Leninqrad etnoqraflarının yığıncağının qərarında etnoqrafiyanın "tarixləşdirilməsi" müsbət qiymətləndirilmişdir. Həmin il ilk dəfə olaraq P.F.Preobrajenskinin "Etnologiya" dərsliyi işıq üzü görmüş, burada bir sıra müəllimlərin və elmi işçilərin etnologiyanın "tarixiləşdirilməsinə" dair metodoloji göstərişləri, XX əsrin əvvəllərinin burjua konsepsiyaları ilə marksist ideologiyanın bəzi yanaşmaları ilə eklektik birləşdirilməsi əksini tapmışdır. Öz dövrü baxımından bu dərslik gənc mütəxəssislərin hazırlanmasında müsbət rol oynamış, onda əksini tapan bəzi məsələlər bu gün də əhəmiyyətini itirməmişdir.[14]

Həmin dövrdə etnoqrafiyanın əsas məqsədinin ibtidai insan mədəniyyətinin morfologiyası və dinamikasını öyrənmək olduğu haqqında yanaşmaya rast gəlinirdi. 1920-ci illərin sonları – 1930-cu illərin əvvəllərində aparılan elmi diskussiyalarda bu tendensiya sovet etnoqrafiyasında aparıcı olmuşdur.[15] Ümumrusiya Arxeoloq və etnoqrafların müşavirəsində (7-11 may 1932-ci il) əsas məruzədə bildirilirdi ki, etnoqrafiya yalnız ibtidai icma quruluşunun problemləri ilə məşğul olmalıdır, bu isə faktiki olaraq özünü ləğvetmə demək idi.[16]

Moskvada 1929-cu ildə keçirilmiş etnoqrafik müşavirədə həmin dövrdə "etnoqrafiya" sözü ilə paralel istifadə olunan "etnologiya" sözündən imtina edilmiş, bu elm sahəsini yalnız "etnoqrafiya" adlandırılmasına qərar verilmişdir.[17]

Hələ 1920-ci illərin sonlarına doğru etnologiya fakültəsinin fəaliyyəti sovet partiya rəhbərliyinin narazılığına səbəb olmuş, kifayət qədər marksist yönlü olmadığına görə tənqidlərə məruz qalmışdır. Eyni zamanda fakültə "mədəniyyət cəbhəsi" üçün konkret ixtisaslı kadr, pedaqoq hazırlamamaqda günahlandırılırdı, bu da onun tətbiqi əhəmiyyətini azaldırdı. Hətta Moskva Universitetinin Etnoloji fakültənin bir qrup məzunu 1930-cu ildə rəsmi orqanlara (Xalq Maarif Komissarlığına) müraciət edərək praktiki ixtisaslarının olmadığına görə əlavə dərslər keçil-

---

[14] Геннадий Евгеневич Марков, Татьяна Дмитриевна Соловей. Этнографическое Образование В Московском Государственном Университете (К 50-летию кафедры этнографии исторического факультета МГУ). **Этнографическое обозрение,** 1990, №6, с.81.

[15] Юлиан Владимирович Бромлей, М.В.Крюков. Этнография: Место в системе наук, школы, методы. **Советское этнография.** 1987, №3, с.56, с.45-61.

[16] Кирилл Василевич Чистов. Из истории советской этнографии 30-80 гг. XX века. К 50-летию Института Этнографии АН СССР. **Советское этнография.** 1987 №3, с.4, с.3-17.

[17] Юлиан Владимирович Бромлей, М.В.Крюков. Этнография: Место в системе наук, школы, методы. **Советское этнография.** 1987, №3, с.45-46, с.45-61.

məsini tələb edirlər. Həmin dövrdə universitet tələbələri “burjua professorları”, “trotksizm”, “çürük liberalizm”, “menşevik liberalizmi” ilə mübarizədə təhlükəli qüvvəyə çevrilmişdi. MDU-da 1920-ci illərin sonunda marksist tarixçilər cəmiyyəti fəaliyyət göstərirdi, əsas vəzifələri “etnoqrafiyada marksist metodologiya uğrunda mübarizə” idi.

Nəticədə 1930-cu ilin ortalarında P.F.Preobrajenski həbs edilmiş, həbsxanada faciəli şəkildə həlak olmuşdur, 1931-ci ildə etnologiya fakültəsi fəaliyyətini dayandırmışdır. 1920-1930-cu illərin kəsişməsində tarix elminə ciddi zərbə vurulmuş, universitet təhsili sisteminin yenidən təşkilində etnologiya fakültəsi sıradan çıxarılmış, qısa müddətdə dünya elmi ilə əlaqəsi kəsilmiş, 1920-ci illərdə özünü göstərən nəzəri-metodoloji plüralizm aradan qaldırılmış, sovet ehkamlarının tam hökmranlığı başlamışdır. Etnoqrafiya elmi isə 20-ci illərin sonları − 30-cu illərin birinci yarısında aparılan müzakirələrdən sarsılmış şəkildə çıxmışdır. Etnologiya yalançı burjua elmi elan olunmuşdur, etnoqrafiya “xalqlar haqqında elm” adını almışdır. Bu da etnoqrafiyaya empirik sahə, materiallar toplamaq və təsvir etmək vəzifəsi yerini yetirən sahə kimi baxan xarici elm nümayəndələri ilə təmaslarda anlaşılmazlıqlara səbəb olmuşdur, bu anlaşılmazlıqlar hələ də qalmaqdadır.[18]

Keçmiş SSRİ-də 1930-cu illərin əvvəllərində Moskva Dövlət Universitetində Etnologiya fakültəsinin bağlanması, “Etnologiya kursu” (1929-cu il) dərsliyinin müəllifi Preobrejenskinin həbsi ilə elmin “etnologiya” adlandırmasına son qoyulmuşdur.[19] Preobrajenski hesab edirdi ki, etnologiya insan və onun fəaliyyəti haqqında geniş elm sahəsi olmalıdır, bu da anqlosakson ölkələrində yayılmış fiziki, sosial və mədəni antropologiya anlayışına uyğun idi.[20]

Həmin illərdə bu elm sahəsinə tarix elmi kimi baxılması ənənəsi geniş yayılmışdır. Bu 1930-cu ilin əvvəllərində etnoqrafik tədqiqatları tarixi tədqiqatlar kimi müəyyənləşdirmək cəhdləri ilə əlaqədar idi. Elə həmin dövrdə etnoqrafiyanı “köməkçi tarix elmi” kimi təqdim etmək cəhdləri də ortaya çıxmışdır. Bu yanlış yanaşma hələ 1930-cu illərin sonlarından aradan qaldırıldı, sovet alimləri etnoqrafiyaya “tarix elmindən fərqli tədqiqat predmeti olan elm” kimi baxmağa başladılar.[21]

Etnoqrafiyanın predmeti etnoqrafik müşahidə yolu ilə ibtidai icma quruluşunun qalıqlarının öyrənilməsi hesab edilirdi. Akademik V.V.Struve “Sovet etnoqrafiyası və onun perspektivləri” adlı proqram məqaləsində yazırdı ki, etnoqrafiya ilk növbədə hələ millətə çevrilməmiş ibtidai icma dövrü icmalarını və ya erkən sinfi cəmiyyətləri

---

[18] Геннадий Евгеневич Марков, Татьяна Дмитриевна Соловей. Этнографическое Образование В Московском Государственном Университете (К 50-летию кафедры этнографии исторического факультета МГУ). **Этнографическое обозрение,** 1990, №6, с.81.

[19] Валерий Тишков. Отвечаю на вопросы. **http://www.valerytishkov.** ru/cntnt/main_4. html? cons848 _ page=4

[20] Кирилл Василевич Чистов. Из истории советской этнографии 30-80 гг. XX века. К 50-летию Института Этнографии АН СССР. **Советское этнография**. 1987, №3, с.3, с.3-17.

[21] Юлиан Владимирович Бромлей, М.В.Крюков. Этнография: Место в системе наук, школы, методы. **Советское этнография.** 1987, №3, с.45-46, с.45-61.

öyrənir. 1920-ci illərin sonları 1930-cu illərin əvvəllərində humanitar və ictimai elm sahələrində baş verən konyuktur təzyiq və repressiyalar nəticəsində Moskva Universitetində tarix və etnologiyanın tədrisi bir neçə il dayandırıldı.[22] 1931-ci ilin iyun ayında MDU-nun Tarix və fəlsəfə fakültəsi Moskva Dövlət Universitetinin strukturundan ayrıldı və onun əsasında iki fakültədən – tarix və fəlsəfədən ibarət Tarix və Fəlsəfə İnstitutu yaradıldı. Tarix fakültəsinin strukturuna aşağıdakı kafedralar daxil idi: kapitalizmdən əvvəlki formasiyalar tarixi, Qərb tarixi, Qədim dünya tarixi, Orta əsrlər tarixi, SSRİ xalqları tarixi, Sov.İKP (b) və leninizm tarixi, şərqşünaslıq (1934-cü ildən müstəmləkə ölkələr tarixi), arxeologiya. Göründüyü kimi, etnologiya-etnoqrafiyanın tədris və tədqiqat sahəsi kimi mövcudluğuna rəsmi şəkildə son qoyulmuşdur.

“SSRİ məktəblərində vətən tarixinin tədrisi haqqında” fərmandan (1934-cü il) sonra tarix kafedrası yaradılsa da etnoqrafik təhsilin bərpası bir neçə il sonra mümkün olmuşdur. Yalnız məşhur tarixçi, arxeoloq və etnoqraf S.P.Tolstovun təşəbbüsü ilə 1939-cu ildə MDU-nun Tarix fakültəsində etnoqrafiya kafedrası yaradılmışdır. D.N.Anuçinin davamçısı olan P.Tolstov etnoqrafik, arxeoloji və antropoloji tədqiqatlara əsaslanan kompleks yanaşmaya sadiq qalaraq kafedranın pedaqoji və elmi fəaliyyətini tarixi-etnoqrafik müstəviyə çıxarmışdır. Bu yanaşmanın nəticəsində Moskva Dövlət Universitetində etnoqrafik təhsilin praktiki və ümumi nəzəri problemlərə yönəldilmişdir.[23]

SSRİ-də 1930-cu illərin sonlarında etnoqrafiyanın “tayfaları öyrənməklə məhdudlaşa bilməyəcəyi” haqqında məsələ qaldırılmışdır. Etnoqrafiya qarşısında əsas vəzifə kimi sosializm məişətinin öyrənilməsi, Sovet İttifaqının bütün xalqlarının çiçəklənən mədəniyyətinin tədqiqi” kimi məsələlər qoyulmuşdur. Bu yanaşma müharibədən sonrakı dövrdə inkişaf etdirilmişdir. Həmin dövrdə etnoqrafiya tarix elminin bütün xalqların (təkcə yazısız deyil) mədəniyyətini öyrənən sahəsi kimi qəbul edilir, tədqiqata müxtəlif tarixi dövrlərə aid təbəqələrdəki “milli və etnik spesifikanı” açmaq daxil edilirdi. Bundan sonra etnoqrafiyanın əsas vəzifələrindən biri kimi müasir mədəniyyət və məişətin öyrənilməsi müəyyənləşmişdir. Bunun nəticəsində etnoqraflar arasında müasir mədəni-məişət proseslərini hərtərəfli tədqiq etməyin vacibliyi haqqında təsəvvür möhkəmlənmişdir. Bu da etnoqrafiyanın predmetinin müəyyənləşdirilməsində əksini tapmışdır. Elə indi də etnoqrafiya çox geniş və qeyri-müəyyən sərhədləri olan elm sahəsi kimi qiymətləndirilir.[24]

---

[22] Геннадий Евгеневич Марков, Татьяна Дмитриевна Соловей. Этнографическое Образование В Московском Государственном Университете (К 50-летию кафедры этно графии исторического факультета МГУ). **Этнографическое обозрение,** 1990, №6, с.82-82.

[23] Геннадий Евгеневич Марков, Татьяна Дмитриевна Соловей. Этнографическое Образование В Московском Государственном Университете (К 50-летию кафедры этнографии исторического факультета МГУ). **Этнографическое обозрение,** 1990, №6, с.82-82.

[24] Юлиан Владимирович Бромлей, М.В.Крюков. Этнография: Место в системе наук, школы, методы. **Советское этнография.** 1987 №3, с.56.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin əsasında 1929-cu ildə Azərbaycan Dövlət-Elmi Tədqiqat İnstitutu yaradılmış, onun tərkibində Tarix-etnoqrafiya bölməsi (və ya ölkəşünaslıq), 1931-ci ildən Demoqrafiya, etnologiya və etnoqrafiya bölməsi fəaliyyət göstərmişdir. Elmi araşdırmaların bir hissəsi Azərbaycan Dövlət-Elmi Tədqiqat İnstitutunun xəbərlərində çap olunmuşdur, qalanları isə əlyazmalar, fotoşəkillər, plan və layihələr formasında Dövlət Arxivində saxlanılmışdır. İnstitutun tarix və etnoqrafiya şöbəsi respublikada arxeologiya və etnoqrafiya elminin mərkəzinə çevrilmişdir, həmin şöbəyə A.Divanbəyoğlu rəhbərlik edirdi. XX əsrin 20-30-cu illərində görkəmli elm xadimləri V.V.Bartold, İ.İ.Meşşaninov, N.Y.Marr, B.V.Miller, B.Çobanzadə, Q.Qaraqaşlı, Ə.Ə.Ələkbərov, R.Əfəndiyev, T.Bayraməlibəyov və başqaları etnoqrafiya elminin formalaşmasında xüsusi rol oynamışlar.[25] İnstitut 1932-ci ildə SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Sektorunun tərkibinə daxil edilmişdir. Həmin illərdə Azərbaycan Dövlət Tarix Muzeyi etnoqrafik cəhətdən xeyli zənginləşmiş, burada saxlanılan eksponatların sayı artmış, Azərbaycanda yaşayan xalqların həyatına dair bir sıra tədqiqatlar aparılmışdır.

SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Filialı 1932-ci ildə yaradılandan sonra etnoqrafik tədqiqatlar tarix şöbəsinin (rəhbəri R.Axundov) maddi mədəniyyət bölməsində (rəhbəri Ə.Ələkbərov) mərkəzləşdirilmişdir.

SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialı Azərbaycan Bölməsinin (1932) nəzdində 1935-ci il oktyabr ayının 25-də SSRİ Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarı ilə SSRİ EA Azərbaycan Filialı nəzdində Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu yaradıldı. İnstitutun yaranması təkcə Azərbaycan tarixinin deyil, qonşu ölkələrin tarixinin də öyrənilməsində ciddi addım olmuşdur[26]. Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu 1936-cı il martın 1-dən fəaliyyətə başlamışdır. İnstitutun strukturu 2 şöbədən, 6 sektordan ibarət idi, tarix şöbəsi Tarix, Arxeoqrafiya (tarixşünaslıq) və İqtisadiyyat sektorlarını birləşdirmiş (rəhbəri V.Xuluflu), Maddi mədəniyyət şöbəsinə isə Arxeologiya, Etnoqrafiya və Antropologiya sektorları daxil edilmiş, şöbə müdiri Ə.Ələkbərov təyin edilmişdir.

Elmi təsisatların yaranmasına baxmayaraq, 1937-1940-cı illər Azərbaycan etnoqrafiya elmində durğunluq dövrü idi. Siyasi repressiyalar, İkinci Dünya müharibəsi Azərbaycan etnoqrafiyasına böyük zərbə vurdu. Həmin illərdə alimlər repressiyalara məruz qalmış, elmi araşdırmalar yarıda saxlanmış, etnoqrafik ekspedisiyaların təşkili mümkün olmamışdır.[27] Azərbaycan Dövlət Muzeyi 1935-ci ildə Azərbaycan Mədəniyyət və İncəsənət Tarixi muzeyinə çevrilmiş, Xalq Maarif Komissarlığı nəzdindən çıxarılmışdır.

1937-ci ilin mayında Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu ilə Dil və Ədəbiyyat İnstitutları birləşdirilmiş, bu elmi müəssisənin tərkibində 5 şöbə – maddi mədəniyyət tarixi, tarix, Azərbaycan ədəbiyyatı, Azərbaycan dili, Azərbaycan SSR

---

[25] Bəhmən Əliyev. **XX əsrin ikinci yarısında Azərbaycanda etnoqrafiya elminin inkişafı.** Tarix elmləri namizədi dissertasiyası. Bakı, 2007, s.10.

[26] Тамилла Керимова. **Из истории Национальной Академии наук Азербайджана**. Баку, Издательство «Тахсил», 2005, с.77.

[27] Bəhmən Əliyev. **XX əsrin ikinci yarısında Azərbaycanda etnoqrafiya elminin inkişafı**. Tarix elmləri namizədi dissertasiyası. Bakı, 2007, s.7-9.

azsaylı xalqlarının dilləri, eləcə də etnoqrafiya və folklor şöbələri, Azərbaycan Tarixi Muzeyi fəaliyyət göstərmişdir. Bir il keçməmiş iki müstəqil institut − Nizami adına Dil və Ədəbiyyat İnstitutu, Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu (tərkibində Azərbaycan Tarixi Muzeyi olmaqla) yaradılmışdır.[28]

SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının tərkibindəki Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu 1940-cı ildə yenidən təşkil edilmiş, 1944-cü ildə isə ayrıca Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu yaradılmışdır. 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası təşkil olunarkən Tarix İnstitutu müstəqil elmi müəssisə kimi onun tərkibinə daxil edilmişdir. 1951-ci ildə institutlar birləşdirilərək Azərbaycan Elmlər Akademiyası Tarix və Fəlsəfə İnstitutu yaradılmış və 1956-cı ildə Azərbaycan EA Rəyasət Heyəti yanında Fəlsəfə Sektoru yaradılandan sonra Tarix İnstitutu əvvəlki adı ilə müstəqil fəaliyyət göstərməyə başlamışdır.

Etnoqrafiya elmində 1940-cı illərin sonu, 1950-ci illərin əvvəllərində müəyyən canlanma hiss olunmağa, milli kadrlar hazırlanmağa, etnoqrafiyada problemlər üzrə ixtisaslaşma aparılmağa başlanılmışdır. Bu dövrdə etnoqrafik fəaliyyət A.A.Bakıxanov adına Tarix İnstitutunun maddi mədəniyyət şöbəsində (müdiri İsaq Cəfərzadə), Azərbaycan Tarixi Muzeyində, Azərbaycan SSR Elmlər Akademiyasının Kirovabad (indiki Gəncə) elmi-tədqiqat bazasında cəmləşmişdir. 1945-ci ildə Gəncədə Azərbaycan SSR EA-nın elmi bazası (rəhbəri Q.Qaraqaşlı) təşkil olunmuşdur. Azərbaycan Tarixi Muzeyi nəzdində 1954-cü ildə etnoqrafiya şöbəsi (rəhbəri Həsən Quliyev) yaradılmış, sonralar bu şöbə Tarix İnstitutuna köçürülmüşdür.[29]

Tədqiq və Tətöbbə Cəmiyyətinin türkoloji və tarixi etnoqrafik şöbəsində çalışmış, Rusiya Sosial Elmlər Tədqiqat İnstitutları Assosiasiyasına (РАНИОН) müraciət əsasında Peterburq SSRİ Milli və Etnik Mədəniyyətlər İnstitutunda, daha sonra SSRİ EA-nın Leninqraddakı Şərqşünaslıq İnstitutunda təhsil almış Qəhrəman Qaraqaşlı 1929-cu ildən Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun tarix-etnoqrafiya bölməsinin elmi katibi işləmişdir.[30] Elə həmin il həbs edilmiş, 8 illik siyasi məhbus həyatından sonra Azərbaycan SSR EA Gəncə (Kirovabad) Elmi-Tədqiqat Bazasında elmi katib, etnoqrafiya şöbəsinin rəhbəri (1944-1947-ci il), Bakıya qayıtdıqdan sonra (1957-1972-ci il) Azərbaycan SSR EA Tarix İnstitutunda etnoqrafiya şöbəsinin baş elmi işçisi kimi fəaliyyət göstərmişdir.

1937-ci ildə repressiyaya məruz qalmış SSRİ EA Azərbaycan Filialının Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi, Maddi-mədəniyyət tarixi şöbəsinin rəhbəri Ələkbər Ələkbərovun əsərlərinin yalnız 1960-cı ildə kitab halında işıq üzü görməsi, 1946-cı ildə "Quba şəhərinin toy adətləri" adlı kitabı nəşr olunan Rəxşəndə Babayevanın şəxsən Mir Cəfər Bağırovun istehzası ilə üzləşməsi sadaladığımız proseslərin məntiqi nəticəsi idi. Çox təəssüf ki, XX əsrin ikinci yarısında

---

[28] Тамилла Керимова. **Из истории Национальной Академии наук Азербайджана.** Баку, Издательство «Тахсил», 2005, с.192.

[29] Исак Джафарзаде. Этнографическая работа в Азербайджанской ССР. **Советкое этнография,** 1946, №2, с.216; Исак Джафарзаде. Этнографическая работа в Азербайджанской ССР за 1940-1947 годы. **Известия АН Азерб. ССР**, 1948, №7, с.54-61.

[30] Тамилла Керимова. **Из истории Национальной Академии наук Азербайджана.** Баку, Издательство «Тахсил», 2005, с.411.

ailə-nikah məsələlərinin etnoqrafik baxımdan öyrənilməsinin ilk təcrübəsi birbaşa Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin rəhbəri Mircəfər Bağırovun tənqidi və təzyiqi ilə üzləşmişdir. R.Babayevanın Qubanın ailə-nikah məsələləriylə bağlı əsəri şəxsən Mircəfər Bağırovun hücumuna məruz qalmışdır. Bu əsərə istehza ilə yanaşılması Kommunist Partiyasının etnoqrafik tədqiqatlara yanaşmasının ən bariz nümunəsi idi.[31] "Acınacaqlı odur ki, "qeyri-aktual elmi-tədqiqat işlərinin ixtisarı", Azərbaycan SSR EA Rəyasət Heyətinin 1950-ci il 19 iyul tarixli qərarına uyğun olaraq institutun illik smetasının ixtisarı ilə əlaqədar etnoqraflar İzzət Məcidova, Dostuxanım Səfərova, Rəxşəndə Babayeva işdən çıxarılmışlar.[32]

1950-ci illərdən sovet etnoqrafiyasının ümumi marksist-leninçi metodologiyaya əsaslanan nəzəriyyəsinin hazırlanmasına böyük ehtiyac duyulurdu. Bu vəziyyəti nəzərə alan ölkə rəhbərliyi SSRİ Etnoqrafiya və Antropologiya İnstitutunu, eləcə də bütün etnoqrafik institutlarının qarşısında Sovet İttifaqı xalqlarının məişət və mədəniyyətində baş verən müasir prosesləri tədqiq etmək vəzifəsi qoymuşdur.[33]

***XX əsrin ikinci yarısında Azərbaycanda etnologiya elminin vəziyyəti***

Azərbaycan SSR-də 1923-1950-ci illərdə kifayət qədər etnoqrafik material toplansa da, 1953-cü ildə ilk azərbaycanlı etnoqraf ixtisaslı kadrlarının yetişməsi ilə Azərbaycan etnoqrafiyasının inkişafı yeni məzmun almışdı. Eyni zamanda, SSRİ-də ötən əsrin 50-ci illərindən stalinizmin fəsadlarının aradan qaldırılmasından sonra cəmiyyətdə baş verən "yumşalma"nın elm sahələrinə, xüsusilə etnoqrafiya elminə pozitiv təsirini də qeyd etmək lazımdır.

Azərbaycan etnoqrafiyasının inkişafı tarixində iki mühüm mərhələ xüsusi ilə diqqəti cəlb edir. 1953-cü ildə Həsən Quliyevin kolxozçu kəndlilərin sosialist məişəti və mədəniyyətinə dair, M.Atakişiyevanın ailə məişətinə dair tədqiqat işlərini başa çatdıraraq alimlik dərəcəsi adını alması Azərbaycan etnoqrafiyasının keyfiyyət cəhətdən inkişafının yeni mərhələsi idi. 1954-cü ildə N.N.Mikluxo-Maklay adına SSRİ EA Etnoqrafiya İnstitutunun elmi işçisi V.P.Kobıçev XIX əsrdə Azərbaycan xalq yaşayış evlərinin, 1959-cu ildə Məmməd Nəsirli Naxçıvan MSSR əhalisinin yaşayış məskənləri və yaşayış evlərinin tədqiqini başa çatdırıb alimlik dərəcəsinə layiq görülmüşlər.[34]

Azərbaycan SSR EA Rəyasət Heyətinin 1958-ci il 21 fevral tarixli qərarına əsasən martın 1-də Tarix İnstitutunda "Etnoqrafiya şöbəsi" yaradılmışdır. Azərbaycan Tarixi Muzeyinin "Etnoqrafiya şöbəsi" və onun elmi işçiləri − şöbə rəhbəri, tarix elmləri namizədi Həsən Quliyev, böyük elmi işçilər, tarix elmləri namizədləri Maya Atakişiyeva, Teymur Bünyadov, kiçik elmi işçi Qəhrəman Qaraqaşlı və laborant Xavər Nurullayeva, aspirantlar Sabuhə Vahidova və Ətiqə İzmayılova Tarix

---

[31] Rəxşəndə Babayeva. **Qubanın toy adətləri** (Tərt. və ön sözün müəllifi T.Kərimova-Kocayeva). Bakı, "Elm və təhsil", 2022, s.31.

[32] Тамилла Керимова. **Из истории Национальной Академии наук Азербайджана.** Издательство «Тахсил», Баку, 2005, 568 с.

[33] **Этнология.** под ред. Татьяна Алексеевна Титовой. Казань, Изд-во Казан. ун-та, 2017. с.166.

[34] Həvil Həvilov. **Azərbaycan etnoqrafiyası**. Bakı, "Elm", 1991, s.5-22.

İnstitutuna köçürülmüş,[35] Teymur Bünyadov 1967-ci ildə "Etnoqrafiya şöbəsi"nin müdiri təyin edilmişdir.

Etnoqraflar Şahpələng Quliyev və İ.Hacıyev 1965-ci ildə dissertasiyalar müdafiə etmişlər. 1968-ci il Azərbaycan etnoqrafiyası tarixində keyfiyyət dönüşü ili idi. Həmin ildə ilk dəfə olaraq Teymur Bünyadov elmlər doktoru adını almış, 1970-ci ildə isə Q.Qaraqaşlının yetirmələri olan Arif Mustafayev və Həvil Həvilov alimlik dərəcəsinə layiq görülmüşlər.[36]

Bütövlükdə isə, sovet dövründə etnoqrafiya elminin inkişafı ona olan siyasi münasibətdən asılı idi. "Əsrimizin (XX əsr) 60-80-cı illərində "inkişaf etmiş sosializm cəmiyyəti" və "kommunizm quruculuğu" dövründə keçmiş SSRİ-də milli münasibətlər sahəsində siyasətin əsas istiqamətləri xalqların "konsolidasiyası" və "inteqrasiyasına" yönəldilmişdi. Bu isə "xalqların tarixi birliyi − sovet xalqının" formalaşması üçün zəmin yaratmalı idi. Ötən əsrin 60-cı illərindən başlayaraq etnoqrafiya elmi sahəsində aparılan siyasət müəyyən mənada 20-30-cu illərdə aparılan siyasətin modernləşmiş davamı və bəzi hallarda isə təkrarı idi. "Müasir sovet məişətinin", "yeni mülki adət və ənənələrin formalaşması və onların həyata tətbiqi", "müasir etnik və mədəni məişət prosesləri" etnoqrafiyanın "qlobal" problemləri kimi əldə rəhbər tutulmuşdu. Nəticədə keçmiş SSRİ məkanında bütün xalqlar haqqında etnoqrafiya elmindən uzaq, stereotip, şablon xarakterli əsərlər yazılırdı. Bu proses Azərbaycan elmindən də yan ötmədi. Çünki bütün aparıcı problemlər mərkəzlə bağlı idi".[37]

Azərbaycan etnoqrafiya elminin inkişafı baxımından 1964-cü ilədək geniş ekspedisiya fəaliyyətinə başlanmış, müxtəlif rayonlardan toplanan etnoqrafik materiallar əsasında Azərbaycan xalqlarının maddi və mənəvi mədəniyyətinə aid əsərlər yazılmışdır. Azərbaycan SSRİ EA Tarix İnstitutunda etnoqrafiya şöbəsinin yaradılması ikinci dövrün ikinci mərhələsinin başlanğıcı sayılmış və şöbənin fəaliyyəti ilə Azərbaycan xalqlarının öyrənilməsi prosesinin daha da dərinləşdiyini vurğulamışdı. Bu mərhələnin xarakterik əlaməti etnoqraf kadrların sayının artması, mövzuların genişlənməsi, müasir dövrün etnoqrafik problemlərinə marağın artması, azərbaycanlı etnoqrafların tədqiqatlarının ittifaq və beynəlxalq nəşrlərdə görünməsidir.[38]

1960-1966-cı illərdə Azərbaycan etnoqrafiya elmində diqqətəlayiq uğurlar əldə edilmiş, bu dövrdə xeyli etnoqraf kadrlar yetişmiş, etnoqrafik məcmuələr və məqalə topluları çıxmışdır. 1964-cü il təkcə Azərbaycanda deyil, həm də keçmiş SSRİ-də etnoqrafiya elminin tarixində əlamətdar il olmuşdur. Həmin il Moskvada VII Beynəlxalq antropoloji və etnoqrafik elmlər konqresi keçirilmiş, dünyanın 50-dən artıq ölkəsindən nümayəndələr, o cümlədən, Azərbaycandan Teymur Bünyadov və Yəhya Rüstəmov çıxış etmişlər, "Azərbaycan etnoqrafik məcmuəsi"nin birinci

---

[35] Тамилла Керимова. **Из истории Национальной Академии наук Азербайджана.** Баку, Издательство «Тахсил», 2005, 568 с.

[36] Həvil Həvilov. **Azərbaycan etnoqrafiyası.** Bakı, "Elm", 1991, s.5-22.

[37] Emil Kərimov. Azərbaycan etnoqrafiyası XX I əsrin astanasında. **"Azərbaycan" qəzeti,** 2000, 17 yanvar, s.82.

[38] Кахраман Каракашлы. Основные итоги и перспективы этнографического изучение Азербайджана. **Материалы к сессии посвященном итогам археологических и этнографических исследований**, 1964 г. в ССР. Тез. докл. Баку, 1965, с.176-177.

buraxılışı işıq üzü görmüşdür. 1965-ci ilin aprel ayında isə Bakıda Arxeoloq və Etnoqrafların ümumittifaq elmi sessiyası keçirilmişdir. Həmin dövrdə Azərbaycan SSR EA Tarix İnstitutunun etnoqrafiya şöbəsindəki 18 elmi işçı Azərbaycanın tarixi-etnoqrafik atlasını hazırlamaqla məşğul olmuşdur. 1967-ci ildə Azərbaycan Tarix Muzeyində etnoqrafiya şöbəsinin təşkili xüsusi əhəmiyyət daşımışdır.[39] 1966-cı ildə ikinci, 1977-ci ildə üçüncü, 1981-ci ildə dördüncü cild "Azərbaycan etnoqrafik məcmuəsi"nin nəşri xüsusi əhəmiyyət daşıyırdı.[40] Tarix İnstitutunun "Arxeologiya və etnoqrafiya" şöbəsinin əməkdaşları 1969-cu ildə Lvovda, 1970-ci ildə Moskvada arxeoloji və etnoqrafik tədqiqatların nəticələrinə həsr olunmuş Ümumittifaq elmi konfranslarda iştirak etmişdilər.

XX əsrin ikinci yarısında Azərbaycan etnoqrafiya elminin inkişaf tarixini izləməyə çalışan müəlliflərin əksəriyyəti mövcud faktları sadalamaqla və nəşr olunan əsərləri etnoqrafiya elminin tarixşünaslığına yeni töhfələr kimi dəyərləndirməklə kifayətlənmiş, keçmiş sovet ideologiyasının təsiri altında olan sovet etnoqrafiyasında, eləcə də onun tərkib hissəsi olan Azərbaycan sovet etnoqrafiyası elmində mövcud olan volyuntarizm, "mərkəzin diktəsinə uyğunlaşma" prinsiplərin rolunu düzgün qiymətləndirməmişlər.

Azərbaycan etnoqrafiya elmi 1950-1960-cı illərdə inkişaf yoluna çıxsa da, əsas irəliləyiş Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə baş vermişdir. Həmin dövrdə etnoqrafiya elminin təsisatlanması, tədqiqatların elm mərkəzlərində cəmləşdirilməsi və istiqamətləndirilməsi inkişafa təkan vermişdir.

Ümummilli lider Heydər Əliyevin birinci və ikinci rəhbərlik dövründə Azərbaycan etnoqrafiya elminin təsisatlanmasını bir neçə mərhələyə bölmək mümkündür. Hər dövr özünəməxsus siyasi-sosial tələblərdən doğmuş, Azərbaycan elminin gələcək inkişafı üçün böyük əsaslar yaratmışdır.

Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda 1974-cü ildə Arxeologiya və etnoqrafiya sektoru yaradılmış, 1976-cı ildə isə Azərbaycan Dövlət Universitetində "Arxeologiya və etnoqrafiya" kafedrası fəaliyyətə başlamışdır.[41]

SSRİ şəraitində Azərbaycan elminin bu şəkildə təsisatlanmasına, arxeologiya və etnoqrafiya elmlərinin həm elmi, həm də tədris müstəvisində yerinin möhkəmləndirilməsinə nail olmaq heç də asan məsələ deyildi. Uzaqgörənliklə atılan bu addımlar, yəni Arxeologiya və Etnoqrafiya sektorunun, ADU-da arxeologiya və etnoqrafiya kafedrasının yaradılması bir-biri ilə sıx bağlı olmaqla, təhsil və elm vəhdətini təmin edirdi. Başqa ali məktəblərdə də arxeologiya və etnoqrafiya kafedralarının yaradılması bu elm sahələrinin kadr potensialını gücləndirmiş, bu da öz növbəsində arxeologiya və etnoqrafiya fənlərinin tədrisinin keyfiyyətini yüksəltmiş, kadrların sayını artırmış, elmi-tədqiqat istiqamət və mövzularını genişləndirmişdir. Etnoqrafiya elminin təsisatlanmasında qeyd etdiyimiz addımlar 1969-cu ildən

[39] Teymur Bünyadov. Azərbaycan etnoqrafiyası 50 ildə. **Azərbaycan SSR EA Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası,** 1967, №3-4, s.131-141.

[40] Teymur Bünyadov. **Azərbaycanda etnoqrafiya elminin inkişafı** (təsərrüfat məişəti). **AEM,** V buraxılış. Bakı, "Elm", 1985, s.5-17.

[41] Bəhmən Əliyev. **XX əsrin ikinci yarısında Azərbaycanda etnoqrafiya elminin inkişafı**. Tarix elmləri namizədi dissertasiyası. – Bakı, 2007. – 188 s., s.21.

Azərbaycan xalqının milli oyanışının yüksəlməsi, milli özünüdərkin artması ilə bağlı idi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış Bakı Dövlət Universitetinin 50 illik yubileyinin təntənəli şəkildə keçirilməsi, Azərbaycan KP MK Birinci katibi Heydər Əliyevin yubiley komissiyasına rəhbərliyi öz üzərinə götürməsi respublikamızın həyatını canlandırmaqla yanaşı, elm və təhsilə yeni baxışı ortaya qoymuşdur.

ADU-nun (indiki Bakı Dövlət Universiteti) 50 illik yubileyində Azərbaycan KP MK birinci katibinin doğma dilimizdə çıxış etməsi cəmiyyətdə böyük əks-səda yaratmışdı. Həmin illərdə Azərbaycan dili dövlət əhəmiyyətli tədbirlərə yol açmış, xeyli fasilədən sonra ali kürsü dili səviyyəsinə qalxmışdır. Ulu öndərin ana dilimizin qorunması, işlək dilə çevrilməsi istiqamətində fəaliyyəti düşünülmüş siyasətə xidmət edirdi.[42] Ümummilli lider Heydər Əliyev 1971-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) 50 illik yubileyi münasibətilə keçirilən yığıncaqda təhsil, elm məsələlərinə diqqət ayırmış, Azərbaycan dilinin, tarixinin tədrisinə diqqət yetirmiş, yeni məzmunlu dərsliklərin, proqramların nəşrinin vacibliyini vurğulamışdır.

Etnoqrafiya elminin XX əsrin 70-ci illərindən başlayaraq inkişafı, tədqiqat istiqamət və mövzularının çoxalması, xüsusilə də elmi kadrların sayca artması ümummilli liderin hakimiyyətinin ilk illərindən başlayaraq atdığı addımların, başlatdığı milli oyanışın nəticəsi idi. Həmin illərdə etnoqrafiya elminin ali məktəb və elmi-tədqiqat institutu səviyyəsində vəhdətinin qurulması elmi araşdırmaların sistemli və məqsədyönlü təşkilinə zəmin hazırlamışdır.

Ümummilli lider Heydər Əliyevin rəhbərlik illərində siyasi, iqtisadi, sosial tərəqqi əldə olunmuş, eləcə də xalqımızın maddi və mənəvi həyatı, elmi, o cümlədən tarix, arxeologiya və etnoqrafiya elmləri inkişaf etmişdir. Azərbaycan SSR Konstitusiyasında (1978-ci il) ana dilimizin dövlət dili kimi əksini tapması cəmiyyətdə milli düşüncənin inkişafına mühüm təsir göstərmişdir. Bu dövrdə baş verən hadisələr, qəbul edilmiş milli mahiyyətli qərarlar Azərbaycanın sosial-mədəni, eləcə də elmi həyatında mühüm mərhələnin başlanğıcını qoymuş, bir sıra elm sahələri ilə yanaşı, etnoqrafiya elminin inkişafında təkanverici mərhələ funksiyasını yerinə yetirmişdir.

1981-ci il oktyabrın 4-də Azərbaycan KP MK və respublika Nazirlər Sovetinin "Azərbaycan SSR-də şəhərsalma, arxitektura və arxeologiya abidələrinin mühafizəsini, bərpasını və onlardan istifadə olunmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərarının qəbulundan sonra Azərbaycanda qədim tarix və mədəniyyət abidələrinin mühafizəsi işi daha da gücləndirilmişdir. İçəri şəhər, Ordubad və Şuşa şəhərlərinin tarixən formalaşmış özək qismi tarix-memarlıq qoruqları elan edilmiş, Lahıc kəndi, qədim Qəbələ şəhər yeri tarixi mədəniyyət qoruqlarına çevrilmişdir.[43]

Qəbələ rayonu ərazisində yerləşən radiolokasiya stansiyasına (RLS) Mingəçevir SES-dən çəkilən yüksək gərginlikli xətlə bağlı proseslər, qədim Qəbələ qalasının

---

[42] Zülfiyyə İsmayıl. Ana dilimizə qayğı: keçmişə ehtiram, gələcəyə təminat. **"525-ci qəzet"**, 2023, 23 fevral, s.4.

[43] Arif Abbasov. Azərbaycan arxeologiya və etnoqrafiya elmlərinə dövlət qayğısı. – **Tarix və onun problemləri,** 2003, №1, s.95-96.

bürclərinin xilas edilməsi Azərbaycan tarixi, arxeologiyası, etnoqrafiyası, maddi və mənəvi mədəniyyətinə verilən yüksək qiymətin bariz nümunəsi idi. Heydər Əliyevin Qala qapılarının, bürclərin dağılmasına imkan verməməsi, bu prosesin siyasi, hüquqi və mənəvi tərəfləri gələcək elmi tədqiqatların aparılmasına şərait yaratmışdır. Azərbaycan KP MK Bürosunda 1978-ci il yanvarın 17-də abidənin dağıdılmasında məsuliyyət daşıyanlar haqqında sərt qərarlar çıxarılmışdır. "Ulu öndər Heydər Əliyevin göstərişi və təşəbbüsü ilə 1978-ci il martın 2-də Azərbaycan SSR Nazirlər Soveti Qəbələ Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında qərar vermiş, Azərbaycan SSR Ali Sovetinin səkkizinci sessiyasında "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında" qanun layihəsi geniş müzakirə edilmiş, qanun 1978-ci il iyulun 21-də qəbul olunmuşdur. Sənəddə qanunvericiliyi pozmağa görə məsuliyyət nəzərdə tutulurdu. Azərbaycan SSR Ali Soveti 25 iyul 1978-ci il iyulun 25-də "Təbiətin mühafizəsi vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etmişdir. Həmin il dekabrın 16-da Azərbaycan SSR Meşə Məcəlləsi qəbul olunmuşdur. Göstərilən bütün sənədlər məqsədyönlü və mədəniyyətin inkişafı, tarixi abidələrin qorunması sahəsində gələcəyə yönəlmiş siyasətinin mühüm tərkib hissəsi idi".[44]

Heydər Əliyevin rəhbərliyi altında respublikada aparılan mədəni, təşkilati, elmi işlər özünü konkret məsələlərdə göstərirdi. Xalqımızın maddi və mənəvi mədəniyyətinə, tarixi keçmişinə, etnoqrafiyasına qayğıkeş münasibət milli-mənəvi dəyərlər sistemini zənginləşdirmiş, təkmilləşdirmiş, nəticə etibarı ilə yeni məzmunlu milli-humanitar istiqamət formalaşmışdır. Doğrudur, sovet dövrünün siyasi reallıqları bu prosesə ciddi əngəl olsa da "Kitabi-Dədə Qorqud" dastanları, Novruz bayramı, memarlıq, xalçaçılıq, xalq musiqisi və s. ilə bağlı qərarlar, tədbirlər, monoqrafiyaların nəşri, elmi jurnal və məcmuələrin çapı, bədii və sənədli filmlərin çəkilməsi Azərbaycanın sosial-mədəni-elmi həyatına ciddi təsir göstərmiş, özü ilə rəngarənglik gətirmişdir.

Vaxtilə yasaqlara məruz qalmış Novruz bayramının Azərbaycanda hər il dövlət səviyyəli mədəni tədbir kimi keçirilməsi də ulu öndərimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti ilə sıx şəkildə bağlıdır. 1979-cu ildə İçərişəhərdə keçirilən Novruz şənlikləri onun göstərişi əsasında Azərbaycan televiziyası ilə birbaşa translyasiya edilmişdir. Bu, həmin dövr üçün böyük cəsarət tələb edən bir hərəkət idi. Şübhəsiz ki, belə bir addımın atılmasında böyük öndər Heydər Əliyev şəxsiyyəti mühüm rol oynamışdı.[45]

Arxeologiya və Etnoqrafiya sektorunda hər il namizədlik və doktorluq dissertasiyaları müdafiə olunmuş, arxeoloq və etnoqrafların yeni nəsli yetişmiş, 1985-ci ildə Bakıda arxeoloqların Ümumittifaq konfransı keçirilmişdir.[46]

---

[44] Teymur Bünyadov, Bəhmən Əliyev. Heydər Əliyev və Qədim Qəbələ. **"Azərbaycan" qəzeti,** 2011-ci il, 11 dekabr, s.6.

[45] Musa Qasımlı. Heydər Əliyev və Azərbaycan folkloru. "**Ozan dünyası" jurnalı,** 2010, №2, s.3-19.

[46] Arif Abbasov. **Heydər Əliyev və Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin inkişafı. Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq.** Bakı, "Elm", 2003, s.194.

1970-1980-ci illərdə Azərbaycanda formalaşmış qaynar elmi mühit, Azərbaycan tarixinə, etnoqrafiyasına dair aparılmış tədqiqatlar əcnəbi səyyahların da marağına səbəb olmuşdur. Məşhur səyyah Tur Heyerdal bir neçə dəfə Azərbaycana səfər edərək Qobustanda qayaüstü qayıq təsvirlərini araşdırmış, Qafqaz və Skandinaviya arasındakı qədim əlaqələrə yönəldilmiş layihələr üzərində işləmişdir.[47]

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər və 1993-2003-cü illərdə Azərbaycanın sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində olduğu kimi, elmin inkişafında da bir sıra böyük və mühüm tədbirlərin ilk təşəbbüsçüsü, eləcə də rəhbəri olmuşdur. Millətimizin tarixinin, maddi və mənəvi mədəniyyətinin öyrənilməsinə, arxeoloji və etnoqrafik tədqiqatlara xüsusi diqqət yetirən ulu öndər Heydər Əliyevin hakimiyyətinin ikinci dönəmində Azərbaycan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu yaradılmışdır.[48]

### *Azərbaycan etnologiya elmi XX əsrin sonu – XXI əsrin əvvəllərində*

Azərbaycan Respublikası Nazirlər Kabineti 1993-cü il iyulun 8-də Tarix İnstitutu Arxeologiya və etnoqrafiya sektorunun genişləndirilərək ayrıca instituta çevrilməsi haqqında 366 saylı qərar vermişdir. 1996-cı ildən Azərbaycan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunda "etnoqrafiya və etnologiya" ixtisası üzrə aspiranturaya qəbul aparılmışdır.

Azərbaycan etnoqrafiya elminin təsisatlanması bu elmin inkişafına mühüm təsir göstərmişdir. Müxtəlif təşkilatların yaranması etnoqrafiya elminin istiqamətlərinin müəyyənləşməsinə, etnoqrafik tədqiqatların əhatə dairəsinin genişlənməsinə səbəb olmuşdur. Ümumiyyətlə, yerli və beynəlxalq səviyyəli konfranslarda Azərbaycan etnoqraflarının iştirakı milli etnoqrafiyanın inkişafına mühüm təsir göstərirdi. Elmi sessiyalar, konfranslar etnoqrafiyanın inkişafını istiqamətləndirir, digər ölkələrdəki elmi təcrübənin mənimsənilməsinə yardım edir, elmi müzakirələrin intensivləşməsinə gətirib çıxarırdı.[49,50,51] Oxşar təsisatlanma keçmiş sovet məkanında da baş vermişdir. Məsələn, 1991-ci ildə avqust ayının 28-də Qazaxıstanda Ç.Ç.Vəlixanov adına Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun Arxeologiya mərkəzinin əsasında A.X.Marqulan adına Arxeologiya İnstitutu yaradılmış, 1993-cü ilin fevral ayında isə Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu Qazaxıstan

---

[47] Azərbaycan Elmlər Akademiyasında görüş. "**Elm" qəzeti,** 2000, 15 sentyabr, s.3;

[48] Bəhmən Əliyev. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan etnoqrafiya elminin inkişafı. **AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Heydər Əliyev-100: Arxeologiya, Etnoqrafiya və Antropologiya elmlərinin prioritet məsələləri" adlı Respublika konfransı.** 2023-cü il may, s.38-41.

[49] Şahpələng Quliyev, Rəşid Göyüşov. Etnoqraf və arxeoloqların ümumittifaq elmi sessiyası. **Azərbaycan SSR EA Xəbərləri, İctimai elmlər seriyası,** 1964, №2, s.133-134.

[50] Arif Mustafayev. Arxeoloq və etnoqrafların Şamaxı konfransı. **Azərbaycan SSR EA Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası,** 1974, №4, s.27.

[51] Ариф Мустафаев, Роза Аразова. Сессия археологов и этнографов Азербайджана. **Советское археология,** 1976, №3, с.354-355.

Ç.Ç.Vəlixanov adına Tarix və Etnologiya İnstitutu, müvafiq şöbə isə "etnologiya" şöbəsi adlandırılmışdır.[52]

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli sərəncamına əsasən, AMEA Naxçıvan Bölməsi yaradılmış,[53] bölmənin altı elmi-tədqiqat müəssisəsi, o cümlədən Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu formalaşdırılmışdır. Bu addım yeni dövrdə Azərbaycan tarix və etnologiya elminin təsisatlanmasında mühüm addımlardan idi.

1990-cı illərdə ölkəmizin yaşadığı bütün siyasi və iqtisadi çətinliklərə baxmayaraq Heydər Əliyev ulu keçmişin yadigarları olan tarixi-arxeoloji abidələrimizin qayğısına qalmağı unutmamışdır. Onun rəhbərliyi ilə hazırlanmış və qəbul edilmiş "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" 1998-ci il 10 aprel tarixli və "Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə" 20 oktyabr 1999-cu il tarixli qanunlar qəbul edilmişdir.[54]

Hər bir elm sahəsinin, o cümlədən etnoqrafiya elminin inkişafına bir çox amillər öz təsirini göstərmişdir. Bu amillər sırasına elmin təsisatlanmasını, yəni müvafiq elmi idarələrin yaranmasını, etnoqrafik istiqamətlərin müəyyən olunmasını, elmi metod və üsullarının formalaşmasını, etnoqrafik kadrların hazırlanmasını, etnoqrafik ekspedisiyaların təşkilini, elmi konfransların keçirilməsi və həmin elmi tədbirlərdə etnoqrafların iştirakı və s. aid etmək olar. İlk növbədə elm sahəsinin təsisatlanması, fəaliyyəti, qarşıya qoyulan məqsəd və vəzifələrin yerinə yetirilməsi, elmi istiqamətlərin müəyyənləşməsi, elmi tədqiqatların genişlənməsinə xidmət edən təşkilati işlər elmin sonrakı inkişafında həlledici rol oynayır.

Azərbaycanda etnoqrafik tədqiqatlar 1993-2023-cü illərdə əsasən AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunda cəmlənmiş, "Tarixi etnoqrafiya", "Müasir etnoqrafiya", "Etnososioloji tədqiqatlar" şöbələri, Milli Azərbaycan Tarixi Muzeyində etnoqrafiya şöbəsi, Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində "Arxeologiya və etnoqrafiya" kafedrası, "Azərbaycanın maddi mədəniyyət tarixi" elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərmişdir.

Müxtəlif dövrlərdə yaranmış şöbələrdə uzun illər ərzində tarix sahəsi "etnoqrafiya və etnologiya" ixtisası üzrə elmlər doktorlarları və tarix üzrə fəlsəfə doktorları hazırlanmış, kadr hazırlığı işi həyata keçirilmişdir. Şöbələrdə Azərbaycan xalqının məişət və mədəniyyəti (keçmişdə və indi) mövzusu üzrə həm ənənəvi, həm də yeni istiqamətlərdə tədqiqatlar genişləndirilmişdir.

Ənənəvi istiqamətlər dedikdə, bura təsərrüfat məişəti üzrə əkinçilik sistemləri,

---

[52] Подробная история института. Институт истории и этнологии имени Ч.Ч.Валиханова. **https://iie.kz/?page_id=17387&lang=ru** Из истории академической этнографии в Казахстане. Институт истории и этнологии имени Ч.Ч.Валиханова **https://iie.kz/?page_id=17410&lang=ru**

[53] Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin giriş nitqi. 7 avqust 2002-ci il. "**Azərbaycan" qəzeti,** 2002-ci il, 15 avqust.

[54] Arif Abbasov. Azərbaycan arxeologiya və etnoqrafiya elmlərinə dövlət qayğısı. **Tarix və onun problemləri**, 2003, №1, s.98.

suvarma, taxılçılıq, çəltikçilik, texniki bitkilər, ipəkçilik, bağçılıq və bostançılıq, üzümçülük, heyvandarlıq formaları, qoyunçuluq, qaramal, dəvəçilik, atçılıq, arıçılıq, balıqçılıq, maddi mədəniyyət və sənətkarlıq üzrə – məskənlər, yaşayış evləri, geyimlər, bəzəklər, yeməklər, içkilər, nəqliyyat vasitələri, yollar, daşişləmə, toxuculuq, metalişləmə, dəriçilik, ağacişləmə, dulusçuluq, xalçaçılıq, tikmə sənəti; ailə və ailə məişəti üzrə – ailənin tarixi formaları, toy, dəfn adətləri, ailədaxili münasibətlər; mənəvi mədəniyyət üzrə-dini etiqad və inanclar, bayramlar, oyunlar, musiqi, qonaqpərvərlik, xalq təbabəti, qarşılıqlı yardım formaları, xalq meteorologiyası və əkinçilik təqvimləri, şair və yazıçıların əsərlərində etnoqrafik materialların əksi və s. tədqiqat obyekti olmuşdur.

Azərbaycan xalqının ənənəvi təsərrüfatı və təsərrüfat məişəti − əkinçilik (taxılçılıq, çəltikçilik, texniki bitkilər, ipəkçilik, bağçılıq və bostançılıq, üzümçülük, suvarma sistemi), heyvandarlıq (qoyunçuluq, qaramal, dəvəçilik, atçılıq, arıçılıq, balıqçılıq), maddi mədəniyyət − (yaşayış məskənləri, xalq yaşayış evləri, geyimlər, bəzəklər, yeməklər, içkilər, nəqliyyat vasitələri, yollar, bazarlar, karvansaralar, məscidlər, ziyarətgahlar, şəhərlər, meydanlar, hamamlar, bağ və parklar), ənənəvi sənətkarlıq (daşişləmə, toxuculuq, metalişləmə, dəriçilik, ağac işləmə, dulusçuluq, tikmə sənəti və s.), sosial münasibətlər − ailə məişəti (ailənin tarixi formaları, nikah, toy, dəfn adətləri, ailədaxili münasibətlər və s.), mənəvi mədəniyyət − (dini etiqad və bayramları, oyun və əyləncələri, musiqi, qonaqpərvərlik, xalq təbabəti, qarşılıqlı yardım formaları, xalq meteorologiyası və əkinçilik təqvimləri, oyun və əyləncələr, musiqi folkloru), o cümlədən etnogenez, etnik tarix, etnik, etnomədəni və etnodemoqrafik proseslər, etnososiologiya və s. kimi sahələr üzrə araşdırmalar aparılmış, diqqətəlayiq elmi nəticələr əldə edilmişdir.

"Tarixi etnoqrafiya" şöbəsinin müdiri, akademik Teymur Bünyadovun rəhbərliyi və əsas müəllifliyi ilə hazırlanmış, 2007-ci ildə işıq üzü görmüş "Azərbaycan etnoqrafiyası" üçcildliyi olmuşdur. Bu üçcildlik XX əsrin ortalarından başlayaraq Azərbaycanda aparılmış etnoqrafik tədqiqatlara ümumi bir yekun vurmaqla yanaşı, XXI əsrdə aparılacaq tədqiqatların istiqamətlərini müəyyənləşdirmişdir.[55] Bu sırada 2017-ci ildə Rusiyanın N.N.Mikluxo Maklay adına Etnologiya və Antropologiya İnstitutu ilə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun birgə əməkdaşlıq layihəsi çərçivəsində işıq üzü görən "Azərbaycanlılar"[56] adlı toplunu, 2023-cü ildə çap olunmuş "Qarabağ: maddi, mədəni və mənəvi irs"[57] kitabını xüsusi ilə qeyd etmək lazımdır.

[55] **Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild.** Bakı, "Şərq-Qərb", 2007, 544 s.; **Azərbaycan etnoqrafiyası. Üç cilddə. II cild.** Bakı, "Şərq-Qərb", 2007, 384 s.; **Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild.** Bakı, "Şərq-Qərb", 2007, 568 s.

[56] **Азербайджанцы.** отв.ред.А.Мамедли, Л.Т.Соловьева; Институт этнологии и антропологии им. Н.Н.Миклухо-Маклая РАН; Институт археологии и этнографии Национальная академия наук Азербайджана НАНА. Москва: Наука, 2017, 708 с.

[57] **Qarabağ: maddi, mədəni və mənəvi irs (tarixi-etnoloji tədqiqat).** Baş redaktor İ.Məmmədova. II kitab. Bakı, 2023, 400 s.

***Etnologiya termininə yanaşmalar***

SSRİ Elmlər Akademiyası Etnoqrafiya İnstitutunun adının 1990-cı ildən Etnologiya və Antropologiya İnstitutu (hazırda Rusiya Etnologiya və Antropologiya İnstitutu) adlandırılması "etnologiya" (yunanca, ethnos-xalq, loqos-elm, təlim) termini − sovet hakimiyyətinin ilk onilliyində bolşevik ideoloqlarının təzyiqi ilə dəyişdirilmiş ad yenidən elmi dövriyyəyə gətirilmiş, müəyyən mənada varislik təmin edilmiş, bununla da dünya elminə inteqrasiya imkanları genişlənmişdir.

XX əsrin sonlarında qloballaşmanın genişlənməsi, ikiqütblü dünyanın çoxqütblüyə çevrilməsi, geosiyasi-geoiqtisadi reallıqların dəyişməsi və s. proseslər etnik məsələnin aktual elmi məsələ kimi qaldığını, yeni tədqiqat istiqamətlərinin ortaya çıxdığını, metod və metodologiyanın formalaşdığını göstərdi. Azərbaycan Respublikasının müstəqilliyini bərpa etməsi, 30 ildən çox davam edən Qarabağ münaqişəsi, Birinci Qarabağ müharibəsinin nəticələri, bir milyon nəfərə yaxın məcburi köçkün və qaçqın problemi, siyasi, iqtisadi sosial islahatlar və s. etnoloji-etnoqrafik həyatı dəyişdirmiş, buna ciddi təsir göstərmişdir. Eləcə də 44 günlük Vətən müharibəsi, 23 saatlıq antiterror hərəkatı, Azərbaycanın formalaşdırdığı geosiyasi və geoiqtisadi reallıqlar etnologiya elminin də qarşısında yeni vəzifələr qoymuşdur. Keçmiş sovet dövrünün elmi təsnifatları, məqsəd və vəzifələri, metodologiyaları ilə müasir çağırışlara cavab vermək mümkündürmü?

Etnologiyanın tədqiqat problemlərinin dairəsi elmin subyektinin və obyektinin xüsusiyyətləri ilə sıx bağlıdır, bu elmin ümumi məqsədi Yer kürəsinin etnik müxtəlifliyini öyrənməkdir. Bununla yanaşı, müasir etnoloqları maraqlandıran mövzuların yalnız qısa siyahısını təqdim etmək mümkündür. Təxminən 200 ildən çox müddətdə mövcud olan etnologiya elminin ümumi, xüsusi, eləcə də müasir qlobal proseslərlə bağlı çoxsaylı mövzuları bir siyahıda vermək çətindir. Lakin əsas mövzu qruplarına aşağıdakıları aid etmək mümkündür: xalqların etnogenezinin (etnik tarixinin) öyrənilməsi; xalqların etnik mədəniyyətinin hərtərəfli öyrənilməsi; mədəniyyətlərdə sosial məkanın təşkilinin xüsusiyyətlərinin öyrənilməsi; etnik şüurun, özünüdərkin, etnik mənsubiyyətin, şəxsiyyətin və onların aktuallaşma mexanizmlərinin öyrənilməsi; müxtəlif mədəniyyətlərin nümayəndələrinin həyatında dillərin praktiki və simvolik funksiyalarının, habelə danışanların linqvistik davranışının xüsusiyyətlərinin öyrənilməsi; etnik icmaların və onların nümayəndələrinin həyatının siyasi aspektləri, o cümlədən siyasi institutlar, siyasi sistem və etnik münaqişələr; xarici mədəni mühitdə mədəniyyətlərarası ünsiyyət və uyğunlaşma mexanizmləri.[58]

Etnologiya insanı bioloji varlıq kimi öyrənmir, ona mədəniyyət yaradıcısı kimi baxır və tədqiq edir. Etnologiya özü etnologiya və etnoqrafiya, yaxud "təsviri etnologiya" adlanan iki hissəyə ayrılır. Etnologiya etnoqrafiyanın maddi və mənəvi sahələrdə əldə etdiyi materiallardan yararlanaraq, müxtəlif mədəniyyətlər arasında qarşılaşdırmalar aparmaqla insanlığın mədəniyyət tarixini sistemli şəkildə aydınlatmağa çalışır, mədəni köçləri və mədəniyyətin ümumi inkişaf qanunlarını araşdırır. Etnoqrafiya müxtəlif xalqların maddi və mənəvi mədəniyyətini sistemli şəkildə təsvir

---

[58] **Этнология.** под ред. Татьяна Алексеевна Титовой. Казань: Изд-во Казан. ун-та, 2017. 404 с., с.14.

edir. Etnologiya İngiltərədə "sosial antropologiya" kimi tanınır, xüsusi ilə sosial quruluşun izah olunması, mədəniyyətlərin müqayisəsi ilə məşğul olan elm sahəsi kimi tanınır. Amerikada isə bir çox universitetin dərs proqramında və məlumat kitablarında adətən "ümumi antropologiya" kimi təsnifatlaşdırılan etnologiyaya insan haqqında elm sahəsi kimi baxılır, "mədəni antropologiya" deyilir.[59]

Yer üzündə yaşayan xalqların (etnosların) tədqiq və təsviri üzrə ixtisaslaşan bu elm sahəsi ayrı-ayrı ölkələrdə müxtəlif adlarla: sosial antropologiya, etnologiya (İngiltərə, Fransa, Almaniya), etnoqrafiya (Fransa, Şərqi Avropa ölkələri), antropologiya (ABŞ, Almaniya) kimi tanınır. Qərb alimləri bu adların tədqiqat obyektini formalaşdırmağa çalışmış, başqa bir qismi həmin terminləri bir elmi adın sinonimləri kimi izah etməyə səy göstərmişdir. Bəzi Avropa alimləri isə etnoqrafiya və etnologiyanı vahid antropologiya elminin tərkib hissəsi sayırlar,[60] belə hesab edirlər ki, etnologiya və etnoqrafiya antropologiyanın insanların həyatlarını necə yaşadıqlarını anlamağa çalışan sahəsidir,[61] bir topluluq və ya bu topluluğa mənsub fərdin həyata baxışını izah etmə və müəyyənləşdirmə formasıdır.[62]

Azərbaycanda XX yüzilliyə əsasən "etnoqrafiya" termini işlədilsə də, "etnologiya" termini 1990-cı illərdə qəbul edilmiş və elmi dövriyyədə paralel şəkildə işlədilmişdir. Ali Attestasiya Komissiyasının ixtisasların təsnifatında 1993-cü ilədək "etnoqrafiya" ixtisası üzrə elmi dərəcə almaq üçün müdafiələr təşkil edilmiş, 1996-cı ildə "etnoqrafiya-etnologiya", bir neçə il sonra "etnoqrafiya, etnologiya və antropologiya" ixtisası üzrə müdafiələr təşkil edilmişdir.

Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasının qaydalarına müvafiq olaraq hazırda 5102.01 şifrəsi altında "Etnoqrafiya və etnologiya" ixtisası nəzərdə tutulur. Yaxud Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş" Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların təsnifatında" ayrıca elm sahəsi kimi fərqləndirilən antropologiya − tarix elmlərinə daxil olan ixtisaslar arasında "mədəni antropologiya", "etnoqrafiya və etnologiya", "sosial antropologiya" qeyd olunur.[63]

Xalqlar haqqında elmin müxtəlif ölkələrdə fərqli şəkildə adlandırılması tarixi köklərlə, elmin təşəkkülünü şərtləndirən amillərlə və nəhayət konkret bir ölkədə bu

---

[59] Sedat Veyis Örnek. **Etnoloji sözlüyü.** Ankara Universiteti. Dil, Tarix-Coğrafiya Fükultəsi Yayınları: 200, 1971, s.74; Sedat Veyis Örnek. Etnolojinin tarihçesi, başlıca ekolleri, görevleri. **Antropoloji dergisi.** 1968, sayı 04, s.165-194, s.165.

[60] Emil Kərimov. Etnoqrafiya və müasirlik. "**Xalq qəzeti**". 2014, 16 may, s.14. https://www.anl.az/down/meqale/ xalqqazeti/ 2014/may/ 368861.files/ 370210.htm

[61] Ken Anderson. K. Ethnographic Research: A Key to Strategy. "**Harvard Business Review"**. March, 2009.

[62] Akarçay, Gülbin Özdamar. Etnografların Alanda Fotoğrafı Kullanma Deneyimleri ve Çalışma Pratikleri Üzerine Bir Etnografik Çalışma. 2013. Ankara Üniversitesi Dil ve Tarih Coğrafya Fakültesi. "**Antropoloji Dergisi",** 26: s.83-128.

[63] "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nın təsdiq edilməsi haqqında" **https://edu.gov.az/upload/file/emr-no641-23.04.12.pdf;** Əliağa Məmmədli. Etnoqrafiya yoxsa...: Etnosları və mədəniyyətləri tədqiq edən elmi necə adlandırmalı? **https://az. strategiya. az/news.php?id=28283 12:22 / 02.04.2015**

elm qarşısında duran vəzifələrlə müəyyənləşmişdir. Bu baxımdan, sözsüz ki, etnologiya, etnoqrafiya, sosial və mədəni antropologiya arasında fərqlər mövcuddur. Etnologiya, etnoqrafiya, sosial və mədəni antropologiya bir çoxları tərəfindən eyni elmin müxtəlif adları kimi qəbul olunur. Bu cür yanaşma elmi ictimaiyyət arasında geniş yayılmışdır. Şübhəsiz, burada bu fənlərin obyektinin və predmetinin ümumiliyi əsas rol oynayır. Müəyyən dərəcədə, belə bir yanaşma üçün əsaslar az deyil. Məsələn, bəzi ölkələrdə etnologiya və sosial-mədəni antropologiya sinonim terminlər kimi qəbul olunur. Almaniyanın bu elm sahəsi üzrə ən məşhur "Max-Planck-Institut für ethnologische Forschung" elmi müəssisəsi ingiliscə "Max Planck Institute for Sosial Anthropology" adlanır, yəni "sosial etnologiya", ingiliscə sosial antropologiya. Rus və sovet ənənəsinə əsaslanan Azərbaycan elm ənənəsində antropologiya dedikdə, əsasən fiziki antropologiya, yəni insan qruplarının fiziki quruluşunu tədqiq edən elm başa düşülür. Son illərdə hökm sürən yanaşmaya əsasən etnologiya nəzəri bir elm kimi təqdim olunur. Bu yanaşmaya əsasən etnoqrafiya əsasən xalqların maddi, mənəvi mədəniyyətinin, davranış qaydalarının, adət və ənənələrinin təsviri ilə məşğul olur. Etnologiya isə bu təsvirlər əsasında müxtəlif izahedici modellər və nəzəriyyələr işləyib hazırlayır. Beləliklə, müasir etnologiya etnoqrafiyaya müəyyən dərəcədə konseptual material verir. Məhz bu səbəbdən bir çox Avropa ölkəsində etnologiya, sosial antropologiya terminləri ilə yanaşı etnoqrafiya terminindən də istifadə olunur. Burada qeyd etmək lazımdır ki, bir çox hallarda etnoqrafiya, etnoqrafik tədqiqatlar sosial (mədəni) antropologiyanın çöl materialları toplamaq üsulu hesab olunur. Təsadüfi deyil ki, müasir sosial antropologiyanın klassiklərindən sayılan Alan Bernard "Sosial antropologiya: insanların sosial həyatını tədqiq edərkən" adlı əsərində yazır ki, "etnoqrafiya" sözünü antropoloqlar iki mənada istifadə edirlər. Bir tərəfdən, bu sözlə çöl işləri, çöl məlumatlarının yazılı qeyd olunması adlanır. O biri tərəfdən, bu adla ümumiyyətlə xalqların təsviri anlaşılır". Bu fərqlərə baxmayaraq etnologiyanın və etnoqrafiyanın sinonim terminlər olduğunun tərəfdarları az deyil və bunun da müəyyən səbəbləri vardır. Hər bir elmin sosial bazası ilə yanaşı nəzəri əsasları vəhdət təşkil edir. Empirik materiallar olmadan nəzəriyyələr işləyib hazırlamaq qeyri-mümkündür və əksinə.[64]

### *Azərbaycan etnologiya elmi müasir dövrdə*

Müasir dövrdə Azərbaycan elmi, elmi tədqiqat institutları yeni inkişaf mərhələsini yaşayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2022-ci il 28 iyul tarixli fərmanı ilə AMEA tarixində yeni bir dönəm başlamışdır. Milli Elmlər Akademiyasında idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə struktur islahatı aparılmış, ölkənin əsas elm müəssisəsinin qlobal çağırışlara, müasir dövrün elmi tələblərinə, reallıqlarına cavab verməsi üçün müəyyən struktur dəyişiklikləri edilmişdir.

[64] Əliağa Məmmədli. **Etnoqrafiya yoxsa... Etnosları və mədəniyyətləri tədqiq edən elmi necə adlandırmalı?** https://az.strategiya.az/news.php?id=28283 12:22 / 02.04.2015

2023-cü ilin aprel ayının 7-də AMEA-nın vitse-prezidenti, akademik Gövhər Baxşəliyevanın sədrliyi ilə mütəxəssislərin, o cümlədən etnoloqların (etnoqrafların) iştirakı ilə geniş iclas keçirilmişdir. Müzakirələr zamanı bildirilmişdir ki, etnoqrafiya (etnologiya) ilə mədəni və sosial antropologiya elmi folklor tədqiqatları ilə müqayisədə daha geniş və fərqli tədqiqat spektrinə malikdir. Belə ki, etnologiya-etnoqrafiya elminin tədqiq etdiyi etnogenez, etnik tarix, etno-mədəni proseslər, təsərrüfat məişəti, sənətkarlıq, maddi mədəniyyət və mənəvi mədəniyyətin çox sahələri folklorun tədqiqat mövzuları deyildir və etnoqrafiya (etnologiya) ictimai elmlər sırasına aid olan tarix elmidir, etnoloji tədqiqatlar daha çox tarixi istiqaməti əhatə edir. Hazırda AMEA Naxçıvan Bölməsində Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu, bir sıra ali məktəblərdə arxeologiya və etnoqrafiya kafedraları, etnoqrafik tədqiqat mərkəzləri fəaliyyət göstərir. Müzakirələrdə qeyd olunmuşdur ki, bəzi istisnalar olmaqla (Belarus və s.) əksər dövlətlərdə etnoqrafiya (etnologiya) və antropologiya elmləri ya müstəqil tədqiqat institutu kimi, yaxud tarix elm sahəsi ilə birgə fəaliyyət göstərirlər. Rusiyada Mikluxo-Maklay adına Etnologiya və Antropologiya İnstitutu, Qazaxıstanda Tarix və Etnologiya İnstitutu, Özbəkistanda Tarix İnstitutunun tərkibində Etnologiya və antropologiya şöbəsi, Çində Sosial Elmlər Akademiyasının Etnologiya və Antropologiya İnstitutu, Polşada Etnologiya və Mədəni Antropologiya İnstitutu, Almaniyada Etnologiya İnstitutu (nəzdində Sosial və Mədəni Antropologiya Departamenti mövcuddur), Slovakiya Elmlər Akademiyasında Etnologiya və Sosial Antropologiya İnstitutu, Makedoniyada Etnologiya və Antropologiya İnstitutu" və s. buna misal ola bilər. ABŞ və Qərbi Avropa ölkələrində, Yaponiyanın Hokkaydo Universitetində Tarix və Mədəni Antropologiya Departamentində və s. etnoloji, mədəni və sosial antropoloji tədqiqatlar aparılır.

Azərbaycanın elmi mühitində belə bir rəy formalaşmışdır ki, müasir dünyanın çağırışlarına, ictimai və humanitar elmlərin müasir dünya elmindəki akademik fənn təsnifatına uyğun olaraq, tarixi tədqiqatların etnoqrafik və etnoloji araşdırmalarla əlaqəli inkişafının təmin edilməsi, millətimizin maddi və mənəvi mədəniyyət abidələrinin, adət-ənənələrinin, məişətinin tarixi aspektdən kompleks tədqiqinin daha sistemli təşkil edilməsi müasir dövrdə həm elmi, həm də ictimai baxımdan xüsusi əhəmiyyətə malikdir.[65]

AMEA Prezidenti, akademik İsa Həbibbəyli qlobal elmi çağırışları, bu istiqamətdə dünyanın qabaqcıl tarixçi və etnoqraf alimləri ilə apardığı müzakirələrin nəticələrini, həmçinin beynəlxalq akademik qurumların təcrübələrini nəzərə alaraq, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun etnoqrafiya elmi istiqamətini əhatə edən şöbələrinin AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun strukturuna keçirilməsi və bu institutun bazasında Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun yaradılması təklifi ilə çıxış etmişdir. Təklif nəzərə alınaraq, AMEA Rəyasət Heyətinin 26 may 2023-cü il tarixli

[65] **AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu adlandırılması haqqında.** Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Ümumi Yığıncağının Qərarı. №2/4. 29 noyabr 2023-cü il.

14/3 nömrəli qərarı ilə Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun etnoqrafiya elmi istiqamətini əhatə edən şöbələri Tarix İnstitutunun strukturuna keçirilmişdir.[66]

AMEA Prezidenti, akademik İsa Həbibbəyli 9 iyun 2023-cü il tarixində Tarix İnstitutunun bazasında Tarix və Etnologiya İnstitutunun yaradılması haqqında rəsmi məktub göndərmiş, bu məsələnin institutun Elmi Şurasında müzakirə edilərək müvafiq qərar qəbul edilməsini və Akademiya rəhbərliyi qarşısında vəsatət qaldırılması zərurətini diqqətə çatdırmışdır. Tarix İnstitutunun 14 iyun 2023-cü il tarixində keçirilmiş Elmi Şurasının iclasında akademik İsa Həbibbəylinin vəsatəti müzakirə edilərək mövcud institutun bazasında daxili imkanlar hesabına, əlavə maliyyə vəsaiti və ştat tələb etmədən Tarix və Etnologiya İnstitutunun yaradılması məqsədəuyğun sayılmışdır. Akademik İsa Həbibbəyli Tarix İnstitutunun Elmi Şurasının qərarına baxılmaq üçün AMEA İctimai Elmlər Bölməsinə göndərmişdir. İctimai Elmlər Bölməsi 16 iyun 2023-cü il tarixində bu təqdimatı müzakirə edərək, Tarix və Etnologiya İnstitutunun yaradılması haqqında AMEA Rəyasət Heyəti qarşısında vəsatət qaldırmışdır. Məsələ AMEA RH-nin 19 iyun 2023-cü il tarixli iclasında geniş müzakirə edilmiş, bu barədə AMEA-nın Ümumi Yığıncağı qarşısında vəsatət qaldırılmışdır.[67]

AMEA-nın Ümumi Yığıncağının 29 noyabr 2023-cü il tarixli qərarında bildirilmişdir ki, Akademiyada həyata keçirilən islahatların mühüm istiqamətlərindən birini elmi müəssisələrin strukturunun təkmilləşdirilməsi sahəsində kompleks tədbirlər təşkil edir. Bu tədbirlərin həyata keçirilməsində əsas məqsəd isə optimal elmi-təşkilati modellərin yaradılması, onlar arasında qarşılıqlı əlaqə mexanizmlərinin qurulması ilə elmin bu və ya digər sahəsində aparılan tədqiqatların səmərəliliyinin artırılmasıdır. Bu məqsədə nail olmaq üçün əsas metodoloji meyar elmi problem və istiqamətlərlə məsul elmi struktur qurumlar arasında funksional əlaqələrin müasir dünya elminin çağırışları baxımdan yenidən uyğunlaşdırılması təşkil edir.[68]

Etnoqrafiyanın ümumi elmi problematikasına uyğun olaraq, Azərbaycan xalqının və dünyanın digər xalqlarının məişət və mədəniyyətinin, adət-ənənələrinin, etnik birliklərin yaranması və inkişafının, onların yayılması və qarşılıqlı mədəni əlaqələrinin tarixi aspektdən araşdırılması zamanı hər hansı bir xalqın tarixi və mədəniyyəti haqqında tam elmi mənzərənin əldə edilməsi mümkündür. Bu baxımdan Azərbaycan xalqının tarixi və etnologiyası sahəsində fundamental tədqiqatların birgə olaraq hərtərəfli inkişafı, tarixşünaslığın, tarixi demoqrafiyanın, mənbəşünaslığın, arxivşünaslığın, mədəniyyət və tarixi etnososiologiyanın aktual problemlərinin vahid elmi kontekstdə öyrənilməsi, yeni dövrləşdirmə konsepsiyası əsasında Azərbaycan

---

[66] **AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun etnoqrafiya elmi istiqamətini əhatə edən şöbələrinin AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun strukturuna keçirilməsi haqqında.** AMEA Rəyasət Heyətinin 26 may 2023-cü il tarixli 14/3 nömrəli qərarı.

[67] **AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu adlandırılması haqqında**. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Ümumi Yığıncağının Qərarı. №2/4. 29 noyabr 2023-cü il.

[68] Yenə orada.

çoxcildliyinin hazırlanması, son nəticədə Azərbaycan xalqının yeni tarix şüurunun formalaşdırılması konsepsiyasının işlənib hazırlanması qarşıda duran əsas vəzifələrdəndir. Bundan əlavə, tarixi Azərbaycan torpaqlarının, xüsusən Qərbi Azərbaycanın tarixinin araşdırılması, tarixi və mədəni özəllikləri baxımından bu ərazilərin Azərbaycana məxsusluğunun elmi sübutu üçün tarixi və etnoqrafik tədqiqatların birgə öyrənilməsi xüsusi əhəmiyyətə malikdir.[69] Rəyasət Heyəti vəsatətini nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi Yığıncağı Tarix İnstitutunun AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu adlandırılmasını məqsədəuyğun hesab etmişdir.[70]

Azərbaycan Respublikası Nazirlər Kabineti 19 yanvar 2024-cü il tarixində institutun AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu adlandırılması haqqında qərar vermişdir. Bu qərarlara müvafiq olaraq, Tarix və Etnologiya İnstitutunun Elmi Şurasının tərkibində dəyişiklik edilmişdir. Yuxarıda adları çəkilən qərarlara uyğun olaraq, Tarix və Etnologiya İnstitutunun yeni strukturu və nizamnaməsi təsdiqlənmişdir. AMEA Rəyasət Heyətinin 3 aprel 2024-cü il tarixli (№12/6) qərarına əsasən ilə Elmi Şuranın yeni tərkibi təsdiqlənmiş, şuraya etnoloq alimlər daxil edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin 15 may 2024-cü il tarixli 14/6 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Milli Elmlər Akademiyasının Tarix və Etnologiya İnstitutunun Nizamnaməsi (3-cü redaksiyada) isə Ədliyyə Nazirliyində 26 avqust 2024-cü ildə dövlət qeydiyyatına alınmışdır. AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun hazırkı fəaliyyətinin əsas məqsədi kimi "tarix və etnologiya elmləri sahəsində Azərbaycanın zəngin maddi-mədəni irsinin öyrənilməsinə yönəlmiş fundamental elmi tədqiqatların təşkili və aparılması" (maddə 2.1.) göstərilmişdir. Bura "Azərbaycan tarixi, Əliyevşünaslıq, Tarixin nəzəriyyəsi, mənbəşünaslıq, tarixşünaslıq, dünya tarixi və etnologiya elmi istiqamətləri üzrə tədqiqatlar təşkil etmək" (2.2.1); "Azərbaycanın tarixi və müasir etnologiyasını, türk xalqlarının tarixini və etnologiyasını öyrənmək (2.2.11); "müvafiq dövlət qurumlarının rəsmi müraciətləri əsasında Azərbaycan və dünya tarixi, Azərbaycan etnologiyasına dair əsər və materiallar üzrə rəy vermək (2.2.12); "tarix və etnologiya üzrə fundamental və dövri nəşrlər təsis etmək, əsas elmi nəticələrin dünya elmi ictimaiyyətinə çatdırılması üçün onların müxtəlif dillərə tərcüməsinə nail olmaq" (2.2.17) aiddir. Məqsədlərinə uyğun olaraq, institut aşağıdakı vəzifələri (2.3) yerinə yetirir: "Tarix və etnologiya sahəsində fundamental elmi-tədqiqat işlərinin prioritet istiqamətlərini müəyyənləşdirmək, onların Azərbaycan Respublikasında mədəni-mənəvi inkişafına yönəltmək" (2.3.1.); "Azərbaycan tarixi və etnologiyasının inkişafı üçün beynəlxalq proqram və layihələrdə iştirak etmək" (2.3.4); "aparılan elmi tədqiqat işlərinin proqramlarını daim yeniləmək və müasir tarix və etnologiya elm sahələrində inkişafın prioritet istiqamətlərinə uyğun şəkildə tərtib etmək (2.3.5); "dövlətin tarix və etnologiya sahələri üzrə elmi və elmi-texniki

[69] **AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu adlandırılması haqqında**. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Ümumi Yığıncağının Qərarı. №2/4. 29 noyabr 2023-cü il.

[70] Yenə orada.

siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak etmək, müvafiq qərarlar üzrə dövlət proqramlarının layihələrinin ekspertizasını aparmaq (2.3.7).[71]

Azərbaycan etnologiya elminin yenidən təsisatlanma-təşkilatlanma prosesi elmi mühitdə müzakirələri genişləndirmişdir, Tarix və Etnologiya İnstitutunun yenidən adlandırılması ilə yanaşı, tarix və etnologiya elm sahələrinin vəhdəti, bir-birini tamamlaması, etnologiya elminin inkişaf istiqamətləri, tədqiqat mövzuları və s. məsələlərə diqqət yetirilmişdir.

Bu baxımdan AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürovun sədrliyi ilə “Azərbaycan etnologiyası: perspektivlər və prioritetlər” mövzusunda 18 mart 2024-cü ildə keçirilən elmi seminarı Azərbaycan Respublikasında etnologiya elminin inkişafının geniş şəkildə müzakirəyə çıxarıldığı ilk tədbir saymaq mümkündür. Seminarda Azərbaycan etnologiya elminin inkişafı, tədqiqat istiqamətləri, yeniliklər və problemlər barədə müzakirələr aparılmışdır. Müzakirələrdə qeyd edilmişdir ki, AMEA-da struktur islahatları çərçivəsində institutun Tarix və Etnologiya adlandırılmasını dünya elminə uyğunlaşma baxımdan mühüm addımdır. Eyni zamanda, İkinci Qarabağ müharibəsində parlaq qələbəmizdən sonra yeni siyasi, iqtisadi, sosial reallıqlar yaranmışdır. Azərbaycan etnologiya elmi tədqiqatlara müasir dövrün reallıqları müstəvisində baxmalıdır.

Tədbirdə müasir dövrdə elmi ictimaiyyətin diqqətini cəlb edən Azərbaycan tarixindəki dövrləşmə məsələsinin etnologiya üçün də aktual olduğu, elmi problemlərin düzgün qoyuluşunun ciddi elmi nəticələrin əldə edilməsinə, dərin elmi tədqiqat aparılmasında mühüm rol oynadığı vurğulanmışdır. Ənənəvi tədqiqat mövzuları ilə yanaşı, Azərbaycan xalqının etnogenezi, etnik tarixi, geneologiya, milli özünüdərk, miqrasiya prosesləri, etnik-dini münasibətlərlə bağlı tədqiqatların genişləndirilməsi, Azərbaycanın etnoqrafik atlasının, etnoqrafik turizm marşrutlarının yaradılması vacib sayılmışdır. Qeyd edilmişdir ki, uzun tarixi dövr ərzində formalaşmış, dərin inteqrasiya olunmuş etno-mədəni birliyin keçdiyi yol təsərrüfat həyatı, maddi və mənəvi mədəniyyət, sənətkarlıq, ailə-nikah münasibətləri, etnik psixologiya, davranış qaydaları, inam və inanclarında və s. əks olunur. Etnoloji tədqiqatlar aparılarkən etnoqrafik metodlar vasitəsi ilə etnik mədəniyyət əlamətləri və onlarda baş verən dəyişikliklər öyrənilir, bununla da etnogenez, etnik tarix, etnik demoqrafiya, etnoslararası qarşılıqlı təsir, eləcə də müasir siyasi, sosial, mədəni proseslər izah olunur. Etnologiya elminin obyektinə, predmetinə bu şəkildə yanaşmaqla, gələcək inkişaf istiqamətlərini, perspektivləri düzgün müəyyənləşdirilir.

Tarix və Etnologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürov elmi durğunluqdan çıxmaq üçün ciddi addımlar atılmasını vacib saymış, etnologiya ilə bağlı mövzulara yenidən baxılmasını, sosial çağırışları nəzərə alaraq etnologiyanın praktiki elm sahəsinə çevrilməsinin əhəmiyyətini vurğulamışdır.

İnstitut direktoru Akademiyada Etnoqrafiya Fondunun, Bakının Etnoqrafik Atlasının yaradılmasının bu günün aktual məsələlərindən olduğunu bildirmiş, hər bir

---

[71] **Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Nizamnaməsi** (3-cü redaksiyada). Ədliyyə Nazirliyində 26 avqust 2024-cü ildə dövlət qeydiyyatına alınmışdır.

şöbənin aktual layihələrlə çıxış etməyə, qrant müsabiqələrində iştirak etməyə çağırmışdır. “Azərbaycan etnologiyası” adlı bircildlik hazırlanacağını, “Azərbaycan etnologiyası” jurnalının təsis edildiyini bildirən professor Kərim Şükürov etnologiyanın populyarlaşdırılması istiqamətində addımlar atılacağını, Etnoloji xidmət yaradılması üçün müvafiq işlər görüləcəyini açıqlamışdır. Tədbirdə gəlinən ümumi nəticələrdən biri bu olmuşdur ki, müasir etnoloji nəzəriyyələrə əsaslanan, təhlilə üstünlük verən məqalə və monoqrafiyaların ortaya çıxması üçün etnologiya klassiklərinin ideyalarından milli problemlərin öyrənilməsində və həllində rasional şəkildə faydalanmaq, dövrün qlobal və ölkə səviyyəli aktual elmi məsələlərinə diqqət yetirilməsini vacibdir.

2025-ci il aprel ayının 29-da AMEA Tarix və Etnologiya İnstitutunda “Azərbaycan etnologiyası: yeni prioritetlər və perspektivlər” adlı Elmi Seminarın (15.03.2024) nəticələrinə həsr olunmuş tədbir keçirilmişdir. Tarix və Etnologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürov “Tarixi etnologiya”, “Müasir dövr etnologiyası”, “Türk xalqlarının tarixi və etnologiyası” şöbələrinin qarşısında duran vəzifələr, görüləcək işlər haqqında məlumat vermişdir. Tədbirdə “Azərbaycan etnologiyası” jurnalının çapa hazırlanması, görkəmli etnoloqlar haqqında “youtube” çıxışlarının hazırlanması şöbələrdə elmi seminarların keçirilməsi, xaricdə nəşr olunan etnologiyaya aid ədəbiyyatların biblioqrafiyasının yaradılması və s. barədə müzakirələr aparılmışdır. İnstitut direktoru geniş etnoloji tədqiqatların aparılması üçün ekspedisiyalar və elmi ezamiyyətlər nəticəsində əldə edilən materialların mühüm əhəmiyyətini vurğulamaqla yanaşı, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün kadr potensialının gücləndirilməsinin, gənclərin elmi tədqiqatlara cəlb edilməsinin vacibliyinə toxunmuşdur.

### *Nəticə*

Azərbaycan etnologiya elmi XX əsr boyu təlatümlü inkişaf yolu keçmiş, bəzi illərdə tamamilə sıradan çıxarılan bu elm sahəsi yenidən təsisatlanmış, təşkilatlanmış, qarşıya qoyulmuş elmi vəzifələri yerinə yetirməyə çalışmışdır. Bu elmin mövcudluğunda və inkişafında elmi müəssisələrlə yanaşı, siyasi-ideoloji konyunkturanın təsiri, tədqiqat istiqamətlərinin, mövzuların müəyyənləşdirilməsi, kadr potensialının vəziyyəti və səviyyəsi, etnoqrafik ekspedisiyaların təşkili və əhatə dairəsi mühüm rol oynamışdır.

Müasir dövrdə etnologiyanın predmetinə həm ənənəvi (etnogenez, maddi və mənəvi mədəniyyət, adət-ənənələr, inam və inancları, ailə-qohumluq sistemləri və s.) mövzuları ilə yanaşı, indiyədək ardıcıl şəkildə öyrənilməmiş mövzular (sosial-siyasi quruluş, tərbiyə sistemləri, psixoloji xüsusiyyətlər, ətraf mühitə uyğunlaşma, iqtisadi həyat, xalqların qarşılıqlı münasibətləri və s.), eləcə də müasir dövrün reallıqlarından irəli gələn mövzulara (qlobal proseslərin siyasi, iqtisadi və sosial proseslərə, etnomədəni proseslərə təsiri, etnik maraqlar, etnoslararası münasibətlər, müasir dövrdə ailə münasibətlərinin etnik tərəfləri, modernləşmədə ənənəviliyin rolu, etnoslararası münaqişələrin sosial-psixoloji əsasları, tolerantlıq, multikultural dəyərlərin toplumlardakı qarşılıqlı münasibətlərə təsiri və s.) xüsusi diqqət yetirilməlidir. Məhz

bu kimi etnoloji yanaşma müstəvisində baxdıqda aydın görmək olur ki, tarixi-mədəni, eləcə də sosial-psixoloji xüsusiyyətlər etnosların tarixi simasının yaradır.

İnstitutda tarixi-etnoloji tədqiqatlar daha da genişlənməkdədir, illik hesabata görə, etnoloqların təkcə 2024-cü ildə 4 monoqrafiyası, 1 kitabı (beynəlxalq konfransın materialları), respublika səviyyəli elmi jurnallarda 15 məqaləsi, xarici jurnallarda 2 məqaləsi, beynəlxalq konfranslarda 9 məqalə, 2 tezis, respublika səviyyəli konfranslarda 2 məqalə, 2 tezis, 1 tarix elmləri doktorunun avtoreferatı çap edilmiş,[72] etnoloqlar Azərbaycanın müxtəlif bölgələrinə (Gəncə, Ordubad, Quba, Naxçıvan şəhəri), eləcə də Türkiyəyə (Ankara), Paraqvaya (UNESCO-nun tədbirinə) elmi ezamiyyətlərə göndərilmişdir.

Müasir dövrdə Azərbaycan etnologiya elmi qlobal, regional, ölkə səviyyəsində elmi çağırışlarını nəzərə almaqla yenidən təsisatlanmış, təşkilatlanmışdır. Etnologiyanın tədqiqat obyekti və predmetinin etnosların sayı qədər çox, etnogenez, etnik, etnomədəni proseslər qədər mürəkkəb olduğunu, keçmişi və müasir dövrü tədqiq etdiyini nəzərə alaraq, on illər ərzində toplanan, etnoqrafik nəşrlərdə əksini tapan, təsvir edilən materialları, tədqiqatları dövrün elmi tələblərinə uyğun olaraq yenidən oxumaq, yenidən öyrənmək, nəzəri cəhətdən əsaslandırmaq əsas vəzifələrdəndir. Etnologiya elmi dövlətin, cəmiyyətin milli-siyasi maraqları ilə, cəmiyyətin problemləri ilə sıx bağlıdır. Bu amili nəzərə almaqla yanaşı, Azərbaycan etnologiyasının dünya etnologiya elminə inteqrasiyası, müasir dünya elmi səviyyəsinə çıxarılması aktual məsələdir.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Abbasov, Arif. Azərbaycan arxeologiya və etnoqrafiya elmlərinə dövlət qayğısı. **“Tarix və onun problemləri”,** 2003, №1, s.95-96.
2. Abbasov, Arif. **Heydər Əliyev və Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin inkişafı**. – Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. Bakı, “Elm”, 2003, s.194.
3. AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun etnoqrafiya elmi istiqamətini əhatə edən şöbələrinin AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun strukturuna keçirilməsi haqqında. **AMEA Rəyasət Heyətinin 26 may 2023-cü il tarixli 14/3 nömrəli qərarı.**
4. AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutu adlandırılması haqqında. **Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Ümumi Yığıncağının Qərarı. № 2/4. 29 noyabr 2023-cü il.**
5. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun **2024-cü il üçün elmi tədqiqat fəaliyyəti barədə hesabatı**. 2024-cü il, 10 dekabr.

[72] **Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun** 2024-cü il üçün elmi tədqiqat fəaliyyəti barədə hesabatı. 2024-cü il, 10 dekabr.

6. **“Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı”nın təsdiq edilməsi haqqında”.** https://edu.gov.az/upload/file/emr-no641-23.04.12.pdf
7. Anderson, Ken. Ethnographic Research: A Key to Strategy. **Harvard Business Review**. March, 2009.
8. Akarçay, Gülbin Özdamar. Etnografların Alanda Fotoğrafı Kullanma Deneyimleri ve Çalışma Pratikleri Üzerine Bir Etnografik Çalışma. 2013: **Ankara Üniversitesi Dil ve Tarih Coğrafya Fakültesi Antropoloji Dergisi**, 26, s.83-128.
9. **Azərbaycan Elmlər Akademiyasında görüş**. “Elm” qəzeti, 2000, 15 sentyabr, s.3.
10. **Azərbaycan etnoqrafiyası**. Üç clddə. I cild. Bakı, “Şərq-Qərb”, 2007, 544 s.
11. **Azərbaycan etnoqrafiyası.** Üç cilddə. II cild. Bakı, “Şərq-Qərb”, 2007, 384 s.
12. **Azərbaycan etnoqrafiyası.** Üç cilddə. III cild. Bakı, “Şərq-Qərb”, 2007, 568 s.
13. **Азербайджанцы.** отв.ред А.Мамедли, Л.Т.Соловьева; Институт этнологии и антропологии им. Н.Н.Миклухо-Маклая РАН; Институт археологии и этнографии Национальная академия наук Азербайджана НАНА. Москва: Наука, 2017, 708 с.
14. Babayeva, Rəxşəndə. Qubanın toy adətləri. (Tərtibçi və ön sözün müəllifi Tamilla Kərimova-Kocayeva). Bakı, “Elm və təhsil”, 2022, s.31.
15. Bünyadov, Teymur, Əliyev, Bəhmən. Heydər Əliyev və Qədim Qəbələ. **“Azərbaycan” qəzeti,** 2011-ci il, 11 dekabr, s.6.
16. Bünyadov, Teymur. Azərbaycan etnoqrafiyası 50 ildə. **Azərbaycan SSR EA Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası,** 1967, № 3-4, s.131-141.
17. Bünyadov, Teymur. Azərbaycanda etnoqrafiya elminin inkişafı (təsərrüfat məişəti). **AEM, V buraxılış**. Bakı: “Elm”, 1985, s.5-17.
18. Бромлей, Юлиан Владимирович, М.В.Крюков. Этнография: Место в системе наук, школы, методы. **Советское этнография.** 1987 №3, с.45-61
19. Джафарзаде, Исак. Этнографическая работа в Азербайджанской ССР. **Советское этнография,** 1946, №2, с.216.
20. Джафарзаде, Исак. Этнографическая работа в Азербайджанской ССР за 1940-1947 годы. **Известия АН Азерб. ССР,** 1948, №7, с.54-61
21. Əliyeva, Sevdagül. XX əsrin birinci yarısında Azərbaycan etnoqrafiya elminin inkişafı (tarixi-etnoqrafik tədqiqat), tar.elm.nam.diss... **avtoreferatı**. Bakı: 2001, 18 s.
22. Əliyev, Bəhmən. **XX əsrin ikinci yarısında Azərbaycanda etnoqrafiya elminin inkişafı**. Tarix elmləri namizədi dissertasiyası. Bakı, 2007, s.188.
23. Əliyev, Bəhmən. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan etnoqrafiya elminin inkişafı. AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun **“Heydər Əliyev-100: Arxeologiya, Etnoqrafiya və Antropologiya elmlərinin prioritet məsələləri” adlı Respublika konfransı.** 2023-cü il may, s.38-41.
24. Həvilov, Həvil. **Azərbaycan etnoqrafiyası**. Bakı: “Elm”, 1991, 253 s.
25. İsmayılova, Səbinə. BDU-nun tarix fakültəsinin tarixindən. **Bakı Universitetinin Xəbərləri. Humanitar Elmlər Seriyası**. №3, 2015, s.78-84, s.79.
26. İsmayıl, Zülfiyyə. Ana dilimizə qayğı: keçmişə ehtiram, gələcəyə təminat. **“525-ci qəzet”,** 2023, 23 fevral, s.4.

27. Керимова, Тамилла. **Из истории Национальной Академии наук Азербайджана**. Баку, Издательство «Тахсил», 2005, 568 с.
28. Керимова-Коджаева Тамилла. Этапы становления и развития востоковедической науки в Азербайджанской ССР. История Востока. **Историография, источниковедение, методы исторического исследования. Ориенталистика,** https://doi.org/10.31696/2618-7043-2023-6-1-097-1172023 год, vol.6, №1, с.97-117, с.100.
29. Kərimov, Emil. Azərbaycan etnoqrafiyası XXI əsrin astanasında. **"Azərbaycan"** qəzeti, 2000, 17 yanvar, s.82.
30. Kərimov, Emil. Etnoqrafiya və müasirlik. **"Xalq qəzeti".** 2014.16 may, s.14. https://www.anl.az/down/meqale/xalqqazeti/2014/may/ 368861.files/ 370210.htm
31. Керимова, Тамилла. Съезд, объединивший тюркский мир (посвящается 90-летнему юбилею Первого Всесоюзного Тюркологического съезда). **Известия НАН Азербайджана. Серия общественных наук**, 2016, №3, s.20-34.
32. Каракашлы, Кахраман. Основные итоги и перспективы этнографического изучение Азербайджана. **Материалы к сессии посвященном итогам археологических и этнографических исследований,** 1964 г. в ССР. Тез. докл. Баку, 1965, с.176-177.
33. Кирилл, Василевич Чистов. Из истории советской этнографии 30-80 гг. XX века. К 50-летию Института Этнографии АН СССР. **Советское этнография**. 1987, №3, с.3-17.
34. **Qarabağ: maddi, mədəni və mənəvi irs** (tarixi-etnoloji tədqiqat). Baş redaktor İlhamə Məmmədova. II kitab. Bakı, 2023, 400 s.
35. Qasımlı, Musa. Heydər Əliyev və Azərbaycan folkloru. "**Ozan dünyası" jurnalı**, 2010, №2, s.3-19.
36. Quliyev, Şahpələng, Göyüşov Rəşid. Etnoqraf və arxeoloqların ümumittifaq elmi sessiyası. **Azərbaycan SSR EA Xəbərləri, İctimai elmlər seriyası,** 1964, №2 s.133-134.
37. Гулиев, Гасан. Музей истории Азербайджана. **Советская этнография,** 1955, №2, с.131-133.
38. Гулиев, Гасан. Этнография Азербайджане за 40 лет. **Советская этнография,** 1961, №4, с.166-170.
39. Məmmədli, Əliağa. Etnoqrafiya yoxsa... Etnosları və mədəniyyətləri tədqiq edən elmi necə adlandırmalı? **https://az.strategiya.az/news.php?id**=28283 12:22/ 02.04.2015
40. Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin giriş nitqi – 7 avqust 2002-ci il. **"Azərbaycan" qəzeti,** 2002-ci il, 15 avqust.
41. Mustafayev, Arif. Arxeoloq və etnoqrafların Şamaxı konfransı. **Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası**, 1974, №4, s.27.
42. Мустафаев, Ариф, Аразова Роза. Сессия археологов и этнографов Азербайджана. **Советское археология,** 1976, №3, с.354-355.
43. Марков, Геннадий Евгеневич, Соловей, Татьяна Дмитриевна. Этнографическое образование в Московском Государственном Университете (К 50-

летию кафедры этнографии исторического факультета МГУ). **Этнографическое обозрение,** 1990, №6, с.79-91.
44. Örnek, Sedat Veyis. Etnoloji sözlüyü. Ankara Universiteti. **Dil, Tarix-Coğrafiya Fükultəsi Yayınları**: 200, 1971, 74 s.
45. Örnek, Sedat Veyis. Etnolojinin tarihçesi, başlıca ekolleri, görevleri. **"Antropoloji dergisi"**. 1968, sayı 4, s.165-194.
46. Подробная история института. Институт истории и этнологии имени Ч.Ч.Валиханова. **https://iie.kz/?page_id=17387&lang=ru**
47. Из истории академической этнографии в Казахстане. Институт истории и этнологии имени Ч.Ч.Валиханова. **https://iie.kz/?page_id=17410&lang=ru**
48. Чистов, Кирилл Василевич. Из истории советской этнографии 30-80 гг. XX века. К 50-летию Института Этнографии АН СССР. **Советское этнография.** 1987, №3, с.3-17.
49. Тавадов, Гамлет Темирович. Этнология. **Учебник для вузов**. Москва: Проект, 2002, с.352.
50. Тишков, Валерий. Отвечаю на вопросы. **http://www.valerytishkov.ru/cntnt/** main_4. html? cons848 _ page=4
51. **Этнология.** под ред. Татьяна Алексеевна Титовой. Казань: Изд-во Казан. ун-та, 2017, 404 с.
52. Юлиан, Владимирович Бромлей, М.В.Крюков. Этнография: Место в системе наук, школы, методы. **Советское этнография.** 1987, №3, с.45-61.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR

Əliyev Bəhmən Fazil oğlu – tarix üzrə fəlsəfə doktoru, dosent, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. Azərbaycan, Bakı

Aliyev Bahman Fazil – Doctor of Philosophy in history, associate professor. A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.43-56*

# MADDİ MƏDƏNİYYƏT

**UOT: 39**

## AZƏRBAYCANDA KƏHRİZ MƏDƏNİYYƏTİ

©2025

İLHAMƏ MƏMMƏDOVA*

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ORCİD: 0000-0002-6884-4678; e-mail: ilhame.mamadova@gmail.com

***Xülasə***: *Azərbaycan ərazisində tarixən çoxşaxəli suvarma sistemləri (arxlar, bulaqlar, quyular, hovuzlar, ovdanlar və s.) yaradılmışdır. Süni suvarma sistemi olan kəhrizlər bəşərin ən dəyərli ixtiralarından olub, onlardan həm əhalinin içməli suya olan tələbatının ödənilməsində, həm də suvarma məqsədilə istifadə edilmişdir. Suyun əsasən dağlıq ərazidən digər yerə aparılmasını təmin edən kəhriz sistemi əkinçilik təsərrüfatının artımı ilə yaranmış, şəhər mədəniyyətinin inkişafı ilə əlaqədar genişlənmişdir. Kəhriz sistemi şəhərlərin abadlığı ilə yanaşı, onların sosial plan-quruluşuna da təsir göstərmişdir.*

*Kəhrizlər quraqlıq ərazilərin insan tərəfindən məskunlaşmasının və xalqın əsrlər boyu davam edən ənənəvi məişətinin göstəricisidir. Dəqiq hesablamalara və mürəkkəb memarlıq xüsusiyyətlərinə malik kəhrizlər Azərbaycan maddi mədəniyyətinin unikal elementlərindən olub, onlardan istifadə ilə bağlı adət-ənənələr, qayda-qanunlar və inamlar sözügedən su sisteminin eyni zamanda xalqın mənəvi mədəniyyətində ayrılmaz yeri olduğunu göstərir.*

*Qədim dövrdən başlayaraq dünyanın müxtəlif ölkələrində, o cümlədən Azərbaycanda təşəkkül tapan kəhriz sistemi ölkədə əkinçiliyin, oturaq həyatın və şəhər mədəniyyətinin formalaşmasını bəlli edir. Azərbaycanda son dövrün arxeoloji qazıntıları ilə kəhriz sisteminin əsasən ərəb işğallarından sonrakı dövrdə yayılması təsdiqlənmişdir. Etnoloji tədqiqatlar göstərir ki, kəhriz mədəniyyəti bəzi şəhərlərdə (Ordubad, Naxçıvan, Ağstafa və b.) hələ də qorunub saxlanmaqdadır.*

***Açar sözlər***: *Azərbaycan, kəhriz, suvarma sistemi, şəhər mədəniyyəti, Ordubad, Qarabağ*

## QANAT CULTURE IN AZERBAIJAN

©2025

ILHAMA MAMMADOVA*

*A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS
ORCİD: 0000-0002-6884-4678; e-mail: ilhame.mamadova@gmail.com

***Abstract:*** *Historically, multifaceted irrigation systems (ditches, springs, wells, pools, ponds, etc.) were created in the territory of Azerbaijan. Qanat (kariz), which is an artificial irrigation system, is one of the most valuable inventions of mankind. The qanat system, which mainly provides the transportation of water from the mountainous area to another place, has expanded due to the development of urban culture. Along with the beautification of the cities, the qanat system influenced their social planning. Artisan workshops were located near the qanat and suburban gardens and fields were planted.*

*The qanat system, which has been formed since ancient times in different areas of the world, including Azerbaijan, is an indicator of the formation of agriculture, sedentary life and urban culture in the country. Archaeological excavations of the last period in Azerbaijan confirmed the spread of the qanat system mainly in the period after the Arab invasions. Nakhchivan, Karabakh, Ganja, Gazakh, etc. Although many of the qanat in the areas are not used now, ethnographic studies show that the qanat culture is still preserved in some cities (Ordubad and others).*

***Keywords:*** *Azerbaijan, qanat, irrigation system, urban culture, Ordubad, Qarabag*

## КУЛЬТУРА КЯХРИЗА В АЗЕРБАЙДЖАНЕ

©2025

ИЛЬХАМА МАМЕДОВА*

*Институт Истории и Этнологии НАНА имени А.А.Бакиханова
ORCİD: 0000-0002-6884-4678; e-mail: ilhame.mamadova@gmail.com

***Резюме**: Исторически на территории Азербайджана создавались различные ирригационные системы (каналы, родники, колодцы, овданы, пруды и т.д.). Одним из ценных изобретений человечества является кяхриз, представляющий собой систему искусственного орошения. Помимо ирригационных целей, кяхризы использовали для удовлетворения потребностей населения в питьевой воде.*

*Система кяхризов, которая в основном обеспечивает транспортировку воды из горной местности, расширялась за счёт развития городской культуры. Наряду с обустройством городов, система кяхризов повлияла на их социальное планирование. Рядом с кяхризами располагались ремесленные мастерские, были засажены пригородные поля и сады.*

*Кяхризная система орошения, сложившаяся с древнейших времен на различных территориях земледельческой цивилизации, в том числе и в Азербайджане, является показателем становления аграрии, оседлого образа жизни и городской культуры. Распространение системы кахриза в Азербайджане приходится преимущественно на период после арабских нашествий, что подтверждено археологическими раскопками последних лет. Хотя многие из кяхризов в Нахчыване, Карабахе, Гяндже, Казахе и др. в настоящее*

*время не используются, этнографические исследования показывают, что в некоторых городах (Ордубад и др.) культура кяхриза до сих пор сохранилась.*

***Ключевые слова:*** *Азербайджан, кяхриз, ирригационная система, городская культура, Ордубад, Карабах.*

***Giriş***

Suyun buxarlanıb itkiyə getmədən quraqlıq ərazilərə paylanmasında kəhrizlər mühüm əhəmiyyət daşıyırlar. Bu sistem vasitəsilə yeraltı sular üzə çıxarılır, bununla da quraq yerlərdəki əkin sahələri suvarılır, dəyirmanlar işlədilirdi. Nəzərə alsaq ki, gələcəkdə bəşəriyyətin su qıtlığı ilə üzləşmək təhlükəsi var, kəhrizlərin əhəmiyyəti bir daha artır.

Kəhriz yeraltı suların yer səthinə çıxarılmasını təmin edən və suyu uzaq məsafələrə çatdıran su təchizatı sistemidir. Əgər yerüstü axın zamanı su buxarlanaraq itkiyə gedirsə, kəhrizdə su məcrası yeraltı olduğundan bu prosesin qarşısı alınır. Dağlıq və dağətəyi ərazilərdən düzənliklərə şirin suyun gətirilməsi həm də torpaqların şoranlaşmasının qarşısını alır. Kəhriz sistemi ilə əldə olunan su uzaq məsafədən gətirilən zaman durulma prosesi öz-özünə həyata keçir və yer səthindən xeyli dərinlikdən axdığı üçün onun hərarəti də dəyişməz qalır.[1]

Müharibələrdə kəhriz quyuları möhkəm qorunurdu. Savaş zamanı düşmən tərəfi yerüstü suları (çay, göl, kanal və s.) asanlıqla zəhərləyirdisə, kəhrizin su məcrası yeraltı yerləşdiyindən qoruna bilirdi. Sel, leysan və digər təbii fəlakətlər vaxtı kəhrizlər ən etibarlı su mənbəyi sayılırdı. Kəhrizlərin uzaq məsafədən çəkilməsi bəzən təhlükəsizliklə əlaqələnir: qalaya suyun hansı istiqamətdən gəlməsini düşmən tərəfi bilməməliydi. Tarixi faktlara əsasən kəhrizlərin əksəriyyəti məscid və qalaların yaxınlığında yer səthinə çıxarılırdı.[2] Üzəri örtülür və düşmənin əlinə keçməməsi, çirkləndirilməməsi üçün möhkəm qorunurdu. Kəhrizlərin təmiz saxlanması şəhərdə məskunlaşmanın vacib şərti sayılırdı.

Kəhrizin qazılması ağır zəhmət tələb etsə də, istismar müddəti əsrlərlə davam edir və sonralar onun texniki baxımına az vəsait lazım gəlir. Deyilənə görə, kəhriz vurduranın beş nəsli irsi olaraq sudan qazanc götürürdü.

Xalqın düşüncəsinə görə, su, od və çöl otlarının istifadəsində hamı bir-biri ilə şərikdir və suyun satılması haram əməl sayılır. Camaat inanır ki, su Həzrəti Fatimənin (Ə) mehriyyəsi olmuş və xanım sudan istifadəni ehsan bilərək onu hamıya halal etmişdir. Keçmişdə insanlar su və torpağı qızıl, gümüş və digər qiymətli əşyalardan üstün bilirdilər. Tarixi sənədlərdən məlum olur ki, suyun özünün deyil, onun axıb keçdiyi sahənin satılması nəzərdə tutulurdu. Su və torpaq üzərində mülkiyyət hüququ nəsildən-nəslə keçir və hər bir ailə irsi olaraq onlardan daima gəlir götürə bilərdi. Bu

---

[1] Etibar Qasımov. **Azərbaycanın orta əsr su təchizatı (IX-XV əsrlər) (tarixi-arxeoloji tədqiqat)**. Bakı, Adiloğlu, 2002, s.119.

[2] هنری مرتضی. کاریز // هنر و مردم، تهران، ۲۵۳٤ (شاهنشاهی) ، شماره، ۱۸۰ ، ص. ۷۷

baxımdan orta əsrlərdə torpaq kimi kəhrizlər də kəbin bağlanarkən mehriyyə verilirdi.[3]

Suyun həyati əhəmiyyəti onunla bağlı inam və sınamalara yol açmış, su hətta müqəddəsləşdirilmişdir. Suya sitayiş edilmiş, suya and içilmiş, hacəti qəbul olunanlar tərəfindən su nəziri verilmiş, eyni zamanda kəhriz sahibləri onun suyundan ehsan paylamışlar.

Məqalədə Azərbaycanda, həmçinin dünyada mövcud kəhrizlərin tarixinə qısaca nəzər salınır, kəhrizin qazılması, ictimai funksiyası, praktiki əhəmiyyəti, kəhriz suyunun bölgüsü və su ölçü vahidləri, hazırda ölkədəki kəhrizlərin texniki vəziyyəti, bir sözlə, kəhriz mədəniyyəti tarixşünaslıq və çöl-etnoloji materialları əsasında öyrənilir.



*Müəllif kəhrizin pilləsində. Yəzd (İİR). 2013-cü il (Foto müəllifə məxsusdur)*

### *Kəhrizlərin yaranması*

Erkən dövrlərdə məskunlaşma təbii su mənbələrinə yaxın ərazilərdə baş vermiş, zaman keçdikcə artım nəticəsində əhali quraqlıq yerlərdə yaşamağa başladıqda süni suvarma şəbəkəsini yaratmağa məcbur olmuşlar. İçməli suya olan tələbat, təsərrüfat sahələrinin və ticarətin inki şafı ilə əlaqədar su təchizatı vasitələri artmış və təkmilləşmişdir. Tədqiqatçılara görə, kəhrizlərin qazılma texnikası 5-6 min il bundan əvvələ təsadüf edir.[4] Azərbaycanda da bu tip suvarma vasitəsi qədim dövrdən mövcud olmuşdur. Bəzi tədqiqatçılar eramızdan əvvəl V əsrdə də kəhriz sistemindən istifadə edildiyini qeyd edirlər.[5] Mixi yazılardan məlumdur ki, II Sarqon Mannaya hücumu zamanı kəhrizlə




*Kəhrizin bulağı. Yəzd (İran) (Foto müəllifə məxsusdur)*

---

3 زهراعلیزاده بیرجندی، ابوالفضل مکری فر، سیده کلثوم کاظمی، محمد رضا سرور. نگارش بر مهرنامه عصر قاجاریه در بیرجند. تهران، معاونت فرهنگی و ارتباطات، ۱۳۸۵، ص. ۲۷ ، ۱۴۱ ، ۲۱۱ ، ۲۳۵ ، ۲۴۱

4 کیانی هفت لنگ کیانوش. کتاب ایران (گذری بر جغرافیای ایران)، چاپ اول، تهران، انتشارات بین المللی الهدی، ۱۳۷۹ ، ص.۴۵

5 Etibar Qasımov. **Azərbaycanın orta əsr su təchizatı (IX-XV əsrlər) (tarixi-arxeoloji tədqiqat)**. Bakı, Adiloğlu, 2002, s.53.

rastlaşır. E.ə. 550-ci ildə Əhəmənilər Mada (Midiya) dövlətini məğlub edərkən ilk növbədə Ekbatanı mühasirəyə alır və kəhrizin su axarının qarşısını kəsir, bununla da paytaxt təslim olur.[6] Arxeoloji və yazılı mənbələr sübut edir ki, Əhəmənilər dövründə genişlənməyə başlayan kəhriz mədəniyyəti Xilafət dövründə daha böyük ərazilərə yayılır.



*Kəhriz. Şəmkir. IX-X əsrlər*
*(Mənbə: Tarix Dostiyev (2015)*



*Kəhrizin su məcrası. Qəbələ.*
*Səlbir yaşayış yeri. X əsr*
*(Mənbə: Eminli Ceyhun (2013)*

Orta əsrlər dövründə əkinçiliklə yanaşı, ticarətin inkişafı da kəhriz mədəniyyətinə təsir göstərmiş və iri ticari şəhərlərdə onlardan istifadə artmışdır. Böyük İpək yolunun keçdiyi ərazilərə nəzər salsaq, kəhrizlərin sayının artdığı nəzərə çarpır.

Cənubi Qafqazda, İran yaylasında, Asiyanın qərbində və digər quraqlıq ərazilərdə yaşayan xalqlar əsrlər boyu kəhriz suyundan istifadə etmiş, əhalinin məskunlaşma sıxlığı kəhrizlərin mövcudluğundan asılı olaraq dəyişmişdir. Kəhriz mədəniyyəti İran yaylasından başlayaraq Cənubi Qafqaz, Asiya ölkələri (Ərəbistan, Suriya, İordaniya, Əfqanıstan, Pakistan, Türkmənistan, Çin (Turfan çökəkliyi) və s.), Şimali Afrika (Misir, Əlcəzair, Liviya, Mərakeş, Tunis və s.), Avropa (İspaniya, İtaliya, Yunanıstan və s.), hətta Amerikayadək (Meksika, Peru, Çili və s.) yayılmışdır.

Dünyanın ən qədim kəhrizi İranda yerləşən, 2700 yaşı olan Qonabad kəhrizidir. Hazırda işlək vəziyyətdə olan İran kəhrizləri UNESCO-nun mədəni irs siyahısına daxildir.[7]

İspaniyada kəhriz sistemi ərəb işğalları dövründə yaradıldı. Madriddə yerləşən iki böyük kəhriz “Viage de Alcubilla” və “de la Kastellana” şəhəri içməli su ilə təmin edirdi.[8] Kəhriz sistemi XIX əsrədək İspaniyada əsas su təchizatı vasitəsi sayılırdı. İspan mədəniyyətinin Latın Amerikasında yayılması kəhriz sisteminin bu ərazilərdə mövcudluğuna yol açdı.

“Kəhriz” sözünün ilkin variantı “kuhriz” (farsca “kuh” dağ, “riz” axan deməkdir, yəni “dağdan axan” mənasını verir) olmuş, sonralar “kəhriz” şəklini

---

[6] ناجی مهدی. پایان تمدن کاریزی در ایران // مجله سخن، شماره۹ ، تهران، خرداد ماه، ۱۳۵۲ ،ص. ۹۳۹

[7] The Persian Qanat. https://whc.unesco.org/en/list/1506

[8] Cornel Braun. **Teheran, Marrakesch und Madrid Ihre Wasserversorgung mit Hilfe von Qanaten Eine stadtgeographische Konvergenz auf kulturhistorischer Grundlage,** Bonn, 1974, s.11.

almışdır. İranda "kariz" və ya "qanat", Əfqanıstan və Pakistanda "karez", Ərəbistanda "fələc", Şimali Afrikada "foqqara", Mərakeşdə "khettara", İspaniyada "galerias", Maltada "qanat", Peruda "puguios" adlanır. Kəhriz sistemi ayrı-ayrı ölkələrdə müxtəlif cür adlanmasına baxmayaraq, texniki baxımdan eyni inşaat xüsusiyyətlərinə malikdir.

### *Azərbaycan kəhrizləri*



*Kəhriz. Ordubad şəhəri. 2023. (Foto müəllifə məxsusdur)*

Kəhriz sistemi orta əsrlər boyu Azərbaycan şəhərlərinin su təchizatında mühüm əhəmiyyət daşımışdır. Prof. Tarix Dostiyevin apardığı arxeoloji qazıntılardan Şəmkirdə IX-X əsrlərə aid inşaat qatında şəhərin rabad sahəsində kəhriz qalıqları aşkarlanmışdır.[9] Kəhrizin divarları bişmiş kərpiclə hörülmüşdür. Professorun fikrincə, kəhrizlərdən orta əsr Bərdə, Gəncə, Bakı, Təbriz şəhərlərinin su təchizatında istifadə olunması arxeoloji qazıntılarda tam təsdiqlənmişdir.[10]

Qəbələnin Səlbir yaşayış yerində X əsrə aid kəhriz tuneli və üç quyusu aşkar edilmişdir. Quyuların dərinliyi getdikcə artmaqdadır. Arxeoloq Ceyhun Eminlinin gəldiyi qənaətə görə, tunellər şimaldan cənuba və cənub-qərbə doğru dərinləşdirilməklə suyun axarı tənzimlənmişdir.[11]

Arxeoloji qazıntılarda aşkarlanan kəhriz sistemi yazılı qaynaqlarda da təsdiqini tapır. XIV əsr müəllifi Həmdullah Mustofi "Nüzhət əl-qulub" əsərində yazır: "Təbriz şəhərində çoxlu bağlar var. Suyu Səhənd dağlarından gələn Mehranrud çayıdır. Sərvət sahiblərinin (mülkədarların – İ.M) 900-dən çox kəhrizi var. Yalnız Rey darvazasında[12] Zahid kəhrizi, Narmiyan darvazasında Zəfəran kəhrizindən başqa bu kəhrizlərin və çayın sahibi var.. Çay suyu kəhriz suyundan yaxşıdır, kəhriz suyu isə quyu suyundan yaxşıdır.[13] Akademik Ə.Əlizadə XIII-XIV əsrlər dövrünə həsr etdiyi əsərində bu xüsusda yazır: "Əminliklə söyləmək olar ki, Azərbaycanın heç bir şəhərində, eləcə də qonşu ölkələrdə Təbrizdəki qədər kəhriz olmamışdır".[14]

---

[9] Tarix Dostiyev. **Orta əsr Şəmkir şəhərinin abadlığı arxeoloji qazıntıların işığında.** Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), 2015, №1, s.91.

[10] Tarix Dostiyev. **Orta əsr Şəmkir şəhərinin abadlığı arxeoloji qazıntıların işığında.** Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), 2015, №1, s.91.

[11] Ceyhun Eminli. **Qəbələ arxeoloji ekspedisiyası: hesabatlar, tapıntılar.** Bakı, CBS, 2013, s.81.

[12] "Darvaza" dedikdə məhəllə nəzərdə tutulur.

[13] حمدالله مستوفی، حمدالله بن ابی بکر. نزهت القلوب. تهران، اساطیر، ۱۳۸۹ ، ص. ۷۷

[14] Абдулкерим Ализаде. **Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв**. Баку, 1956, с.41.

XIV əsrdə yaşayan Məhəmməd ibn Hinduşah Naxçıvaninin "Səhahül-fors" lüğətnaməsində də kəhrizlərin izahı verir.[15]

Avropa memuarlarında kəhrizlər haqqında məlumata rast gəlinir. Venesiyalıların "Səfərnamə"lərində çaydan başlayan kəhrizin qazılması prosesi ətraflı izah edilir:

Çayın yaxınlığında çala qazır və oradan da qazıntıya davam edirlər. Yerin qatlarını nəzərdə tutduqları dərinliyə qədər qazır və suyu yer səthinə çıxarırlar. Getgedə quyuları artırır və məcra halına salırlar. Bu arxdan başlayaraq 200 addım qazdıqdan sonra əvvəlki quyu kimi bir quyu da qazırlar. Beləliklə, su bir quyudan digərinə keçir. Bu iş başa çatan kimi quyunun məcrasını çaya yönləndirir və öz şəhərlərinə çatdırırlar. İstəsələr suyu dağ ətəyindən də kəhrizlərə axıdarlar. Əgər belə etməsələr, yaşamaq üçün yer tapa bilməzlər.[16]

Əsrlər əvəzlənməsinə baxmayaraq, kəhrizlər əməli əhəmiyyətini itirmir, əksinə onlar daha da genişlənirdi. Bəzi şəhərlərdə hətta çayın altı ilə lağım atılaraq kəhriz qazılırdı. XIX əsr müəllifi Nadir Mirzə Qacarın yazdığına görə, Təbrizin şimalından axan Acıçayın altından Nəhənd kəndinə kəhriz xətti çəkilmiş, iri daşlar, əhəng və bişmiş kərpiclə çay suyunun sızmaması üçün lağımın daxili möhkəmləndirilmişdi.[17]

XIX əsrdə yaşamış yəhudi əsilli həkim, etnoqraf Y.E.Polak Qacarlar dövrünə dair tədqiqatında kəhrizlərin qazılma prosesini və onların funksiyasını izah edərək yazır ki, tarlaların suvarılması müxtəlif yollarla həyata keçirilir: 1. Kəhrizlər; 2. Çay suyunun bölünməsi və ayrılması; 3. Bəndlər; 4. Quyular.[18] Göründüyü kimi, müəllif suvarmada əsas vasitə olaraq kəhrizləri ilk sırada göstərir və onların əhəmiyyətini vurğulayır.

Mənbələrdə qeyd edildiyi kimi, su mənbəyi olaraq kəhrizlər məskunlaşmanın əsas şərti idi. Azərbaycanın bir sıra yaşayış məskənlərində – Naxçıvan, Ordubad, Şamaxı, Bakı, Gəncə, Şuşa, Lahıc, Basqal və digər yerlərdə su təchizatının belə qədim forması vardı.[19] Orta əsrlərdə Bakıda Şah kəhrizi fəaliyyətdə idi. XIX əsrin ikinci yarısında Bakıya daha iki kəhriz xətti çəkilmişdir.[20] Bakı kəndlərində yaşlı məlumatçılar üstü örtülmüş kəhrizlərdən bəhs edirlər.

Ordubad, Naxçıvan və digər şəhərlərdə yaşı yüzillərlə olan və hələ də işlək vəziyyətdə kəhrizlər mövcuddur. Yaxın günlərədək ordubadlılar qarpız, qovun və digər meyvələri, qovurmanı, pendir, kərə yağı və ümumən tədarük etdikləri azuqəni

---

[15] محمد بن هندوشاه نخجوانی. صحاح الفرس. باهتمام دکتر عبدالعلی طاعتی، چلپ دوم، تهران، بنگاه ترجمه و نشر کتاب، تهران، ۲۵۳۵ (شاهنشاهی)، ص. ۱۲۹

[16] سفرنامه های ونیزیان در ایران (شش سفرنامه). ترجمه منوچهر امیری، چاپ دوم، تهران، شرکت سهامی انتشارات خوارزمی، ۱۳۸۱، ص. ۸۷

[17] نادرمیرزا. تاریخ و جغرافیای دارالسلطنه تبریز. چاپ سوم، تبریز، انتشارات اقبال، ۱۳۶۰، ۳۷٤ ص. ٦٢

[18] Yacob Eduard Pola. **Persien (Das Land und Seine Bewohner Ethnographische Schilderungen).** 2 Teile, Leipzik, Brockhaus, 1865, p.118.

[19] Мамед Насирли О некоторых источниках водоснабжения населенных пунктов Азербайджанской ССР. **Азербайджанский этнографический сборник**. Выпуск IV. Издательство «Элм», 1981, с.92.

[20] Rayihə Əmənzadə. **Azərbaycan memarlıq abidələrinin tipologiyası (XI-XVII əsrlər).** Dərs vəsaiti. Bakı, "Xəzər Universiteti" Nəşriyyatı, 2016, s.102.

sərin olduğundan çeşmədə saxlayırdılar. Sovet dövründə çeşmədə ət saxlamağa və orada sabundan istifadəyə qadağa qoyulmuşdur. Çeşmə suyu yağışda və qarlar əriyəndə spesifik dad verdiyindən onu daşdan süzürdülər. Hazırda Ordubad şəhərində həyətlərdə həmin iri daşlar qalmaqdadır.

Gəncə və ətraf əraziləri də kəhrizlərin sayına görə diqqət çəkir. Tədqiqatçı F.Əhmədovun yazdığına görə, bütövlükdə, Gəncə dairəsində 25 kəndin istifadə etdiyi 97 kəhriz olmuşdur ki, onlardan 30-u Gəncə şəhərinin ərazisinə düşür.[21] 2024-cü ildə Gəncədə etnoloji səfərdə olduğumuz zaman məlum oldu ki, mənbəyi Qızılqayadan götürülən, Dal Ozan küçəsində (indiki İsmət Qayıbov küçəsi, Şahsevənlər məhəlləsi) axan sonuncu kəhriz yaxın illərdə bağlanmışdır.

Qarabağın Ermənistan tərəfindən işğalınadək bu bölgədə yüzlərlə işlək kəhriz vardı. Torpaqlarımız işğaldan azad olunduqdan sonra təkcə Ağdam ərazisində olan 67 kəhrizdən yalnız biri (Şahbulaq kəhrizi) qalmışdır, 2023-cü ildə Aşağı Əbdürrəhmanlı kəndindəki qədim kəhriz bərpa olunmuşdur.[22] Bundan başqa, işğaldan azad olunmuş ərazilərdə (Ağdam, Cəbrayıl və s.) kəhrizlərin bərpasına başlanılmışdır.

Ağstafa rayonunun Yuxarı Göycəli, Aşağı Göycəli, Köçəsgər və Qırılı kəndlərində hazırda da işlək vəziyyətdə kəhrizlər mövcuddur.

Göstərilən ərazilərdən əlavə, Lənkəran-Astara bölgəsində də kəhriz qeydə alınmışdır. Qarabağ və Gəncə-Şamxor (Şəmkir – İ.M) kəhrizlərindən fərqlənən Lerikin Zuvand ərazisindəki kəhriz dəniz səviyyəsindən 1300 m hündürlükdə olub, quyuları bir-birindən 15-20 m aralı yerləşirdi.[23]

Əhali "kəhriz" sözü ilə yanaşı, suyun yer səthinə çıxdığı yerə "çeşmə", quyulara "gözə" ("çeşmənin gözü" mənasındadır) deyir. Bəzi yerlərdə çeşmə suyu yerin dərinliyindən axdığından ona çatmaq üçün maili şəkildə 40 sayda pilləkən salınmışdır. Bu cür çeşmələr "qırxayaq" adlanır. Xalq arasında çeşmənin başına "gürə", suyu az olan çeşmələrə isə "zinə bulaq" deyilir. Xalq arasında "gözə" adlanan quyular kəhrizin çeşməsinə yol sayılırdı.

Kəhrizlər geniş yayıldığından toponimlərdə də əksini tapmaqdadır. Etnoloji tədqiqatlara əsasən, Goranboy rayonunun Kəhrizli kəndi və digər yaşayış məskənləri kəhrizlərin yaranmasından sonra formalaşmışdır. Maraqlıdır ki, Cənubi Azərbaycanda "kəhriz" sözü ilə bağlı çoxlu sayda toponimlərə təsadüf edilir: Sulduzda *Kəhrizə* kəndi,[24] Xiyavda *Abbas kəhrizi* kəndi,[25] Urmiyədə *Kəhriz* kəndi,[26] Təbriz ətrafında *Nəzər kəhrizi* kəndi,[27] Ərdəbil yaxınlığında "Kəhriz" adlı üç kənd və *Güdəkəhriz*

---

[21] Fərrux Əhmədov. **Gəncənin tarix yaddaşı.** Gəncə, "Elm" nəşriyyatı, 2007, s.96.

[22] Bəhmən Əliyev. **Qarabağın ənənəvi suvarma sistemi (tarixi-etnoloji tədqiqat).** Bakı, 2024, s.111.

[23] Шахпеленг Гулиев. О кягризах Лерикского района. Материалы к сессии, посвященной итогам полевых археологических и этнографических исследований 1971 г. В СССР, Издательства «Элм», 1972, с.56.

[24] محمود پناهیان (تبریزی). فرهنگ جغرافیایی ملی ترکان ایران زمین. جلد سوم، (شهرستانهای رضایه – خوی – مراغه – ماکو – مهاباد. ۱۳۵۱ ، ص. ۷۷۹

[25] Yenə orada, s.770.

[26] Yenə orada, s.90.

[27] محمود پناهیان (تبریزی). فرهنگ جغرافیایی ملی ترکان ایران زمین. جلد دوم، (آذربایجان شرقی). ۱۳۵۱ ، ص. ۱۵۰

kəndi,[28] Miyanədə *Kəhriz* kəndi,[29] Xoyda *Qara kəhriz* kəndi,[30] Marağada *Kəhriz* kəndi,[31] Makuda *İncəbaş kəhriz* və *Qara kəhriz* kəndləri,[32] Zəncanda *Sukəhriz* kəndi, Xamnədə *Qara kəhriz* kəndi və s. yer adlarına rast gəlinir.

Keçmişdə kommunikasiya vasitələri zəif olduğundan qadınlar əsasən məscid, hamam və ailə məclislərinə toplaşıb görüşərdilər. Lakin ictimai yerlərin azlıq təşkil etdiyi məhəllələrdə və ya kəndlərdə qadınlar paltar yumaq, su götürmək üçün çeşmə başına yığışaraq əhvallaşar, burada bir-birindən müxtəlif mövzulardan xəbər alardılar.[33] Su lazım olmasa belə, bir-birilərini görmək və günün xəbərlərini eşitmək üçün qadınlara hər gün kəhrizə getmək vacib bilinirdi. Əgər təsadüfən bir qadın bir gün kəhrizə getməzdisə, sabahacan deyərdi ki, bu gün kəhrizə gedə bilmədik, dünyadan xəbərimiz olmadı.[34] Beləliklə, günümüzün əsas informasiya vasitəsi olan interneti keçmişdə qadınlar üçün kəhrizlər əvəz edirdi. Bundan başqa, bazar, məscid, meydan, çayxanalar da cəmiyyətin əsas informasiya məkanı sayılırdı.

***Kəhrizin qazılması***

Kəhriz sistemi ana mənbədən başlayaraq qazılan əsas xətt və onu vaxtaşırı təmizləməkdən ötrü köməkçi quyulardan və suyun üzə çıxarılması üçün yeraltı bulaqlardan ibarətdir. Kəhriz qazmaqla məşğul olan "kənkanbaşı", "lağımçı", "çarxçı", "dolkeş" adlı işçilərdən ibarət xüsusi kənkan dəstələri fəaliyyət göstərirdi. Kənkanlıq peşəsi irsən keçirdi. Kiçik kəhrizlər bir kənkan və 2-3 nəfər ixtisaslı fəhlə tərəfindən bir aya qazılardısa, dərin və uzun kəhrizləri işlək vəziyyətə gətirmək daha çox işçinin daxil olduğu ekipajın iştirakı ilə bəzən illərlə uzanırdı. Kəhrizlərin tam hazırolma müddəti coğrafi şəraitdən (qazıntının dərinliyi, torpağın yumşaqlığı və s.) asılı olaraq dəyişirdi.

Kəhriz basılarkən bəzi inam və sınamalara da riayət edilirdi. İnanca görə, qazıntıya başlamazdan əvvəl dua oxuyar, nəhs günlər işə çıxmazdılar.

Kənkanlar kəhriz qazılmasında xüsusi alətlərdən – dolama-çarx, külüng, keçə bel (çalov), dol, qarmaq, kəndir və çiyin şəltəsindən istifadə edirdilər.[35] Bundan başqa, balta və kürəklər, torpağın qaldırılıb daşınmasından ötrü dəri çanta, qablar və iplər lazım gəlirdi. Yeraltı lağımlarda irəliləmək üçün işıqlandırma vasitəsi də vacib idi. Boğulmamaq üçün az tüstü verən, əsasən qoyun piyi ilə yanan lampalardan və bal mumundan istifadə olunurdu. Şöləsi gur olduğundan çıraqlara gənəgərçək yağı da tökülürdü.

Lağımboyu divarların çökməməsi, su cərəyanının torpağı yuyub yolu tuta bilməməsi üçün tikinti işləri aparılırdı. Gil və saman qarışığından ibarət palçıq 3 gün havada saxlanır, sonra tikintidə işlənirdi.

---

[28] Yenə orada, s.281, 282, 288.
[29] Yenə orada, s.655.
[30] Yenə orada, s.161.
[31] Yenə orada, s.353.
[32] Yenə orada, s.417.
[33] İlhamə Məmmədova. Təbriz şəhərinin maddi mədəniyyəti. Bakı, 2016, s.232.
[34] Hesari Mirhidayət (13 xordad 1371). Kəhrizekan (Yekankəhriz). Səhənd qəzeti (türkcə ettelaat). Tehran, çəharşənbe, sayı 109 (əski əlifbada), s.3.
[35] Əlövsət Quliyev. Naxçıvan kəhrizləri. Bakı, Nurlan, 2008, s.15.

Kəhrizlərin qazılmasında bir neçə üsul vardı. Yumşaq torpağa malik düzən relyef üçün yeraltı lağımlar səciyyəvi idi. Dağlıq relyefdə isə dağ və qayalar çapılırdı. Kəhriz xətlərinin dərinliyi onların keçdiyi ərazinin relyefindən asılı olaraq müxtəlif ölçülərdə olurdu ki, bu da suyun lazımi yerə qədər axıdılmasını təmin edirdi.

Adətən dağlıq ərazidəki su mənbəyindən başlayaraq davam edən tunel bir qədər maili qazılır və heç bir nasos qurğusuna ehtiyac olmadan yerin cazibə qüvvəsi ilə suyun axını təmin edilir. Həmin maili tunel boyu bir neçə quyu qazılır və onlar vasitəsilə su buxarlanmadan müxtəlif ərazilərə səmərəli şəkildə paylanır. Yuxarı axarlarda su daha gur və sərin olur. Bəzi hallarda gecə vaxtı kəhriz suyu saxsı tinglərlə su anbarına axıdılır və ehtiyat üçün saxlanırdı.



*Kəhrizin qazılma prosesi*

Etnoloji məlumatlardan bəlli olur ki, torpağın rütubətliliyi, həmçinin bitkilərin üzərinə düşən şeh kəhriz qazılması üçün ərazinin əlverişli olduğunu müəyyən edirdi. İlkin baxış dağlıq yerdən başlayaraq dağətəyinə doğru davam edir, yeraltı su axınlarının istiqaməti izlənirdi. Kənkan dəstəsi ilk olaraq qazılacaq yeri müəyyənləşdirirdi. Təcrübə əsasında müəyyən olunmuşdur ki, əgər həmin yerdə suyun olmasını nişan verən otların nümunəsi – qamış, çayır və s. tapılardısa, burada gümana quyusu qazılardı – vurulardı.[36] Diametri təqribən 1 m olan gümanə quyusu ilə su mənbəyinin dərinliyi müəyyənləşdirilirdi. Torpaq inək dərisindən düzəldilən dol vasitəsilə iki nəfər tərəfindən yuxarı qaldırılır və quyunun yanına boşaldılırdı. Sulu torpaq görünənə kimi gümanə quyusunun qazıntısı davam edirdi. Qazılan yerdə su mənbəyi olmadıqda digər yerdə yeni gümanə quyusu qazılırdı.

Qazıntıya başlayarkən bir sıra maneə ilə – qaya, güclü qaz axını, suyun təzyiqi və s. ilə üzləşmək qorxusu vardı. İş vaxtı yanan çırağa diqqət yetirirdilər. Çünki quyuda oksigen olmadıqda ilk növbədə çıraq sönürdü. Quyuda hər hansı qoxu hiss olunardısa, oraya sirkə və doğranmış qovun qoyurdular. Su mənbəyinə çatıb, ana quyu ilə digərlərini birləşdirən zaman bəzən qəfildən su fışqırır və kənkan həlak ola bilərdi.

[36] Şahpələng Quliyev. Naxçıvanda ənənəvi suvarma əkinçiliyi. Azərbaycan etnoqrafik məcmuəsi, V buraxılış. Bakı, "Elm", 1985, s.30.

Bədbəxt hadisələrin qarşısını almaq kənkandan səriştə və təcrübə tələb edirdi. Kənkanların ağır zəhmətini diqqətə çatdıran E.Polak vurğulayır ki, nadir hallarda torpaq sürüşməsi baş verirdi və kənkanlar həlak olurdu. Bu peşə təhlükəli olduğundan onların zəhmət haqqısı digərlərindən çox idi...kəhrizin çəkilməsi külli miqdarda vəsait tələb edir. Bu məbləğ xüsusi müəssisələr tərəfindən, iri şəhərlərdə dövlət tərəfindən, dini ocaqlarda isə vəqf əmlakından ödənirdi.[37]

Yeraltı lağım boyu təqribən 30-40 metr, bəzən 100-150 metrdən bir quyular qazılırdı. Kəhriz qazılarkən suyun yeraltı axını boyu quyuların hündürlük nisbətinə diqqət yetirilirdi. Onlar təxminən 10-20 metr dərinlikdə qazılırdı. Çünki quyular həddən artıq dayaz olardısa, suyun axını zəifləyər, çox dərin qazılardısa çökmə baş verə bilər və iş prosesində kənkan dəstəsi üçün təhlükə yarana bilərdi. Kəhrizin uzunluğu boyu bu quyuların sayı (bəzən 200-ə çatırdı) dəyişik olurdu. Lağımın sonu dağdakı su məcrasına çatanda, su birbaşa kəhrizin içi ilə axırdı. Kəhrizin ana xəttinə köməkçi xətlər də birləşdirilirdi. Kəhriz hörülməsində əsasən çay daşlarından və bişmiş kərpicdən istifadə olunurdu.

Su anbarlarının, saxsı boruların və hovuzların möhkəmliyi və su keçirməməsi üçün onların üzərinə xüsusi maddə çəkilirdi. Daş əhəng kürədə bişirilir, soyuduqdan sonra döyülərək ələkdən keçirilir və üzərinə zeytun, yaxud gənəgərçək yağı tökülürdü. Daha möhkəm olması üçün əhəngə yumurta və süd əlavə edilib qarışdırılırdı. Əhəngi açmaq üçün suya bir qədər sirkə qatılırdı.

Orta əsr mənbələrinə əsasən Təbrizdə quyular 30 gəz dərinlikdə (Şam-Qazanda 10 gəz, Rəb-rəşididə 70 gəz) qazılırdı.[38] Ayrı-ayrı ərazilərdə dərinliyi müxtəlif olan kəhriz quyuları (gözələr) çöküntünü saxlamaqdan ötrü lağımdan bir qədər dərin qazılırdı. Onlar havanın dəyişməsini təmin etməklə yanaşı, həm də bu gözələr sayəsində vaxtaşırı su xəttinin içi lil yığıntısından arıtlanıb təmizlənirdi. Bunun üçün iməciliklər keçirilirdi.

Quyunun, yəni gözənin içərisinə düşmək üçün onun divarlarında ayaq yerləri qoyulurdu. Bəzən böyük sel gələndə quyulara yol tapıb kəhrizləri batırırdı. Kənkanlar çərx-çarxı (dolama-çarx) hər bir quyunun başında qurub lığ palçığı boşaldırdılar. Tunel adətən çaydaşı və bişmiş kərpiclə hörülür. Kəhrizlərin möhkəmliyi, zəlzələyə davamlılığı vacib şərt sayılırdı. Güclü zəlzələlər zamanı kəhrizlər çökə bilərdi. 1962-ci ilin payızında Qəzvində (İran) baş verən zəlzələ nəticəsində kəhrizin böyük bir hissəsi dağılmışdır.[39]

XIX əsrdə Cənubi Azərbaycanda (Təbriz və s.) kəhriz qazan məşhur ustalar, ixtisaslaşan kənkan dəstələri vardı. Onlar hətta Qafqazın müxtəlif bölgələrinə muzdla işləməyə dəvət olunurdular. Etnoqraf Q.Rəcəblinin yazdığına görə, kəhriz qazanlar Cənubi Azərbaycandan gələn kənkan dəstələri idi. Onlara əmək haqqı danışıq və razılaşmadan asılı olaraq natura və pul ilə ödənilirdi. Kəhrizlərin qazılması və təmiri

---

[37] Yacob Eduard Polak. **Persien (Das Land und Seine Bewohner Ethnographische Schilderungen).** 2 Teile, Leipzik, Brockhaus, 1865, p.118.

[38] حمدالله مستوفی، حمدالله بن ابی بکر. نزهت القلوب. تهران، اساطیر، ۱۳۸۹ ، ص. ۷۷

[39] Braun Cornel. **Teheran, Marrakesch und Madrid Ihre Wasserversorgung mit Hilfe von Qanaten Eine stadtgeographische Konvergenz auf kulturhistorischer Grundlage,** Bonn, 1974, s.12.

xərci onun suyundan istifadə edən kənd camaatı, məhəllə sakinləri və ya ayrı-ayrı sahibkarlar tərəfindən çəkilirdi.[40]

Kəhriz quyularında müddətcə yaranan şoraları təmizləmək, kəhrizləri arıtlamaq üçün ildə bir dəfə Novruz bayramı ərəfəsində sakinlər kənkanlara müraciət edirdilər. Məlumatçılara görə, XIX əsrin sonu – XX əsrin əvvəllərində Ordubadda usta Məhəmmədhəsən tanınmış kənkan idi. Ötən əsrdə şəhərdə "professor Həmid" ləqəbli usta məşhurlaşmışdı. Qeyd edək ki, hazırda kənkanlıq peşəsi tarixə qovuşmuş, kəhrizlərin təmir-bərpası ilə mühəndis-texnoloqların nəzarəti ilə fəhlələr məşğul olurlar.

***Su bölgüsü və su ölçü vahidləri***

Su bölgüsü xalq arasında əsrlər boyu formalaşan qaydalarla ağsaqqallar tərəfindən müəyyənləşdirilirdi. Qaydaya əsasən, su hansı ərazidən keçirdisə, həmin mülkün sahibi suyun maliki sayılırdı. Ona görə də torpaq və su anlayışları birlikdə başa düşülürdü.

Suyun ədalətli bölüşdürülməsindən ötrü "mirab" adlı vəzifə sahibləri təyin olunurdu. Təbriz ətrafındakı nahiyələrdə su bölgüsü kəhriz və ya çeşmənin təmizlənməsində iştirak edənlərin sayına görə aparılırdı.[41] Çay və çeşmələrin suyu bağ və tarlalara onlar üçün müəyyən edilmiş günlərdə aylıq, yaxud illik haqqı ödənilməklə paylanırdı. Həmin gün su götürmək üçün hərə öz bağının arxını açıq qoyurdu. Su bir bölgənin kəndlərinə eyni vaxtda verilirdi.

Tarixi sənədlərdən məlum olur ki, suyun özünün deyil, onun axıb keçdiyi sahənin satılması nəzərdə tutulurdu. Xalqın düşüncəsinə görə, su, od və çöl otlarının istifadəsində hamı bir-biri ilə şərikdir və şəriətdə suyun satılması haram əməl sayılır. Camaat inanır ki, su Həzrəti Fatimənin mehriyyəsi olmuş və xanım sudan istifadəni ehsan bilərək onu hamıya halal etmişdir.

Kəhriz suyu alğı-satqı və ya icarəyə verilərkən "göl" adlı su ölçü vahidindən istifadə olunurdu. Bir göl – 24 saat, yarım göl – 12 saat, bir çərək – 6 saata bərabər idi. Böyük və suyu gur olan kəhrizlərin suyu saatla deyil, dəqiqə ilə ölçülürdü. Bir arpa – 2 saat 24 dəqiqə, yarım arpa – 72 dəqiqə, bir çet – 36 dəqiqəyə bərabər tutulurdu.

Suyun miqdarını müəyyən etmək üçün xalq arasında "*təştə*" (bəzi yerlərdə "kasa" da deyilir) adlanan ölçü vahidindən istifadə edilirdi. Təştə, dibindən dəqiq ölçülü kiçik deşik açılan, kasayabənzər mis alət idi. O, su mənbəyinin üstünə bərkidilirdi. Suyun aram-aram ona dolması üçün müəyyən vaxt tələb olunurdu. Bu əməliyyat bir neçə dəfə təkrarlanır və bununla məlum olurdu ki, hər tarlaya neçə vahid su çatdırılıb. Alətin bir dəfə dolması xalq arasında "bir təştə", tarlanı suvarmaq məqsədilə 12 saat ərzində 40 dəfə, bəzi kəhrizlərdən 60 dəfə dolan həmin təştələr "tağ" adlanırdı.

Suvarmada zaman ölçü vahidlərindən olan təştə İranın müxtəlif bölgələrində istifadədə idi.[42] Naxçıvanda su ölçü vahidi kasa – tanqa adlanmış, bundan əlavə, adı çəkilən bölgədə su, qum və ya darını saxsı qaba tökərək onun həmin qabdan açılan

---

[40] Qəzənfər Rəcəbli. **Azərbaycanda su mənbələri və sudan istifadənin xalq üsulları.** Bakı, Bakı Slavyan Universiteti "Kitab aləmi", 2007, s.30.

[41] پورافکاری نصرالله. شیوه های سنتی تقسیم آب در ایران // مجله هنر و مردم، شماره ۱۹۳، تهران، ۱۳۵۰، ص. ٤۹

[42] Илья, Петрушевски. **Земледелие и аграрные отношения в Иране XIII-XIV веков.** Москва-Ленинград. Издательство Академии наук СССР, 1960, с.129-130.

kiçik gözcükdən tökülüb qurtarması suvarmada bir növbə vaxt hesab olunurdu.[43] Bu tipli ibtidai ixtiralar bəzi Şərq ölkələrində təkcə suvarmada deyil, zamanı ölçmək üçün də istifadə edilirdi. Hazırda Hindistanın bir neçə əyalətində bu alət hələ də öz əhəmiyyətini saxlamaqdadır.[44]

### *Nəticə*

Qədim dövrdən başlayaraq dünyanın müxtəlif ərazilərində, o cümlədən Azərbaycanda təşəkkül tapan kəhriz sistemi ölkədə əkinçilik təsərrüfatının təşəkkülünün, oturaq həyatın və şəhər mədəniyyətinin formalaşmasının göstəricisidir. Azərbaycanda son dövrün arxeoloji qazıntıları kəhriz sisteminin əsasən ərəb işğallarından sonrakı dövrdə yayılmasını təsdiqləmişdir. Bəşərin əhəmiyyətli ixtiralarından olan kəhrizlər bir sıra ərazilərdə (Ordubad, Naxçıvan, Qarabağ, Gəncə və s.) həm içməli, həm də suvarma məqsədilə istifadə edilmişdir. Şəhərlərdə su anbarları, buzxanalar, məscidlər, hamamlar, səqqaxanalar və s. kəhriz suyu ilə təmin olunurdu.

Tədqiqatlar göstərir ki, Azərbaycanda kəhriz mədəniyyəti hələ də öz mövcudluğunu qoruyur və hazırda əhalinin suya olan tələbatının ödənilməsində qismən əhəmiyyət daşıyır. Dünyanın, o cümlədən ölkəmizin gələcək su qıtlığı problemini nəzərə alsaq, kəhrizlərin praktik əhəmiyyəti yüksəkdir və bu baxımdan onların təmir-bərpası vacibdir. Azərbaycanın tarixi şəhərlərində əsrlərlə yaşı olan kəhrizlərin qorunması və bərpası mədəni irsimizin gələcək nəsillərə çatdırılmasına xidmət etməklə yanaşı, həm də bu obyektlər bölgələrin turist marşrutlarına daxil edilə və ölkənin turizm potensialını artıra bilər.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES


1. Eminli, Ceyhun. **Qəbələ arxeoloji ekspedisiyası: hesabatlar, tapıntılar.** Bakı, CBS, 2013.
2. Dostiyev, Tarix. **Orta əsr Şəmkir şəhərinin abadlığı arxeoloji qazıntıların işığında.** Bakı Universitetinin Xəbərləri (humanitar elmlər seriyası), 2015, №1.
3. Əhmədov, Fərrux. Gəncənin tarix yaddaşı. Gəncə, “Elm” nəşriyyatı. 2007.
4. Əliyev, Bəhmən. **Qarabağın ənənəvi suvarma sistemi (tarixi-etnoloji tədqiqat).** Bakı, 2024.
5. Əmənzadə, Rayihə. **Azərbaycan memarlıq abidələrinin tipologiyası XI-XVII əsrlər.** Dərs vəsaiti. Bakı, “Xəzər Universiteti” Nəşriyyatı, 2016.
6. Məmmədova, İlhamə. **Təbriz şəhərinin maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat).** Bakı, “Çaşıoğlu”, 2016.
7. Qasımov Etibar. **Azərbaycanın orta əsr su təchizatı (IX-XV əsrlər) (tarixi-arxeoloji tədqiqat)**. Bakı, “Adiloğlu”, 2002.
8. Quliyev, Əlövsət. **Naxçıvan kəhrizləri.** Bakı, “Nurlan”, 2008.
9. Quliyev, Şahpələng. Naxçıvanda ənənəvi suvarma əkinçiliyi. **Azərbaycan etnoqrafik məcmuəsi, V buraxılış,** Bakı, “Elm” 1985.


[43] Şahpələng Quliyev. Naxçıvanda ənənəvi suvarma əkinçiliyi. **Azərbaycan etnoqrafik məcmuəsi, V buraxılış.** Bakı, “Elm”, 1985, s.37.

[44] روزنه ای به تاریخ ایران. گردآورنده، شکوه عظمی قریب، ترجمه دکتر ژان قریب، چاپ اول، تهران، چاپخانه حیدری، ۱۳۷۸ ، ۱۳۷۸ ص. ۳۹

10. Rəcəbli, Qəzənfər. **Azərbaycanda su mənbələri və sudan istifadənin xalq üsulları.** Bakı, Bakı Slavyan Universiteti “Kitab aləmi”. 2007.
11. Hesari, Mirhidayət. **Kəhrizekan (Yekankəhriz),** “Səhənd” qəzeti (türkçə ettelaat), Tehran, çəharşənbe, 13 xordad 1371, sayı 109 (əski əlifbada).
12. Ализаде, Абдулкерим. **Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв**. Баку, 1956.
13. Гулиев, Шахпеленг. О кягризах Лерикского района. **Материалы к сессии, посвященной итогам полевых археологических и этнографических исследований 1971 г. В СССР**, Издательства «Элм», 1972.
14. Петрушевский, Илья. **Земледелие и аграрные отношения в Иране XIII-XIV веков**. Москва-Ленинград: Издательство Академии наук СССР. 1960.
15. Насирли, Мамед. О некоторых источниках водоснабжения населенных пунктов Азербайджанской ССР. **Азербайджанский этнографический сборник. Выпуск IV.** Издательство «Элм». 1981.
16. Cornel, Braun. **Teheran, Marrakesch und Madrid Ihre Wasserversorgung mit Hilfe von Qanaten Eine stadtgeographische Konvergenz auf kulturhistorischer Grundlage,** Bonn. 1974.
17. Yacob, Ed. **Persien (Das Land und Seine Bewohner Ethnographische Schilderungen).** 2 Teile, Leipzik, Brockhaus. 1865.
18. The **Persian Qanat.** https://whc.unesco.org/en/list/1506
19. کیانی هفت لنگ کیانوش. کتاب ایران (گذری بر جغرافیای ایران)، چاپ اول، تهران، انتشارات بین المللی الهدی، ۱۳۷۹
20. ناجی مهدی. پایان تمدن کاریزی در ایران // مجله سخن، شماره۹ ، تهران، خرداد ماه، ۱۳۵۲
21. هنری مرتضی. کاریز // هنر و مردم، تهران، ۲۵۳٤ (شاهنشاهی) ، شماره ، ۱۸۰
22. نادر میرزا. تاریخ و جغرافیای دارالسلطنه تبریز. چاپ سوم، تبریز، انتشارات اقبال، ۱۳٦۰
23. روزنه ای به تاریخ ایران. گردآورنده، شکوه عظمی قریب، ترجمه دکتر ژان قریب، چاپ اول، تهران، چاپخانه حیدری، ۱۳۷۸
24. پورافکاری نصرالله. شیوه های سنتی تقسیم آب در ایران // مجله هنر و مردم، شماره ۱۹۳، تهران، ۱۳۵۰
25. میمنت نژاد کریم. تاریخ حکم آباد تبریز (هکم آوار). چاپ اول، تبریز، انتشارات فن افزار، ۱۳۸٦
26. زهرا علیزاده بیرجندی، ابوالفضل مکری فر، سیده کلثوم کاظمی، محمد رضا سرور. نگارش بر مهرنامه عصر قاجاریه در بیرجند. تهران، معاونت فرهنگی و ارتباطات، ۱۳۸۵
27. محمود پناهیان (تبریزی). فرهنگ جغرافیایی ملی ترکان ایران زمین. جلد دوم، (آذربایجان شرقی). ۱۳۵۱
28. محمود پناهیان (تبریزی). فرهنگ جغرافیایی ملی ترکان ایران زمین. جلد سوم، (شهرستانهای رضایه – خوی – مراغه – ماکو – مهاباد. ۱۳۵۱
29. حمدالله مستوفی، حمدالله بن ابی بکر. نزهت القلوب. تهران، اساطیر، ۱۳۸۹
30. سفرنامه های ونیزیان در ایران (شش سفرنامه). ترجمه منوچهر امیری، چاپ دوم، تهران، شرکت سهامی انتشارات خوارزمی، ۱۳۸۱
31. محمد بن هندوشاه نخجوانی. صحاح الفرس. با هتمام دکتر عبدالعلی طاعتی، چلپ دوم، تهران، بنگاه ترجمه و نشر کتاب، تهران، ۲۵۳۵ (شاهنشاهی)

MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR

Məmmədova İlhamə Gülbala qızı – tarix elmləri doktoru, dosent. AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. Azərbaycan, Bakı

Mammadova Ilhama Gulbala – Doctor of Historical Sciences, associate professor, A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.57-63*

**UOT: 39**

# AZƏRBAYCAN QADINININ ƏNƏNƏVİ MƏRASİM GEYİM VƏ BƏZƏKLƏRİ (XIX-XX ƏSRİN ƏVVƏLLƏRİ)

©2025

KƏMALƏ ƏLİYEVA*

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ORCİD: 0009-0004-8825-6605; e-mail: aylin_kama@mail.ru

***Xülasə:*** *Məqalədə qadın bəzəkləri geyim kompleksinin ayrılmaz tərkib hissəsi kimi müzakirə olunur, bəzəklərin seçilməsində yaş xüsusiyyətlərinin rolu və bəzək növləri haqqında danışılır. Burada qadın bəzəklərinin tipoloji və bədii-estetik xüsusiyyətləri, onların ümumi Azərbaycan mədəniyyətindəki yeri və əhəmiyyəti ümumiləşdirilib.*

*Azərbaycan ərazisində zərgərlik sənəti uzun və mürəkkəb bir inkişaf yolu keçib. Bu bəzəkləri canlı şəkildə görərkən qədim zərgərlərin yüksək ustalığına heyran qalmamaq mümkün deyil.*

*Azərbaycanda ən qədim, sevilən və şən bayramlardan biri olan Novruz qeyd olunur, hansı ki, xalqımızın ənənəvi dəyərlərini özündə cəmləşdirir. İnsanlar yalnız bayram süfrələrini qurmaqla kifayətlənməyib, həm də Novruzu parlaq və rəngarəng milli geyimlər və bəzəklərlə qarşılamışlar. Şəl və atlasdan hazırlanmış qadın paltoları zərif siluetə və kəsimə malik olub, Azərbaycan gözəllərinin incə belini vurğulayırdı. Bu paltarları zərgərlik məmulatları – bəzəklər tamamlayırdı.*

***Açar sözlər:*** *bəzəklər, geyim, qadın, zərgərlik məmulatları, mədəniyyət, etnoqrafiya*

# THE TRADITIONAL CEREMONIAL CLOTHING AND DECORATIONS OF AZERBAIJANI CUISINE (EARLY 19TH – EARLY 20TH CENTURY)

©2025

KAMALA ALİYEVA*

*A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS
ORCİD: 0009-0004-8825-6605; e-mail: aylin_kama@mail.ru

***Abstract:*** *Women's jewelry is considered as an integral part of the clothing complex, the dependence of wearing certain jewelry on age characteristics, the typology of jewelry in the article. The typological, artistic and aesthetic features of women's jewelry, their place and significance in the Azerbaijani culture are also summarized.*

*The art of jewelry in the territory of modern Azerbaijan has come a long and thorny path. It is impossible not to notice the high skill of ancient jewelers when you see them live.*

*Azerbaijan is celebrating one of the most ancient, beloved and cheerful holidays of Novruz, which has absorbed the traditional values of our people. They not only laid festive tables, but also preferred to meet Novruz in bright and national clothes and accessories. Women's dresses made of silk and velvet had an elegant silhouette and cut, emphasizing the flexible waist of Azerbaijani beauties. They were complemented by jewelry.*

***Keywords:*** *jewelry, clothes, woman, jewelry, culture, ethnography*

## ТРАДИЦИОННАЯ ЦЕРЕМОНИАЛЬНАЯ ОДЕЖДА И УКРАШЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ЖЕНЩИНЫ (КОНЕЦ XIX – НАЧАЛО XX ВЕКА)

©2025

КАМАЛА АЛИЕВА*

Институт Истории и Этнологии НАНА имени А.А.Бакиханова
ORCİD: 0009-0004-8825-6605; e-mail: aylin_kama@mail.ru

***Резюме:*** *В статье женские украшения рассматриваются как составная часть комплекса одежды, зависимость ношения тех или иных украшений от возрастных особенностей, типология украшений. Так же обобщены типологические, художественно-эстетические особенности женских украшений, их место и значение в обще-азербайджанской культуре.*

*Искусство ювелирного дела на территории современного Азербайджана прошло длинный и тернистый путь. Если увидеть эти украшения вживую, невозможно не заметить высокое мастерство древних ювелиров.*

*В Азербайджане отмечается один из самых древних, любимых и веселых праздников Новруз, который вобрал в себя традиционные ценности нашего народа. Люди не только накрывали праздничные столы, но и предпочитали встречать Новруз в яркой и красочной национальной одежде, и аксессуарах. Женские платья из шелка и бархата имели изящный силуэт и покрой, подчеркивая гибкие страны азербайджанских красавиц. Ихдополнялиювелирные изделия – украшения.*

***Ключевые слова:*** *украшения, одежда, женщина, ювелирные изделия, культура, этнография*

### *Giriş*

Milli geyimlər maddi mədəniyyətin mühüm elementlərindən biri olmaqla, xalqın ictimai-iqtisadi vəziyyəti, ərazinin təbii-coğrafi şəraiti və etnik mənsubiyyəti ilə qarşılıqlı əlaqədə inkişaf etmişdir. Özündə xalq yaradıcılığının müxtəlif sahələrini

birləşdirən milli geyimlər etnik xüsusiyyətləri və estetik zövqü əks etdirir. Hər hansı bir geyim təkcə onu hazırlayan dərzilərin deyil, həmçinin geyimlə əlaqədar digər sənət ustalarının da əməyinin məhsuludur.

Hələ XIV-XVII əsr Təbriz miniatür rəsmlərində təsvir olunan geyimlərə əsasən demək olar ki, azərbaycanlıların dövrə uyğun rəngarəng və zəngin geyim mədəniyyəti olmuşdur. Bu da onunla əlaqədardır ki, Azərbaycanın Şamaxı, Dərbənd, Şəki, Şuşa, Naxçıvan, Təbriz, Ərdəbil, Urmiya, Bakı, Quba, Xoy, Marağa kimi şəhərlərində toxuculuq sənəti xeyli inkişaf etmişdir.[1] Toxuculuq sənətində çox müxtəlif parça növlərindən istifadə olunurdu. Gəncə ustalarının istehsal etdikləri yüksək keyfiyyətli bafta, darayı, cecim və başqa parçalara böyük tələbat var idi. Bu parçalardan şəhərdə çalışan yetmiş dərzi müxtəlif kişi və qadın paltarları tikirdi.[2]

Etnoqrafik tədqiqatlar nəticəsində XIX əsr milli qadın geyim komplektinə daxil olan geyim növləri müəyyənləşdirilmişdir. Bura üst və can köynəkləri, cüttuman, taybalaq, darbalaq, zıbını, çəpgən, çərkəzi, ləbbadə, nimtənə, küləçə, katibi, kürdü, çalma, arxalıq, çutçu, ləçək, örpək, kəlağayı, başmaq, çust, corab, kəmər və müxtəlif bəzək növləri daxil idi.[3]

Qızıl və gümüşdən hazırlanmış bəzək əşyaları geyimin əsas tərkib hissələrindən biri kimi ona bədii cəhətdən milli kolorit verir və geyim komplektini tamamlayırdı. Maddi mədəniyyətin digər ünsürləri kimi, geyimlər də ictimai-iqtisadi həyatda baş verən proseslərin təsirinə məruz qalmış və tədricən əsaslı dəyişikliklərə uğramışdır.[4] XIX əsrin ortalarına kimi həmin dəyişikliklər bir o qədər nəzərə çarpmırdı. Xüsusilə kənd yerlərində yeniliklərə münasibətdə mühafizəkarlıq hiss olunurdu. Bu da onunla əlaqədar idi ki, kapitalist münasibətləri kəndə çox çətinliklə yol tapırdı. Odur ki, kənddə qadın geyim və bəzəklərində davam edən ənənəviliyi izləmək daha asandır.

Əsas cəhətlərdən biri də kənd yerlərində islam və müsəlman qaydalarına daha ciddi şəkildə əməl edilməsidir. Bu faktor qadın geyimlərindəki fərqlər və məhəlli xüsusiyyətlər haqqında əsaslı fikir söyləməyə imkan vermir. Buna baxmayaraq, bəzi etnoqrafik materiallara əsasən xalq geyimləri və bu geyimləri tamamlayan zinət əşyaları haqqında müəyyən mülahizələr söyləmək mümkündür.

Məlum olduğu kimi, baş örtüyü İslam qanunları ilə hər bir müsəlman qadını üçün vacib sayılmışdır. Bununla əlaqədar bəzəklərin də müəyyən növləri mövcud olmuşdur ki, onlar baş örtüyünün vacib elementləri kimi çıxış etmişlər. Onlardan çalma və örpəkləri (bənarə, sərəndaz) bərkitmək, saçları yığmaq və s. üçün istifadə edilmişdir.[5] Bu sırada "cütqabağı", "qarabatdaq", "araqçın", "təsəkqabağı" və s. qeyd etmək olar.

---

[1] Cəmil Mustafayev. **Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq**. Bakı, "Elm", 2002, s.80.

[2] Эвлия Челеби. Книга путешествия (**Извлечения из сочинения турецкого путешественника XVII века**). III. Институт Востоковедения. Москва, Наука, 1983, с.21.

[3] Həvil Həvilov. **Azərbaycan etnoqrafiyası.** Bakı, "Elm", 1991, s.141.

[4] Yenə orada.

[5] Фазаил Велиев. **Материальная культура Западной зоны Азербайджана XIX – начале XX** вв. Баку, «Элм», 1996

Bununla belə baş bəzəkləri sırasında tacın özünəməxsus yeri olmuşdur. Tac əsasən varlı və kübar qadınların baş örtüyünü tamamlayırdı. Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər bu bəzək növündən geniş istifadə olunmuşdur. Qadın və qızların istifadə etdikləri araqçının da Azərbaycanda yayılma arealı geniş olmuşdur. Araqçınlar müxtəlif muncuqlarla bəzədilirdi.

XIX əsr qadın geyim dəsti əsasən köynək, tuman və arxalıqdan ibarət idi. Varlı və əsilzadə qadınların köynəyinin yaxası düz xətt boyunca deyil, oymalı formada biçilir, ətrafına qızıl və gümüş bəzəkli yaxalıq əlavə olunurdu. Eyni zamanda qadın köynəyinin yaxası, ətəyi, biləyi, yan çapıqları, "bafta", "hərəmi", "qaragöz" və s. müxtəlif bəzəklərlə tamamlanırdı. Köynəyin qabaq ətəyinə asma qızıl və gümüş pullardan ibarət "ətəklik" tikilirdi.[6] Həmçinin "arpa", "midaxil", "həbbabi", "böyrəyi qızıl" və s. elementləri olan müxtəlif ətəkliklərdən də istifadə olunurdu. Köynəklərin yaxasına "quş para" və "qozalı" adlanan düymələr bütün yaxa boyunca tikilirdi. Kasıb qadınların köynəkləri isə çox sadə olub, qaytanlar və köbələrlə bəzədilirdi. Köynəklərə uyğun tumanlar biçilirdi. Əlbəttə, hərə öz maddi imkanına görə geyindiyi üçün kasıb qadınların tumanları da ucuz parçalardan biçilirdi. Varlı qadınların tumanları bahalı parçalardan, büzməli və qırçınlı formada hazırlanırdı. Tumanların ətəklərinə iki-üç cərgə "bacaqlı" adlanan qızıl və gümüş pullardan bəzək vurulurdu.[7]

Milli geyim növlərindən birini təşkil edən arxalığın yaxa və ətək hissəsi "bafta", "qaragöz", "sərmə" kimi bəzəklərlə bəzədilirdi.

Qadın üst geyimlərinin "ləbbadə", "küləcə", "çəpkən", "nimtənə", "çərkəzi" adlanan tipləri də mövcud olmuşdur. Çəpkənin yaxasının bəzədilməsində qızıl və gümüş pullardan istifadə olunurdu. Çərkəzi adlanan üst geyimlərinə isə düymələr tikilirdi.

Qadınlar arasında "zıvın" adlı üst qadın geyim növü qış geyimləri tipinə daxildir. Yarımqol, qoltuqlarının altı açıq olan bu geyim növü tünd rəngli saya parçadan tikilirdi. Etnoqraf Q.Qaraqaşlı onun ayrımlar arasında daha geniş yayıldığını və iki növünün olduğunu göstərmişdir "ara zıvın" və "üst zıvın", "Üst zıvın"ın üzəri mis və gümüş pullarla, piləklərlə, dekorativ düymələrlə bəzədilirdi.[8] Bu geyim növü Tovuz-Şəmkir bölgəsi qadınları üçün də xarakterik olmuşdur.[9]

Qadın geyiminin vacib elementləri sırasına toqqa və kəmərlər də daxil idi. Toqqa və kəmərlər üst geyimlərinin ayrılmaz tərkib hissəsi kimi XX əsrin əvvəllərinə kimi dəbdə olmuşdur.

Ayaq geyimlərindən olan qadın başmaqları geyim formasına uyğun müxtəlif muncuqlarla və tikmə naxışlarla bəzədilirdi. Bəzi imkanlı kişilər hətta qadınların ayaqqabılarını da qiymətli brilyant qaşlarla bəzəməyə çalışırdı. Bu baxımdan

---

[6] Həvil Həvilov. **Azərbaycan etnoqrafiyası**. Bakı, "Elm", 1991, s.141.

[7] **Yenə orada.**

[8] Кара Каракашлы. **Материальная культура азербайджанцев северо-восточной и центральной зон Малого Кавказа (историко-этнографической исследование),** Академия наук Азерб. ССР Институт Истории. Баку, Изд., АН Азерб. ССР. 1964, с.136-137.

[9] Фазаил Велиев. **Материальная культура Западной зоны Азербайджана XIX – начале XX** вв. Баку: «Элм», 1996, 165 с.

M.S.Süleymanovun "Eşitdiklərim, oxuduqlarım və gördüklərim" kitabındakı məlumat çox maraqlıdır. O yazır: "Bir dəfə milyonçu arvadları xeyriyyədə "İsmailiyyə" binasında ziyafət düzəldirlər. Deyilənə görə, həmin ziyafəti təsvir etmək mümkün deyilmiş, ləl-cavahirat, platin-qızıl içində üzən qadınların gülüş və qəhqəhələri binanın möhtəşəm salonlarında əks-səda yaradırmış... Ağa Musanın gürcü arvadı bəzəkdə, geyimdə, cavahiratda birinci yeri tuturdu. O başdan-başa zümrüd, gül-çiçəklər, quşlar, pərvanələr içində idi. Hətta ayaqqabıları da bərq vururmuş... Müsəlman Cəmiyyətinin xeyriyyə mərasimində Sona xanımın gözəlliyinə və üst-başındakı ləl-cavahirata hamı heyran qalırdı".[10] Bu fakt ictimai bərabərsizliyin qadın geyimlərində təzahürünün ən bariz nümunəsi kimi çıxış edir.

XIX əsrin sonlarına doğru Azərbaycan mədəniyyətinin müxtəlif sahələrində olduğu kimi, geyim mədəniyyətində də dəyişikliklər baş verirdi. Yeni sosial təbəqələrin yaranması zəminində buradakı fərqli cəhətlər daha qabarıq nəzərə çarpırdı. Belə ki, yerli geyimlərlə yanaşı, Avropa üslubunda tikilmiş paltarlara varlı əhali arasında meyl güclənirdi. Qadınlar paltarlarının rənglərinə uyğun daş-qaşlardan istifadə edirdilər. Yaqut, firuzə, zümrüd kimi daşlar qırmızı, göy, yaşıl paltarlarla uyğunluq təşkil edirdi. İri şəhərlərdə yaşayan digər millətlərin nümayəndələri – rus, yəhudi, tatar və başqaları da azərbaycanlılara məxsus geyimlərin bəzi elementlərindən istifadə edirdilər.

Milli geyimlərin daha çox kəndlərdə qorunub saxlanması bu dövrdə ticarətin və sənətkarlığın kənddə şəhərlərə nisbətən zəif inkişaf etməsi və geyimlərdə yerli şəraitdən irəli gələn xüsusiyyətlərin üstünlük təşkil etməsi ilə əlaqədar idi. İri şəhərlərdə isə xaricdən gətirilmə zinət əşyaları əhalinin, xüsusilə kübar ailələrin həyatına sürətlə daxil olurdu.

XX əsrin əvvəllərində Azərbaycanda Sovet hakimiyyətinin qurulması nəticəsində geyimlərdə əsaslı dəyişikliklər baş verdi. Əgər XIX əsrin sonlarında cütqabağı qarmaq silsilə kimi bəzək növlərindən istifadə edilirdisə, XX əsrdə bu bəzək növləri demək olar ki, dəbdən düşmüşdü.[11]

Azərbaycan qadınlarının geyim və bəzəklərində yaş fərqi və ictimai təbəqələşmənin əlamətləri də aydın görünürdü.

Azərbaycanlı qadınların həyat tərzi, geyim və bəzəkləri haqqında H.Sarabskinin "Köhnə Bakı" əsərində də maraqlı materiallara rast gəlinir. Müəllif yazır: "Məlum olduğu kimi, keçmişdə bütün Azərbaycanda, o cümlədən Bakıda qadınlar dörd divar arasında məhkum, məzlum, avam və cahil bir halda yaşayırdılar. Onlar ictimai yerlərə çıxmazdılar. Onların getdiyi yer toy, yas və hamam idi. Dövlətli qadınlar toya və hamama ümumiyyətlə özlərini göstərməyə, varlı olmayanlar qarşısında lovğalanmağa gedərdilər. Bir də görərdin ki, dövlətli qadın on iki taxtalıq alışdım-yandım tumanını, al-xaradan tikilmiş, yaxası baftalı köynəyini, pəncə-pəncə donunu geydi, başına qızıl cütqabağı bağladı. Onun üstündən cərgə gül qızıl silsiləsini, həmailini bağladı, qollarına qızıl qolbaqlarını keçirib, belinə qızıl kəmərini, barmaqlarına əlvan qaşlı

---

[10] Mövlud Süleymanov. **Eşitdiklərim, oxuduqlarım, gördüklərim**. Bakı, "Azərnəşr", 1989, s.97.

[11] Kəmalə Hadıyeva**. XIX-XX əsrin əvvəllərində Azərbaycanda ənənəvi qadın bəzəkləri**. (Tarixi-etnoqrafik tədqiqat). Bakı, "Xəzər", 2009, s.110.

qızıl üzüklərini taxıb, ayağına gümüşdaban başmağını geyib, başına al rəngli Şirvan ipək çarşabını salıb, satıl boxçasını qaravaşa verib hamama getdi. Bu qədər zinətlə hamama gəlib soyunar və bütün süslü-bəzəkli əşyasını bir boxçaya bağlar və hamamçıya tapşırardı".[12]

Azərbaycan əhalisinin geyiminin rəngarəngliyi etnik müxtəlifliklə də şərtlənirdi. Bu baxımdan etnoqraf E.Kərimovun "XIX əsrdə Azərbaycanda yaşayan etnik və etnoqrafik qrupların öyrənilməsi tarixindən" adlı məqaləsi çox maraqlıdır.[13] Məqalədə həmin dövrdə yaşayan xarici müəlliflərin M.M.Kovalevskiy, A.İ.Plotto, İ.A.Oqranoviç, M.S.Bejanov və digərlərinin tatlar, şahsevənlər, yəhudilər və qaraçıların həyat tərzi və geyimləri haqqında verdikləri məlumatlar ön plana çəkilir. Bu faktlara və digər ədəbiyyat materiallarına əsasən demək olar ki, Azərbaycan ərazisində yaşayan ayrı-ayrı xalqlar geyimlərindəki spesifik cəhətləri qoruyub saxlaya bilmişlər. Xüsusilə Şəki-Zaqatala və Lənkəran-Astara bölgələrinin qadınları geyimləri ilə digər bölgə qadınlarından fərqlənirlər. Qol və barmaq bəzəklərinə daxil olan qolbaqlar və üzüklər geyimlə əlaqədar olmadığı üçün onların istifadəsi sərbəst idi. Etnoqrafik materiallar təsdiq edir ki, azərbaycanlıların geyimlərinə hər yaş dövrünə (qız, gəlin, cavanlıq, analıq və yaşlı qadınlar) aid müəyyən bəzəklər qrupu uyğun gəlirdi. Burada yaşdan əlavə qadınların fiziki inkişaf dövrü və sosial funksiyaları da rol oynayırdı.

Azərbaycan qadınları xüsusilə bayram günlərində yeni libas və bəzəklərə, al-əlvan geyimlərə üstünlük verirdilər. Bu ənənə günümüzədək davam etməkdədir. Belə bayramlardan biri də Novruz bayramıdır. Xalqımız yeni gün olan Novruza böyük önəm vermişdir. Bu baxımdan bayram ərəfəsində və bayram günlərində istifadə etdiyimiz geyimlər də önəmlidir. Novruz bizim milli bayramımız olduğu üçün müasir dövrümüzdə bəylər və xanımların daha çox milli geyimlərə, milli aksesuarlara üstünlük verməsi gözəl olardı. Azərbaycanın qədim adət-ənənələrini həm mətbəximizdə, həm geyimlərimizdə, musiqimizdə əks etdirməliyik. Milli geyimlərimiz, əlvan libaslar, arxalıqlar, çuxalar, araqçınlar, aksesuarlar, bəzək əşyaları keçmişdən günümüzə qədər gəlib çatan qaydalar Novruz bayramı ərəfəsində yenidən xatırlanır. Hər bir azərbaycanlının qarderobunda mütləq milli geyim olmalıdır. Milli ornamentdə olan bəzək əşyaları, kəlağayı – fərqi yoxdur.

***Nəticə***

Milli geyimlər Azərbaycan xalqının zəngin mədəni irsinin və tarixi ənənələrinin əks olunmasıdır. Bu geyimlər, xüsusilə Novruz bayramı kimi əlamətdar günlərdə, həm estetik, həm də sosial əhəmiyyət daşıyır. Ənənəvi geyimlər, maddi mədəniyyətin bir hissəsi olaraq, xalqın etnik xüsusiyyətlərini və yaşayış tərzini qoruyub saxlayaraq, həm keçmişə, həm də bu günə aydın bir baxış acısı təqdim edir. Geyimlərimiz, həmçinin, Azərbaycanın müxtəlif mədəniyyətlər və xalqlar ilə qarşılıqlı əlaqələrinin bir nəticəsi olaraq inkişaf edib, zənginləşmişdir.

---

[12] Hüseynqulu Sarabski. **Köhnə Bak**ı. Bakı, "Yazıçı", 1982, s.253, s.172.

[13] Эмил Керимов. Из истории изучения этнических и этнографических групп Азербайджана в XIX в. АЭС, вып. III. Баку: «Элм», 1977, с.25.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Hadıyeva, Kəmalə. **XIX-XX əsrin əvvəllərində Azərbaycanda ənənəvi qadın bəzəkləri. (Tarixi-etnoqrafik tədqiqat)**. Bakı, "Xəzər", 2009, 172 s.
2. Həvilov, Həvil. **Azərbaycan etnoqrafiyası**. Bakı, "Elm", 1991, 252 s.
3. Mustafayev, Cəmil. **Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq.** Bakı, "Elm", 2002, 272 s.
4. Sarabski, Hüseynqulu. **Köhnə Bakı**. Bakı, "Yazıçı", 1982, 253 s.
5. Süleymanov, Mövlud. **Eşitdiklərim, oxuduqlarım, gördüklərim.** Bakı, "Azərnəşr", 1989, 373 s.

**Rus dilində**

6. Велиев, Фазаил. **Материальная культура Западной зоны Азербайджана XIX – начале XX вв. Баку,** «Элм», 1996, 165 с.
7. Каракашлы, Кара. **Материальная культура азербайджанцев северо-восточной и центральной зон Малого Кавказа (историко-этнографической исследование).** Академия наук Азерб.ССР Институт Истории. Баку, Изд., АН Азерб.ССР, 1964, 282 с.
8. Керимов, Эмиль. **Из истории изучения этнических и этнографических групп Азербайджана в XIX в**. АЭС, вып. III. Баку, «Элм», 1977.
9. Челеби, Эвлия. **Книга путешествия (Извлечения из сочинения турецкого путешественника XVII века).** III. Институт Востоковедения, Москва: «Наука», 1983, 375 с.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR

Əliyeva Kəmalə Gülağa qızı – tarix üzrə fəlsəfə doktoru, dosent. AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. Azərbaycan, Bakı

Aliyeva Kamala Gulaga – Doctor of Philosophy in history, associate professor, A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku

**UOT: 39**

# ƏHMƏD NƏBİYEVİN ƏLYAZMASI: TARİXİ VƏ ETNOQRAFİK MƏNBƏ KİMİ

©2025

ZƏMİNƏ RƏSULOVA

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi
Şəki "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğu, elmi işçi
ORCİD: 0009-0008-6548-3580, e-mail: zaminarasulova834@gmail.com

***Xülasə:*** *Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondunda dəftər vərəqlərinə yazılmış irihəcmli bir əlyazma mühafizə olunur. Əlyazmanın müəllifi Şəki sakini, müəllim və etnoqraf Əhməd Nəbiyevdir. O, maarifçi, pedaqoq olmaqla yanaşı, Şəkinin tarixi, məişəti və etnoqrafiyası ilə bağlı araşdırmalar aparmış, qeydlər götürmüş, yerli qəzetdə məqalələr dərc etdirmiş və topladığı materiallar əsasında əlyazma tərtib etmişdir. Əhməd Nəbiyevin əlyazmasında Şəkinin tarixi, etnoqrafiyası, məişəti, iqtisadiyyatı, əhalisi, memarlıq abidələri və sənətkarlığı haqqında geniş məlumatlar yer almışdır. Bu məqalədə Əhməd Nəbiyevin topladığı, Şəki ilə bağlı etnoloji baxımdan maraq doğuran məlumatlar araşdırılır.*

***Açar sözlər:*** *Əhməd Nəbiyev, əlyazma, Şəki, tarix, etnoqrafiya, Yuxarı Baş*

## *РУКОПИСЬ АХМЕДА НАБИЕВА: ИСТОЧНИК ИСТОРИИ И ЭТНОГРАФИИ*

*ЗАМИНА РАСУЛОВА*

*Государственное агентство по туризму Азербайджанской Республики*
*Государственный историко-архитектурный заповедник*
*«Юхары Баш» в Шеки, научный сотрудник*
*ORCİD: 0009-0008-6548-3580 , e-mail: zaminarasulova834@gmail.com*

***Резюме:*** *В фонде документальных источников Национального Музея Истории Азербайджана хранится объёмная рукопись, написанная на тетрадных листах. Автор рукописи — Ахмед Набиев, коренной житель древнего Шеки, педагог и этнограф. Несмотря на то, что Ахмед Набиев был просветителем и педагогом, он проводил исследования по истории, быту и этнографии Шеки своего времени, делал записи, публиковал статьи в местной прессе и на основе собранных материалов составил рукопись. В рукописи А. Набиева содержится обширная информация об истории Шеки, его этнографии, быте, экономике, населении, архитектурных памятниках и ремёслах. В данной статье рассматриваются личность Ахмеда Набиева, его рукопись и*

*интересные сведения о Шеки, содержащиеся в ней, а также подчёркивается её значение для региона.*

***Ключевые слова:*** *Ахмед Набиев, рукопись, Шеки, история, этнография.*

*MANUSCRIPT BY AHMAD NABIEV: A SOURCE HISTORY AND ETHNOGRAPHY*

*ZAMINA RASULOVA*

*State Tourism Agency of the Republic of Azerbaijan,*
*Shaki "Yukhari Bash" National Historical and*
*Architectural Reserve, Research Associate*
*ORCİD: 0009-0008-6548-3580, e-mail:* zaminarasulova834@gmail.com

***Abstract:*** *A large-scale manuscript written on notebook pages is preserved in the Documentary Sources Fund of the National Museum of History of Azerbaijan. The author of the manuscript is Ahmad Nabiev, an old resident of Shaki, a teacher, and an ethnographer. Although Ahmad Nabiev was an educator and pedagogue, he conducted research on the history, daily life, and ethnography of Shaki during his lifetime. He took notes, published articles in the local press, and compiled a manuscript based on the materials he collected. His manuscript contains extensive information about Shaki's history, ethnography, daily life, economy, population, architectural monuments, and craftsmanship. This article will explore Ahmad Nabiev, his manuscript, and interesting information about Shaki found in it, as well as discuss its importance for the region.*

***Keywords:*** *Ahmad Nabiev, manuscript, Shaki, history, ethnography.*

## Giriş

"Qafqazın mahal və tayfalarının təsviri üçün materiallar toplusu"nun ("Сборник материалов для описания местностей и племён Кавказа") 1900-cü il tarixli 27-ci buraxılışında Çar Rusiyasının Qafqaz Təhsil Dairəsi Müfəttişinin 14 mart 1880-cı il tarixli 1345 saylı sərəncamı dərc olunmuşdur. Sərəncamda Qafqazdakı təhsil ocaqlarında çalışan müəllimlərə xitabən qeyd olunurdu ki, hər bir kəs tədrislə məşğul olduğu bölgəni öyrənməli və yazıya almalıdır. Beləliklə, bir çox müəllimlər öz fəaliyyətlərini pedaqoji işlə məhdudlaşdırmamış, könüllü etnoqrafa, diyarşünasa çevrilmişdilər. Bu işə böyük maraq göstərmiş, dərindən aludə olmuş müəllimlərdən biri də Əhməd Nəbiyev olmuşdur.

Əhməd Nəbiyevin irihəcmli əlyazmasının iki variantı mövcuddur. Birinci variant Milli Azərbaycan Tarixi Muzeyində, ikinci variant isə tarix üzrə fəlsəfə doktoru, dosent Xaqani Alməmmədovun şəxsi arxivində mühafizə olunur. Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan əlyazma ilə Xaqani Alməmmədovda olan

əlyazmanın müqayisəsini aparmaq hələlik mümkün olmamışdır, bu səbəbdən Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan əlyazma üzərində dayanırıq.

Əhməd Əbdürrəhim oğlu Nəbiyevin 7 aprel 1964-cü il tarixində yazdığı tərcümeyi-halından öyrənirik ki, o, 1 iyul 1885-ci il tarixdə Nuxa şəhərində (indiki Şəki) doğulmuş, 1893-1899-cu illərdə Nuxa şəhər məktəbində təhsil almışdır. 1899-1901-ci illərdə rus dilini fərdi qaydada mənimsəmiş, 1901-1908-ci illərdə Bakıda Mixaylov sənət məktəbində oxumuşdur. O, 1911-ci ilin fevralında Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasında imtahan verərək müəllimlik şəhadətnaməsi almışdır. 1911-1913-cü illərdə həyat yoldaşı ilə birlikdə Karyagin qəzasının Qarğabazar kənd məktəbində, 1913-1919-cu illərdə Nuxa məktəblərində, 1920-1925-ci illərdə Nuxa qızlar seminariyasında, 1946-1957-ci illərdə Bakı şəhərində 44 №-li orta məktəbdə müəllim işləmişdir.[1] O, 1925-ci ildə Bakıya köçmüş, 1943-1944-ci illərdə Qutqaşəndə (Qəbələ), 1945-cı ildə Nuxada yaşamış, 1946-cı ildə yenidən Bakıya qayıtmışdır. Onun 1925-1946-cı illərdə harada çalışdığı haqqında məlumat yoxdur. Əhməd Nəbiyev 1957-ci ildə 72 yaşında təqaüdə çıxmışdır, onun vəfat tarixi hələlik dəqiqləşdirilməsə də 1970-ci ildə dünyadan köçdüyü ehtimal edilir.



Əhməd Nəbiyevin ömür-gün yoldaşı Maral xanım Azərbaycanın görkəmli pedaqoqu, maarifçisi, şair, nasir, etnoqraf, tərcüməçi Rəşid bəy Əfəndiyevin qızıdır. Maral xanım da uzun illər pedaqoji işdə çalışmışdır.[2] Onların oğlu İzzət Nəbiyev (1923-1993) texnika elmləri doktoru, professor, Azərbaycan SSR əməkdar elm və texnika xadimi, SSRİ Dövlət mükafatı laureatı idi.[3] Qızları Rüxsarə xanım isə 1942-ci ildə Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra təyinatla göndərildiyi Nuxa İpək Kombinatında iqtisadçı işləmişdir.

---

[1] **Əhməd Nəbiyevin əlyazmasının fotoları.** Xaqani Alməmmədovun şəxsi arxivi.
[2] T. Əliyev. **Ot kökü üstə bitər**. "Respublika" qəzeti, 27 noyabr 2008-ci il, s.7.
[3] **Nəbiyev İzzət Əhməd oğlu**. Biblioqrafiya. "Azərbaycan ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi, Bakı, 1999.

Əhməd Nəbiyevin bu əlyazması əsasında hazırladığı bir neçə məqaləsi "Şəki fəhləsi" qəzetinin müxtəlif nömrələrində vaxtilə dərc edilmişdir. Çox təəssüf ki, bu dəyərli etnoqrafik materialların geniş şəkildə öyrənilməsi indiyədək elmi diqqətdən kənarda qalmışdır.

**Materialların ümumi təsviri və məzmunu:**

Əhməd Nəbiyevin Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli Mənbələr Fondunda iki kolleksiyası mühafizə olunur.[4] Birinci kolleksiyada (inventar nömrəsi 481) onun şəxsi kitabxanasına aid müxtəlif elmi və bədii kitablar saxlanılır. İkinci kolleksiya isə (inventar nömrəsi 486) təxminən 470 dəftər vərəqində yazılmış əlyazmadır. Əlyazmada həm rus, həm də Azərbaycan dilində məlumatlar mövcuddur ki, bu da əsasən istinad etdiyi mənbələrdən asılı olaraq dəyişir.Əlyazmanı ilk növbədə Şəki haqqında mühüm biblioqrafik mənbə olduğunu saymaq mümkündür. Əhməd Nəbiyev Şəki ilə bağlı məlumatları toplamaqla kifayətlənməmiş, istinad etdiyi mənbələrin adlarını, nəşr tarixi və yerini qeyd etməklə əslində biblioqrafik resurs formalaşdırmışdır. Nəbiyevin əlyazmasında 1897-ci ildə nəşr olunmuş Brokhauz ensiklopedik lüğəti, Qafqaz təqviminin müxtəlif illərə aid nəşrləri, Qafqaz Arxeoqrafiya Komitəsinin Aktları, "Qafqazın mahal və tayfalarının təsviri üçün materiallar toplusu", M.S.Şapsoviçin müəllifi olduğu "Весь Кавказ" (1914) kimi irihəcmli mənbələrlə yanaşı, Leviatovun müəllifliyi ilə 1948-ci ildə dərc olunmuş "XVIII əsr Azərbaycan tarixinin oçerkləri", həmçinin "Şəki xanları və onların nəsilləri" başlıqlı müxtəlif ədəbiyyatlara, qəzet məqalələrinə də müraciət olunmuşdur.



Əhməd Nəbiyev bəzi məlumatları mənbədən asılı olaraq həm rus, həm də Azərbaycan dillərində təkrarlamışdır. Bununla belə istinad etdiyi mənbələrə əlavə olunan, müəllifin şəxsi, empirik biliklərinə əsaslanan qeydlər əlyazmanın dəyərini artırır.

Müəllif Şəkinin tarixi Gəncəli məhəlləsi ilə bağlı maraqlı məlumat verir: "Məlik Nəcəf siftə Gəncədən çoxlu ailə köçürüb indiki qalanın cənubunda Güldəstə sünni qəbiristanı ətrafında yerləşdirdi. Ora "Gəncəli məhləsi" adı verildi. Sünnilər qəbristanlığını isə Xoçüküstə

[4] MATM-nin Sənədli Mənbələrin elmi fond şöbəsinin müdiri Esmira Fəzail qızı Rəhimovanın məlumatı.

köçürdülər". Müəllif Leviatovun "XVIII əsrdə Azərbaycan tarixinin oçerkləri"nə istinad etdiyini bildirsə də, kitabda həmin məlumat əksini tapmır.[5]

Digər maraqlı əlavə isə Şəki hakimi Məhəmmədhəsən xanın qızı Tutu ağa ilə bağlıdır. Əhməd Nəbiyev Qafqaz Arxeoqrafiya Komitəsinin Aktlarında Şəki və Şəki xanlığı ilə bağlı məlumatlara münasibət bildirərək Tutu ağa ilə bağlı belə bir qeyd əlavə etmişdir: "Tutu ağa Noxu şəhərinin "Sarıtorpaq" məhləsində bir məscid tikdirmişdir ki, "Tuti ağa məscidi" adı ilə məşhurdur. O, qadın geniş ehsançılıq ilə şəhərdə bir neçə bulaq açdırmışdı. Tutu ağa yuxarı Birinci Cümə məscidinin qabağındakı qəbiristanlıqda dəfn olunmuşdur".[6]




Hazırda Tutu ağanın məzarı Birinci Cümə məscidinin (Xan məscidinin) arxasında yerləşən Xan qəbristanlığındadır,[7] ancaq məscidin yeri bilinmir. Hazırda Sarıtorpaq məhəlləsində yeganə məscid Gödək minarəli məsciddir, başqa bir məscid mövcud deyil. Ancaq Əbdülqəni Nuxəvinin "Qazıxana dəftəri"ndə Hacı Tuti ağa məscidinin imamının ölümü ilə bağlı məlumatın olması belə bir məscidin həqiqətən də mövcud olduğunu təsdiqləyir.[8]

Şəki xanlığı və xanları haqqında müxtəlif mənbələrə istinad edən Əhməd Nəbiyev Cəfərqulu xanın oğlu İsmayıl xanın 1815-ci ildə atasının ölümündən sonra taxta çıxması, gümüş pullar zərb etdirməsi haq-

[5] Вадим Николаевич Левиатов. **Очерки из истории Азербайджана в XVIII веке.** Баку, 1948. стр. 125.
[6] **Əhməd Nəbiyevin əlyazması.** Milli Azərbaycan Tarixi Muzeyi, Sənədli Mənbələr Fondu, inv № 486, s.84.
[7] Мешадиханум Неймат. **Корпус эпиграфических памятников.** Азербайджана. Т. III. Арабо-персо-тюркоязычные надписи Шеки-Закатальской зоны (XIV век-начало XX века). Bakı, XXI-Yeni Nəşrlər Evi, 2001, 368 s.
[8] Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadə. **Qazıxana dəftəri.** Bakı, Nurlan, 2008. s.58.

qında yazır[9]. Məhəmmədhəsən xanın qızı Tutu ağa ilə evli olan İsmayıl xan təqribən dörd il hakimiyyətdə olmuşdur: "İsmail xan " ضرب نكوي' (zərb Nuxəvi) adı ilə gümüş pul buraxmışdır. Bu sikkəni buraxmaq üçün bir neçə zərgər birgə işləmişdir. Onlar fındıq boyda gümüş parçasını qəlibə qoyub zindanın üstə çəkic ilə bərk vururlar. Qəlibdən çıxan pulun sağ üzündə zərb Nəxəvi, o biri üzü İsmail xan və qılınc olur. Bu pul əhali arasında "İsməxan"( İsmail xan) adı ilə işlənirmiş. Ticarətdə bir isməxan, iki, üç isməxan...deyilərdi"[10]. Bu bir neçə cümlə xanlıqlar dövrü numizmatikasının öyrənilməsi baxımından dəyərli məlumat sayıla bilər.

Müəllif Şəkidə ermənilərin məskunlaşması tarixini də araşdırmışdır. Əhməd Nəbiyev yazır ki, təxminən 1796-cı ildə Varandin qəzasından (Qarabağın Vərəndə mahalı nəzərdə tutulur – Z.R.) 500 erməni ailəsi köçüb Şəkidə məskunlaşmışdır. O vaxtadək Şəkidə erməni olmamışdır. Belə görünür ki, gəlmə ermənilər Kiş kəndindəki qədim xristian məbədinə sahiblənmək istəyiblər, Əhməd Nəbiyev xüsusi vurğulamışdır ki, Kiş kəndindəki kilsəni "avqan" (alban) tayfası tikdirmişdir[11].

Əlyazmada Şəki xanlarının nəslindən olan Ədil xan haqqında olan məlumat da maraq doğurur. 1960-cı ildə Ədil xanla həmsöhbət olmuş müəllif "Əhmədbəylidə at zavodu" başlıqlı yazıda Ədil xanın ailə bağları, həyat və fəaliyyəti haqqında məlumat vermişdir. Ədil xan ana tərəfdən Şəki xanı Məhəmədhəsən xanın, ata tərəfdən isə İlisu hakimi Daniyal Sultanın nəticəsi idi[12]. Bu məlumat Ədil xanın xan nəslindən olub-olmaması ilə bağlı isə mübahisələrə birdəfəlik son qoymuşdur.

Dadanovlar soyadı ilə bağlı Əhməd Nəbiyev yazır: "Hacı Həsən Dadanovun lap çoxdan tənbəki fabrikası vardı. Yerli yəhudilər Vartaşen kəndi və ətraf kəndlərdə yarılığa tənbəki yetişdirirdilər, fabrikanı xammalla təchiz edirdilər. Hacı Həsəndən sonra oğlu Məşədi Xəlil, ondan sonra oğlu Əbdürrəhman dolandırırdı. Yəhudilər Hacı Həsəni çoxdan tanıyırdılar, ona, onun oğluna və nəvəsinə "Həsən dada" adı ilə tənbəki satırdılar". Bu məlumat Dadanovlar soyadının etimologiyası ilə bağlı mübahisələrə aydınlıq gətirmişdir[13].

Təsərrüfat və məişətdə istifadə olunan, müxtəlif materiallardan hazırlanmış əşyaların, yemək və şirniyyatların siyahısının, təsvirlərinin yer alması əlyazmanın etnoqrafik dəyərini artırır. Sadə qələm və karandaşla çəkilmiş təsvirlər müxtəlif əmək və məişət əşyaları haqqında təsəvvür yaradır. Məsələn, Şəkinin ənənəvi yeməyi olan pitinin tərkibi və hazırlanması, müxtəlif ölçülü piti qabları, başmaq və papaqların formaların təsvirini verir. Materiallarda daş karxanalarının coğrafi mövqeyi də göstərilmişdir.

Əhməd Nəbiyevin əlyazmasında 54 sənət və peşənin adı çəkilir, məhsulun hazırlanması üçün lazım olan material və alətlər təsvir edilir, hazır məhsulun qiyməti,

---

[9] Эльдар Исмаилов **"Ханы Хойские.Материалы к родословной и биографиям" Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri.** Dördüncü buraxılış, Bakı, 2003, s.45.
[10] **Əhməd Nəbiyevin əlyazması.** MATM, SMF, inv №486.
[11] **Əhməd Nəbiyevin əlyazması.** MATM, SMF, inv №486, s.36.
[12] **Əhməd Nəbiyevin əlyazması.** MATM, SMF, inv №486, s.295.
[13] Zəminə Rəsulova. Şəkinin memarlıq siması − Dadanovların mülkü, GDU, Elmi xəbərlər jurnalı,2024 №5, s.50-55.

sənətkarların adları əksini tapır. Həmin sənət növlərinin bəzilərinin nəinki özü, hətta adı belə yaddan çıxmışdır. Məsələn, əlyazmada unudulmuş keçəçilik və kürkçülük peşələri haqqında ətraflı məlumat verilir.

Nəbiyev Şəkidə silahsazlıqla bağlı yazır ki, yerli qara, tüstülü barıt Şəkinin Göynük kəndində istehsal olunmuş, silah istehsalına Şəki xanlığının Çar Rusiyası tərəfindən işğalı ilə son qoyulmuşdur. Əlyazmada XIX əsrin ortalarında Şəkidə silahların təmiri ilə Mahmud, Hüseyn, Həmid adlı ustaların məşğul olduğunu yazır. "Şəki sənətkarlar diyarıdır" adlı kitabda 1885-ci ildə Şəkidə 11 nəfər silah ustasının olduğu göstərilir.[14] Ehtimal ki, XIX əsrin ikinci yarısında silahsazlıq və silah təmiri işi gah müəyyən qədər güclənmiş, gah da zəifləmişdir.


459

Бишмиш хөрәк.

Чиловлар.
Ајранчило.
Ахтачило.
Балбачило.
Эвәликчило.

Ашлар.
Башајаглы.
Боранлы.
Булламалы.
Габаглы.
Долмалы (кәләм).
" (тәнәк)
" (бадымҹ.)
" (помидор)
" (хијар.)
Күкүлү
Лобјәли.
Өврүштәли.
Сөзүговурмалы.
Һәмәлчырпма.
Шештәрәкли.
Шорбалы.
Габаглы.

Пиловлар.
Гыргавулпилав.
Гузу.
Довшан.
Тојук.
Туршу.
Чығыртма
Сүтлү.
Фисинҹан.
Шилә.

Кабаблар.
Лүләкабаб.
Табак
Тас.

Тикә кабаб.

Долмалар.
Алма долмасы
Бадымҹан.
Бибәр.
Кәләм.
Помидор.
Тәнәк.
Һејва јарпағы
Хыјар.
Бағырсаг.

Гавурма.
Нарговурма.
Бозговурма.
Сөзү "
Соған "
Пендир "

Хәмир хөрәји
Әриштә.
Гашыг хинкалы.
Кирс. —
Сузмә "
Сүрнүмлү.
Хашыл.
Гуймаг.
Умач.

Гајганак
Јумурта.
Помидор.
Пендир.
Чалма.

Балыг.
Балыг гызартма
Балыг сојутма.

Балыг кабабы.

Пардалаг.
Ҹырдә бырдә.
(ҹызбыз).

Әт хөрәји.
Бозбаш.
Күфтә.
Котлет.
Өврүштә.

Башга.
Бозартма.
Сүјүг.
Шилә
Лобјә.
Довға.
Кәләчош.
Јајма.
Фирни.
Фалуда.

Һалвалар.
Ун һалвасы
Дүјү "
Нишаста "
Доғрама.

Афар.
Сәбзә афары
Пендир "
Соған "

Һәлим ашы
Сәмәни.
Горға бугда
Дүјү горға

Şəki mətbəxindən bəhs edən, yeməklərin siyahısını tərtib edən müəllif Məhəmməd Bağır adlı aşpazın qoyun ətindən piti, bozbaş asıb 1906-cı ilə kimi abgüşt satdığını yazır və piti qablarının müxtəlif ölçülərdə olduğunu göstərir.[15] Aşpazlıq peşəsindən, yeməklərdən bəhs edən Ə. Nəbiyev yazır ki, XX əsrin əvvəllərinə qədər Şəkidə kartof, pomidor istifadə olunmazdı, at, dəvə, dovşan əti satılmazdı. Əlyazmada içkilərlə bağlı məlumatlar da əksini tapır, qeyd edilir ki, yaşlı adamların dediyinə görə, 100-150 il qabaq çay içmək nadir bilməzdilər.

Müşahidələr göstərir ki, Dağıstanın, Gürcüs-

[14] Mustafayev Arif. **Şəki sənətkarlar diyarıdır.** Bakı, Elm, s.17
[15] **Əhməd Nəbiyevin əlyazması.** MATM, SMF, inv № 486, s.103

tanın bəzi yaşlı adamları indi də çay içmirlər. Həqiqətən də, Azərbaycanda çay bitkisi ilk dəfə XIX əsrin sonlarında əkilmiş, çayın elmi əsaslarla becərilməsinə 1929-cu ildən, sənaye miqyaslı plantasiyaların salınmasına isə 1932-ci ildən başlanılmışdır[16].

Ə. Nəbiyev çayın Şəkiyə Hindistan və Kitaydan (Çindən) gətirildiyini yazır və qeyd edir ki, quru çaya "çay xatası", yəni "xatay-kitay" deyilir. Qeyd edək ki, bu gün də bəzi kəndlərdə yaşlılar "xata" sözündən istifadə edirlər.

XIX əsrin əvvəllərində Şəkidə çay dükançılara torbada satılırmış. Dükançılar isə çayı "bala təknə"yə töküb açıq çəki ilə satardılar, lakin müştərisi çox olmazdı. Nəbiyev çayın dəmlənməsi üsulunu ətraflı təsvir edir: "O zaman mis qulplu qazanın içində ortadan külbəsi olurdu. Qazanı su ilə doldurub külbəsinə od kömür töküb qızdırardılar. Qaynayanda ifçin döyülmüş darçın, zəncəfil tozu töküb iki əlində qulplu qazan dükanbədükan gəzib çay satardılar....XIX əsrin əvvəlindən başlayaraq Həvə Qədir adlı biri nəfər qulplu qazanı bu cür gəzdirib çay süzüb satırdı. Bu adam Çayçı Omar Əfəndi məscidinin üstündə balaca bir evdə arvadı ilə birgə yaşayırdı. Təxminən 1860-cı ildən çayçı dükanları – çayxanalar açılmağa başlamışdır. Çayxanaya Rusiyadan böyük, qulplu samovarlar alırdılar". Əhməd Nəbiyev yazır ki, Rusiyada samovar çıxanda bu qazanların adı "çaynik" oldu. Misdən hazırlanmış belə bir çaynik-samovar nümunəsi Şəkidə yerləşən "Minali" butik otelində sərgilənir.

Əlyazmada artıq unudulmuş əqləbəndlik peşəsi haqqında məlumat etnoqrafik baxımdan maraq doğurur. Ə.Nəbiyev yazır ki, Şəkidə 5 əqləbənd ustası var idi. "Onlar üçün ip, ipək lazım idi. İpi və ipəyi boyaqçılara qara, qırmızı, göy, sarı rəngdə boyatdırardılar. Gördükləri işlər: ipək güləbətın qotazlar, ipək iplik eşmə, qaytan, bafta. Başlıq üçün dəvə yunu lazım olur. Qaytanı dərzilər arxalıq, çuxa üçün alırlar. Ustalar: Qasım, Əmiraslan, Gödək Cabbar, Məşədi Fərzəli, Mürid Rza". Etnoqrafik materiallarda sabun istehsalı üçün lazım olan qarağanın Kiçik Dəhnə kəndlilərinin Acınohur gölü ətrafından tədarük etməsi, onun yandırılaraq xammal hazırlanmasından bəhs olunur.

XX əsrin əvvəllərində Şəkidə tikmə, təkəlduz peşəsi ilə məşğul olan kişi sənətkarlar fəaliyyət göstərmişdir: "Kərbəlayı Cabbar1922-ci ildə Leninin, Stalinin və Bağırovun portretlərini eyni sifətdə tikib Komissarlardan yaxşı pul almışdı. Sonra kor olub öldü". Haqqında bəhs edilən təkəlduz ustası Əlizadə Cabbarın əl işlərindən ikisi Rusiyanın Dövlət Tarix Muzeyində mühafizə olunur.[17]

Şəkidə ipəkçiliklə bağlı maraqlı məqamlara toxunan Nəbiyev yazır ki, ipəkçilik buraya Çindən gəlmiş və inkişaf etmişdir. O, ipəkçiliklə məşğul olan şəxslər, zavod və fabriklər haqqında məlumat verir.

---

[16] Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında **Azərbaycan Respublikası Prezidentinin sərəncamı**. https://e-qanun.az/framework/37902 - 11.06.2025

[17] 1) Вышивка. **Портрет В.И. Ленина.** Али-Заде (Алиев) Кербалан Джаббар. Не позднее 1936 г. https://catalog.shm.ru/entity/OBJECT/2935613?query=Джаббар&index=0 2) Портрет И.В. Сталина. Али-Заде Джабар. мастер/ Изготовитель Али-Заде Джабар. **Портрет И.В.Сталина**. Азербайджанская ССР, г. Нуха (Шаки), 1939г. https:catalog.shm.ru/entity/OBJECT/2909421?query=Азербайджанская%20ССР&fund_ier = 647136859_ 648048189&index=17 - 11.06.2025

Mətbəx əşyası sayılan sərpuşun başqa bir funksiyası etnoqrafik əlyazmada aydınlaşır. Məlum olur ki, evdə paltar tikib, yamaq yamayan qadınlar ipək sapları burub ağ və möhkəm "xəyati" hazırlayarkən sərpuşa dolayıblar. Sonralar isə tikiş sapına ehtiyac yaranmış, bəzi ustalar ipək sap hazırlayıb satmışlar. Bunun üçün kartuşka-mağara lazım olur və ustalar "Zinger" tikiş maşınını tokar dəzgahına çevirib mağara düzəldirlər. İpək sap satışını təşkil edən ustalardan bəziləri o qədər varlanırlar ki, özləri emalatxana açıb kələğayı istehsalına başlayırlar.

Kümdarlıqdan söhbət açan Ə.Nəbiyev Şəkidə italyan və yapon barama növləri ilə yanaşı, ağ, qırmızı və yaşıl barama növlərinin olduğunu yazır. İpək istehsalının fərdi kustar istehsaldan manufakturaya keçməsinə yardımçı olan "Hans" dəzgahının təsvirini verir, onların işləmə texnologiyasını izah edir. Əlyazmada ipəyin boyanması üsulları, boyaqçılar və boyama prosesi, boyağın hazırlanmasında nar qərzəyi və sarağandan istifadə üsulları əksini tapır.

XIX əsrdə ipəkçilik sənayesinin sürətli yüksəlişi Şəkiyə özü ilə bərabər istismar da gətirmiş, etirazlar, tətillər baş vermişdir. Əlyazmada fabrikantlara qarşı fəhlə sinfinin etirazları tətilin təşkilatçıları və nəticəsi haqqında məlumatlar əksini tapmışdır.

Tarixi-etnoqrafik materiallardan aydın olur ki, Şəkiyə yun parça əsasən kənardan idxal olunurdu. 1880-ci ildən 1917-ci ilə kimi hər il Dağıstandan Şəkiyə taylarla şal gətirilmiş, yerli dərzilər həmin şallardan lifəli şalvar, çuxa, başlıq tikmişlər.

Əhməd Nəbiyevin maraqlı məlumatlarından biri isə Şəkiyə ilk avtomobillərin gətirilməsi ilə bağlıdır. 1907-ci ildə Musa bəy Əmircanov və başqa tacirlər birləşərək Zaqafqaziya dəmiryollarının Yevlax dəmiryolu stansiyası ilə əlaqəni asanlaşdırmaq məqsədilə bir neçə avtomobil alırlar, poçtla üzbəüzdə Davud bəyin həyətini dayanacaq kimi seçirlər. Şəhər əhalisi 3-4 gün davamlı olaraq axışıb avtomobillərin tamaşa edir. Şəhərə avtomobillər gəlməsi faytonçulara tələbatı azaltdığı üçün onlar Babaratma ziyarətinə gedib nəzir verirlər, bir müddət sonra avtomobillərdən biri qəzaya uğrayır və bu hadisə Molla Nəsrəddin jurnalında gülüş hədəfinə çevrilir. Şəkiyə ilk avtomobilin gətirilməsi 1907-ci ildə şəhərə səfər etmiş fransız səyyahların çəkdiyi fotolarda da əks olunmuşdur.[18]

Əhməd Nəbiyevin etnoqrafik materiallarında adət-ənənələr haqqında da geniş izahlar yer almışdır. "Ruh ölçmə", "yuxuyozma", "fala baxma", "qırxaçar camı" başlıqlı yazılar dövrün inanclarını, dünyagörüşünün öyrənilməsi baxımından maraq doğurur. Həmin yazılar Şəkidə xalq inancları və mövhumatın insanların həyatına təsiri haqqında təsəvvür yaranır.

Müəllifin istinad etdiyi dəyərli mənbələrdən biri Rəşid bəy Əfəndiyevin yaradıcılığıdır. Tanınmış maarif xadimi, yazıçı, etnoqraf, pedaqoq Rəşid bəy Əfəndiyev eyni zamanda Şəkinin tarixi abidələrinin ilk tədqiqatçısı, Şəki ölkəşünaslıq muzeyinin təsisçilərindən biri və onun rəhbəri olmuşdur.[19] "Şəkidə qadınların ailə vəziyyəti" başlıqlı bölmədə qadınların hüquqsuzluğundan bəhs edən Rəşid bəyin onların acınacaqlı vəziyyətindən narahat olması əksini tapır.

---

[18] **Жители Шеки в 1907 г. глазами французских путешественников** https://azerhistory.com/?p=38155

[19] Zəminə Rəsulova. **Şəki tarix diyarşünaslıq muzeyinin tarixi.** 2024, s.55

Etnoqrafik materiallarda "Qudalıq, qız verib, qız almaq" adlı hissədə elçilərin qızı sınaması adəti əksini tapır. Elçiliyə gələn qadınlar yerə kəlağayı sərib qızı onun üstündə gəzdirirdilər ki, görsünlər kəlağayı qırışmır ki...Qırışmış olsa, "dabanı çatlaqdır" deyə almazdılar... Əl qabiliyyətini yoxlamaq üçün qızın tikdiyi və toxuduğu işlərini gətirdib baxırdılar. Əl qabiliyyəti olmayan qızı almazdılar.

XIX əsrin sonu – XX əsrin əvvəllərində qızların təhsil almasından daha çox yaxşı tərbiyə hər şeydən vacib idi. Tərbiyə isə etiket qaydaları ilə hüdudlanmır, qızın əl qabiliyyəti, şəxsi gigiyenası, sənətkarlıq bacarıqları, evdarlığı da əsas götürülürdü.

Ə.Nəbiyevin etnoqrafik materiallarında toya hazırlıq, oğlan və qız toyu, gəlin görməsi və duvaq, yeznə qonaqlığı təsvir edilmişdir. Toy adətləri ilə bağlı hissədə artıq unudulmaqda olan zorxana rəqsi ilə bağlı məlumat isə xüsusilə dəyərlidir. Məlumatlarda pəhləvanların mil kəhanə ilə gəlin karvanını müşayət etməsi zorxananın məişət mərasimlərindəki yerini göstərir. Maraqlıdır ki, Aleksandr Düma da "Qafqaz səfəri"ndə bu rəqsdən bəhs edir, qeyd edir ki, Şəkiyə gələn qonaqlar mil-kəhanə ilə qarşılanırdı.[20]

**Nəticə**

Əhməd Nəbiyevin əlyazması Şəkinin tarixinə, etnoqrafiyasına və ictimai-məişət həyatına aid qiymətli mənbədir. Əlyazma müxtəlif mənbələrin və faktların sadə təsvirindən ibarət deyil, müəllifin şəxsi müşahidələri, empirik bilikləri ilə də zəngindir.

Əhməd Nəbiyev təkcə yazılı mənbələrə deyil, həm də xalq yaddaşına, şifahi tarixə və şəxsi müşahidəsinə əsaslandığı üçün əlyazma son dərəcə önəmli bir resursa çevrilmişdir. Burada əksini tapan məhəllə, qəbiristanlıq, məscid, sənətkarlıq və sənətkar adları, eyni zamanda məişət əşyalarının təsvirləri, yeməklərin reseptləri və istifadə olunan materiallar tədqiqatçılar üçün böyük maraq doğurur. Məsələn, pitinin hazırlanması və onunla bağlı təsvirlər, ya da başmaq və papaqların forması haqqında məlumatlar Şəki mətbəxi və məhəlli geyim mədəniyyətinin tədqiqi üçün etibarlı materiallardır.

Əlyazmada Şəki xanlığının tarixi, xan nəslinə mənsub şəxslərin həyat və fəaliyyəti, pul zərbi və həmin dövrə aid ictimai-siyasi hadisələr barədə məlumatlar da yer alır. Bu baxımdan Tutu ağanın xeyriyyəçilik fəaliyyəti və məscid inşa etdirməsi kimi məlumatlar o dövrdə qadınların cəmiyyətdəki sosial roluna yeni gözlə baxmağa imkan yaradır.

Əlyazma yalnız bir müəllimin diyarşünaslıq maraqlarının məhsulu deyil, həm də peşəkar tarixçi və etnoqrafın dəqiqliklə hazırladığı, zəngin materiallara əsaslandığı dəyərli elmi irsdir.

ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Mustafayev Arif. **Şəki sənətkarlar diyarıdır.** Bakı, Elm, 1987. 104 s.
2. Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üçün Dövlət Proqramı"nın t~~əsdiq edilməsi haqqında Azərbay~~can Respublikası Prezidentinin sərəncamı. https://e-qanun.az/framework/37902

[20] Zəminə Rəsulova. **Şəkidə rəqs-səyyahların xatirələrində və rəsmlərdə.** 2023, s.105-107.

3. **Исмаилов Эльдар. “Ханы Хойские.Материалы к родословной и биографиям” Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri.** Dördüncü buraxılış, Bakı, 2003, səh 34-58.
4. Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadə. **Qazıxana dəftəri.** Bakı, Nurlan, 2008. 161 s.
5. **Əhməd Nəbiyevin əlyazması.** Milli Azərbaycan Tarixi Muzeyi, Sənədli Mənbələr Fondu, inv № 486, 470 səh.
6. Nəbiyev İzzət Əhməd oğlu. **Biblioqrafiya.** ”Azərbaycan ensiklopediyası” Nəşriyyat-Poliqrafiya Birliyi, Bakı, 1999.
7. Əliyev Telman. **Ot kökü üstə bitər**. “Respublika” qəzeti, 27 noyabr 2008-ci il, s.7.
8. Rəsulova Zəminə. **Şəki tarix diyarşünaslıq muzeyinin tarixi**, Qədim Diyar, Beynəlxalq onlayn elmi jurnal. 2024, Cild: 6, Sayı: 3, s.53-60
9. Rəsulova Zəminə. **Şəkidə rəqs-səyyahların xatirələrində və rəsmlərdə,** Mədəniyyət jurnalı, Yanvar-fevral (347) 2023, s.105-107.
10. Rəsulova Zəminə. **Şəkinin memarlıq siması − Dadanovların mülkü,** GDU, Elmi xəbərlər jurnalı, Gəncə, 2024 № 5. S.50-55.
11. Левиатов Вадим Николаевич. **Очерки из истории Азербайджана в XVIII веке**. Баку, Изд-во АН Азерб. ССР, 1948. 227 стр.
12. Мешадиханум Неймат. **Корпус эпиграфических памятников.** Азербайджана. Т. III. Арабо-персо-тюркоязычные надписи Шеки-Закатальской зоны (XIV век-начало XX века). Bakı, XXI-Yeni Nəşrlər Evi, 2001, 368 s.
13. **Жители Шеки в 1907 г. глазами французских путешественников** https://azerhistory.com/?p=38155
14. Вышивка. Портрет В.И. Ленина. **Али-Заде (Алиев) Кербалан Джаббар.** Не позднее 1936 г. https:// catalog.shm. ru/entity/ OBJECT/2935613? query=Джаббар&index=0$ Портрет И.В. Сталина. Али-Заде Джабар. мастер/Изготовитель **Али-Заде Джабар.** Портрет И.В. Сталина. Азербайджанская ССР, г. Нуха (Шаки), 1939 г. https:// catalog. shm.ru/ entity/ OBJECT/ 2909421? query= Азербайджанская% 20ССР&fund_ier=647136859_648048189&index=17


MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR


Rəsulova Zəminə İsmayıl qızı- elmi işçi, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi, Şəki “Yuxarı Baş” Milli Tarix Memarlıq Qoruğu

Rasulova Zamina İsmayil-resercher, State Tourism Agency of the Republic of Azerbaijan, Shaki “Yukhari Bash” National Historical and

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.75-82*

# MƏNƏVİ MƏDƏNİYYƏT, DİNİ İNANC VƏ İNAMLAR

**UOT: 39**

## YOL İLƏ BAĞLI ADƏT VƏ İNAMLAR

©2025

TOFİQ BABAYEV*

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ORCİD: https://orcid.org/0009-0003-9735-1965 e-mail: tofiqbabayev939@gmail.com

***Xülasə:*** *Yol – mədəniyyət, abadlıq, inkişaf etmiş iqtisadiyyat, güclü ticarət, rabitə və əlaqə deməkdir. Təsadüfi deyil ki, yol çəkmək, körpü salmaq bütün dövrlərdə müqəddəs və savab işlərdən biri sayılmışdır. Azərbaycan xalqının tarixi yaddaşında "Köç yolu", "Karvan yolu", "İpək yolu", "Duz yolu" kimi real yol anlayışları olduğu kimi, "süd yolu", "cənnət-cəhənnəm yolu", "ömür yolu", "haqq yolu" və s. kimi, onun mənəvi dünyasında –ibtidai təsəvvürlərində, gündəlik məişət ənənələrində, mifologiyasında, inam və etiqadlarında, folklorunda və s.-də təzahür edən başqa bir anlamı da vardır ki, bu da xüsusi etnoqrafik araşdırma tələb edir. Məqalədə Azərbaycanın ayrı-ayrı bölgələrindən toplanan çöl-etnoqrafik və ədəbiyyat materialları əsasında yolun məhz bu aspektinin – onun ənənəvi məişət mədəniyyətində yerinin və rolunun müəyyənləşdirilməsinə cəhd edilmişdir.*

***Açar sözlər:*** *Azərbaycan, yol mədəniyyəti, karvan yolu*

## CUSTOMS AND BELIEFS ABOUT THE ROAD

©2025

TOFİG BABAYEV*

*A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS
ORCİD: https://orcid.org/0009-0003-9735-1965 e-mail: tofiqbabayev939@gmail.com

***Abstract:*** *The road-means culture, development, developed economy, strong trade, communication and connection. It is no coincidence that building a road and building a bridge has always been considered one of the sacred and meritorious work. In the historical memory of the Azerbaijani people, apart from real meanings of road concepts as "Migration Road", "Caravan Road", "Silk Road", "Salt Road", there are other meaningful expressions manifested in spiritual world – primitive ideas, daily household traditions, mythology, faith and beliefs, folklore as "milk road", "heaven-hell road", "life road", "right road" etc. In the presented article, on the basis of field-ethnographic and literary materials collected from different regions of Azerbaijan, an attempt was made to ethnographically examine the concept of road in different senses, to determine its place and role in traditional household culture.*

***Keywords:*** *Azerbaijan, Caravan Road, Silk Road, Salt Road*

# ОБЫЧАЙ И ПОВЕРЬЯ О ДОРОГЕ

©2025

ТОФИГ БАБАЕВ*

Институт Истории и Этнологии НАНА имени А.А.Бакиханова
ORCİD: https://orcid.org/0009-0003-9735-1965 e-mail:tofiqbabayev939@gmail.com

***Резюме:*** *Дорога – это культура, благоустройство, развитая экономика, интенсивная и живая торговля, взаимосвязи и отношения. Не случайно прокладывание дорог, сооружение мостов во все времена считались делом святым и благим. Наряду с понятиями, отражающими реальные дороги такие как «путь кочевания», «караванный путь», «шелковый путь», «дорога соли» и др. в исторической памяти азербайджанского народа сохранились и другие выражения, подобно «млечного пути», «дороги рая и ада», «жизненного пути», «дороги правды, справедливости» и т. п. Эти выражения, которые проявляются в духовном мире человека – в его примитивных взглядах, ежедневных бытовых традициях, мифологии, поверьях и верах, фольклоре и т. п. в ином смысле, также требуют особых этнографических разысканий. В настоящей статье, на основе собранного в разных регионах Азербайджана полевого-этнографического материала и литературы, сделана попытка этнографического изучения разного по значению дорог, а также выяснения их места и роли в традиционной бытовой культуре народа.*

***Ключевые слова:*** *Азербайджан, караванный путь, шелковый путь, дорога соли*

## *Giriş*

Yol – abadlıq, inkişaf etmiş iqtisadiyyat, güclü ticarət, mədəniyyət və mədəniyyətlərarası əlaqə deməkdir. Yol qədim zamanlardan insan-təbiət münasibətlərinə, daha dəqiq desək, insanın təbiət hadisələrini, onun sirlərini daha dərindən dərk etməsinə və onları öz mənafeyinə tabe etməsinə imkan vermişdir. Yol ticarətin və mübadilənin əsas mənbələrindən biri kimi, insanlara uzaq diyarlara, məmləkətlərə və ölkələrə getmək imkanını artırmış, o tayla bu tay, yaxınla uzaq arasında körpü rolunu oynamışdır.

Yol təsərrüfat və iqtisadi həyatın bütün sahələrinin – əkinçiliyin, maldarlığın, sənətkarlığın, sonrakı dövrlərdə isə müxtəlif sənaye sahələrinin inkişafına güclü təsir göstərmiş, yeni şəhərlərin salınmasında, mədəniyyətin inkişafında və yayılmasında misilsiz rol oynamışdır. Bir sözlə, yol ən mühüm həyat vasitələrdən biri olaraq, tarix boyu insanların mədəni-məişət ehtiyaclarını təmin edən əsas amillərdən biri kimi çıxış etmişdir.

Odur ki, insanlar minilliklər boyu yol çəkməklə, karvansara və körpülər inşa etməklə özlərinə gün-güzəran düzəltmiş, gündəlik qayğılarının, arzu və əməllərinin yerinə yetirilməsini, məqsədə doğru əzmini, bütövlükdə həyat tərzini nizamlamışdır. Dağla aranı birləşdirən, köç yolları, ölkələri, məmləkətləri birləşdirən karvan yolları, dünyanın bir ucundan o biri ucuna qədər uzanan tarixi "Böyük İpək Yolu" əsrlər boyu ölkələr və xalqlar arasında siyasi, iqtisadi, ticari və mədəni münasibətlərin qurulmasında çox böyük rol oynamışdır. Həmin yolun bir parçası olmuş Azərbaycan

da zaman-zaman bəşər sivilizasiyasının inkişafına və tərəqqisinə öz töhvələrini vermişdir. Vaxtilə Naxçıvanda, bu diyarda çıxarılan duzun yaxın-uzaq ölkələrə daşındığı yol xalq arasında “Duz yolu” adlanmışdır. Bu yol Naxçıvanın beynəlxalq iqtisadi və mədəni əlaqələrində mühüm rol oynamışdır.[1]

Bunlardan əlavə, xalqın mənəvi dünyasında “süd yolu”, “cənnət-cəhənnəm yolu”, “ömür yolu”, “haq yolu” və s. bu kimi mifik, abstrakt yol anlayışları da vardır. Yəni, əksər dünya xalqlarında olduğu kimi, azərbaycanlılarda da yolun öz həqiqi mənasından başqa, sakral – xalqın təbiət və cəmiyyətlə bağlı qədim təsəvvürlərindən doğan, adət-ənənələrdə, mifologiya, inam, etiqad, bayatı, sınama, atalar sözləri və deyimlərdə təzahür edən bir anlamı da vardır ki, bu da xüsusi etnoqrafik araşdırma tələb edir. Professor Bəhlul Abdullayevin təbirincə desək, Azərbaycan folklorunun çoxsaylı zəngin və kütləvi janr və növləri, hər şeydən öncə xalqın düşüncə tərzini, həyata baxış və münasibətini, etik və etnoqrafik görüşlərini, adət ənənəsini, mərasimlərini sistemli şəkildə izləmək baxımından çox dəyərlidir.[2]

Beləliklə, azərbaycanlılar yola, səfərə çıxana “Yoluna işıq düşsün, nur çilənsin”, “Yolun açıq olsun”, “Yolun uğurlu olsun”, “Yaxşı yollar, yaxşı uğurlar olsun”, “Getdiyin yolda qada-baladan uzaq olasan” – deyə alqış etmiş, çətin və çıxılmaz vəziyyətlərdə, dara düşəndə “Bu yol haqqı”, “Bu getdiyimiz yola and olsun”, “Əli yoluna and olsun”, “Bu üzü qibləyə and olsun” və s. şəklində and içmişlər.

Türk xalqlarının yol anlayışı xeyrin, uğurun analogiyasıdır və təsadüfi deyil ki, əski inanclarda yol hamisinin adı məhz “uğur” anlayışı ilə ifadə olunmuşdur. Professor Mirəli Seyidovun fikrincə, “uğur” əski Beynənnəhreyn və Kiçik Asiyada yaşayan bir çox xalqlarda, eləcə də Azərbaycan və türkdilli xalqların bəzilərində “yol” yer tanrısının adıdır. Bu inanc yola çıxarkən deyilən “Yolun uğurlu olsun”, “Yolu uğurla başa vurasan” kimi indi də dilimizdə qorunub saxlanılmışdır.[3] Deməli, dilimizdəki “uğur” sözü hələ çox qədim zamanlardan – yer, yol tanrısına sitayiş etdikləri dövrdən bu günə qədər gəlib çatmış ifadələrdəndir. Eyni zamanda, mənbələrdə onun “bərəkət”, “nail olmaq”, “xoşbəxtlik” və s. mənalar verən adlarına da rast gəlmək mümkündür.[4]

Azərbaycan ədəbiyyatının ən qədim yazılı abidəsi olan “Kitabi-Dədə Qorqud” dastanında “uğur” əvəzinə “yol” sözünün işlədilməsinə də tez-tez rast gəlinir (məsə-

---

[1] Elbrus İsayev. Naxçıvan şəhər mədəniyyətinin formalaşması və inkişafında ticarət və sənətkarlığın rolu. **Naxçıvan: ilkin şəhər və Düzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumunun materialları).** Naxçıvan, 2013, s.124.

[2] Bu ifadəni işlətməklə müsəlman xalqları Məhəmməd Peyğəmbərin İslamın xilaskarı adlandırdığı Hz. Əlini qeyri-adi qüvvəyə, gücə malik insan, Allaha daha yaxın bəndə kimi qəbul edərək kömək ummuşlar. Bu sevgi, pərəstiş onu inanc yerinə çevirmişdir. Bu ənənəyə, bu inama Azərbaycanda demək olar ki, bu gün də əməl olunur. Bu işə başlayanda, səfərə çıxanda Tanrı dərgahına dua edərdi babalarımız. İlk sözləri də bu olardı: “Allah, Məhəmməd, ya Əli”. Özü də inanırdılar bu adların gücünə, qüdrətinə. Bəhlul Abdullayev, **Azərbaycan mərasim folkloru.** Bakı, 2005, s.11.

[3] Mirəli Seyidov. **Azərbaycan mifik təfəkkürünün qaynaqları.** Bakı, 1983, s.230-247.

[4] Mirəli Seyidov. “Uğur” sözü haqqında bəzi qeydlər. **Azərbaycan EA-nın xəbərləri (ictimai elmlər seriyası),** 1962, №4, s.155.

lən, "uğurun açıq olsun"). Professor M.H.Təhmasibə görə, burada "uğruma çıxdı" ifadəsindəki "uğur" sözü həqiqətən də "yol" sözünü əvəz etmişdir.[5]

Bir vaxtlar Azərbaycan türklərində, eləcə də digər türkdilli xalqlarda uzaq səfərə yola düşərkən xeyirxah ruhları, o cümlədən "yol tanrısını" köməyə çağırmışlar.[6] Məsələn, XI yüzilin böyük alimi M.Qaşqari yazmışdır ki, qədim oğuzlar bir-birinə yaxşı yol arzulayarkən: "yolun uğur olsun", – deyə alqış edir və bununla da sanki "yol əyəsi"ndən (yol tanrısı –T.B.) kömək istəyirdilər.[7] Sonralar isə bu mifik obrazın yerini daha yayılğan olan Xızır obrazı tutmuşdur.

Uzaq keçmişdən bəri səfərə çıxanın, yol gedənin arxasınca su atıb (bəzi bölgələrdə suya şirin-şəkər də qatırdılar ki, güzəranı şirinlik üstündə binə tapsın), "uğura qənşər gedəsən", "sağ gedib, salamat qayıdasan" deyirlər. Çünki su, tanrının insanlara bəxş etdiyi ən böyük və əvəzsiz nemətdir, aydınlıqdır, dirilikdir, əbədi həyatın özüdür.

Ulu əcdadlarımız arzu və niyyətlərini ilk olaraq suya danışmış, su ilə fala baxmış, gələcək taleləri haqqında fikir söyləmişlər. Qorxulu yuxuları ilk olaraq suya danışarmışlar ki, su onu "yuyub aparsın". Elə yaxşı yuxular da axar suyun təmizliyinə danışılardı ki, çin olsun, aydınlıq gətirsin.[8]

Səfərə – yola çıxanı "Qurani-Kərim"lə bərabər, çörək altından da keçirirdilər. Çünki çörək həyatdır, müqəddəsdir, ulu nemətdir. Su kimi, çörəyə də and içmişlər. Azərbaycanlılarda çörək etibarlıq, güvənlik qaynağı, kişilik simvolu sayılmışdır. Qonağı duz-çörəklə qarşılamış, ailələrarası münasibətlərin vəziyyəti onunla ölçülmüş, "duz-çörək – düz çörək" deyə, ailə namusu sayılmışdır". Çörəyə yalnız bir qida kimi deyil, həm də qüdrətli müdafiə və mühafizə vasitəsi kimi baxılmışdır. Kiminləsə "çörək kəsmək" bütün hüquqi müqavilələrdən və sazişlərdən daha möhkəm və etibarlı sayılmışdır. Bir sözlə, çörəyə olan hörmət və ehtiram nə mizana gəlib, nə ölçüyə sığıb, südlə keçib canımıza, qanımıza, sümüklə də çıxasıdır.

Səfərə, yola çıxarkən həftənin günlərinin uğurunu, sayası da nəzərə alınırdı. Həmin hesabla səfər üçün ən ağır gün çərşənbə, ən uğurlu və sayalı gün isə cümə günü hesab olunmuşdur. Ağır gün olduğundan, çərşənbə axşamına müdriklərimiz "duz günü" də deyiblər. Həmin gün yola çıxmaq məsləhət bilinməyib. Xüsusilə də, ilin son çərşənbəsində səfərə yollanmaq olmazdı. Yollansan, yeddi il ev-eşiyində rahatlıqla otura bilməzsən, – demişlər. Getdiyin işdən xeyir götürməyin də müşkülə dönər. Bu səbəbdən ilaxır çərşənbəni hər kəs öz evində, ailəsi ilə birlikdə bayram süfrəsi arxasında keçirməsi ənənəvi hal almışdır.

Əvəzində cümə günü (adna günü) səfərə getmək münasib sayılmışdır. İnanca görə, səfərə çıxmaq, hansısa işə cümədə başlamaq, mifologiyada dara düşənlərin xilaskarı kimi tanınan Xızır peyğəmbərin adı ilə bağlıdır. Həmin gün uğurlu və ruzulu gün hesab olunur. Bununla bağlı xalq arasında belə deyirlər:

*Bu gün adınadı,*

---

[5] **Azərbaycan nağılları.** I cild (tərtib edəni M.H.Təhmasib). Bakı, 1960, s.319.

[6] Cəlal Bəydili Məmmədov. **Türk mifoloji sözlüyü.** Bakı, 2003.

[7] Mahmud Kaşğari. **Divanü lüğat-it-türk.** Dörd cilddə, cild 1 (tərcümə edən və nəşrə hazırlayan Ramiz Əsgər). Bakı, 2006, s.126.

[8] Hacı Qadir Qədirzadə. **Naxçıvan: Nuh baba və Türk atadan gələn yol.** Naxçıvan, 2011.

*İşlər avandınadı.*

Elə dinimizdə də cümə günü mübarək sayılır. Həzrət Əli haqqındakı bir hədisdə buyurulur: "Agah olun! Allah cümə gününü müsəlmanlar üçün bayram qərar verib. Cümə günü qəlblərinizi, əməllərinizi saflaşdırın".

Keçmişdə səfər əsnasında və ya səfər yolunda bədxah, bəd niyyətli adamlarla qarşılaşanda, geriyə qayıdıb güzgüyə baxar, sonra isə yola çıxardılar. Çünki güzgü uğur, xoşbəxtlik simvoludur. Adamlar inanırdılar ki, şər, bədxah qüvvələr hər an yol gedənə xətər toxundura bilərlər. Bu qüvvələr isə yalnız işığı, parıltını əks etdirən əşya və cisimlərdən qorxurlar ki, onlardan biri də güzgüdür. Bu barədə folklor və etnoqrafik ədəbiyyatda kifayət qədər geniş məlumatlar vardır.[9]

Bəzən adamın kürəyinin ortasından vurardılar ki, getdiyi yoldan "sağ-salamat qayıtsın. Bundan əlavə, xalq inanclarında yola çıxan adamın qarşısına qara pişiyin çıxması uğursuzluq əlaməti sayılmışdır. Odur ki, həmin adam geri qayıtmalı idi. Zənbili, səbəti boş olan şəxslə qarşılaşmaq da uğursuzluğa yozulmuşdur. Xalq arasında geniş yayılan "Qarşısına boş zənbilli şəxs çıxan adamın uğuru, səfəri də boş çıxar" ifadəsi də bununla əlaqədar yaranmışdır.

Yola, səfərə gedənin arxasınca ev süpürməzlər, "işi bəd olar", – deyiblər ulularımız. Səfərdən, uzaq eldən salamat qayıdıb gələnlər üçünsə qurban kəsilmiş, yeddi ailəyə, yeddi evə pay verilmişdir.

Azərbaycan xalqının tarixi yaddaşında yolla bağlı yuxuyozmalar və sınamalar da az deyil. Məsələn, inanclara görə, yuxuda yol getmək, bir kimsənin ürəyində tutduğu murada çatacağı deməkdir. Yuxuda ilan, ip və ya örkən görmək də yol - səfər kimi izah edilir.

El adının, el güzəranının nişanı yoldan bəlli olur, – deyirlər. "Yolunu gördüm, elini gördüm" məsəli də buradan qaynaqlanıb. Xalq müdrikliyinin bu parlaq ifadəsində həyatın təbii, inandırıcı lövhələri, doğma yurdun gözəlliyi yolun abadlığı ilə ölçülür. Çünki abadlıq olan yerdə rahat həyat, xoş güzəran, xeyir-bərəkət, mədəniyyət, qələbə də olur.

El arasında tez-tez işlənən bir atalar sözü vardır: "Yolçu yolda gərək". Bununla müdrik babalarımız bir işin qulpundan yapışıb dalınca yola çıxanlara sanki dayanmamaq, əzmkarlıq, onu başa vurmağın, tamamlamağın vacibliyini izah etmiş, büdrəsən də, qalxaraq daha inamla yola davam etməyi məsləhət görmüş, yoluna halallıqla davam edərsənsə, bütün arzu-niyyətinə nail olarsan, – demişlər.

Xalq arasında geniş yayılan bir etiket normasına görə, yol böyüyün, su kiçiyindir. Belə ki, ulularımız gənclərə öyüd-nəsihət verəndə, mərhəmətli, səxavətli olmağı arzulayanda yol böyüyündür söyləyirlər. Böyük-kiçik hörməti itən yerdə xeyirbərəkət də itər", – deyirlər. Bununla bağlı azərbaycanlıların söz dəryasında başqa nümunələr də vardır: "Özündən böyüyün hörmətini saxla, yolu böyüyə ver", "Çox səfərdə olan, çox gəzən çox bilər", "Mərifət sahibləri ilə yol yoldaşı ol, xeyirxah, halal adamlarla ünsiyyət saxla".

Yol yoldaşı olmaq, dost seçmək həmişə yüksək qiymətləndirilmişdir. Bu səbəbdən atalar sözlərində yolun da yoldaş kimi, qardaş kimi əziz və əvəzsiz sınaq

[9] Bəhlul Abdullayev (Bəhlul Abdulla). **Azərbaycan mərasim folkloru.** Bakı, 2005, s.35-45.

meydanı olduğu göstərilir: "Yoldan irəli yoldaş, eldən irəli qardaş", "Yoldan qal, yoldaşdan qalma", "Yol oğrusu ol, yoldaş oğrusu olma" kimi hikmətlər bu baxımdan çox səciyyəvidir.

Xalq təcrübəsi, xalq müdrikliyi öyrədir ki, "Yola düşməmişdən əvvəl yol yoldaşını tap, evə köçməmişdən əvvəl qonşunu". Yaxud da, "Yoldaşı yoldan qabaq, qonşunu evdən qabaq axtar". Birindən sual edəndə ki, "Dostun, yoldaşın necə adamdır?", cavab verir ki, "Yol yoldaşı olmamışam". "Yoldaş yolda sınanar" atalar sözü də bu qəbildəndir.

Kimisə yamanlayanda, qarğış edəndə demişlər: "Yolun yumrulsun, uğurun daşa dönsün", "Belə gedər-gəlməzə tuş gələsən", "Dalınca qara daş atılsın, gedişin olsun, qayıdışın olmasın", "Getdiyin yol sənə qənim olsun", "Cəhənnəmə qədər yolun var" və s. Dədə Qorqud yaşından bəlli olan bu cür qarğışlar və bəddualar elə indinin özündə də məişətdə yaşamaqdadır.

"Yol" anlayışının bir qolu da əxlaqi dəyərlərə – ədəb-ərkana, halallığa, doğru-dürüstlüyə bağlı olub, məslək yönündən, niyyət səmtindən soraq verir. Bu yol ("yoldan dönmək", "yoldan azmaq") insanları yanlışlığa, pisliyə də aparır, divan-xanaya, zindanlara da. Bu səbəbdən xalq arasında deyirlər: "Nə edirsən et, yolundan sapma".

"Yoldan çıxsan da, eldən çıxma". Bu deyim də sırf həyati, əməli olan kəlam olmaqla, el-obaya bağlılığın təzahürü kimi çıxış edir. Ulularımızın bizə miras qoyub getdiyi ləyaqət, mərifət, insanlıq hisslərini, vicdanı unutmamağı, el-obanın əxlaq qaydalarına hörmətlə yanaşmağı öyrədir. Yoldan çıxanı, ancaq el-oba yoluna qaytara bilir. Lakin eldən uzaqlaşanın, el dəyərlərini ayaqlayanın bir də elin-obanın qəlbinə dönməyə üzü olmur. "Yoldan çıxanı yol vurar", "Yolsuz gedən tez yorular" deyimləri də bu əxlaqi dəyərlərin ifadəsidir.

Qorqud atadan başlanan halallıq, paklıq, düzlük yolu tutmağın baş ucalığı gətirməsi barədə fikirlər və tərbiyəvi kəlamlar klassik ədəbi irsimizin digər nümunələrində də özünün mükəmməl əksini tapmışdır. Bu baxımdan məşhur Azərbaycan şairi Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsəri mükəmməl tərbiyə məktəbi hesab oluna bilər. Bundan əlavə, görkəmli söz sənətkarı Dədə Xətayi 500 il bundan öncə halallığı, düzlüyü poetik qələmlə əks etdirərək yazmışdır.[10]

*Gerçək isən, yalan satma,*
*Halalına haram qatma.*
*Yolun əyrisinə getmə,*
*Doğru yola nəzər eylə.*[11]

M.Ə.Sabirin əsərlərindəki halallıq, paklıq, xeyirxahlıqla bağlı fikirlər də çox qiymətli və düşündürücüdür. Şair yolundan azıb çıxmağın acı nəticələrini xatırladır: pis və zərərli niyyətlərdən uzaq olun, çörəyinizə haram qatmayın, qapınıza haram gətirməyin. Elin gözü açıqdır, ağır olur el tənəsi, el töhməti, üstünüzə söylətməyin:

*Amandı, qoymayın övladınız azıb çıxa yoldan!*

---

[10] **El düzgüləri, elat söyləmələri** (toplayıb tərtib edən Məhərrəm Qasımlı). Bakı, 1993, s.11.
[11] Xətai. **Əsərləri.** Bakı, "Şərq-Qərb", 2005, s.347.

*Ola bu yaxşı vələdlər yaman bu boyda, bu boyda!*[12]

Məlumdur ki, keçmiş Azərbaycan toylarında bir "yol kəsdi" adəti mövcud olmuşdur. Adət belə idi ki, toyla bağlı gəlin aparan alayın qarşısına kəndir-sicim çəkir, yaxud yolun ortasına iri daşlar yığır, üstünə duz çörək qoyub (el adətinə görə duz-çörəyin üstündən heç vəchlə getmək olmaz), qoluna-gücünə güvənən bir cavan irəli çıxıb oğlan evindən bir nəfəri güləşə çağırırdı. Burada ya oğlan evi adamlarından birisi cavan pəhləvanla güləşə çıxmalı, ya da nəmər verməli idi ki, yol açılsın. Odur ki, adət naminə toy sahibi cavanlara xonça, quzu və yaxud pul-nəmər verib, razı salır. Əvəzində onlar "Allah mübarək eləsin, Allah xeyrə calasın", – sözləri ilə çəkilib yolu açırdılar.

Bu el adəti ilk baxışda ötəri, əyləncə kimi görünsə də, əslində mənəvi əhəmiyyət daşıyır. Çünki xalq inamlarında yolun bağlı olması uğursuzluq əlaməti, bədxah qüvvələrin müdaxiləsi, bəd gözdən qorunması və gəlin qızın "çilləyə düşməsi" kimi başa düşülmüşdür.

Azərbaycan nağıllarının bir çoxunda şər, bədxah qüvvələri məhv etmək məqsədilə səfərə, uzun yola çıxan el qəhrəmanına müdrik ağsaqqal üç yol, üç istiqamət göstərir: gedər-gələr yolu, gedər əzab-əziyyət çəkib qayıdar, gedər-gəlməz yolu. Qəhrəman məhz gedər-gəlməz elan olunan yolla gedir. O, yəqin edir ki, şərin, bədxahlığın yuvasını bu yolla tapmaq olar. Bu yolda qəhrəman ya ölməli, ya da şər qüvvələrə qələbə çalmalıdır. Qəhrəman gücü, yenilməzliyi, iradə möhkəmliyi, döyüşkən əhval-ruhiyyəsi ilə səfərdən salamat qurtulub, bədxahlıq yuvasını dağıdır və eli şər qüvvələrdən xilas edir.

Azərbaycan nağıl və dastanlarında övladı olmayan bəzi qəhrəmanlar niyyət edib yol çəkərsə, körpülər inşa edərsə, kimsəsizlərə əl tutarsa, ümumiyyətlə nəcib işlər görərsə Allah tərəfindən mükafatlandırılar və oğul-uşaq sahibi olardılar.

Folklorumuzun ən qədim, ən zəngin, ən kütləvi janrlarından olan bayatılarda, nağıl və dastanlarımızın poetik mətnlərində qəhrəmanın getdiyi yol, onun səfərləri ilə bağlı deyimlərə təsadüf olunur. "Aşıq Qərib" dastanı bu baxımdan xüsusilə diqqəti cəlb edir. Burada Xızır altı aylıq yolu bir göz qırpımında qət edərək, Qəribi mənzilinə çatdırır.

"Koroğlu" dastanında da tez-tez "Üç günlük yolu bir günə", "Beş günlük yolu bir günə getdi", "Bir həftəlik yolu bir günə getdi" kimi ifadələrə rast gəlinir: "At az getdi, üz getdi, dağ aşdı, dərə keçdi, düz getdi üç günlük yolu bir günə kəsib Çənlibelə yetişdi".

Bildiyimiz kimi, xalqımızın dünyagörüşündə, mərasim və adətlərində, gündəlik həyatında möhkəm kök salmış üç, yeddi, qırx sayları sehrli saylar hesab edilir. Bu saylar adət-ənənələr, inam və etiqadlarla və ilkin görüşlərlə əlaqədardır. Dünyanın ayrı-ayrı xalqlarında da 3, 5, 7, 8, 9, 12, 40 və s. saylar sehrli və ya müqəddəs sayılır.[13]

## *Nəticə*

Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, Azərbaycan türklərinin yolla bağlılığı, onun ilahiləşdirilib pərəstiş obyektinə çevirməsinə gətirib çıxarmış, mənalı,

[12] Mirzə Ələkbər Sabir. **Hophopnamə.** Bakı, 1954, s.159.
[13] Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. II cild. Bakı, 2004, s.237.

ibrətamiz, nəsihətamiz nümunələr yaratmışlar. Bu hikmətlər xalqımızın zəngin həyati təcrübənin sınaqlardan keçmiş milli mənəvi dəyərləridir. Onların məna çalarlarının zənginliyini üzə çıxarmaqla bu nümunələrdə xalqımızın milli təfəkkürünün, təbiət və cəmiyyət hadisələrinə baxışlarının, eləcə də həyat və məişətinə dair müxtəlif məsələlərin izlərini görə bilirik.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Abdullayev, Bəhlul. **Azərbaycan mərasim folkloru.** Bakı, 2005.
2. El düzgüləri, elat söyləmələri (toplayıb tərtib edən Məhərrəm Qasımlı). Bakı, 1993.
3. Xətai. **Əsərləri.** Bakı, "Şərq-Qərb", 2005.
4. Mirzə Ələkbər Sabir. **Hophopnamə**. Bakı, 1954.
5. Seyidov, Mirəli. **Azərbaycan mifik təfəkkürünün qaynaqları.** Bakı, 1983.
6. Seyidov, Mirəli. "Uğur" sözü haqqında bəzi qeydlər. **Azərbaycan EA-nın xəbərləri (ictimai elmlər seriyası),** 1962, №4.
7. **Azərbaycan nağılları.** I cild (tərtib edəni M.H.Təhmasib). Bakı, 1960.
8. Cəlal, Bəydili Məmmədov. **Türk mifoloji sözlüyü.** Bakı, 2003.
9. Mahmud, Kaşğari. **Divanü-lüğat-it-türk.** Dörd cilddə, cild 1 (tərcümə edən və nəşrə hazırlayan Ramiz Əsgər). Bakı, 2006.
10. Qədirzadə, Hacı Qadir. **Naxçıvan: Nuh baba və Türk atadan gələn yol.** Naxçıvan, 2011.
11. İsayev, Elbrus. Naxçıvan şəhər mədəniyyətinin formalaşması və inkişafında ticarət və sənətkarlığın rolu. **Naxçıvan: ilkin şəhər və Düzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumunun materialları).** Naxçıvan, 2013.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR

Babayev Tofiq Ağababa oğlu – tarix üzrəfəlsəfə doktoru, dosent, AMEAA.A.Bakıxanov adına Tarix və Et-nologiya İnstitutu. Azərbaycan, Bakı

Babaev Tofik Agababa – Doctor of Philosophy in History, Associate Professor, A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.83-100*

**UOT: 39**

# QARABAĞ ƏHALİSİNİN İNAM VƏ ETİQADINA DAİR

©2025

BAHAR ƏMƏNOVA*

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ORCİD: 0009-0007-5011-7820; baharamanova@bk.ru

***Xülasə:*** *Məqalə Qarabağ əhalisi arasında mövcud olan inam və etiqadla bağlı məsələlərə toxunulmuşdur. Burada müqəddəs şəxslər, ocaq və pirlər, həmçinin də torpaq, çörək, od, su, ağac, bitki, yel, yağış, at, saç, ayaqqabı ilə bağlı inam-etiqadlar işıqlandırılır. Məqalədə qarabağlılar arasında mövcud olan bəzi inam nümunələrinin Azərbaycanın digər ərazilərindəki inamlarla üst-üstə düşməsi, cüzi hissəsinin fərqli formada deyilişi yazıya gətirilir. Yazıda sırf bölgə əhalisi içərisində yayılan inamlara daha çox yer verilir.*

***Açar sözlər:*** *Azərbaycan, Qarabağ, müqəddəs şəxslər, inam-etiqadlar, mifologiya*

# ABOUT BELIEFS OF THE POPULATION OF KARABAGH

©2025

BAHAR AMANOVA*

*A.A.Bakikhanov Institute of History and Ethnology of ANAS
ORCİD: 0009-0007-5011-7820; baharamanova@bk.ru

***Abstract:*** *The article touched on issues related to trust and belief existing among Karabagh. Saints, hearths as well as beliefs related to earth, bread, fire, water, trees, plants, wind, rain, horses, hair, shoes, etc., are illuminated here. In the article, it is written that some of the beliefs existing among the Karabaghs coincide with the beliefs found in other areas of Azerbaijan, and that they are said in a different form. The article also talks about beliefs that are widespread in the region.*

***Keywords:*** *Azerbaijan, Karabagh, holy persons, beliefs, mythology*

# О ВЕРОВАНИЯ И ПОВЕРЬЯ СРЕДИ НАСЕЛЕНИЯ ГАРАБАГА

©2025

БАХАР АМАНОВА*

*Институт Истории и Этнологии НАНА имени А.А.Бакиханова
ORCID: 0009-0007-5011-7820; e-mail: baharamanova@bk.ru

***Резюме:*** *В статье затронуты вопросы, связанные с верованиями и поверьями среди населения Гарабага. Здесь освещается тема поклонения*

*людьми святым, культовым очагам и пирам, а также верования, связанные с почитанием земли, хлеба, огня, воды, дерева, растений, ветра, дождя, коня, волоса, обуви и т.д. В статье приведены примеры из области верований, бытующих как среди гарабагцев, так и наблюдаемые в других районах Азербайджана, однако о изложенные несколько в другой форме. В тоже время, в статье говорится о верованиях, распространённых исключительно среди местного населения Гарабага.*

***Ключевые слова**: Азербайджан, Гарабаг, святые люди, поверья, мифология*

***Giriş***

Azərbaycan xalqı arasında ən geniş yayılmış şifahi xalq yaradıcılığı nümunələrindən biri də inam-etiqadlardır. Etnologiya elmi ilə qırılmaz tellərlə bağlı olan inamlara xalq arasında bəzən yozumlar və ya sınamalar da deyilmişdir. Folklor mütəxəssisləri inamlara belə bir tərif vermişlər: "İnanclar sınamalar nəticəsində qətiləşən hökmlərin bədii ifadəsidir".[1] İnamların kökündə dayanan "sınamalar hər şeydən əvvəl, xalqın düşüncə tərzini, həyata baxış münasibətini, etik, etnoqrafik görüşlərini, adət-ənənəsini, mərasimlərini sistemli izləmək baxımından çox əhəmiyyətlidir".[2]

Mirəli Seyidov haqlı olaraq yazır ki, azərbaycanlıların mifologiyasında elə onqonlar, tanrılar, inamlar, obrazlar var, onların öyrənilməsinin gərəkliyi yalnız türk xalqlarının mifologiyasının zənginliyinin üzə çıxarılması ilə məhdudlaşmır; bu həm də türk xalqlarının ümumi inkişaf səviyyəsini aydınlaşdırır. Məhz bunların hərtərəfli araşdırılması türk xalqlarının təsərrüfatdakı nailiyyətini, mənəvi aləmdəki inkişafını meydana çıxarmış olur.[3]

Araşdırmaçıların dediyi kimi, inamlar birdən-birə yaranmamış, insanların baş verən müəyyən hadisələri təfəkkür süzgəcindən keçirməsi, yüz yol ölçüb-biçməsi, təcrübəsi, sınaması nəticəsində meydana gəlmişdir.[4] Bu baxımdan fikrimizi yerinə düşən bir yazı çəkir. Orada deyilir ki, qədim insan ova yola düşərkən qabağına boş qab çıxır. Axşam ovdan əliboş qayıdır. Bir neçə dəfə boş qabı sınayır. Görür ki, qabağına boş qab çıxanda işi düz gətirmir. Növbəti dəfə dolu qabı sınayır və işi uğurlu alınır. Beləliklə, sınamanın qəti nəticəsi – inam meydana çıxır. Yəni "Qabağına boş qab çıxanda getdiyin yoldan geri qayıt".[5]

Topladığımız etnoqrafik materiallar əsasında Qarabağ əhalisi arasında mövcud olan inamları aşağıdakı kimi qruplaşdıra bilərik: müqəddəs şəxslər, torpaq, çörək, od, su, ağac, bitki, yel, yağış, at, saç, ayaqqabı və s. Bu yazımızda onların bəziləri haqqında məlumat verəcəyik.

---

[1] Afat Nəbiyev. **El nəğmələri, xalq oyunları.** Bakı, "Azərnəşr", 1988, s.52, 168 s.
[2] Bəhlul Abdullayev. **Haqqın səsi.** Bakı, "Azərnəşr", 1989, s.4.
[3] Mirəli Seyidov. **Azərbaycan xalqının soykökünü düşünərkən.** Bakı, "Yazıçı", 1989, s.213.
[4] Bahar Əmənova. **Mənəvi mədəniyyətimiz xalq yazıçısı Əli Vəliyev yaradıcılığında.** Bakı, "Avropa", 2020, s.38.
[5] Afat Nəbiyev. Göstərilən əsər, s.52-53.

***Müqəddəs şəxslərlə bağlı inamlar***

Azərbaycanın digər yerlərində olduğu kimi, Qarabağda da bir sıra ziyarət ocaqları, pirləri mövcud olmuşdur. Bu ocaqlar, pirlər əhalinin inam-etiqad yerinə, şəfa mənbəyinə, arzu-diləklərinin çin olmasında mühüm əhəmiyyət kəsb edən sitayiş məkanına çevrilmişdir. İnam yerinə, ocağına çevrilən belə sitayiş məkanları müəyyən şəxsiyyətlərin adı ilə bağlıdır və əhali arasında onlar “ağa”, “seyid” kimi adlarla tanınmışlar.

Məlumatçının dediyinə əsasən, Cəbrayılda məşhur olan “Hacı Qaraman Çələbi ocağı”, Cəbrayıl ata, Qara daş, Ağoğlan, Qurbantəpə, Məzənnənənə, Mərmərnənə, “Dul-dul” ziyarətgahları və Tumas ata abidəsi xalqın inam gətirdiyi müqəddəs ocaqlardan, ziyarət yerlərindən sayılmışdır. Onu da deyək ki, Cəbrayılın Yuxarı Sirik kəndində inamlı şəxs kimi tanınan, ziyarət edilən Fatimə Çələbinin abidəsi hazırda da qalmaqdadır. Torpaqlarımızın işğalı zamanı bu abidəyə mənfur qonşularımızın ürək edib, toxunmadığını söyləyirlər. Beyləqan rayonunda Cərciş peyğəmbər, Füzuli rayonunun Babı kəndindəki Şeyx Sənan Yaqub türbəsi (XIII əsr yadigarı olan bu türbəyə xalq arasında Şıxbaba türbəsi də deyilir), Seyid Əşrəf ziyarətgahı, Aşağı Aybasanlı kəndindəki İbə İbrahim ziyarətgahı, Yuxarı Seyidəhmədli kəndindəki İbə ocağı, Qacar kəndindəki Pir, Kənd horadizdəki İmam piri, Kərimbəyli kəndindəki Seyid Qızdarağası, Seyid Usub, Seyid İdris, Seyid Novruz və b.-nın qəbirləri, yaşamış olduqları evlər inamlı ocaqlardan sayılır. Hazırda da niyyət edənlər, arzuları, istəkləri çin olanlar bu inamlı ocaqları ziyarət edirlər.

İrəlidə adını çəkdiyimiz inamlı ocaqlarla yanaşı, Qarabağın digər ərazilərindəki “Xəlifə ocağı”, “Qara Molla ocağı”, “Şıx Əfəndi ocağı”, “Cicimli ocağı”, “Qara Seyid ocağı” da insanların üz tutduğu, tapındığı, qüdrətinə inandığı, şəfa dilədiyi ocaqlardan idi. İşi çətinə düşən, dilək diləyən, hər hansı arzunun çin olmasını istəyənlər bu müqəddəs şəxslərin adını anar, ocağını ziyarət edərdilər.

Şuşa əhalisinin ibadət yerləri və ziyarətgahları Saqqaxana və Pirgah pirləri, Mirmehdi ağanın ocağı, Həzrət Abbas şəfa ocağı, Həzrət Əli kahası, Seyid Mirfəsih, Qasım ağanın ocağı, Seyid Xəlil Seyid Əli oğlu ocağı olmuşdur. Ümumiyyətlə, vaxtilə ərazidə 100-dən çox inam ocaqlarının olduğunu deyirlər.

***Torpaqla bağlı inamlar***

Azərbaycan xalqı torpağını həmişə müqəddəs saymış və onun hər qarışına, dağına-dərəsinə, daşına-torpağına könül vermiş, baş əymiş, inam gətirmişlər: “Torpağı əkməyənin taxıl yığımında dili gödək olar”, “Torpağın səxavətini əkib-biçəndən sonra bilərlər”, “Torpağı ana görmək istəyən ona bala olmağı bacara gərək”, “Torpağa tər axıdanlar zər götürər”, “Torpaq qürbətdəkini vətənə çəkib gətirər”, “Yaxını, əzizi vəfat etmiş adamın kürəyinə özü bilmədən mərhumun qəbrinin torpağından bir çimdik atarlar ki, o, sakitləşsin” kimi qarabağlıların inam və etiqadları, eləcə də torpaqla bağlı işlədilən andları, alqışları hazırda da yaşadılmaqdadır.

***Çörək və xəmirlə bağlı inamlar***

Qarabağ əhalisinin gündəlik məişət həyatında baş verən müxtəlif hadisələr zaman-zaman sınaqdan keçirilmiş və inam-etiqad gücünə sahiblənmişdir. Belə inam-

lardan biri "ən azı 15 minillik tarixi haqlayan"[6] çörəklə bağlıdır. Xalqımızın qədim yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud"da adı "ətmək"[7] kimi xatırlanan çörəklə bağlı Qarabağ əhalisi arasında düşünülmüşdür ki: "Çörək ayaq üstə yeyilsə, bərəkəti qaçar və cana xeyri olmaz". Əlbəttə, ayaq üstə yeyilən yeməyin cana xeyri olmadığını elm də sübut etməkdədir. Lakin bu bəlli həqiqət sınamaları, təcrübələri sayəsində əhaliyə lap qədimdən bəlli olmuş və onların inam-etiqadları sırasında özünə yer ala bilmişdir. Və yaxud: "İsti çörəyi bıçaqla kəsməzlər, əks təqdirdə, bərəkəti qaçar", "Çörəyi yerdə görüb götürməyənin və onu ayaqlayanın gözünü çörək tutar", "Çörək yeyən qızın yeməyinin qırıqları süfrəyə tökülərsə, qayınanası deyingən olar", "Çörək kəsəni bıçaq kəsməz", "Çörəyin dörd tərəfini kəsməzlər, darlığa düşərsən" və s.

Yaşlı adamların dediyinə görə, "Çörək kəsəni bıçaq kəsməz" inamının böyük mənəvi dəyəri, gücü vardır. Burada hər hansı bir şəxslə çörək kəsib, ona verdiyi sözə dönük çıxan, el-oba əhlinə ziyankarlıq edən şəxslərə bıçaq kəsə bilmədiyi müəyyən bir şeyi çörəyin kəsə biləcək gücdə olduğunu xatırlatmışdır ulularımız. Bu deyim-inamla yolunu çaşan bəzi adamlar çörəyin müqəddəsliyinə, gücünə şəkk etməməyə yönləndirilmişlər. Təsadüfi deyil ki, çörəyin dadını, ətrini, gücünü bildirmək üçün "təndirə çörək yapanda, isti kəhrəba çörəklər təndirin ətrafına düzüləndə yoldan ötəni mütləq çağırıb təndir başında bir tikə çörək kəsməyə məcbur edərdilər: – A yoldan ötən, hər kimsənsə təndir üstünə gəlmisən. Sənə çörəyin ətri dəyib. Gərək bir tikə çörəyimizi kəsəsən, – deyərdilər.[8]

Verilən məlumata görə, Qarabağ əhalisi arasında üyüdülmüş dəndən alınan unun üzərinə ılıq su töküb yoğurmaqla hasilə gətirilən xəmir də müqəddəs sayılmış və onun bərəkətinə inam geniş yayılmışdır: "Xəmir yoğurarkən xəmirdən bir hissə yerə düşsəydi, onda uzaqda olan ailə üzvünün və ya qonaq gələcəyinə inanılardı", "Xəmiri haramlıqdan payı olan adamın mayası ilə yoğurmazdılar. Əks təqdirdə, çörəyin bərəkətsiz olacağına inanılardı" və s.

### *Od və su ilə bağlı inamlar*

Azərbaycanda, eləcə də onun tərkib hissəsi olan Qarabağda geniş yayılmış inamlardan biri odla bağlı olanlardır. Odun kəşfi ilə ibtidai insanlar, necə ki, arxeoloqlar yazır, özlərini soyuqdan, vəhşi ünsürlərdən qorumaq, ovladıqları heyvanın ətini bişirib yemək, gecənin qaranlığında od işığından istifadə etmək və s. kimi vərdişlərə yiyələnmişlər.[9]

Tədqiq etdiyimiz əhali arasında indi də işlədilən "Odun üstünə su tökməzlər, adamın ocağı sönər", "Ocaq söndürəni tanrı da qarğıyıb, bəndə də", "Ocaq söndürəni Allah bağışlamaz" kimi ifadələr, yaranan andlar, həmçinin, gəlin köçən qızın ata evində odun başına dolandırılması, ölünün yuyat yerində üç gün lampa yandırılması və s. məhz oda inamın təzahürüdür.

Müqəddəslik, paklıq, istilik, qoruyuculuq rəmzi olan oda inamla bağlı pirlərdən biri "Kəlbəcər bölgəsinin Milli kəndindəki "Həsənin piri" hesab edilir. Milli kəndində

---

[6] Tofiq Babayev. **Qoy həmişə çörək olsun.** Bakı, "Elm və təhsil", 2013, s.104.
[7] **Kitabi-Dədə Qorqud.** Bakı, "Yazıçı", 1988, s.62.
[8] Tofiq Babayev. **El ocaq başına yığışar.** Bakı, "Azərnəşr", 1998, s.87.
[9] Rəşid Göyüşov. **Azərbaycan arxeologiyası.** Bakı, "İşıq", 1985, s.101.

"Şıxların uyuduğu ərazi" müqəddəs yer kimi məşhurdur. Şıx Həsənin insanda heyrət doğuran möcüzəsi yanar kösövü dili ilə yalaması idi. O, yanar odu əlinə götürüb saxlayar, od onu yandırmazdı".[10]

Xalqımız arasında su kultu ilə bağlı inamlar da çox yayılmışdır. Arxeoloji qazıntılar sübut etmişdir ki, suya inam qədim dini təsəvvür olub, animizmin (animizm latın sözüdür, "anima" – ruh, can mənasındadır) təzahürüdür. Kültəpədə tapılan və ilk Tunc dövrünə aid edilən bəzi qabların üzərinə su rəmzi olaraq dalğavarı xətlər cızılmışdır. Akademik B.B.Piotrovskiy də Tunc və Dəmir dövrlərinə aid bir sıra bəzəklərin və kəmərlərin üzərindəki quş və balıq rəmzlərini məhz su rəmzi kimi ehtimal etmişdir.[11]

Ədəbiyyat materialında bildirilir ki, əski Çin mənbələrinə görə, Faoli adlı türkdilli qəbilələr baharda suya tapınma əlaməti olaraq xüsusi ayin icra edirmişlər. Onların xaqanı təntənəli bahar bayramı ayinindən sonra dərhal paltarla suya girərmiş. Bu zaman camaat iki hissəyə ayrılıb bir-birinə su atarmış.[12]

Su ilə bağlı arxaik inamları izləmək üçün KDQ dastanı da bol material verir: "...Qazanın qarşısına bir su çıxdı. Qazan dedi: "Su, tanrının üzünü görmüşdür. Mən bu su ilə soraqlaşım" – dedi.

*Çağlayaraq qayalardan çıxan su!*
*Ağac gəmiləri atıb-tutan su!*
*Həsən ilə Hüseynin həsrəti su!*
*Bağ ilə bostanın zinəti su!*
*Ayişə ilə Fatimənin baxışı su!*
*Şahanə atların içdiyi su!*
*Qızıl dəvələrin gəlib keçdiyi su!*
*Çevrəsində ağ qoyunların yatdığı su!*
*Yurdumdan bir xəbər bilirsənsə, de mənə!*
*Dərdli başım qurban olsun, suyum, sənə".*[13]

Mətnin axırıncı cümləsi, yəni Qazan xanın başını suya qurban verməsi su ruhuna, su yiyəsinə inamın, təzim etmənin, sidq-ürəklə yalvarmanın bir nümunəsidir. Onu da deyək ki, inama əsasən hər şeyin yiyəsi mövcuddur və su yiyəsi bunların hamısından üstündür: "Səhər-səhər ki, tezdən gedirsən suyun üstünə, gərək su yiyəsinə salam verəsən. Heç vaxt suya tüpürmək, suya çirkab atmaq olmaz. Yoxsa, su yiyəsini küsdürərsən, sənə zərər toxuyar.[14]

Qarabağlı məlumatçılar deyirlər ki, "Su çörək qədər müqəddəsdir, suyu murdarlamaq olmaz", "Suyun kəraməti böyükdür, dualarınızı suya ismarıclayın", "Qarışıq yuxu gördükdə, səhər-səhər suya söyləyin, çünki su aydınlıqdır, bütün dolaşıq işləri açan, yoluna qoyandır", "Su içəni ilan vurmaz", "Qaynar suyu yerə tökməzlər. Əks təqdirdə, cinlər insanlara xətər yetirər. Ona görə də yerə qaynar su tökəndə, yanan ocağa su atıb

---

[10] Solmaz Məhərrəmova. **XIX-XX əsrin əvvəllərində kiçik Qafqazın cənub-şərq bölgəsinin tarixi-etnoqrafik tədqiqi**. Bakı, "Apostrof-A", 2020, s.248-249.

[11] Rəşid Göyüşov. **Azərbaycan arxeologiyası,** s.99.

[12] Mirəli Seyidov. **Azərbaycan xalqının soykökünü düşünərkən,** s.214.

[13] KDQ, s.143.

[14] **Azərbaycan mifoloji mətnləri.** Bakı, "Elm", 1988, s.51-52.

söndürəndə "bismillah" deyərlər" və s. Qaynar su ilə bağlı, əsərlərində Qarabağ bölgəsini hərtərəfli işıqlandıran, yazıya gətirən görkəmli ədib Əli Vəliyevin əsərində də maraqlı məlumatla rastlaşırıq: "O vaxtın qadınları nə qədər mərhəmətli, yazıq və mehriban idilər. Onlar yerə qaynar su tökmürdülər ki, cinlərin, şeytanların balaları yanar".[15]

Ümum Azərbaycan əhalisi arasında mövcud olan inama əsasən, axır çərşənbə gecəsi sular dayanır. Bu barədə xalq içərisində yayılmış rəvayətdə deyilir ki, bir arvad çərşənbə gecəsi səhərə qalmış səhəngi götürüb çaya su dalınca gedir. Nə qədər etsə də səhəng suya batmır. Sən demə, su yatıbmış. Arvad evə qayıdır. Sonra bir də gedir. Görür ki, su şırıltıyla axır. Səhəngi doldurub qayıdır".[16] Əlbəttə, bütün bu fikirlər, düşüncələr suya, onun möcüzəsinə, qüdrətinə, gücünə olan inamdan irəli gəlirdi.

Topladığımız etnoqrafik materiallar göstərir ki, Qarabağ əhalisi Bahar bayramında səhər-səhər su üstə gedər, bir-birinin üzərinə su səpər, arzularını, diləklərini, istəklərini ilk dəfə suya söyləyərdilər. Məhz bunun hamısı, yuxarıda deyildiyi kimi, suya inamın bariz nümunəsidir. Bu mifoloji inamın öz ictimai kökü vardır. Belə ki, maldarlıq və əkinçilik üçün əsas amillərdən biri də sudur. Bahar bayramında insanların suya girib, bir-birlərinə su atmaları, çoxlu su, yağış istəmələri də su və su tanrısı ilə ilişgəlidir.[17] Təsadüfi deyil ki, Azərbaycan türklərinin, eləcə də onun bir hissəsi olan Qarabağ əhalisinin əsas məşğuliyyət sahələri içərisində maldarlıq və əkinçilik xüsusi yer tutmuşdur.

***Dağ, daş və ağacla bağlı inamlar***

İnsanların daima təmasda olduğu, gündəlik gördüyü, hiss etdiyi ətraf mühit onların həyatında, yaşam tərzində, inamında mühüm rol oynayır. Bu fikir Qarabağ əhalisi üçün də bəlli və keçərlidir. Elə bunun nəticəsidir ki, bölgədə dağ, daş və ağacla bağlı inamlara xüsusi diqqət yetirilirdi.

Materiallar göstərir ki, Azərbaycan və Qafqazın bir sıra ərazilərində dağa, daşa, ağaca inamlar hələ Eneolit və Tunc dövrü abidələrindən məlum olmuşdur. Azərbaycan ərazisində yüksək dağ zirvələrinin, o cümlədən Killik dağ, Babadağ, Murovdağ, Palanlıdağ, Beşbarmaq və s. dağlarının müqəddəs sayılmasının kökləri də tunc dövründə geniş yayılmış animistik görüşlərə gedib çıxır.[18]

Qarabağ, xüsusən də Qubadlı əhalisinin verdikləri məlumata görə, ağır xəstəliyə düçar olanlar, övlad arzulayanlar, ürəklərində müəyyən bir arzu, dilək tutanlar rayonun Fərcan və Göy Yal kəndlərinin ərazisindəki "Hərtiz dağı"nı ziyarət edərdilər. "Hərtiz dağı ziyarətgahı" kimi məlum olan bu sınaq, inam yeri indi də yad olunmaqdadır.

Dağa inama, ona tapınma elementlərinə, ziyarət yerinə dönməsinə "KDQ" dastanındakı epizodlarda da rast gəlirik. Məsələn: "Qarşıdakı uca dağlar yaylağım olsun", "Uca dağların yıxılmasın" və ya əzablı olduqlarını bildirmək üçün "Qarşımdakı uca dağım yıxılıbdır" ifadəsinin işlədilməsi bunun işartılarıdır.[19]

---

[15] Əli Vəliyev. **Qəhrəman (roman).** Bakı, "Azərnəşr", 1954, s.78, 373 s.
[16] **Azərbaycan mifoloji mətnləri.** Bakı, "Elm", 1988, s.58, 196 s.
[17] Mirəli Seyidov. **Azərbaycan xalqının soykökünü düşünərkən,** s.214.
[18] Rəşid Göyüşov. **Azərbaycan arxeologiyası**, s.100-101.
[19] KDQ, s.160-165.

Məlum olduğu kimi, daş, insanların həyatında mühüm əhəmiyyət kəsb etmişdir. Daşdan həm tikinti materialı, həm də müxtəlif məişət qabları və əmək alətləri düzəltmək üçün geniş istifadə olunmuşdur. Ən əsaslarından biri də insanların həyatında oynadığı rola görə daşa inam-etiqad bəslənilməsi idi.

Əhalidən toplanılan materiallar və arxeoloji ədəbiyyatın verdiyi bilgilərdən məlum olur ki, Qarabağda cənazəni götürərkən yerinə daş qoyurlar ki, həmin ruh daşda qalsın.[20] Bu qayda, əsgasən, cavan şəxslər rəhmətə gedərkən icra olunardı. Vəfat edən adam yaşlı olardısa, onun arxasınca daş atılardı ki, gözü ocaqda qalıb, kimisə arxasınca “aparmasın”.

Yaşlı adamların dediyinə görə, Kəlbəcərin Vəng kəndində Sürüşkən adlanan qaya vardı. Xəstəlikdən əziyyət çəkən adamlar sağalmaları üçün həmin daşı öpür və üstündən sürüşürdülər. Laçında isə gec yeriyən uşağı “Yeri daş” pirinin üstünə gətirirdilər ki, yerisin.

Azərbaycanın müxtəlif ərazilərində ortasında təbii deşik olan daşlara rast gəlinirdi. Bəzi adamlar, məsələn, uşağı olmayanlar, xəstəlikdən əziyyət çəkənlər niyyət edib, həmin daşın deşiyindən keçirdilər. Etnoqraf S.Məhərrəmova yazır ki, ortası deşikli daşa Laçın rayonunun Qarakeçili və Cicimli kəndlərində də təsadüf olunmuşdur. Eyni zamanda, Kəlbəcər rayonunun Qaraçanlı kəndində yolun kənarında üzərində nal şəkli oyulmuş “Düldül” adlandırılan daş pir vardır. Bu pirə gələnlər niyyət edib, həmin daşın üstünə nəzir qoyardılar.[21]

Qubadlı bölgəsinin Qarakişilər kənd sakini Yaşar Allahverdiyevin və Xanlıq kənd sakini Mürvət Tahirovun dediyinə görə, həmin rayonun Qaracallı kəndində “Umay qayası” (xalq arasında “Gəlin qayası” da deyilir) adlı yer vardır. “Umay qayası” barədə ərazinin əhalisi içərisində rəvayət dolaşmaqdadır. Rəvayətə görə, bir çobanın qadınının uşağı olmurmuş. Bu uğursuzluğu özünə dərd edən qadın hər gün gedib bir qayanın dibində Allaha dua edirmiş ki, uşağımız olsun. Bir müddətdən sonra adı Umay olan həmin qadının uşağı dünyaya gəlir. Elə o vaxtdan da həmin qayanı “Umay qayası” adlandırırlar.

Məlumatlara görə, uşaqsız qadınlar ürəklərində niyyət tutaraq sözügedən qayanı ziyarət edərdilər. Hətta bu sınaqlı yerə uzaq-yaxın yerlərdən də gələnlər olardı. Bəzi valideynlər yeriyə bilməyən uşaqlarını bu qayanın yanına gətirər və ondan şəfa diləyərdilər. Deyilənə əsasən, “Umay qayası”nı ziyarət edənlərin arzu-istəkləri çin olar, niyyətləri yerinə yetərdi.

Azərbaycanın digər ərazilərində olduğu kimi, ağacla bağlı inamlar Qarabağ əhalisi arasında da geniş yayılmışdır. Ümumiyyətlə, ağaca sitayişin, inamın kökü qədim dövrlərlə səsləşir. Elə “Y.Hümmelin 1937-ci ildə Gəncəçay rayonundan (1 №-li yaşayış yerindən) tapdığı bir qabın üzərindəki ağac təsviri..., habelə, Mingəçevirdə və Xınıslıda (Şamaxı) eramızın ilk əsrlərinə aid aşkar edilmiş gil qabların üzərindəki ağac təsvirləri”[22] dediyimizin real mənzərəsini ortaya qoyur.

---

[20] Rəşid Göyüşov. **Azərbaycan arxeologiyası**, s.99.

[21] Solmaz Məhərrəmova. **XIX-XX əsrin əvvəllərində kiçik Qafqazın cənub-şərq bölgəsinin tarixi-etnoqrafik tədqiqi.** Bakı, “Apostrof-A”, 2020, s.247.

[22] Rəşid Göyüşov. **Azərbaycan arxeologiyası**, s.101.

Ağaca inam, ağacla dərdləşmə, ondan kömək istəmə məsələsi özünü "Kitabi-Dədə Qorqud" dastanında da büruzə verir:

*Sənə "Ağac!" "Ağac!" deyirəmsə, çəkinmə, ağac!*
*Məkkə ilə Mədinənin qapısı ağac!*
*Museyi-Kəlimin əsası ağac!*
*Böyük-böyük suların körpüsü ağac!*
*Nəhəng-nəhəng dənizlərin gəmisi ağac!*
*Əlinin Düldülünün yəhəri ağac!*
*Əlinin qılıncının qınıyla dəstəyi ağac!*
*İmam Həsənlə Hüseynin beşiyi ağac!*
*Ərin də, arvadın da qorxusu ağac!*
*Başını tutub baxarsam, başsız ağacsan!*
*Dibini tutub baxarsam, dibsiz ağacsan!*
*Məni səndən asarlar, götürmə, ağac!*
*Götürsən, igidliyim səni tutsun, ağac!*
*Gərək bizim eldə olaydın, ağac!*
*Qara hindu qullarıma buyuraydım,*
*Səni para-para doğrayaydılar, ağac!*[23]

Əlbəttə, burada müraciət olunan ağac ən kutsal ağaclardandır. Ona islamın ən müqəddəs şəhərlərinin – Məkkə ilə Mədinənin qapısı, Musa peyğəmbərin əsası, Hz. Əlinin qılıncının dəstəyi, atı Düldülün yəhəri, İmam Həsənlə Hüseynin beşiyi və s. deyilməsi xüsusi məna kəsb edir.

Qarabağ əhalisi müqəddəsləşdirilmiş, pir kimi qəbul edilmiş ağacları ziyarət etmiş, altında qurbanlar kəsib diləklər diləmiş, budaqlarından nəzirlər asmışlar. Füzulinin Kərimbəyli kəndindəki "Çinaraltı", Laçındakı "Div damı", Cəbrayıldakı "Dağdağan ağacı" kimi pirlər belə ziyarət yerlərindən olmuşdur.

Topladığımız məlumatlara görə, əsasən, dağdağan, çinar, şam, qayın, qoz, tut, əncir, nar kimi ağaclara inamlı qüvvə kimi baxılmışdır. Özü də, adamlar hava qaraldıqdan sonra qoz və tut ağaclarının altından keçməyə ürək etməz, həmçinin, ağacın dibinə qaynar su tökməzdilər. Yaşlı adamlar danışır ki, məsələn, "dağdağan ağacını kəsmək, qırmaq olmaz. Əks təqdirdə, onun qarğışından yaxa qurtarmaq olmaz", "Əncir ağacının odununu yandıranlar xeyir görməz", "Əncir ağacını kəsən öz kökünü kəsir", "Əncir ağacının altında yatmazlar. Əncir ağacının altında yatan şəxs illər xəstəsi olar" və s. Adamlar ağacları canlı varlıq qismində qəbul edər, onları incitməkdən çəkinər, yuxuda ağacın yıxılmasını çox pis, xoşagəlməz hadisə sayardılar.

Qarabağ əhalisi arasındakı düşüncəyə, yuxarıda qeyd olunan maraqlı fikirlərə tədqiqatçıların əsərlərində də rast gəlirik. Bu xüsusda qeyd edilir ki, Qərbi sibirlilər arasında insanın ağacla şəxsi əlaqəsinin olması barədə inam var idi. Məsələn, əgər yuxuda kimsə yıxılan ağac görürdüsə, bunu çox pis əlamət kimi qəbul edirdi. Əslində o bunu ya özünün, ya da yaxınlarından kiminsə ölümünün yaxınlaşması ilə əlaqələndirirdi.[24]

---

[23] **Kitabi-Dədə Qorqud,** s.146.
[24] Ağayar Şükürov. **Mifologiya,** 6-cı kitab. Qədim türk mifologiyası. Bakı, "Elm", 1997, s.66.

Ədəbiyyat materialına əsasən, göytürklər, yaqutların Ulu Toyun, altaylıların Ulgen dedikləri böyük tanrıya Oğan deyirdilər. Göytürklərin inamına görə, Oğan yerin ortasında bitmiş böyük bir şam ağacının ortasında oturur. Deməli, şam ağacı ona görə müqəddəsdir ki, orada tanrı məskən salmışdır. Əski türk qəbilələri, xalqları ağacı müqəddəs saydıqlarına görə göyə – tanrıya, yerə qurban kəsdikdən sonra qayın ağacı əkib meşələr salardılar.[25]

Ağaclara inamdan danışarkən, digər bitki, məsələn, üzərlik və başqa otlar barədə də danışmaq gərəyi yaranır. Qarabağ əhalisinin inamına əsasən, üzərlik otunun tüstüsü dezinfeksiya etmək keyfiyyətinə malik olduğu üçün bir sıra xəstəliklərin müalicəsində, eləcə də gözdəymənin qarşısını almaqda ən gözəl vasitələrdən sayılır. Ona görə də uşaq tez-tez əsnədikdə nəzərə gəldiyi düşünülər və başı üzərində üzərlik yandırılıb belə deyilərdi:

*Üzərliksən havasan,*
*Min bir dərdə davasan.*
*Balama göz vuranın*
*Gözlərini ovasan.*

"Göy otu tüstülətməzdilər ki, yağış yağar", "Süpürgəni yandırmazdılar ki, yel əsər", "Evi süpürəndə süpürgə kiminsə ayağına dəyərsə, 3 dəfə süpürgəyə tüpürürlər ki, həmin şəxs şərə düşməsin" və s.

### *At, it və quşlarla bağlı inamlar*

Qarabağlılar içərisində at, it və göyərçinlə bağlı da inamlar mövcud idi. Qarabağlıların ata məhəbbətləri, sevgiləri, ona inam gətirmələri, yuxarıda deyildiyi kimi, dəfələrlə sınamalarının, təcrübələrdən keçirmələrinin yaddaşlara yazılan son qənaətlərindən irəli gəlirdi. Bu da məlumdur ki, ərazidə yetişdirilən Qarabağ atı cinsi Qafqazda ən qədim at cinslərindən olmuşdur. XIX əsrin axırlarında Qarabağ atı barədə belə bir fikir də söylənilirdi: Cənubi Qafqazda at cinslərinin sayca çoxluğuna baxmayaraq, bu cinslərin hamısı Qarabağ atı cinsinin nəsli dəyişmiş qollarıdır. Bəzi tədqiqatçılar Qarabağ atının Asiya at cinslərinə və Şimali Qafqazda məşhur olan Qabardin atının inkişafına da təsir etdiyini deyirlər.[26]

Doktor C.Heyət yazır ki, V.Şmidt, O.Minkin, V.Koppers, F.Flor kimi məşhur kültür tarixçilərinin fikrinə görə at ilk dəfə türklərin əcdadları tərəfindən əhliləşdirilmiş və minik, eləcə də savaş üçün işlədilmiş, qida vasitəsi kimi ətindən, südündən istifadə edilmişdir. Özü də çinlilər ata minməyi və at üstündə savaşmağı hunlardan öyrənmişlər. Çin və Bizans müəlliflərinin yazdığına görə, hunlar at üstündə yaşarmışlar, sanki at üstündə anadan olmuşlar və atı müqəddəs sayarmışlar.[27]

Qarabağ əhalisinin düşüncəsinə, inamına əsasən, Azərbaycanda ən azı beş min illik tarixi olan (T.Bünyadov) at "muraddır, yuxuda at görən muradına, arzu-istəyinə çatar", "At təngiyib, yolda dirəşəndə sahibini qəza gözləyər", "Atı satanda yüyən və noxtasını verməzlər, əks təqdirdə, atı satan bir daha ata sahib olmaz, ruzi-bərəkəti

[25] Mirəli Seyidov. **Azərbaycan xalqının soykökünü düşünərkən,** s.228.
[26] Teymur Bünyadov. **Azərbaycanda atçılığın tarixindən.** Azərbaycan etnoqrafik məcmuəsi №3. Bakı, "Elm", 1977, s.12.
[27] Cavad Heyət. **Türklərin tarix və mədəniyyətinə bir baxış.** Bakı, "Azərnəşr", 1993, s.45, 176 s.

qaçar", "At nalını qapıdan, pəncərədən asdıqda ev bərəkətli olar"; "Ulayan iti tez bağdan açıb ona yal verərdilər ki, əcəlin payını verdik, bu həndəvərə yaxınlaşmasın" və yaxud: "İt ulayanda ona çarıq atarlar", "İti ləj düşən evin bərəkəti kəsilər", "Evə qonaq gələndə hürməyən, gedəndə sakit durmayan iti saxlamazlar", "İt kəlləsi asılmış həyət bəd nəzəri götürməz", "Yaylaqda gecə vaxtı it ulayanda canavarın gəldiyinə işarə edər". İnsanların təsərrüfat həyatında, xüsusilə də heyvandarlıqda mühüm rol oynayan it "mezolit dövründə insanın əhliləşdirdiyi ilk heyvandır".[28] İt çobanların vəfalı yol yoldaşı, köməkçisi, mal-qaralarını, qoyun sürülərini vəhşi heyvanlardan qoruyan sədaqətli keşikçisi olmuşdur.

"Dili gec açılan uşağa göyərçin yumurtası verərdilər", "Göyərçinə həyətdə ev quran adamın ruzusu bol olar", "Göyərçin qonan həyətə pis ruhlar yaxın gəlməz"; "Qaranquş aşağıdan uçanda yağış yağar", "Qaranquş yuva qurduğu həyətdə həmişə şadlıq olar", "Qaranquş yuvasını dağıdan şəxslər ziyan görər"; "Qarğanın həyətə qonub qarıldamağı bəd hadisəyə işarədir", "Qarğanın çoxluğu qışın sərt keçəcəyini bildirir"; "Sağsağan həyətə qonanda uzaqda olan ailə üzvünün gələcəyinin müjdəsini verir. Ona görə də ev yiyəsi bayıra çıxıb sağsağana səslənir ki, xeyir-xəbər olasan"; "Həyətə bayquş gələndə qoca qadın Süleyman peyğəmbərin adını çəkir və "a bayquş, xatanı bizdən uzaq elə" – deyib, ona yem olaraq əlində tutduğu duz-çörəyi o qonan ağacın altına qoyur" və s. Məhz niyə Süleyman peyğəmbərin adının çəkilməsinə gəldikdə isə, düşünülürdü ki, o, bütün heyvanların dilini bilir.

Ümumiyyətlə, Qarabağ əhalisi içərisində yayılmış inamlar müxtəlifdir. Bunu aşağıdakı inam nümunələri də göstərməkdədir:

"Saçı darayarkən tökülən saçı yığıb yumaqlayar və əl-ayaq dəyməyən yerə qoyardılar. Saç yerdə qalsa, sahibi uğursuzluğa düçar olardı, tilsimə düşərdi", "Uşağın saçını qırxdıqda yerə atmaz, ayaqlamazdılar. Əks təqdirdə, uşaq baş ağrısından əziyyət çəkərdi". Guya, "baş ağrısı saç ruhunun narahatlığı ilə əlaqədardır və bu narahatlığa əsas səbəb isə saçın tez-tez yuyulması, daranması, qırxılmasıdır".[29] Adamların qədim inamına əsasən, saç kəsildikdə və ya qırxıldıqda, guya, ömür qısalırdı; "Yağış yağanda ovucu yağışa açmaz, əli suyun altında tutmazlar. Əli yağışın altına tutduqda, uzun müddət leysan yağışı yağar". Leysan yağışla bağlı M.Seyidov maraqlı fikir söyləyir. O yazır ki, Azərbaycanın bir çox yerlərində, eləcə də Ermənistanda, Gürcüstanda yaşayan azərbaycanlılar leysan yağışına "törəmə yağışı" deyirlər. Və bu ifadədə güman ki, Göyün yağış vasitəsilə Yeri mayalaması inamının izləri özünü göstərir. Belə olmasaydı, onda yağışa, "doğub-artan" anlamlı "törəmə" adını verməzdilər;[30] "Leysan yağışı kəsmək üçün bayıra şiş və ya bıçaq sancardılar". Cəbrayıl sakinindən əldə etdiyimiz məlumata görə, leysan yağışı kəsmək üçün o bölgədə bəzən bayıra bir cam qatıq qoyulardı. İnama əsasən, bununla da yağışa pay verib, onun könlünü almış, buludun göz yaşını kəsmiş olurdular. Yazıçı Əli Vəliyev yağışla bağlı qarabağlıların bir inamından bəhs edərək yazır: "Deyirlər nəmişli gündə ərlə arvad bir qabda xəşil yesə, o saat yağış kəsər, qırmızı gün çıxar";[31] "Güzgünü

---

[28] Xalyəddin Xəlilov. **Qarabağın elat dünyası.** Bakı, "Azərnəşr", 1992, s.73, 119 s.

[29] Bəhlul Abdullayev. **Haqqın səsi,** Bakı, "Azərnəşr", 1989, s.7.

[30] Mirəli Seyidov. **Azərbaycan xalqının soykökünü düşünərkən**, Bakı, 2018, s.309-310.

[31] Əli Vəliyev. **Çiçəkli (roman).** İkinci nəşr. Bakı, "Azərnəşr", 1955, s.258.

ləkəli saxlamazlar, əks təqdirdə, işlər düz getməz, adama üz qarası gətirər", "Ailədə bədbəxtlik baş verər deyə, gecə güzgüyə baxmaz və evdə sınıq güzgü saxlamazlar". Güzgünün ilkin olaraq harada meydana gəlməsi maraq kəsb edir. Bəziləri güzgünü Çin, Yunanıstan, İran, Orta Asiya sənətkarlarının işi hesab etməklə bərabər, Cənubi Qafqazı da onun vətəni sayırlar.[32] Güzgünün düzəldilməsi barədə Nizami Gəncəvi də dolğun məlumat vermişdir;[33] "Uşağın ilk dişi çıxanda yeddi növ dənli bitkinin məhsulundan hədik bişirib 7 evə paylayardılar. İnama görə, belə etdikdə uşağın dişi tez və rahat, ağrısız çıxırdı"; "Arandan yaylağa gedənlər gicitkən suyu ilə çimizdirilərdi. Əks təqdirdə, onlar qızdırma xəstəliyinə tutulardılar"; "Evdə bir kəsi hıçqırıq tutanda, guya, o, oğurluq edib". Əlbəttə, bu, düşünülən kimi deyildi, hıçqırığın baş verməsi mədənin yüngülvarı xəstəliyi ilə əlaqədar idi; "Yemək üstünə gəlib çıxanın qayınanasının onu çox istəməsinə inanılardı"; "Səpin vaxtı buğda qovurmazlar, çünki səpilən yanar; "Qazan dibi yeyənin toyunda qar yağar"; "Boşqabda yemək saxlayanın sevgilisi çirkin olar"; "Qulaq cingildəyəndə kimsə dalınca danışır", "Sağ qulaq qızaranda xeyrinə danışırlar, sol qulaq qızaranda isə səndən qeybət edirlər"; "Körpə uşaq qorxmasın deyə balışının altına qayçı və ya bıçaq qoyarlar"; "Göz səyriyəndə "xeyirliyə səyrisin" deyib qapağının üzərinə qırmızı sap qoyarlar"; "Duz süfrəyə töküləndə üzərinə qənd parçası qoyulardı ki, dava düşməsin"; "Ayaqqabı darlıq rəmzidir, təzə gəlinə ayaqqabı aparmazlar"; "Qatıq çalanda üstünü kişi paltarı ilə örtərlər ki, tez və bərk alınsın"; Evdən qonşuya qatıq və ya süd verərkən, evin bin-bərəkəti getməsin deyə içinə kibrit yandırıb atarlar; "Toy günü gəlin çırağının lampası, həmçinin, güzgüsü sınsa, onun həyatı bədbəxtliklərlə dolu olacaq"; "Gecə dırnaq tutanın ömrü kəsilir"; "Qayçının ağzı açıq qalarsa, sözünü danışan var"; "Bıçaq ağzı göyə tərəf durarsa, deyilən qurbanın kəsilməli olduğunu yada salır" və s.

***Nəticə***

Yuxarıda qeyd etdiyimiz inamlar Qarabağ əhalisi arasından topladığımız inamların çox cüzi hissəsidir. Məqalənin həcmini nəzərə alaraq, əlimizdəki inam nümunələrinin hamısını yazıya gətirə bilmirik və yeri gəldikcə onlar barədə də danışacağıq. Bir də son olaraq onu deyək ki, Qarabağ əhalisinin inam-etiqadları barədə apardığımız qısa tarixi-etnoloji tədqiqat göstərir ki, bölgədə yayılan qədim tarixə malik inamlar ümumazərbaycan səciyyəli və genetik baxımdan türklərlə bağlıdır. Bütün bu ümumiliyə baxmayaraq, sırf bölgə əhalisinə məxsus inamlar da vardır ki, onlara günümüzdə də riayət edilməkdədir.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Azərbaycan mifoloji mətnləri. Bakı, "Elm", 1988, 196 s.
2. Abdullayev, Bəhlul. **Haqqın səsi.** Bakı, "Azərnəşr", 1989, 144 s.
3. Abdulla, Bəhlul. **Azərbaycan mərasim folkloru.** Bakı, "Qismət", 2005, 208 s.
4. Babayev Tofiq. **Qoy həmişə çörək olsun.** Bakı, "Elm və təhsil", 2013, 124 s.

[32] Bəhlul Abdulla. **Azərbaycan mərasim folkloru.** Bakı, "Qismət", 2005, s.27.
[33] Nizami Gəncəvi. **İsgəndərnamə. Şərəfnamə.** Bakı, "Lider", 2004, s.109-110.

5. Babayev Tofiq. **El ocaq başına yığışar.** Bakı, "Azərnəşr", 1998, 204 s.
6. Bünyadov Teymur. **Azərbaycanda atçılığın tarixindən.** AEM №3. Bakı, "Elm", 1977, s. 6-26.
7. Əmənova, Bahar. **Mənəvi mədəniyyətimiz Əli Vəliyev yaradıcılığında.** Bakı, "Avropa", 2020, 120 s.
8. Gəncəvi, Nizami. **İsgəndərnamə. Şərəfnamə.** Bakı, "Lider", 2004, 432 s.
9. Göyüşov, Rəşid. **Azərbaycan arxeologiyası.** Bakı, "İşıq", 1985, 186 s.
10. Heyət, Cavad. **Türklərin tarix və mədəniyyətinə bir baxış.** Bakı, "Azərnəşr", 1993, 176s.
11. Xəlilov, Xəlyəddin. **Qarabağın elat dünyası.** Bakı, "Azərnəşr", 1992, 119 s.
12. **Kitabi-Dədə Qorqud.** Bakı, "Yazıçı", 1988, 256 s.
13. Məhərrəmova, Solmaz. **XIX-XX əsrin əvvəllərində Kiçik Qafqazın cənub-şərq bölgəsinin tarixi-etnoqrafik tədqiqi.** Bakı, "Apostrof-A", 2020, 304 s.
14. Nəbiyev, Afat. **El nəğmələri, xalq oyunları.** Bakı, "Azərnəşr", 1988, 168 s.
15. Seyidov Mirəli. Azərbaycan xalqının soykökünü düşünərkən, Bakı, 2018, "Elm və Təhsil", 442 s.
16. Şükürov Ağayar. **Mifologiya,** 6-cı kitab. Qədim türk mifologiyası. Bakı, "Elm", 1997, 232 s.
17. Vəliyev, Əli. **Qəhrəman** (roman), Bakı, "Azərnəşr", 1954, 373 s.
18. Vəliyev, Əli. **Çiçəkli** (roman), İkinci nəşr. Bakı, "Azərnəşr", 1955, 511 s.

MƏLUMATÇILAR

1. Allahverdiyev Yaşar İsmayıl oğlu (1957-ci il doğumlu), Qubadlı r., Qarakilsə k.
2. Əliyev Mircəfər Novruz oğlu (1968), Füzuli r.
3. Gözəlova Gülyetər Abdulla qızı (1961), Ağdam r., Mərzili k.
4. Həsənov Əsgər Alı oğlu (1951), Ağdam r., Abdal Gülablı k.
5. Həsənova Elmira İsaq qızı (1950), Füzuli r., Arış k.
6. Həsənova Aminə Cəmil qızı (1956), Ağdam r., Mərzili k.
7. Xudiyev Əli Bahəddin oğlu (1984), Zəngilan r.
8. İsmiyeva Sevinc Teyfur qızı (1976), Cəbrayıl r.
9. Səfərov Sabit Haqverdi oğlu, (1955), Füzuli r., Kərimbəyli k.
10. Sadıqov Əli Teyfur oğlu (1950), Cəbrayıl r.
11. Şirinova Yasəmən Nadir qızı (1954), Füzuli r., Qaradağlı k.
12. Şirinov Əlövsət Qədir oğlu (1954), Füzuli r., Qaradağlı k.
13. Allahverdiyev Etibar Mürşüd oğlu (1956), Füzuli r., Babı k.
14. Tahirov Mürvət Cəlal oğlu (1964), Qubadlı r. Xanlıq k.
15. Təhməzova Gülbahar Bəhlul qızı (1956), Füzuli r, Böyük Bəhmənli k.

MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR

Əmənova Bahar Tofiq qızı – böyük elmi işçi, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. Azərbaycan, Bakı

Amanova Bahar Tofig – senior researcher, A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku



*Cərciş peyğəmbər ziyarətgahı. Beyləqan rayonu (Mənbə: Foto müəllifə məxsusdur)*



*İbe (İbrahim) ziyarətgahı. Füzuli r., Aybasanlı k. (Mənbə: Foto müəllifə məxsusdur)*



*Hacı Qaraman ziyarətgahı. Cəbrayıl r. (Mənbə: Foto müəllifə məxsusdur)*



*Şeyx Babı türbəsi. Füzuli r., Babı kəndi (Mənbə: Foto müəllifə məxsusdur)*



*Fatma Çələbi ziyarətgahı. Cəbrayıl r., Sirik k. (Mənbə: Foto müəllifə məxsusdur)*



*İmam piri. Füzuli r., Horadiz qəsəbəsi (Mənbə: Foto müəllifə məxsusdur)*



*İmam piri. Füzuli r., Horadiz qəsəbəsi*

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.101-108*

**UOT: 39:392.2:321.12**

# GƏNCƏNİN XALQ TƏBABƏTİNDƏN

©2025

HƏQİQƏT ZAHİDOVA*

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ORCİD: 0009-0009-21997640; e-mail: heqiqettzahidova@gmail.com

***Xülasə:*** *Məqalədə Gəncə şəhər əhalisi arasında geniş yayılmış xalq təbabəti ilə bağlı məsələlərdən bəhs edilir. Çöl-etnoqrafik səfər zamanı müşahidə, müsahibə, sorğu və s. metodlardan istifadə edərək toplanan materiallar təsdiq edir ki, qədim şəhər ənənələrini özündə əks etdirən Gəncədə məişət və mədəniyyətimizin mühüm tərkib hissəsi olan xalq təbabəti vasitəsi ilə müalicə üsulları qismən də olsa qorunub saxlanılmaqdadır. Məlumatçılardan əldə edilən bilgilər bu sahənin hələ lap qədimdən burada təşəkkül tapdığını söyləməyə əsas verir. "Əttarlar", "Çöpçülər" məhəllə adlarının yaşadılmasını, eyni zamanda, təbabət bilicilərinin indi də xalqa xidmət etdiyini nəzərə alsaq, Gəncəni Qərb bölgəsinin xalq təbabəti mərkəzi kimi xarakterizə etmək olar.*

***Açar sözlər:*** *Xirək (Hacıkənd) qalası, xalq təbabəti, "Şəfa çiçəyi", gülab, əl-mavz*

# FROM THE FOLK MEDICINE OF THE GANJA

©2025

HAGİGAT ZAHIDOVA*

*A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS
ORCİD: 0009-0009-21997640; e-mail: heqiqettzahidova@gmail.com

***Abstract:*** *The article deals with issues related to folk medicine, which is widespread among the population of Ganja city. During a field-ethnographic trip, observation, Interview, Survey, etc. The materials collected using the methods confirm that in Ganja, reflecting the ancient city traditions, the methods of treatment by means of folk medicine, which is an important part of our life and culture, are preserved at least in part. The information obtained from the informants gives reason to say that this area has been formed here since ancient times. Taking into account that the names "attarlar", Scavengers and at the same time the connoisseurs of medicine still serve the people, ganja can be characterized as a center of folk medicine of the Western Region.*

***Keywords:*** *khirak (Hajikend) Castle, folk medicine, "Healing flower", gulab, Al-Mazz*

# ИЗ НАРОДНОЙ МЕДИЦИНЫ ГЯНДЖИ

©2025

ХЯГИГЯТ ЗАХИДОВА*

*Институт Истории и Этнологии НАНА имени А.А.Бакиханова
ORCİD: 0009-0009-21997640; e-mail: heqiqettzahidova@gmail.com

***Резюме:*** *В статье рассматриваются вопросы, связанные с народной медициной, которая широко распространена среди населения города Гянджа. Во время полевой – этнографической поездки проводятся наблюдения, интервью, опросы и т.д. Материалы, собранные с помощью методов, свидетельствуют о том, что в Гяндже, отражая традиции древнего города, частично сохраняются методы лечения средствами народной медицины, являющиеся важной составляющей нашего быта и культуры. Знания, полученные от информаторов, дают основание говорить о том, что эта область народной медицины сформировалась здесь еще с глубокой древности. Учитывая, что названия кварталов «аттары», «чопчю» сохраняются по сей день, а также то, что знатоки медицины и сейчас служат народу, Гянджу можно охарактеризовать как центр народной медицины Западного региона.*

***Ключевые слова*:** *Крепость Хирак (хаджикенд), народная медицина, «цветок исцеления», гулаб, аль-мавз*

***Giriş***

Azərbaycanın qədim mədəniyyətə, zəngin adət-ənənələrə, şifahi və yazılı ədəbiyyata mənsub şəhərlərindən biri Gəncədir. Gəncənin yerləşdiyi təbii-coğrafi şərait, ərazinin bolsulu çayları, münbit torpağı, müalicəvi əhəmiyyətə malik zəngin bitki örtüyü və təbii mağaraları burada hələ qədim dövrdən insanların yaşamasına səbəb olmuşdur.

Arxeoloji qazıntılar zamanı ərazidə müxtəlif dövrlərə aid aşkarlanan çoxlu sayda maddi mədəniyyət nümunələri buranın sosial-iqtisadi və mədəniyyət mərkəzi olduğunu ehtiva edir. Hətta şəhərin Gəncə (xəzinə) adlanmasını bəzən onun zənginliyi ilə əlaqələndirənlər də olur.

Təəssüf ki, tarixi məxəzlər Gəncədə təbabətin qədim və orta əsrlərdəki vəziyyəti haqqında o müfəssəl məlumat vermir. Bununla belə, günümüzə qədər gəlib çıxmış müəyyən şifahi məlumatlar, həmçinin, ömründə bircə dəfə də olsa Gəncədən kənara çıxmaması iddia edilən dahi Nizaminin yaradıcılığında təbabətin təsviri buranın əhalisinin zəngin empirik biliklərə malik olmasının bariz ifadəsidir. Din və elmi müqayisə edən böyük şair təbabətə "elmlərin elmi" kimi yüksək qiymət verir:

"Elmlər elmidir", demiş peyğəmbər
Din elmi, təbabət elmi, müxtəsər.[1]

[1] Gəncəvi Nizami. **Leyli və Məcnun**. Bakı, "Lider nəşriyyatı", 2004, s.288.

İnsanın ilk loğmanı, şübhəsiz ki, türkəçarəçilər (otaçılar) olmuşdur. Sonralar ot və bitkiləri yığıb toplamaqla, onların müalicə xüsusiyyətlərini öyrənməklə məşğul olan, satışını təşkil edən xüsusi peşəkar təbabət biliciləri – əttarlar meydana gəlmişdir. Müasir əczaçıların və əczaxanaların funksiyasını yerinə yetirən bu xalq biliciləri müxtəlif xəstəliklərin müalicəsində istifadə olunan məlhəmlərin, bitki, heyvan və mineral mənşəli həblərin, şirələrin, cövhərlərin, məcunların hazırlanmasında zəngin təcrübə toplamış, bir sözlə, mövcud xəttə peşəkar adını, titulunu qazanmışlar.

Xəstəliklərin daha çox "türkəçarə" kimi tanınan xalq təbabəti üsulu ilə müalicəsi ən qədim dövrlərdən günümüzədək aktuallığını saxlamışdır. Son zamanlar qəbul edilən kimyəvi dərman preparatlarının yeni xəstəliklərə yol açması təbii vasitələrlə həyata keçirilən qədim müalicə üsullarının aktuallaşmasına və bununla da xalqın məişətinin, gündəlik həyatının ayrılmaz tərkib hissəsinə çevrilməsinə səbəb olmuşdur. Xalq təbabətinə aid kitabların nəşri, həmçinin, sosial şəbəkələrdə, mətbuat səhifələrində təbii vasitə və üsullarla müalicələr haqqında verilən məlumatlar bu məsələyə marağın artmasını göstərən amillərdəndir. Ölkəmizin hər yerində olduğu kimi, Gəncədə təbabət ilə bağlı toponimlərin mövcudluğu, loğman, əttar, təbib, sınıqçı, çöpçü, mamaça və s. kimi peşələrin yaranması xalq təbabətinin praktiki əhəmiyyətinin yüksək olduğunu xarakterizə edir.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Gəncədə də türkəçarəçilər xəstənin orqanlarını nəzərə almaqla, banka qoymaq (küpələmək), hacamat (qan almaq), tüstüyə vermək, müxtəlif bitki, mineral və heyvan mənşəli dərmanlardan yararlanır, psixoloji xəstəliklərdə musiqi, su və ya quş səsi dinlətmək kimi metodlardan istifadə edirdilər. Tədqiqatlar göstərir ki, xalq təbabəti biliciləri müalicəni "əl məndən, səbəb Allahdan" deyib həyata keçirirdilər. Türkəçarəçilər anatomiyanı, bakteriologiyanı, mikrobiologiyanı, tibbin oftalmoloji, patoloji, farmakoloji, fiziologiya, psixologiya, cərrahlıq kimi sahələrini bilirdilər.

Gəncənin müxtəlif sənət sahələrinin adı ilə adlanan məhəllələrinin olması məlumdur. Əttarlar məhəlləsində ədviyyat satanlar fəaliyyət göstərirdi ki, onların işinin bir hissəsini əttarlıq, yəni çeşidli otlardan, bitkilərdən, ağaclardan, çiçəklərdən dərman nüsxələri hazırlamaq təşkil edirdi. Əttarlar bir növ müasir farmakoloq – əczaçıların funksiyasını daşıyırdılar. Gəncənin bu sahə ilə maraqlanan sakinləri ata-babalarından eşitdiklərinə istinad edərək söyləyirlər ki, sözügedən məhəllədə çalışan əttarlar həm də incə rayihəli, zərif qoxulu, gözəl ətirli maddələr-mayelər, ətriyyatlar, sular, yağlar, məlzəmələr hazırlayırdılar.[2] Bu ətriyyatlardan, müasir anlamda desək, kosmetik məqsədlə parfümeriya kimi də istifadə olunurdu. Deməli, Gəncə əttarları həm də peşəkar kosmetoloqlar kimi xarakterizə edilməlidir.

Gəncəyə çöl – etnoqrafik səfər zamanı xalq təbabətinin geniş yayıldığı Əttarlar məhəlləsində olduq. Məlumatçımız, məhəllə sakini Ruziyə Quliyeva öz nənə-babasından eşitdiklərini bizimlə belə bölüşdü: "Vaxtilə əttarlar burada müalicəvi bitkilərdən istifadə etməklə, müxtəlif xəstəliklərdə tətbiq edilən dərmanlar hazırla-

[2] Cəlal Tağıyev. **Əttarlıq – dərdlərə dərman** https://medeniyyet.az/page/news/17314 /Ettar-liq-derdlere-derman.html?lang=az 22. 11.2024

mışlar. Gəncədə ətriyyat və ədviyyat satan tacirlərə də əttarlar deyirdilər. Bu tacirlərin evləri də Əttarlar məhəlləsində yerləşirdi".

Söhbət əsnasında Əttarlar məhəlləsinə xalq arasında "Çayqıraqlılar" deyilməsi də məlum oldu. Şəhər sakini Namlet Allahverdiyev buna səbəb kimi çiçəklərdən müalicəvi gülab, cövhər, araq və digər dərmanlar hazırlayarkən istifadə edilən soyuq suyun Gəncəçaydan götürmələri ilə əlaqədar olduğunu söyləyir.

Çox yerdə olduğu kimi, Gəncə əttarları da ətir, dərman və sağlamlıq üçün əhəmiyyətli olan vasitələrdən başqa, müalicəvi kosmetik yağlar da istehsal edirdilər. Məhəllə sakini, Tarix Əsgərov yaşlı adamlardan eşitdiklərinə istinadən əttarların tapılmayan bir çox məhsulları İrandan, Türkiyədən, Suriyadan və s. ölkələrdən gətirdiklərini söylədi. Bu fikrin təsdiqi olaraq deyək ki, hələ VII əsr Alban tarixçisi Musa Kalankatuklu özünün "Alban tarixi" kitabında tibb elmində kamilliyə çatan insanların bu ölkədə xüsusi hörmət sahibləri olduqlarını yazırdı. Məlum olur ki, elə o zaman da əczaxanalar varmış. Orada həm yerli dərman bitkiləri, həm də dünyanın müxtəlif ölkələrindən gətirilmiş dərman bitkiləri satılardı.[3]

Əttarlar məhəlləsinin yaşlı sakinləri vaxtilə məşhur olan Məşədi Hilal, Məşədi Məmmədəli, Məşədi Hüseynalı, Kəblə Zəhra, Məşədi Sürəyya, Seyid Suğra, Məşədi Züleyxa, Kəlbə Seyidbəyim kimi əttarların və tanınmış loğmanların adlarını çəkdilər. Tədqiqat obyekti kimi müraciət etdiyimiz bu məhəllə küçələrin müxtəlif hissələrini əhatə etsə də, burada sözügedən qədim peşə sahəsinin hazırda belə, qorunub saxlanıldığının şahidi oluruq. Məhəllənin "Şeytan bazar"ı deyilən yerinin yaxınlığında müalicəvi otlarla yanaşı, zəfəran, sarıkök, istiot, zirə, darçın, hil, mixək, xaşxaş və s. satılan ticarət cərgələrinin qalıqları hələ də qalmaqdadır.

Etnoqrafik səfər zamanı "Çöpçülər" *(indiki Səməd Vurğun küçəsi)* adlı qədim məhəllədən topladığımız materiallar da bu qədim sahəyə yenidən nəzər yetirmək baxımından çox əhəmiyyətli oldu. Gəncədə bu adda məhəllənin mövcudluğu şübhəsiz ki, burada çoxlu sayda "çöpçü"nün fəaliyyət göstərməsi ilə əlaqədardır. Ölkəmizin digər yerlərində olduğu kimi, Gəncədə də çöpçülərə münasibət birmənalı olmamışdır. Buna baxmayaraq, onlara müraciət edənlərin sayı hələ də az deyil. Məlumatçılarımızın söylədiklərindən məlum oldu ki, məhəllədə bu peşənin əsasını qoyan Qiymət adlı qadın olub, o, dünyasını dəyişəndən sonra onun nəslinin nümayəndələri bu fəaliyyət sahəsini davam etdirirlər. "Peşəkar çöpçü"lər kimi tanınan Pakizə, Nailə, Kifayət və Sevdanın yanına nəinki Gəncədən, hətta başqa bölgələrdən çoxsaylı insanlar gəlirdilər.

Məhəllədə olarkən "çöp çıxarma" əməliyyatının hansı formada həyata keçirilməsi ilə də maraqlandıq. Məlumatçıların böyük əksəriyyətinin hələ də çöpçülərə müraciət etdiklərini gördük. Onların dediyinə görə uşaq qızdıranda, qusanda, yemək yeməyəndə, burnun eşəndə, gözünü ovanda bilirik ki, onun çöpü var. Buna görə də uşağı çöpçülərin yanına aparırıq. Çöpçülər ya uşağın burnuna üfürməklə çöpü ağızdan bayıra, ya da ağızdan üfürməklə içəri-mədəyə ötürməklə onları bu bəladan xilas edirlər. Onu da deyək ki, bu sahə ilə məşğul olanların fəaliyyətində və bu sahəyə gəlmələrində bir eynilik görürük. Belə ki, bu işin biliciləri Azərbaycanın hər yerində,

[3] Moisey Kalankatuklu. **Albaniya tarix**i. Bakı, "Elm", 1993, s.201.

eləcə də Gəncədə çöpçülüklə yalnız qadınların məşğul olmalarını, yaxud da onların böyük əksəriyyətinin yuxuda vergi verilməklə sözügedən peşəyə gəlmələrini vurğulayırlar. Müasir təbabətdə isə çöpçülüyün elmi izahı olmadığı iddia edilir. Buna baxmayaraq, ölkəmizin əksər yerlərində olduğu kimi Gəncədə də bu sahəni hazırda davam etdirənlər vardır.

Çöpçülər məhəlləsində xalq təbabətinin digər bilicilərinə də rast gəldik. Burada ağsaqqal Yunus Əliyevin qonağı olduq. Qonaqpərvərliyi ilə diqqətimizi cəlb edən Yunus dayı bizə təbii otlardan (pıtraq, atil-batil, dazı otu, daşqapan, solmaz çiçəyi və s.) hazırladığı dərmanlar haqqında geniş məlumat verdi və özünün hazırladığı müalicə vasitələrindən bizə nümunələr də təqdim etdi.

Məlumatçı Elmira Əsədova vaxtilə Gəncədə loğman-təbib, səriştəli çöpçü və sınıqçı kimi ad-san qazanan Gilas və Tamam adlı qadınların tətbiq etdiyi müalicə üsullarından danışdı. O, adı çəkilən təbabət bilicilərinin bitkilərdən istifadə etməklə xəstələrə yardımından, tikəsi qalan, göbək düşməsindən əziyyət çəkən, çöpü olan xəstələri yüksək səviyyədə müalicə etmələrindən bəhs etdi. Onun məlumatlarından bəlli oldu ki, müxtəlif bitkilərlə müalicə aparan Tamam arvadın əsas peşəsi türkəçarəçilik imiş. O, müxtəlif üsullarla döş və qarın boşluğunda toplanmış artıq mayeni kənarlaşdırmaqda, həmçinin ürək problemlərini, öd, böyrək, sidik yolları, uşaqlıq yollarını müalicə etməkdə yüksək təcrübəyə malik olmuşdur. Döş və qarın boşluğunda toplanmış artıq mayenin kənar edilməsi, eyni zamanda ürəyin zəifləməsi, maddələr mübadiləsinin pozulması zamanı cəfərinin dəmləməsi və cövhərindən qəbul etməyi eyni zamanda dazotu, solmazçiçəyi kimi bitki dəmləmələrini qəbul etməyi faydalı sayırdı. Çörək otundan isə sidikqovucu, ödqovucu, həmçinin uşaqlı qadınların südünü artıran vasitə kimi istifadə etməyi məsləhət görürdü.

Sorğu zamanı Gilas xanımın əsl əttar olması ortaya çıxdı. Onun xəstələri öz əlləri ilə çəkdiyi gülab, kasnı, bağayarpağı, nanə və s. bitki cövhərləri ilə müalicə etməsi məlum oldu. Gülab əsasən bitki yarpaqlarından və gül ləçəklərindən çəkilir. Gəncədə isə gülab qızılgülün ləçəklərindən hasilə gətirilir. Məlumatçımız Laləzər xanımın söylədiyindən belə məlum oldu ki, gülabın hazırlanma texnologiyası mürəkkəbdir, onun istehsalı üçün xüsusi səriştə tələb olunur. Emalı zamanı misdən hazırlanmış iki hissəli qazanın olması mütləqdir. Qızılgülü dərib mis qazanın içərisinə yığır və gülün üst səthindən azacıq yuxarı qalxmaq şərtilə su tökülür və ocağın üstünə qoyulur. Sonra qazanın ağzına gildən və ya misdən hazırlanmış *əngənək (təknə, tabaq)* adlanan qab çevrilib kip bərkidilir. Bundan sonra təxminən 1-1,5 metr uzunluğunda qamışın bir ucunu əngənəkin böyründəki deşiyə, o biri ucunu isə soyuq suyun içərisinə qoyulmuş



*"Yaşıl aptek" (1980-1990-cı illər)*

*güyümün (boğazı uzun, iri qulplu mis səhəng)* ağzına taxılır və ağacdan hazırlanan "top" adlanan əşyanın deşiyinə bənd edilir. Bu əməliyyat qurtarandan sonra qazanı vam odun üzərinə qoyur və qızılgülü qaynadırlar. Beləliklə, qaynamaqda olan suyun buxarı əngəyinin və topun deşiyinə bənd edilmiş qamışın (qarğının) daxilindən keçərək güyümün içərisinə dolur və burada güyümün soyuq divarlarına toxunaraq gülaba çevrilir. Təcrübələr göstərir ki, xüsusilə ürək xəstəliklərində gülabdan az miqdarda suya damızdıraraq içmək orqanizmə müsbət təsir göstərir. Məlumat üçün bildirək ki, Gəncədə kasnı, bağayarpağı, nanə və s. bitkilərdən əldə olunmuş cövhərlərin hazırlanması da bu üsulla həyata keçirilir. Belə cövhərlər *araq* adlanır.

Araşdırmalarımız Gəncədə xalq təbabəti ənənələrinin davamlı olmasını, xüsusilə bitkilərdən müalicə vasitəsi kimi istifadə edildiyini göstərdi. Məlumatçı Namlet müəllimin Gəncədə 1980-ci illərdə "Şəfa çiçəyi" əczaxanası və ya "Yaşıl aptek" adı ilə tanınan məkanın fəaliyyət göstərməsi haqqında verdiyi məlumat söylədiklərimizi bir daha təsdiq etdi. Onun dediyinə görə, bu aptekdə yalnız təbii otlardan hazırlanmış dərmanlar və müalicə vasitələri satılırdı. Adı çəkilən aptek "Qırıxlı" məscidinin binasında yerləşirdi.

Bu şəfa ocağı haqqında 1980-ci ildə Sovet İKP-nın orqanı olan "İzvestiya" qəzetinin həftəlik nömrəsində və "Nedelya" qəzetinin 17-ci nömrəsində "Daş çiçək" adlı maraqlı bir məlumat da əksini tapmışdır: "*Şəfa çiçəyinin içərisi çox əlverişlidir. Burada çay içmək olar, qəfəslərdə ötən bülbüllərin cəh-cəhini dinləmək də, rəngarəng akvariuma baxmaq da maraqlıdır, sadəcə əyləşib istirahət etmək də...*"[4] .Yerli sakinlərin dediyinə görə, qəzetin bu buraxılışından sonra şəfa ocağı kimi məşhurlaşan "Yaşıl aptek"ə təkcə Gəncə və Azərbaycanın digər yerlərindən deyil, keçmiş sovet respublikalarından, xüsusən də Ukrayna və Belorusiyadan müraciət edənlərin sayı artmağa başladı. Lakin Sovet dövləti dağıldıqdan sonra "Qırıxlı" məscidinin əvvəlki fəaliyyəti bərpa olundu. "Şəfa çiçəyi" isə öz işini dayandıraraq başqa yerə köçürüldü. Şəhərin bəzi sakinləri bu günədək məscidə "*yaşıl aptek*" deyirlər. Çox təəssüf ki, o, əvvəlki şöhrətini qoruyub saxlaya bilmədi. Lakin bununla belə, hal-hazırda da gəncəlilərin öz sağlamlıqlarına qovuşmaları üçün hazırda da müalicəvi bitkilərdən istifadə etdiklərinin şahidi olduq. Belə ki, az da olsa yaşıl otlardan hazırlanmış bəzi həblər şəhərdə "yaşıl əczaxana" adlanan yerdə satılmaqdadır.

Məlumatçılarımız şəhərin "Səbət bazarı" deyilən ərazisində müalicəvi təbii çiçək və otların satıldığını söylədilər. Həmin bazarda çoxlu sayda bölgəyə məxsus müalicəvi otlar satılır. Burada özünün hazırladığı məcunların satışı ilə məşğul olan Quba Əliyeva və digər satıcılar arasında sorğu apardıq. Quba xanım öz müalicə üsullarının bəziləri ilə bizi tanış etdi. Məsələn, "Oynaq ağrıları zamanı xına ilə nefti qarışdırıb ağrıyan nahiyəyə qoyub iki saat saxlamaq lazımdır. Böyrək, öd yolları daşı xəstəliklərində quşburnu, daşqapan kökü, qarğıdalı saçağı, qatırquyruğu otunun qarışığını çay kimi dəmləyib içmək, mədə-bağırsaq xəstəliyi zamanı dazıotu yağından istifadə etmək məsləhətdir" – dedi.

[4] Adil Məmmədov. **Ömrünün qalan hissəsini xalqına bağışlayan Ulu öndər.** Gəncə, 2021, s.13-20.

Roza Nəsibova adlı digər məlumatçımız sözün əsl mənasında el təbibidir. Ona təkcə Azərbaycanın müxtəlif bölgələrindən deyil, xarici ölkələrdən də çoxlu sayda müraciət edənlər var. Xalq təbibi böyrək və öd daşı, ur (zob), şəkər, prostat, təzyiq, babasil, mədə və bağırsaq yaralarını, allergiya, qaraciyər xəstəliklərini, hətta tibdə müalicəsi olmayan qaraciyər serozunu da hazırladığı məcun və bitki qarışıqları ilə müalicə edir. Roza xanım bu peşəni anası Sona xanımdan öyrəndiyini, Sona xanımın isə qaynanası Həcər nənədən mənimsədiyini söylədi. Deməli, məlumatçımızın müalicə üsulları zamanın sınaqlarından çıxmış empirik biliklərdən qaynaqlanır ki, bu da qədim Gəncədə təbabətin geniş inkişafından xəbər verir. Təbii ki, ənənəvi xalq təbabəti nəsildən-nəslə keçərək cilalanmış, yeni-yeni üsullarla daha da təkmilləşmişdir. Müasir təbabətin olmadığı zamanlarda ənənəvi tibb hər xalqın öz dünyagörüşünə, inanc sisteminə, yaşayış tərzinə görə formalaşmışdır. Lakin xalq təbabətində müəyyən yenilənmə olsa da, hər zaman dəyişməyən bir qaydası vardır. Bu, ruhla bədənin vəhdəti, müalicədə ruhla bədəni eyni anda sağaltmaq cəhdinin mövcud olmasıdır. Bir sözlə, sevindirici haldır ki, xalq arasında bəlli olan ənənəvi müalicə üsulları ustadan şagirdə keçməklə bu gün də yaşadılmaqdadır.

Etnoqrafik səfər zamanı müəyyənləşdirdik ki, türkəçarəçilərin öz peşələrini öyrətdikləri insanlar daha çox onların öz övladları, yaxın qohumları, bəzən də xalq içərisindən çıxmış istedadlı şəxslər olurdular.

***Nəticə***

Etnoloji tarixşünaslıq və çöl materialları əsasında aparılan araşdırma nəticəsində günümüzdə təbabətə hələ də marağın olması və bu sahənin aktual olması qənaətinə gəlmək olar. Gəncəyə, həmçinin digər qədim şəhərlərimizə bu səpgili etnoqrafik-etnoloji səfərlərin təşkili, tədqiqatların genişləndirilməsi müsbət hal kimi dəyərləndirilməli və ümdə vəzifə kimi qarşıya qoyulmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. **Gəncə.** http://kepeztv.az/gence/ 12.11.2024
2. Cəlal, Tağıyev. **Əttarlıq – dərdlərə dərman. https://medeniyyet.az/page/news/17314/Ettarliq-derdlere-derman.html?lang=az** 22.11.2024
3. Gəncəvi, Nizami. **Leyli və Məcnun**. Bakı, "Lider nəşriyyatı", 2004, s.288.
4. Kalankatuklu, Moisey. **Albaniya tarixi**. Bakı, Elm, 1993, s.201.
5. Məmmədov, Adil. **Ömrünün qalan hissəsini xalqına bağışlayan Ulu öndər.** Gəncə, 2021, 41 s.

## MƏLUMATÇILAR

1. Abdullayeva Sonaxanım Şirin qızı – (1938-ci il doğumlu), Gəncə şəhəri.
2. Allahverdiyev Namlet Əli oğlu – (1940-cı il), Gəncə ş.
3. Əliyeva Quba Xeyrəddin qızı – (1951-ci il), Gəncə ş.
4. Əliyev Yunus – (1951-ci il), Gəncə ş.

5. Əsədova Elmira Kamil qızı – (1950-ci il), Gəncə ş.
6. Əsgərov Tarix Mürsəli oğlu – (1936-cı il), Gəncə ş.
7. İbrahimova Laləzər Məmməd qızı – (1958-ci il), Gəncə ş.
8. Quliyeva Ruziyə Zaman qızı – (1955-ci il), Gəncə ş.
9. Mirzəyev Sədi İsmayıl oğlu – (1961-ci il), Gəncə ş.
10. Nəsibova Roza İsmayıl qızı – (1959-cu il), Gəncə ş.

MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR

Zahidova Həqiqət Əhmədağa qızı – tarix üzrə fəlsəfə doktoru, dosent AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. Azərbaycan, Bakı

Zahidova Haqiqat Ahmedaga – Doctor of Philosophy in history, Associate Professor, A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.109-117*

**UOT:39**

# XIX-XX ƏSRLƏRDƏ NAXÇIVAN DİYARINDA XALQ BAYRAMLARI

©2025 ŞÖVQÜ HƏSƏNOV*

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ORCİD: 0009-0008-0846-8739; e-mail: Shovgihasanov@gmail.com

***Xülasə:*** *Məqalədə Naxçıvan diyarında yaşayan əhalinin mənəvi mədəniyyətinin başlıca sahələrindən biri olan xalq bayramlarından bəhs edilir. Bu bayramlardan "Xıdır Nəbi", "Novruz", "Qurban bayramı", "Orucluq bayramı" XIX-XX yüzilliyin əvvəllərində bölgə əhalisi arasında daha təntənəli şəkildə həyata keçirilirdi. Xalq bayramlarının etnoqrafik tədqiqi bəhs olunan dövrdə Naxçıvan diyarında keçirilən mərasimlərin bir çox spesifik-lokal xüsusiyyətlərini üzə çıxarmağa imkan vermişdir.*

***Açar sözlər:*** *Naxçıvan diyarı, Xıdır Nəbi, yaz bayramı, Novruz bayramı, "axır çərşənbə", "Qurban bayramı", "Orucluq bayramı"*

# NATIONAL HOLIDAYS IN THE NAKHCHIVAN REGION IN THE XIX-XX CENTURIES

©2025 SHOVGU HASANOV*

*A.A.Bakikhanov Institute of History and Ethnology of ANAS
ORCID: 0009-0008-0846-8739 email: Shovgihasanov@gmail.com

***Abstract:*** *The article talks about folk festivals, which are one of the main directions of the spiritual culture of the peoples living in Nakhchivan. Among these holidays, the most solemn ones among the population of the region in the early 19th-20th centuries were "Khidyr Nabi", "Navruz", "Feast of Sacrifice", "Feast of Fasting". An ethnographic study of folk festivals has revealed many specific local features of the rituals held in Nakhchivan during the specified period.*

***Keywords:*** *Nakhchivan land, folk holidays, Khidir Nabi, Spring Holiday, Novruz Holiday, Last Wednesday, Kurban Holiday, Fasting*

# НАРОДНЫЕ ПРАЗДНИКИ В НАХЧИВАНСКОЙ ОБЛАСТИ В XIX-XX ВЕКАХ

©2025 ШОВГУ ГАСАНОВ*

*Институт Истории и Этнологии НАНА имени А.А.Бакиханова
ORCID: 0009-0008-0846-8739; e-mail: Shovgihasanov@gmail.com

***Резюме:*** *В статье говорится о народных праздниках, которые являются одним из основных направлений духовной культуры народов, проживающих в Нахчыване. Среди этих праздников более торжественно среди населения региона в начале XIX-XX вв. отмечались «Хыдыр Наби», «Навруз», «Праздник жертвоприношения», «Праздник поста».*

*Этнографическое исследование народных праздников позволило выявить многие специфически-локальные особенности обрядов, проводившихся в Нахчыване в указанный период.*

***Ключевые слова:*** *Нахчыванская земля, народные праздники, Хыдыр Наби, Праздник весны, Праздник Новруз, Последняя среда, Праздник Курбан, Пост*

***Giriş***

Naxçıvan əhalisinin zəngin mənəvi dünyasında xalq bayramları – mövsümi və dini səciyyəli bayramlar zaman-zaman yaşadılaraq dövrümüzədək gəlib çıxmış, xalqın etnik simasını, dünyabaxışını, özünəməxsusluğunu, təfəkkür-duyum tərzini, digər xalqlardan türkdilli etnosların fərqli xüsusiyyətlərini özündə əks etdirən el şənlikləri olmuşdur.

Bu bayramlar içərisində xalqın həyat tərzi, ailə və təsərrüfat məişəti, yeni mövsümdə əmək fəaliyyətinə başlamaq istəyi, çətin və darıxdırıcı qışdan yaxa qurtarıb bahara-yaza qovuşmaq arzusu ilə bağlı keçirilən təqvim və ya mövsümi bayramlar, eləcə də artıq çoxdan "xalq bayramı" statusu qazanmış olan Orucluq və Qurban bayramı kimi dini bayramlar mühüm yer tutmuşdur. Onlar bütün tarixi dövrlərdə olduğu kimi XIX-XX yüzilliyin əvvəllərində bölgə əhalisi arasında böyük təntənə və coşqu ilə qeyd olunmuşdur.

***Mövsüm bayramları və mərasimləri***

Azərbaycanın qərb bölgəsində "Peyğəmbər bayramı",[1] Gürcüstan azərbaycanlıları arasında isə bəzən "Xıdır Əlləz" bayramı" adı ilə məlum olan Xıdır Nəbi bayramı adətən kiçik çillənin 10-cu günü keçirilirdi. Bölgədə xeyli əvvəllər bu bayram kiçik çillənin ardıcıl olaraq üç cümə axşamında keçirilmiş, birincisi "şahlıq", ikincisi "xanlıq", üçüncüsü "rəiyyət Xıdır Nəbisi" adlandırılmış, sonralar isə bir bayram kimi icra olunmuşdur.

Qışın şaxtasından qurtulub istiliyə, yaşıllığa qovuşmaq arzusunu ifadə edən bu bayram Xızır Peyğəmbərin, daha doğrusu, istilik və yaşıllıq hamiləri Xızır və İlyasın şərəfinə icra olunurdu.[2] Bayrama bir neçə gün qalmış buğda və küncüd tədarükü görülər, süfrəyə qoyulmaq üçün 10-a qədər çərəz seçilib-saflanardı. Bayram günü qovut hazırlanar, qovurğa qovurular, çərəz süfrəsi açılar, plov dəmlənərdi. "Xıdır Nəbi" bayramında nişanlı qızlara bəy xonçası, təzə evlənənlərə isə qız evi tərəfdən pay göndər-

[1] Mahmud Allahverdiyev. Azərbaycan xalq teatrı. Bakı, Maarif, 1978, 235 s., s.18.

[2] Hacı Qadir Qədirzadə. **Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr.** Bakı, "Elm", 2003, s.304-305.

mək adət halını almışdı. Bayramı daha böyük şənliyə çevirən isə oğlan uşaqlarının torba ataraq "Xıdır payı" toplamaları, bu zaman ifa etdikləri bayram mahnıları idi:

Xıdıra Xıdır deyərlər,
Xıdırın payın verərlər.
Xıdıra Xıdır deyərlər,
Xıdırın payın yeyərlər,
Mən Xıdırın nəyiyəm,
Atının torbasıyam.
Mən Xıdırın quluyam
Boz atının çuluyam.

Ay qız, ayağa dursana,
Əl damına varsana.
Torbanı doldursana
Xıdırı yola salsana.
Çatma-çatma, çatmaya,
Çatma yerə batmaya
Xıdırın payın verməyən
İstəyinə çatmaya və s.

Naxçıvanın Şərur-Kəngərli bölgəsinin kəndlərində daha böyük təntənələrlə müşayiət olunan "Xıdır Nəbi" bayramında uşaqlar topladığı "Xıdır payı"nı ümumi bir torbaya tökər, sonra bölüşdürüb böyük şadlıqla yeyərdilər. Bəzən "Xıdır payı" olaraq pul verənlər də tapılardı. Xıdır bayramının səhəri günü kasıb-kusuba pay-plüş göndərmək də adət idi. Xıdır Nəbi bayramı ilə bağlı adətlərin Mərkəzi Asiyanın türk xalqları arasında da mövcudluğundan[3] çıxış edərək inamla deyə bilərik ki, bu bayram, eləcə də şərəfinə təntənələr düzənlənən Xızır və İlyas kimi istilik, yaşıllıq hamiləri türk qövmü daxilində, "oğuz qəbilə birləşmələrinin mifik görüşləri zəminində boya-başa çatmışdır".[4]

Yaranma tarixi etibarilə çox-çox qədimlərdən məlum olaraq türk etnik-mədəni mühitində formalaşan şumer-türk dastanı "Bilqamıs"da bolluq, bərəkət və yeni gün rəmzi kimi yad edilən, etnogenetik əlaqələri baxımından "Bilqamıs" dastanının xələfi sayılan "Kitabi-Dədə Qorqud" boylarına həkk olunan, "Avesta"dan üzü bəri qədim mənbələrdə adı çəkilən və haqqında ilk yazılı məlumat e.ə. 505-ci ilə aid edilən[5] Novruz bayramı Naxçıvan bölgəsi əhalisi arasında "bayramlar bayramı", "el bayramı", "yeni il bayramı", "yaz bayramı" kimi məlum olaraq daha böyük el şənlikləri və təntənələrlə qeyd olunmuşdur. Naxçıvan şəhəri yaxınlığında I və II Kültəpə, Şərurda Maxta qədim yaşayış yerlərində və Gəmiqaya abidələrində Novruz bayramı mərasimləri və inamlarının mənşəyinə aid mədəniyyət izlərinin aşkara çıxarılması[6] burada Novruz bayramının hələ çox-çox qədimlərdən mövcudluğunu söyləməyə imkan verir. Dinlə heç bir əlaqəsi olmayan, xalqın həyata nikbin baxışının, təbiətə münasibətinin bayramı olan Novruz ərəfəsində bölgə əhalisi dörd çərşənbəni də xüsusi təntənələr, bol süfrə, çərəz xonçası, çərşənbə tonqalları və şən-əyləncəli mərasimlərlə qeyd edirdilər. Qışı üç çilləyə bölən ("böyük çillə": 22 dekabr – 30 yanvar – 40 gün; "kiçik çillə" 31 yanvar – 19/20 fevral – 20 gün və "çillə beçə": 20 fevral – 20 mart – 30 gün) Naxçıvan əhalisi "Çilləbeçə"yə həm də "bayram ayı", "alaçalpo" və ya "boz ay" da deyirdilər. Çilləbeçənin hər həftəsinə bir çərşənbə

---

[3] Гамид Султанов. **Нахкрай и его экономика.** Баку, 1927, 66 с.
[4] Mirəli Seyidov. **Azərbaycan mifik təfəkkürünün qaynaqları.** Bakı, "Yazıçı", 1983, s.61.
[5] Məmməd Dadaşzadə. **Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti**. Bakı, "Elm", 1985, s.101.
[6] Vəli Əliyev. Naxçıvan abidələrində Novruz bayramının qaynaqları. **Novruz bayramına həsr olunmuş elmi konfransın materialları.** Bakı, "Futuroloq", 1995, s.21-22.

düşdüyündən, hər çərşənbə müddətində təbiətdə bir əlamət baş verdiyindən, onu dörd cəmləyə – (ab-su, atəş-od, xak-torpaq və bad-külək) bölürdülər. Bu cəmlələr zamanı su "oyanır", günəş təbiəti isidir, torpaq donvurmadan azad olur, külək ağacları silkələyib oyadır, köçəri quşları gətirir, bir sözlə təbiət yenidən canlanırdı. Azərbaycanın digər etnoqrafik bölgələrində olduğu kimi, Naxçıvanda da bayram çərşənbələri "xəbər", "yalan", "külə" və "axır çərşənbə"yə bölünürdü.[7] Xatırladaq ki, bu çərşənbələr qərb bölgəsində "xəbərçi", "yalançı", "qara çərşənbə" və "axır çərşənbə", Gürcüstan azərbaycanlıları arasında isə müvafiq olaraq "xəbərçi", "yalançı", "külə" və "ilə çərşənbə" adlanırdı.

Hələ bayrama bir ay-ay yarım qalmış Naxçıvan kəndlərinə xüsusi sayaçı dəstələri gələr, onlar mal-davara oxşamalar deyər, arzu edərdilər ki, hər kəsin mal-davarı bol, bərəkət qazanları dolu olsun. Bu oxşama-mahnıların müqabilində sayaçılara, müxtəlif hədiyyələr verirdilər. Sayaçılar öz mahnılarında Novruzun yaxınlaşmasını bildirir, bir çoxlarını əkin-biçinə, təsərrüfatın başlanmasına ayıldır, kasıb-kusubu da yada salır, öz paylarından onlara da ayırırdılar.

Saya-saya sayadan,
Qoyun gəlir pəyədən.
Sayaçıya pay verin,
Damazlığı mayadan.

Sayaçılar pay istər,
Dolu-dolu çay istər.
Quzusu bol çobanlar
Pendiri lay-lay istər.

Ay nənəm, qızıl qoyun
Arxaca düzül qoyun.
Əgər sənə kəm baxsam
Əlimdən üzül qoyun.

Bayram ərəfəsində evlər tökülüb təmizlənər, paltar boxçası, yorğan-döşək günə verilib yığılar, həyət-baca sahmana salınardı. Üzərlik yandırılar, tüstüsü evlərə, həyət-bacaya verilərdi. Bayram süfrəsi üçün ərzaq-çərəz, şirniyyat-xüşkübar tədarükü görülər, 7 ləvin hazırlanardı. Novruz ərəfəsində küsülülər barışdırılır, yaslılar yasdan çıxarılır, ili tamam olmamış mərhuma "qara bayram" verilirdi. XIX yüzilliyin sonlarında Nehrəm kəndində Novruz adətlərindən bəhs edən Kərim bəy İsmayılov yazırdı ki, Novruz bayramına dörd həftə qalmış hər çərşənbə evlərin damlarında tonqallar yandırılar, son çərşənbə axşamı kişmiş, badam, innab, qoz-fındıq və s. alınıb plov bişirilərdi. Bayramın səhəri qadınlar 7 dəyirmandan su götürüb çimərdilər, kişilər ata minib bel götürər, köhnə qəbirlərin uçmuş başdaşılarını dikəldər, bununla da mərhumların lənətləmələrindən və gələn axır çərşənbəyə qədər bədbəxtlikdən xilas olacaqlarına ümid edərdilər.[8]

İlin axır çərşənbəsi daha böyük təntənələrlə – bol süfrələr, tonqal qalamaq, atəşfəşanlıq, xonça, şirniyyat payı mübadilələri, tonqal üzərindən hoppanmaq, şən əhval-ovqatlı mahnılar, yeni ildən bolluq bərəkət arzulamaq, dualar oxumaq və elliklə şənlənməklə müşayiət olunardı. Axır çərşənbə günü əhali arasında "baca-baca" günü kimi də məlum idi. Axır çərşənbə, Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da bir çox adətlərlə zəngin olmuşdur. Evin bacalarından torba ataraq "baca payı" yığmaq, qız-gəlinlərin qulaq falına çıxması, niyyət məqsədilə "qapıya

---

[7] Hacı Qadir Qədirzadə. **Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr.** Bakı, "Elm", 2003, s.306.

[8] Керим бек Исмаилов. **Село Неграм Эриванской губернии. Нахичеванского уезда.** СМОМПК, вып. XXVII. Тифлис, 1899, с.201.

açar salınması", çərşənbənin səhərisi axar su üstündən hoppanmaq, axar sudan xırda daşların götürülüb bərəkət simvolu kimi növbəti ilə qədər saxlanması, "çərşənbə suyu"nun evə gətirilib (il boyu) xəmirə qatılması və müalicə məqsədilə işlədilməsi, axır çərşənbə şənliklərinin Novruza qədər davam etdirilməsi[9] və s. xalq adətləri yüksək əxlaqi-etik məziyyətləri, tərbiyəvi-humanist əhəmiyyəti ilə diqqəti cəlb edərək, bölgə əhalisinin mənəvi dünyasının zənginliyindən soraq verir.

İlin axır çərşənbəsinin qarşılanması günü Naxçıvan bölgəsində keçirilən xarakterik el mərasimlərindən biri də "xanbəzəmə" olmuşdur. Bunun üçün əvvəlcədən hazırlanmış geniş meydanda bir çox zorxana oyunları, güləş yarışları, məzhəkəli "kosa-kosa" oyunları keçirildikdən sonra, ağsaqqallardan biri "xan seçməyin vaxtı çatdığını" bildirir. Ümumi razılıq əsasında Xan, onun vəziri, vəkili, üç fərraşı və bir cəlladı seçilir. Xanı təmtəraqla meydanın yuxarı başında qurulmuş taxtda oturdurlar. Vəzir-vəkil də gəlib taxtın sağ-solunda əyləşir. Yaraqlı-yasaqlı fərraşlar xanın hüzurunda əmrə müntəzir dayanırlar. Cəllad qırmızı libas geyib, əlində balta meydanın aşağı başında gözləyir. Xan özünün vəzir-vəkili və təlxəyi ilə meydanda çox məzhəkəli məhkəmə işləri aparır. Xanın buyruğunu adamları can-başla yerinə yetirirlər. Cəmi bir gün xanlıq edən şəxsə bütün fəxri işləri görmək (abadlıq, təmizlik, ağac əkmək, yol çəkmək, arx qazmaq, kəhriz novunu təmizləmək və s.) həvalə olunur. Xanbəzəmə mərasimi zamanı ətrafda qara zurnada el havaları çalınır, camaat dəstə-dəstə rəqs edir, gənclər qurşaq tuturlar. Şənlik axşama qədər davam edir. Kosayla təlxək də tez-tez meydana girib xanı güldürməyə çalışır. Min-bir hoqqadan sonra xanı güldürüb taxtdan endirir, aparıb suya basırlar. Axşamüstü meydanda ümumi bir tonqal yandırırlar. Xan yenə fəxri işlərə rəvac verir. Şənlikdən sonra bütün ailələr öz evlərində axır çərşənbə süfrəsi başına toplaşırlar.

Novruz gecəsində "ilin təhvil olması" da Naxçıvan əhalisi arasında xarakterik bir ayinlə, maraqlı bir məqamla müəyyən edilirdi. Bunun üçün ağsaqqal, təcrübəli ruhanilər məsciddə böyük bir teşt qurur, içərisinə zəfəran həll olunmuş su doldurur və üçdən az olmayaraq balıq buraxırdılar. Sonra dua oxumağa başlayır, gözlərini balıqlara zilləyib uzaqdan üfürürdülər. Əgər balıqlar üzən zaman qəfildən eyni vaxtda tərpənər və ya arxası üstə çevrilərdilərsə, onda ilin təhvil olduğu elan edilirdi. Zəfəranla dadı və rəngi dəyişmiş bu suyu səhəri gün qablarda təbərrük kimi orada iştirak edənlər öz evlərinə aparar, ailənin hər bir üzvünə bir qurtum içirdərdilər. Bu su yeni ilin müjdəsi hesab olunurdu. Maraqlıdır ki, Kərim bəy bu adətin Nehrəm camaatı arasında məsciddə deyil, evlərdə icra edildiyini, qaba bir balıq salındığını, toplaşanların isə əllərində, gələn ilin bərəkətli olmasını təlqin edən qızıl və gümüş məmulatları saxladığını yazırdı.[10]

Novruz gecəsinin süfrəsi də zəngin olurdu. Bayram süfrəsinə yeddi ləvin çərəz, bayram çöçəsi, rahat hülqum, sucuq, rəngbərəng noğullar, xanım göbəyi və s. qoyular, plov çıxarılar, müxtəlif şərbətlər düzülərdi. Evlərdə səməni göyərtmək, səməni halvası bişirmək də bir ayrı adət idi. Bunun üçün islağa qoyulduqdan sonra azacıq çirtərək

---

[9] Hacı Qadir Qədirzadə. **Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr.** Bakı, "Elm", 2003, s.307-309.
[10] Керим бек Исмаилов. **Село Неграм Эриванской губернии. Нахичеванского уезда.** СМОМПК, вып. XXVII. Тифлис, 1899, с.201.

burnu ağa-qırmızıya çalan 3-4 kq buğdanı həvəngdəstədə döyür, suyunu sərnicə və ya çölməyə süzürdülər. Bu su qalıb şirinləşir və durulurdu. Səhəri gün qonşular gəlib həmin suyu qaynadır, gətirdikləri unu suda həll edə-edə ərsinlə qarışdırırdılar. Səməni ərsinin ucunda saqqızlayardısa, səməni halvası bişmiş hesab olunurdu. Bundan sonra halva bölünürdü. Kim nə qədər un verirdisə, ona o qədər halva verilirdi. Adətən ev sahibi bu bölgüyə un qoymazdı. Novruz qabağı və bayram günlərində yumurta boyayıb döyüşdürmək, yumurta qatarı qurmaq, bayramlaşmağa gələn uşaqlara bütöv yumurta payı vermək, Novruz gecəsi ailənin bir ocaq başına mütləq yığışması, ölənlərin ruhuna dualar oxutdurub, "Əhliqübur ziyarətinə çıxmaq" və s. kimi xalq adətləri Naxçıvan bölgəsində XIX-XX yüzilliklərin əvvəllərində icra edilən tərbiyəvi, nəsihətamiz, etik-əxlaqi normalar səviyyəsində olmuşdur.

***Dini bayramlar və mərasimlər***

Naxçıvan əhalisi arasında Novruzun səhərisi günü hörmətli adamların görüşünə getmək, yaşlıların əllərindən öpmək, hacılara, Kərbəlayılara xüsusi iltifat göstərmək, bayramlarını təbrik etmək də bölgədə Novruz bayramının özəl xüsusiyyətləri olmuşdur. Bu zaman ağsaqqal-ağbirçək görüşünə iri, qırmızı alma aparmaq dəb idi. Adətən, görüşə gələnlər bayram süfrəsinə dəvət edilirdilər.

Naxçıvan əhalisi arasında dünyəvi-təqvim bayramları ilə yanaşı, dini bayramlar da keçirilmişdir. Bunların arasında "Qurban bayramı" və "Orucluq bayramı" xüsusi seçilirdi. Qurban bayramına ərəblər "Eyd əl-əzha", "Eyd əl-qurban" və ya "Eyd əl-kəbir", farsdilli xalqlar "Eyde Korban", Pakistan, Banqladeş, Hindistan müsəlmanları "Bakrid", türklər və azərbaycanlılar isə "Qurban bayramı", "İsmayıl qurbanı" deyirlər. Əslində İslam dininin dini don geydirdiyi bu bayramın tarixi kökləri çox-çox qədimlərə – Şumer-türk sivilizasiyası dövrünə gedib çıxır. Şumerlərin "Bilqamıs" dastanında Ubar Tutunun oğlu Dədə Utnapişti canlı mövcud atın kiçik bir qismini ümumdünya tufanından xilas edə bildiyi üçün tanrılara qurban verir. Dağ başına qalxıb şükranlıq oxuyur, göylərə tərif deyir. Tədqiqatlardan aydın olur ki, "əcdadlarımız, sirlərini bilmədiklərinə görə qarşısında aciz qaldıqları təbiətin sərt qüvvələrini "mərhəmətə" gətirmək, sitayiş etdikləri ruhların, müqəddəs saydıqları heyvan və əşyaların "xoşuna gəlmək" üçün yığdıqları qidanın, ovun bir hissəsini onlara qurban verirdilər. Qurban vermək yolu ilə qədim insanlar sanki sitayiş etdikləri ruhlar, heyvanlar və b. əşyalardan yaşamaq üçün icazə və qüvvə alırdılar".[11]

Qurban vermək mərasimi zaman-zaman çox böyük dəyişikliklərə məruz qalmış, insanın özünün də qurban verilməsindən tutmuş bu günümüzə qədər gəlib çıxmış, insan qurbanları heyvan qurbanları ilə əvəz olunmuşdur. Qeyd etmək lazımdır ki, qurbankəsmə mərasimi dünyanın bütün xalqlarında olmuşdur. Qafqaz Albaniyasında insan qurbanı (qul-heredul) verilməsini yunan coğrafiyaşünası Strabon təsdiqləyir.[12] Ərəblər qurban mərasimini İslamdan çox-çox əvvəllər icra etsələr də, İslam bu mərasimə dini don geydirmiş, onu "Qurban bayramı" adlandırmış, hər il hicri-qəməri təq-

---

[11] Abdulla Əhədov. **Azərbaycanda din və dini təsisatlar.** Bakı, Azərb. Döv. Nəş., 1991, s.106.

[12] Страбон. **География в 17 книгах** (пер. и комментарий Т.Т.Стратановского). Москва, 1964, 943 с.

vimi ilə zilhiccə ayının 10-da başlamasını və 3 gün davam etməsini qərarlaşdırmışdır. Qurbankəsmə mərasimi həcc ziyarətləri və ibadətlərinin tərkib hissəsinə çevrilmişdir.

İslam aləmində qurbankəsmə mərasiminin ümumxalq müsəlman bayramı səviyyəsinə qaldırılması İbrahim Peyğəmbərin adına bağlanır. Naxçıvan əhalisi arasında yayılan rəvayətə görə, Allah öz sevimlisi İbrahim Peyğəmbərin sədaqətini sınağa çəkmək üçün oğlu İsmayılı qurban verməyi ondan tələb edir. İbrahim öz oğlunu qurban kəsərkən Allah Cəbrayıl vasitəsilə iki qoç göndərib bu dəfə oğlunun əvəzində onları kəsməyi buyurur. O vaxtdan bu bayramın adı həm də el arasında "İsmayıl qurbanı" kimi yaşamaqdadır.

Naxçıvan bölgəsi əhalisi içərisində Məkkə və həcc ziyarətləri zamanı həyata keçirilən Qurban bayramının uzun əsrlər boyu ənənəvi qaydaları formalaşmışdır. Ənənəyə görə, imkanı olan hər bir müsəlman qurban kəsməli, onu ya öz qazancı hesabına almalı, ya özü bəsləməli idi. Oğurluq heyvanı qurban kəsmək günah sayılırdı. Adətən erkək heyvanları (dəvə, öküz, toğlu, keçi, hətta xoruz) qurban kəsməyi məqbul hesab edirdilər. Qurbanlıq heyvan şikəst olmamalı, yaşını tamamlamalı idi. Qurbanlıq heyvanı kəsməmişdən qabaq bir qab duz və bıçağı məscidə aparıb orada mollaya xüsusi dua oxutdurur, sonra həmin duzdan heyvana yalatdırır və həmin bıçaqla da kəsirdilər. Qurbanlıq heyvanı "əməli-saleh", pak, orucunun, namazının vaxtını keçirməyən müdrik ağsaqqal kəsməli idi. Kəsilmiş heyvanın qanını təmiz qaba tutur, laxtalanandan sonra abad bir bucaqda torpağa basdırırdılar. Qurban ətindən yaxın qohum-qonşulara pay verilirdi. Qurban payı üç yerə bölünməli, biri ev sahibinə, digəri qohum-əqrəbaya, üçüncüsü isə 6-7 qonşu evinə verilməli idi. Qurban ətindən ilk növbədə kasıba, yetim-yesirə imkansıza pay ayıranlar xüsusi savab sahibi olurdular. Qurban ətinin sümüklərini atmaq olmazdı, onu təmiz yerdə torpağa basdırırdılar.

Qurban bayramında az imkanlılar nişanlı qız evlərinə qurban əti, imkanlılar isə xüşkübar-çərəz xonçaları ilə yanaşı, boynuna qırmızı kəlağayı bağlanmış, xınalı, zınqırovlu-güzgülü balbas erkəklər, qızıl qoyunlar göndərərdilər.

Topladığımız etnoqrafik materiallardan aydın olur ki, XIX-XX yüzilliyin əvvəllərində Naxçıvan bölgəsində nəzir qurbanları da kəsilmiş, lakin bu fərdi xarakter daşımışdır. Nəzir qurbanını bir qayda olaraq, evində ağır xəstəsi olanlar, xəstənin sağalmasından sonra pulla alıb kəsir, ətini nəzir kimi paylayırdılar. Buna Naxçıvanda "qada qurbanı" da deyirdilər. Adətən "qada qurbanı" yaxın qohumlara paylanırdı. Qonum-qonşu "düşər-düşməzi olar" – deyə bu qurban payını çox zaman almazdılar. "Qada qurbanı" fərdi ailə qurbanı, "İsmayıl qurbanı" isə ümumxalq qurbanı mərasimi kimi keçirilirdi.

Bölgədə geniş icra edilən ümumxalq dini bayramlardan biri də "Orucluq bayramı" idi. Tədqiqatlar göstərir ki, oruc tutmaq adətini bütpərəst ərəblər yəhudi və xristianlardan əxz etmiş, Məhəmməd Peyğəmbər isə hicrətdən sonra ərəblərin müqəddəs hesab etdiyi ramazan ayını orucluq ayı elan etmişdir.[13] İslam-müsəlman aləmində bu bayram "eydül fitrə" və yaxud "eydül-səğir" adlanır, ramazan ayından sonra gələn şəvval ayının ilk 3-4 günü davam edir.[14] L.Klimoviçin yazdığına görə,

---

[13] Anri Masse. **İslam.** Azərbaycan Ensiklopediyası Baş redaksiyasının nəşri. Bakı, 1992, c.134-135.

[14] Qasım Kərimov. **Şəriət və onun sosial məişəti.** Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1987, s.74.

Məhəmməd Peyğəmbərdən sonra orucluq haqqında ilk fərman ikinci xəlifə Ömər ibn Xəttab tərəfindən hicrətin 14-cü ilində (636-cı ildə) verilmiş, bundan sonra orucluq islam aləmində ardıcıl icra olunmağa başlamışdır.[15] Bölgə əhalisi arasında olan dərin inama görə müqəddəs kitab – Quran məhz ramazan ayında Allahın buyruqçu mələikəsi Cəbrayıl tərəfindən yerə nazil olmuşdur. XIX yüzilliyin əvvəllərində V.Qriqoryev də yazırdı ki, Naxçıvan əhalisi ramazan ayında Məhəmməd Peyğəmbər tərəfindən müəyyənləşdirilmiş orucluq qaydalarına ona görə daha ciddi surətdə əməl edirdilər ki, məhz bu ayda Peyğəmbərə Quran nazil edilmişdi.[16]

Topladığımız etnoqrafik çöl materialları göstərir ki, Orucluq bayramı qabağı əhali səmada təzə çıxan ayı axtarırdı. Təzə ay səmada nə vaxt görünsə idi, həmin gün bayramın başlanğıcı hesab olunurdu. Orucluğun hər gününün öz duası olurdu – otuz gündə otuz dua oxunmalı idi. Orucluğun 10-nu keçəndən sonra "əhya gecələri" keçirilirdi. Xalq inamına görə ramazan ayının 17-ci, 19-cu və 21-ci günləri "əhya" adlanırdı. Bu günlərdə ibadətlə daha ardıcıl məşğul olur, dini kitablar oxuyur, mərsiyələr deyir, iftar üçün kalorili yeməklər hazırlayırdılar. Şiə müsəlmanların fikrincə, əhya günlərində və "Qədir gecəsi"ndə (ramazanın 27-ci gecəsi) tutulan oruc və icra olunan ibadətlər min günün ibadətinə bərabər idi. Orucluğun əsas qaydalarından biri gündüzlər yemək yeyilməməsi idi. Orucluq müddətində gündə iki dəfə yemək yeyilirdi – səhər yeyilən yeməyə "obaşdanlıq", axşam yeyilən yeməyə isə "iftar açma" deyilirdi. Oruc tutan adamın öpüşməsinə icazə verilməzdi. Orucluq qaydalarına görə, səhər obaşdanlıqdan iftara qədər ağıza heç nə dəyməməli idi. Su içmək, yemək olmazdı. Təsadüfən, bilmədən yemək üçün ağıza bir şey qoyulardısa, onu bilib kənara tüpürülərdisə, oruc batil hesab edilməzdi. Bütün orucluq müddətində tab gətirə bilməyən hər bir kəsə bircə dəfə gün ərzində 3 qurtum su içməyə icazə verilirdi. Ramazan ayında musiqi çalmaq və dinləmək, şənliklər keçirmək, toy etmək kimi əməllərə də ciddi qadağalar qoyulurdu. Orucluq, ramazan ayının sonunda keçirilən fitrə və orucluq bayramları ilə başa çatırdı. Məscidə hədiyyələr aparılır, heyvan kəsib kalorili yeməklər bişirilir, şərbət-halva ülüşü verilir, kasıblara, xəstələrə, yetimlərə sədəqə-fitrə (pul, un, ət, buğda, düyü, süd məhsulları və s.) paylanırdı. Xatırladaq ki, İslam dini normalarına bütün ciddiliyi ilə əməl edən Naxçıvan əhalisi arasında Orucluq bayramı bu gün də qaydasınca qeyd edilir.

### *Nəticə*

Beləliklə, problemin etnoqrafik baxımdan tədqiqi göstərir ki, bəhs olunan dövrdə keçirilən bayram və mərasimlərin, o cümlədən, Xıdır Nəbi, Novruz, Qurban və Orucluq kimi bayramlar bir çox ümumbəşəri və ümumazərbaycan xarakterli cəhətləri ilə yanaşı, Naxçıvan bölgəsi üçün xarakterik olan bir çox məhəlli-yerli, təbii-coğrafi şəraitdən, əhalinin təsərrüfat fəaliyyətindən və əhalinin məişət xüsusiyyətlərindən irəli gələn müəyyən spesifik-lokal xüsusiyyətləri ilə seçilmişdir ki, bu da tədqiq olunan bölgənin "etnoqrafik fenomen" kimi səciyyələnməsində öz aydın izlərini qoymuşdur.

---

[15] Люциан Ипполитович Климович. **Ислам.** Москва, Изд-во Акад.наук СССР. 1965, с.221.

[16] **Статистическое описание Нахичеванской провинции,** составленное Григорьев Василий Никифорович. СПб.: Типог. Департ. Внешней Торговли, 1833, с.35-36.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES


1. Allahverdiyev Mahmud. **Azərbaycan xalq teatrı.** Bakı, "Maarif", 1978, 235 s.
2. Əliyev Ə.İ. **Naxçıvan MSSR-nin mədəni inkişafı.** Bakı, 1958, 40 s.
3. Qədirzadə Hacı Qadir. **Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr.** Bakı, "Elm", 2003, 367 s.
4. Султанов Гамид. **Нахкрай и его экономика**. Баку, 1927, 66 с.
5. Seyidov Mirəli. **Azərbaycan mifik təfəkkürünün qaynaqları.** Bakı, "Yazıçı", 1983, 326 c.
6. Dadaşzadə Məmməd. **Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti.** Bakı, "Elm", 1985, 216 s.
7. Əliyev Vəli. **Naxçıvan abidələrində Novruz bayramının qaynaqları.** Novruz bayramına həsr olunmuş elmi konfransın materialları. Bakı, "Futuroloq", 1995, s.21-22.
8. Исмаилов Керим бек. **Село Неграм Эриванской губернии. Нахичеванского уезда.** СМОМПК, вып. XXVII. Тифлис, 1899, с. 192-201.
9. Babayev Tofiq. **Qurban bayramı.** Azərbaycan arxeologiyası və etnoqrafiyası jurnalı, II bur. Bakı, Nafta-Press, 2003, 331 s.
10. Əhədov Abdulla. **Azərbaycanda din və dini təsisatlar.** Bakı, Azərb. Döv. Nəş., 1991, 200 s.
11. Страбон. **География в 17 книгах** (пер. и комментарий Т.Т.Стратановского). Москва, 1964, 943 с.
12. Anri Masse. **İslam.** Azərbaycan Ensiklopediyası Baş redaksiyasının nəşri. Bakı, 1992, 255 s.
13. Kərimov Qasım. **Şəriət və onun sosial məişəti**. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1987, 222 s.
14. Климович Люциан Ипполитович. **Ислам.** Москва, Изд-во Акад.наук СССР. 1965, 334 с.
15. **Статистическое описание Нахичеванской провинции,** составленное Григорьев Василий Никифорович. СПб.: Типог. Департ. Внешней Торговли, 1833, 264 с.


## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR


Həsənov Şövqü Vaqif oğlu – tarix üzrə fəlsəfə doktoru, dosent. AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. Azərbaycan, Bakı

Hasanov Shovqi Vaqif – Doctor of Philosophy in history, Ph.D., Associate Professor A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku

**UOT:39**

# ŞAMANİZM TÜRK XALQLARININ MƏNƏVİ MƏDƏNİYYƏTİNDƏ

©2025 GÜLLÜ YOLOĞLU*

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ORCİD: 0000-0002-8312-6148; e-mail: yologlugullu@gmail.com

***Xülasə***: *Tarix boyu müxtəlif dinlərə qulluq edən türklər günümüzdə də çeşidli dinlərin təsiri altında yaşayırlar. Əgər bu gün onlar, əsasən müsəlman, xristian, musəvi kimi tanınırlarsa, qədim zamanlarda onları təbiət kultunun üstünlük təşkil etdiyi şamanlıq birləşdirirdi. Bəzi alimlər şamanlığı din adlandırsalar da, onu cadugərlik, cindarlıqla bağlayanlar da var. Bu tendensiya müsəlman və xristian alimlər və din adamları arasında daha güclüdür. Məhz bu səbəbdən də uzun əsrlər şamanlığın və şamanların xalqın həyatından sıxışdırılıb çıxarılmasına çalışılmışdır. Lakin buna baxmayaraq bu gün onlar qılıq dəyişdirərək sonradan qəbul edilmiş və ya etdirilmiş dinlərin pərdəsi altında yaşayırlar... Məqalədə şamanlıq və şaman vergisi, "şaman" və "şamanlıq", "Tanrı" və "tanrıçılıq" terminlərinin kökləri, şamanizmin türk xalqlarının, o cümlədən də Azərbaycan xalqının həyatına təsiri araşdırılır...*

***Açar sözlər:*** *şaman, Tanrı, türk, mərasim, şamanlıq, tanrıçılıq*

# SHAMANISM IN THE SPIRITUAL CULTURE OF THE TURKIC PEOPLES

©2025 GULLU YOLOGLU*

*A.A.Bakikhanov Institute of History and Ethnology of ANAS
ORCID: 0000-0002-8312-6148; e-mail: yologlugullu@gmail.com

***Abstract:*** *The Turks, who practiced different religions throughout history, live under the influence of various religions at present as well. While today they are known mainly as Muslims, Christians and Jews, then in ancient times they were united by shamanism, which was dominated by the cult of nature – animism. Although some scholars describe shamanism as a religion, there are also those who associate it with witchcraft and sorcery. This trend is stronger among Muslim and Christian scholars and clerics. It is for this reason that for many centuries they tried to oust shamanism and shamans from the life of the people. But, despite this, today they disguise themselves and live under the guise of religions adopted later periods... The article discusses shamanism and the shamanic gift, the etymology of the terms "shaman" and "shamanism", "Tengri" and "Tengrism", and the influence of shamanism on the life of the Turkic peoples, including the Azerbaijani people...*

***Keywords:*** *shaman, Tengri, Turk, ritual, shamanism, Tengrism*

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.118-139*

# ШАМАНИЗМ В ДУХОВНОЙ КУЛЬТУРЕ ТЮРКИХ НАРОДОВ

©2025

ГЮЛЛЮ ЙОЛОГЛУ*

*Институт Истории и Этнологии НАНА имени А.А.Бакиханова
ORCID: 0000-0002-8312-6148; e-mail: yologlugullu@gmail.com

***Резюме:*** *На протяжении всей истории тюрки, исповедующие разные религии, сегодня живут под влиянием различных религий. Если сегодня они известны в основном как мусульмане, христиане, иудеи, то в древности их объединял шаманизм, в котором доминировал культ природы – анимизм. Хотя некоторые ученые называют шаманизм религией, есть и те, кто связывает его с колдовством. Эта тенденция сильнее среди мусульманских и христианских ученых и религиозных людей. Именно по этой причине на протяжении многих веков шаманизм и шаманов пытались вытеснить из жизни народа. Но, несмотря на это, сегодня они живут под прикрытием принятых позже религий... В статье рассматриваются шаманизм и шаманский дар, этимология терминов «шаман» и «шаманизм», «Тенгри» и «тенгризм», влияние шаманизма на жизнь тюркских, в том числе азербайджанского народов...*

***Ключевые слова:*** *шаман, Тенгри, тюрк, обряд, шаманизм, тенгризм*

### *Giriş*

Məlumdur ki, dinin təsiri xalqın həyatının bütün sahələrində – adət-ənənəsində, mərasimlərində, dilində, yaşayış yerlərində, geyimində, etik normalarında, milli mətbəxində və s. özünü göstərir. Lakin bu təsirin mərasimlərdə əksi daha qabarıqdır. Deyilənlər, əsasən, eyni dinə qulluq edən xalqların mərasimlərinə aiddir, yəni hansı dil qrupuna daxil olmasından asılı olmayaraq eyni dinə qulluq edən xalqların mərasimlərində ümumi cəhətlər çoxdur və bu da təbiidir. Belə ki, müsəlman tacik, ərəb, fars, türk və b. xalqların toy və yas mərasimləri, törələrdən gələn bəzi fərqləri istisna etməklə, bir qayda olaraq, "Quran-i Kərim"ə əsaslanır. Lakin müxtəlif dinlərə qulluq edən, eyni kökə bağlı olub, eyni dil qrupunda birləşən xalqların (burada türklərin) mərasimlərindəki və bu mərasimlərlə bağlı mənəvi mədəniyyət nümunələrindəki oxşarlığı, yaxınlığı və, eyni zamanda da, fərqli cəhətləri araşdırıb üzə çıxartmaq daha mühüm əhəmiyyət kəsb edir...

Bu gün ayrı-ayrı dinlərin pərdəsi altında yaşayan, bəzilərinin "şamanlıq", digərlərinin Tanrıçılıq adlandırdıqları dini inanc forması adət-ənənə və mərasimlərə ciddi təsir göstərmişdir. Hətta sonradan qəbul edilən və ya etdirilən dinlər belə onları tamamilə yox edə bilməmişdir. Bu məqalədə əvvəl "şamanizm" və "tenqrizm" terminlərinin etimologiyasını, daha sonra onun əsas mahiyyətini və türk xalqlarının mənəvi mədəniyyətindəki izlərini araşdırmağa çalışacağıq…

### *Şamanizm və onun Azərbaycandakı izləri*

Sovet dövrü etnoqrafiya elmi, digər humanitar elm sahələri kimi tək şamanlara deyil, eləcə də digər dinlərin təbliğatçılarına və daşıyıcılarına ateizm prizmasından

yanaşaraq onları inkar etmiş, istər maddi, istərsə də mənəvi mədəniyyət nümunələrində şamanların, şamanizmin izlərini görməməyə çalışaraq daha qabarıq olanları da yanlış izah etməklə yanlış nəticələr almışlar.

Etnoqrafiyanın ayrılmaz sahələrindən biri olan mənəvi mədəniyyət tədqiq olunan xalqın dini təsəvvürlərini, dünya görüşlərini, inam və etiqadlarını araşdırmağa əsas verir. Azərbaycan etnoqraflarının əldə etdikləri materiallar da göstərir ki, əhalinin istər əkinçilik, istərsə də maldarlıqla məşğul olan hissəsi arasında məhsulu və malqaranı müxtəlif bəlalardan qorumaq məqsədilə bir çox dini ayin və etiqadlara əməl edilir, mərasimlər keçirilir. Onların sonrakı dinlərin (xristianlıq, İslam və b.) təsirilə ilkin forma və məzmunlarında müəyyən dəyişikliklərin olduğunu yazan etnoqraf Ş.Quliyev nə xristianlığın, nə də İslamın qədim və yerli inamları tamamilə məhv edə bilmədiyini xüsusi vurğulayır.[1] Lakin "dini ayin"[2] deyərkən hansı dinin ayinindən söhbət getdiyini bir çox etnoqraflar kimi o da açıqlamır. Çünki sovet dövrü Azərbaycanda da birmənalı qəbul olunmayan məsələlərdən biri şamanizm və onun izləri idi...

L.Potapov Sayan-Altay xalqlarının bir çox ənənəvi kultları (Göy kultu, Humay ilahəsi, Yer-Su ilahəsi və s.) və dini mərasimlərinin (yiyələrə və Günəşəqurban və s.) tarixi köklərinin qədim türklərə gedib çıxdığını qeyd edir.[3] Hunların şimali yueban qrupu olan qaoq-yüylərin şamanlığından bəhs edən L.Potapov "bilavasitə qədim türklərin şamanlar haqqındakı materiallarına müraciət edək" deyir və "qədim türk dövrü" deyərkən e.ə. VI-XII əsrlərin nəzərdə tutulduğunu vurğulayır.[4] "Qədim türklərə qədərki" şamanlar haqqında məlumat verən müəllif syünnü (xunnu) tayfalarının e.ə. I minilliyin sonlarında şamanı "wu" adlandırdıqlarının Çin qaynaqlarından məlum olduğunu yazır, xunnuların şimal qruplarının yueban adlandıqlarını, qaoq-yüylərlə eyni dili danışdıqlarını, adət-ənənələrinin eyni olduğunu və qaoq-yüylərin telelərin, o cümlədən də uyğurların ulu babaları olduqlarını göstərir.[5] Bütün bu adı çəkilən tayfaların türk olduqlarını söyləməmişdən əvvəl onu da qeyd edək ki, L.Kızlasov hunların türk olduqlarını qəbul etmir və yazır: "hunlar müasir elmə məlum olmayan, indi artıq ölmüş dil ailəsinə aid bir dildə danışırdılar".[6] L.Potapovun da qeyd etdiyi kimi, əgər hunların şimal qrupu olan yuebanların dili və adət-ənənəsi türk olduqları şübhə doğurmayan tele və uyğurların ulu babaları saydığı qaoq-yüylərlə eynidirsə, deməli, hunlar da həm dilləri, həm də adət-ənənələri ilə türkdürlər. Belə olduğu halda L.Kızlasovun hunların dilini "ölmüş dil ailəsi"nə aid etməsi tamamilə məntiqdən uzaqdır.

L.Potapov qədim türklərin Türk xaqanlığını qurduğunu (551-744) və uyğurlar başda olmaqla tele tayfasının türklər üzərindəki qələbəsindən sonra Uyğur xaqanlığını

---

[1] **Azərbaycan etnoqrafiyası**: 3 cilddə. I c. Bakı, "Elm", 1988, 456 s., s.142.

[2] Yenə orada, s.141.

[3] Леонид Павлович Потапов. **К вопросу о древнетюркской основе и датировке алтайского шаманства.** Этнография народов Алтая и Западной Сибири. Новосибирск, 1978, с.3-36.

[4] Yenə orada, s.5.

[5] Yenə də orada, s.11.

[6] Леонид Романович Кызласов. **Земля Сибирская.** Абакан-Москва, 1994, с.29-30.

(745-840) yaratdığını qeyd edərkən[7] də onun "türk" (Çin salnamələrində "tukyu" – G.Y.) kəlməsinin aid olduğu tayfalarla digərləri arasında türk və türkdilli deyərək bir sərhəd qoyduğunu görürük. Onun hunları, yuebanları, qaoq-yüyləri türkdilli saymasının əsas səbəbi də türk kəlməsini tayfa adı olaraq ayırmasıdır. L.Potapova görə, şamanizm dindir və "qədim türklərin" (tukyuların – G.Y.) həyatında bu dinin önəmli rolu olmuşdur.

Türklərin buddizmin, yəhudiliyin, xristianlığın, İslamın qəbuluna qədər hansı dinə tapınmaları tək L.Potapovu deyil, bir çox alimləri düşündürmüş və bu gün də düşündürür. Türkiyəli alim Mehmet Naci Önal qədim adət və ayinlərdən, onların bugünkü izlərindən danışarkən həmin törələri "qədim Türk dininin qalıntısı" adlandırır.[8] "Qədim Türk inancına görə, ruhlar və ya yiyələr üç yerə ayrılırlar. Bunlar göy üzündə, yer üzündə və yer altındadırlar. Göy üzünün, yəni işıq aləminin böyük tanrısı "Xan Ülgen" və ya "Kayra Xan"dır… Yer altının sahibi "Erlik Xan"dır... Yer üzünün yiyələri "yer-su" ilahiləridir"[9] yazan M.N.Önal türk inancının şamanizm olduğunu qəbul edir və məqaləsinin sonrakı qismində türk şamanlardan və Türkiyə ərazisində, konkret olaraq Muğla yaxınlığındakı əhali arasında yaşayan dağ kultundan danışır.[10]

Şamanizmdə əsas yeri tutan, ayinləri icra edən şəxsə tarixin ayrı-ayrı dövrlərində müxtəlif xalqlar tərəfindən müxtəlif adlar verilmişdir: wu, kam, böqü, yelbiçi, oyun, xam, baksı (türklər), çam (gilyaklar), senin (ketlər), bö (buryatlar), saman, şaman (evenk-tunquslar) və s. Bu da onu göstərir ki, şamanizm dünya xalqlarının, demək olar ki, hər birinin ilkin inkişaf dövründə yaranan, özündə təbiət kultunun bütün inam formalarını – animizmi, totemizmi, zoomorfizmi, antropomorfizmi, fetişizmivə s. birləşdirən bir dindir. Uzun müddət Ə.Cəfəroğlu, Ə.İnan, Q.Ksenofontov, P.Çixaçyov, Q.Potanin, N.Katanov, Y.Yakovlev, S.Vaynşteyn, M.Kenin-Lopsan[11] və digər alimlər şamanizmi araşdırmışlar. XX əsrin sonlarında, eləcə də XXI

---

[7] Леонид Павлович Потапов. **К вопросу о древнетюркской основе и датировке алтайского шаманства**. 1978, с.3.

[8] Önal Mehmet Naci. **Dağ kültü, eren kültü ve şenliklerinin Muğladaki yansıtmaları.** Bilig, Ankara, №25, s.99.

[9] Yenə orada s.100-101.

[10] Yenə də orada, s. 99-122.

[11] Ahmad Caferoğlu. Azerbaycan ve Anadolu folklorunda saklanan iki şaman tanrısı. **Folklor və etnoqrafiya,** №2, 2004, s.5-21; İnan Abdülkadir. **Makaleler ve incelemeler.** Ankara, Türk Tarih Kurumu Basımevi, 1987, 712 s.; Гавриил Васильевич Ксенофонтов. Шаманизм. Избраннные труды. Публикации 1928-1929 гг. Якутск, Север-Юг, 1992, 315 с.; Петр Александрович Чихачев. **Путешествие в Восточный Алтай**. Москва: Наука, 1974, 360 с.; Григорий Николаевич Потанин. **Тунгутско-тибетская окраина Китая и Центральная Монголия.** Москва, Географгиз, 1950, 652 с.; Катанов Н.Ф. **Наречия урянхайцев (сойотов, абаканских татар и карагасов). Образцы народной литературы тюркских племен, изданные В.В. Радловым,** т.9. СПб., 1907, 683 с.; Яковлев Е.Г. **Искусство и мировые религии**. Москва: Знание, 1972, 48 с.; Вайнштейн С.И. **Тувинцы-тоджинцы. Историко-этнографические очерки.** Москва: Изд. Вост.лит., 1961, 218 с.; Кенин-Лопсан М. **Обрядовая практика и фольклор тувинского шаманства.** Новосибирск: Наука, 1987, 158 с.

əsrin əvvəllərindən bu günümüzə qədər şamanizmlə bağlı ədəbiyyat siyahısına çoxlu sayda yeni və maraqlı əsərlər əlavə edilmişdir.

Sovet dövrü etnoqrafik ədəbiyyatda "şaman", "saman" sözünün tunqus (evenk) sözü olaraq "vəcdə gələn, hərəkət edən, yuxarı qalxan" demək olduğu qeyd edilirdi. Bu kəlməni XVII əsrdə Sibirdə xidmət edən və daim mərkəzə yerli xalqlar haqqında məlumat göndərən kazaklar qeydə almışlar. Avropaya bu termin I Pyotr tərəfindən rus elçiliyinin tərkibində Çinə göndərilən İzbrant İdes və Adam Brandın vasitəsilə daxil olmuşdur. Amerikalı alim R.Uolşa görə, bu söz qədim hinduların dilində "özünü döymək və ya asketik təcrübədən keçirmək" mənasını verir. Alim eyni zamanda onun tunqus dilindəki "bilmək" felindən olduğu fikrini də istisna etmir.[12] Prof. Y.Nemet hələ 1913-1914-cü illərdə sübut edirdi ki, "saman" sözü qədim türk və monqollara aid kəlmədir, yəni tunqus dilindəki şam, sam sözü türk dilindəki "kam"ın fonetik ekvivalentidir. Doğrudan da "kam", "xam", "çam", "qam", "ğam", kəlmələrinə baxarkən, şəkil olaraq da, "saman", "şaman" sözünün kökünün "sam", "şam" olduğunu təsəvvür etmək çətin deyil. Beləliklə, Y.Nemetə əsaslansaq, elə "şaman" kəlməsinin kökündə də türklərin "kam"ının dayandığını, bu sözün də türk dilinə aid olduğunu söyləyə bilərik. Maraqlı burasıdır ki, macar alimi Y.Nemetin bu nəzəriyyəsini Nyu-Yorkda şamanlarla bağlı ensiklopediya hazırlayan tədqiqatçı B.Laufer 1917-ci ildə yoxlamış, yeni dəlillərlə zənginləşdirərək müdafiə etmişdir.[13]

Gilyaklardan bəhs edən L.Şternberqə görə, əgər ali dinlərdə peyğəmbərlər Allahın sevimlisi idilərsə, şamanizmdə şaman olacaq şəxs ruhların sevimlisi, bəzən də sevgilisi olur.[14] Şamanlığın ilkin əlamətlərindən biri cezv olma, göz alacalanması, huş itirmə ilə müşayiət olunan "şaman xəstəliyi"dir.Ruhlar öz sevdiklərini şamanlığı qəbul etməyə məcbur edirlər. Əgər seçilmiş şəxs razı olarsa, ona köməkçi ruhlar – heyvanlar, quşlar, həşəratlar verilir. Düngürlərin (dəf – G.Y.) üzərinə rəsmiçəkilmiş buheyvanvə quşların vasitəsilə şaman Göyə "çıxır", Erlikin (İrlikin, Yerlikin) yaşadığı Yeraltı aləmə "səyahət edir", xəstələri sağaldır, gələcəkdən xəbər verir, yas mərasimində ölən şəxsin ruhunun Tanrının dərgahına yola salınması ilə bağlı ayin icra edir.

Şaman öldükdən sonra məzarının yerləşdiyi yerləri pirə, ocağa çevirir, ziyarət edir, qurbanlar verir, dilək diləyir, al-əlvan parça cırıqları bağlayır, övlad istəyənlər kiçik beşiklər düzəldib asır, daşlara, ağaclara mismar vurur, bununla da müəyyən problemlərinin həll olunacağına inanırlar. Bəzən hansısa müalicəvi, möcüzəvi gücünə inandıqları müqəddəs yerlərdəki daşlara ümidlərini bağlayanlar da çoxdur. Belə daşlara biz Naxçıvan Muxtar Respublikasında yerləşən Əshab-i Kəhfdəki qara daşı, Pir Hüseyn xanəgahındakı daşı (onu da qeyd edək ki, kimlərsə vaxtilə bu daşın bir parçasını sındırıb başqa yerə aparmış, son vaxtlar isə xanəgahdakı daşı məzarın üzərindən götürmüşlər. Biz ilk dəfə xanəgahda olarkən daş məzarən üstündə idi. Son

---

[12] Уолш Роджер. **Дух шаманизма**. Пер. с англ. С.Каноненко. Москва: Изд-во Трансперсональногоинст-та, 1996, с.18.

[13] Yoloğlu Güllü. Sibirya türklerinin şamanlığı. Ankara, **"Yeni Türkiye" dergisi, Yeni Türkiye Stratejik Araştırmalar Merkezi.** Yıl 29, Sayı 133, Eylül-Ekim 2023, s.23-27.

[14] Лев Яковлевич Штернберг. **Первобытная религия в свете этнографии (исследования, статьи, лекции)**. под. ред. и с предисл. Я.П.Алькора. Ленинград: Изд-во Инст-та народов Севера. Материалы по этнографии, т.4, 1936, с.143.

vaxtlar müsəlman dindarlar tərəfindən insanların min bir dilək, ümid və arzu ilə bağladıqları iplər sökülüb atılır. Eyni mənzərəyə Pir Hüseyn xanəgahı yaxınlığındakı ziyarətgahı da misal göstərə bilərik. Lakin onu da qeyd etməliyik ki, sonradan qəbul olunmuş dinlərə məxsus tikililərin əksəriyyəti məhz vaxtilə şamanlığa inanan insanların kütləvi şəkildə ziyarət etdikləri yerlərdə tikilmişdir. Bu gün də həmin yerlərə islami yön verərək bundan mənfəət əldə etməyə çalışanlar çoxdur...

Onu da xüsusi qeyd edək ki, üzərindən atılıb ağrı-acımızı tökərək yeni ilə paklanmış halda keçildiyinə inandığımız şaman odu da, oturub üstümüzə düşməsini həsrətlə gözlədiyimiz Əshab-i Kəhf mağarasındakı o damcılar da, yapışacağına ümid etdiyimiz o kiçicik daşlar da, arasından zorla keçdiyimiz o daş oyuqları da... şamanlığın Azərbaycanda yaşayan izləridir... Bu izlərə nağıl və dastanlarımızda, qayaüstü təsvirlərdə, arxeoloji qazıntılardan əldə olunan maddi mədəniyyət nümunələrində və digər yerlərdə də rast gəlirik.

***Şaman vergisi***

Çox vaxt seçilmiş şəxs şaman olmaqdan, yəni ona verilən "vergi"ni qəbul etməkdən imtina edir. Çünki ruhlara tabe olmaq, onlar üçün yemək, onlar üçün içmək, trans zamanı insanlıqdan çıxmaq deməkdir. Ancaq bu proses müvəqqəti xarakter daşıyır. Transdan çıxan şaman hər birimiz kimi adi insan olur. Ruhlara müqavimət göstərmək ölümə bərabərdir. Adətən, qadınlara kişi, kişilərə isə qadın ruhlar gəlir. Yuxuda gedən bu proses çox vaxt real həyatda şamanın ailəsi olmasına mane olmur. Lakin bəzən elə hallar da olur ki, kişi şamanın hamisi onun həmcinsi olur və onu cinsini "dəyişməyə" məcbur edir. Əvvəllər belə şamanlar sinələrində gəzdirdikləri metal döşlüklərlə, hörülmüş saçları və s. seçilərdilər. L.Şternberq yazır ki, Sibirin bir çox xalqlarında bu, adi şey olsa da, türklər arasında əxlaq normalarına uyğun gəlmədiyinə görə gizli saxlanılırdı.[15]

Şamanlar güclərinə görə üç yerə ayrılırlar: 1) xəstəlikləri sağaldan, yəni müalicə edən; 2) kiçik dəfn mərasimlərini keçirən; 3) ölülərin ruhunu Tanrının dərgahına, yəni o dünyaya yola sala bilən ulu şamanlar. Altay türkləri belə şamanlara "oxlu kam" ("utku kam") deyirlər.[16] Alimlər müəyyənləşdirmişlər ki, bəzi psixotron maddələri qəbul etməklə də transa girmək, şamanların görə bildikləri bəzi şeyləri görə bilmək və hiss etmək mümkündür. Afrikada, Cənubi Amerikada, Avstraliyada bir çoxları bu vasitələrdən istifadə edərək özlərini şaman adlandırırlar. Məsələn, Latın Amerikası ölkələrinin bir çox "şamanları" yaqe və peyot adlı iki maddəyə daha çox üstünlük verirlər. Peyot murdar dadı ilə ürək bulandıran kaktusdan hazırlanır. Hindularndan istifadəni "ağır yol" adlandırırlar. Yaqe və ya ayaxuasko (ayaxuaska) Amazonkada bitən və Banisferiopsis adlanan bitkidən hazırlanır. Sibirdə Amanita muscaria (qırmızı muxomor (milçək öldürən) göbələyi) da bu işdə istifadə olunur. Ancaq bunun əsl şamanizm olmadığını bir çox vergili və soylu şamanlar da

---

[15] Лев Яковлевич Штернберг. **Первобытная религия в свете этнографии (исследования, статьи, лекции)**. 1936, с.143.

[16] **Традиционное мировоззрение тюрков Южной Сибири.** Пространство и время. Вещный мир. Львова Э.Л., Октябрьская И.В., Сагалаева А.М., Усманова М.С.Новосибирск, Наука, 1988, с.135.

söyləyirlər. Bu cür "şamanlıq" həm də illərlə şamanlığın zirvəsinə çatmaq üçün çalışan, əziyyətli yol keçən, onlara verilən vergini daha da təkmilləşdirən həqiqi şamanlara qarşı haqsızlıqdır. Belələri qəbul etdikləri maddənin təsirilə bir neçə saat "şaman" ola bilərlər, ancaq əsl şamanlar bunu yaşayırlar. Rus dilində hər hansı bir maddənin vasitəsilə nələrəsə qadir olanlara istehza ilə "psixodelik" deyilir.[17] Əsl şamanizm isə böyük bir fəlsəfədir, kitabı olmasa da, ibtidai bir dindir. Onu da qeyd etmək lazımdır ki, Tanrı ilk gündən insanı yaradıb onu taleyin hökmünə, axarına buraxmamışdır. Yaratdığı insanın inkişaf səviyyəsinə uyğun olaraq onunla təmas qurmuş, aralarından vasitəçilər seçmişdir. Şamanlar da Tanrı ilə tayfadaşları arasında bir vasitəçi, əlaqə yaradandırlar. Tanrı sevdiyi insanları, tayfaları onların vasitəsilə qorumuş, göstərişlər vermişdir. İlkin inkişaf dövründə, yazının olmadığı, insanların oxuma-yazma bilmədikləri bir zamanda kitab göndərilməsi məntiqə uyğun deyil. Bununla belə, yaradan yaratdıqları ilə əlaqə saxlamalı, onları darda qoymamalı, elmin, həkimlərin, astroloqların, astronomların, sinoptiklərin və s. olmadığı bir vaxtda onlara yardım etməli, yaxın gələcəkdə baş verə biləcək təbii fəlakətlərdən, xəstəliklərdən onları xəbərdar etməli və bəzən də qorumalı idi.

Şamanizmin əsas rəmzlərindən biri ağacdır. Ağacın zirvəsi, gövdəsi və kökü şamanizmdəki üç qat – Göy, Yer və Yeraltı aləmlə bağlıdır. Şamanlara görə, əgər Göydə Ulu Tanrı (Ülgen, Uluu Toyon, Allah, Kuday, Boq...) oturursa, ali dinlərdə cəhənnəm kimi tanıdığımız Yeraltı aləmdə Erlik (İrlik) hökmranlıq edir. İnsanlar isə Yerdə, orta qatda, Yeraltı aləmlə Göyün arasında yaşayırlar. Şamanlar bu üç aləmin hər birində "gəzə bilirlər". Məhz şamanların Göyə, kosmosa səyahətləri zamanı gördüklərindən ibarət olan kosmoqonik miflərin bir çoxundakı səma cisimləri ilə bağlı məlumatlar bu gün müasir elm tərəfindən qəbul və təsdiq olunur.

Günümüzdə qədim türklərin dinlərinin tanrıçılıq olduğunu söyləyənlər şamanizmi yanlış olaraq gözbağlayıcılıq, cadugərlik adlandırırlar. Onu da qeyd edək ki, İslam övliyalarından bir çoxu hazırda gözbağlayıcıların oyunları kimi baxdığımız bəzi kəramətlərə sahib idilər. Qışın oğlan çağında qoynundan qızılgül çıxardan Şəms Tərizi, Misali (Gül) Baba, dünyanın uzaq yerlərində baş verən hadisələrdən xəbər verə bilən Əbülhəsən Xarkani, Geylani, Bəyazid-i Bistami və başqalarının kəramətləri onlar haqqında bir çox rəvayətlərin yaranmasına, xalq arasında daha çox sayılmalarına səbəb olmuşdur.[18]

Deməli, bir çoxlarının şamanizmi günümüzün müsəlman türklərinə yaxın buraxmaq istəməməsinin, tanrıçılığı şamanizmə qarşı qoymasının əsas səbəbi qədim türklərin dinini İslam dininə yaxınlaşdırmaq cəhdidir. Əslində, şaman fəlsəfəsinin özündə də islam, yəni ulu yaradana təslim, ali varlığa, Ulu Tanrıya, Ülgenə, Ulu Toyona, Kudaya inam var. Türklərin həyatında şamanizmin olduğunu qeyd edən Əbdülkadir İnan yazırdı: "Ural-Altay irqinin qərb şöbəsinə mənsub olan Şimali Asiya qövmləri – türklər, monqollar, tunquslar əski zamanlarda ibtidai şamanizm dinində idilər".[19] "Tanrıçılıq" termininin tərəfdarlarının əsas rəmz kimi ağacı göstərdiklərini

---

[17] Уолш Роджер. **Дух шаманизма.** 1996, с.166-170.

[18] Güllü Yoloğlu. Qıpçaq qələndərlərinin şahı – Şəms-i Təbrizi. **Spektr,** 2003, №1, s.34-35.

[19] İnan Abdülkadir. **Makaleler ve incelemeler.** Ankara, Türk Tarih Kurumu Basım evi, 1987, s.389.

söyləmişdik. Lakin yuxarıda qeyd etdik ki, ağac şamanizmdəki üç aləm təsəvvürünə görə, bu qədim dinin əsas rəmzidir. Onun zirvəsi Göyü, gövdəsi insanların və əksər canlıların yaşadığı Yeri, işıqlı dünyanı, kökləri isə Yeraltı aləmi, qaranlıq dünyanı göstərir. Göy qübbəsi qədim dövrlərdən müqəddəs sayılaraq ilahiləşdirilmişdir. Hunlarla bağlı b.e.ə. III əsrə aid mənbələrdən Tanrının ona yalvarış və xahişlərlə üz tutan türk xaqanlarına öz iradəsini diktə etdiyi məlumdur.[20] Yəni Tanrı ilə əlaqə yaratmaq, ona arzu və diləklərini yetirə bilmək üçün heç bir qata çıxmaq, heç bir qatdan keçmək lazım gəlmirdi (burada Göyün və yerin altının müxtəlif qatları nəzərdə tutulur). Bunu bəylərin qol götürüb ulu Tanrıdan övlad dilədikləri “Kitab-i Dədə Qorqud” dastanlarında da görmək mümkündür.[21] Tədqiqatçılara görə, Cənubi Sibirin türk əhalisinin təsəvvüründə Göy “qat-qat piroqu” xatırladır.[22] Bu qatların hər birində də müxtəlif ruhlar, ulduzlar və digər səma cisimləri var. Tanrıçılıq termini digər terminlər kimi sonradan süni yaradılmış bir termindir. Tanrı haqqında qədim təsəvvürlərdən çıxış edən fransız tədqiqatçı, dinlərin araşdırıcısı Jan Pol Ru XX əsrin ortalarından bu təsəvvürləri “tenqrizm” termini altında ümumiləşdirmişdir. Rus dilində bu termin “tenqrianstvo” kimi işlədilməyə başladı. Türk dillərinə isə o “tanrıçılıq” şəklində çevrilərək son zamanlar türkçülüklə İslamın paralel təbliğinin nəticəsində yayılmağa başlamışdır. Təsadüf deyil ki, tatar tədqiqatçı R.Bezertinov yazırdı: “Qədim türklərin öz dinlərini necə adlandırdıqları məlum deyil”.[23] Deməli, dilimizə “tanrıçılıq” kimi tərcümə etdiyimiz termin heç də qədim türklərin öz dinlərinə verdikləri ad deyil, bir fransız tədqiqatçısının son zamanlar elmə daxil etdiyi yeni bir söz, yeni bir termindir. R.Bezertinov termin yanlışlığı barədə yazır: “şamanstvo” ilə “şamanizm”: Görünür, bu formullar o qədər də doğru seçilməyib. Belə ki, dünyəvi dinləri popizm, mollaizm və s. adlandırmaq olmaz”.[24] Lakin qeyd etmək lazımdır ki, elmdə lamaizm termini işlədilir. Əgər məsələyə R.Bezertinovun yanaşdığı kimi yanaşsaq, onda deyə bilərik ki, yaradanın adı ilə də dini adlandırmaq olmaz (allahizm, boqizm, kudaizm, ülgenizm, tenqrizm və s.), hərçənd ki, burada da istisnalara örnək olaraq buddizmi göstərə bilərik. Ancaq Buddanın özünün də yaradan olmadığı məlumdur. Deməli, istənilən halda termin məsələsində yanlışlıq qalır. Belə olduğu halda, terminləri dartışmaq yerinə məfhumun mahiyyətini açmağa çalışmaq daha məqsədəuyğun olardı.

Qeyd edildiyi kimi, bütün dinlərdə yaradanla yaradılanlar arasında vasitəçilər, dini ayinlərin icraçıları var (kamlar, şamanlar, peyğəmbərlər, mollalar, keşişlər, lamalar və s.). Bəs tanrıçılıq da bu funksiyanı kim yerinə yetirir? Tanrıçılığın tərəfdarı

---

[20] **Традиционное мировоззрение тюрков Южной Сибири. Пространство и время. Вещный мир.** Львова Э.Л., Октябрьская И.В., Сагалаева А.М., Усманова М.С. Новосибирск, Наука, 1988, с. 92.

[21] **Kitab-i Dədə Qorqud.** Bakı, “Yazıçı”, 1988, 265 s.

[22] **Традиционное мировоззрение тюрков Южной Сибири. Пространство и время. Вещный мир.** 1988, с.92.

[23] Рафаэль Нурудинович Безертинов. **Тенгрианство – религия тюрков и монголов.** Набережные Челны, 2000, с.6.

[24] Yenə orada, s.9.

olanlar bu funksiyanı kamların yerinə yetirdiyini söyləyirlər. Onda belə bir sual ortaya çıxır: bəs kam kimdir? Bizcə, dediklərimizin açarı da elə bu sualın cavabındadır.

"Kam" tatar, xakas və Altay türklərinin dilində şaman deməkdir, yəni bu kəlmələr elmi ədəbiyyatda, xüsusilə də ümumiləşdirici yazılarda "şaman" kimi verilirlər. Tıva türkləri şamana "xam", gilyaklar "çam" deyirlər. Azərbaycana gəldikdə isə, bu, "Kitab-i Dədə Qorqud" dastanlarından da göründüyü kimi, "qam", "ğam" şəklində bilinir. Ancaq tıva türklərində olduğu kimi, Azərbaycan türkcəsində şaman məfhumu xam şəklində bu gün də müxtəlif anlamlarda yaşayır. Bildiyimiz kimi, kam kamlayır (rus dilindəki "kamlaniye" sözü də türkcənin təsirindən yaranmışdır), xam xamlayır. "Xamlamaq" kəlməsi bu gün dilimizdə aşağıdakı mənalarda işlədilir:

a) yorulmaq, süstləşmək, əzginlik hiss etmək anlamında. Çoxdan bəri ağır iş görməyən bir adam yorğunluğunu ifadə edərək deyir: "elə bil xamlamışam", yəni elə bil "xam kimi xamlamışam, ayin icra etmişəm".

Bildiyimiz kimi, xamlar, kamlar, şamanlar ayin icra edərkən transa girir, böyük enerji sərf edir, transdan çıxdıqdan sonra isə süst qalır, halsızlaşırlar. Bu baxımdan yorğun adamın özünü xamla müqayisə etməsi, "elə bil xamlamışam" deməsi təbiidir və bu, həm də Azərbaycan ərazisində şamanizmin olduğundan və dilimizdə "xamlamaq", "xam" şəklində də olsa, hələ də yaşadığından xəbər verir.[25]

b) hərifləmək, aldatmaq, baş yozmaq anlamında. Bu daha yeni anlamdır. İslam dini yayıldıqdan sonra din xadimləri xamları gözdən salmaq, onların icra etdikləri ayinlərə, göstərdikləri kəramətlərə inamsızlıq yaratmaq məqsədilə xamlamaq sözünün bu cür mənfi mənada işlədilməsinə və yayılmasına, qismən də olsa, nail ola bildilər. Rus dilindəki "xam" (xamet, xamit, xamka, xamov (xamovo otrodye (plemya)), xamovıy, xamskiy, xamyo) sözünün mənfi anlamı da (1. Qanmaz, qanacaqsız, ədəbsiz, tərbiyəsiz, alçaq (söyüş); 2. Gəda, nökər) xristianlığı Sibirdə yayan keşişlərdən qaynaqlanır. "Xam" sözünü "Tövrat"dakı Xamla bağlamaq cəhdləri isə nə faktla, nə də məntiqlə sübut olmur. Belə ki, "Tövrat"da Xam Nuh peyğəmbərin oğullarından (Sim, Xam və İafet) birinin adıdır. Buradakı rəvayətə görə, üzüm şərabı içib sərxoş olan Nuh peyğəmbər çadırda lüt uzanıb yatır. Xam bunu görür və qardaşlarına danışır. Simlə İafet isə paltar götürür və arxaları atalarına tərəf ona yaxınlaşaraq üstünü örtürlər. Yuxudan oyanan Nuh məsələni anlayır və onu çılpaq gördüyünü qardaşlarına danışdığı üçün Xamı lənətləyir.[26]

Göründüyü kimi, "Tövrat"dakı Xamla ayin icra edərək Tanrı ilə tayfadaşları arasında əlaqə yaradan tıva xamının və yaxud Azərbaycan dilindəki xam, xamlamaq, xam torpaq, xammal kəlmələrinin heç bir əlaqəsi yoxdur.

Məlumdur ki, xristianlığın yayılmasına qarşı çıxan xamlar, kamlar keşişlərin əsas rəqibləri və düşmənləri idilər. Keşişlər silahlı kazakların yardımından istifadə edərək yerli xamları, kamları təqib edir, düngürlərini və paltarlarını cırır, yandırırdılar. Xakas alimi N.Katanovun da qeyd etdiyi kimi, missionerlər şamanizmin mahiyyətini öyrənmək, onun bütün sahələri ilə yaxından tanış olmaq əvəzinə, açıq-açığına

---

[25] Güllü Yoloğlu. **Dədə Qorqud yaşı**. Bakı, "Yeni nəşrlər evi", 1999, s.68.

[26] **Библия (книги священного писания Ветхого и Нового Завета).** Первая книга Моисея. Бытие. Москва: Издание Московской патриархии, 1983, с.12.

şamanların əllərindən paltar və düngürlərini alır, xristianlığı tərif edərək şamanizmi pisləyirdilər.[27]

"Xam" kəlməsi "xamat", "xammal" (emal olunmamış) və s. şəklində də işlədilir. Burada biz "xam at" deyərkən, qansız qurban olan at haqqında danışırıq. Xatırladaq ki, qansız qurban zamanı heyvanı qurban veriləcək ruha və ya yiyəyə "adak", yəni ad edərək, adaxlayaraq, nişanlayaraq, əgər atdırsa, ilxıya, qoyun, keçidirsə, sürüyə, inək, buğadırsa, naxıra qataraq çölə buraxırlar. Belə heyvanları - qoyunu, keçini, buğanı, atı heç kəs minməməli, sağmamalı, kəsməməli, öldürməməlidir. Belə atlar minilmədiyindən dəlisov olurlar. Kimisə ondan qorumaq məqsədilə deyirlər: "Ehtiyatlı ol, at xamdır, vurar". Sonralar xam kəlməsi emal olunmamış, işlədilməmiş bir çox şeyə də aid edilməyə başlandı: xam torpaq, xammal və s.

Beləliklə, türk dillərində şamana kam, xam, qam, oyun, baksı və s. deyilməsi, tanrıçılıqda, Tanrı ilə tayfadaşları arasında vasitəçilik edən, müxtəlif ayinlərin keçirilməsində əsas rol oynayan, gələcəkdən xəbər verən, xəstə sağaldan adamın da kam olduğunu nəzərə alsaq, haqqında danışdığımız şamanizmin elə tanrıçılıq olduğunu söyləyə bilərik. Xalq uzun əsrlər bu gün müxtəlif adlar verilən məfhumlarla yaşamış, keçirilən ayinlər əsrlərdən bəri sınaqdan çıxmış, müxtəlif təzyiq və təsirlərə məruz qalmış, lakin, çətinliklə də olsa, bu günümüzə qədər gəlib çata bilmişdir.

Terminlər isə tək-tək alimlər tərəfindən çox-çox sonralar yaranmış və zaman-zaman mübahisələrə səbəb olmuşlar. "Şamanizm", "şamanstvo", "tenqrizm", "tenqrianstvo" da belə terminlərdəndir. Göy Tanrı haqqında təsəvvürlər, wu, kam Ata kimi adlar b.e.ə. V-IV əsrlərə aid olsa da, "tenqrizm" termini, artıq qeyd etdiyimiz kimi, çox-çox sonralar, yəni XX əsrdə fransız din tədqiqatçısı can Pol Ru tərəfindən elmə gətirilmişdir. Rus dilindəki "tenqrianstvo" sözü ilə "tenqrizm" arasında da heç bir fərq yoxdur. O ki, qaldı şamanizmin cadugərlik, gözbağlayıcılıq, cindərlik olması məsələsinə, qeyd etmək lazımdır ki, şamanizmdə Yeraltı, şər qüvvələrdən güc alan şamanlar şər işlərlə – cindərliklə, cadugərliklə, bəxt bağlamaqla, ölüm, xəstəlik gətirməklə məşğul olurlar. Onlara qara şamanlar deyirlər. Azərbaycanda belə şamanlar "cindər" adı ilə tanınırlar. Gücünü yer və su yiyələrindən alan şamanlar isə, adətən, xeyir işlərlə məşğul olur, ağ şaman adlanırlar. Azərbaycan dilindəki "ağzını qara molla yumsun" qarğışı da qara şamanların sonradan dil-ağız bağlayan mollalar şəklində peyda olmasından və xalqın mollaları da ağ və qara olaraq, yəni xeyir və şər işlər görən mollalar kimi iki yerə böldüyündən xəbər verir. Bu da şamanizmin İslamın yayıldığı bölgələrdə qılıq dəyişərək, zamana, şəraitə, şərtlərə uyğunlaşaraq yaşamasına daha bir sübutdur.[28]

Şamanların çoxu ritmdən geniş istifadə edir. Bunun üçün bir sıra musiqi alətlərindən (kobız, dombra, dutar, şakşaka, çatxan, xomıs, kamça (kam + ça) (qamçı), dəf (düngür) istifadə edirlər. İran İslam Respublikasının Məşhəd şəhərində Əhməd Azadbəygi adlı türk dəfçinin çaldığı yürüş və ariflik musiqisi bir daha deyilənləri təsdiqləyir (çalğı müəllif tərəfindən diktofona yazılaraq şəxsi arxivdə saxlanılır). Üç

[27] Ирина Федоровна, Кокова, **Н.Ф.Катанов: Документально-публицистическое эссе.** Абакан, Хакасск. кн. изд-во, 1993, с.58.

[28] Гюллю Йологлу. Шаманизм – дорога, ведущая к пробуждению. **Фольклор и этнография,** №2, 2004, с.70-78.

tərəfdən kənarlarına dəmir halqalar düzülmüş dəf öz möhtəşəm səsi ilə dinləyici ilə təkbətək qalır, onu hipnoz edərək ekstaz dərəcəsinə çatdırır. Əgər Sibir şamanlarının dəflərinin üzərində dünyanın üç qatını, hami ruhları və s. əks etdirən təsvirlər çəkilirsə, İslam dininin daha çox yayıldığı yerlədə şaman dəfindən adi musiqi aləti kimi istifadə edilir və, Əhməd Azadbəyginin dəfindən də göründüyü kimi, şəkillər dini yazılarla əvəz olunmuşdur.

Şamanların düngürlərlə və ya digər alətlərlə çıxartdıqları ritmik səs yalnız özünün diqqətinin cəmlənməsi üçün deyil, eyni zamanda ətrafdakıların bütün diqqətini özünə çəkməkdən və ritmə qoşmaqdan ibarətdir. Bununla şaman nəinki özünü, həm də ətrafdakıları əsas prosesə hazırlayır. Digər tərəfdən musiqinin həm də müalicəvi əhəmiyyəti var və ilk olaraq şamanlar bu üsuldan istifadə etmişlər. Müəyyən səs tonunda ifa olunan bu musiqi və mahnılar eyni zamanda ətrafdakılarında ümumi transa girməsinə kömək edir.[29] Azərbaycanın Tovuz rayonundakı baxıcı Fazil də ruhlarla əlaqəsi zamanı sazdan istifadə edir.

Tanınmış transpersonal psixoloq Rocer Uolş şamanizmi yoqa, buddizm, xristian mistisizmi ilə paralel, müqayisəli öyrənir. Bu da şamanizmin ən qədim və dəqiq sərhədlərinin müəyyənləşdirilməsinə kömək edir. Araşdırmalar zamanı maraqlı bir suala cavab axtarılır: necə olur ki, şamanizm hətta bəzən bir-biri ilə əlaqəsi olmayan bölgələrdə, zamanlarda, mədəniyyətlərdə meydana gəlmiş, sonrakı dinlərin təsirinə, təzyiqinə baxmayaraq bu günümüzə qədər bakirəliyini qoruyub saxlaya bilmişdir? Ruhlar aləminin reallığı problemi, yuxarı, orta və yeraltı dünyaların olması da bu suala açarlar sırasındadır. Y.Faydış ön sözdə yazır ki, sovet ateizmində şamanlar ya ruhi xəstə, ya da şarlatan kimi qələmə verilirlər. Bəs əslində onlar kimdir? Rocer Uolş bu suala da cavab verir. Burada eyni zamanda şamanların ətraf mühitə mənfi, öldürücü, tükədici münasibətin aradan qaldırılmasındakı rolundan da danışılır. Y.Faydış şamanizmi qədim "protodin, prototexnologiya, prototibb" adlandırır.[30] R.Uolş İncildən, Buddadan və Lao-Tszıdan da çox-çox əvvəl yaranan şamanizmin on min illər yaşayaraq bu günümüzə gəlməsinin və qərb elmində bu qədər məşhur olmasının səbəblərini araşdırmağa cəhd göstərir. Şamanlar uzun zaman psixoanalizlərə məruz qalmış, Freyd və onun tərəfdarları tərəfindən psixi cəhətdən problemli adamlar kimi qələmə verilmişlər. Şamanlara yalnız cadugər, gözbağlayıcı, sehrbaz, falabaxan kimi yanaşmaq şamanizmin əsas mahiyyətini açmağa mane olur. Nəhayət, son dövrlərdə bəzi psixoloq və psixiatrlar özləri bacardıqları qədər şamanizmi öyrənir, transa, ruhlarla əlaqəyə girməyə cəhd göstərir, öz üzərlərində təcrübə keçməklə bu qədim dinin əsas mahiyyətini dərk etməyə çalışırlar. Lakin, artıq qeyd etdiyimiz kimi, şamanlıq oxumaqla, öyrənməklə deyil, vergi ilə gəlir. O, Şəms Təbrizinin də dediyi kimi, "möcüzə deyil, hal və zövq işidir", hər adam onu bilməz.[31] Buna baxmayaraq, Rocer Uolş da öz həmkarları və Plotin kimi inanır ki, həqiqəti dərk etmək, görmək qabiliyyəti bütün insanlara verilmişdir. Lakin hamımız bu dünyaya kor gəlir, kor kimi də yaşayır, görmək iqtidarında olduğumuz bir çox şeyi görmürük.[32]

---

[29] Уолш Роджер. **Дух шаманизма.** 1996, с.186.
[30] Уолш Роджер. **Дух шаманизма,** 1996, s.7-8.
[31] Güllü Yoloğlu. Qıpçaq qələndərlərinin şahı – Şəms-i Təbrizi. **Spektr,** 2003, №1, s.34-35.
[32] Уолш Роджер. **Дух шаманизма.** 1996, с.143.

Yalnız bir qisim insanlar təbiətin onlara verdiyi bir çox imkanlardan istifadə edə bilirlər. Belələrinə şaman, gözüaçıq, kam, xam, baksı, İslamın yayıldığı yerlərdə vəli, övliya, pir, dərviş (onların da hamısı deyil, yalnız şaman xüsusiyyətləri mövcud deyil olanlar – G.Y.), günümüzdə isə ekstrasens deyirlər…

***İslam və şamanizm***

Şamanizmdə də yiyələr yiyəsi Ulu Tanrıya itaət var. Bu da onu İslam dininə yaxınlaşdırır. Məhəmməd Peyğəmbərin (s.a.v.) 610-cu ildə nazil olan ilk vəhyi aldığı vaxta qədər 40 il içərisində yaşadığı cəmiyyətdə, o cümlədən Məkkədə də bütpərəstlik və bütpərəstlərin allahlarının böyüyü olan Allah adında bir məbuda sitayiş vardı. Kahinlər də Allahla adamlar arasında vasitəçi idilər. Göründüyü kimi, Məhəmməd Peyğəmbərin həmin Allahı sonradan tək Allah elan etməsi, daha doğrusu tək Tanrının varlığını dərk etdikdən sonra ona Allah adı verməsi heç də təsadüf deyil. O da təsadüf deyil ki, müasirləri qismən də olsa, kahinləri xatırlatdığını nəzərə alaraq peyğəmbəri kahinlərə bənzətmişdilər. Bu kahinlər də Dədə Qorqud kimi qeybdən müxtəlif xəbərlər verirdilər. Bütpərəst bir cəmiyyətdə 40 il yaşamış bir şəxsin həyatında, əlbəttə ki, nə qədər yenilik olsa da, əvvəlkilərin izləri qalmalıdır. Bunu biz "Quran-i Kərim"də də görürük. Digər obrazlar, o cümlədən İslam ədəbiyyatında oddan yaranan ruhlar kimi tanınan cinlər də bütpərəstlikdən götürülmüş digər obrazlar kimi, rollarını, funksiyalarını dəyişmiş şəkildə, təzələnmiş, yeni keyfiyyətdə qarşımızda dururlar. Tacir Məhəmmədi digər insanlardan fərqləndirən cəhətlərdən biri də onun oyanışa doğru yolacan düşünməyə, dərk etməyə cəhd etməsi idi. Plotin yazırdı: "Hamımıza doğulanda oyanmaq haqqı verilir, lakin az adam bu haqdan istifadə edir".[33] Bu haqdan istifadə edən o az adamlardan biri də Məhəmməd Peyğəmbər idi. O, bir tacir kimi gəncliyində çox yerlərdə olmuş, müxtəlif dinlərin və xalqların nümayəndələri ilə söhbət etmiş, eşitdiklərini ağıl süzgəcindən keçirərək daha kamil, daha mütərəqqi bir din barəsində düşünmüşdür. Peyğəmbərin şamanizmdə "şaman xəstəliyi" adlanan ruhi həyəcanlarla, sarsıntılarla, göz alacalanması, huşun itirilməsi, qulağa səs gəlməsi, insanlardan uzaqlaşmaq istəyi ilə müşayiət olunan xəstəliyə tutulması da dərk etmək istəyənin gücündən xəbər verirdi.[34]

İslam peyğəmbərinin meracını nəzərdən qaçıran bir sıra Amerika və Avropa alimləri bu fikirdədirlər ki, şamanlardan başqa heç bir dində din xadimləri, kahinlər, mediumlar, ekstrasenslər və başqaları Tanrının dərgahına, Göyün qatlarına səyahət edə bilmirlər. Bir daha "şaman" sözünün tunqus dilində "göyə qalxan" demək olduğunu, trans zamanı onların ruhlarının bədənlərini tərk edərək başqa yerlərə, Göyə və Yeraltı aləmə səyahət edə bilməsini yada salaq. Rocer Uolşun yazdığına görə, "belə səyahətlər zamanı şamanlar başqa dünyaları da öyrənir, orada insanlar və ruhlarla görüşür, söhbət edir, məsləhətləşirlər".[35] Məhəmməd Peyğəmbər də ətrafdakıların dərk edə bilmədiklərini dərk etməyə cəhd göstərdiyindən ruhla bədənin mübarizəsi ilə qarşılaşır. Güclü iradəyə malik insanlarda ruh qalib gəlir, bədəni müəyyən müddətə tərk edir. Lakin Peyğəmbərin qüdrəti ondadır ki, o, bədəni tərk etmiş ruhu idarə edə

---

[33] Уолш Роджер. **Дух шаманизма.** 1996, с.143.
[34] O.Qüdrətov, N.Qüdrətov. **Məhəmməd Peyğəmbər: həyatı və kəlamları.** Bakı, 1990, s.14.
[35] Уолш Роджер. **Дух шаманизма.** 1996, с.16.

bilir. Karlos Kastaneda, Rocer Uolş, Maykl Xarner və b. şamanizmin əsl mahiyyətinin açılmasına çalışmış, müxtəlif fikirləri öyrənmiş, yeni araşdırmalar aparmışlar. Bir çox alim tərəfindən Freyd və onun tərəfdarlarının şamanlara şizofrenik, epilepsik kimi yanlış baxışları tənqid olunmuş, yeni, daha doğru yanaşmanın vacibliyi vurğulanmışdır. Məsələyə həkimlərin, psixoloqların, filosofların, antropoloqların qarışması mövzunun, tədqiqat obyektinin kifayət qədər ciddiliyindən xəbər verir.

Şamanizmdə insanın, sözün həqiqi mənasında, oyanması, ali həqiqəti dərk etməsi, haqqa çatması iki yolla mümkündür: nura qərq olma, işıqlanma və ölüb dirilmə. "Şaman işıqlanması" adlandırılan birinci yolu digər dinlərin yayıldığı yerlərdə də müşahidə etmək mümkün olmuşdur. Belə adamlar "işıqlı adamlar" sayılmışlar. Yuxarıda qeyd etdiyimiz kimi, vəlilər, övliyalar da məhz bu cür işıqlı adamlardan idilər. Məhəmməd Peyğəmbərin də Ramazan ayının on yeddisində gecə yarısı çağırış səsinə oyanarkən gözlərinə qamaşdırıcı bir işıq sataşmışdır. O, bu işığı görən kimi, huşunu itirmişdir.[36]

Məhəmməd Peyğəmbərin mağaraya çəkilməsinə gəlincə isə, dünya dinlərində tənhalığa qapılma geniş yayılmışdır. Eskimos şamanları, hind yoqları, ağzı qapalı mağaralarda bəzən on üç il yaşaya bilən Tibet monaxları, xəlvətə çəkilən sufi dərvişləri və başqaları buna misal ola bilərlər. Tənhalığa çəkilmədə əsas məqsəd ətraf mühitin səs-küyündən, həyat problemlərindən müəyyən müddətə ayrılaraq bütün diqqəti mənəvi başlanğıca, dərk etmək istədiyinin dərkinə yönəltməkdir. Yalnız tək qaldıqda və nəzərlərini öz daxilinə, özünə yönəltdikdə, insan üçüncü gözü ilə özünü görə, dərk edə, Ulu Tanrıya yaxınlaşa bilər. Belə anlarında Məhəmmədi "xəstəliyə" tutulduğu ilk anlarda yalnız həyat yoldaşı Xədicə başa düşür, ona dayaq olurdu.

Təsadüf deyil ki, övliyanın böyüklərindən olan Abdullah Siracəddin Ömər bin Ekməlüddin Lahıcının təsəvvüfdə təqib etdiyi yol da xəlvətiyə adlanırdı. Bu ad ona görə verilmişdir ki, Abdullah Siracəddin Ömər Lahıcı xəlvətə çəkilərək bir çinar ağacının koğuşunda qırx gün fasiləsiz qalmışdır. Xəlvətilərin təkyələrində qırx gün xəlvətə çəkilmək, zehinlərindən müxtəlif dünyəvi düşüncələri silmək, yalnız Allahü talanı düşünmək üçün otaqlar vardı.

Məhəmməd Peyğəmbərin təliminə şamanizmdən keçmiş ünsürlərdən biri də "qıl körpü"dür. Şaman inamına görə, aldaçı, can alan (İslamda Əzrail) ölmüş insanın canını Yeraltı aləmə, Erlikin qərargahına aparır. Bu qərargah doqquz irmağın Doymadım çayına töküldüyü yerdə qurulmuşdur. Əgər canlardan birisi cəsarət edib çayın üstündəki at qılından olan körpüdən qaçmaq istəsə, o zaman qıl körpü qırılır və qaçaq can Doymadım çayına yıxılır, çayın axarı onu yenidən Erlikin olduğu yerə qaranlıq dünyaya, yəni gedər-gəlməzə atır.[37]

Ölənin həmin gün dəfn olunması, kəfənə tutulub tabutsuz məzara qoyulması və s. də İslam dini ilə şamanizmin ortaq xüsusiyyətlərindəndir. Deyilənlərdən bir daha bu nəticəyə gəlmək olur ki, Allaha islam, təslim bütün dövrlərdə olmuş və din icraçıları, vasitəçilər, peyğəmbərlər, övliyalar, şamanlar məlumatı eyni mənbədən müxtəlif vaxtlarda müxtəlif yollarla almışlar. Təsadüf deyil ki, sufi şeyx və dərviş-

[36] İnan Abdülkadir. **Makaleler ve incelemeler.** 1987, s.14.
[37] Yenə orada, s.406-407.

lərinin bir çoxu kəramət sahibi idi. Bu da mistik islamın yaranmasına səbəb olmuşdur.[38]

Şamanizm və ya şamanlıq bu gün Sibirdə daha yaxşı qorunub saxlanılmışdır. Nivxlərdə, nenlərdə, gilyaklarda, buryatlarda və digər azsaylı qeyri-türk xalqlarda olduğu kimi, tıva, xakas, şor, dolqan, Altay, saxa kimi türk xalqlarının həyatında da şamanlar özlərinin əvvəlki funksiyalarını yerinə yetirməyə başlamışlar. Ali dinlər kimi şamanizm də insanların yaşayışının bütün sahələrinə öz təsirini göstərmişdir. Təcrübə göstərir ki, şamanizmin təsiri sonradan yaranmış və müxtəlif yollarla qəbul edilmiş və ya etdirilmiş dinlərinkindən daha güclüdür. Çünki o, təbiətlə, yəni insanı əhatə edən, onun daim təmasda olduğu çaylarla, dağlarla, meşələrlə, torpaqla, təbiət hadisələri ilə, heyvanlarla, quşlarla, həşəratlarla, ruhlarla, kosmosla sıx bağlıdır. Bu gün hətta biz müsəlman türklər belə gecələr saç kəsməyin, dırnaq tutmağın, qapının ağzına qaynar su tökməyin günah olduğunu bilirik. Lakin bunun haradan gəldiyinin fərqinə varmırıq. Əslində bunlar şaman inamlarıdır. Şamanizmə görə, gündüzlər ətrafımızda dolaşan ruhlar gecələr saçımızın arasında, dırnaqlarımızın altında gizlənirlər. Saçı və dırnağı gecələr kəsməklə onları incitmiş oluruq. Tıva türkləri arasında yaşayan şaman inamına görə, qapı önündə öqün (evin) qoruyucusu, hamisi yaşayır. Onun çox hirsli olduğu düşünülür. Əgər qapı ağzına qaynar su tökülərsə, balalarını yandırar, o da qisas alaraq himayəçisi olduğu ailəyə belə xətər yetirər. Gələn qonağın qapı ağzında oturması ev yiyəsinə hörmətsizlik kimi dəyərləndirilir. İnama görə, qonağın evin astanasında, qapının önündə durması ev yiyəsinə bədbəxtlik gətirə bilər. Altay türklərinə görə, qapı ağzında oturan uşaq böyüməyəcək, böyüklərin isə qarnı ağrıyacaq, yəni xəstələnəcəklər.[39] Qeyd etmək lazımdır ki, bunlar əsl səbəbi açıqlamaq istəməyən, bəlkə də bilməyən böyüklərin bu və ya digər tabunun pozulmasının qarşısının alınması məqsədilə söylədikləri bəhanələrdir. Bu yerdə Azərbaycanda da tez-tez eşitdiyimiz ifadələr yada düşür: "Adam qapının ağzında oturmaz", "Qapının ağzında niyə durursan? İçəri keç!", "Qapının ağzına qaynar su tökmək olmaz" və s. Gördüyümüz kimi, şamanlara məxsus təsəvvürlər, inamlar dilimizdə bu gün də yaşayırlar. Xakas iblərində (evlərində) astanada "aba tös" deyilən qoruyucu olduğu düşünülür. Evin astanası, qapının ağzı iki dünyanı bir-birindən ayıran sakral yer kimi qəbul olunur. Evin içi bu dünya, çölü isə o dünya kimi təsəvvür olunduğundan əvvəllər tıvalar ölmüş körpəni öqün sol tərəfində, qapının ağzına yaxın yerdə qoyun dərisinə bükər və tez də aparıb dəfn edərdilər. Körpənin evin astanasından, qapının ağzından götürülməsi onun bu dünya ilə bağlarının çox az olması, daha çox o dünyaya yaxın olması deməkdir.[40] Eynilə şamanizmdə olduğu kimi, bu gün İslamın yayıldığı ərazilərdə, o cümlədən də Azərbaycanda, Kıbrısda, Türkiyədə, İraqda, İranda, Orta Asiya respublikalarında və b. dilək ağaclarına müxtəlif rəngli iplər, parça cırıqları, yaylıqlar və s. bağlayır, əşyalar asır, pirlərə gedir, hansısa bir daşdan, ocaqdan, ağacdan övlad diləyir, qurbanlar kəsirlər.

---

[38] Александр Дмитриевич Кныш. **Мусульманский мистицизм.** Москва-Санк-Петербург, Диля, 2004, 464 с.

[39] **Традиционное мировоззрение тюрков Южной Сибири**, 1988, с.65.

[40] **Традиционное мировоззрение тюрков Южной Сибири**, 1988, с.65.

Maraqlı burasıdır ki, al-əlvan iplər, parça cırıqları asmaq və onunla bağlı inam o qədər güclüdür ki, hətta İslam vəlilərinin türbələrinin yanında, müsəlman məzarlıqlarında belə onlara rast gəlmək olur. Hətta vergi verildikdən sonra müalicə ilə məşğul olanların, "əməl", cadu edənlərin, bəxt bağlayanların, açanların İslam dini ilə heç bir əlaqəsi yoxdur. Bununla belə, İslam dini ilə əlaqələndirilən bir çox övliyalarının türbələrində şamanlar, baksılar yarı İslam, yarı şamanizm qarışıq ayinlərini icra edirlər. Belələrindən birinə 2000-ci ildə Qazaxıstanın Otırar rayonunda Xoca Əhməd Yasəvinin ustadı Arıstan Babın (Babanın) türbəsi yanında rast gəlmişdik. Bu, baksı qadın Bifatma Dövlət qızı idi. Onun əlindəki ağacın üzərində şaman düngürlərinə xas bir çox heyvan, quş və həşəratların şəkli yonulmuşdur. Tez-tez peyğəmbərin, imamların, İslamın digər müqəddəslərinin adını çəkən, dodağının altında bəzi sözlər pıçıldayaraq salavat çevirən baksının dediyinə görə, o, bu fiqurları bir gecənin içində özü yonub düzəldir. Yaşlı qadından bu fiqurların ona necə göründüyünü soruşduqda isə, o bu sualın cavabını bilmədiyini demişdir. Ali dinlərin qanunları yazılı nazil olduğundan əvvəlki ilə sonrakını seçmək o qədər də çətin deyil. Bunun üçün əvvəlkini yaxşı öyrənmək, sonrakını oxumaq lazımdır...

1998-ci ilin yayında tıva xamları ilə söhbətimizdən məlum oldu ki, hər xamın, şamanın öz hami və yardımçı ruhları var. Ruhlar müxtəlif olduqları kimi, onların təsiri, göstərişi ilə fəaliyyət göstərən şamanların da bacarıqları, qabiliyyətləri, gücləri müxtəlifdir. Bir şamanın bacardığını o birisi bacarmır.

Ölünün ruhunun Tanrının dərgahına yola salınması mərasiminə hər şaman dəvət olunmur. Ulu şamandan başqa bu işə heç kəs cəsarət etmir, yəni hər kəs öz yerini bilir. Onların fikrincə, naşı keşiş, naşı molla, naşı lama və ya naşı şaman ruhu bu dünyadan ayıra bilmir və, nəticədə, ruh evlərdə, bağlarda, insanlar arasında dolaşmağa başlayır, bir sıra hallarda zərər də verir.

Şamanların istər əvvəlki vaxtlarda, istərsə də bu gün saylarının əhalinin sayına görə münasib olmasının əsas səbəblərindən biri də güclərinin sınanması, psixoloji döyüş zamanı hansının güclü, hansının zəif olmasının üzə çıxarılmasının indi də qalmasıdır. Ona görə də, hər cüzi qabiliyyətə malik şəxs "şamanam" deyib fəaliyyət göstərmir. Şamanların xeyir və ya şər işlərlə məşğul olmaları güclərini aldıqları ruh və yiyələrdən asılıdır. Onların qeyri-adi davranışları, hərəkətləri, göstərdikləri kəramətlər daim mənfi və müsbət tərəfdən maraq doğurmuşdur.

Bu gün Azərbaycan dilində kökü mərasim və ayinlərə dayanan bir çox atalar sözləri və zərb-məsəllər var. Onların köklərinin aşkar edilməsi üçün digər türk xalqlarının, xüsusilə də azsaylı türk soylarının folkloruna, adət-ənənələrinə, dini inanclarına müraciət etmək lazımdır. Məsələn, tıva türklərində ovaa kultu çox güclüdür. Ovaalar müxtəlif olur. Belə ovaalardan biri tayfanın, soyun adı ilə bağlıdır. Buna "ovaa daqıır" deyilir. Məsələn: Kuuların ovaazı, Ondarların ovaazı, Oorjakların ovaazı. Bu ayin də xamın iştirakı, yemək, içmək, qurban və sairlə keçirilir. Burada diqqəti çəkən bir adət var: "ovaa dağıır"ın yiyəsinə qurban olaraq mütləq buynuzlu qoç kəsilir, başı ovaada qoyulur. Buynuzlar, inama görə, şər qüvvələri qorxutmaq üçündür. Ancaq heç vaxt bir ovaaya iki qoç başı qoymurlar. Çünki bu qoç başları bir-birilə vuruşar, ovaanın yiyəsini acıqlandıra bilərlər. Onda qurban kəsilən vaxt edilən

niyyət də baş tutmaz. Bu səbəbdən də heç vaxt ovaaya iki qoçun başını bir yerdə qoymazlar.[41]

Azərbaycan dilində işlədilən "İki qoçun başı bir qazanda qaynamaz" atalar sözü öz kökünü məhz şaman ayinindən alır. Məntiqlə yanaşdıqda bu atalar sözündə "yanlışlığın" olduğunu söyləmək olar, yəni çox asanlıqla iki və ya daha çox qoçun başını böyük bir qazanda yerləşdirərək qaynatmaq olar. Yuxarıda göstərilən şaman ayininə diqqət yetirilərsə, söylənilən fikrin doğruluğuna bir daha əmin ola bilərik. Bu günə qədər Azərbaycan dilində yaşayan həmin atalar sözü mənasını dəyişsə də, tamam itirməmişdir.[42]

Onu da qeyd edək ki, müəllif Qazaxıstanın güneyində olarkən bir çox yerlərdə, əsasən də qədim məzarlarda, türbələrdə arxar (vəhşi dağ qoçu) buynuzlarının qoyulduğunun şahidi olmuşdur. Son zamanlar artıq arxarların kökü kəsilmək üzrə olduğundan, məzarlara ya sementdən düzəldilmiş arxar buynuzu qoyur, ya da məzar daşlarının üzərinə buynuz şəkli çəkirlər. Qazaxlar bunun həmin yerləri şər qüvvələrdən qorunması məqsədilə edildiyini söyləyirlər. Azərbaycanın da bir çox rayonlarında, o cümlədən də Naxçıvan bölgəsində, xüsusilə də kəngərlilərin yaşadıqları Şərur rayonu ərazisində buynuzlu qoç başından şər qüvvələrdən qorunmaq məqsədilə istifadə olunur.

Adətən, iki barışmaz, daim söz-söhbətə səbəb olan, mübarizə aparan, didişən tərəflər haqqında deyirlər: "onlar səhərdən axşama qədər bir-birilərini yeyirlər". Əlbəttə ki, insanın insan ətini yediyini inkar etmək olmaz, Ancaq burada prosesin uzunmüddətli olması aydın görünür, yəni "bir-birilərini yedilər" və ya "kimsə kimisə yedi" yox, "yeyirlər", yəni tədricən, bir günə, bir həftəyə, bir ilə. Burada didişmədən söhbət getdiyi aydındır. Azərbaycan dilində işlədilən "bir-birini yeyirlər" ifadəsi də məhz ət yemək deyil, çəkişmə, didişmə anlamındadır. Belə olduğu halda həmin ifadənin məhz bu mənada dildə yaşamasının səbəbini izah etmək üçün şamanların həyat tərzi, bir-birinə münasibətləri və s. dərindən öyrənilməlidir. Əsasən maldarlıq, xüsusilə də qoyunçuluqla məşğul olan, oturaq və köçmə maldarlıq formalarından geniş istifadə edən tıva türklərinin dağlıq, meşəlik ərazilərdə dağınıq, tayfa halında yaşadıqları vaxtlar bəzən hər tayfanın, bir çox hallarda isə bir neçə tayfanın bir xamı olurdu. Bu xam öz çörəyini müxtəlif ayinlər icra etməklə, xəstə sağaltmaqla, fala baxmaqla, müxtəlif möcüzələr, kəramətlər (İslamda istidrac – G.Y.) göstərməklə çıxarırdı. Bəzən xam yaşadığı bölgə ilə kifayətlənmir, gəzə-gəzə başqa yerlərə gedib çıxırdı (Azərbaycanın şimal-qərb rayonlarında bu cür kəndbəkənd, el-bəel gəzənlərə "gəzəryilər" deyirdilər). Bu vaxt həmin yerin xamı onu rəqib kimi qarşılayır, çıxıb getməsini tələb edir. Əgər "gəzəryi" getmək istəmirsə, özünün daha güclü olduğunu iddia edirsə, onda yerli xam onu "duel"ə çağırır. XIX əsr aristokratları duelə çağırış kimi əlcək atardılar. Burada isə xam qarşı tərəfə meydan oxuyaraq deyir: "mən səni yeyəcəyəm". Əgər qarşı tərəf razılaşarsa, "mən də səni yeyəcəyəm" deyərək çağırışı qəbul edir. Bundan sonra adamlar yığışıb bu iki xamın döyüşünə şahid olur, kimin daha güclü olduğunu müəyyənləşdirir və kənardan onlara baxıb deyirlər: "onlar

---

[41] Уолш Роджер. **Дух шаманизма.** 1996, с.32-33.

[42] Güllü Yoloğlu. **Qaqauzlar**. Bakı, "Azərnəşr", 1996, s.32-33.

(xamlar) bir-birilərini yeyirlər". Əslində isə döyüşən xamlar heç də bir-birilərinin ətini yemir, bir-birindən müəyyən məsafədə duraraq psixoloji döyüşə başlayır, Göydə, Yerdə, Yeraltı aləmdə müxtəlif heyvan və quşlar şəklində vuruşurlar.[43] Bu "duel" vaxtı xamlardan biri və ya hər ikisi ölə bilərlər. Nəticə onların gücündən asılıdır.

***Nəticə***

Beləliklə, sonradan yayılan dinlər özlərindən əvvəlki dinə aid mərasim və ayinləri sıxışdırıb çıxarmağa, buna müyəssər ola bilməyəndə isə dini elementlər daxil edilir, mərasimin, bayramın vaxtı din xadimləri tərəfindən elan olunur, dualar oxunur, mövcud dinə aid ibadətgahlara gedilməsi, müqəddəslərin ruhlarının yad edilməsi və s. nəzərdə tutulur… Azərbaycanda odla bağlı hər bir ayin və adətin zərdüştiliklə, atəşpərəstliklə bağlanılması cəhdləri onların dar çərçivədə öyrənilməsinin nəticəsidir. Bu mərasimlərin qarşılıqlı öyrənilməsi Novruz bayramının köklərinin daha qədimlərə getdiyini bir daha sübut edir. Qaqauzların Martacıq və ya İlk Yaz yortusu, tıvaların Şaqaa, Altay türklərinin Çılbazı, Çılqayaq, xakasların Günəşə tayığ, Tun Payram adlandırdıqları bu bayram adını dəyişsə də, kənar təsirlərə məruz qalsa da, mahiyyətini, ilkin mənasını itirməmişdir. Azərbaycan türkləri arasında da, digər türklərdə olduğu kimi, patronimik qruplar və bu qrupların da sitayiş yeri olan ocaqlar, pirlər, ovaalar mövcuddur. İslamın, xristianlığın, lamaizmin qoyduğu qadağalara baxmayaraq bu gün də türk xalqları həmin yerləri ziyarət edir, qurbanlar kəsir, dilək diləyir, dualar oxuyur, Ulu Tanrıdan, pir, ocaq, ovaa yiyəsindən ailə, tayfa üçün xoş güzəran, can sağlığı, xoşbəxtlik diləyirlər.

Araşdırmalar göstərdi ki, şamanizm uzun zaman İslam dini ilə iç-içə yaşadığından bu gün bir çox şaman inamları, ayinləri İslam pərdəsi altında "islamlaşmışdır". Beləliklə də türk-İslam dünyasında mistik İslam deyilən yeni və özünəməxsus bir məfhum meydana gəlmişdir. Günümüzdə pirlərə, ocaqlara, ağaclara, daşlara, Atalar kultundan irəli gələn bəzi insanların qəbirlərinə tapınma, al-əlvan iplərin bağlanması, qurbanların kəsilməsi, gecələr dırnağın tutulmasının, saçın kəsilməsinin, qapının önünə qaynar suyun tökülməsinin, şər qarışan vaxt yatmağın, həmin vaxt uşağın adı ilə çağırılmasının qadağan olunması, oğlan uşaqları tez-tez ölən ailələrdə uşaqlara qız paltarı geyindirilməsi, qulağının deşilib tana taxılması, odun qoruyucu, paklaşdırıcı, sağaldıcı, gələcəkdən xəbər vermə gücünə, "özündən yeylərə", ev əyələrinə (yiyələrinə) inamlar birbaşa şamanizmlə bağlıdır. Elmdə şaman adı ilə qəbul olunan din icraçıları müxtəlif xalqlarda kam, xam, çam, oyun, porxan, baksı, gözüaçıq və s. adlanır, ayin zamanı dəf, saz, qamçı, dombra və s. alətlərdən istifadə edirlər.

Beləliklə, sonradan qəbul edilmiş və ya etdirilmiş dinləri ehtiyatla götürüb kənara qoyaraq alt qatı öyrənmək mənəvi mədəniyyətimizdə ortaq dəyərlərimizin düşünüldüyündə də çox olduğunu göstərir və bu, monotheist dinlərin sərhəd olmadığını bir daha sübut edir.

---

[43] Кенин-Лопсан М. **Обрядовая практика и фольклор тувинского шаманства.** Новосибирск, Наука, 1987, с.79.

# ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. **Azərbaycan etnoqrafiyası**: 3 cilddə. I c. Bakı, Elm, 1988, 456 s.
2. Безертинов, Рафаэль Нурудинович. **Тенгрианство – религия тюрков и монголов.** Набережные Челны, 2000, 455 с.
3. **Библия (книги священного писания Ветхого и Нового Завета)**. Первая книга Моисея. Бытие. Москва: Издание Московской патриархии, 1983, 1371 с.
4. Caferoğlu, Ahmet. Azerbaycan ve Anadolu folklorunda saklanan iki şaman tanrısı. **Folklor və etnoqrafiya,** №2, 2004, s.5-21.
5. Чихачев, Петр Александрович. Путешествие в Восточный Алтай. Москва, «Наука», 1974, 360 с.
6. Элиаде, Мирча. От Залмоксиса до Чингисхана. Кодры, Кишинев, №7, 1991, с. 104-135.
7. İnan, Abdülkadir. Makaleler ve incelemeler. Ankara: Türk Tarih Kurumu Basımevi, 1987, 712 s.
8. Катанов, **Николай Федорович**. **Наречия урянхайцев (сойотов, абаканских татар и карагасов).** Образцы народной литературы тюркских племен, изданные В.В. Радловым, т.9. СПб., 1907, 683 с.
9. Кенин-Лопсан М. **Обрядовая практика и фольклор тувинского шаманства.** Новосибирск, «Наука», 1987, 158 с.
10. Кызласов, Леонид Романович. **Древняя и средневековая история Южной Сибири.** Абакан, «Хакасское отделение Красноярского Книжного изд-ва», 1991, 58 с.
11. **Kitabi Dədə Qorqud**. Bakı, “Yazıçı”, 1988, 265 s.
12. Кныш, Александр Дмитриевич. **Мусульманский мистицизм.** Москва, Санкт-Петербург, «Диля», 2004, 464 с.
13. Кокова, Ирина Федоровна, **Николай Федорович Катанов. Документально-публицистическое эссе.** Абакан, «Хакасск». кн. изд-во, 1993, 128 с.
14. Ксенофонтов, Гавриил Васильевич. **Шаманизм. Избранные труды.** Публикации 1928-1929 гг. Якутск, «Север-Юг», 1992, 315 с.
15. Кенин-Лопсан М. **Обрядовая практика и фольклор тувинского шаманства.** Новосибирск, «Наука», 1987
16. Qüdrətov O., Qüdrətov N. **Məhəmməd Peyğəmbər: həyatı və kəlamları.** Bakı, 1990, 174 s.
17. Önal, Mehmet Naci. **Dağ kültü, eren kültü ve şenliklerinin Muğladaki yansıtmaları.** Bilig, Ankara, №25, s.99-124 (türkcə).
18. Потанин Григорий Николаевич . **Тунгутско-тибетская окраина Китая и Центральная Монголия.** Москва, «Географгиз», 1950, 652 с.
19. Потапов Леонид Павлович. **К вопросу о древнетюркской основе и датировке алтайского шаманства.** Этнография народов Алтая и Западной Сибири. Новосибирск, 1978, с.3-36.
20. Штернберг, Лев Яковлевич. **Первобытная религия в свете этнографии**

21. **(исследования, статьи, лекции),** под. ред. и с предисл. Я.П.Алькора. Ленинград, «Изд-во Инст-та народов Севера», Материалы по этнографии, т.4, 1936, 571 с.
22. **Традиционное мировоззрение тюрков Южной Сибири. Пространство и время. Вещный мир.** Львова Э.Л., Октябрьская И.В., Сагалаева А.М., Усманова М.С. Новосибирск, «Наука», 1988, 224 с.
23. Уолш Роджер. **Дух шаманизма.** Пер. с англ. С.Каноненко. Москва, Изд-во «Трансперсонального инст-та», 1996, 288 с.
24. Яковлев, Евгений Григоревич. **Искусство и мировые религии.** Москва: «Знание», 1972, 48 с.
25. Вайнштейн, Севьян Израилевич. **Тувинцы-тоджинцы. Историко-этнографические очерки.** Москва, Изд. «Вост.лит», 1961, 218 с.
26. Yoloğlu, Güllü. "Şamanizm" ve "Tanrıcılık" – Eski Türkler Yaşadıkları Dini Nasıl Adlandırıyorlardı?! **Cumhuriyet Zirvesi. 9. Uluslararası Sosyal Bilimler Kongresi** (30 Ağustos 2023, Afyonkarahisar), s.740-751.
27. Yoloğlu, Güllü. Sibirya Türklerinin Şamanlığı. Ankara, **"Yeni Türkiye" dergisi,** Yeni Türkiye Stratejik Araştırmalar Merkezi. Yıl 29, Sayı 133, Eylül-Ekim 2023, s.23-27.
28. Yoloğlu, Güllü. **Qıpçaq qələndərlərinin şahı – Şəms-i Təbrizi. Spektr,** 2003, №1, s.34-35.
29. Yoloğlu, Güllü. **Dədə Qorqud yaşı.** Bakı, Yeni nəşrlər evi, 1999, 134 s.
27. Йологлу, Гюллю. Шаманизм – дорога, ведущая к пробуждению. **Фольклор и этнография,** №2, 2004, с.70-78.
28. Yoloğlu, Güllü. Şamanlar ve şamanizm hakkında. **Milli folklor**, Ankara, 1997, №33, s.20-21.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR

Məmmədli Güllü Yoloğlu qızı – tarix elmləri doktoru, dosent, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. Azərbaycan, Bakı

Mammedli Gullu Yologlu – doctor of historical sciences, Associate Professor, A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku



**Şəkil 1.** *Tıva xamı Ayçürek (2010-cu ildə dünyasını dəyişmişdir) və moskvalı ekstrasens Vasili Qubanovla (Kızıl, "Düngür" şaman cəmiyyətində, 1998-ci il) (foto G.Yoloğlunundur).*



**Şəkil 2.** *Baksı qadın Bifatma Dövlət qızı. Dilək ağacı, 1998 (foto G.Yoloğlunundur)*

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.118-139*



**Şəkil 3.** *Kesenes, 2000-ci il (foto G.Yoloğlunundur)*

**UOT: 39:392.2:321.12**

# GƏNCƏ ƏHALİSİNİN NİKAH ADƏTLƏRİ HAQQINDA

©2025 ƏSƏD ƏLİYEV*, BAHAR ƏMƏNOVA*

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ORCİD: 0009-0007-5645-2283; e-mail: esed.eliyev.2020@mail.ru

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ORCİD: 0009-0007-5011-7820; e-mail: baharamanova@bk.ru

***Xülasə:*** *Məqalə Gəncə əhalisi arasında mövcud olan nikah formalarına (monoqam-tək kəbinlilik və poliqam – iki arvadlılıq), qaydalarına (ekzoqam-yad və endoqam-qohum), adətlərinə (göbəkkəsmə, levirat, sororat və kuzen), üsullarına (qız qaçırma və elçilik yolu ilə) həsr olunmuşdur. Burada qeyd edilir ki, aparılan etnoqrafik araşdırma keçmişdə bölgə əhalisi arasında mövcud olan bəzi nikah qaydalarının sıradan çıxdığını göstərir. Məqalədə keçmiş ailə məişəti ilə müasir ailə məişəti arasındakı fərqlər göstərilir, nikahla bağlı bəzi məsələlərin digər türk xalqlarının nikah qaydaları ilə üst-üstə düşməsindən, habelə, ailədaxili münasibətlərdən söhbət açılır.*

***Açar sözlər:*** *Gəncə əhalisi, nikah qaydaları, məqbul sayılmayan nikahlar, nikahla bağlı məsələlərin müasir vəziyyəti, ailədaxili münasibətlər*

# ABOUT THE MARRIAGE CUSTOMS OF THE POPULATION OF GANJA CITY

©2025 ASAD ALIYEV*, BAHAR AMANOVA*

*A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS
ORCİD: 0009-0007-5645-2283; e-mail: esed.eliyev.2020@mail.ru

*A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS
ORCİD: 0009-0007-5011-7820; e-mail: baharamanova@bk.ru

***Abstract:*** *The article is about the existing forms of marriage (monogamy-monogamy and polygamy-bigamy), rules (exogamous-stranger and endogamous-relative), customs (umbilical circumcision, levirate, sorority and cousin), methods (by abduction and embassy) existing among the population of Ganja dedicated. It is noted here that the conducted ethnographic research shows that some of the marriage rules that existed among the population of the region in the past have fallen into disrepair. The article shows the differences between the past family life and the modern family life, the overlap of some issues related to marriage with the marriage rules of other Turkish nations, as well as domestic relations are discussed.*

***Keywords:*** *Ganja population, marriage rules, unacceptable marriages, modern state of marriage-related issues, family relations*

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.140-151*

# О БРАЧНЫХ ОБЫЧАЯХ НАСЕЛЕНИЯ ГОРОДА ГЯНДЖИ

©2025

АСАД АЛИЕВ*, БАХАР АМАНОВА*

*Институт Истории и Этнологии НАНА имени А.А.Бакиханова
ORCİD: 0009-0007-5645-2283; e-mail: esed.eliev.2020@mail.ru

*Институт Истории и Этнологии НАНА имени А.А. Бакиханова
ORCİD: 0009-0007-5011-7820; e-mail: baharamanova@bk.ru

***Резюме:*** *В статье говорится о некоторых всё ещё встречающихся в г. Гянджа формах брака (о моногамии-единобрачии и полигамии-двоежёнстве), брачных правилах (об экзогамии – чужеродных и эндогамии – близкородственных браках), обычаях (пупочное обрезание, левират, сорорат и кузенный брак) и других действиях, связанных с заключением брака (путём похищения невесты и сватовства). В статье отражены результаты проведённых этнографических исследований, основным содержанием которых являются устарелые правила брачного союза, современем пришедшие в упадок. В статье показаны отличия между прошлой и современной семейной жизнью, совпадение некоторых вопросов, связанных с браком, с брачными правилами других тюркских народов, а также обсуждены бытовые отношения.*

***Ключевые слова:*** *население Гянджи, правила заключения брака, недопустимые браки, современное состояние вопросов брака, семейные отношения*

## *Giriş*

Dövründən, zamanından asılı olmayaraq, insanların həyatında xüsusi mərhələ və əlamətdar hadisə hesab edilən nikahla bağlı məsələlərin etnoqrafik-etnoloji baxımından araşdırılması xalqın hərtərəfli öyrənilməsinə əməli təkan verir. Azərbaycan xalqının, eləcə də onun tərkib hissəsi olan Gəncə şəhər əhalisinin ailə məişətində mühüm rol oynayan ənənəvi nikah münasibətləri özünü bir neçə istiqamətdə göstərirdi. Etnoqrafik ədəbiyyatlarda[1] vurğulanan, təcəssümünü tapan nikahla bağlı aşağıdakı ümumi təsnif bu baxımdan diqqəti cəlb edir:

Nikah formaları: monoqam (tək kəbinlilik) və poliqam (ikiarvadlılıq); nikah qaydaları: ekzoqam (yad) və endoqam (qohum[2]); nikah adətləri: göbəkkəsmə – beşikkəsmə, levirat, sororat və kuzen; nikahagirmə üsulları: qızqaçırma və elçilik yolu ilə.

Gəncə şəhər əhalisindən əldə etdiyimiz məlumata əsasən, qədimlərdə burada poliqam nikahlara rast gəlinsə də, sonrakı dövrlərdə əsas nikah forması tək kəbinlilik (monoqam) olmuşdur. Birinci arvadın üstünə ikinci arvad gətirilməsinə şəhərdə çox az hallarda təsadüf edilmişdir. Səbəb olmadan ikinci qadınla evlənənlərə qohum-

[1] Qiyasəddin Qeybullayev. **Azərbaycanlılarda ailə və nikah (XIX əsr və XX əsrin əvvəlləri).** 2 hissədə. I hissə. Bakı, "Elm", 1994, s.121.

[2] Əsəd Əliyev. **XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının ailə məişəti (tarixi-etnoqrafik tədqiqat).** Bakı, "Elm və təhsil", 2012, s.25.

əqrəba, dost-tanış mənfi münasibət göstərər, qonşular rişxəndlə baxar və bəzən toy-nişan mərasimlərinə çağırmazdılar.

Aldığımız bilgiyə görə, əgər kişinin birinci qadını vəfat edərdisə və yaxud ana olmaq imkanından məhrum idisə, onda ərin (birinci qadının öz razılığı əsasında) ikinci qadınla evlənməsi məqbul sayılırdı. Digər tərəfdən isə, ikinci evliliyə şərait yaradan birinci qadının qız uşaqları olsa da, oğlan övladının olmaması idi.

Etnoqrafik ədəbiyyatın[3] sorağına və Gəncə şəhər sakini Elmira Kamal qızı Əsədovanın verdiyi məlumata görə, anası danışırmış ki, üstünə ikinci arvad alınan birinci qadın müstəsna hallarda ər evində qalardı. Bu o zaman baş verərdi ki, ya onun qohum-əqrəbadan, bacı-qardaşdan heç kəsi olmazdı, ya da boşanıb ata evinə dönməyi nəsil-nəcabətinə əskiklik sayardı.

Əldə edilən məlumatlar göstərir ki, uşağı olmayan qadının özü bəzi hallarda "ərinə ikinci arvad almasını təklif etmiş və ərinin razılığı ilə ailədə qalıb ev işlərində əsas rol oynamış, günüsü ilə mehriban dolanmış, hətta ərinin ikinci arvaddan olan uşaqlarına öz doğma övladları kimi münasibət bəsləyərək onların təlim-tərbiyəsi ilə məşğul olmuşdur".[4]

Bu yerdə mərhum etnoqrafımız, ailə məişətimizin dəyərli tədqiqatçısı mərhum Q.Qeybullayevin ikiarvadlılıqla bağlı dediyi bir fikri xatırlayırıq. 1993-cü ildə bizimlə söhbət zamanı o dedi ki, "ikiarvadlılıq əslində bir nikah forması kimi mövcud olmamışdır, çox az hallarda birarvadlılıq (monoqamiya) ikiarvadlılığa (poliqamiyaya) çevrilmişdir. Araşdırmaların nəticəsi onu göstərir ki, XIX əsrdə azərbaycanlılar içərisində nikahın əsas və yeganə forması təkkəbinlilik idi". Bununla belə, Q.Qeybullayev monoqamiyanın da qüsurunu sadaladı. Məsələn, monoqamiyanın poliqamiyaya çevrilməsi, qızların erkən yaşlarında ərə, ələlxüsus da tanımadıqları, görmədikləri, istəmədikləri oğlanlara verilmələri və s. Məhz bu kimi məsələlər monoqamiyanın zəif cəhətlərindən idi.

Yeri gəlmişkən deyək ki, XIX əsrdə Azərbaycanın müxtəlif bölgələrində 10-13 yaşlı qızların nikaha girməsi barədə etnoqrafik ədəbiyyatlar məlumat versə də, bu qaydanın Gəncə əhalisi üçün yad olduğunu görürük. Bunu şəhərin yaşlı adamları ilə keçirdiyimiz sorğular zamanı əldə etdiyimiz bilgilər də təsdiq edir.

İkinci arvad almaq istəyənlər barədə "Qurani-Kərim"də belə bir xatırlatma var: "Əgər bir arvadın yerinə başqa bir arvad almaq istəsəniz, onlardan birinə (birinciyə) çoxlu mal vermiş olsanız da ondan heç bir şey geri almayın! Məgər bu malı böhtan atmaq və aşkar bir günah iş görməklə gerimi alacaqsınız?! Siz onu necə geri ala bilərsiniz ki, (vaxtilə) bir-birinizlə yaxınlıq etmişdiniz və onlar (qadınlarınız) sizdən möhkəm əhd-peyman almışdır" (Qurani-Kərim. Ən-Nisa surəsi, ayə 20-21).

Azərbaycanın digər şəhər və kəndlərindəki kimi, keçmişdə Gəncədə də ekzoqam və endoqam nikah qaydaları mövcud olmuşdur. Tədqiqatçılara görə, ekzoqamiya bütün dünya xalqları üçün səciyyəvidirsə, endoqamiya nikah qaydası bütün xalqlara

---

[3] Əsəd Əliyev. **XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının ailə məişəti (tarixi-etnoqrafik tədqiqat).** 2012, s.26.

[4] Qəzənfər Rəcəbli. **Nikah.** Azərbaycan etnoqrafiyası. 3 cilddə. II c. Bakı, "Şərq-Qərb", 2007, s.310.

şamil edilə bilməz. Endoqamiya nikah qaydasına ən çox Azərbaycanda, Qafqazda,[5] eləcə də Gürcüstan azərbaycanlıları – türkləri arasında rast gəlinmişdir.[6]

Ədəbiyyat materialları göstərir ki, islamaqədərki dönəmlərdə bəzi xalqlarda, o sıradan da Sibir və Orta Asiya türklərində qohumlar arasında nikah bağlantısına yol verilmirdi.[7] Qohumla nikaha girilməməsi "Kitabi-Dədə Qorqud" dastanının bəzi boylarında da özünə yer almışdır.[8]

Məqbul sayılmayan nikahlar haqqında "Qurani-Kərim"də də bilgi verilir: "... analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş və bacılarınızın qızları, süd bacılarınız, arvadlarınızın anaları və yaxınlıq etdiyiniz qadınlarınızın himayənizdə olan qızları (ögey qızlarınız) ilə evlənmək haram edildi. Öz belinizdən gələn oğullarınızın arvadları ilə evlənmək və iki bacını birlikdə almaq da sizə haramdır" (Qurani-Kərim. Ən-Nisə surəsi, ayə 23).

Tanış olduğumuz etnoqrafik ədəbiyyat materialları və əhali arasında aparılan sorğudan açıqlanır ki, Azərbaycanın digər yerlərində olduğu kimi, Gəncədə də qohum nikahlar özündə dörd nikah qaydasını, məsələn, dayı oğlu ilə bibi qızı və bibi oğlu ilə dayı qızı (kroskuzen); əmi oğlu ilə əmi qızı və xala oğlu ilə xala qızı (ortokuzen) arasındakı nikahları birləşdirirdi.[9]

Etnoqraf alim H.Q.Qədirzadə yazır ki, qədim oğuzlarda, xüsusən də "Kitabi-Dədə Qorqud" dastanlarında qohumlar arasında nikah bağlanması təqdir edilmirdisə, islamın güclənməsi ilə türk xalqları arasında belə nikahlar artmışdır.[10] Əmi oğlu ilə əmi qızı arasındakı nikahla bağlı etnoqraf alim Q.Qeybullayev qeyd edir ki, "... kiçik ailələrdə qızın əmisi oğluna əri verilməsində rol oynayan iqtisadi amil keçmişdə bacının öz qardaşı ilə birlikdə ata mirasının və torpağın bərabər payçısı, kişi varis olmadıqda isə bu mirasın tam sahibi olması idi. Məhz mirasın başqa nəslə keçməməsi üçün qızı öz qohumuna, birinci növbədə əmisi oğluna ərə verirdilər".[11] Onu da deyək ki, bəzi türk xalqlarında, məsələn, türkmənlərdə əmi oğlu və əmi qızı nikahından daha çox dayı oğlu ilə dayı qızı birləşməsinə üstünlük verilirdi.[12]

Bir qrup Gəncə əhalisi ilə keçirdiyimiz sorğudan bəlli olur ki, 20-30 il bundan əvvəl əmi oğlu ilə əmi qızı arasında bağlanan nikahlara rast gəlinsə də, sonralar belə evliliklərə mənfi münasibət göstərilmişdir. Şəhər sakini Sədi İsmayıl oğlu Mirzəyevin

---

[5] Сакинат Гаджиева. **Семья и брак у народов Дагестана в XIX – начале XX вв. Москва, Наука,** 1983, с.206-207.

[6] Əsəd Əliyev. **XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının ailə məişəti (tarixi-etnoqrafik tədqiqat).** 2012, s.27.

[7] Виктор Максимович Жирмунский. **Тюркский героический эпос.** Избранные труды. Ленинград: Наука, 1974, с.263. **Семейная обрядность народов Сибири: опыт сравнительного изучения.** Москва, Наука, 1980, с.15-24.

[8] **Kitabi-Dədə Qorqud.** Bakı, "Yazıçı", 1988, s.52, 85, 265 s.

[9] Əsəd Əliyev. Göstərilən əsəri, s. 28.

[10] Hacı Qadir Qədirzadə. **Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr (Naxçıvan materialları əsasında).** Bakı, "Elm", 2003, s. 21.

[11] Qiyasəddin Qeybullayev, **Azərbaycanlılarda ailə və nikah**. 2 hissədə. I hissə. Bakı, "Elm", 1994, s.141.

[12] Галина Петровна Васильева. Туркмены нохурлы. **Среднеазиатский этнографический сборник.** Вып. 1. Москва: Изд-во АН СССР, 1954, с. 194, с. 82-215.

söylədiyinə görə, qan qohumu, yəni əmisi qızı ilə evlənən, ailə quran şəxslərlə isti münasibət saxlanılmazdı. Qohum-qonşular "əmi qızı bacıdı, öz bacısı ilə ailə quranla üz-üzə gəlmək, rastlaşmaq xoş deyil", – deyərdilər. Buna baxmayaraq, belə nikahlara şəhər əhalisi içərisində ara-sıra indi də rast gəlinməkdədir.

Gəncə əhalisi içərisində digər nikah bağlantısı xala oğlu ilə xala qızı birləşməsi olmuşdur. Etnoqrafik ədəbiyyatda qeyd edilir ki, xala oğlu ilə xala qızı arasındakı nikahların əsas səbəbkarı bir-biri ilə isti münasibətdə, gəliş-gedişdə, əlaqədə olan bacılar idi.[13] Məhz iki bacı arasındakı mehriban davranış, qırılmaz əlaqə, səmimiyyət onların uşaqlarına da sirayət edirdi. Və zaman keçdikcə bu yaxınlıq xala uşaqları arasında qarşılıqlı məhəbbətə çevrilirdi. Ailə məişəti ilə bağlı sorğularımızı cavablandıran Heydər (Boran) Yusif oğlu Tağıyevin söhbət əsnasında ata və anasının xala uşağı olduqlarını deməsi də elə bunun bariz nümunəsidir.

Araşdırıcılara görə, "ailədaxili münasibətlərdə, xüsusən qaynana-gəlin münasibətlərində qaynananın rolunun artması, tayfadaxili münasibətlərdə qan qohumluğu məsələsinin zəifləməsi süd qohumları arasındakı nikahlara üstünlük verilməsinə gətirib çıxarmışdır".[14]

Toplanan məlumatlardan görünür ki, Azərbaycan ərazisində, o cümlədən də onun ayrılmaz tərkib hissəsi və qədim şəhərlərindən biri olan Gəncədə qohumla bağlanan nikahlar sırasına dayıoğlu ilə bibiqızı arasındakı nikah (kroskuzen) da daxil idi. Belə nikaha səbəb ailədə dayının əziz tutulması, ona güvən hissinin güclü olması göstərilirdi. Təsadüfi deyil ki, lap kiçik yaşlarından uşaqlar dayının canına and içir, onlara daha çox isinişirdilər. Özü də, bacı uşaqlarının evləndirilməsində, toy-nişan gününün təyin edilməsində və ya digər məsələlərin həllində dayının sözü dinlənilmiş, onun məsləhəti əsas götürülmüşdür. Bu barədə M.N.Serebryakovun fikri də maraqlıdır. O, mənbələrə əsaslanaraq yazır ki, ta qədim zamanlardan türklər arasında bacının oğul və qızının evləndirilməsində dayı xüsusi rol oynayırdı.[15] Dayıya xoş münasibət, onun sözünü tutmaq, toy-nişan mərasimlərində məsləhətini dinləmək Gəncə əhalisi arasında indi də davam etməkdədir.

Qohum nikahlar XX əsrin ortalarına kimi Dağıstan xalqları arasında da yayılmışdır.[16] Bu cür nikahların Azərbaycan türkləri, həmçinin, Cənubi Qafqaz müsəlmanları arasında varlığından A.Zaxarov[17] və M.M.Kovalevcki[18] də bəhs etmişdir.

---

[13] Nərgiz Quliyeva. **Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti.** Bakı, "Elm", 2005, s.174.

[14] Hacı Qadir Qədirzadə. **Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr (Naxçıvan materialları əsasında)**. 2003, s. 23.

[15] Мэри Низамовна Серебрякова. **О некоторых пережитках материнского рода и ранних форм семейно-брачных отношений у турок Малой Азии.** Страны и народы Востока. Вып. 8. Москва, с.249.

[16] Сакинат Гаджиева. **Семья и брак народов Дагестана**… с.147.

[17] А.Захарова. **Социальное положение женщин у Закавказских татар**. СМОМПК, вып. 20, отд. 1. Тифлис: 1894, с.125.

[3] Максим Максимович Ковалевский. **Закон и обычаи на Кавказе**, т.1. Москва: 1890, с.91.

Gəncə şəhər sakini Ruziyə Quliyevanın verdiyi məlumata görə, bəzən qohumla ailə quran, nikah bağlantısında olan qızların narazılığı da eşidilirdi. Hətta bu narazılıq bayatıya çevrilərək dillərə düşürdü:

Qamışlıq qalın oldu,
Ayağım yalın oldu.
Mən qohuma gəlməzdim,
Verənlər zalım oldu.

Yuxarıdakı bayatıdan da göründüyü kimi, əksər hallarda qohum nikaha qızlar arasında yaxşı baxılmamış, onlar müəyyən yolla bu izdivaca etirazlarını bildirmişlər.

Yeri gəlmişkən deyək ki, adıgeylərdə həm ana, həm də ata soyadından olan qızlarla nikaha girmirdilər. Eyni soyadı daşıyan qohum üzvlər arasında nikah bağlanması qəti qadağan idi.[19] Bu qaydaya inquşlar da əməl etmiş və onlar qohumlar arasında nikah bağlantısına qəti yol verməmişlər.[20]

Gəncə əhalisinin keçmiş ailə məişətində "beşikkərtmə", "beşikkəsmə", "göbəkkəsmə" və ya "deyikli" kimi adlarla ifadəsini tapan nikah adəti də vardır. Hələ "antik dövrlərdən bəlli olan"[21] bu adət iki valideynin dünyaya gələcək uşaqlarının ailə həyatının bəri başdan təyin edilməsi xarakteri daşıyırdı. Belə ki, arvadları hamilə olan iki qardaş, dost, qonşu, yaxud, qohum öz aralarında sövdələşirdilər ki, hansımızın oğlumuz və ya qızımız olsa, onlar bir-birinin nişanlısı sayılacaq. Bu istək-arzu ilə, uşaq doğulduqdan sonra onların beşiklərinin baş tərəfini iti bıçaqla kərtirdilər (nişanlayırdılar). "Beşikkərtmə", yaxud, "beşikkəsmə" anlayışı da məhz buradan qaynaqlanırdı.

Bəzən deyikli uşaqlar yaşca fərqli olurdular. Yəni, qızı özündən 4-5 yaş böyük oğlana deyikləyirdilər. Ancaq, əksər hallarda deyiklilər eyni yaş qrupunu təşkil edirdilər.

"Kitabi-Dədə Qorqud" dastanında da[22] rast gəldiyimiz "beşikkərtmə" adətinə xakas türkləri "çaxsıda alısxanı" və ya "sabığ toy" deyərdilər.[23]

İstər Gəncə əhalisindən, istərsə də digər məlumatçılardan aldığımız sorağa görə, beşikdəykən adaxlanan şəxslər böyüdükdə qeyd-şərtsiz olaraq ailə qurardılar. Atalarının körpəlikdən onlar üçün bağladıqları əhd-peymana naxələf çıxmaq ağır günah sayılar, iki ailə arasında ədavətə səbəb olardı. Belə hallarla Qafqazın digər xalqları da barışmaz idilər.[24]

---

[4] Мухтар Асланович Меретуков (Майкоп). **Экзогамия у адыгов.** Материалы к сессии посвященной итогам археологических и этнографических исследований 1964 года в СССР (тезис докладов). Баку, Изд-во Азерб. ССР, 1965, с.205.

[5] Башир Керимович Далгат. **Материалы по обычному праву ингушей.** Известия Ингушского научно-исследовательского института краеведения, 2-3. Владикавказ, 1930, с.348.

[21] Севда Самедова. **Этнография древнего Азербайджана: античный период (IV в. До н.э. – III в. н. э.),** Баку, Ecoprint, 2018, с.445.

[22] **Kitabi-Dədə Qorqud**, s.150.

[23] Güllü Yoloğlu. **Dədə Qorqud yaşı.** Bakı, "Yeni Nəşrlər evi", 1999, s.10.

[24] Наталия Георгиевна Волкова, Гиви Николаевич Джавахишвили, **Бытовая культура Грузии XIX-XX веков: традиции и инновации.** Москва, Наука, 1982, с. 113.

Sözügedən məsələyə Gəncə əhalisi arasında olan qətiyyətlilik Gürcüstan azərbaycanlıları-türklərində də hökm sürürdü. Hətta bununla bağlı xalq içərisində aşağıdakı kimi bayatılar da dolaşırdı:

Söz vermişəm,
Söz alıb, söz vermişəm.
And pozanı and kəsər,
Beşikdən qız vermişəm.

Can düşər,
Əndam yanar, can düşər.
O qız göbəkkəsmədi,
Elçi getmə, qan düşər.

Qor dolar, oğlan,
Cana qor dolar, oğlan.
Göz qoyma deyikliyə,
Gözün kor olar, oğlan.[25]

Maraqlıdır ki, "beşikkərtmə" və ya "deyikli" kimi bəlli olan nikahlar bir sıra türk xalqlarında, məsələn, qırğız, qazax, özbək, altay, xakas və tatarlarda yaxın vaxtlara qədər qalmaqda idi.[26]

Tarixi-etnoqrafik ədəbiyyat materiallarından bəlli olur ki, keçmişdə qədim türklərdə[27] mövcud olan "levirat" (levis latın dilində qayın deməkdir) nikah adəti Azərbaycanda,[28] eləcə də Gürcüstan azərbaycanlıları-türkləri arasında da bəlli idi.[29]

---

[25] Əsəd Əliyev. **XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının ailə məişəti (tarixi-etnoqrafik tədqiqat).** 2012, s.33-34.

[26] Ибрай Алтынсарин. **Очерки обычаев при сватовстве и свадьбе у киргиз Оренбургского ведомоства.** Оренбургский отдел Русского Географического Общества. Казань, 1870, вып. 1, с.138; А.П.Потапов. **Материалы по семейно-родовому строю у узбеков-кунградов**. Научная мысль. Самарканд-Ташкент, 1930, №1, с.49, с.37-62; Ольга Александровна Сухарева. **Традиция семейно-родственных браков у народов Средней Азии (в порядке дискусии).** Семья и семейные обряды у народов Средней Азии и Казахстана. Москва: 1978, с.126, с.118-131; В.П.Дьяконова **Алтайцы. Свадебная обрядность. Семейная обрядность народов Сибири.** Москва: Наука, 1980, с.19, с.19-24; О.Б.Наумова. **Хакасы. Свадебная обрядность. Семейная обрядность народов Сибири.** Москва, Наука, 1980, с.24, с.24-26; Н.А.Томилов **Сибирские татары (Свадебная обрядность).** Семейная обрядность народов Сибири. Новосибирск, 1980, с.32, с.31-34.

[27] Ögəl Baheddin. Böyük Hun imperiyası. 2 kitabda. I kitab. Bakı, "Gənclik", 1992, 408 s., s.18.

[28] Рахшанда Бабаева. **Материалы для изучения свадебных обрядов на Апшероне в прошлом.** Азербайджанский этнографический сборник. вып. 1. Баку: Изд-во АН Азерб. ССР, 1964, с.182.

[29] Ахмед Ахмедов. **Семья и семейный быт азербайджанцев (историко-этнографическое исследование Дманисского района Груз. ССР).** Автореферат дисс. на соис. уч. степ. канд. истор. наук. Баку: 1970 с.12.

Levirat nikah adətinə görə, mərhum qardaşın arvadı ilə onun subay qardaşı ailə qurardı. Burada əsas məqsəd dul qalmış qadını yad baxışlardan qorumaq, onun yetim uşaqlarını yiyəsiz, başsız qoymamaq, maddi və mənəvi baxımdan təmin etmək olmuşdur.

Levirat nikah məcburi xarakter daşımırdı. Bəzi hallarda qadın qaynı ilə evliliyə razılıq vermir, uşaqlarını təkbaşına özü böyüdürdü. Ümumiyyətlə, o, ikinci dəfə nikah bağlantısına girmir, bütün çətinliklərə sinə gərərək həyatını davam etdirirdi. Əhali arasında belə qadına "ər kişilərdəndi, buna arvad demək günahdı", – deyərdilər.

Gəncə sakinləri levirat nikahın çox əvvəllərə, bir qədər də 1941-45-ci illər müharibəsi ərəfəsinə təsadüf etdiyini, sonrakı dövrlərdə isə tamamilə sıradan çıxdığını söyləyirlər.

Uzaq keçmişdə Azərbaycanda mövcud olan nikah adətlərindən digəri "sororat" (arvadının ölümündən sonra kişinin subay baldızına evlənməsi) olmuşdur. Müqayisəli tarixi-etnoqrafik araşdırmalar göstərir ki, "levirat və sororat nikahlar ... bütövlükdə Azərbaycan türkləri ilə yanaşı, dünyanın bütün türk xalqlarında yayılmaqla genetik cəhətdən ümumtürk xarakteri daşıyır"dı.[30] Sororat adətindən bəhs edən H.Həvilov yazır ki, sözügedən nikaha əsasən, kişi yenidən evlənmək üçün çəkəcəyi toy xərcindən azad olurdu; digər tərəfdən isə kişinin birinci arvaddan qalan uşaqlarına xaladan başqa heç kəs yaxşı qulluq göstərə bilməzdi. Ona görə də ölən qadının ailəsi ilə qohumluq münasibətlərini davam etdirmək məqsədilə kişinin öz baldızı ilə evlənməsi daha sərfəli idi.[31]

Topladığımız etnoqrafik materiallar göstərir ki, 40-50 il bundan əvvəl mövcud olsa da, sonralar Gəncə əhalisi arasında sororat nikahlara rast gəlinməmişdir. Özü də, vaxtilə icra edilmiş olsa da, bu cür nikahlar birmənalı qarşılanmamış, bəzi ailələrdə etirazlar doğurmuşdur.

Çox yayılmasa da, Gəncə şəhər əhalisi arasında "qız-qıza" və ya "al dəyişirik etmə", "ikibaşlı qohum olma" nikah adəti də olmuşdur. Bu nikah adətinə görə, evdəki gəlinin subay baldızını onun qardaşına, dayısı və ya əmisi oğluna verirdilər. Deməli, sözügedən nikahın əsas səbəbkarı ailədəki gəlin olurdu. Yəni, "baldızının əl qabiliyyətini, iş bacarığını, təmizkarlığını və qonaqsevərliyini görən gəlin istəmirdi o, yad ailəyə düşsün. Bəzən bu cür nikahların bağlanması digər amillərə də söykənirdi. Belə amillərdən biri gəlinin uşağı olmaması idi. Ona görə də əri və ya qayınanası tərəfindən incidilməməsi, boşanıb ata evinə qayıtmaması üçün gəlinin qardaşı, yaxud, başqa qohumu onun baldızı ilə evlənirdi".[32] Bununla belə, barmaqla sayılacaq qədər olsa da, Gəncə şəhər əhalisi arasında iki qardaşın iki doğma bacı ilə evlənməsinə təsadüf edildiyi söylənilir.

Türkdilli xalqlarda olduğu kimi, Azərbaycanda, eləcə də onun qədim şəhərlərindən olan Gəncədə nikah iki üsulda özünü göstərirdi: elçilik və qızqaçırma. Elçilik üsulunda nikah bağlantısı iki ailənin razılığı əsasında, qohum-əqrəbanın, dost-tanışın geniş tərkibdə iştirakı ilə həyata keçirilirdisə, qızqaçırmada məsələ tamam başqa cür idi. Bu "başqa cür"ü aşağıda açıqlamağa çalışacağıq:

---

[30] Hacı Qadir Qədirzadə. Göstərilən əsəri, s.27.
[31] Həvil Həvilov. **Azərbaycan etnoqrafiyası.** Bakı, Elm, 1991, s.210.
[32] Əsəd Əliyev. Göstərilən əsəri s. 35-36.

Gəncə əhalisindən əldə etdiyimiz məlumata əsasən, oğlan və qız bir-birini sevsə də, bəzən iki tərəfdən birinin valideynləri onların qovuşmasına maneçilik törədirdilər. Burada oğlanın valideynlərinin qıza, yaxud, onun ailəsinə və ya əksinə, qızın valideynlərinin oğlana, onun ailəsinə xoşları gəlmədiyi bəhanə gətirilirdi. Məhz bu zaman oğlanla qız bir-birinə qoşulub qaçırdılar. Qızın qaçırılmasından xəbər tutan valideynləri müəyyən yollarla onların yerini öyrənir və ara adamı vasitəsilə qızlarının könüllü gəlib-gəlmədiyini yəqinləşdirirdilər. Əgər qız öz istəyi ilə oğlana qoşulub gəldiyini desəydi, onda qız evi məsələni açıb-bükmür, qəzəbli olsalar da, əsəblərini cilovlayırdılar. Vaxt keçdikdən, yəni qızın övladı olduqdan sonra arada barışıqlıq yaranır, bir-birinin ailəsinə gedib-gəlirdilər.

Etnoqrafik materiallar göstərir ki, bəzən qız öz nişanlısına qoşulub qaçırdı. Belə ki, qızın ata və anası kürəkənlərindən külli miqdarda toy xərci və başlıq tələb edirdilər. Bu məbləği verməyə gücü çatmayan oğlan axırda öz nişanlısını götürüb qaçmağa məcbur olurdu.[33] Qeyd edək ki, bu adət Qazax-Ağstafa ellərinin qonşuluğunda yerləşən Gəncə şəhərində də öz icrasını tapmışdı.

Könülsüz qızqaçırma zorakı yolla həyata keçirilirdi. Qızın istəmədiyi, sevmədiyi birinin onu qaçırması çox ağır nəticələrə gətirib çıxarardı. Bəzən oğlan qıza elçi göndərər, qız valideynləri isə müəyyən bəhanələrlə qohum olmaqdan imtina edərdilər. Bu zaman oğlan öz inadından dönməz, nə yolla olur-olsun qızı götürüb qaçardı. 1910-cu ildə Gəncədə baş verən hadisə bunun bariz nümunəsidir. Belə ki, "may ayının 9-da səhər tezdən Əli Kərbəlayi Həsən oğlu beş nəfər naməlum şəxslə birlikdə Məşədi Nəbi Əli oğlu evdə olmayan vaxt onun mənzilinə soxulmuş və qızı Xanım Məmməd Nəbi qızını zorla qaçıraraq təcili surətdə şəhər kənarına aparmış, qız şərtləşməyə razı olmadıqda, odlu silahdan atəş açmışdır. Bu vaxt onun dostları fayton gətirmiş və qızı qaçıranlar faytona əyləşərək Ağstafa stansiyası istiqamətində gözdən itmişlər".[34]

Yaşlı adamların dediyinə görə, bu cür hallar qan-qada törədirdi. Qız tərəfin əli silah tutan cavanları, qohum-əqrəbaları oğlanı təqib edir, atışma nəticəsində hər iki tərəfdən yaralananlar və ölənlər olurdu. Bu isə nəsillər arasında qan düşmənçiliyinə gətirib çıxarırdı. Odur ki, etnoqrafik ədəbiyyatda yazıldığı kimi, oğlanlarının zorla qız qaçırmasından xəbər tutan valideynlər əl-ayağa düşür, hörmətli adamları, ağsaqqal-ağbirçəkləri qız evinə minnətçi salırdılar. Bəzən bu yolla-xeyli xahiş-minnətdən, uzun gəl-getdən sonra barışıq əldə edilərək qan-qadadan sovuşulurdu.[35] Azərbaycanın digər yerlərində olduğu kimi, Gəncədə qızqaçırma adət halını alsa da, geniş xalq kütləsi tərəfindən çox pis dəyərləndirirdi.

Etnoqrafik ədəbiyyat materialları və aparılan sorğudan bəlli olur ki, vaxtilə Qazax və Gəncə zonasında yaşayan əhali arasında dini, həmçinin, milli fərqlərin dərin kök salması üzündən burada qarışıq kəbinlər yox dərəcəsində idi. Azərbaycanlı qadınlar müsəlman olmayan kişilərə ərə getmirdilər. Kişilər isə başqa dinlərə xidmət edən millətlərdən olan qadınlarla çox az hallarda ailə həyatı qururdular.

---

[33] Şota Salehov. **Etnoqrafik tədqiqatlar. Ailə məişəti. Qazax-Ağstafa elləri** (Toplayanı, tərtib edəni və redaktoru: Şota Saleh). Bakı, Sabah, 1995, s.51.

[34] Şota Salehov. Göstərilən əsər, s.50.

[35] Əsəd Əliyev. Göstərilən əsəri, s.37-38.

***Nəticə***

Beləliklə, aparılan tarixi-etnoqrafik-etnoloji araşdırma göstərir ki, keçmişdən fərqli olaraq, dövrümüzdə Gəncə əhalisi arasında ikiarvadlılıq (poliqam), endoqam (qohum nikah), göbəkkəsmə, levirat, sororat, həmçinin də kroskuzen (dayı oğlu ilə bibi qızı və bibi oğlu ilə dayı qızı), ortokuzen (əmi oğlu ilə əmi qızı və xala oğlu ilə xala qızı) nikahlarına çox az hallarda rast gəlinir. Tibb mütəxəssislərinin qənaətinə görə, yaxın qohumlarla evlənmə genetik qüsurlara da yol açır. Hesab edirik ki, belə nikahların tamamilə sıradan çıxması üçün əhali arasında geniş təbliğat işləri aparılmalıdır.

ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Əliyev Əsəd. **XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının ailə məişəti (tarixi-etnoqrafik tədqiqat).** Bakı, "Elm və təhsil", 2012, 156 s.
2. Həvilov Həvil. **Azərbaycan etnoqrafiyası**. Bakı, "Elm", 1991, ???
3. **Kitabi-Dədə Qorqud**. Bakı, "Yazıçı", 1988, 265 s.
4. Qeybullayev Qiyasəddin. **Azərbaycanlılarda ailə və nikah**. 2 hissədə. I hissə. Bakı, "Elm", 1994, 264 s.
5. Qədirzadə Hacı Qadir. **Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr (Naxçıvan materialları əsasında).** Bakı, "Elm", 2003, 368 s.
6. Quliyeva Nərgiz. **Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti.** Bakı, "Elm", 2005, 346 s.
7. Ögəl Bagəddin. **Böyük Hun imperiyası.** 2 kitabda. I kitab. Bakı, "Gənclik", 1992, 408 s.
8. Rəcəbli Qəzənfər. **Nikah.** Azərbaycan etnoqrafiyası. 3 cilddə. II c. Bakı, "Şərq-Qərb", s. 307-315.
9. Salehov Şota. **Etnoqrafik tədqiqatlar. Ailə məişəti. Qazax-Ağstafa elləri** (Toplayanı, tərtib edəni və redaktoru: Şota Saleh). I kitab. Bakı, Sabah, 1995, s.47-63.
10. Yoloğlu Güllü. **Dədə Qorqud yaşı.** Bakı, "Yeni Nəşrlər Evi", 1999, 136 s.
11. Алтынсарин Ибрай. **Очерки обычаев при сватовстве и свадьбе у киргиз Оренбургского ведомоства.** Оренбургский отдел Русского Географического Общества, вып. 1. Казань, 1870, 138 с.
12. Ахмедов Ахмед. **Семья и** семейный **быт азербайджанцев (историко-этнографическое исследование Дманисского района Груз. ССР).** Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. Баку, 1970.
13. Бабаева Рахшанда. **Материалы для изучения свадебных обрядов на Апшероне в прошлом.** АЭС, 1. Баку, Изд. АН Азерб. ССР, с.177-191.
14. Башир Керимович Далгат. **Материалы по обычному праву ингушей. Известия Ингушского научно-исследовательского института краеведения, 2**-3. Владикавказ, 1930, с.301-364.
15. Васильева Галина Петровна. **Туркмены Нохурлы. Среднеазиатский этнографический сборник**. Москва: Изд. АН СССР, 1954, с.82-215.

16. Волкова Наталия Георгиевна. Джавахишвили Гиви Николаевич. **Бытовая культура Грузии XIX-XX веков: традиции и инновации.** Москва, Наука, 1982, 236 с.
17. Гаджиева, Сакинат Шихемедовна. **Семья и брак у народов Дагестана в XIX – начале XX вв**. Москва: Наука, 1985, 360 с.
18. Дьяконова В.П. **Алтайцы. Свадебная обрядность. Семейная обрядность** народов Сибири. Москва, Наука, 1980, с.19-24.
19. Жирмунский Виктор Максимович. **Тюркский героический эпос. Избранные труды.** Ленинград, Наука, 1974, 728 с.
20. Захаров А. **Домашний и социальный быт женщин у Закавказских татар.** СМОМПК, вып. XX , отд.1. Тифлис, 1894, с.91-157.
21. Ковалевский Максим Максимович. Закон и обычаи на Кавказе. Т.1. Москва: 1890.
22. Меретуков, Мухтар Асланович. **Экзогамия у адыгов.** Материалы к сессии посвященной итогам археологических и этнографических исследований 1964 года в СССР (тезис докладов). Баку, Изд. Азерб. ССР, 1965, с. 205
23. Наумова, О.Б. **Хакасы. Свадебная обрядность**. Семейная обрядность народов Сибири. Москва: Наука, 1980, с.24-26.
24. Потапов, А.П. Материалы по семейно-родовому строю у узбеков-кунградов. **Научная мысль, №1.** Самарканд-Ташкент, 1930, с.37-62.
25. Самедова Севда Тофик кызы. **Этнография древнего Азербайджана: античный период (IV в. до н. э. – III в. н. э.).** Баку, "Ecoprint", 2018, 732 с.
26. **Семейная обрядность народов Сибири: опыт сравнительного изучения.** Москва, Наука, 1980, 240 с.
27. Серебрякова, Мэри Низамовна. **О некоторых пережитках материнского рода и ранних форм семейно-брачных отношений у турок Малой Азии.** Страны и народы Востока. Вып. 8. Москва: 1969, с.248-258.
28. Сухарева Ольга Александровна. **Традиция семейно-родственных браков у народов Средней Азии (в порядке дисскусии).** Семья и семейные обряды у народов Средней Азии и Казахстана. Москва, 1978, с.118-131.
29. Томилов Н.А. **Сибирские татары (Свадебная обрядность).** Семейная обрядность народов Сибири. Новосибирск, 1980, с.31-34.

MƏLUMATÇILAR

1. Əliyeva Aygün Mübariz qızı – (1983-cü il doğumlu), Gəncə şəhəri.
2. Əsədova Elmira Kamal qızı – (1965-ci il), Gəncə.
3. İbrahimov Xəlil Əsəd oğlu – (1983-cü il), Gəncə.
4. Quliyeva Ruziyə Zaman qızı – (1955-ci il), Gəncə.
5. Məmmədov Asif Arif oğlu – (1985-ci il), Gəncə.
6. Mirzəyev Sədi İsmayıl oğlu – (1961-ci il), Gəncə.
7. Səfiyev Mehman Fərhad oğlu – (1966-cı il), Gəncə.
8. Şirinova Aysel Ələsgər qızı – (1989-cu il), Gəncə.
9. Tağıyev Heydər Yusif oğlu – (1974-cü il), Gəncə.
10. Zeynalzadə Tərlan Əmir qızı – (1976-cı il), Gəncə.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR

Əsəd Əliyev – tarix üzrə fəlsəfə doktoru, dosent. AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. Azərbaycan, Bakı
Əmənova Bahar – böyük elmi işçi, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. Azərbaycan, Bakı

Asad Aliyev– Doctor of Philosophy in history, associate professor. A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku
Amanova Bahar – senior researcher, A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku

## ETNOMƏDƏNİ PROSESLƏR

**UOT: 2-73**

# XIX ƏSRDƏ ŞİMALİ AZƏRBAYCANDA ETNOKONFESSİONAL DURUM VƏ MÜSƏLMAN RUHANİLİYİNİN İNSTİTUTLAŞDIRILMASI

©2025

TAHİR ŞAHBAZOV*

*AMEA A.A.Bakixanov adına Tarix və Etnologiya İnstitutu
ORCID: 0000-0001-7973-213X; e-mail: tshahbazov.65@gmail.com

***Xülasə:*** *XIX əsrin əvvəllərində bütün Cənubi Qafqazı, o cümlədən Şimali Azərbaycanı hərbi-siyasi cəhətdən işğal edən Çar Rusiyası, onu təkcə süngülərin və inzibati-cəza tədbirlərinin köməyi ilə əlində saxlaya bilməyəcəyini anladığından, avtoxton müsəlman əhalinin mənəvi həyatı, o cümlədən, islam dini üzərində də tam dövlət nəzarətini qurmağa can atırdı. Buna görə də, çarizmin müstəmləkəçilik planlarında çoxlu sayda xristian elementlərinin köçürülməsi və burada ona vacib olan xristian mühitinin yaradılması yolu ilə yalnız regionun etnodemoqrafik xəritəsini deyil, həmçinin etnokonfessional xəritəsinin dəyişdirilməsi mühüm yer tuturdu. Digər yandan, çarizm müsəlman əhalinin hüquq və vəzifələrini imperiyanın geostrateji maraqları kontekstində yenidən müəyyən etməyi, təqib, təzyiq, imtiyazlar və xristian missioner təşkilatlarının köməyi ilə onları xristianlığa cəlb etməyi, ruhaniliyin ənənəvi strukturlarını ləğv edib, onu şiə və sünni məzhəbləri üzrə yenidən təşkil etməklə müstəmləkə dövlət aparatının bir hissəsinə çevirməyi, bununla da islamın fundamental təməllərini sarsıtmağı da düşünürdü.*

*Məqalədə bütün bu məsələlər, eləcə də müəyyən olunmuş xronoloji çərçivədə Şimali Azərbaycanda baş verən etno-konfessional proseslərin digər aspektləri tarixi-etnoloji tədqiqata cəlb edilmişdir.*

***Açar sözlər***: *Azərbaycan, etnokonfessional durum, islam, xristianlıq, şeyxülislam, müfti*

# ETHNO-CONFESSIONAL SITUATION AND INSTITUTIONALIZATION OF MUSLIM CLERGY IN NORTHERN AZERBAIJAN IN THE 19TH CENTUR

©2025

TAHIR SHAHBAZOV*

A.A.Bakikhanov Institute of History and Ethnology of ANAS
ORCID: 0000-0001-7973-213X; e-mail: tshahbazov.65@gmail.com

***Abstract:*** *Tsarist Russia, which militarily and politically occupied the South Caucasus, including Northern Azerbaijan, at the beginning of the 19th century,*

*understood that it could not hold it with the help of bayonets alone. Therefore sought to establish complete state control over the spiritual life, including the religion of the autochthonous Muslim population. In this regard, changing the ethnodemographic and ethnoconfessional map of the region by relocating a large number of Christian elements and establishing a Christian environment native to it here was a key part of the colonial plans of tsarism. The imperial government also intended to undermine the fundamental foundations of Islam by providing wide scope persecution, oppression, privileges, and the activities of Christian missionary organizations, abolishing the traditional structures of the clergy, re-institutionalizing them according to sects and trends, redefining the rights and duties of the Muslim population in the context of its geostrategic interests, and by other such means and methods, it tried to turn it into a kind of its own "obedient tool" - a part of the colonial state apparatus.*

*In the article, all these issues, as well as other aspects of the ethno-confessional processes that took place in Northern Azerbaijan within the established chronological framework, are involved in historical-ethnological research.*

***Keywords**: Azerbaijan, ethno-confessional processes, Islam, Christianity, Sheikh-ul-Islam, Mufti*

# ЭТНОКОНФЕССИОНАЛЬНАЯ СИТУАЦИЯ И ИНСТИТУЦИОНАЛИЗАЦИЯ МУСУЛЬМАНСКОГО ДУХОВЕНСТВА В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В XIX ВЕКЕ

©2025

ТАХИР ШАХБАЗОВ*

*Институт Истории и Этнологии НАНА имени А.А.Бакиханова
ORCID: 0000-0001-7973-213X; e-mail: tshahbazov.65@gmail.com

***Резюме:** В начале XIX века царская Россия, оккупировавшая в военном и политическом отношении Южный Кавказ, включая Северный Азербайджан, осознало, что не сможет удержать его в своих руках, только с помощью штыков, стремилась также установить полный государственный контроль над духовной жизнью, включая религию автохтонного мусульманского населения. В этом плане, в колониальной политике царизма, изменение этнодемографической и этноконфессиональной карты региона путем переселения большого количества христианских элементов и установления здесь свойственной ему христианской среды, занимала особое место. Одновременно, царская власть пыталась подорвать фундаментальные основы ислама посредством гонений, притеснений, привилегий и деятельности христианских миссионерских организаций, переопределив права и обязанности мусульманского населения в контексте геостратегических интересов империи, а также окончательно упразднить традиционные структуры духовенства, реорганизовав и институционализировав шиитское и суннитское течения ислама как независимое, старался превратить их в свое «послушное орудие» и часть колониального государственного аппарата.*

*В статье все эти вопросы, а также другие аспекты этноконфессиональных процессов, произошедших в Северном Азербайджане в установленных хронологических рамках, были привлечены к историко-этнологическому исследованию.*

***Ключевые слова***: *Азербайджан, этноконфессиональные процессы; ислам; христианство; шейхул-ислам; муфтий*

***Giriş***

XIX əsrin əvvəllərində Çar Rusiyası ilə Qacarlar dövləti arasında baş vermiş müharibələrin nəticəsini müəyyənləşdirən Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Azərbaycanın şimal torpaqları da daxil olmaqla, bütün Cənubi Qafqaz Rusiya tərəfindən işğal olundu. Burada sərt hərbi-siyasi müstəmləkə rejimi yaradıldı. Bütün inzibati, idarəçilik və məhkəmə strukturları, o cümlədən, diyarın təbii-iqtisadi resursları üzərində nəzarət rus-xristian bürokratiyasının əlinə keçdi. Avtoxton müsəlman əhali isə ən elementar hüquqlardan belə məhrum edilərək, onların ictimai-siyasi həyat sahələrində iştirakı müxtəlif üsullarla məhdudlaşdırıldı.

Lakin bu müsəlman əyalətini təkcə süngülərin və hərbi-inzibati tədbirlərin köməyi ilə əlində saxlaya bilməyəcəyini, islama qəlbən bağlı avtoxton əhalinin yabançı dinə və etnik mənsubiyyətə malik bir imperiyanın hakimiyyətini rahat-rahat qəbul etməyəcəyini yaxşı anlayan çarizm, onun mənəvi həyatı, o cümlədən, İslam dini üzərində tam dövlət nəzarətini bərqərar etməyə, nəticə etibarilə öz müstəmləkəçilik planlarını maneəsiz həyata keçirməyi də nəzərdə tuturdu. Çox sayda xristian etnoslarını köçürməklə yalnız regionun etnodemoqrafik xəritəsini deyil, eyni zamanda etnokonfessional xəritəsini dəyişmək, xristian missioner təşkilatlarının fəaliyyətinə geniş meydan verib, bütün Qafqazı xristian coğrafiyasına çevirmək cəhdləri də bundan irəli gəlib, çar Rusiyasının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi çıxış edirdi. Məhz, həmin siyasətin yekunu olaraq tarixi Azərbaycan torpaqlarında erməni faktoru meydana gəldi və Azərbaycanın etnik namenkulaturasında əvvəllər heç vaxt qeydə alınmayan bir sıra digər xristian etnoslar peyda oldu.

Cənubi Qafqazın, o cümlədən, Azərbaycanın işğala qədər ki, dövrünün konfessional durumuna dair hər hansı bir rəsmi statistika olmasa da, əlimizdə olan məlumatlardan aydın görünür ki, burada müsəlman əhali birmənalı olaraq üstünlük təşkil etmişdir. Tarixi mənbələrdə, o cümlədən, rus mənbələrində bütün Şərqi və Mərkəzi Zaqafqaziyanın “müsəlman ucqarı” və ya “müsəlman əyalətləri” kimi təqdim edilməsi deyilənlərin əyani sübutudur. Bundan əlavə, xristian Gürcüstanın tərkibində olan bəzi vilayətlərin əhalisinin mühüm bir hissəsi də müsəlmanlardan, o cümlədən, azərbaycanlılardan ibarət olmuşdur.

İşğaldan sonra (1828-ci il) Cənubi Qafqaz əhalisinin ilk və nisbətən real statistikası XIX əsrin 30-cu illərinin əvvəllərində aparılmışdır. Həmin statistikada bu coğrafiyasında sünni və şiə məzhəbinə aid yarım milyondan artıq (ümumilikdə təxminən 1 milyon – T.Ş.) yalnız kişi cinsindən olan müsəlman əhalinin yaşadığı

göstərilir.[1] Əsrin sonlarında – 1897-ci ildə keçirilmiş ilk ümumrusiya siyahıyaalınma sənədlərinə görə isə Cənubi Qafqazda 1.895.722 müsəlman qeydə alınmışdır ki, onun da 673.243 nəfəri Bakı quberniyasının, 552.822 nəfəri Yelizavetpol quberniyasının, 117.620 min nəfəri Kutaisi quberniyasının, 189.028 nəfəri Tiflis quberniyasının və 350.009 nəfəri isə İrəvan quberniyasının payına düşmüşdür. Göründüyü kimi, faiz etibarilə ən az müsəlman Kutaisi quberniyasında (11-12 %), ən çox isə Bakı quberniyasında (82,32 %) qeydə alınmışdır.[2]

Qeyri-müsəlman əhalinin sayı isə quberniyalar üzrə təxminən belə olmuşdur: Bakı quberniyası üzrə: pravoslavlar – 56.090, təriqətçilər – 21.912, ermənilər – 52.563, Roma katolik dininin daşıyıcıları – 2.218, protestantlar – 4.635, yəhudilər – 12.761, başqa xristianlar – 285, qeyri-xristianlar – 9; Yelizavetpol (Gəncə) quberniyası üzrə: Pravoslavlar – 10.429, təriqətçilər – 9.507, ermənilər – 298.804, Roma katolik dininin daşıyıcıları – 868, protestantlar – 3.948, yəhudilər – 2.031, başqa xristianlar – 285, qeyriləri – 6; Kutaisi quberniyası üzrə: Pravoslavlar (gürcülər) – 900.930, təriqətçilər – 248, ermənilər – 24.505, Roma katolik dininin daşıyıcıları – 4.260, protestantlar – 1.722, yəhudilər – 8910, başqa xristianlar – 24, başqa qeyri xristianlar – 22; Tiflis quberniyası üzrə: pravoslavlar (gürcülər) – 584.821, təriqətçilər – 16.209, ermənilər – 230.377, Roma katolik dininin daşıyıcıları – 11544, protestantlar – 8.822, yəhudilər – 9.725, başqa xristianlar –230.579, başqa qeyri xristianlar – 304; İrəvan quberniyası üzrə: pravoslavlar – 16.398, təriqətçilər – 4.827, ermənilər – 439.042, Roma katolik dininin daşıyıcıları – 2.260, protestantlar – 771, yəhudilər – 1.045, başqa xristianlar – 13.822.[3]

Göründüyü kimi, XIX əsr ərzində Rusiyanın daxili quberniyalarından, eləcə də qonşu Osmanlı və Qacarlar dövlətlərindən həyata keçirilən kütləvi xristian köçürmələri, həmçinin dövlət səviyyəsində yürüdülən ruslaşdırma və xristianlaşdırma siyasəti nəticəsində Cənubi Qafqazın bəzi əyalətlərinin (xüsusilə, keçmiş Naxçıvan, Qarabağ və İrəvan xanlıqlarının) etnokonfessional strukturunda nəzərə çarpacaq dəyişikliklər baş versə də, bütövlükdə azərbaycanlı-müsəlman əhali öz kəmiyyət və keyfiyyət üstünlüyünü davam etdirmişdir.

### *Çar Rusiyasının dini siyasəti, İslama münasibət*

Bəri başdan deyək ki, Çar Rusiyasında müsəlmanlara və İslama münasibət heç vaxt ürəkaçan olmamışdır. Rəsmi dairələrinin leksikonunda "islam" və "gerilik" az

---

[1] **Духовные правления мусульман Закавказья в Российской империи (XIX – начало XX в.).** Московский гос. ун-т им. М.В.Ломоносова, Ин-т стран Азии и Африки (сост., авт. предисл. и примеч. А.А.Ганич). Москва: Изд. дом Марджани, 2013, s.18.

[2] **Первая всеобщая перепись населения Российской империи,** 1897 г. Под ред. Н.А.Тройницкого. LXI. Бакинская губерния. СПб., 1905, с.3; LXIII. Елисаветпольская губерния. СПб., 1905, с.3; LXVI. **Кутаисская губерния.** СПб., 1905, с.3; LXIX. **Тифлисская губерния.** СПб., 1905, с.3; LXXI. Эриванская губерния. СПб., 1905, с.3.

[3] **Первая всеобщая перепись населения Российской империи, 1897 г. Под ред. Н.А. Тройницкого. LXI. Бакинская губерния.** СПб., 1905, с.3; LXIII. **Елисаветпольская губерния.** СПб., 1905, с.3; LXVI. **Кутаисская губерния.** СПб., 1905, с.3; LXIX. **Тифлисская губерния.** СПб., 1905, с.3; LXXI. **Эриванская губерния**. СПб., 1905, с.3.

qala sinonim sözlər kimi işlənmiş, ümumi ictimai rəy isə bu dini "inkişafdan qalan Şərq xalqlarının dini", imperiyanın gələcəyi üçün potensial təhlükə mənbəyi" kimi qələmə verilmişdir.

Lakin çarizm İslamın qəti qadağan edilməsinin mümkünsüzlüyünü yaxşı dərk etdiyindən, onun zəiflədilməsinə, nüfuzdan salınmasına, ruhaniliyin sıralarının seyrəldilməsinə daha çox çalışırdı, baxmayaraq ki, ayrı-ayrı tədqiqatçılar arasında alternativ münasibət də mövcuddur. Məsələn, rus müəllifi T.E.Jitenev, Rusiya imperiyasında islama münasibəti şərh edərkən yazır ki, *"müsəlmanlar öz dinlərinə "dövlətə və Rus Pravoslav Kilsəsinə zərər verməyəcək dərəcədə etiqad etməkdə azad olmuşlar".*[4]

Bundan əlavə, müxtəlif illərdə Rusiya imperiyasında qəbul edilmiş qanunvericilik aktlarına və bəzi hüquqi sənədlərə görə, *"milliyyətindən və dinindən asılı olmayaraq, öz əqidəsi və qanunları ilə çara itaət edən hər kəs rus təbəəsi sayılmışdır".*[5] Lakin inkaredilməz həqiqətdir ki, bəhs edilən dövrə əksər mənbələrdə, o cümlədən, rus mənbələrinin özündə əksini tapmış mötəbər faktlar təsdiq edir ki, həmin qanunlar və hüquqi aktlar çox vaxt kağız üzərində qalmış və icra olunmamışdır. Bu da ondan irəli gəlirdi ki, imperiyanın ali siyasi və dini elitasında İslama təkcə "yad" bir din kimi deyil, eyni zamanda avtokratiya və pravoslavlıq üçün ciddi təhlükə mənbəyi kimi baxılırdı. Rus müəllifi A.V.Kudryavtsevin etiraf etdiyi kimi, *"tarixən pravoslavlığın (bütünlükdə xristian dini kimi) İslama bidət dini kimi yanaşdığını və başqa cür yanaşa bilmədiyini inkar etməyin mənası yoxdur".*[6]

Berlin Humbold Universitetinin professoru Y.Baberovski isə qeyd edir ki, *"İmperiyanın (Rusiya imperiyası – T.Ş.) mədəni müxtəlifliyi onun üçün ekzistensial təhlükə mənbəyinə çevrildiyindən, çar hökuməti qarşısında bu nizamı "düzəltmək" vəzifəsi dururdu. Həmin vəzifənin həllinə İslamın gözdən salınması və müsəlman aristokratiyasının legitimsizləşdirilməsi ilə başlanması da təsadüfi deyildi".*[7] Lakin imperiyanın strateji maraqları kontekstində zaman-zaman bu vəzifələrin həyata keçirilməsinin konturları, üsulları və metodları dəyişilir, situasiyadan asılı olaraq sərtləşdirilir və ya yumşaldılırdı.

Çar hökuməti tərəfindən Cənubi Qafqaz müsəlmanlarının dini həyatını "nizamlanmasına" dair ilk qanunverici akt isə "Yelizavetpol dairəsi müsəlman ruhaniliyinin ştat və qaydaları" adlı sənəd hesab olunur. 11 maddədən ibarət bu sənəd 1805-ci il mayın 5-də Gürcüstan sərdarı, general P.D.Sisyanov tərəfindən tərtib edilmiş və iyunun 30-da imperator I Aleksandr tərəfindən imzalanmışdır. Burada müsəlman əhalinin dini ehtiyacları nəzərə alınmadan, yeni vəzifə ştatları müəyyənləşdirilmiş və

---

[4] Тимофей, Евгеньевич Житенев. **Ислам в России: вехи истории**. Вестник Волжского университета им. В.Н.Татищева. 2010, №4, с.4.

[5] **Обозрение исторических сведений о Своде законов Российской империи.** Изд.2. СПб.: Типография 2 Отделения Собственной Е.И.В. Канцелярии, 1837, с.11.

[6] Александр, Кудрявцев. **Исламофобия в постсоветской России.** Ислам в СНГ. Москва, ИВ РАН, 1998, с.162-163.

[7] Йорг, Баберовски. **Враг есть везде. Сталинизм на Кавказе. Москва: Российская политическая энциклопедия (РОССПЭН)**: Фонд «Президентский центр Б.Н.Ельцина», 2010, с.27.

bütün dairə üzrə cəmi 9 ruhani vəzifəsi müəyyənləşdirilmişdir. "Qaydalar"da Rusiya administrasiyası tərəfindən təyin olunmuş axundlar başda olmaqla, müsəlmanlara öz dini ibadətləri ilə məşğul olmaq təminatı verilirdi. Din xadimləri təyin olunmuş əmək haqqı ilə ştata alınır, onların üzərinə hansısa axund və ya mollanın Rusiya hökumətinə qarşı "pis niyyətləri" barədə yerli komandanlığa məlumat vermək öhdəliyi qoyulur və buna əməl etməməyin dövlətə "xəyanət" kimi qiymətləndiriləcəyi barədə xəbərdarlıq edilirdi.[8] Yeri gəlmişkən, oxşar məzmunlu daha bir məktub 1824-cü ilin martın 9-da general A.P.Yermolov tərəfindən Quba komendantı K.K.-fon Krabbeyə də göndərilmişdi.[9]

Müsəlmanların dini həyatının "tənzimlənməsi" ilə bağlı növbəti addım 10 yanvar 1822-ci ildə general A.P.Yermolovun təklifi və çar I Aleksandrın xüsusi sərəncamı ilə Rusiya müsəlmanlarının Həcc ziyarətinə getməsinin rəsmi şəkildə qadağan edilməsi olmuşdur.[10] Belə ki, imperiya rəsmiləri, həmçinin Qafqaz və yerli administrasiyaların nümayəndələri sosial agentlər və zəvvarların timsalında istər Həcc ziyarətini, istərsə də digər İslam ziyarətgahlarına səfərləri Rusiyada panislamizm ideyalarının yayılmasının mənbəyi kimi görür, bunu müsəlman təəssübkeşliyinin həddən artıq güclənməsinin, həmçinin Qafqaza "müxtəlif epidemiyaların" daxil olmasının səbəbi kimi təqdim edirdilər.[11]

Çarizm xüsusilə, müsəlmanların ruhani təhsili almaq məqsədilə başqa ölkələrə (xüsusilə Türkiyə və İrana) getməsinin qarşısını hər cür üsullarla almağa çalışır, həmin ölkələrdə ruhani adları və rütbələri haqqında verilən şəhadətnamələri etibarsız sayırdı. Hökm şəklində tələb edilirdi ki, "*Zaqafqaziya vilayətinin müsəlmanları xarici dövlətlərinin müsəlman ruhanilərindən asılı olmamalı və heç bir şəkildə onlarla din və şəriət məsələlərində birbaşa əlaqəyə girməməlidirlər".*[12] Bu cür əlaqələri olanlara sərt şəkildə cəzalandırılacağı və sürgün ediləcəyi barədə xəbərdarlıq edilirdi.

Məsələn, 1822-ci ildə xariclə məxfi "casusluq əlaqələrinə görə" Tiflis axundu Tanrıverdi "təqsirli bilinərək" sürgün olunmuşdu.[13] Əslində isə onun "günahı" axtarış zamanı evindən axund rütbəsi alması haqqında İran müctəhidi tərəfindən möhürlənmiş vəsiqənin tapılması idi. *"Qoy başqalarına da dərs olsun*", – deyən general Yermolov, knyaz Mədətova tapşırmışdı ki, axund Tanrıverdinin sürgün edilməsi

---

[8] **Акты, собранные Кавказской археографической комиссией (АКАК),** т.II, док. 559, с.285; Ислам в Российской империи (законодательные акты, описания, статистика). Составитель и автор вводной статьи Д.Ю.Арапов. Москва, ИКЦ Академкнига, 2001, с.62-65; Духовные правления мусульман Закавказья в Российской империи..., с.18-19.

[9] **Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг**. XIX в. Ч.II. Москва-Ленинград: Изд-во Академии наук СССР, 1937, с.309-311.

[10] **Акты, собранные Кавказской археографической комиссией (АКАК).** Тифлис, 1874. Т.6. Ч.1, с.712-713.

[11] **АКАК**, Тифлис, 1878. Т.7, док.843, с.869-871.

[12] Hidayət Orucov. **Azərbaycanda din (ən qədim zamandan bu günədək).** Bakı, İdrak, 2012, s.160.

[13] Qədim Mustafayev. **XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi.** Bakı, Maarif, 1973, s.29.

haqqında əmrin surətini Şirvan, Şəki və Qarabağ əyalətlərinə də göndərib, hamını onun məzmunu ilə tanış etsin.[14]

İslama və müsəlmanlara qarşı əsas mübarizə üsullarından biri də müsəlman ruhaniliyinin iqtisadi əsaslarını sarsıtmaq – ruhani sosial təbəqəsini və məscidləri malik olduğu imtiyazlardan və gəlir mənbələrindən məhrum etmək idi. Məsələn, general A.P.Yermolov "Quba qazısına göstəriş"də ruhanilərin xeyrinə toplanan zəkatın məcburi, xümsün isə könüllü olduğunu elan etmişdi. Halbuki, şəriətdə onların hər ikisi məcburi vergilərdir və bu vergilərdən əldə olunan gəlirin yalnız müəyyən hissəsi ruhanilərə çatırdı. Bu azmış kimi o, ruhaniləri sadə kəndlilərə çevirmək, onları da vergi və mükəlləfiyyətlərə cəlb etmək barədə göstərişlər verir, nəticə etibarilə müsəlmanların dini və milli hisslərinə hörmətsizlik nümayiş etdirirdi.[15] Ruhanilərin sayının azaldılması, ruhanilərin əlindən əhalidən vergi tələb etmək hüququnun alınması, əvəzində hökumət tərəfindən ştata alınmayan ruhanilərin üzərinə vergi və mükəlləfiyyətlərin qoyulması da sənədin əsas müddəalarından idi.

Müsəlman ruhanilərinin dini vəzifələrə və dərəcələrə təyinatında rus təhsili olanlara üstünlük verilirdi.[16] Məscid mollalarına əmr olunurdu ki, öz moizələrində əhalini imperatora və hökumətə sədaqətli olmağa çağırsınlar. XIX əsrdə baş vermiş Rusiya-Osmanlı müharibələrinin gedişində ruhanilərdən xristian Rusiyasının müsəlman dövlətləri üzərindəki hər kiçik qələbəsi şərəfinə məscidlərdə moizələr, rus əsgərləri və imperator üçün duaların oxunması tələb olunurdu. Hətta bu məqsədlə xüsusi dua mətnləri də tərtib etdirilmişdi. Məsələn, general A.P.Yermolovun şəxsən özü tərəfindən hazırlanan "Çar üçün dualar" 1820-ci ilin oktyabrından etibarən bütün Qafqaz məscidlərində icra olunan İslam rituallarının ayrılmaz hissəsinə çevrilməli idi. Ruhanilərə xüsusilə Cümə namazlarında *"çar, çar evi və vətən üçün dua etmək",* bununla da diyarda Rusiya hökumətinin nüfuzunun artmasına "töhfə vermək" tapşırılmışdı.[17] Bu tələblərə əməl etməyənlər, hökumətə qarşı düşmən mövqedə dayananlar və yaxud başqa "pis niyyətlərə" düşənlər Sibirə sürgün edilməklə, mülklərini əllərindən almaqla qorxudulurdu.

Digər yandan, imperiyaya – çara sədaqət nümayiş etdirənlər mükafatlandırılır və yüksək mənsəblərə irəli çəkilirdilər. Bununla da çarizm müsəlman ruhaniliyini özünün "sözəbaxan alətinə" çevirməyə, onun yerli əhali arasındakı nüfuzundan öz mövqelərini möhkəmləndirmək, ayrı-ayrı sosial qruplar və ya təriqətlər arasında milli ədavəti və düşmənçiliyi qızışdırmaq üçün istifadə etməyə çalışırdı.

Məsələn, 1827-ci ilin oktyabr ayında rus ordusu Təbrizə daxil olarkən Təbriz müctəhidi Ağa Mir Fəttah Təbatəbai əhalini müqavimət göstərməməyə çağıraraq,

---

[14] Qədim Mustafayev. **XX əsrin əvvəllərində**...s.28.

[15] Rəsul Hüseynli. **Azərbaycan ruhaniliyi (Xanlıqlar çağından Sovet işğalınadək olan dövrdə).** Bakı, Kür, 2002, s.22-23.

[16] **Духовные правления мусульман Закавказья в Российской империи**...с.45, 72.

[17] Дмитрий Юрьевич Арапов. **Ермоловская молитва за царя 1820 г. Северный Кавказ в составе Российской империи (Отв. ред. В.О.Бобровников, И.Л.Бабич).** Москва: Новое литературное обозрение, 2007, – s.371; Толковый сокрушенный молитвенник или собрание употребительнейщих молитв и песнопений (составитель свящ. И.Бухарев). Москва, Типо-Лит. О.И.Лашкевич и К. Тверская, 1896, с.93-95.

şəhərin döyüşsüz təslim olmasında, rusların xeyrinə vergi toplanmasında və ümumiyyətlə, bütün Güney Azərbaycanın itaət altında saxlanmasında mühüm rol oynamış, Osmanlı ilə müharibə illərində Rusiya ordusu üçün azərbaycanlılardan ibarət 4 süvari alayının yaradılmasında yaxından iştirak etmiş, 27 min tümən və yaxud da 400 min rubl dəyərində toxunulmaz mülkiyyətindən imtina edərək, Rusiya imperiyasına qulluq etməyə qərar vermişdi. Ağa Mir Fəttahın xidmətləri çar yanında yüksək qiymətləndirilmiş və əvvəlcə "briliantlarla bəzədilmiş qızıl medal", sonra I dərəcəli "müqəddəs Anna ordeni" ilə təltif edilmiş, qızıl pulla 2000 rubl dəyərində təqaüdə layiq görülmüş, ona Tiflis şəhərində mülk, Şirvanda isə illik gəliri 5360 manat olan 15 kənd bağışlanmışdı.[18]

Rus çarizminin konfessional siyasətinin əsas istiqamətlərindən birini də müsəlman vilayətlərində, o cümlədən Azərbaycanda məscidlərin kütləvi şəkildə ixtisarı, əvəzində kilsə və ibadət evlərinin geniş şəbəkəsinin yaradılması təşkil edirdi. Problem xüsusi "əhəmiyyət" kəsb etdiyindən, hakimiyyət onu həmişə diqqət mərkəzində saxlayırdı. Bu baxımdan A.L.Trequbov adlı rus müəllifinin aşağıdakı fikirləri diqqəti cəlb edir: *"Rusların yaşadığı, rus hakimiyyətinin mövcud olduğu regionlar onsuz da ruslara aiddir. Amma o regionlar yalnız orada kilsələr tikiləndən sonra qəti şəkildə Rusiyaya çevrilir".*[19]

Nəhayət, çarizmin etnokonfessional siyasətində xristian missioner təşkilatları vasitəsilə müsəlman əyalətlərində müsəlmanların kütləvi şəkildə xristianlığa cəlb edilməsi planları da mühüm yer tuturdu. XIX əsrin əvvəllərində Qafqazın dağlı xalqları arasında islamın sürətlə yayılması ilə əlaqədar, Qafqazda pravoslavlığı yayan "Osetin Ruhani Komissiyası"nın fəaliyyətinin bərpa edilməsi, protestantlığı və katolikliyi təbliğ edən "Edinburq Bibliya cəmiyyəti" və "Xristianlığın Alman Cəmiyyəti" (və ya Bazel missionerləri) kimi xarici missioner təşkilatlarının fəaliyyətinə yenidən geniş meydan verilməsi məhz, bununla əlaqədar idi.

Lakin məlumat üçün deyək ki, nə "Osetin Ruhani Komissiyası"nın, nə də 1835-ci ilə qədər Qafqazda iş aparmış xarici missioner təşkilatlarının fəaliyyəti o qədər də uğurlu alınmamışdı. Məsələn, "Edinburq Bibliya cəmiyyəti"i fəaliyyət göstərdiyi 33 il ərzində (1802-1835-ci illər) cəmi 9 dağlı ailəsini və alman qadınlarına evlənmiş 6 kabardiyalı kişini xristianlığın protestantlıq məzhəbinə cəlb etməyə nail ola bilmişdi. Yeri gəlmişkən, protestantlıq məzhəbinə keçənlər arasında iki məşhur azərbaycanlı – sonralar "Aleksandr Kazım bəy" adını almış böyük şərqşünas alim Mirzə Məmməd Əli Kazım bəy və "Aleksandr Dikson İzmayılov" kimi tanınan Rəşid Əli İsmayılov da var idi.[20]

1823-cü ildə mərkəzi qərargahı Qarabağda – Şuşa şəhərində yerləşən "Xristianlığın Alman Cəmiyyəti" də nəinki koloniya qura bilməmiş, eyni zamanda çox az sayda bütpərəst və müsəlmanı xristianlığa cəlb etməyə nail olmuşdu. Onların

---

[18] Колон. политика....с.311-336; Rəsul Hüseynli. **Azərbaycan ruhaniliyi**...s. 27-32; Abdulla Əhədov. **Azərbaycanda din**, s.58.

[19] Александр Лаврентьевич Трегубов. **Переселенческое дело в Семипалатинской и Семиреченской областях. Впечатления и заметки по поездке летом 1909 г**. Вопросы колонизации. 1910. №6, с.107.

[20] **АКАК**, т.VI, ч.1, с.468; т.VIII, с.24-253, 312.

Şuşada açdıqları məktəblərin əsas kontingentini də, planlaşdırıldığı kimi, müsəlman və bütpərəst xalqların nümayəndələri deyil, erməni gəncləri təşkil etmişdi.[21]

Bu vəziyyət təbii ki, erməni ruhaniliyinin ciddi narahatlığına səbəb olmuş və onlar öz narahatçılıqlarını baron Rozenə yazdıqları məktubla çatdırmışdılar.[22] Məktubla tanışlıqdan sonra Nazirlər Komitəsi 1835-ci ilin payızında şotlandlar kimi, Bazel missionerlərinin fəaliyyətini də rəsmən qadağan etmiş və onlar öz əmlaklarını dəyər-dəyməzinə satıb Şuşadan, bütövlükdə Qafqazdan göndərilmişdilər.[23]

Beləliklə, xarici xristian missioner təşkilatlarının fəaliyyətinə son qoyan çarizm, bütün nəzər-diqqətini Qafqaz xalqlarının, o cümlədən, azərbaycanlıların pravoslav xristianlığa cəlb edilməsi işinə yönəltmişdi.[24] "Osetin dini komissiyası"nın fəaliyyəti xeyli canlandırılmışdı. Təşkilatın üzvləri Qafqazın digər əyalətləri ilə bərabər, Azərbaycanın Şimal-Qərb bölgələrində – ingiloylar arasında daha aktiv təbliğat aparmağa çalışırdılar. Pravoslav missionerlər Rusiya imperiyasını vaxtilə "zorakı müsəlmanlaşdırmaya məruz qalmış" ingiloyların himayədarı kimi təqdim edir, "itirilmiş hüquqlarının bərpası" vədləri ilə onları öz tərəfinə çəkməyə və bölgədəki digər etnoslara qarşı mübarizədə istifadə etməyə çalışırdılar.[25]

Lakin XIX əsrin ortalarından etibarən "Osetin ruhani komissiyası"nın fəaliyyəti də imperiya rəhbərliyini qane etməməkdə idi və "xristianlaşdırma kampaniyası" bir növ dalana dirənmişdi. Bu səbəbdən 1860-cı il iyunun 9-da "Qafqazda pravoslav xristianlığın bərpası Cəmiyyəti" adlanan yeni missioner təşkilatı yaradıldı. "Osetin ruhani komissiyası"nın bütün mülkiyyəti və maliyyə vəsaitləri yeni yaradılan "Cəmiyyət"in balansına keçirildi.[26] Mərkəzi qərargahı Tiflis şəhərində yerləşən "Cəmiyyət" Rusiya imperiyası ərazisində ruhani idarəsinə deyil, birbaşa hakimiyyət strukturlarına tabe olan yeganə missioner təşkilatı oldu.[27]

Lakin bütün inzibati və ideoloji resursların tətbiqinə rəğmən (təzyiq, təqib, cəza tədbirləri, güzəşt, rüşvət, imtiyaz və s.), 1917-ci ilə qədər fəaliyyət göstərmiş "Qafqazda Pravoslav Xristianlığın Bərpası Cəmiyyəti"nin işi də çarizm üçün arzu edilən nəticələri vermədi. "Cəmiyyət"in fəaliyyəti dövründə çox az sayda müsəlman islamı xristianlığa dəyişdi ki, onların da "xristianlığı" əksər hallarda formal xarakter daşıyırdı.

***Ruhaniliyin institutlaşdırılması***

Rusiya işğalına qədər ki, dövrdə şiə təriqətinə mənsub əhalinin üstünlük təşkil etdiyi Azərbaycanın xanlıqlarında ruhanilik muxtar statusa malik idi. Ruhaniliyin

---

[21] **АКАК**, т.VIII, с.320.
[22] **АКАК**, т.VIII, с.319-320
[23] **АКАК,** т.VIII, с.331.
[24] **АКАК**, т.VIII, с.406-407.
[25] İradə Əliyeva. **İngiloylar: zorakı xristianlaşdırmaya qarşı mübarizə tarixindən.** Bakı, 2019, s.49.
[26] **АКАК**, т.VIII, с. 249-252.
[27] Михаил Алексеевич Волхонский. **Общество восстановления православного христианства на Кавказе: между миссионерством и цивилизаторством (1860-1885).** Российская история. №6, 2019, с.108.

başında xan tərəfindən təyin olunan müctəhid, axund və qazıların arasından seçilən şeyxülislam dayanırdı.[28]

Sünnilərin çoxluq təşkil etdiyi xanlıqlarda (Şəki və Şirvan xanlıqlarında, Dərbənd vilayətində, Carda) isə ruhaniliyə rəhbərlik edən müfti vəzifəsi yox idi və bu vəzifə xanların özləri tərəfindən həyata keçirilirdi. Burada ali dini rəhbərliyi rütbəcə müftidən aşağıda dayanan əfəndilər, yaxud da qazılar təmsil edirdilər.[29] Lakin, ruhani zümrəsi yenə də divanxana işlərində mühüm rol oynayır və bir növ həm dini, həm də dünyəvi məsələlərin həll edildiyi dövlət aparatının bir qolu kimi çıxış edirdilər. Bir az da dəqiqləşdirsək, *"ruhanilər – qazılar, əmr-məruflar inzibati funksiyalar yerinə yetirən dövlət məmurları qismində, ali rütbəli ruhanilər isə dini işlərlə yanaşı, bu və ya digər şəkildə dövlət idarəçiliyi məsələlərində də iştirak edirdilər"*.[30]

1823-cü ildə çar hökumətinin qərarı ilə Qafqaz şeyxülislamı, 1832-ci ildə isə Qafqaz müftisi vəzifələri təsis edildi.[31] Lakin, bu vəzifələrin təsis edilməsi hələ ruhani idarələrinin yaradılması demək deyildi. Şeyxülislam və müftinin səlahiyyətləri yalnız ruhani rütbələrini təsdiq etmək səviyyəsində müəyyənləşdirildiyi kimi, onların Qafqazın müsəlman ruhaniliyinə rəhbərliyi də formal xarakter daşıyırdı. Digər tərəfdən, dini rəhbərlər ruhanilər tərəfindən seçilmədiklərinə, yəni təyin olunduqlarına görə, çox vaxt din xadimləri onların göstərişlərinə əməl etmirdilər.

Qafqaz şeyxülislamı vəzifəsini Tiflisdəki şiə müsəlman məscidinin axundu yerinə yetirirdi. Müftiliyin mərkəzi isə əvvəlcə Kazan şəhərində yerləşmiş, sonra isə Tiflisə köçürülmüşdü. 1828-ci ildə Təbriz müctəhidi Ağa Mir Fəttah Təbatəbainin Qafqazın şiə ruhanilərinə başçı təyin olunması ilə şeyxülislamın funksiyaları daha da məhdudlaşdırıldı və o, bundan sonra faktiki olaraq Tiflis məscidinin axundu kimi fəaliyyət göstərməli oldu. Həm müctəhid, həm də şeyxülislam vəzifələrinin paralel mövcudluğu bəzən onların arasında fikir ayrılıqlarına, hətta münaqişələrə səbəb olurdu. Aydın məsələdir ki, çarizm məqsədyönlü şəkildə qəbul etdiyi bu cür qərarlarla müsəlman din xadimləri arasındakı ziddiyyətləri daha da dərinləşdirir, ruhaniliyin strukturlarını daha çox parçalamağa, zəiflətməyə və son nəticədə bütün tərəfləri özündən asılı vəziyyətə salmağa çalışırdı.

Lakin belə bir vəziyyətin nə vaxtsa imperiyanın özünə qarşı çevrilə biləcəyini anlayan imperiya rəhbərliyi, Cənubi Qafqaz müsəlmanlarının dini idarəçiliyinin yenidən "layihələşdirilməsinə" başladı. Bu istiqamətdə ilk ciddi təşəbbüs 29 noyabr 1828-ci ildə Tiflisdə müsəlman əyalətlərinin strukturunun təşkili üzrə xüsusi komitənin yaradılması oldu. Komitə tərəfindən müsəlman ruhaniliyinin idarə olunması ilə

---

[28] Николай Федорович Дубровин. **История войны и владычества русских на Кавказе.** Т.1: Очерк Кавказа и народов его населяющих. Кн.2: Закавказье: Кавказ. СПб, 1871, с.385.

[29] **Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях: произведенное и изданное по высочайшему соизволению (ОРВЗК).** Ч.3. СПб.: Тип. Департамента внеш. Торговли, 1836, с.27.

[30] Rəsul Hüseynli. **Azərbaycan ruhaniliyi**… s.17.

[31] Abdulla Əhədov. **Azərbaycanda din və dini təsisatlar.** Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1991, s.54.

bağlı dörd variantda "Əsasnamə" layihəsi hazırlandı, lakin müxtəlif səbəblərə görə onların heç biri təsdiqlənmədi.

1839-cu ildə imperiya miqyasında inzibati islahatların hazırlanması ilə əlaqədar məsələ ətrafında işlər dayandırıldı və yalnız knyaz M.S.Vorontsovun canişinliyi dönəmində (1844-1853) yenidən bərpa edildi. Buna baxmayaraq, problem yalnız 1862-1881-ci illərdə Qafqaz canişini olmuş Mixail Nikolaeviçin zamanında "həllini tapdı". Belə ki, 1864-cü ildə onun göstərişi ilə əvvəlki layihələrin nəzərdən keçirilməsi və yeni təkliflərin hazırlanması üçün canişinin Tiflisdəki Şurası nəzdində xüsusi komissiya yaradıldı. Uzun hazırlıq işlərindən sonra 5 aprel 1872-ci il tarixində Zaqafqaziya sünni və şiə müsəlmanlarının idarə olunması üzrə hazırlanmış "Əsasnamə"lər rəsmi şəkildə təsdiq olundu. 2 yanvar 1873-cü ildə isə Tiflisdə müvafiq Dini idarələrinin açılışı baş tutdu. Bu idarələrin yurisdiksiyası Bakı, Yelizavetpol (Gəncə), Tiflis və İrəvan quberniyalarına şamil edildi. Lakin rəhbərliyin xüsusi təlimatına əsasən Zaqafqaziya Sünni Müsəlmanları Ruhani İdarəsində Şimali Qafqazın ayrı-ayrı bölgələrindən daxil olan işlərə də baxıla bilərdi.[32]

Formalaşdırılan ştat cədvəlinə uyğun olaraq, Zaqafqaziya diyarının müsəlman ruhaniliyi iki əsas kateqoriyiya – ali və aşağı kateqoriyalara bölünürdü. Ali kateqoriyaya şeyxülislam və müfti, kazılar, şəriət məhkəmələri, axundlar (şiələrdə), əfəndilər (sünnilərdə), Cümə məscidlərinin imamları (şiələrdə imam-cümələr və sünnilərdə imam-xətiblər), müqəddəs cümə günlərində xütbə oxuyan vaizlər, həmçinin mədrəsə müdərrisləri daxil idi. Mollalar, məscid və dua evlərinin xidmətçiləri aşağı kateqoriyaya aid edilirdi.[33]

Ruhani idarələrinin yaradılmasından sonra əhalinin məscid qeydiyyatı tətbiq olundu. Məscid ruhaniləri üzərinə yeni doğulanların, ölənlərin, bağlanan nikahların və boşanmaların sayının qeydə alındığı metrik kitablar tərtib etmək vəzifəsi qoyuldu. Ruhani idarələrinin fəaliyyəti ilə bağlı illik hesabatlar Qafqaz canişinliyi Baş İdarəsinə təhvil verilir və orada cari işlərin gedişi ilə yanaşı, prixodların, məscidlərin və ruhanilərin sayı, eləcə də Zaqafqaziya quberniyalarında yaşayan müsəlmanların hər iki cinsi əhatə edən ümumi sayı haqqında məlumatlar əksini tapırdı.[34]

1880-ci illərin sonu – 1890-cı illərin əvvəllərində bəzi hakimiyyət dairələrində 1872-ci il "Əsasnaməsi"nə yenidən baxılması məsələsi qaldırıldı. Lakin Baş idarənin dəftərxanası müsəlman təbəələri üzərində əvvəlki idarə və nəzarət formalarını qoruyub saxlamağı üstün tutdu [35].

Beləliklə, yeni dövrün daxili və xarici reallıqlarına cavab verməyən 1872-ci il "Əsasnamə"si 1917-ci il oktyabr çevrilişinə qədər qüvvədə qaldı. Bu sənəd üzrə ruhani idarələrinin funksiyalarına quberniya məclislərinin qərarlarına verilən şikayətlərə baxılması, məscid, məktəb və digər təşkilatlar haqqında qazılar tərəfindən təqdim edilən məlumatların təftişi, müsəlman məktəbləri üçün illik hesabat və proqramların tərtibi, ali administrasiya tərəfindən Ruhani İdarələrinin müzakirəsinə

---

[32] **Кавказский Календарь (КК) на 1886 год**. Главное управление главноначальствующего гражданскою частью на Кавказе, Тифлис, 1885, с.178.
[33] **Кавказский сборник. Т.3 (35)**. Москва: Русская панорама, 2006, с.193.
[34] **Духовные правления мусульман Закавказья**…с.22.
[35] **Духовные правления мусульман Закавказья**…с.22.

çıxarılan işlərin nəzərdən keçirilməsi, ən başlıcası isə İran və Osmanlı dini mərkəzləri ilə əlaqəli olan "etibarsız" din xadimləri üzərində nəzarətin gücləndirilməsi daxil idi. "Əsasnamə" üzrə müsəlman ruhaniliyi yalnız Rusiya hakimiyyət orqanlarına tabe olurdu. Qafqaz canişininin xüsusi icazəsi olmadan, onlara xarici ölkələrin dini rəhbərlərinə və hökumət başçılarına hər hansı bir məsələ ilə bağlı müraciət etmək qadağan edilirdi. Belə bir hal baş verdikdə, həmin şəxslər dərhal yerli mülkü hakimiyyət orqanlarına məlumat verməli idilər; əks halda, 1866-cı il cinayət qanununun 257-ci maddəsi ilə cəzalandırılacaqları bildirilirdi. Bundan əlavə, müsəlmanlar arasında zərərli və hakimiyyət tərəfindən qəbuledilməz sayılan nəşrlər və təlimlər, yaxud "təhlükəli" niyyətlər aşkar etdikdə, hər bir müsəlman bu barədə yerli hakimiyyət orqanına məlumat verməyə borclu idi. İndiki halda söhbət 1870-1880-ci illərdə Qafqazda geniş yayılan və Bakı və Tiflis quberniyalarını da bürümüş müridizm ideyalarından gedirdi.[36]

1872-ci il "Əsasnamə"si üzrə Şeyxülislamlığın və Müftiliyin nəzdində "Öməriyə təlimi" və "Əliyə təlimi" üzrə iki məktəb təsis edildi. Həm Müfti, həm də Şeyxülislamın səlahiyyətləri artırılaraq bir çar məmuru səviyyəsinə qaldırıldı və onlara geniş imtiyazlar verildi. Onların tərtib etdikləri "Tövsiyənamə"lərə "Hakimiyyətə itaət haqqında" ayrıca bir fəsil salınmışdı və həmin fəsildə *"Padşahlar olmasaydılar, insanlar bir-birini yeyər, yeməkdən murad daima aralarında cəng və qital, narahatlıq və bir-birinin mallarını qəsb və tarac edib aparar, bir-birilərinin irs və namusuna xələl gətirər", "necə ki, dövləti-aliyə – Rusiyyə Qafqaz məmalikinə təsəlüt və təsərrüf tapmayınca (Rus dövləti Qafqazı zəbt etməyincə – T.Ş.) Qafqaz əhalisinin halı bu qərar üzrə idi*"[37] kimi çar üsul idarəsinə hörmət, xalqı mütiliyə və kor-korana itaətə dəvət edən fikirlər əksini tapırdı. Bu cür "xidmət"lərinə görə həm müftinin, həm də şeyxülislamın sinələrini çar orden və medalları bəzəyirdi.[38]

Onu da qeyd edək ki, 1917-ci ilə qədər ki, dövr ərzində Qafqaz şeyxülislamı vəzifəsini Axund Məhəmməd Əli Hüseynzadə (1823-1846), Axund Fazil İrəvani (1847-1872), Axund Əhməd Hüseynzadə (1873-1884), Axund Həsən Tahirzadə (1885-1894), Axund Əbdüssəlam Axundzadə (1895-1907), Məhəmməd Mövlazadə (1908-1908) və Axund Məhəmməd Pişnamazzadə (1909-1918) yerinə yetirmişlər.[39]

Qafqaz üzrə ilk müfti vəzifəsini isə Kazandakı müsəlman ruhaniliyinin tanınmış nümayəndəsi olmuş Tacuddin Mustafin Əfəndi (1834-1840-cı illər) həyata keçirmişdir. Lakin yerli şəraiti, *"Qafqazın spesifikasını nəzərə almadan verilən bu təyinat özünü doğrultmamış və Tacuddin Əfəndi "ev işləri" motivi ilə 1840-cı ildə Kazana geri qayıtmışdı. Bir müddət sonra o, buradan hakimiyyət nümayəndələrinə xəbər göndərərək, yenidən Qafqaza qayıda biləcəyini bəyan etmiş, bunun müqabilində Kazan müftisinin aldığı məbləğdə, yəni ildə 5 min gümüş pul məvacib və geri*

---

[36] **Духовные правления мусульман Закавказья**…с.20-21.
[37] Qədim Mustafayev. **XX əsrin əvvəllərində**...s.60-61, 66.
[38] Abdulla Əhədov. **Azərbaycanda din**... s.58.
[39] Anar Camal oğlu İsgəndərov., Adil Mövlayi. **Şeyxülislamlığın tarixi.** Bakı, Elm və təhsil, 2016, s.148-188.

*qayıtmaq üçün nəqliyyat vasitəsinin təyin edilməsini tələb etmişdi".*[40] Lakin onun bu tələbləri yerinə yetirilməmişdi.

Tacuddin Mustafindən sonra, 1917-ci ilədək Qafqaz müftisi vəzifəsini görkəmli Azərbaycan şairi Molla Vəli Vidadinin oğlu Müfti Osman Əfəndi Vəlizadə (1842-1847), Müfti Məhəmməd Əfəndi Müftizadə (1847-1880), Müfti Əbdülhəmid Əfəndizadə (1872-1880) və Müfti Hüseyn Qayıbov (Qayıbzadə) (1883-1917) icra etmişlər.

Lakin burada bir maraqlı və mübahisəli nüans ortaya çıxır: ola bilsin ki, Məhəmməd Əfəndi Müftizadənin müfti kimi fəaliyyət illəri 1847-1880-ci illəri deyil, 1857-1880-ci illəri əhatə etmişdir. Çünki arxiv materialları üzərindən araşdırma aparan etnoloq İ.Umudlunun yazdıqlarından görünür ki, 1847-1857-ci illərdə Cənubi Qafqazda müfti vəzifəsini Müfti Mustafa Əfəndi Bayram Əfəndi oğlu Borçalı adında başqa bir görkəmli din xadimi yerinə yetirmişdir.[41] Məsələ ilə bağlı heç bir digər mənbə və ədəbiyyatda məlumatın olmadığını da nəzərə alaraq, hesab edirik ki, din tariximizlə bağlı bu vacib məqamın daha ətraflı araşdırılmasına və aydınlaşdırılmasına ehtiyac vardır.

***Nəticə***

Beləliklə, deyilənlərdən belə bir nəticəyə gəlmək olur ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində Cənubi Qafqazın İslam ruhaniliyi ilə çarizm arasında ilk baxışda "konsensus – anlaşma" kimi görünən bir münasibətlər sistemi yaranmışdı. Çarizm "özünəməxsus" qərarları ilə ruhaniliyin ali təbəqəsini dövlət aparatının ən imtiyazlı təbəqəsinə çevirə bilmişdi. Təkcə onu demək kifayətdir ki, XX əsrin əvvəllərində Şamaxı və Gəncə qəzalarından başqa, Azərbaycanın digər bölgələrində məscid və ruhanilərə məxsus 15.820 desyatin vəqf torpağı mövcud olmuş və bu torpaqlardan gəlir vergisi alınmamışdır.[42] Buna baxmayaraq, müstəmləkə rejimi şəraitində müsəlman ruhaniliyinin statusu və funksiyaları həddən artıq məhdud idi və davamlı maliyyələşmə sisteminə malik deyildi. Yerlərdəki vəziyyətə effektli nəzarət mexanizmi yox idi və bu səbəbdən yarandığı gündən onların fəaliyyəti cəmiyyətdə ən çox müzakirə olunan mövzulardan birinə çevrilmişdi.

Digər tərəfdən, çarizm Cənubi Qafqazın müsəlman əhalisi üçün ayrı-ayrılıqda iki ruhani idarəsi yaratmaqla, əslində islamı parçalamağa, müsəlman əhalinin təsir dairəsini zəiflətməyə, aralarına ədavət toxumu səpməyə, özünün etnokofessional siyasətini mərkəzləşdirməyə və müsəlmanların dini-mənəvi həyatını tam olaraq öz nəzarəti altına almağa çalışırdı. Lakin, bütün bunlara rəğmən, çar hakimiyyəti orqanlarının özlərinin də etiraf etdiyi kimi, Qafqazı və o cümlədən, Azərbaycanı "xristian qardaşlığının" hakim olduğu bir imperiya ucqarına çevirmək mümkün olmadı. Belə ki, islama və müsəlmanlara qarşı yönəlmiş inzibati və cəza tədbirləri heç

[40] Николай Александрович Смирнов. **Мюридизм на Кавказе.** Москва, Изд. АН СССР, 1963, с.93-94.

[41] İsmayıl Umudlu. **Tiflis quberniyasının Borçalı və Tiflis qəzaları üzrə ağalıq (bəylik) soylarının şəcərəsinə dair.** Qafqazşünaslığın aktual problemləri. Məqalələr toplusu. Bakı, Aspoliqraf, 2023, s.255.

[42] Qədim Mustafayev. **XX əsrin əvvəllərində**.....s.63.

də həmişə gözlənilən nəticələri vermir və bir çox hallarda ciddi etirazlarla qarşılanırdı. Müxtəlif formalarda, o cümlədən, silahlı müqavimət formasında həyata keçirilən həmin etirazlar bəzən çarizmi özünün dini diskriminasiya siyasətinə yenidən baxmağa, müəyyən yumşaltmalara və hətta geri çəkilmələrə getməsinə səbəb olurdu. Təsadüfi deyil ki, artıq yalnız total xristianlaşdırma siyasətinin əleyhdarları deyil, bu siyasətin ən qatı tərəfdarları belə, imperiya ərazisində yaşayan xalqların vahid hüquqi və mədəni-ideoloji məkanda birləşdirmə səylərinin mənasız və perspektivsiz olduğuna inanmağa başlamışdılar.

ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Hüseynli Rəsul. **Azərbaycan ruhaniliyi (Xanlıqlar çağından Sovet işğalınadək olan dövrdə).** Bakı, Kür, 2002, 266 c.
2. Əhədov Abdulla. **Azərbaycanda din və dini təsisatlar**. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1991, 200 s.
3. Əliyeva İradə. **İngiloylar: zorakı xristianlaşdırmaya qarşı mübarizə tarixindən**. Bakı, 2019, 368 s.
4. İsgəndərov Anar, Mövlayi Adil. **Şeyxülislamlığın tarixi.** Bakı, "Elm və təhsil", 2016.
5. Mustafayev Qədim. **XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi.** Bakı, "Maarif", 1973, 296 s.
6. Orucov Hidayət. **Azərbaycanda din (ən qədim zamandan bu günədək).** Bakı, "İdrak", 2012, 388 s.
7. Umudlu İsmayıl. **Tiflis quberniyasının Borçalı və Tiflis qəzaları üzrə ağalıq (bəylik) soylarının şəcərəsinə dair.** Qafqazşünaslığın aktual problemləri. Məqalələr toplusu. Bakı, "Apoliqraf", 2023, s.234-262.
8. **Акты, собранные Кавказской археографической комиссией (АКАК).** Том II. Тифлис, Тип. Главного Управления Наместника Кавказского, 1868 г., 1238 с.
9. **АКАК,** т.VI, ч1, Тифлис, Тип. Главного Управления Наместника Кавказского, 1874, 957 с.
10. **АКАК**. т.VII, Тифлис, Тип. Главного Управления Наместника Кавказского, 1878, 1011 с.
11. **АКАК,** т.VIII, Тифлис, Тип. Главного Управления Наместника Кавказского, 1881, 1033 с.
12. Арапов Дмитрий Юрьевич. **Ермоловская молитва за царя 1820 г. Северный Кавказ в составе Российской империи** (Отв. ред. В.О.Бобровников, И.Л.Бабич). Москва: Новое литературное обозрение, 2007, с.370-373.
13. Баберовски Йорг. **Враг есть везде. Сталинизм на Кавказе.** Москва, Российская политическая энциклопедия (РОССПЭН): Фонд «Президентский центр Б.Н.Ельцина», 2010, 855 с.
14. Волхонский Михаил Алексеевич. **Общество восстановления православного христианства на Кавказе: между миссионерством и цивилизаторством (1860-1885).** Российская история. №6, 2019, с.105-126.

15. Дубровин Николай Федорович. **История войны и владычества русских на Кавказе. Очерк Кавказа и народов его населяющих.** Том 1, кн.2. Закавказья. СПб., 1871, 423 с.
16. **Духовные правления мусульман Закавказья в Российской империи (XIX – начало XX в.)** (сост., авт. предисл. и примеч. А.А.Ганич). Москва: Изд. дом Марджани, 2013, 496 с.
17. Житенев Тимофей, Евгеньевич. **Ислам в России: вехи истории. Вестник Волжского университета им. В.Н.Татищева**. 2010, №4, с.35-42.
18. **Ислам в Российской империи (законодательные акты, описания, статистика).** Составитель и автор вводной статьи Дмитрий Юрьевич Арапов. Москва, ИКЦ Академкнига, 2001, с.62-65.
19. **Кавказский календарь (КК) на 1886 год.** Тифлис, Гл.упр. Кавказ. Наместника, 1885, 236 с.
20. Кавказский сборник. Т.3 (35). Москва: Русская панорама, 2006, 384 с.
21. **Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг.** XIX в. Ч.II. Москва-Ленинград: Изд-во Академии наук СССР, 1937, 478 с.
22. Кудрявцев Александр. **Исламофобия в постсоветской России.** Ислам в СНГ. Москва, ИВ РАН, 1998, с.160-171.
23. **Обозрение исторических сведений о Своде законов Российской империи.** Изд.2. СПб.: Типография 2 Отделения Собственной Е.И.В. Канцелярии, 1837.
24. **Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях: произведенное и изданное по высочайшему соизволению (ОРВЗК).** Ч.3. СПб.: Тип. Департамента внеш. торговли, 1836, 204 с.
25. **Первая всеобщая перепись населения Российской империи, 1897 г.** Под ред. Н.А.Тройницкого. СПб., 1905, с.3
26. Смирнов Николай Александрович. **Мюридизм на Кавказе.** Москва, Изд. АН СССР, 1963, 236 с.
27. **Толковый сокрашенный молитвенник или собрание употребительнейщих молитв и песнопений (составитель свящ. И.Бухарев).** Москва, Типо-Лит. О.И.Лашкевич и К.Тверская, 1896, 231 с.
28. Трегубов Александр Лаврентьевич. **Переселенческое дело в Семипалатинской и Семиреченской областях.** Впечатления и заметки по поездке летом 1909 г. Вопросы колонизации. 1910, №6, с.104-172.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR

Şahbazov Tahir Seyidəli oğlu – tarix üzrə fəlsəfə doktoru, dosent. AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. Azərbaycan, Bakı

Shahbazov Tahir Seyidali – Doctor of Philosophy in history, associate professor. A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.167-175*

**UOT: 39**

# MÜASİR AZƏRBAYCAN QADININN İCTİMAİ MÖVQEYİNƏ DAİR

©2025

NƏRGİZ QULİYEVA*

AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ORCİD: 0009-0000-4538-5432; nergiz1957@rambler.ru

***Xülasə:*** *Azərbaycan qadını əsrlər boyu Azərbaycan xalqının yaranmasında, formalaşmasında əsas sima olmuşdur. Qadın ilk növbədə ailə ocağının qoruyucusudur. Nəciblik, fədakarlıq, qayğıkeşlik, mətinlik və digər keyfiyyətlər Azərbaycan qadınına xas xüsusiyyətdir. Tarixin bütün dövrlərində Azərbaycanda qadınlar kişilərlə bərabər ailədə, iqtisadiyyatda, ictimai həyatda, təhsildə birlikdə olmuşlar. ADR hökuməti 1918-ci ildə qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. 1921-ci il Azərbaycanda qadınların ilk qurultayı olmuşdur.*

*2023-cü ildə Azərbaycanda 5039,6 nəfər qadın yaşayırdı. Onların 1971,3 min nəfəri əmək qabiliyyətlilər idi. Həyatın yaradıcısı, insan nəslini davam etdirən anaların həyatının hər anı ev-ailə-uşaq-əmək prosesləri ilə səciyyəvidir.*

***Açar sözlər:*** *Azərbaycan qadını, ailə, əmək, təhsil, mövqe*

# ON THE SOCIAL STATUS OF THE MODERN AZERBAIJANI WOMAN

©2025

NARGIZ GULIYEVA*

*A.A.Bakikhanov Institute of History and Ethnology of ANAS
ORCID: 0009-0000-4538-5432; e-mail: nergiz1957@rambler. ru

***Abstract:*** *For centuries, Azerbaijani women have been the main figures in the creation and development of the Azerbaijani people. A woman is, first of all, a defender of the family hearth. Nobility, selflessness, courage, composure and other qualities are characteristic of Azerbaijani women.*

*In all periods of history, women in Azerbaijan have been together with men in the family, economy, public life and education. In 1918, the GDR government granted women the right to participate in elections. In 1921, the first congress of women in Azerbaijan was held. In 2023, 5039,6 women lived in Azerbaijan. Of these, 1971.3 thousand were people of working age. Every moment of life of mothers, who are the creators of life and continuers of the human race, is characterized by home-family-child-labor processes.*

***Keywords:*** *Azerbaijani women, family, work, education, position*

# ОБ ОБЩЕСТВЕННОМ ПОЛОЖЕНИИ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ЖЕНЩИНЫ

©2025

НАРГИЗ ГУЛИЕВА*

*Институт Истории и Этнологии НАНА имени А.А.Бакиханова
ORCID: 0009-0000-4538-5432; e-mail: nergiz1957@rambler. ru

***Резюме:*** *Азербайджанская женщина на протяжении веков была главной фигурой в создании и становлении азербайджанского народа. Женщина – это прежде всего защитница семейного очага. Благородство, самоотверженность, храбрость, хладнокровие и другие качества свойственны азербайджанской женщине.*

*Во все периоды истории женщины Азербайджана были вместе с мужчинами в семье, экономике, общественной жизни и образовании. В 1918 году правительство ГДР предоставило женщинам право участвовать в выборах. В 1921 году состоялся первый съезд женщин Азербайджана. В 2023 году в Азербайджане проживало 5039,6 женщин. Из них 1971,3 тыс. были людьми трудоспособного возраста.*

*Каждый момент жизни матерей, являющихся творцами жизни и продолжателями рода человеческого, характеризуется дома-семейно-детско-трудовыми процессами.*

***Ключевые слова:*** *Азербайджанская женщина, семья, труд, образование, должность*

## *Giriş*

Azərbaycan xalqının yaranmasında, formalaşmasında Azərbaycan qadını əsrlər boyu əsas sima olmuşdur. Şərqlə, Qərb, Avropa ilə Asiya arasında yerləşən Azərbaycanda qadınlarımız qəhrəmanlıq, analıq təcəssümü kimi tanınmışlar. Azərbaycanda qadınlara hörmət qədimdən mövcud olmuşdur. Arxeoloji qazıntılar zamanı tapılan kiçik qadın heykəlləri də fikrimizi təsdiq edir. Arxeoloq İ.Nərimanovun Şomutəpə yaşayış məskənindən aşkar etdiyi eneolit dövrünə aid qadın heykəlcikləri bu baxımdan maraq doğurur.[1]

Azərbaycanda qadın ilk növbədə ailə ocağının qoruyucusudur. Nəciblik, xeyirxahlıq, fədakarlıq, mətinlik, qayğıkeşlik, insanpərvərlik kimi keyfiyyətlər Azərbaycan qadınına xas xüsusiyyətdir. Azərbaycan qadını XV əsrdə diplomatik danışıqlar aparan Sara xatundur. O dövləti idarə edə bilirdi.

---

[1] Идеал Нариманов. Древняя земледельческая культура Закавказья. **Доклады и сообщения археология СССР. международная конференция доисторию проис. тор.** Москва, 1966, с.121-126.

***Azərbaycan qadınları barədə***

Azərbaycan milli özünüdərkinin hər mərhələsi ön plana unikal, istedadlı xanımların çıxması ilə xarakterizə olunur. Bakıda 1901-ci ildə qızlar üçün ilk dünyəvi məktəb açılır. Məşhur mesenat Hacı Zeynalabdin Tağıyev, digər neft maqnatları bu məktəbin himayədarları olurlar. Müasirləri Tağıyevə sual verəndə ki, niyə məhz qızlar məktəbi, niyə o məhz bu problemə belə böyük diqqət ayırır, o cavab verirdi ki, təhsilli qızlar sonradan təhsilli anaya çevrilir. Və məhz təhsilli ana öz övladlarına öyrədə, təhsil verə, istiqamətləndirə, inkişafına stimul verə bilər. Bu güclü inkişafın, belə pozitiv tendensiyaların sayəsində nəinki varlı, həm də kasıb ailələrdən olan qızlar dünyəvi təhsil almağa başlayır.

Azərbaycan Demokratik Respublikası, ADR hökuməti də 1918-ci ildə hələ Şərq aləmi deyil, bir sıra Avropa ölkələrindən də erkən, ilk dəfə olaraq qadınların seçkilərdə iştirakını təmin etməklə bəşər tarixində demokratiyaya və insan hüquqlarına ilk addım atan dövlətlərdən olmuşdur. Azərbaycan maarifçilərinin qaldırdıqları əsas problemlər arasında insan hüquqları, xüsusilə qadın azadlığı məsələsi mühüm yer tutmuşdur. Azərbaycan maarifçiləri Qərb maarifçilərindən fərqli olaraq qadının varlığı məsələsinə çox mütərəqqi mövqedən yanaşmışlar.

Orta əsrlərdə Azərbaycan hökmdarlarından Qızıl Arslanın arvadı Qətibə xanım, Özbək xanın arvadı Mehrican xanım, Uzun Həsənin anası Sara xatun, Şah İsmayıl Xətainin qızı Məhinbanu Sultan, Şirvanşah Xəlilullanın arvadı Pəri xanım, Şah Abbasın anası Xeyransa bəyim, əfsanəvi Tuti Bikə və başqaları kimi görkəmli siyasi və dövlət xadimləri ölkənin tarixində böyük iz qoymuşdur Azərbaycanda ilk qadın xeyriyyə cəmiyyəti 1908-ci ildə yaranıb və bu qadın təşkilatının yaradılmasının təşəbbüsçüsü Azərbaycanın ictimai xadimi Həsən bəy Zərdabinin xanımı Hənifə Məlikova olub. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi İstiqlal Bəyannaməsi bərabərhüquqluluq prinsipini, seçmək və seçilmək hüququnu təsbit etdi. Bunun, nəticəsində Azərbaycan Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk ölkə oldu.

Sovet hakimiyyəti illərində də Azərbaycan qadını çox mürəkkəb və şərəfli yol keçmişdir. Qadınlar arasında savadsızlığın ləğvi, qadınların müəllim, həkim, mühəndis və sair peşələrə yiyələnərək cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olması, öz istedad və bacarıqlarını gerçəkləşdirə bilməsi həmin dövrün başlıca nailiyyətləridir. 1921-ci il Azərbaycan tarixinə qadınların ilk qurultayı ili kimi daxil olmuşdur. Nəriman Nərimanovun məruzə ilə çıxış etdiyi bu qurultayın əsas qayəsini qadın azadlığı ideyaları təşkil etdi. Qurultaydan keçən qısa bir müddət ərzində Azərbaycan qadınlarının maariflənməsi, ictimai fəallığının artırılması sahəsində böyük işlər həyata keçirildi. 1921-ci ildə qızlar üçün təşkil olunmuş məktəbəqədər tərbiyə institutu bir il sonra Ali qadın pedaqoji institutuna çevrildi. Ceyran Bayramovanın təşəbbüsü ilə yaradılmış ilk qadın klubu bu dövrdə qadın hərəkatının inkişafında mühüm rol oynadı.[2]

---

[2] **Azərbaycan qadını müasir cəmiyyətin inkişafına əvəzsiz töhfələr verir**. Bakı, 6 fevral, 06.02.2018 [11:00] Azərtac. https:// azertag.az/ xeber/ azerbaycan_ qadini_ muasir_ cemiyyetin_ inkisafina_evezsiz_tohfeler_verir-1134385

XX əsrin 30-cu illərində ölkədə aparılan quruculuq işləri, 1941-1945-ci illərdə isə SSRİ-nin cəlb edildiyi ikinci dünya müharibəsi Azərbaycan qadınının əməyə daha geniş cəlb edilməsinə təkan verdi. Dinc quruculuq işlərində kişilərlə çiyin-çiyinə çalışan qadınlarımız müharibə dövründə də bir çox istehsalat sahələrində cəbhəyə gedən kişiləri layiqincə əvəz etdilər. Onlar həmçinin, müharibə meydanlarında misilsiz qəhrəmanlıq nümunələri və rəşadət göstərdilər. Müharibə Leyla Məmmədbəyova, Züleyxa Seyidməmmədova, Sona Nuriyeva kimi cəsur təyyarəçilər, Şövkət Səlimova kimi qadın gəmi kapitanı yetişdirdi.

Sovet hakimiyyəti illərində Azərbaycan qadınlarının Bakıda daha üç – II, III və IV qurultayları (28-29 mart 1957-ci il; 20-22 oktyabr 1967-ci il; 15-16 iyun 1972-ci il) keçirilmişdi. Bu qurultaylar Azərbaycanda qadın hərəkatının inkişafında və daha mütəşəkkil forma almasında mühüm rol oynamışdı. Qadınların içərisindən partiya, dövlət, komsomol, təsərrüfat işlərində fəal çalışan bir çox qadınlarla yanaşı, respublikanın ictimai və mədəni həyatında fəal iştirak edən minlərlə qadın yetişdi. Qadınlarımızın sırasında çox sayda görkəmli həkim, müəllim, mühəndis, ictimai xadim, deputat, əmək qəhrəmanı, alim, müğənni, şair, artist və s. şəxslər var idi ki, onlar doğma respublikanı təkcə keçmiş SSRİ məkanında deyil, həm də bütün dünyada ləyaqətlə təmsil edirdilər.

Müstəqilliyini qazandığı illərdə ölkədə 20-dən çox müstəqil qadın təşkilatı fəaliyyət göstərirdi. Bu qurumların fəaliyyəti sülhün tezliklə əldə edilməsinə, qadın hüquqlarının müdafiəsinə, onların iqtisadi quruculuğa geniş cəlb olunmasına, ailə və uşaqların qorunmasına, qadınlar üçün yeni iş yerlərinin açılmasına, ictimai-siyasi həyatda qadınların fəal iştirakına, ailənin hifz edilməsinə, Qarabağ müharibəsindən əziyyət çəkmiş qadın və uşaqlara lazımi köməklik göstərilməsinə yönəldilmişdi.[3]

XX əsrin 90-cı illərində ölkənin ictimai-siyasi həyatında fəal rol oynayan "Sevil" Qadınlar Məclisi, Neftçi Qadınlar Cəmiyyəti, Bakı Qadınlar Assosiasiyası, "Qadın və İnkişaf" Mərkəzi, D.Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti və digərləri ilə yanaşı, yeni qadın təşkilatları da yaranmaqda və öz fəaliyyət dairələrini genişləndirməkdə idi.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratdı. Konstitusiyanın "Əsas hüquqlar, azadlıqlar və vəzifələr" adlanan ikinci bölməsinin üçüncü fəslində ("Əsas insan və vətəndaş hüquqları və azadlıqları") 25-ci maddədə oxuyuruq: "Kişi ilə qadının eyni hüquq və azadlıqları vardır".

XX əsrdə Azərbaycan qadınları ictimai, iqtisadi mənəvi həyatın bütün sahələrində kişilərlə birlikdə bərabər hüquqlar qazandılar. Azərbaycan dövlətinin müstəqilliyini bəyan etmiş Konstitusiya aktı 1991-ci ilin 18 oktyabrında qəbul edilmiş 200-ə yaxın beynəlxalq Paktlara Konvensiya və xartiyalara qoşulmuşdur. Ölkədə qadınların inkişafı üçün güclü baza formalaşmışdır. Azərbaycanın əsas qanunu olan konstitusiya, "Gender (kişi və qadın) bərabərliyi və "Məişət zorakılığı haqqında

[3] Nərgiz Quliyeva. **Müstəqillik illəri Azərbaycan ailəsi**. Bakı, "Elm", 2006, s.44.

qanunlar, Yoxsulluğun azaldılması, Regionların sosial iqtisadi inkişafı, məşğulluq, təhsil, səhiyyə istiqamətində qəbul olunan dövlət proqramları və milli fəaliyyət planları, büdcədən gender problemlərinin həlli üçün xüsusi vəsaitin ayrılması bütün tədbirlər imkan verir ki, Azərbaycan qadını sərbəst, rahat, azad yanaşmaqla bütün arzu və istəklərini həyata keçirsin.

Bu gün artıq kənd qadınının ictimai, sosial inkişafı Azərbaycan Dövlətinin və ictimaiyyətin diqqət mərkəzindədir. Kənd bələdiyyələrinin tərkibində qadınların sayı 4%-dən 26,7%-dək yüksəlmiş, onlardan 302 qadın bələdiyyə sədrləri kimi fəaliyyət göstərirlər. Bu tərkib imkan verdi ki, kənd qadını yeni sahələrdə özünü sınasın və kənd həyatının sosial simasını müasirliyə doğru dəyişdirsin. Kənd qadınının kiçik biznesə qatılması, onların təşkilatlanması və ümumilikdə Azərbaycanda qadınların sahibkarlıq fəaliyyətinin inkişaf etməsi müstəqillik dövrümüzdə yeni bir səhifədir.

Bu gün Azərbaycanda qadınlar dövlətin yaratdığı bütün imkanlardan istifadə edir, sərbəst təhsil alır, peşə səviyyəsini artırırlar. İctimai-siyasi proseslərdə fəal iştirak edir, siyasət, sahibkarlıq kimi sahələrdə geniş təmsil olunur, səhiyyədə, təhsildə, idmanda, orduda, milli təhlükəsizlik və hüquq-mühafizə orqanlarında çalışırlar. Parlamentin 125 deputatından 20-si qadındır. Elm sahəsində, təhsildə qadınlarımız öz potensiallarını tam reallaşdırmağa imkan qazanıblar. Bu gün respublikada dövlət qulluğunda çalışanlar, hakimlər, orta məktəb pedaqoqları, universitetlərin professor-müəllim heyəti, həkim, sahibkar, Olimpiya çempionları sırasında qadınlar böyük əksəriyyət təşkil edir. Ölkəmizdə qadın alimlər sırasında 3 akademik, 2 müxbir üzv, 117 elmlər doktoru, 1328 elmlər namizədləri var. Onların sayı ilbəil artır.[4]

Qadınlara münasibət, gender mədəniyyəti, demokratiyanın inkişafı ilə bağlı olduğu kimi, demokratiyanın inkişafı da gender mədəniyyəti ilə, qadın siyasətçilərin professionallığı ilə bağlıdır. Azərbaycanda müasir ailə etiketlərinin müstəqillik illərində yuxarıda qeyd etdiyimiz istiqamətləri Azərbaycan ailəsinin tarixi ənənələrinin inkişafında xüsusi mərhələdir.

Azərbaycanın müasir ailə etiketinin inkişafında ataya və anaya olan hörmət, davranış qaydaları valideynlərin isə övladlara olan münasibəti mövcud tarixi-siyasi şəraitdə dəyişməmişdir. Bu tarixi ənənələrin əhəmiyyətini saxlaması hər bir azərbaycanlı ailədən asılıdır.[5]

1995-ci ilin iyulunda Pekində keçirilən IV Ümumdünya Qadınlar Konfransına istər hazırlıq dövründə, istərsə də onun işində Azərbaycan qadın təşkilatlarının fəaliyyəti xüsusilə əlamətdar oldu. Konfransda iştirak edən Azərbaycan qadınlarının nümayəndə heyəti ümummilli məruzə hazırlayaraq Azərbaycan respublikasındakı demokratik proseslər, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış ağır vəziyyət, ərazimizin 20 faizinin erməni qəsbkarları tərəfindən işğal edilməsi, bir milyon nəfərdən çox vətəndaşımızın, o cümlədən qadınların, uşaqların, qocaların

---

[4] **Müstəqil Azərbaycan - 20 il**: dövlət ailə, qadın və uşaq siyasəti: məqalələr toplusu / M.A.Əliyeva [et al.]; red. heyəti: H.K.Hüseynova [et al.]; Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. – Bakı: Nurlar NPM, 2012. s.294

[5] **Müstəqil Azərbaycan - 20 il**: dövlət ailə, qadın və uşaq siyasəti: məqalələr toplusu; 2012. – s.394.

çadırlarda qaçqın və köçkün vəziyyətində yaşaması və sair barədə həqiqətləri dünya qadınlarının nümayəndələrinə layiqincə çatdıra bildilər.

1995-ci ildə Azərbaycanda qadın hərəkatının mütəşəkkilliyinin artmasında "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Birləşmiş Millətlər Təşkilatının 30 iyun 1995-ci il tarixli Konvensiyasına Azərbaycan Respublikasının qoşulmasının və bununla əlaqədar öz üzərinə müvafiq öhdəliklər götürməsinin də mühüm rolu oldu.[6]

XX əsrin 90-cı illərində ölkəmizdə iqtisadiyyat sahəsində çalışan qadınların sayı 1 milyon 767 min nəfər idi. Bu, iqtisadiyyatda çalışan bütün insanların təqribən yarısı deməkdir. Dövlət gündüz ümumtəhsil məktəblərində bütün müəllimlərin 69 faizini, orta ixtisas məktəblərində 64 faizini, ali məktəblərdə isə 40 faizini qadınlar təşkil edir. Ölkənin ali məktəblərində təhsil alanların 42 faizi qızlardır. Səhiyyə sahəsində çalışanların yarıdan çoxu qadınlardır. Mədəniyyət, incəsənət sahəsində qadınların mövqeyi, onların oynadığı rol hər kəsə məlumdur. 2000-ci ildə mədəniyyət sahəsində çalışan 60-dan çox qadın yüksək fəxri adlara, ordenlərə, prezident tərəfindən verilən fəxri təqaüdə layiq görülmüşdür.[7]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət qadın siyasətini inkişaf etdirmək məqsədilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazasında, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaranması barədə 6 fevral 2006-cı ildə Fərman imzaladı. Qadın problemlərini cəmiyyətin özəyi olan ailədən, gələcəyimiz olan uşaqlardan ayrı həll etmək olmaz.

Heydər Əliyev Fondunun Prezidenti, Mehriban xanım Əliyeva ölkəmizin ictimai həyatında müstəsna rol oynayan şəxsiyyət kimi qadınlarımızın hüquq və imkan bərabərliyinin genişləndirilməsi, gender balansının qorunması və daha da möhkəmləndirilməsi prosesinə layiqli töhfə verir.

Azərbaycan qadınları xalqımızın adət-ənənələrini, mədəniyyətini, elmini, intellektual potensialını yüksək səviyyədə təmsil etmişlər və bu, indi də belədir.

Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır.

İstər xalq yaradıcılığında, istərsə də yazılı ədəbiyyata öz möhürünü vurmuş mütəfəkkirlərin ədəbi fəaliyyətində Azərbaycan qadını həyat mənbəyi və müdriklik mücəssəməsi kimi vəsf olunub. Lazım gəldikdə Azərbaycan qadını düşmənə qarşı cəbhədə də böyük mətanətlə vuruşaraq rəşadətlər göstərib, qəhrəmanlıq salnaməsi yaradıb. Buna görədir ki, tariximizin hər səhifəsi qadınlarımızın müdrikliyi, fədakarlığı və qəhrəmanlığının parlaq nümunələri ilə zəngindir. Bütün zamanlarda cəmiyyətimizdə daim qadına böyük hörmət və ehtiram göstərilib, dünyaya həyat bəxş edən ana adı uca tutulub. Bu, Azərbaycan mentalitetinin, milli-mənəvi, mədəni dəyərlər sisteminin ayrılmaz və həmişəyaşar bir hissəsinə çevrilib.

Ümumiyyətlə, ulu öndər ardıcıl şəkildə aparılması, ictimai həyatın bütün sahələrində bərabər hüquqların təmin olunması sahəsində hüquqi bazanın təkmil-

---

[6] **Azərbaycan Respublikası 1991-2001.** Azərbaycan Dövlət Statistika Komitəsi. Bakı, 2001, s.264-265.

[7] Nərgiz Quliyeva və digərləri. **Azərbaycan ailəsi**. Bakı, "Elm və təhsil", 2016, s.267.

ləşdirilməsi üçün 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunub. Bu qanunların qəbul edilməsi insanların təfəkküründə yeni düşüncə tərzinin formalaşmasına təkan verərək bir çox stereotiplərin qırılmasına səbəb olub.

***Azərbaycan qadınlarının elmi və əmək fəaliyyətinə dair***

Müasir Azərbaycan qadınının ictimai fəallığının və sosial statusunun təhlili Tarixin müxtəlif dövrlərində örnək kimi qəbul edilən qadınlar olub və indi də vardır. Onlardan bir neçəsinin adlarını qeyd etmək olar: ilk qadın pedaqoq Mədinə Qiyasbəyli; ilk dramaturq Səkinə Axundzadə; həm Azərbaycanda, həm də bütün Şərqdə peşəkar musiqi təhsilini almış ilk qadın-bəstəkar Ağabacı Rzayeva; Şərqdə ilk opera yazan bəstəkar qadın Şəfiqə Axundova, ilk xanım opera müğənnisi Şövkət Məmmədova, balet sahəsində ilk qadın olan Qəmər Almaszadə, ilk peşəkar rəssam Maral Rəhmanzadə, ilk qadın heykəltəraş Zivər Məmmədova, ilk həkim-ginekoloq Ədilə Şahtaxtinskaya və digərləri.

İlk qadın akademik – Validə Tutayuq biologiya sahəsində ilk qadın elmlər doktoru, professordur. 1968-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü idi. Məhz akademiyanın həqiqi üzvü seçildikdən sonra, nəhayət, Azərbaycan elminin də qadın akademiki olub. İlk qadın nazir, xarici işlər naziri Tahirə Tahirova olub. O, həm də neft sənayesi üzrə ali təhsil alan ilk azərbaycanlı qadın-mütəxəssis idi. Azərbaycanda ilk dəfə qadınlar arasında riyaziyyat üzrə elmlər doktoru adını almaq Tamilla Nəsirovaya nəsib olub.

Müstəqillik illərində Azərbaycan qadınlarının 1998, 2003, 2008 və 2013-cü illərdə keçirilmiş qurultayları ölkədə qadın hərəkatının fəallaşmasının təsdiqidir.

Qadın ana olmaqla bərabər, eyni zamanda cəmiyyətin əsas dayaqlarından biridir. Qadın dünyaya yeni nəsillər gətirir, onu böyüdür və tərbiyə edir. Bu gün dünyaya gələn uşağı milli ruhda böyütmək, cəmiyyətə layiqli vətəndaş hazırlamaq baxımından qadınların üzərinə böyük məsuliyyət düşür. Ailə üçün ideal model bundan ibarətdir ki, qadın və kişi əl-ələ verərək öz vəzifələrini yerinə yetirsin. Ailə həmrəylik və əməkdaşlıq ocağıdır.[8]

Azərbaycan qadınları əsrlər boyu həyatın bütün sahələrində kişilərlə çiyin-çiyinə olmuşlar. Belə ki, ailə dəyərlərinin əsası ailənin qadını ilə bağlıdır. Y.V.Çəmənzəminli yazırdı: "Ana insaniyyətin məşəl aparandır".[9]

Şairə Ayalı Qulubəyova yaradıcılığa hələ 1965-ci illərdən başlamış, "Şərq qapısı" qəzetində ədəbi işçi, müxbir işləmişdir.

Ayalı Qulubəyovanın 2009-cu ildə Naxçıvan şəhəri "Əcəmi" nəşriyyatı tərəfindən çap olunan "Biz yumruğa çevrilək" adlı şeir kitabında müəllif Azərbaycanın müstəqilliyi və Qarabağ döyüşlərində fədakarlıq göstərən qəhrəmanlarımız haqqında öz sözünü deyir:

---

[8] Nərgiz Quliyeva və digərləri. **Azərbaycan ailəsi.** Bakı, "Elm və təhsil" 2016, s.16.
[9] Yusif Vəzir Çəmənzəminli. **Əsərləri**. 3-cü cild. Bakı, "Azərnəşr", 1997, s.169.

Koroğlu mərdliyi, qeyrəti burda,
Babəkin qılıncı, şöhrəti burda.
Nizami qələmi, ülfəti burda,
Oğuz qəlbi edir odlar yurdumu![10]

Azərbaycan qadını həm I, həm də II Qarabağ müharibəsinin qəhrəman iştirakçıları sırasında olmuşlar. Azərbaycanda 2023-cü ildə 5087,5 nəfər kişi, 5039,6 nəfər qadın yaşayırdı. 1990-cı ildə əmək qabiliyyətli kişilər 2001,8 min nəfər, qadınlar isə 1971,3 min nəfər idilər. 2023-cü ilin yanvar ayına olan vəziyyətinə əsasən Azərbaycanda əmək qabiliyyətli yaşda olan 15-62 yaşlı qadınlar 3445,5 min nəfər, əmək qabiliyyətli yaşdan kiçik olan 14 yaşa qədər qadınlar 1036, 4 min nəfər idilər. Qadınlarda doğulanda gözlənilən ömrün uzunluğu, yəni yaş sayı 78,4 ildir.[11] Azərbaycanın Şamaxı rayonunun materialları əsasında qeyd etmək olar ki, 2023-cü ilin əvvəlində Şamaxı rayon əhalisinin 50,8%-ni kişilər, 49,2%-ni qadına təşkil edirlər. 1000 kişiyə 969,9 nəfər qadın düşürdü. 01.01.2022-ci il üzrə əhalinin sayı 103866 nəfər idi. Onlardan 52630 nəfəri kişilər, 51236 nəfəri qadınlar idi. Qadınlardan 24127 nəfəri şəhər əhalisi, 27109 nəfəri kənd əhalisi idi.[12]

***Nəticə***

Həyatın yaradıcısı, insan nəslini davam etdirən anaların həyatının hər anı ev – ailə-uşaq-əmək prosesləri ilə səciyyəvidir. Odur ki, ailədaxili münasibətləri düzgün qurmaq, uşaqları böyütmək, onları ailə və cəmiyyət həyatına hazırlamaq, ailədə psixoloji iqlimi sabit saxlamaq sahəsində qadın əsas qüvvədir.

ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Нариманов, Идеал. **Древняя земледельческая культура Закавказья Доклады и сообщения археология СССР.** 7 Международная конференция доисторию проис. тор. Москва, 1966.
2. **Azərbaycan qadını müasir cəmiyyətin inkişafına əvəzsiz töhfələr verir.** Bakı, 6 fevral, Azərtac. Bakı, 6 fevral, 06.02.2018 [11:00] Azərtac.https://azertag.az/xeber/azerbaycan_qadini_muasir_cemiyyetin_inkisafina_evezsiz_tohfeler_verir-1134385
3. Quliyeva, Nərgiz. **Müstəqillik illəri Azərbaycan ailəsi.** Bakı, Elm, 2006.
4. **Müstəqil Azərbaycan – 20 il**: dövlət ailə, qadın və uşaq siyasəti: məqalələr toplusu / M.A.Əliyeva [et al.]; red. heyəti: H.K.Hüseynova [et al.]; Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. – Bakı: Nurlar NPM, 2012. – 504 s.
6. **Azərbaycan Respublikası 1991-2001.** Bakı, Azərbaycan Dövlət Statistika Komitəsi, 2001.

[10] Şəfiqə Davudova. **Bir yumruğa çevrilək.** "**Vedibasa**r" qəzeti, №15-16 (518-519) 01-31 avqust, 2024, s.9.
[11] **Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sənədləri.** Bakı, 2023, s.36-37.
[12] **Şamaxı rayonunun statistik göstəriciləri.** Şamaxı, Statistika İdarəsi, 2023, s.49-50.

7. Nərgiz, Quliyeva və digərləri. **Azərbaycan ailəsi.** Bakı, Elm və təhsil, 2016.
8. Çəminzəminli, Yusif Vəzir. Əsərləri. 3-cü cild. Bakı, Azərnəşr, 1997.
9. Davudova, Şəfiqə. **Bir yumruğa çevrilək.** “Vedibasar” qəzeti, №15-16 (518-519) 01-31 avqust, 2024, s.9.
10. **Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sənədləri.** Bakı, 2023.
11. **Şamaxı rayonunun statistik göstəriciləri.** Şamaxı, Statistika İdarəsi, 2023.

MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR

Quliyeva Nərgiz Məlik qızı – tarix elmləri doktoru, professor, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. Azərbaycan, Bakı

Quliyeva Nargiz Malik– doctor of historical sciences, professor, A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku

## ETNİK TARİX, ETNOGENEZ

**UOT:39**

# SUVAR TÜRKLƏRİNİN GÜNEY QAFQAZDA ETNİK MÖVCUDLUĞU (VI-XIII yüzillər )

©2025

İSMAYIL UMUDLU*

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ORCİD: 0009-0008-6920-6089; e-mail: ismail.umudlu18@gmail.com

***Xülasə:*** *Məqalədə az öyrənilmiş mövzunun – Savir Türklərinin Tiflisdən güneydə Kür çayının sol sahillərinə köçürülməsi və burada oturaq həyata keçmələrinin təfərrüatlarından bəhs olunur. Bu, onların Sasani hökmdarı I Xosrov Ənuşirəvan ilə müharibənin gedişində 562-ci il məğlubiyyətindən sonra baş vermişdir, şahın niyyətinə görə onlar burada yerli xalq qoşunu qismində sərhəd xidmətini yerinə yetirməli idilər. Lakin bunun ardınca, 576-cı ildə Bizans hərbi rəislərinin təşəbbüsü ilə Savirlər həmin vaxt onların nəzarətinə keçən sağsahil bölgəyə köçürülüb məskunlaşdırılır.*

*Daha sonra, qaynaqlarda "suvarlar ölkəsi" və ya "kafirlər ölkəsi" kimi (erkən ərəb müəlliflərində) xatırlanan bu erkən feodal mülkünün statusunu müəyyənləşdirməyə cəhd göstərilir. Onların hakim knyazlarının adları çəkilir, bu xalq barədə o çağın Bizans müəlliflərinin verdiyi etnik xarakteristikaya toxunulur, etnonim erkən ərəb coğrafiyaşünasları və Mahmud Kaşğaridə (XI yüzil) qeydə alınmış şəkildə ("suvarar") dəqiqləşdirilir.*

*Albaniyanın (Aran) etnik spektrində sanballı Savir kütləsinin mövqeyi, onların iri yaşayış məntəqələrinin adları aydınlaşdırılır. Savirlərin yeni məkanda sonrakı taleyində az önəm kəsb etməyən fakt – onların VI yüzilin sonlarında suriyalı missioner-vaiz David Qarecinin təlqini ilə ənənəvi tanrıçılıqdan xristianlığa keçidi üzərində dayanılır.*

*Eləcə də onların "köməkçi qoşun" qismində gah Bizanslıların, gah də Sasanilərin tərəfində hərbi kampaniyalarda iştirakları, onların döyüşçülərinin əsgəri keyfiyyətləri, onların hərbi-mühəndis təfəkkürünün yüksək səviyyəsi haqqında məsələyə də toxunulur. Onlara qarşı Babəkin 829-cu ildəki fəlakətli yürüşünün Suvarlar üçün dəhşətli nəticələri və moğol fəthləri dövrünün hadisələri qeyd edilir.*

***Açar sözlər:*** *Savirlər, Qazax, Hunan, Aran, Lori, Bubakar*

# ETHNIC PRESENCE OF THE SAVIR TÜRKS İN THE SOUTH CAUCASUS (6 th-13th SENTURIES)

©2025

ISMAIL UMUDLU*

*A.A.Bakikhanov Institute of History and Ethnology of ANAS
ORCİD: 0009-0008-6920-6089; e-mail: ismail.umudlu18@gmail.com

***Abstract:*** *The article refers to the details of a little-studied topic – the history of the settlement of the Savir Turks on the left bank of the river. Kura south of Tiflis, where they moved to a sedentary life. This happened after their defeat in the war with the Sassanian ruler Khosrov Anushiravan I in 562, according to whose plan the savirs were supposed to carry out border service and become in the ranks of the local military militias. However, later in 576, the Savirs, at the initiative of the Byzantine commanders, moved to the right bank, which at that time were under the control of the latter.*

*Further, an attempt is made to determine the status of this early feudal possession, which is referred to in sources as the "country of the Savirs" or "the country of the infidels" (among the Arabs).The names of their sovereign princes are given, the ethnic characteristics of this people given by Byzantine authors of that time, the most correct ethnic name of the Savirs (Sabirs), fixed by Mahmud Kashgari (10th century) and early Arab geographers as "Suvars", is specified.*

*The position of the impressive Savir mass in the ethnic spectrum of Albania (Arana), the names of their large settlements is being clarified. He dwells in detail on an important fact in the further fate of the Savirs – their transition from traditional Tengrianism to Christianity under the auspices of the Syrian missionary-preacher David of Gareja at the end of the 6th century.*

*The question of their participation in military campaigns is also raised on the side of the Byzantines, then on the side of the Sassanids as "auxiliary troops", the fighting quality of their soldiers, the high level of their military-engineering thinking. It is noted how the devastating campaign of Babek in 829 against them, and the events of the period of the Mongol conquests, turned out to be a terrible consequence for the savirs.*

***Keywords:*** *Savir's, Gazakh, Hunan, Aran, Lori, Bubakar*

# ЭТНИЧЕСКОЕ ПРИСУСТВИЕ ТЮРКОВ-САВИРОВ НА ЮЖНОМ КАВКАЗЕ (VI-XIII вв.)

©2025
ИСМАИЛ УМУДЛУ*

*Институт Истории и Этнологии им.А.А.Бакиханова НАНА
ORCİD: 0009-0008-6920-6089; e-mail: ismail.umudlu18@gmail.com

***Резюме:*** *В статье обращается к подробностям малоизученной темы – историю расселения тюрков-савиров на левобережье р. Куры южнее Тифлиса, где они перешли к оседлой жизни. Это случилось после их поражения на войне с сасанидским правителем Хосровом Анушираваном I в 562 года, по замыслу которого савиры должны были нести погранную службу и стать в рядах местных военных ополчений. Однако в дальнейшем в 576 г. савиры по инициативе византийских военачальников переселились в правобережную полосу, в то время находящихся под контролем последних.*

*Далее, предпринята попытка определить статус этой раннефеодальной владении, который упоминается в источниках как «страной савиров» или*

*«страной иноверцев» (у ранних арабских авторов). Приводится имена их владетельных князей, этническая характеристика этого народа, данными византийскими авторами того времени, уточняется наиболее правильный этнической названии савиров (сабиров), фиксированного у Махмуда Кашгари (XI век) и раннеарабских географов как «сувары».*

*Выясняется позиция внушительной савирской массы в этническом спектре Албании (Арана), имена их крупных населенных пунктов. Подробно останавливается над немаловажным фактом в дальнейшей судьбе савиров – их перехода от традиционной тенгрианство к христианству под наушением сирийского миссионера-проповедника Давида Гареджийского в конце VI века.*

*Также затрагивается вопрос об их участии на военных кампаниях то на стороне византийцев, то на стороне сасанидов в качестве «вспомогательной войск», боевой качества их воинов, высокий уровень их военно-инженерной мышлении. Отмечается, как обернулось страшным последствием для савиров опустошительный поход Бабека в 829 г. против них, и событий периода монгольских завоеваний.*

***Ключевые слова:*** *Савиры, Казах, Хунан, Аран, Лори, Бубакар*

***Giriş***

Yeni eranın VI yüzilliyindən Tiflisdən güneydəki ərazilərdə lokallaşan “Suvarlar ölkəsinin” mövcudiyyət dönəmi, statusu, etnik kimliyi, əhalinin məşğuliyyəti, başlıca yaşayış məntəqələri, baş vermiş hərbi-siyasi hadisələrin onların varlığına təsiri barədə Bizans, erkən ərəb, gürcü mənbələrində xeyli bilgilərə rast gəlinir. Suvar Türklərinin 750 ilə yaxın kompakt şəkildə yaşamış olduqları və onların etnik adı ilə tanınan ərazi Azərbaycan tarixçiliyi və tarixi etnologiyası üçün ciddi diqqət tələb edən mövzulardan biri olaraq qalmaqdadır. Bunu bir etno-coğrafi anlayış olaraq Azərbaycanın ərazisini təşkil etmiş ayrı-ayrı bölgələrin etnik və siyasi tarixinin öyrənilməsi məcrasında vacib məsələ hesab edirik.

Doğrudur, rus tarixçiliyində (A.Bernştam, M.Artamonov, L.Qumilyov, S.Pletnyova) yeni eranın ilk yüzilliklərindən Avrasiya çöllərinin, özəlliklə Quzey Qafqazın etno-siyasi durumu kontekstində Suvarların daha çox VI yüzilə qədərki statusuna, hadisələrdə iştiraklarına toxunulsa da, onların Güney Qafqazın mərkəzi coğrafiyasındakı VI yüzilindən başlanan mövcudiyyət tarixinə az diqqət yetirilmişdir. Məsələyə rus-ingilis şərqşünası Vladimir Minorski də toxunmuşdur. Suvarların VI yüzilin ikinci yarısından Tiflisdən güneydə Kürün sol və sağ sahilində kompakt şəkildə yaşamağa başladıqları faktı mənbələrə istinadla ortada ikən, onları X yüzil bizanslı müəllif Baqryanorodnıya istinadla, VIII yüzilin əvvəllərində gəlib yerləşmiş ola biləcək “macarlar” hesab etmiş, bununla da dolaşıqlıq yaratmışdır.

Milli tarixçiliyimizə gəldikdə, Xəzər konfederasiyasının tərkibində yer almış Suvarların müasir Azərbaycanlıların etnogenezində iştirakları, ilk orta əsrlərdən ölkənin sakinləri olmuş etnoslar sırasında yer almaları mübahisəsiz məsələ sayılsa da (N.Vəlixanlı, Ə.Sumbatzadə, Y.Cəfərov, F.Əsədov), onların buradakı mövcudluq tarixinin yetərli dərəcədə araşdırılmadığı ilə razılaşmaq lazım gəlir. Y.Cəfərov da

hunlar və Azərbaycan məsələsini II-VI yüzillər çərçivəsində araşdırmış, sonrakı dönəmin hadisələrinə keçməmişdir.[1] Başqa sözlə, VI yüzilin ikinci yarısından başlayaraq köçəri türk toplumlarının *"xüsusi intensivliklə"*[2] Albaniya bölgələrinə nüfuz etmələri və ölkənin şimal hissəsini fasiləsiz nəzarətdə saxladıqları elmdə qəbul olunsa da, Suvarların daha sonra Güney Qafqazın mərkəzi coğrafiyasında kompakt şəkildə məskunlaşması (VI yüzilin ikinci yarısı) və ondan sonrakı (moğol yürüşlərinə qədər) məhəlli tarixlərinin kifayət qədər işlənmiş olduğunu söyləmək hələ tezdir.

Qonşu gürcü və erməni tarixçiliyində isə bu mövzu çox dərəcədə siyasiləşdirilmiş olduğundan, onlarda xristianlığa keçmiş Suvarların tarixini öz tarixlərinə bağlamağa, onun tərkib hissəsi kimi göstərməyə cəhdlərindən, bir sözlə mövzuya tendensiyalı yanaşmalarından söz edə bilərik.

***Kür sahilinə köçürülmə, onların ölkəsinin statusu, knyazları***

Demək olar bütün erkən orta yüzillər Bizans, ardınca ərəb müəllifləri fərqli qaynaqlarda adı (etnonim) *savar, savir, sabir, suvar, savaran, sabarta* formalarında yazılan bu Türk boyu barədə məlumat verirlər. Mahmud Kaşğari Suvarların Ruma (Bizans) yaxın (qonşuluqda) yerləşdiklərini, dillərinin Oğuz və Qıpçaq dilinə bənzədiyini göstərməklə, bu dildən *sözlərin sonu kəsilib qısaldılmış Türk dili*[3] deyə bəhs edir. (Yeri gəlmişkən, Qərb və rus-sovet tarix ədəbiyyatında daha çox Savir/Sabir kimi təqdim olunan bu qədim etnonimi XI yüzil müəllifi Mahmud Kaşğari və erkən ərəb müəllifləri əslinə uyğun olaraq *Suvar* deyə qeydə aldıqlarından, indiki azərbaycanlı müəlliflərin də bu etnik özünü adlandırmaya üstünlük vermələri məqsədəuyğun olardı).

VI yüzilin başlarında Qərbi Sibir çöllərindən Quzey Qafqaza sıxışdırılmış olan Suvarlar burada yenidən toparlanmağı bacarmışdılar. Bizans tarixçisi Kesariyalı Prokopi (təqr. 500-565) zamanında Suvarlar hələ Xəzər keçidindən şimaldakı torpaqlarda məskun olsalar da, artıq dağların bu tərəfindəki hərbi-siyasi hadisələrdə Qara dənizin şərqindən və Xəzər (Dərbənd) keçidindən aşmaqla iştirak etməyə başlamış, bir qismi Qəbələ ətrafı dağlıq bölgədə yerləşmişdi. Prokopi 530-cu il hadisələrində Suvarlar, Hunlar və Massagetləri eyni gözdə görür və onlardan *Savir deyilən hunlar* deyə bəhs edərkən[4] onu da qeyd edir ki, Qubad (498-531) və I Xosrov Ənuşirəvan (531-579) dönəmində onların Bizans ilə təmaslarında Xəzər qapılarının Hunların/Savirlərin axınlarından Bizans ilə müştərək qorunması iki dövlət arasında danışıqlarda ayrıca müzakirə predmeti olmuşdur.

Yenə Prokopidən öyrənirik ki, *Hun tayfası olan Sabirlər* Qafqaz dağlarının yaxınlığında yaşayırlar. Bu tayfa çoxsaylıdır, çoxlu müstəqil qollara bölünür. Onların

---

[1] Юсиф Джафаров. **Гунны и Азербайджан.** 1993.

[2] Fərda Əsədov. **Xəzərlər və Azərbaycan**. Bakı, "Elm və təhsil", 2018, s.98.

[3] Mahmud Kaşğari. **Divanü lüğat-ü-türk.** 4 cilddə. Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər. I cild. Bakı, "Ozan", 2006, s.105.

[4] Прокопий Кесарийский. **Война с персами**. **Война с вандалами. Тайная история.** Москва, Из-во «Наука», 1993, s.46, 168 s.

başçılarından bəziləri qədimdən bəri Roma (Bizans) imperatoru, digərləri Pers padşahları ilə dostluq işlədirlər.[5]

I Xosrov Ənuşirəvanın (531-579) Quzey Qafqazda Suvar konfederasiyası üzərindəki hərbi qələbəsinin 562-ci ildə baş verdiyi göstərilirsə,[6] deməli, həmin vaxtlar Qəbələ ətrafında yaşamaqda olan Suvarların Xəzər (Dərbənd) keçidinə yaxın bölgədən uzaqlaşdırılaraq Tiflisdən güneyə doğru yerləşdirilməsi təqribən 562-ci ildə və ya ondan az sonra olmuşdur. Qafqaz dağlarından quzeydə qalan Suvarlar isə 568-ci ildə Avar türkləri tərəfindən məğlub ediləndən sonra zəif duruma düşmüşdülər.[7]

Suvarların Güney Qafqazda köçürüldüyü bu bölgə Sasanilərdən vassal asılılığında olan Albaniya dövlətinin mövcudiyyət dönəmində Qarayazı çölünü də əhatə etməklə Kürün sol sahili Alazan çayına qədər Kambisen/Kabisena/Kambeçan, David Baqrationidə Kambeçovani[8] adlanır və ölkənin İveriya ilə həmsərhəd vilayəti idi. Yəni onlar İveriya deyil, Albaniya (Aran) hüdudlarına köçürülmüş sayılmalıdır.

### *Köçürülmənin etnik spektrə təsiri*

Bəzi mənbələrdə Tiflisdən güneydə Kürün sol sahili boyunca yerləşdirilmiş olan Suvar Türklərinin 4 tayfaya mənsub olmaqla 50 minə yaxın olduğu deyilir, digərlərində 10 min rəqəmi göstərilir. V yüzildə Albaniya əhalisinin ümumi sayının 200 mindən çox olmadığı (əgər ölkə 30 min əsgər çıxara bilir və qoşun əhali sayının 20 %-ni təşkil edirsə) bir halda[9] bu qədər Suvar köçkünü təbii ki, ölkə üçün əhəmiyyətli əhali kütləsi demək idi. Rəqəmlə ifadə olunsa, onlar ümumi əhalinin təqribən dörddə birini təşkil etdiyini düşünmək olar. Suvarların burada oturaq həyat tərzi keçirmələri təmin olunmuşdu və onları öz hərbi başçıları idarə edirdilər.

Suvarların Kürün sol sahilindən sağ sahilinə – Bizansın nəzarətindəki əraziyə köçürülməsi Artamonova görə (Menandra isnadla) 575-ci ildə, yəni Bizans ilə Qərbi Türk Xaqanlığı arasında savaşın başlandığı (576-cı il) ərəfədə baş verib.[10] Ziya Bünyadov 586-cı il tarixçəsini göstərir.[11] Deməli, sol sahilə köçürülmədən hardasa 12-14 il sonra Suvarların yaşam arealının sağsahil ərazilər hesabına genişlənməsi baş verir. Solsahildən fərqli olaraq, sağsahil əkinçilik üçün daha geniş imkanlara sahib idi, eyni zamanda dağlıq alp çəmənlikləri hesabına köçmə maldarlıq üçün daha əlverişli şəraiti təmin edirdi. Düşünmək olar ki, sağ sahilə köçürülmə sol sahildən imtina demək deyildi.

---

[5] Прокопий Кесарийский. **История войны с готами**. Из-во Академии наук СССР. Москва, 1950, s.407; Алисохбат Сумбатзаде. **Азербайджанцы – этногенез и формирование народа.** Баку: Элм. 1990, s.83.

[6] Светлана Плетнева. **Хазары.** Москва: Наука, 1986, s.78.

[7] Алисохбат Сумбатзаде. **Азербайджанцы – этногенез и формирование народа.** Баку: Элм. 1990, s.83.

[8] Давид Багратиони. **История Грузии.** Тбилиси: Мецниереба, 1971, § 3.

[9] Fərda Əsədov. **Xəzərlər və Azərbaycan.** Bakı, Elm və təhsil, 2018, s.97.

[10] Михаил Артамонов. **История хазар.** Издание второе. СПб: 2002, s.146.

[11] Зия Буниатов. **Избранные сочинения в трех томах. Азербайджан в VII-IX вв.** Том I. Баку: Элм, 1999.

Gürcü tarixçiləri sağ sahil bölgəyə "savirlərin və albanların" birlikdə köçürüldüyünü qeyd edir, üçüncü bir etnik toplumun adı çəkilmir, bundan belə nəticə çıxır ki, Suvarlar Albanlarla iç-içə yaşayırmışlar və sağ sahil ərazilərə də birlikdə köçürülmüşlər. Bu iç-içə yaşayış eyni zamanda onların arasında lokal miqyasda etnoslararası qaynayıb-qarışma prosesinin başlandığını söyləməyə əsas verir. Bu əsnada Suvarların xristianlığa keçidi belə bir konsolidasiyaya əlverişli şərait yaratmışdır.

Gürcü kilsə tarixinə aid "Müqəddəs Davidin həyatı"nda (bu suriyalı missioner 604-cü ildə vəfat edib) adı çəkilən, VI yüzilin ikinci yarısında yaşamış el başçısı Bubakar/Babakər (bəlkə də – Baybakar) Tiflisdən güneyə Kürün sağ və sol sahil torpaqlarının hakimidir.[12] Əgər belə olmasaydı, bu "barbar" Qarayazının Kürün sol sahilindən təqribən 30 km-lik məsafədə olan dağlıq bölgəsində ov etməyi özünə rəva görməzdi. Görünür, Suvarların yaxşı bələd olduqları hər iki sahilyanı vadi onların vahid iqtisadi-təsərrüfatçılıq məkanı olaraq qalmışdır. Bu vəziyyətin dəyişməz olaraq bu şəkildə qaldığı sonrakı bütün tarixi qaynaqlarda izlənir.

Üç yüz il sonra – X yüzildə də Suvarlar bu bölgədə dominant əhali kütləsi olaraq qalır – bölgə onların ölkəsi kimi tanınırdı. Məsələn, ərəbdilli müəlliflərdən əl-Məsudi (?– 956) Kür çayının Tiflisdən sonra "Siyavurdiya ölkəsindən" keçərək Bərdədən 8 mil aralıdan axdığını[13] yazır. Yəni Suvarların Ölkəsi Cürzan (Gürcüstan) deyil, ona qonşu olan ayrıca ölkədir. Əl-İstəxri (X yüzil) onların iri yaşayış məntəqəsi və inzibati mərkəzi olan Hunanı o çağın məlum şəhərləri Şəki, Cənzə, Şəmkür (şəhərin adına orta əsr qaynaqlarında bu şəkildə rast gəlinir) ilə bir *sırada "böyüklükdə bir-birinə bənzəyən kiçik şəhərlər", "münbit torpaqlı", "hər şeyi bol olan yerlər"* adlandırır.[14] O, Kür çayından bəhs edərkən qeyd edir ki, bu çay Tiflisdən keçərək *"kafirlərin* (yəni xristian Suvarların) *ölkəsinə daxil olur*".[15]

Ən azı X-XII yüzillərdə bu xristian ölkəsinin inzibati mərkəzi olaraq haqqında söz gedən Hunan qalasının (şəhərinin) yeri ilə bağlı məsələyə gəldikdə, X yüzil müəllifi Əl-İstəxri bu məkanı dəqiqliklə göstərmişdir. Onun, Hunanın "şəhər" olduğunu, Şəmkürdən buraya 21 fərsəx, buradan Qalaya (İbn Kəndman qalası) 10 fərsəx, Qaladan Tiflisə 12 fərsəx olduğunu göstərdiyini,[16] 1 fərsəxin – 6-8 km-ə bərabərliyini əsas götürdükdə, 21 fərsəx təqribən 126-168 km-lik məsafəni əhatə edir ki, bu da Şəmkürdən başlayıb Qırmızı körpü rayonuna gəlib çıxır. Deməli, XIX yüzil gürcü tarixçisi David Baqrationinin həmin bu yerdə – İkinci Şıxlı sərhəd məntəqəsindən təqribən 10 km günbatarda Babakər dağındakı "Qız qalası" şəhərgahını (tarixçi bu yeri hansısa bir gürcü adı ilə deyil, türkcə məhz "Qız qalası" deyə qeyd edir) Hunan qala-şəhəri ilə lokallaşdırması[17] doğru qəbul olunmalıdır.

Suvarların iri yaşayış məntəqələri sırasında Hunan, Qala ibn Kəndman, Tiflis, Tavuş, Kasak, Kavazin, Lori və b. qeyd oluna bilər.

---

[12] **Житие преподобного Давида Гареджийского.** https://travelgeorgia.ru/235/
[13] Nailə Vəlixanlı. **Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər.** Bakı, "Elm və təhsil", 2016, s.251.
[14] Yenə orada, s.272.
[15] Yenə orada, s.273.
[16] Yenə orada, s.274.
[17] Давид Багратиони. **История Грузии.** Тбилиси: Мецниереба, 1971. § 11.

Knyaz Bubakar və missioner David arasında münasibətlər Kürün sol sahilində knyazın ovlağı olan Qarayazıya aid Qaltan dağında baş verir. Lakin onun iqamətgahı Kürün sağ sahilindəki vadinin günbatarındakı dağ yüksəkliyində qərar tutmuş Hunan qalası idi, bu məsələdə ona əsaslanmaq olar ki, həmin qalanın (Hunan) yerləşdiyi dağın adı coğrafi məkan olaraq indi də azacıq fonetik dəyişikliklə Babakər adlanır.

Tarixi ədəbiyyatda Savardiya, Sivurdiya, Savirlər ölkəsi, Taşır-Sevordik, "kafirlər ölkəsi" deyə anılan bu inzibati ərazidən Aranda Xaçen, Sünik, Naxçıvan kimi *müstəqil hakimlik etməyə çalışan feodal mülkləri* sırasında bəhs olunur.[18]

Lakin Suvar knyazları və onların şəcərələri barədə hələlik fraqmental bilgilərlə kifayətlənməli oluruq. Bubakar − missioner David münasibətlərində bu *hun başçısının* üç oğlunun olduğu deyilir. Bu münasibətlər Davidin vəfat etdiyi 604-cü ildən öncəyə aiddir. Aradan az keçmiş, 627-ci ildə Bizans-Persiya arasındakı müharibənin gedişində müttəfiqlər Bizans imperatoru İrakli və Xəzər ordusunun komandanı Cebqu (Yabqu) o çağda böyük ticarət şəhəri olmuş Tiflisi – hələ Gürcüstanın tərkibində olmayan bu mühüm məntəqəni mühasirəyə alanda şəhərin başçısı knyaz Stefan idi və cəsur knyaz hər gün qaladan çıxaraq müttəfiqlərə həmlələr edirdi. Bu döyüşlərin birində knyaz Stefan həlak olur.[19] Bizə görə bu knyaz Bubakarın həmin üç oğlundan biri olmalıdır. Bu məsələdə ona əsaslanmaq olar ki, aradan iki yüz ildən bir az çox müddət keçəndən sonra – Aranda Xilafətə qarşı üsyanın Buğa əl-Kəbir (Böyük Buğa) tərəfindən yatırıldığı 851-ci il hadisələrinin gedişində bu ölkənin tutulub buxovlanaraq Samarraya göndərilən əyalət knyazları sırasında Albaniya ölkəsinin mühüm şəxslərindən biri olaraq Uti əyalətinin hakimi, *Suvar knyazları soyundan gələn* və xristian adı daşıyan daha bir Stefanın adı çəkilir.[20] "Kon (kan/ xan?) adlanan Stefanın" Samarraya xəlifə Mütəvəkkilin yanına aparıldığını, digərlərindən fərqli olaraq onun orada dinindən dönmədiyi və qürbətdə əzabkeş kimi öldüyünü Gəncəli Kirakos da qeyd edir.[21]

Ticarət şəhəri Tiflis ərəblərin gəlişinədək, görünür, Suvar knyazlarının nəzarətindəki iri məntəqələrdən biri olmuşdur. Hər halda Tiflisin tarixi səmtlərindən biri yüzillərdən bəri Sabur-tala, bölgə azərbaycanlılarının dilində isə Sabır-tala adlanmaqdadır.

Bundan başqa, çar III Georginin (1156-1184) dönəmində (1177) baş verən hadisələrdə Lori qalasının inzibati mərkəz olduğu bölgədə elbəyi olan, xristian dinindəki *qıpçaq Kubasarın* (Xubasar, Hubasar) adı çəkilir. Hakimiyyət ixtilafında Kubasarın özünün 500 döyüşçüsü ilə Georginin tərəfinə keçməklə, vəziyyəti onun xeyrinə dəyişdirdiyi gürcü tarixində qeyd olunur. 1177-1184-cü illərdə Gürcüstan ordusunun baş komandanı (amirspasalar − dövlətdə üçüncü vəzifə) olmuş Kubasar *Gürcüstan çarlarına sadiq və xeyirxah cəngavər* kimi xarakterizə edilir. O, iflic olub yatağa düşdükdə çarica Tamar yalnız Lori qalasını ondan almaq və tutduğu vəzifədən səhhətinə görə azad etməklə kifayətlənərək, əmlakına toxunmamış, onu vəfat edənədək

---

[18] Nailə Vəlixanlı. **Naxçıvan ərəblərdən monqollaradək (VII-XII).** Bakı, "Elm", 2005, s.72.
[19] Lev Qumilyov. **Qədim Türklər.** Bakı, Gənclik, 1993, s.163.
[20] Зия Буниатов. **Избранные сочинения в трех томах. Азербайджан в VII-IX вв.** T.I. Баку: «Элм», 1999, s.218; **Всеобщая история Вардана Великого.** Москва: 1861. s.104.
[21] Киракос Гандзакеци. **История.** Москва: Наука, 1976, s.77.

qayğı ilə əhatə etmişdir.[22] Gürcü qaynaqları Kubasarın *Gürcüstanda tərbiyə olunduğunu* (yəni onun yeni gəlmiş qıpçaqlardan deyil, öncəki yüzillərdən burada yaşayan xristian türklərin soyundan gəldiyini) qeyd etsələr də, şəcərəsi barədə heç nə demirlər.

***Suvarların etnik xarakteristikası***

Bizans, ərəb, suryani və erməni tarixçiləri Suvarların buradakı yaşam tərzindən, etnik mənsubiyyətlərindən, Aranda məskunlaşma tarixçələrindən və dini inanclarından xəbərdar idilər.

Prokopinin Bizansın qonşuluğundakı Hunları və Savirləri eyni xalq saymasını düzgün fikir kimi qəbul etmək lazım gəlir. Nüfuzlu rus türkoloğu Lev Qumilyovun da hunların dilinin teles (yəni uyğur) dili ilə yaxın olduğunu birmənalı şəkildə qəbul etdiyi[23] nəzərə alınsa, onlar ən azından yaxın dialektlərdə danışan xalq idilər.

XI əsr gürcü tarixçisi Leonti Mroveli: *Bizim ölkəmizdə altı dildə: xəzər, gürcü, yunan, suryani, erməni və yəhudi dillərində danışırlar*[24] deyə yazırsa, burada "macar" və ya "suvar dili" xatırlanmır, ayrıca "xəzər dili" (yəni birmənalı şəkildə – "türk dili") qeyd olunur. Belə nəticəyə gəlmək olar ki, Bizans tarixçiləri kimi gürcülərin də nəzərində suvar və xəzər dilləri eynidir. Xəzər dilinin (xazaruli, başqa sözlə – suvarların danışdığı dilin) digərləri ilə yanaşı burada vətəndaşlıq hüququ qazanmış olmasının tarixçəsinin VI yüzilin sonları, VII yüzilin əvvəllərindən başlamış olduğu fikri düzgün sayılmalıdır.[25]

Onların etnik xarakteristikasına toxunarkən, Aqafi Suvarları *"savaş və talan hərisi", "doğma yerlərdən uzaqlarda, yad torpaqlarda uzun müddət qalmağa alışqan", "qənimət üçün savaş və təhlükəli səfər iştirakçılarına qoşulan"*, qənimət naminə *"asanlıqla dostdan düşmənə, düşməndən dosta çevrilə bilən"* döyüşçülər kimi xarakterizə edir.[26] Prokopi də onları *"fövqəladə dərəcədə döyüşkən tayfa"* deyə səciyyələndirmişdir.[27]

X əsr müəllifi əl-İstəxri *əs-Siyavurdiya* tayfasını [*sınf*] görünür bağlı olduqları xristian məzhəbinə görə ermənilərdən sayıb, *qanun-qaydalara tabe olmayan* toplum deyə təqdim edir.[28] Minorski də əl-Məsudiyə isnadla, savirlərin *ermənilərin bir qolu* olduğu (görünür, din və məzhəb birliyini nəzərə almaqla) fikri üzərində dayanır və onların *cəsur və güclü* deyə xarakteristikasını ayrıca vurğulayır.[29]

---

[22] Картлис Цховреба. **История Грузии.** Тбилиси: Из-во Артануджи. 2008, s.256.

[23] Лев Гумилев. **Древние тюрки.** Москва, 1967, s.49.

[24] Картлис Цховреба. **История Грузии.** Тбилиси: Из-во Артануджи. 2008, s.20.

[25] Алисохбат Сумбатзаде. **Азербайджанцы – этногенез и формирование народа.** Баку: «Элм». 1990, s.91.

[26] Агафий Миринейский. **О царствовании Юстиниана.** Москва-Ленинград, Из-во АН СССР, 1953, s.117.

[27] Прокопий Кесарийский. **История войны с персами. Война с вандалами. Тайная история.** Москва, Из-во «Наука», 1993, s.46.

[28] Nailə Vəlixanlı. **Ərəb Xilafəti və Azərbaycan.** Bakı, Azərbaycan Dövlət Nəşriyyatı. 1993, s.64.

[29] Владимир Минорский. **История Ширвана и Дербента X-XI веков.** Москва: Из-во Восточной литературы. 1963, s.214.

***Xristianlığa keçid. Bubakar/Babakər***

Mahmud Kaşğarinin təsnifatındakı Türk boylarından tanrıçılıqdan xristianlığa keçən ilk toplum Güney Qafqazın mərkəzi coğrafiyasında yerləşmiş və bu ölkəyə öz adını vermiş olan Suvarlardır. Hər halda, Kürün sağ və sol sahili boyunca yerləşmiş olan Suvarların xristianlığa qəti keçidi VI yüzilin sonlarında olmuşdur. "Müqəddəs Davidin həyatı"na isnadla, Bubakar (Babakər) özü, ailəsi və başçılıq etdiyi el xristianlığa həmin missioner Davidin təşviqi ilə keçmişdir. Bu keçid 575-604-cü illər arasında baş vermişdir. Dağda (Qarayazıda) qayalığı çapmaqla, David və onun ardıcılları üçün ilk mağara-kilsəni də Bubakar inşa etdirmiş, knyaz özü bu xeyirxah işdə şəxsən çalışmışdır.[30] (Knyaz Bubakarın qayada çapdığı bu mağara-kilsə burada sonrakı çağın dini mərkəzinin təşəkkülündə ilk addım olub. Bizim günlərdə bu yerin Gürcüstan və Azərbaycan arasında mübahisə predmeti olması tarixin istehzasıdır).

Gürcü tarixi-dini qaynaqlarına isnad etsək, Qarayazıda bizim günlərə qədər qalmış dini obyektin əsasını qoyan missioner-rahib David

buraya İveriya çarı Parsmanın (542-557) zamanında öz inanclarını yaymaq üçün Suriyadan 13 nəfərlik qrupla gəlmişdir. Bu xristian missionerləri o çağda Orta Şərqdə çox yayğın, diplomatik danışıqlar dili olan Arami (suryani, assuriya) dilində – İsa Məsihin danışdığı dildə danışırdılar. Suriyalı missionerlər qrupunun 588-ci ildə Ərməniyyəyə də gəldikləri, nestorianlığı yaymağa çalışdıqları və burada özlərinə ardıcıllar tapa bildiklərini Gəncəli Kirakos da qeyd edir.[31]

Suvarların Qafqaz dağlarının şimalında qalan qismi isə xristianlığa 681-ci ildə – Bubakarın zamanından təqribən yüz il sonra Albaniyadan gəlmiş yepiskop İsrailin təşviqi ilə keçmişlər. Moisey Kalankatukluda söhbət Hunların İsa dininə keçməsindən söz gedir,[32] amma C.Pletnyova burada məhz Hun tayfa ittifaqına daxil olan Suvarların xristianlığı qəbul etdiklərini göstərir.[33] Maraqlıdır ki, yepiskop İsrail orada hunlarla (suvarlarla) danışarkən dil problemi ilə üzləşmir, moizələrində tərcüməçidən istifadə etmir, bilavasitə və asanlıqla ünsiyyətə girir. Düşünmək olar ki, bu yüksək rütbəli xristian din adamı onların soyundan idi.

Erməni qriqorian və gürcü pravoslav kilsələri arasında parçalanma Suvarların sonrakı assimilyasiyasını asanlaşdırmışdır.

***Suvarlar hərbi-siyasi hadisələrdə***

I Xosrov Ənuşirəvan onları buraya köçürərkən bu döyüşkən tayfadan Bizansla müharibədə hərbi qüvvə kimi istifadə etmək niyyətində olmuşdur. Savirlər Xosrov Ənuşirəvanın göstərişi ilə Albaniyanın şimal-qərbində, Kürün sol sahili boyunca yerləşdirildiyi ilk vaxtlarda burada sərhəd mühafizəsində xidmət etdikləri və məhəlli qoşunlarda yer tutduqları göstərilir.[34] Sağ sahilə köçürülmədən sonra Suvarların iki

---

[30] **Житие преподобного Давида Гареджийского**. https://travelgeorgia.ru/235/

[31] Киракос Гандзакеци. **История.** Москва: Наука, 1976, s.64.

[32] Моисей Каланкатукский, **История Албании**; Мхитар Гош. **Албанская летопись**. Баку: «Элм», 1993, s.160.

[33] Светлана Плетнева. **Хазары.** Москва: «Наука», 1986, s.32.

[34] Минорский Владимира Федоровича. **История Ширвана и Дербента X-XI веков.** Москва: Из-во Восточной литературы. 1963, s.214.

böyük və rəqib dövlətlər arasında hərbi-siyasi manevr imkanları artır. Bizans imperatoru və ya Sasani padşahı Suvarlardan olan öz müttəfiqlərinə *adətən bəlli məbləğdə, lakin hər il yox, buna ehtiyac olduqda, qızıl göndərirdi.*[35] Başqa sözlə, Bizans imperatoru və ya Sasani padşahı bu məbləği göndərməklə, Suvarları onun tərəfində müharibədə iştiraka çağırmış olurdu. Mirineyalı Aqafi onları *Hun Savirləri* adlandıraraq göstərir ki, Perslər və Romalıların (Bizanslılar) arasında savaş yaşananda *böyük və çoxsaylı xalq* olan barbar Savirlər *köməkçi qoşun* qismində gah bu, gah da digər tərəfdə yer alır, öz hərbi yardımını muzdla satırlar.[36]

Onların hərbi səriştələri həmin çağ üçün perslər və bizanslılar ilə rəqabət apara biləcək səviyyədə olduğunu düşünmək olar. Prokopi "barbar" Suvar hərbçilərin bizanslılara Petra şəhərinin mühasirəsi zamanı divarların dağıdılması üçün *"dünya bina olandan bəri heç kəsin, öz ordularında çoxlu sayda mühəndisin olmasına baxmayaraq nə romalıların (bizanslıların), nə perslərin ağlına gələn"* taran maşını düzəltməklə, ordu rəhbərliyini heyrətdə qoyduqlarını yazır.[37] Xilafət dönəmində dəmirçilikdə xeyli irəli getmiş Suvarlar əla qılınclar və təbərzinlər düzəldirdilər. Əl-Məsudiyə istinadən, ərəblər öz qoşun hissələrini *siyavurdi* adlandırdıqları və yüksək qiymətləndirdikləri bu təbərzinlərlə təchiz etməyə üstünlük verirdilər.[38]

Bu əsrdə Savirlərin Qara dənizin şərq sahillərindən keçməklə Bizans torpaqlarına axınlarının qarşısında lazlar dayanmış imişlər. Lazların çarı Quvaz bu arada Savirlərlə müqavilə bağlayır ki, onlara 3 kentinari qızıl veriləcək, bu pulu Bizans imperatoru Yustinian təmin edəcək, bu şərtlə ki, onlar Lazların torpaqlarına basqın etməsinlər, İveriyanı isə *çapıb talasınlar, qırıb-çatsınlar"* ki, perslərin ordusu maddi təminatsız qalsın və oradan keçib Lazika istiqamətinə yeriyə bilməsin (Pers-Bizans müharibələrinin gedişində Bizansın tərəfində olan Lazika və Kolxida Sasani ordusunun yürüşü nəticəsində çətin duruma düşmüşdü). Lakin Yustinian bu vəsaiti təmin etməkdən boyun qaçırır.[39]

Mirineyalı Aqafi Sasani ordusunun tərkibində Lazikaya savaş cəbhəsinə gəlmiş Savir köməkçi qoşun hissəsi ilə bağlı iki son dərəcə maraqlı döyüş epizodunu təsvir edir. Birincidə, öz möhkəmləndirilmiş düşərgələrində silahı yerə qoyub, zirehli geyimlərini çıxararaq qayğısız halda dincələn Savirləri qəfildən haqlayıb qırmaq niyyəti ilə gələn dilimnitlərin (Anadoluya şərqdən gəlib yerləşmiş, Deyləm mənşəli xalq, indiki zazaların ulu babaları sayılır) yaxınlaşdığından Savirlər xəbər tutur, önləyici tədbir görür və bu iki min nəfərlik qoşunu düşərgənin içində tələyə salaraq ucdantutma qırırlar. İkincidə, yenə də öz möhkəmləndirilmiş düşərgələrində silahı

---

[35] Прокопий Кесарийский. **История войны с готами.** Москва, Из-во Академии наук СССР, 1950, s.407.
[36] Агафий Миринейский. **О царствовании Юстиниана.** Москва: Из-во АН СССР. 1953, s.117.
[37] Прокопий Кесарийский. **История войны с готами.** Москва, Из-во Академии наук СССР, 1950, s.408.
[38] Nailə Vəlixanlı. **Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər.** Bakı, "Elm və təhsil", 2016, s.251.
[39] Прокопий Кесарийский. **История войны с персами. Война с вандалами. Тайная история.** Москва, Из-во «Наука», 1993, s.170.

yerə qoyub, zirehli geyimlərini çıxararaq qayğısız halda dincəldikləri vaxt 300 Bizans atlısı bu 500 nəfərlik Savir qoşun hissəsinin düşərgəsini qəfildən əhatəyə alaraq onları tələfata məruz qoysalar da, yenə onların bir hissəsi bu ağır vəziyyətdən çıxaraq yaxınlıqdakı ormanlığa dağılışa bilir, hətta hücum edən bizanslıların komandiri Maksensini ağır yaralayırlar. Lakin romalı döyüşçülər onu ölümdən xilas edib öz düşərgələrinə aparmağa imkan tapırlar.[40]

Savir döyüşçülərin bu "qayğısızlğı", qarşıdakı düşmənə bu saymaz münasibətləri hardasa "Kitabi-Dədə Qorqud" qəhrəmanı Qazan xanın belə bir saymazlıq nəticəsində təkura əsir düşdüyü epizoddakı vəziyyətin eynidir.

Görünür onlar Kür sahilində zaman keçdikcə xeyli güclənmişlər. Onlar o qədər güclü imişlər ki, VIII əsrin ortalarında – Xilafətin bölgədə hakim olduğu bir zamanda Şəmkür kimi mühüm şəhəri dağıdıb viran qoymuşdular.[41] Bu hadisə 750-ci illərdə baş vermişdir. Görünür, bu, Xilafətin ərəb etnik ünsürünü bu torpaqlarda yerləşdirmək siyasətinə qarşı çıxış olmuşdur. Xəlifə Osmanın ordu komandanı Salman ibn Rəbiə tərəfindən Şəmkür hərbiləşdirilmiş məntəqəyə çevrilmiş və buraya çoxlu sayda ərəb əsgəri və Ərəbistandan gələn köçkünlər yerləşdirilmişdi. Azərbaycanın hər yerində olduğu kimi burada da ərəb köçkünlərin yerlilərin torpaqlarını qəsb etmələri, yerli əhalini öz rəiyyətləri gözündə görmələri, aşkar zorakılıqları bu əsnada şimaldan yeni gələnlərin hesabına xeyli güclənmiş olan Suvarlarda görünür, ciddi narazılıq yaratmışdı. Bu arzuolunmaz prosesi öz gələcək mövcudiyyətlərinə təhlükə görən Suvar başçıları Şəmkürü dağıtmağı hərbi-siyasi nöqteyi-nəzərdən vacib bilmişlər. Əgər bu əsnada Suvarların güclənmiş olmasından söz gedirsə, deməli, 676-cı il köçürməsindən sonrakı dönəmdə onların – pərakəndə düşmüş bu türk boyunun burada müəyyən dərəcədə yenidən toparlanma prosesi getmişdir.

Suvarların Babək hərəkatında nə şəkildə iştirakları aydın deyil, amma 829-cu ildə onların həyatında ağır bir faciə yaşanır. Həmin il Suvarların ölkəsinə yürüşə başlayan Babək onların Tavuş şəhərini dağıdır və bu yerin 150 minlik əhalisini qovub pərakəndə salır.[42] Aranın şimal-qərbində bu qədər sayda etnik komponent Suvarların Aran ölkəsi əhalisinin təqribən üçdə birini təşkil etdiklərini təsəvvürə gətirməyə imkan verir. Belə bir dağıdıcı yürüşün səbəbi isə Suvarların Babək hakimiyyətinə tabe olmaqdan, xərac ödəməkdən boyun qaçırmaları ola bilərdi.

Babəkin məğlubiyyətindən az sonra Aranda Xilafətə qarşı üsyanın Buğa əl-Kəbir (Böyük Buğa) tərəfindən yatırıldığı 851-ci il hadisələrinin gedişində bu ölkənin tutulub buxovlanaraq Dəməşqə göndərilən əyalət knyazları sırasında Suvar knyazları soyundan gələn və xristian adı daşıyan Stefan da vardır.[43] Deməli, 829-cu il hadisəsindən sonra Suvarlar yenidən toparlana bilmişdilər.

---

[40] Агафий Миринейский. **О царствовании Юстиниана.** Москва: Из-во АН СССР. 1953, s.117.

[41] Nailə Vəlixanlı. **Ərəb Xilafəti və Azərbaycan**. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı. 1993, s.111.

[42] Зия Буниатов. Избранные сочинения в трех томах. **Азербайджан в VII-IX вв.** Том I. Баку: «Элм», 1999, s.358.

[43] Зия Буниатов. **A.g.ə.,** s.218; **Всеобщая история Вардана Великого.** Москва: 1861, s.103.

Şəmkur 750-ci illər dağıntısından təqribən yüz il ötəndən sonra bərpa edilmişdi. Xilafət ordusunun Xəzər soylu baş komandanı Buğa Türk Gəncə hərbiləşdirilmiş ərəb məntəqəsini yaratdıqdan (844) on il sonra (854) Şəmkürü də həmin sayaq hərbiləşdirilmiş məntəqə olaraq bərpa etdirmişdi. Buğa Türk 853-cü ildə bu yerlərdə apardığı əməliyyatların gedişində xristian Suvarların hərbi gücünə qarşı onlarla eyni soydan olan müsəlman Xəzərləri qoyur. Buğa Türkün islamı qəbul etmiş 300 Xəzər ailəsini Şəmkür qalasında yerləşdirməsi və şəhəri Mütəvəkkilliyə adlandırması bundan irəli gələ bilərdi.

***Moğol yürüşlərinin Suvarlar üçün fəlakətli nəticələri***

Bölgənin iri yaşayış məntəqəsi olan Hunan (Xunan) 1220-ci ilin sonlarında böyük bir hərbi hadisəyə şahidlik etmişdir. Şəhər 1220-ci ilin sonlarında "Ağquş adlı türkün"[44] komandanlığı altındakı əsasən türkmənlərdən ibarət avanqard qoşun və Subutay bahadur başda olmaqla 20 minlik moğol-tatar qoşununun birləşmiş qüvvəsi ilə gürcü çarı IV Georgi Laşanın (1213-1222-ci illərdə hakimiyyətdə olub) başçılığı altındakı bəzi rəqəmlərə görə 100 minlik ordu arasında bir ay davam etmiş və gürcü çarının ağır məğlubiyyəti ilə nəticələnmiş meydan müharibəsinin gedişində dağıdılmışdır.

Az sonra – 1240-cı ildə moğol sərkərdəsi Çağatay noyonun Lori qalasını aldığı, Çarmaqun noyon və Molor noyonun Gəncə və Tiflis arasında yenidən böyük əhali qırğınları törətdikləri də tarixdən bəlli məsələdir.[45]

***Nəticə***

Beləliklə, Güney Qafqazın mərkəzi bölgəsi VI-XIII yüzilin əvvəllərinədək güneydə Şəmkür, quzeydə Tiflis, gündoğarda Alazan çayı, günbatarda dağlıq rayonu əhatə edən ərazi Tavuş qalası, Hunan şəhər-qalası inzibati mərkəz olmaqla, Suvarlar Ölkəsi adlanmışdır. Bölgənin xristian əhalisi öz dilini qoruyub saxlamış olan Türk-Suvar etnik kimliyinə sahib idi. Ərəb fəthlərindən sonrakı çağda isə, yəni VII-XI əsrlərdə bölgədə müsəlmanların yerləşdirilməsi etno-konfessional spektrdə yeni element olmuşdur. Bu çağda Mütəvəkkilliyə (Şəmkür), Kasak və Xram çayının üstündə yerləşən Hunan, ondan o yana Qala-ibn Kəndman və Tiflis daha çox türk-müsəlman ünsürünün nəfəsini duyurdu. Başqa sözlə, bölgənin bu xronoloji çərçivədə tək müsəlman keçmişi deyil, xristian keçmişi də türk etnosuna aiddir.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Əsədov, Fərda. **Xəzərlər və Azərbaycan**. Bakı, Elm və təhsil, 2018. 240 s.
2. İzzəddin İbn əl-Əsir. **Əl-kamil fi-t-tarix (mükəmməl tarix)** (Ərəbcədən yoxlanılmış tərcümə, ön söz, qeydlər və şərhlər akademik Ziya Bünyadov). Bakı, Şur, 1996. 192 s.
3. Kaşğari, Mahmud. **Divanü lüğat-ü-türk**. 4 cilddə. Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər. I cild. Bakı, Ozan, 2006. 512 s.

[44] İzzəddin İbn əl-Əsir. **Əl-kamil fi-t-tarix** (mükəmməl tarix). Bakı, Şur, 1996, s.132.
[45] Киракос Гандзакеци. **История.** Москва: «Наука», 1976, s.163.

4. Qumilyov, Lev. **Qədim Türklər.** Bakı, Gənclik, 1993. 536 s.
5. Vəlixanlı, Nailə. **Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər.** Bakı, Elm və təhsil, 2016. 480 s.
6. Vəlixanlı, Nailə. **Naxçıvan ərəblərdən monqollaradək (VII-XII).** Bakı, Elm, 2005. 152 s.
7. Vəlixanlı, Nailə. **Ərəb Xilafəti və Azərbaycan.** Bakı, Azərbaycan Dövlət Nəşriyyatı. 1993. 157 s.
8. Артамонов, Михаил . **История хазар**. Издание второе. СПб: 2002. 550 с.
9. Багратиони, Давид. **История Грузии.** Тбилиси: Мецниереба, 1971.
10. Буниатов, Зия. Избранные сочинения в трех томах. **Азербайджан в VII-IX вв.** Том I. Баку, Элм, 1999. 468 с.
11. **Всеобщая история Вардана Великого.** Москва: 1861.
12. Гандзакеци, Киракос. **История.** Москва: Наука, 1976. 357 с.
13. Гумилев, Лев. **Древние тюрки.** Москва, 1967.
14. Джафаров, Юсиф. **Гунны и Азербайджан**. 1993.
15. **Житие преподобного Давида Гареджийского**. https://travelgeorgia.ru/235/
16. Каланкатукский, Моисей. **История Албании**; Мхитар Гош. **Албанская летопись.** Баку, Элм, 1993. 296 с.
17. **Картлис Цховреба. История Грузии**. Тбилиси: Из-во Артануджи. 2008. 456 с.
18. Прокопий Кесарийский. **Война с персами**. **Война с вандалами. Тайная история.** Перевод, статья и комментарий А.А.Чекаловой. Из-во «Наука», Москва, 1993.
19. Прокопий Кесарийский. **История войны с готами**. Перевод С.П.Кондратьев. Из-во Академии наук СССР, Москва, 1950.
20. Владимир Федоровича Минорский. **История Ширвана и Дербента X-XI веков.** Москва: Из-во Восточной литературы. 1963. 265 с.
21. Агафий Миринейский. **О царствовании Юстиниана.** Перевод, статья и примечаний М.В.Левченко. Москва-Ленинград, Из-во АН СССР. 1953.
22. Плетнева, Светлана. **Хазары**. Москва: Наука, 1986. 88 с.
23. Сумбатзаде, Алисохбат. **Азербайджанцы – этногенез и формирование народа.** Баку, Элм, 1990, 304 с.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR

İsmayıl Balı oğlu Umudlu – tarix üzrə fəlsəfə doktoru, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, Azərbaycan, Bakı

Ismail Baly oglu Umudlu – Doctor of Philosophy in history, senior researcher, A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS, Azerbaijan, Baku

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.189-198*

**UOT: 39**

# AZƏRBAYCANIN İCTİMAİ-MƏDƏNİ TARİXİNDƏ TATARLARIN ROLU

©2025

FİDAN ŞAHMALIYEVA*

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ORCİD:0009-0007-1171-4999; e-mail: sahmaliyevafidan96@gmail.com;
f.shahmaliyeva@history.science.az

***Xülasə:*** *Azərbaycan çoxmillətli, oxşar və fərqli mədəniyyətlərin azərbaycançılıq ideologiyasına inteqrasiya olunduğu tolerant ölkədir. Minilliklərdən süzülüb gələn milli dəyərlərə əsaslanan dövlət siyasəti ölkəmizdə yaşayan müxtəlif xalqlar arasında birləşdirici rol oynayır. Azərbaycanda yaşayan bu xalqlardan biri də tatarlardır. Əsasən XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda məskunlaşmış tatarlar ölkəmizin ictimai, siyasi, mədəni həyatında mühüm rol oynamış, müxtəlif sahələrdə öz töhfələrini vermişlər. Bu da sonrakı dövrlərdə Azərbaycan Respublikasının Tatarıstan Respublikası ilə istər mədəni, istər elmi, istərsə də siyasi və iqtisadi əlaqələrin inkişafına müsbət təsir göstərmişdir.*

*Məqalədə Azərbaycanın ictimai, mədəni, siyasi tarixində mühüm rol oynamış tatarlar haqqında məlumat verilmişdir. Burada Volqaboyu tatarlarından olan Terequlovlar ailəsinin nümayəndələrinin Azərbaycanın ictimai-mədəni həyatında rolu, tatarların Ümumrusiya Müsəlmanlar Qurultayında, o cümlədən, I Türkoloji Qurultayda iştirakından söz açılmışdır. Məqalədə tatar ziyalılarından olan böyük maarifçi-publisist İsmayıl bəy Qaspıralının, Krım tatar dövlət xadimi general-leytenant Məmməd bəy Sulkeviçin, Azərbaycanın incəsənət xadimi Mərziyə Davudovanın və digər ziyalıların ölkəmizdəki rolundan bəhs edilmişdir.*

***Açar sözlər:*** *tatarlar, azərbaycanlılar, etnologiya, tarix, əlaqələr*

# THE ROLE OF TATARS İN SOCİAL AND CULTURAL HİSTORY OF AZERBAİJAN

©2025

FİDAN SHAHMALİYEVA*

*A.A.Bakikhanov Institute of History and Ethnology of ANAS
ORCİD:0009-0007-1171-4999; e-mail: sahmaliyevafidan96@gmail.com;
f.shahmaliyeva@history.science.az

***Abstract:*** *Azerbaijan is a multi-ethnic, tolerant country where similar and different cultures are integrated into the Azerbaijani ideology. The state policy based on national values filtered down from millennia plays a unifying role among different peoples living in our country. Tatars are one of these peoples living in Azerbaijan. Tatars, who settled in Azerbaijan mainly at the end of the 19th century and the*

*beginning of the 20th century, played an important role in the social, political, and cultural life of our country and made their contributions in various fields. This also had a positive impact on the development of cultural, scientific, political and economic relations between the Republic of Azerbaijan and the Republic of Tatarstan in later periods.*

*The article provides information about the Tatars who played an important role in the social, cultural and political history of Azerbaijan. Here, the role of the representatives of the Teregulov family, one of the Volga Tatars, in the social and cultural life of Azerbaijan, and the participation of the Tatars in the All-Russian Muslim Congress, including the First Turkological Congress, were discussed. The article also mentions the role of Ismayil bey Gaspirali, a great educator and publicist from Tatar intellectuals, Crimean Tatar statesman Lieutenant General Mammad bey Sulkevich, Azerbaijani artist Marziya Davudova and other intellectuals in our country.*

***Keywords:*** *Tatars, Azerbaijanis, ethnology, history, relations*

## РОЛЬ ТАТАР В СОЦИАЛЬНОЙ И КУЛЬТУРНОЙ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

©2025

ФИДАН ШАХМАЛИЕВА*

*Институт Истории и Этнологии имени А.А.Бакиханова НАНА
ORCİD:0009-0007-1171-4999; e-mail: *sahmaliyevafidan96@gmail.com*;
f.shahmaliyeva@history.science.az

***Резюме:*** *Азербайджан – многонациональная, толерантная страна, где схожие и разные культуры интегрированы в азербайджанскую идеологию. Государственная политика, основанная на национальных ценностях, просочившихся тысячелетиями, играет объединяющую роль среди разных народов, проживающих в нашей стране. Татары – один из таких народов, проживающих в Азербайджане. Татары, поселившиеся в Азербайджане преимущественно в конце XIX – начале XX веков, сыграли важную роль в общественной, политической и культурной жизни нашей страны, внесли свой вклад в различных областях. Это также оказало положительное влияние на развитие культурных, научных, политических и экономических связей между Азербайджанской Республикой и Республикой Татарстан в более поздние периоды.*

*В статье представлены сведения о татарах, сыгравших важную роль в социальной, культурной и политической истории Азербайджана. Здесь обсуждалась роль представителей рода Терегуловых, одного из волжских татар, в общественной и культурной жизни Азербайджана, участие татар во Всероссийском мусульманском конгрессе, в том числе в Первом Тюркологическом съезде. В статье также упоминается роль Исмаил бека Гаспирали, крупного просветителя и публициста из числа татарской интеллигенции,*

*крымскотатарского государственного деятеля генерал-лейтенанта Мамед бека Сулкевича, азербайджанской художницы Марзии Давудовой и других представителей интеллигенции в нашей стране.*

***Ключевые слова:*** *татары, азербайджанцы, этнология, история, отношения*

***Giriş***

Hazırda tatarlar dünyanın müxtəlif yerlərində yaşayırlar. Tarixən Kazan-Həştərxan-Sibir və ona qonşu ərazilərdə çoxluq təşkil edən tatarlar, siyasi proseslər nəticəsində Rusiya Federasiyasının bütün ərazisinə, Ukrayna, Polşa, Baltikyanı respublikalara, Qafqaz və Mərkəzi Asiya ölkələrinə yayılmışlar.[1]

1722-1723-cü illərdə I Pyotrun Xəzər sahillərinə yürüşündən sonra burada istehkamlar qurmaq və gəmiqayırma işləri üçün Rusiya xalqlarının gücündən istifadə edilməyə başlanıldı. Beləliklə, Povoljye və Kazan tatarları, həmçinin çeremislər, çuvaşlar da tikintidə işləmək üçün Bakı şəhəri və onun ətraf ərazilərində məskunlaşmışlar.[2]

Qeyd edək ki, 1828-ci ildə Azərbaycanın şimal əraziləri Rusiya imperiyası tərəfindən işğal edilmişdir. Bu dövrdə ruslar Azərbaycan türklərini də “tatar” adlandırmışlar. Tatarlar ölkəmizi özlərinə həmişə doğma hesab etmiş, Cümhuriyyət dövründə və ondan sonra da ölkəmizin ictimai-siyasi həyatında xüsusi yer tutmuşlar.

Qafqaz ölkələri içərisində Azərbaycan, əsasən də paytaxt Bakı, tatarların say baxımından xüsusi çəkiyə malik olduğu şəhərlərdəndir. 2019-cu ildə Azərbaycan Respublikasında həyata keçirilən siyahıyaalmaya görə, ölkəmizdə 25. 900 nəfər tatar yaşayır.[3]

1991-ci ildə Azərbaycan müstəqillik qazandıqdan sonra burada yaşayan xalqların hərtərəfli inkişafı üçün dövlətimiz tərəfindən imkanlar yaradılmışdır. Azərbaycanda yaşayan, cəmiyyətimizi təşkil edən xalqları ölkəmizin “sərvəti” hesab edən Ümummilli lider Heydər Əliyev xüsusi olaraq vurğulayırdı: “. . . *Respublikanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıca sərvəti qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər çox zəngin olar”*.[4] Qeyd etdiyimiz kimi, ulu öndər çox milliliyi “zəngin”lik kimi qiymətləndirir, azərbaycançılıq ətrafında birləşən çox mədəniyyətliliyi “sərvət”imiz hesab edirdi.

---

[1] Aydın Mədətoğlu Qasımlı. **Türklər (Tarixi oçerklər).** Bakı, 2012, s.327.

[2] Севиндж Алиева. **Татары в Азербайджане.** Монография. Казань: Институт истории им. Ш.Марджани АН РТ, 2018, с.9.

[3] “Azərbaycanda tatarlar” adlı monoqrafiya nəşr edilib. Multikultural.az, 27.10.2019, **https://multikultural.az/az/tatarlar/596/azerbaycanda-tatarlar-adli-monoqrafiyasi-nesr-edilib** (23.10.2024. Saat-12:01).

[4] Qəmərşah Cavadov. **Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik).** Bakı, “Elm”, 2000, s.14.

***Tanınmış tatar ailəsi: Terequlovlar***

XIX əsrin ikinci yarısında Bakıda neft sənayesi sürətlə inkişaf etməyə başlayan zaman burada çoxlu məktəblər, binalar, parklar salınır, nəqliyyat, rabitə, su təchizatı sürətlə inkişaf edirdi. İrandan, Rusiyadan Azərbaycana, xüsusilə Bakı şəhərinə çoxlu sayda işçi qüvvəsi axın edirdi. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycana işləmək üçün gələnlər arasında tatar əhalisi üstünlük təşkil edirdi. 1913-cü ildə Bakı şəhərində Kazan tatarlarının fəhlə və qulluqçularının sayı 2067 nəfər idi.[5]

Azərbaycan və tatar xalqı arasında tarixən möhkəm dostluq, qohumluq əlaqələri mövcud olmuşdur. Terequlovlar ailəsi buna bariz nümunədir. 2007-ci ildə nəşr edilmiş "Üzeyir Hacıbəyov Ensiklopediyası"nda Terequlovlar ailəsinin təməlinin Volqaboyu tatarlarından olan Səfər ağa Terequlov tərəfindən qoyulduğu qeyd olunur.[6] Müğənni və teatr xadimi kimi fəaliyyət göstərmiş, 1917-ci ildə Volqaboyu tatarları tərəfindən yaradılan "Birlik" fəhlə təşkilatına başçılıq etmiş Məmməd-Hənəfi Terequlov da bu ailənin üzvlərindən idi. O, 1927-ci ildə Azərbaycanın əmək qəhrəmanı adına layiq görülmüş və Azərbaycanda opera xorunun yaradıcılarından biri olmuşdur.[7] Bu nəslin davamçıları arasında bəstəkar Müslüm Maqomayevlə ailə qurmuş Bağdigül-Camal Terequlova, bəstəkar Üzeyir Hacıbəyovun xanımı Məleykə Terequlova da var idi. Azərbaycan Opera və Balet Teatrının direktoru olmuş Sənətşünas Hüsni-Camal Terequlova da bu nəsildən idi.[8] "Nicat" Xeyriyyə Cəmiyyətinin Bakı qadınlar bölməsini təsis edənlərdən biri olmuş Əminə Terequlova, həmçinin həmin cəmiyyətin nəzdində fəaliyyət göstərən 3-cü rus-tatar qızlar məktəbinə başçılıq etmiş Rəhilə Terequlova da bu nəslin nümayəndələrindən olmuşlar.[9] Terequlovlar nəsli arasında Zaqafqaziya müftisi Məmməd əfəndi Müftizadənin oğlu, saray müşaviri Osman bəy ilə evli olmuş Züleyxa Terequlova, həmçinin 1922-ci ildən Bakı Qızlar Seminariyasında tərbiyəçi müəllim işləmiş və 1936-cı ilə qədər uşaq bağçasının müdirəsi olmuş Fatma Terequlova da var idi.[10] Göründüyü kimi, Terequlovlar ailəsinin nümayəndələri ölkəmizin mədəni həyatına böyük töhfələr vermişlər.

***Tatarların Ümumrusiya Müsəlmanlar Qurultayı və I Türkoloji Qurultayda iştirakı***

Azərbaycan ziyalıları ilə tatar ziyalıları dünyada yaşayan müsəlman türk əhalisini birləşdirmək uğrunda mübarizə aparırdılar. Buna onların 1905-1906-cı illərdə keçirilmiş Ümumrusiya Müsəlmanlar Qurultayında fəal iştirakını göstərmək olar. Qeyd edək ki, burada tatarlar üstünlük təşkil edirdi. Belə ki, qurultayda Volqa-Ural tatarları, Krım tatarları və azərbaycanlılar olmaqla 3 müsəlman xalqın elitası birləşmişdir.[11] Qurultayda ən çox tatar nümayəndə heyəti Kazan, Orenburq,

---

[5] Севиндж Алиева**. (A.g.k.),** с.23.

[6] **Üzeyir Hacıbəyov Ensiklopediyası**. Bakı, "Şərq-Qərb", 2007, s.200.

[7] İsmayıl Umudlu. **Azərbaycanın əsilzadə şəcərələri (Tiflis, Yelizavetpol və İrəvan quberniyalarının materialları əsasında).** Bakı, "Nəşriyyat" şöbəsi, 2024, s.187.

[8] İsmayıl Umudlu. **(A.g.k.),** s.189.

[9] İsmayıl Umudlu. **(A.g.k.),** s.190.

[10] İsmayıl Umudlu. **(A.g.k.),** s.191.

[11] Севиндж Алиева. **(A.g.k.),** с.12.

Həştərxan, Ufa, Samara və digər vilayətlərdən iştirak edirdi. Kazan tatarlarından olan türk yazıçısı və siyasətçisi Yusuf Akçura belə deyirdi: *"Kazan tatarları və azərbaycanlılar həmişə sıx münasibətdə olub, öz millətlərinin mənafeyi üçün daim çalışıblar".*[12]

1926-cı ildə Bakı şəhərində yerləşən İsmailiyyə binasında keçirilmiş Birinci Türkoloji Qurultay XX əsrdə türk xalqlarının mədəni həyatında baş vermiş əlamətdar hadisələrdən biri idi. Qurultay tatarların aktiv iştirakı ilə müşayiət olunurdu. Qurultayın gedişində türk dünyasının dili və tarixinə, etnogenezisinə, etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə məxsus məruzələr səsləndirilmişdir.

Qurultayda tatar əsilli azərbaycanlı professor Bəkir Çobanzadənin "Türk ləhcələrinin yaxın qohumluğu haqqında" adlı elmi məruzəsi maraqla qarşılanmışdır. Belə ki o, Mahmud Qaşğarini dərin biliklərə, geniş dünyagörüşə sahib bir şəxsiyyət kimi qiymətləndirərək öz fikrini bu sözlərlə ifadə edirdi: *"Türk ləhçələrində leksikanın əsası eynidir. Orada fərq yoxdur. Əgər fərq varsa bu yalnız müxtəlif hərflərdə (səslərdə) və onların dəyişməsində ola bilər".*[13] Bəkir Çobanzadə Birinci Türkoloji Qurultayda türkologiya elminin və Azərbaycan dilçiliyinin inkişafı üçün bir neçə perspektivli təkliflərlə çıxış etmiş və qurultaydan sonra o, Azərbaycan Yeni Türk Əlifbası Ümumittifaq Mərkəzi Komitəsinin rəhbəri vəzifəsinə layiq görülmüşdür.[14]

***Tatar ziyalılarının Azərbaycanın ictimai-mədəni tarixində rolu***

1920-ci illərdən başlayaraq Tatarıstandan Bakıya bir çox tatar mütəxəssis işləməyə gəlmişdir. Onların arasında Litva tatarlarından olan həkim Bayşarevski Ömər Əliyeviç, Kazan tatarlarından tarixçi, yazıçı, müəllim Qubaidullin Qazis (Əziz) Salixoviç də var idi. Qubaidullin Qazis Salixoviç 1930-cu ildə özünün "Azərbaycanda tarix elminin 10 il ərzində inkişafı" adlı monoqrafiyasını nəşr etdirmişdir.[15] Göründüyü kimi, tatarlar Azərbaycan elminə böyük töhfələr vermişlər.

Azərbaycanın ictimai, mədəni, siyasi tarixində mühüm rol oynamış tatarlar arasında məşhur maarifçilər, elm xadimləri, siyasətçilər, hərbçilər, həkimlər, müəllimlər, aktyorlar, musiqiçilər və digər sahələrdə çalışan görkəmli şəxslər var idi. Böyük maarifçi-publisist, Krım tatarı İsmayıl bəy Qaspıralı da həmin şəxslərdən biri idi. Türklərin birlik şüurunun dirçəldilməsində onun "dildə, fikirdə, işdə birlik" şüarı xüsusi rol oynamışdır. İ.Qaspıralının şah əsəri olmuş, 1883-cü ildə Krımın Baxçasaray şəhərində işıq üzü görmüş "Tərcüman" qəzetinin yaradılmasının əsas məqsədi Rusiyada yaşayan müsəlman türklərini elm, bilik uğrunda mübarizəyə səsləmək idi.

İ.Qaspıralının yaradıcılığında Azərbaycan və Azərbaycan türkləri mövzusu xüsusi yer tutmuşdur. Bunu onun səyahət oçerklərində görmək mümkündür. Belə ki, "Ədəbi məclis" (10 avqust 1886, №37), "Qafqazda üç-beş gün" (26 oktyabr 1886, №44), "Yolda rastlaşma" (20 yanvar 1895, №3), "Zaqafqaziya boyu" (23 dekabr

---

[12] Севиндж Алиева. **A.g.k.,** c.13.
[13] Adil Babayev. **Birinci Türkoloji Qurultay və Azərbaycanda Türkologiya.** Bakı, "Elm", 2016, s.69.
[14] Bəkir Çobanzadə. **Müasir Azərbaycan Ədəbiyyatı. Seçilmiş Əsərlər, Beş clddə. I cild.** Bakı, "Şərq-Qərb", 2007, s.10.
[15] Севиндж Алиева. **A.g.k.,** c.37.

1901, №47) adlı oçerklər İ.Qaspıralıya məxsusdur. O, həmçinin Qafqaza, Azərbaycana etdiyi səyahətlərlə bağlı məqalələr də yazmışdır.[16] 1908-ci ildə türkçülüyü təbliğ etmək üçün yaradılmış "Türk Dərnəyi" cəmiyyətinin tərkibi Azərbaycan və tatar türklərindən ibarət idi. Əli bəy Hüseynzadənin türk millətinin birliyi haqqında formalaşdırdığı ideyalar türk xalqlarının milli oyanışında xüsusi rol oynamışdır. O, tatar türkçülük ideoloqları olan İsmayıl bəy Qasprinski və Yusif Akçura ilə birgə "Birlik və Tərəqqi" Komitəsinin Ali Şurasına daxil olmuşdur.[17] 1906-cı ildə Tiflisdə nəşr olunmuş "Molla Nəsrəddin" jurnalını Azərbaycanın mətbuatı tarixində böyük hadisə kimi qiymətləndirən İ.Qaspıralı jurnalın Rusiya, Krım, Volqaboyu və Sibir tatarları arasında təbliğ edilməsində böyük işlər görmüşdür.[18] Əlimərdan bəy Topçubaşov Kaspi qəzetində nəşr olunmuş "İsmayıl bəy Qasprinskinin xatirəsi" adlı məqaləsində yazırdı: *"...İ.Qasprinski müsəlman əhalisinin yaşadığı hər yerə getmişdir. Getdiyi hər yerdə yeni məktəb açılır, xeyriyyə cəmiyyətinin əsası qoyulurdu. İ.Qasprinski H.Zərdabini müsəlman ictimai və maarif işlərinin ilk pioneri hesab edirdi...".*[19]

Tatarların Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyətini xüsusi olaraq qeyd etmək lazımdır. Bu şəxslərdən biri Polşa əsilli Krım tatar dövlət xadimi General Leytenant Məmməd bəy Sulkeviçdir. O, 1919-cu ilin mart ayından bolşevik işğalına qədər Azərbaycan Ordusunda Baş Qərargahın Baş İdarəsinin rəisi vəzifəsində xidmət göstərmişdir.[20] Azərbaycan Ordusunda vəzifəyə başlamamışdan əvvəl Hərbi Nazirliyin qeydiyyatında olan 15 mart 1919-cu il tarixli yazı ilə özü haqqında məlumat verən M.Sulkeviç deyirdi: *"Dinim İslam, adım Məhəmməd bəy, rütbəm isə General leytenantdır. Azərbaycan vətəndaşlığını qəbul edirəm".*[21] Onun başçılığı ilə Azərbaycanın milli qoşun hissələrinin inkişaf etdirilməsi prosesi sürətlənmiş, çavuş məktəbləri yaradılmış, döyüş hazırlığı üçün proqram və cədvəllər tərtib edilmiş, hərbi məktəblərin geyim forması, səfərbərlik haqqında plan hazırlanmışdır.[22] 1919-cu ildə Denikin təhlükəsi zamanı Bakı şəhərinin dənizdən və qurudan müdafiə olunmasına rəhbərlik etmiş M.Sulkeviç 1920-ci ilin yanvarında Qarabağda ermənilərin azərbaycanlılara qarşı təcavüzünün qarşısını almaq üçün hərbi əməliyyatlarda fəal şəkildə iştirak etmişdir. Məmməd Əmin Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" adlı kitabında general Məmməd bəy Sulkeviç ilə bağlı xatirələrində yazırdı: *"...Qardaşım, (əslində əmisi oğlu) parlament üzvü Mehməd Əli bəyin gördüklərini ilk dəfə olaraq xalqa çatdırmaq istəyirəm. O, mərd general Məmməd bəy Sulkeviçin qəhrəmancasına*

---

[16] Abid Tahirli**. Bütün Türklərin Tərcümanı İsmayıl bəy Qaspiralı.** Bakı, "Ozan" nəşriyyatı, 2011, s.99.

[17] Севиндж Алиева. **A.g.k.,** с.11.

[18] Gülbəniz Babayeva. "Molla Nəsrəddin" və "Tərcüman" nəşrləri ədəbi-mədəni əlaqələr kontekstində. **Müqayisəli Ədəbiyyatşünaslıq,** №1, 2022, s.44.

[19] Abid Tahirli. **A.g.k.,** s.20-21.

[20] Ədalət Tahirzadə vd., **Azərbaycan Cümhuriyyəti (1918-1920) (Qısa tarixi oçerk) II nəşr.** Bakı, "Çapar", 2022, s.144.

[21] Vilayet Quliyev. **Uzak ve Yakın Türkler.** İstanbul, Zengin yayıncılık, 2022, s.96.

[22]Məmmədbəy Sulkeviç. **https://az.wikipedia.org/wiki/M%C9%99mm%C9%99d_b%C9%99y_Sulkevi%C3%A7.** 26.09.2024 (23.10.2024. Saat- 12:41).

*ölümünün şahidi olmuşdur. Onunla bir kamerada olan Mehmed Əli bəy söyləyirdi: "...Onun sakit, qətiyyətli səslə dediyi sözləri ömrüm boyu unutmayacağam: "Xoşbəxtəm ki, müsəlman Ordusunun zabiti kimi ölürəm. Xudahafiz!".*[23] Polşa ordusunda xidmət göstərmiş Azərbaycan əsilli polkovnik Vəlibəy Yadigar və Azərbaycan ordusunun Generalı M.Sulkeviçin abidələri Varşavanın mərkəzi parklarından birində ucaldılmışdır.[24] Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti Ulu öndər Heydər Əliyev 26 iyun 1998-ci ildə Milli Silahlı Qüvvələrin yaradılmasının 80-ci il dönümündə çıxış edərək, Azərbaycan ordusunun qurucuları arasında S.Mehmandarov, Ə.Şıxlinski ilə birgə M.Sulkeviçi də dərin ehtiramla yad etmişdir. Buradan da göründüyü kimi, tatarların Azərbaycanın dövlətçilik tarixində misilsiz xidmətləri olmuşdur.

Azərbaycanın sosial-siyasi, etnik-mədəni tarixində dərin iz qoymuş tatar əsilli xanımlardan biri Mərziyə Davudovadır (Dautova). Azərbaycan Dram Teatrının aktrisası kimi fəaliyyət göstərmiş Mərziyə Davudova Azərbaycan qadınlarının səhnəyə çıxması üçün saysız xidmətlər göstərmişdir. M.Davudovanın ən böyük yaradıcılıq uğurlarından biri olan Sevil obrazı bir çox azərbaycanlı qadınları çadra əsarətindən xilas etmişdir. Onun bu rolu qadın azadlığı uğrunda gedən mübarizədə mühüm rol oynamış və nəinki Azərbaycanda, dünyanın bir çox yerlərində də yüzlərlə qadının çadrasını atmasına təkan vermişdir.[25] M.Davudova Azərbaycanın teatr səhnəsində böyük ingilis dramaturqu V.Şekspirin Qenerilya ("Kral Lir"), Gertruda ("Hamlet"), Dezdemona ("Otello"), Ledi Maqbet ("Maqbet") rollarını böyük ustalıqla ifa etmişdir. O, Ledi Maqbet rolunu böyük məharətlə oynadığına görə, 1936-cı ildə Azərbaycanın xalq artisti fəxri adına layiq görülmüşdür.[26] M.Davudova "Şərqin səhəri" tamaşasında Gülzar rolu ilə vətənini sevən, xalqın arzularına görə, öz arzularını qurban verən mərd Azərbaycan qadınlarının surətini ifa etmişdir.[27] Bütün bunlar göstərir ki, tatarlar Azərbaycan teatrına böyük töhfələr vermişdir.

Sovet Rusiyasında Krım və Volqaboyu tatarları arasında aclıq baş verən zaman 1921-ci ildə Aclığa Yardım Komitəsi təşkil olunmuş, qısa zaman ərzində 400 milyon rubl pul və 12 500 pud ərzaq məhsulları yığılmışdır. Azərbaycanın müxtəlif rayonlarının kəndliləri tərəfindən da aclıq çəkən insanlara yardımlar edilirdi. Belə ki, Şamaxı rayonundan Bakıya 2500 pud, Lənkərandan 2000 pud, Salyandan 1500 pud buğda göndərilmişdir.[28] Göründüyü kimi, Azərbaycan xalqı qardaş tatar xalqına həyatın çətin sınaqlarında öz köməyini əsirgəməmişdir.

İkinci Dünya müharibəsi zamanı Azərbaycan SSR-də yaşayan tatarlar faşist işğalçılarına qarşı döyüşərək böyük şöhrət qazanmışlar. Boris Museyeviç də həmin şəxslərdən biri idi. O, 1939-cu ildən etibarən Bakı şəhərində yaşamağa başlamış,

---

[23]Şəmistan Nəzirli. **1920-ci ildə Qarabağ döyüşləri.** Bakı, "Təfəkkür" Universitetinin mətbəəsi, 2009, s.196.
[24] Vilayet Quliyev. **A.g.k.,** s.130.
[25] Adilə İsmayılova. **Azərbaycan Qadınları Səhnədə.** Bakı, İşıq, 1977, s.88.
[26] Sabir Gəncəli (Məmmədov Sabir Süleyman oğlu). **Qadın, Gözəllik və Ülviyyət.** Bakı, "Azərbaycan" nəşriyyatı, 2001, s.132.
[27] Adilə İsmayılova. **A.g.k.,** s.89.
[28] Севиндж Алиева. **A.g.k.,** с.47.

1941-ci ildən İkinci Dünya müharibəsində iştirak etmişdir. Boris Museyeviç müharibədə xüsusi şücaət göstərdiyinə görə, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, Lenin ordeni və 1 nömrəli Qızıl Ulduz medalı ilə təltif edilmişdir. O, Bakıda fəxri xiyabanda dəfn edilmişdir.[29]

***Müstəqil Azərbaycan Respublikasının Tatarıstan Respublikası ilə müasir dövrdə əlaqələri***

Azərbaycan müstəqillik qazandıqdan sonra tatarlarla əlaqələrin inkişafı daim diqqət mərkəzində olmuşdur. Qeyd edək ki, 3 milyon 800 min nəfər əhaliyə sahib olan Tatarıstan Respublikasının böyük əksəriyyətini tatarlar təşkil edir. Ulu öndər Heydər Əliyevin ölkəmizdə millətlərarası əməkdaşlıq və qarşılıqlı hörmət mühitini bərpa etməsi, Azərbaycanı multikultural, tolerant dövlətə çevirməsi onun uzaqgörən siyasətinin nəticəsi idi. Tatarıstan Respublikası ilə qarşılıqlı münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verən Heydər Əliyev deyirdi: "Xalqlarımız eyni tarixi köklərə malikdir. Ənənələrimiz, mənəvi dəyərlərimiz bir-birinə çox oxşardır, dinimiz eynidir. Bütün bunlar Azərbaycan və tatar xalqları arasında ötən dövrlərdə də, bu gün də sıx əlaqənin, əməkdaşlığın, dostluğun və qarşılıqlı anlaşmanın təməlidir".[30] Hər iki ölkənin başçıları arasında baş tutmuş görüşlər böyük əhəmiyyət kəsb edirdi. Belə ki, Tatarıstan Respublikasının Prezidenti Mintimer Şaymiyev 20 noyabr 1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə ölkəmizə rəsmi səfər etmişdir. Qeyd edək ki, səfərin davamı olaraq, 1996-cı il 21 noyabrda Ulu Öndər Heydər Əliyevin başçılığı ilə Tatarıstan Respublikası arasında iqtisadi, ticarət, elmi-texniki əməkdaşlıq haqqında sazişin imzalanması ilə iki respublika arasında əlaqələr daha da möhkəmlənmişdir.[31] Müasir mərhələdə bu əməkdaşlıq Respublikaların indiki rəhbərləri İlham Əliyev və Rüstəm Minnixanov tərəfindən uğurla davam etdirilir. 2023-cü ilin iyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə səfər zamanı Prezident İlham Əliyev demişdir: "Tatarıstan və Azərbaycan xalqları əsrlər boyu qardaşlıq, dostluq münasibətləri saxlayırlar. Əlbəttə ki, bizim aramızdakı münasibətlər Rusiya və Azərbaycan arasında dostluq, müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi işinə böyük töhfədir və bizim dövlətlərarası səviyyədə planlaşdırdığımız, həyata keçirdiyimiz hər bir məsələ kimi çox səmərəli, dinamik şəkildə inkişaf edir.[32]

---

[29] Севиндж Алиева. **A.g.k.,** c.142.

[30] Ulu öndər Tatarıstan ilə qarşılıqlı dostluq əlaqələrinin inkişafına böyük əhəmiyyət verirdi. Vətən Səsi, Onlayn Qəzet, 12.04.2023, **https://vetensesi.az/page/35/news/9648** (23.10. 2024, Saat –15:46).

[31] Azərbaycan Prezidentinin adından Tatarıstan Prezidenti Mintimer Şaymiyevin şərəfinə təşkil edilmiş ziyafətdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. Prezident iqamətgahı, 21 noyabr 1996-cı il, **https://lib.aliyevheritage.org/az/ 52850549. html** (23.10.2024. Saat: 16:23).

[32] Nəzakət Ələddinqızı. Azərbaycan və Tatarıstan münasibətləri: əsrlərə söykənən qardaşlıq, dostluq bağları. Səs Qəzeti, 20 iyun 2023, **https://sesqazeti.az/news/politics/1067668 html** (24.10.2024. Saat-10:16).

Hazırda Azərbaycanda Tatarıstan Respublikasının Daimi Nümayəndəliyi, "Yaşlek" Azərbaycan Tatar Gəncləri Mərkəzi, "Tuqan Tel" Tatar Mədəniyyəti Cəmiyyəti, "Tatarıstan" İctimai Birliyi, "Krım" Krım tatarları cəmiyyəti fəaliyyət göstərir.[33] Tatarlar Yeni il, Novruz bayramı, Qurban bayramı, Ramazan bayramı ilə yanaşı hər il milli bayramları olan və "kotan bayramı" mənasına gələn Sabantuy bayramını da xüsusi olaraq qeyd edirlər.[34] Qeyd edək ki, bu bayram bir çox xüsusiyyətlərinə görə, Azərbaycanın milli bayramı olan Novruz bayramına bənzəyir.

***Nəticə***

Beləliklə, azərbaycanlılar və tatarlar arasında əlaqələrin tarixi əsrlərə söykənir. Ölkəmizin ictimai-mədəni həyatında xüsusi yerə sahib olan tatarlar Azərbaycanda məskunlaşmaqla cəmiyyətimizin mühüm hissəsinə çevrilmiş, sonrakı illərdə iki qardaş respublika arasında əlaqələrin daha da güclənməsinə səbəb olmuşdur. Ulu Öndər Heydər Əliyev türk xalqları arasında əlaqələrin genişləndirilməsində dilin, ədəbiyyatın, mədəniyyətin, adət-ənənələrin rolunu yüksək qiymətləndirmişdir. Türk dövlətləri arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində Prezident İlham Əliyevin rolunu xüsusi olaraq qeyd etmək vacibdir. Tatar xalqının nümayəndələri elm, təhsil və müxtəlif sahələrdə işləyir, Azərbaycanın ictimai-mədəni həyatında fəal iştirak edirlər.

ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Babayev Adil. **Birinci Türkoloji Qurultay və Azərbaycanda Türkologiya.** Bakı, "Elm", 2016, 336 s.
2. Babayeva Gülbəniz. "Molla Nəsrəddin" və "Tərcüman" nəşrləri ədəbi-mədəni əlaqələr kontekstində. **Müqayisəli Ədəbiyyatşünaslıq.** 2022, №1, 40-46 s.
3. Cavadov Qəmərşah. **Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik).** Bakı, "Elm", 2000, 439 s.
4. Çobanzadə Bəkir. **Müasir Azərbaycan Ədəbiyyatı. Seçilmiş Əsərlər. Beş cilddə. I cild.** Bakı, "Şərq-Qərb", 2007, 333 s.
5. Gəncəli Sabir (Məmmədov Sabir Süleyman oğlu). **Qadın, Gözəllik və Ülviyyət.** Bakı, "Azərbaycan" nəşriyyatı, 2001, 336 s.
6. İsmayılova Adilə. **Azərbaycan Qadınları Səhnədə.** Bakı, İşıq, 1977, 163 s.
7. Qasımlı Aydın Mədətoğlu. **Türklər (Tarixi oçerklər).** Bakı, 2012, 626 s.
8. Qəribli Məhəmmədəli. "Azsaylı xalqların Azərbaycanda öz etnik, dini və tarixi dəyərlərini qoruya bilmələrinin təminatları". **Bakı, Xəbər, №34,** 2021.
9. Nəzirli Şəmistan. **1920-ci ildə Qarabağ döyüşləri.** Bakı, "Təfəkkür" Universitetinin mətbəəsi, 2009, 432 s.

[33] Məhəmmədəli Qəribli. "Azsaylı xalqların Azərbaycanda öz etnik, dini və tarixi dəyərlərini qoruya bilmələrinin təminatları". **Bakı, Xəbər, №34,** 2021.

[34] Bakıda Sabantuy tatar milli bayramı qeyd edilib. Mədəniyyət qəzeti, 21.06.2023, **https://medeniyyet.az/page/news/68404/Bakida-Sabantuy-tatar-milli-bayrami-qeyd-edilib.html?lang=az.** (30.10.2024. Saat: 16:06).

10. Tahirli Abid. **Bütün Türklərin Tərcümanı İsmayıl bəy Qaspiralı.** Bakı, 2011, 240 s.
11. Tahirzadə Ədalət. Əhməd Dilqəm. **Azərbaycan Cümhuriyyəti (1918-1920).** Bakı, 2022, 190 s.
12. Umudlu İsmayıl. **Azərbaycanın Əsilzadə Şəcərələri. (Tiflis, Yelizavetpol və İrəvan quberniyalarının materialları əsasında)** Bakı, "Nəşriyyat" şöbəsi, 2024, 398 s.
13. **Üzeyir Hacıbəyov Ensiklopediyası.** Bakı, 2007, 264 s.
14. Quliyev Vilayet. **Uzak ve Yakın Türkler.** İstanbul, Zengin yayıncılık, 2022, 231 s.
15. Алиева Севиндж. **Татары в Азербайджане**. Монография. Казань: Институт истории им. Ш.Марджани АН РТ, 2018, 164 с.
16. "Azərbaycanda tatarlar" adlı monoqrafiya nəşr edilib. Multikultural.az. 2019, **https://multikultural.az/az/tatarlar/596/azerbaycanda-tatarlar-adli-monoqrafiyasi-nesr-edilib**
17. Azərbaycan Prezidentinin adından Tatarıstan Prezidenti Mintimer Şaymiyevin şərəfinə təşkil edilmiş ziyafətdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. Prezident iqamətgahı, 21 noyabr 1996-cı il, **https://lib.aliyev-heritage.org/AZ/52850549.html**
18. Bakıda Sabantuy tatar milli bayramı qeyd edilib. Mədəniyyət qəzeti, 2024, **https://medeniyyet.az/page/news/68404/Bakida-Sabantuy-tatar-milli-bayrami-qeyd-edilib.html**
19. Əlάddinqızı Nəzakət. Azərbaycan və Tatarıstan münasibətləri: əsrlərə söykənən qardaşlıq, dostluq bağları. Səs Qəzeti, 2023, **https://sesqazeti.az/news/politics/1067668.html**
20. Məmməd bəy Sulkeviç. **https://az.wikipedia.org/wiki/M%C9%99mm%C9%99d _b%C9%99ySulkevi%C3%A7**
21. Ulu Öndər Tatarıstan ilə qarşılıqlı dostluq əlaqələrinin inkişafına böyük əhəmiyyət verirdi. Vətən Səsi, Onlayn Qəzet, 2023, **https://vetensesi.az/page/35/news/9648**

MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR

Şahmalıyeva Fidan – kiçik elmi işçi, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. Azərbaycan, Bakı

Shahmaliyeva Fidan – A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.199-230*

# ORDUBAD RAYONUNA ETNOLOJİ SƏFƏR

©2025 İLHAMƏ MƏMMƏDOVA, TAHİR ŞAHBAZOV,
NİGAR COŞKUNSU, TƏRANƏ QULUZADƏ

"Azərbaycanın incisi" adlandırılan Ordubad rayonu təbii-coğrafi mövqeyi, tarixi, maddi və mənəvi irsi ilə ölkəmizin unikal yurd yerlərindən biridir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 21 fevral 2024-cü il tarixində "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında sərəncam imzalamışdır.

Azərbaycanın tarixi şəhərlərinin, etnoqrafik bölgələrinin ənənəvi məişətinin öyrənilməsi müasir etnologiya elminin qarşısında duran vacib problemlərdəndir. Bu məqsədlə AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun etnoloqları – t.e.d. İ.Məmmədova, t.ü.f.d.,dos. T.Şahbazov, t.ü.f.d. T.Quluzadə və t.ü.f.d. N.Coşkunsu 03-14 iyul 2023-cü il və 08 iyul – 17 iyul 2024-cü il tarixlərində Ordubad rayonunda etnoloji səfərlərdə olmuşlar.

Bölgəyə baş tutan on günlük etnoloji səfərlər çərçivəsində Ordubad şəhəri ilə yanaşı, Əylis Kotam, Nüsnüs, Vənənd, Aza, Azadkənd, Vələver, Gənzə, Düylün, Dırnıs, Sabirkənd (Sabirdizə), Dəstə, Üstüpü, Bist, Tivi, Dəstə, Kələki, Biləv, Parağa və digər kəndlərdə də çöl-etnoloji tədqiqatları aparılmışdır. Etnoloqlar yaşlı nəslin nümayəndələri arasında sorğular keçirmiş, audio və videomateriallar əldə etmişlər. Ailə seqmentasiyası məsələləri, sakinlərin mənəvi həyatı, təsərrüfat məşğuliyyəti, eyni zamanda Ordubad şəhər mədəniyyətinin etnoqrafik aspektləri və s. məsələlər öyrənmişlər.

**T.e.d. İlhamə Məmmədova "Ordubad kəndlərinin müasir məişət mədəniyyəti"** mövzusunda tədqiqat aparmış, kəndlərin tarixi, hansı patronimlər tərəfindən salınması, patronimik qruplar, maddi mədəniyyət elementlərinin bugünkü vəziyyəti haqqında material toplamış və tarixşünaslıqdakı verilənlərlə onlar arasında müqayisə apararaq ənənəvi və müasir etnik mədəniyyəti qələmə almışdır. Şifahi tarixi yazılı mənbələrlə qarşılıqlı müqayisə şəklində öyrənməyə çalışan müəllif yazır:

XIX əsrin əvvəllərində Şamaxı, Bakı, Gəncə (Yelizavetpol), Nuxa (Şəki), Quba, Şuşa, Lənkəran, Naxçıvan, Ordubad kimi Azərbaycanın tarixi şəhərləri vardı. Mənbələrlə yanaşı, çöl tədqiqatlarına əsaslanaraq söyləyə bilərik ki, belə şəhərlərdə, o cümlədən Ordubadda Müsəlman Şərqinə məxsus şəhər məişət və mədəniyyəti formalaşmışdır.

Ordubad rayonu təbii-coğrafi şəraitinə görə qədim insan məskənlərindən olmuşdur. XIV əsr tarixçisi Həmdullah Mustofi yazır: "Ordubad qəsəbədir. Çoxlu bağları var. Suyu Qəban (Qapan)[1] dağlarından gəlir. Üzüm, taxıl və yaxşı pambığı var".[2] Müəllif Ordubad yaxınlığında Azad şəhəri haqqında da bəhs edir: "Azad kiçik

---

[1] Qafan nəzərdə tutulur.
[2] حمدالله موستوفی، حمدالله بن ابی بکر. نزهت القلوب. تهران، اساطیر، ۱۳۸۹، ص. ۸۹

şəhərdir. Taxıl, pambıq və bol üzümü var. Şərabı böyük şöhrət qazanmışdır. Suyu Qəbandan gəlir, Araza axır. İnsanları ağbənizdirlər".[3] Güman edirik ki, mənbədə adı çəkilən Azad şəhəri etnoloji səfərdə gördüyümüz Azadkəndlə eynidir.

Rayon ərazisi dağlıq və dağətəyini əhatə edir. Kiçik Qafqazın (Zəngəzur dağları) ən hündür zirvəsi olan Qapıcıq (3905 m) Ordubad rayonunun ərazisinə (Tivi və Nəsirvaz kəndləri arasında yerləşir) təsadüf edir. Rayon ərazisindən Ordubadçay, Düylünçay, Gilançay, Parağaçay, Gənzəçay, Vənəndçay, Kotamçay, Əylisçay, Kilitçay və s. çaylar axır.

Ordubad rayonunda boz, çəmən-boz, allüvial-çəmən, dağ-meşə, çimli dağ-çəmən torpaqları yayılmışdır. Mülayim iqlim qurşağına təsadüf edən rayonun iqlimi yayı əsasən quraq, qışı isə soyuq keçir.

Zəngin bitki örtüyünə malik Ordubadda kəklikotu (*Thymus*), boymadərən (*Althae*), baldırğan (*Heracleum*), gülxətmi (Althaea), zirinc (*Berberis*), dağ nanəsi (*Ziziphora*), sumaq (*Rhus*), yemişan (*Crataegus*), innab (*Ziziphus),* qaraquş zəngçiçəyi (*Campanulaceae*), Qarabağ dağ laləsi (Tulipa karabachensis), sarılıq otu (*Erysimum),* dağdağan (*Celtis*), güləbətin (*Pulsatilla*), quşəppəyi (*Capsella*), tıs-tıs (*Acantholimon*), gəvən (*Astragalus*), çaytikanı (*Hippophae*) və s. bitki növləri var. Əhalinin təsərrüfatına, mətbəx mədəniyyətinə təsir göstərən bu bitkilərin əksəriyyəti dağlarda yabanı şəkildə bitir.

Ordubad meşələrində qonur ayı, bəbir, qaban, dələ, keçi, tülkü, vaşaq, canavar, porsuq, dovşan, dələ, çaqqal, kirpi və s. görmək olar. Maliki-İbrahim məzarlığında tədqiqat apardığımız zaman dağdan enən ceyran sürüsünün şahidi olduq. Adı çəkilən nadir flora və fauna nümunələrini qorumaq məqsədilə Zəngəzur Milli Parkı ərazisində Ordubad Dövlət Yasaqlığı yaradılmışdır.

Ordubad şəhərində mövcud olan Mədrəsə (XVII əsr), Hamam (XVI əsr), Buzxana (XIV əsr), Qeysəriyyə (XVI əsr) və s. Azərbaycanın orta əsr memarlıq incilərindəndir. Burada XIX əsrə aid bəy və tacir evləri hələ də öz mövcudluğunu saxlayır.

Tədqiqat dövründə xalq məişəti ilə yanaşı, siyasi tarixə dair məlumat əldə etdik. Bəlli oldu ki, Ordubad əhalisi 1918-ci ildə erməni hücumlarına, Andronikin basqınına məruz qalmışlar. Deyilənə görə, qarətçilər bir çox kəndlərdə (Biləv, Gənzə və s.) soyğunçuluq etmiş, sakinlərin mal-qarasını, ilxısını qənimət götürmüş, evləri, hətta məscidi də talamışlar. Lakin Ordubad əhlinin ciddi müqavimətini görən düşmən geri çəkilməyə məcbur qalmışdır.

Birinci Qarabağ müharibəsi illərində də vətənpərvər ordubadlılar gözlənilən erməni hücumlarının qarşısını almaq məqsədilə özünümüdafiə dəstələri yaradıb torpaqlarının keşiyində dayanmışlar. 2020-ci ildə 44 günlük Vətən müharibəsində ordubadlılar onlarla şəhid vermişdir. Kəndləri gəzdikcə şəhid ailələri ilə də söhbət edib, dərdlərinə şərik çıxdıq. Tədqiqat dövründə Tivi kəndində Memorial abidə kompleksini ziyarət etdik, şəhid atası Budaqov Şirzad Həsən oğlu (1947-ci il təvəllüdlü) ilə həmsöhbət olduq.

[3] حمدالله موستوفی، حمدالله بن ابی بکر. نزهت القلوب. تهران، اساطیر، ۱۳۸۹ ، ص. ۸۹

Bildiyimiz kimi, etnoqrafik səfərdə müşahidə, sorğu və yerli əhalinin işində iştiraketmə əsas tədqiqat üsullarındandır. Çoxsaylı etnoqrafik müşahidələr və sorğularla yanaşı, qısa müddətə baş tutan səfərlərdə bir sıra məclislərə qonaq olduq. 2023-2024-cü illərdə Ordubadda etnoqrafik səfərlərdə aşağıdakı mərasimlərdə iştirak etdik:

– 06 iyul 2023-cü il tarixində Yuxarı Əylis kəndində kənd sakinləri Səfər Hüseynov (27 yaş) ilə Bənövşə Rəhimovanın (18 yaş) toy məclisində;

– 07 iyul 2023-cü il tarixində dindarlığı ilə seçilən Gənzə kəndində Qədir-Xum bayramında;

– 07 iyul 2023-cü il tarixində Qəmbərov Hacı İlham Allahyar oğlunun (65 yaş) Həcc ziyarətindən qarşılama ziyafətində;

– 15 iyul 2024-cü ildə Tivi kəndində Tasua mərasimində;

– 16 iyul 2024-cü ildə Dəstə kəndində Aşura mərasimində və s.

Ordubad şəhəri ilə yanaşı, kəndlərdə də apardığımız etnoqrafik müşahidələr və sorğular bölgə əhalisinin maddi mədəniyyətinin öyrənilməsində əhəmiyyət daşıyır.

***Yuxarı Əylis kəndi.*** 06 iyul 2023-cü il tarixində kəndə səfər etdik. Arazın sol sahilində Əylis çayının hər iki sahilində dağətəyində yerləşən Əylis kəndi orta əsrlərdə şəhər tipli yaşayış məskəni idi. 1590-cı il tarixli “İrəvan əyalətinin müfəssəl dəftəri”ndə Yuxarı və Aşağı Əylis və Səhrayi-Əylis kimi qeyd olunmuşdur.[4]

Əylis kəndi xalq arasında “Bala İstanbul” da adlandırılır. Burada bir sıra tarixi-memarlıq abidələri, o cümlədən XVI-XVIII əsrlərə aid *Şah Abbas karvansarasının* və *Şah Abbas hamamının* qalıqları, *Şah Abbas körpüsü, Şah Abbas məscidi, Əylis mədrəsəsi, Nuh körpüsü* və s. yerləşir. Şah Abbas məscid kompleksinə mədrəsə və hamam da daxildir. Dəfələrlə təmir olunan Şah Abbas məscidinin nəzdində Səfəvilər dövründə mədrəsə də fəaliyyət göstərirdi. Deyilənə görə, Əylisdə 45 kəhriz olmuş, hazırda bir neçəsi (*Bazar, Meydan, Şam, Nur, Şora* və s.) işlək vəziyyətdədir. XIX əsrdən kənddə kanalizasiya sistemi mövcud olmuşdur.

Mənbələrdən məlumdur ki, karvan yolunun üzərində yerləşən Əylis Səfəvi şahlarının xüsusi himayəsi altında ipəkçilik və ticarət mərkəzi kimi tanınırdı. Lakin Səfəvi-osmanlı müharibələri nəticəsində dağıdılmış, əvvəlki ticari əhəmiyyəti rövnəqdən düşmüşdür. Sonrakı dövrlərdə ipək istehsalı yenidən davam etmiş, XIX əsrin ikinci yarısında Aşağı Əylisdə dəzgahları Fransadan gətirilən ipək fabriki açılmışdır.

1912-ci ildə kənddə yeni tipli məktəb (üsuli-cədid) təsis olunmuşdur. I Dünya müharibəsində maddi çətinlik üzündən fəaliyyətini dayandırsa da, 1920-ci ildə yenidən fəaliyyətə başlamışdır. Belə bir deyim var: “Əylisdə bir gün yatan müəllim olar”.

Kənddə *Çuxurməhəllə, Bazar, Vəraqut, Qarabağ* (1918-ci ildə ermənilərin törətdiyi qırğınlar nəticəsində Zəngəzurdan gələnlər tərəfindən salınmışdır) və digər məhəllələr var. Məhəllələr, yaşayış evləri, daşqura hasarlar, həyətlər, həyətdəki təsərrüfat tikililəri (təndirəsər, tövlə, qamqalaq evi, əl damı və s.) və s. maddi mədəniyyət nümunələri ilə tanış olduq. Əylis kəndində vaxtilə Qərbi Azərbaycandan (Zəngəzur-

[4] Naxçıvan sancağının müfəssəl dəftəri. Tərcümə edənlər: Ziya Bünyadov və Hisaməddin Məmmədov (Qaramanlı). Bakı, “Elm”, 2001, s.120.

dan) deportasiya olunan yaşlı kəndlilərlə söhbət etdik. Hüseynov Səfər (27 yaş) ilə Rəhimova Bənövşənin (18 yaş) toy mərasimində iştirak edib müşahidələr apardıq. Qız ailəsi əslən əylisli, oğlan tərəf isə Nüsnüs kəndindən idi.

***Kotam kəndi.*** 06 iyul 2023-cü il tarixində kəndə getdik, ağsaqqallardan müsahibə götürdük. Eşitdiyimizə görə, "Kotam" sözünün mənası "birlik" deməkdir.

Məlumatçının dediyinə görə, Kotam kəndinin sahibi XIX əsrdə yaşamış Hacı xanım olmuşdur.[5] *Kotam məscidinin* kitabəsində də bu fikir təsdiqini tapır. Kitabənin mətnindən aydın olur ki, Naxçıvan xanı Hacı Kəlbəli xanın oğlu İbrahim xan hicri 1260 (1844)-cü ildə Kotam kəndindəki torpaq sahibliyini Tükəzban xanıma bəxşiş etmişdir.[6]

XVII-XVIII əsr abidəsi olan Kotam məscidi daş və çiy kərpicdən tikilmiş, dəfələrlə bərpa olunmuşdur. Kəndin evləri də daş, möhrə və çiy kərpicdən inşa edilmişdir. Burada bir sıra çeşmələr (*Girdəsağır, Sufanverdi, Kiçikşır, Ətapar, Dəmir, Aşağı çeşmə* və s.) var.

Kənd qəbiristanlığı Yuxarı Kotamda yerləşir. 1960-cı illərdən əhali Aşağı Kotamda məskunlaşmağa başlamışdır. *Kotam çayı* təsərrüfatın inkişafında mühüm rol oynayırdı. Kəndlilərin əsas məşğuliyyəti maldarlıq, əkinçilik (buğda, arpa), bağçılıq (ərik, şaftalı, üzüm, əncir və s.), bostançılıq (noxud, maş və s.) idi. *Kotamı ənciri, əndiryanı armud, şəkəri armud, kişmişi, gülabi, nəxşəbi üzümü* və digər yerli sortlar əkilirdi. Maldarlar yayda qoyun sürülərini *Ətalar çeşməsi* tərəfə yaylağa aparırdılar.

Repressiya dövründə Kotam kəndindən bir çox ziyalılar qurbana çevrilmişlər. 1937-1938-ci illərdə ali təhsilli 12 din xadimi (Molla Həsən, Molla Yəhya və b.) sürgün edilmişlər.

***Gənzə kəndi.*** 07 iyul 2023-cü il tarixində kənddə olduq. Kənd əhli şəriət qanunlarına ciddi əməl edir və qapalı geyimlərə üstünlük verir. Kənd sakinlərinin söylədiyinə görə, burada ilk məskunlaşanlar İrandan gələn əslən azərbaycanlı Hacı İbrahim və Hacı Cabbar tayfası olmuşdur. XVI əsr abidəsi olan *Hacı Hüseynqulu məscidi* eyni adlı şəxs tərəfindən inşa olunmuş, onun özü də məscidin həyətində dəfn edilmişdir. Bu məscid dəfələrlə təmir edilmiş, 2000-ci ildə minarəsi Hacı İsrafil Sadıqlı tərəfindən tikdirilmişdir. Hacı Hüseynqulu məscidinin yaxınlığında *Gənzə hamamı* yerləşir. Məlumatçıların söylədiyinə əsasən, bu hamam da Hacı Hüseynqulunun mülkiyyətində imiş. Hazırda hamamın təmirə ehtiyacı var.

*Gənzə qəbiristanlığında* əsasən XVI-XVII əsrlər aid və Ordubada xas açıq yaşıl rəngli baş daşları var. Deyilənə görə, belə daşlar Xorasandan gətirilmişdir.

Torpaq fondu az olduğundan kolxoz qurularkən Gənzə kənd sakinlərinə əlavə əkin sahəsi verilmişdir. Əkin sahəsinin azlığı səbəbindən burada taxılçılıq zəif idi. Kənddə bağçılıq (cəviz, ərik, alma, gilənar), baramaçılıq, arıçılıq və maldarlıq təsərrüfatları mövcud olmuşdur. Hazırda bağçılıq, arıçılıq, şalbaflıq və s. sahələr ənənəvi qaydada davam etməkdədir.

---

[5] Məlumatçı: 1938-ci ildə Kotam kəndində doğulmuş Əhməd Yusif oğlu Hüseynov.
[6] Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, s.228.

Gənzə kəndində toxuculuq inkişaf etmişdir. Qadınlar arasında şal toxuculuğu yayılmışdır. Bu kənddə toxunan mərfəc bütün Naxçıvanda məşhur idi, indi də istifadədir. Bildiyimiz kimi, məfrəc (məfrəş, fərməş, fərməc) adətən sandıq formasında yundan toxunan, yanlarında dəri qulpları olan ev müxəlləfatıdır. Lakin Gənzə kəndində bizə göstərilən məfrəc ipəkdən toxunmuşdu[7]. Gəlin köçən qızların cehizi, yorğan-döşəyi onun içinə yığılırdı. Dəzgahda kişilər tərəfindən toxunan məfrəcin üzərində gül-çiçəkli və həndəsi naxışlar vurulurdu. Şəfi usta, Qədir usta ötən əsrdə yaşayan təcrübəli məfrəc toxucuları idilər. Göstərilən dövrdə keçəçi Allahverdi də peşəsinə görə bölgədə tanınırdı.

Əvvəllər meyvələr Ordubad şəhərindəki konserv zavoduna təhvil verilir, satış məqsədilə Qafana və Şərura aparılırdı. Qərbi Azərbaycana gedən yol *Hacı İsmayıl dolaylarından* keçirdi. Məlumatçılara görə, *Xərəcəbr* yolunu adlayıb Mehri yolundakı *Salam* təpəsindən ötərdilər. Salam təpəsindəki pirdən keçərkən oranı ziyarət edib, "salam" verərdilər. Çobanlar da bu yollardan ötüb *Gədik* yaylağına gedərdilər. Sovet dövründə sürülərini Qərbi Azərbaycandakı *Göydaşbaşı* yaylağına da aparardılar.

***Nüsnüs kəndi.*** 08 iyul 2023-cü il tarixində kəndə səfər etdik. Sakinlərin dediyinə görə, 2-3 əsr bundan öncə kəndə ilk gələnlər İrandan olan əslən azərbaycanlı Hacı Əsgər, Hacı Abbas və Qədimli tayfaları idilər. Onlar əvvəlcə Pir dərəsində məskunlaşmış, sonradan əhali artdıqca müxtəlif məhəllələr salınmışdır. Kənddə *Saq (Sad), Meydan, Top, Mırqalan, Çuxur, Çaylı* və yeni yaranan *Yuxarı bağ* məhəllələri var. Çaylı məhəlləsində İrandan qovulan Məşədi Hüseyn tayfası məskunlaşmışdır.

Məlumatçılara əsasən, Nüsnüs kəndinin adı buradakı *40 kimsənə piri* ilə əlaqədar yaranmışdır. Rəvayətə görə, 40 nəfər pirdə gizlənir və onları axtaranlara deyilir ki, "nisti-nisti", yəni "yoxdu-yoxdu". Beləliklə, kəndin adı "Nis-nis", "Nüsnüs" qalır. Məlumatın elmi izahına ehtiyac duyulur.

XIV-XV əsrlərə aid *Nüsnüs hamamı* yarım dağılmış vəziyyətdədir və əsaslı təmirə ehtiyacı var. Nüsnüsdə 3 məscid yerləşir. Deyilənə görə, onlardan biri 1790-cı ildə osmanlılar tərəfindən tikilmişdir. Burada iki məşhur pirə – 40 kimsənə və Yalquz ağac pirinə ətraf rayonlardan, hətta Bakıdan ziyarətçilər gəlirlər.

Əkinçilik əsas təsərrüfat sahəsi olub, buğda, arpa, çovdar əkilir. Kənddə lap qabaqlar 4 dəyirman (Hacı Məhəmməd, Hacı İsmayıl dəyirmanları və s.) işləyirmiş. Çaylı məhəlləsində XX əsrin 90-cı illərinədək fəaliyyət göstərən Molla İsrafilə məxsus su dəyirmanı vardı. Son dövrlərdə əsaslı təmir olunaraq yenidən istifadəyə verilib.

Heyvandarlıq, əsasən qoyunçuluqdan ibarətdir. Burada bağçılıq (üzüm, tut, cəviz, gilas, zoğal) da inkişaf edib. Quru meyvələr İrəvana, Qarabağa və aran rayonlarına göndərilirdi.

Kənddə kilimtoxuma, həsirtoxuma əsas toxuculuq sahələrindəndir. 1918-ci il təvəllüdlü Xanpəri Musa qızı Ramazanova səriştəli kilimtoxuyan olmuşdur. Toxucular dəmir kirkitlərdən deyil, dağ keçisi və maral buynuzundan hazırlanan kirkitdən istifadə edərdilər.

---

[7] Məlumatçı: Hacı Abbas Müzəffər oğlu Məmmədov 1935-ci ildə Gənzə kəndində anadan olmuşdur.

Hacı Abbas adlı kənd sakini XX əsrin əvvəllərində evində dini tədris etmiş, sonra o, burada kənd camaatının köməkliyi ilə ikisinifli məktəb açmışdır.

***Vələver kəndi.*** 10 iyul 2023-cü ildə kənddə olduq. Bu kənd Vələver şəhərinin xarabalığı üzərində salınmışdır. Sakinlərin məlumatına əsasən, burada seyidlər nəsli yaşadığından kəndə həm də "Seyidlər kəndi" deyilir. XIX əsrin sonu – XX əsrin əvvəllərində kənd məscidində Molla Qafar müdərris olmuş, sovet hakimiyyəti qurulduqdan sonra o, sürgün olunmuşdur. Kənd sakini Mir Cəfər ağa 1980-ci illərədək yaşamışdır. XIV əsrə aid Vələver piri ("Balayi-pir" də adlanır) 7-ci imam Museyi-Kazımın övladlarının məzarları ətrafında yaranmışdır. Deyilənə görə, ziyarətgahda torpağa tapşırılan islam müqəddəsləri Qərbi Azərbaycandakı Buğakar[8] pirində dəfn olunanlarla qohumdurlar. Bu səbəbdən də ordubadlılar Vələver piri ilə yanaşı, Buğakar pirini də ziyarət edərdilər.

Kənddə iki məzarlıq – Seyidlər və Rəiyyət qəbiristanlıqları var. Qoduxlar kəndində basılan kəhrizin lağımları əvvəllər Vələver kəndinə də uzanır, hazırda isə kəhriz mövcud deyil. Əhali çay və quyu suyundan istifadə edir. Keçmişdə baramaçılıq inkişaf etsə də, indi bu sahə tənəzzülə uğramışdır.

***Vənənd kəndi***. 11 iyul 2023-cü ildə kənddə olduq. Kənd *Burçunlu* (*Borsunlu), Dənədaşı, Dıplıca, Qoçdönəyi, Kilsəbaşı* və digər məhəllələrə ayrılır. Meydanda Cümə məscidi, Borsunlu, Abidin və Uzunküçə məhəllələrində isə məhəllə məscidləri yerləşir. Vaxtilə burada alban kilsəsi də olmuşdur. Əvvəllər bolsulu kəhrizi olsa da, indi yoxdur. Vənənddə 4 dəyirman işləyirmiş, hazırda onlardan *Hacı Mir Salehin dəyirmanı* qalıb. Kəndin "*Meydan*" və "*Divanxana*" adlı iki meydanı, *"Mişov", "Çuxurçeşmə", "Nağdı"* adlı çeşmələri və hamamı var. XVII əsr abidəsi olan *Vənənd hamamı* Şərq memarlığına xas tağtavanlı və günbəzli olub, bişmiş kərpicdən inşa edilmişdir.

Cümə məscidi XIV əsrdə tikilsə də, sonralar binada dəfələrlə təmir-bərpa işləri aparılmış, ona yeni tikililər əlavə olunmuşdur. Məscidi 1732-ci ildə Məhəmməd Mömin Vənəndinin oğlu Məhəmməd Rza bərpa etdirmişdir.[9] Deyilənə görə, kənddə Səfəvilər və Nadir şah dövrünə aid kitabələr vardı və onlar illər öncə Bakıya aparılmışdır.[10] Ədəbiyyat materiallarında Vənənd kəndindəki Cümə məscidi kitabəsinin mətnini oxuya bildik. Kitabədə (h.1145/1732) Osmanlı-Səfəvi müharibələri dövründə əhalinin güzəranı haqqında məlumat verilir: *"...bahalıq və qəhətlik nəticəsində zəmanə cəhənnəmi andırırdı. Zəmanə elə pis olmuşdu ki, Vənənd kəndi və onun ətrafı bir il içərisində üç dəfə talan edilmişdi. Bir çox müsəlman qadın və kişilər öldürülmüş və əsir alınmışdır. Digər Allah bəndələri qaçaraq Arazı keçmiş, o taydakı kəndlərdə məskən salmışdılar. O pozğunluq zamanında alver qapısı bağlanmışdı...".*[11]

---

[8] Mehri rayonunda yerləşən Buğakar ziyarətgahı sərkərdə Buğa əl-Kəbirin adından götürülmüş, xalq arasında Sultan Seyid Əhməd piri kimi tanınırdı. 1988-ci ildə azərbaycanlıların növbəti deportasiyasından sonra ermənilər tərəfindən dağıdılmışdır.

[9] Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, s.462.

[10] Məlumatçı: 1958-ci ildə Vənənd kəndində anadan olmuş Hüseyn Mustafa oğlu Məmmədov.

[11] Azərbaycan tarixi: Yeddi clddə. III cild (XIII-XVIII əsrlər). – Bakı, "Elm", 1999, s.472.

Söylənənlərə görə, Ehsan xan Naxçıvanskinin Vənənd kəndində bağı vardı və o, hər yay burada dincələrdi. Nağdı çeşməsini Ehsan xan Naxçıvanski qazdırmışdır.[12]

Vənənd kəndində yallı rəqsinin xüsusi növü var. Rəqs edənlər hər birinin başçısı olmaqla iki qrupa bölünür və yarış tipli keçirilir. Maraqlı adət-ənənələri ilə yadda qalan Vənənd kəndində Ordubad qayğanağına da qonaq olduq.

***Düylün kəndi***. 12 iyul 2023-cü il və 09 iyul 2024-cü il tarixlərində kənddə çöl tədqiqatı apardıq. Düylün kəndi Araz çayının sol qolu olan eyni adlı çayın yaxınlığında yerləşir. Camaat bildirir ki, kəndin adı "Dü Gilan", yəni "ikinci Gilan" kəlməsindən yaranmışdır. Kənd *Qarayazı, Diklər, Micar, Düz məhəlləsi* və s. məhəllələrə ayrılır. Deyilənə görə, yerli əhali kəngərlilər (Hacı Hüseynlilər) sayılırlar.

Sıldırım qayalıqlarla əhatələnən *Düylün qalası* orta əsrlərdə gözətçi məntəqəsi rolunu oynayırdı. XVIII əsr abidəsi olan *Düylün hamamı* çaydaşı, dağdaşı ilə tikilmiş, hazırda uçuq-sökük vəziyyətdədir. Ötən əsrin 80-90-cı illərinədək işlək olan bu hamama ətraf kəndlərin sakinləri də gələrdilər. Kəndin mərkəzində yerləşən *Çeşməbaşı meydanı* hazırda isə mövcud deyil. *Düylün pirində* deyilənə əsasən, VII imam Museyi-Kazımın övladları dəfn olunmuşdur. 2000-ci illərin əvvəllərində ziyarətgah yenidən tikilmişdir.

XX əsrin 60-70-ci illərində çaydaşı və gəcxakla tikilən ikimərtəbəli və kürsülü evlər hələ də istifadədədir. XIX əsrdə İrandan kəsbkarlığa gələn, sonradan burada məskunlaşanların evləri isə möhrədən və çiy kərpicdən tikilmişdir.

Kənddə əkinçilik, bağçılıq (üzüm, tut, ərik və s.), baramaçılıq, maldarlıq təsərrüfatları mövcuddur. Keçmişdə ağartı məmulatı Naxçıvan, Bakı, İrəvan bazarlarına çıxarılardı. Deyilənə görə, kasıbların belə 30-40 baş davarı olardı. Düylün pendiri adla idi.

2024-cü ilin yayında Ordubad rayonunda yenidən çöl tədqiqatlarına davam etdik. Bu dəfə dağlıq və dağətəyi kəndlərə səfər edib, qorunub saxlanan adət-ənənələr və daha arxaik elementlərlə tanış olduq.

***Üstüpü kəndi***. Dağətəyi kəndlərdən olan Üstüpüyə 9 iyul 2024-cü ildə getdik. Kəndin ərazisindəki Qaraquş qayasında pir yerləşir. Naməlum tarixi olan seyid qəbrinin ətrafında tikili yaradılmış və ziyarətgaha çevrilmişdir. Sovet dövründən öcə mövcud olan bu pirdə qurban kəsilir, çay ehsanı verilir. Şəfa tapmaq, əsgərlikdən sağ-salamat qayıtmaq və digər hacətlərin qəbul olması üçün pirə nəzir deyilir. Kənd sakinlərinin dediyinə görə, pir dağın başında yerləşdiyindən oykonim "Üstüpü", yəni "üstü pir" adlandırılmışdır.

Üstüpü kəndində *Nəbili, Muxtarlı, Məşədi Abdullalı* və digər nəsillər məskunlaşmışlar. Burada köklü əhali yaşasa da, Sisyandan köçən *Ağamədli* (Ağa Məmmədli) nəsli də məskən salmışdır. Bir neçə qardaş eyni həyətdə yaşayır və eyni təsərrüfatla məşğul olurlar. Buna ordubadlılar "cur" deyirlər. Deyilənə görə, vaxtilə Üstüpüdə 300 cur (yəni təsərrüfat) vardı.[13] Məlumatçılara əsasən, keçmişdə əhalisi yarımköçmə

---

[12] Məlumatçı: 1934-cü ildə Vənənd kəndində anadan olmuş İbrahim Murtuz oğlu Rzayev.

[13] Məlumatçı: Həsənov Abdulla Məhəmmədhəsən oğlu 1945-ci ildə Üstüpü kəndində anadan olmuşdur.

təsərrüfatla məşğul olur, yaylaqları Rumus, aran əraziləri isə Üstüpü idi. Əvvəllər burada qoç heykəlləri olan köçəri qəbiristanlığı da mövcud olmuşdur[14]. Kollektivləşmə dövründə yarımköçəri əhali oturaq həyata keçdi.

*Hacıalı, Qoçəli, Peşzəmi* (*Xanlıq* məhəlləsinin əvvəlki adı), *Şərifbəy* və s. Üstüpü kəndinin əsas məhəllələri sayılırlar. Xanlıq məhəlləsində xanların istirahət evləri olmuş, Azərbaycanda sovet hakimiyyətinin qurulduğu dövrdən başlayaraq 1950-ci illərədək həmin binalar məktəb kimi fəaliyyət göstərmişdir. Geniş həyəti olan həmin birmərtəbəli evlər əvvəlki inşaat xüsusiyyətlərini saxlamaqla dəfələrlə təmir edilmişdir. Bundan başqa, yerüstü qaradamlar da mövcud olmuşdur. Belə evlərdə qəfxanadan ümumi otağa (bura oturmaq, həmçinin yataq otağı kimi nəzərdə tutuldu) və tövləyə iki qapı açılırdı. Divarlarına cecim vurulur, döşəməsinə palaz salınırdı.

Kənddə kitabəsi olan iki məscid (Aşağı və Yuxarı məscid) var. Ötən əsrin 50-ci illərinədək işlək vəziyyətdə olan kənd hamamının hazırda saxsı su tünglərinin qırıqları qalmışdır. Əvvəllər 3 dəyirmanı olsa da, indi onlardan biri qeyri-işlək, digərinin isə qalıqları mövcuddur.

Keçmişdə taxılçılıq (arpa, buğda) sakinlərin ehtiyacını qismən ödəyirdi. Onlar Aza stansiyasından dəmiryolla Qarabağa (Mincivan, Füzuli) gedər, meyvə qurusu satıb taxıl alırdılar. XX əsrin 60-cı illərinədək kənddaxili yollarda ikitəkərli və dördtəkərli öküz arabasından istifadə edirdilər. Hazırda bostan və dirrik məhsulları (kələm, kartof, lobya, maş və s.) əkini genişlənmişdir.

Digər kəndlər kimi Üstüpüdə də da orta məktəb, uşaq baxçası, kitabxana mövcuddur.

***Biləv kəndi.*** 11 iyul 2024-cü ildə Zəngəzur dağlarının ətəyində, Gilan çayının sahilində yerləşən Biləv kəndində çöl tədqiqatı apardıq. Kənd ərazisi *Keçəçi, Kəndiçi, Yencə, Karalı, Rəzgə, Xəlfəli, Şıx, Güney, Şkol yeri* (XIX əsrin sonunda həmin ərazidə rus-tatar məktəbi açılmışdır) və s. məhəllələrə bölünür. Sakinlərin dediyinə görə, keçmişdə kənd ərazisindən ticarət yolları keçirdi. Əsas yol Biləv → Cərəcur → Culfa → Əbrəqunus → Çeşməbasar → Naxçıvan; digər yol isə Biləv → Pilləpan → Cənnab → Əylis → Ordubad → Təbriz sayılırdı.[15]

Biləv kəndi ənənəvi məişətini qorumaqdadır. Kənddə maldarlıq, bostançılıq (kartof, lobya, kələm, pomidor və s.), bağçılıq (qoz, tut, alma, ərik və s.), arıçılıq inkişaf etmişdir. XX əsrin 40-50-ci illərinədək kürsülü evlər, təndir evlər qalmaqda idi. Hazırda yaşayış evləri Г və П formasında tikilir.

Biləvlilər tarixən bölgədə baş tutan erməni qırğınlarından, Andronikin hücumlarından da söz açdılar. 1918-ci ildə ermənilər kəndə hücuma keçir, dinc əhali isə məcburən Yayçı kəndinə (Culfa) çəkilir. Ermənilər Parağa, Bist və Cənnab tərəfdən Biləvi mühasirəyə alırlar. Gilançayı keçən biləvlilər arxadan düşmən gülləsinə tuş gəlir və bir neçə nəfər həlak olur. Əhalinin bir qismi çayı keçib Babək qalası yaxınlığında Haramı dikindən Yayçıya çatır, bəzi ailələr isə İran Culfasına keçirlər.

[14] Məlumatçı: Nəcəfov Ramiz Paşa oğlu 1962-ci ildə Üstüpü kəndində anadan olmuşdur, Naxçıvan Dövlət Universitetinin məzunu, tarixçi.

[15] Məlumatçı: Əmirov Qurban Əli oğlu 1957-ci ildə Ordubad rayonu Biləv kəndində anadan olmuş, kimya-biologiya müəllimi, arıçı.

Hücumlar səngidikdən sonra öz yurdlarına qayıdan biləvlilər görürlər ki, ermənilər kəndi qarət edib yandırmışlar.

Biləv kəndində təsərrüfat məişəti (əsasən arıçılıq), evtikmə, kərpickəsmə, toy və bayramlar, Aşura mərasimi və digər məsələlər barədə maraqlı materiallar əldə etdik.

***Unus kəndi***. 12 iyul 2024-cü il tarixində kəndə getdik. Dağ kəndlərindən olan Unus, Pəzməri və Kələki XX əsrin 30-40-cı illərində eyni inzibati vahiddə birləşmişdilər. Kənd sakinlərinin dediyinə görə, kəndin adı "u nist", yəni "o yoxdur" ifadəsindən yaranmışdır.

Unusda bostan bitkiləri (maş, xiyar, pomidor və s.) əkilir, mal-qara və əsasən xırdabuynuzlu heyvanlar (qoyun, keçi) saxlanılır. Cəviz və tut ağacları firavandır. Yaxın keçmişdə bu meyvələri qatarla İrəvana aparıb satardılar. Aclıq illərində tut yarpaqlarından çay dəmləyib içir, tut və cəviz ləpəsini qarışdırıb yeyərdilər.

XIX əsrdə dəyirman mövcud olsa da, hazırda *Rəhim kişinin dəyirmanı* yalnız yaddaşlarda qalmışdır. Kəndin müxtəlif peşə sahibləri insanların xatirində yaşamaqdadır. Yaşlılar XX əsrin ortalarında yaşamış qalayçı Xeyrulla, nalbənd Qasım haqqında bəhs edirlər. Unus kəndində palaztoxuma peşəsi də mövcud idi.

Unus kənd məscidi sovet dövründə də fəaliyyət göstərirdi. Kənddə yerləşən *Tiri piri* və *Çimənək piri* hazırda kənd əhlinin inanc yerlərindəndir. Hər ikisində mömin qəbirləri var. Sakinlər bildirirlər ki, hər iki pirin kəraməti güclüdür. Tiri pirində niyyət edib yatırlar.

*Gəlin qaya* Unus və Pəzməri kəndləri arasında yerləşir. Dağın yüksəkliyində olan bu abidə insan fiqruna bənzədiyindən xalq onu müqəddəsləşdirmiş, haqqında nağıllar, rəvayətlər nəql etmişlər: Gəlin başını yuyanda qaynatası onu gördüyü üçün o, üzünü Allaha tutub yalvarır ki, yaradan onu daşa döndərsin:

*Allah, məni daş eylə,*
*Necə baxım o kişinin üzünə?*
*Necə edim görünməyim gözünə?*
*Deməz ki, gəlində qalmayıb haya?*



*Arı pətəkləri. Ordubad*

***Bist kəndi***. 13 iyul 2024-cü ildə Zəngəzur dağlarının yamacında, Gilan və Nəsirvaz çayları arasında yerləşən Bist kəndində olduq. Əhalinin ənənəvi məşğuliyyəti bağçılıq (əsasən tut və cəviz

bağları), maldarlıq, arıçılıq, toxuculuq, ip əyiriciliyi və s.-dən ibarətdir. Yun və gəzildən əsasən palaz, cecim, heybə, xurcun toxunur. Keçmişdə payız aylarında Qafandan mal-qara gətirər, İrəvana bazarlığa gedərdilər.

Sakinlərin fikrincə, burada ilkin məskunlaşma zamanı 20 ev tikildiyindən oykonim "iyirmi" sözündən ("Bist" – farsca "20" deməkdir) yaranmışdır. Bəzilərinin dediyinə görə, oykonim "ikiçayarası" və ya "dərə", "vadi" mənasını verir. Kənd yuxarı və aşağı olmaqla iki hissədən ibarətdir. Yerlilərin bir qismi özlərini Türkmənçay sülhündən sonra Mərənd və ətraf yerlərdən gəlmə hesab edirlər.[16]

Kənddə ziyarətgah yeri olan məscid, Sarı pir (Daş piri), Təknəli çeşmə piri, I və II Bist körpüləri (XVII əsr), Dəyirman çeşməsi və digər tarixi abidələr mövcuddur.

Geniş həyətlərdə bir neçə qardaşın ailəsi birgə yaşayırlar. Təsərrüfatın, ailənin idarə olunmasında, xeyir-şər işlərində ağsaqqalın sözü hakimdir. İdarəçilikdə böyük qardaşın da rolu danılmazdır. Nənə-baba, ata-ana və uşaqlardan ibarət böyük ailələr indiyədək qalmaqdadır. Babaya "dədə", "ağa", babanın adını qoyduqları nəvəyə "dadaş" deyilir. Keçmişdə *təndir evlər* də mövcud idi. Böyük ailələr üçün nəzərdə tutulan geniş sahəyə malik belə evlər birotaqlı olub, mərkəzində təndir yerləşirdi. 5-7 qardaşın ailəsi pərdə vasitəsilə arakəsmələr yaradaraq eyni otaqda, yəni təndir evlərdə yaşayırdılar. Təndir evlərin divarları və döşəməsi torpaqla suvanır, pəncərəsi olmazdı. Tavanına tut və söyüd ağacından pərdilər qoyulurdu. Otaq qaranlıq olduğundan gündüz çağı da şam və neft lampası yandırılırdı. Döşəməsinə palaz sərilir, otaqda yük, mətbəx avadanlığı olurdu. Təndirə çörək yapılır, çölmək, ya qazanda xörək bişirildikdən sonra ocağın istisi zəiflədikdə ondan kürsü kimi istifadə edilirdi. Üzərinə palaz, yaxud yorğan salınır, soyuq qış aylarında ailə üzvləri kürsü ətrafında isinirdilər.



*At arabası. Ordubad rayonu, Darkənd*

***Tivi kəndi***. 15 iyul 2024-cü ildə kənddə tədqiqat apardıq. Deyilənə görə, "Tivi" sözü "dəvə boynu" mənasındadır.[17] Geniş əraziyə malik Tivi kəndi bir sıra məhəllələrə – Həsənalı, Qaraməlik, Meydan, Hacıbağı, Həsənli, Peykanlı, Yuxarı məhəllə və s. bölünür. Yuxarı məhəllədə vaxtikən iki fin evi tikildiyindən həmin məhəlləyə həm də "Finski dam" deyilir. Kənddə XX əsrin 60-cı illərinədək *təndir evlər* mövcud olmuşdur. Onlar çaydaşı və ya çiy kərpiclə hörülür, ağ torpaq, saman qarışığından ibarət palçıqla suvaqlanırdı.

Kənddə çarizm dövründən mövcud olan divanxana binasında sonralar məktəb

[16] Məlumatçı: Teymur Bəylər oğlu Balayev 1940-cı ildə Bist kəndində anadan olmuş, tarix müəllimi.
[17] Məlumatçı: Həsənov Hüseynağa İbrahim oğlu, 1964-cü ildə Tivi kəndində anadan olmuş, mühəndis.

fəaliyyət göstərmişdir. 2005-ci ildən yeni məktəb binası inşa olunmuşdur.

*Kəblə Qurbanəlinin dəyirmanı, Kəblə Qədiminin dəyirmanı* hazırda işlək deyil. Kənd ərazisində Narzan mineral suyu çıxır. Tivililər *Qara pir, Qaradaş piri, İbrahim piri, Palıd piri, Navış piri, Meydan piri, Dəyirman piri, Tağının piri* və s. ziyarətgahlara pənah aparırlar.

Tivi əhli qonaqpərvərliyi, eyni zamanda dindarlığı ilə seçilir. Yaxın keçmişədək burada Aşura günü şəbihlər göstərilirdi. Tədqiqat zamanı Tasua (məhərrəm ayının 9-cu günü) mərasimində iştirak etdik. Məsciddə yerdə süfrə çəkilmiş, müxtəlif taamlar (çay, xurma, limon, plov və s.) ehsan verilirdi. Deyilənə görə, XIX əsrin sonu – XX əsrin əvvəllərində Məşhəddə dini təhsil alan Məşədi Muxtar adlı tivili yüksək nəticə göstərdiyi üçün ona ələm bağışlanıb və deyilib ki, ələmdən yığdığı pulu yoxsullara paylasın. Həmin ələm hər dəfə Aşura günləri izdiham arasında gəzdirilir, qətl sınandan sonra kəcavənin üstündə "yatır", yəni kəcavənin üstünə qoyulurdu. Nəziri olanlar ələmə yaylıq, pul, üzük bağlayır, dilək tuturdular. Məlumatçıların şifahi təsvirlərinə görə, Aşura günü kəcavədə oturan molla yanında iki qara atla birgə kəndi dolaşırdı. Bu zaman şəfa diləyənlər atın ayağının altından torpaq götürür, parça kəsib qollarına bağlayırdılar. İnanclı əhali şaxsey gedir, zəncir vurur, baş yarırdı. Həmin gün nəzir deyən və ya diləyi qəbul olanlar hədik, bal şərbəti, turşu-qovurma plov və s. yeməklər ehsan verər, qurban kəsib paylayardı. Aşura axşamı şəmi-qəriban gecəsi keçirilirdi: işıqlar söndürülür, şam işığında imam və imamzadələrin həyatından bəhs edən dini şeirlər – sinəzən deyilirdi. Sinəzən qurtaran kimi işıqlar yandırılsa da, şamlar söndürülməzdi. Həmin gecə səhərədək yatmır, dua edərdilər. Aşuranın səhəri günü – *məzar günü* qeyd edilər, iş görülməzdi, təmizlik işləri belə təxirə salınardı.

Xatırladaq ki, Tivi kəndində belə kollektiv tədbirlər həm dini mərasimlərdə, həm də dünyəvi bayramlarda keçirilirdi. Hazırda Ordubad şəhərində mövcudluğunu qoruyan Novruz bayramındakı Xan bəzəmə oyunu keçmişdə Tivi kəndində məşhur idi.

***Dəstə kəndi***. 16 iyul 2024-cü ildə kəndə getdik. Kənddə hicri 1019-cu ildə (1610-1611-ci il) Əbdülxan Cavad oğlunun əmri ilə Məşədi Hüseynəlinin oğlu Hacı Məhəmməd Nəqi tərəfindən inşa edilən Came məscidi mövcuddur[18]. Burada keçmişdə mollaxana fəaliyyət göstərmiş və hər birində 2-3 şagirdin oxuduğu üç hücrə vardı. XIX əsrin sonlarında Nəcəfdə təhsil almış Hacı Mollalı axund mollaxananın uzun illər müdərrisi olmuşdur. Came məscidində izdihamlı Aşura mərasimini müşahidə etdik. Həmin gün nəzirlər paylanır, ehsanlar verilirdi. Uzun illər sonsuzluqdan əziyyət çəkən ailənin əkiz övladları olması münasibətilə 10 qazan aş (turşu-qovurmalı plov) nəziri demiş və Aşura günü mərasim zalında bütün kənd əhlini ehsana dəvət etmişdi.

Came məscidindən başqa kənddə məhəllə məscidləri – *Hacı Allahverdi məscidi, Sahibülzaman məscidi, Meydan məscidi, Şingilək məscidi* və hamam var. Əvvəllər 4 dəyirmanı olsa da, hazırda fəaliyyət göstərmir. *Abbasəlinin dəyirmanı* ötən əsrin 40-50-ci illərinədək işlək vəziyyətdə idi.[19]

---

[18] Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, s.297.

[19] Məlumatçı: Bağırov Hüseynağa Məmmədağa oğlu, 1959-cu ildə Dəstə kəndində anadan olmuş, Naxçıvan Pedaqoji İnstitutunun məzunu, tarixçi.



*Came məscidi. Ordubad rayonu, Dəstə kəndi. Aşura günü. 2024*

Dəstə əvvəllər mahal mərkəzi olmuşdur. Səfəvi-osmanlı müharibələrində bu kənddə də döyüşlər getmişdir. Deyilənə görə, 1586-cı ildə adlı ərazidə Cəfər paşanın başçılığı ilə Osmanlı qoşunu Ordubada hücum çəkmiş və *Qanlı dərə* ərazisində döyüş olmuşdur. Dəstə sakinləri indiyədək həmin ərazidə və *Tophasar* adlı yerdə Səfəvi-Osmanlı müharibələrinin xatirələrini paylaşırlar.

Kənddə 3 xeyriyyəçilik cəmiyyəti fəaliyyət göstərir: Dəstə Xeyriyyə Cəmiyyəti, Dəstə Xeyriyyə fondu, Əhli-Beyt qrupu. Onlar yardıma ehtiyacı olanlara, imkansızlara köməklik göstərirlər. 2023-cü ildə xeyriyyəçilər evi yanan kənd sakininə əl tutmuş, mənzilini təmir etdirmişlər. Xeyriyyə cəmiyyətləri bayramlarda imkansızlara, şəhid ailələrinə pay göndərir. Xeyriyyə cəmiyyətlərindən savayı, kənd əhli arasında qarşılıqlı yardım formaları hələ də qalmaqdadır. Kənddə adını bildirməyən şəxs hər gün pulsuz çörək payladır. Hüzr düşən evlərdə qohum-qonşular fiziki, maddi və mənəvi köməklik göstərir, ailəni qənd, çay, yağ, düyü, gülab, pul və digər lazımi ləvazimatla təmin edirlər.

Ordubadın digər kəndləri kimi Dəstədə də əsasən bağçılıq, tərəvəzçilik, taxılçılıq (buğda, arpa) öndə gedən təsərrüfat sahəsi idi. Son illər iqlimlə bağlı meyvəçilik xeyli zərər görmüş, məhsuldarlıq aşağı düşmüşdür. Maldarlıq keçmişdə yaylaq-qışlaq formada deyil, şəxsi təsərrüfatlarla əhatələnirdi. Hazırda da şəxsi və fermer maldar təsərrüfatları var. Əvvəllər arıçılıq olmasa da, hazırda kənddə 400-500 arı ailəsi saxlanır.[20] Balıqçılıq inkişaf etmiş, Vənənd və Aza çaylarında əllə, tilovla və tor qurmaqla balıq tutulur.

**T.ü.f.d., dos. Tahir Şahbazov "Təsərrüfat həyatı", "Mədəni həyat və ədəbi mühit"** mövzusunda tədqiqat aparmışdır:

Dörd bir yandan çılpaq dağlar və dağ zirvələri ilə əhatələnən Ordubadın məhsuldar torpaq fondu çox azdır. Buna baxmayaraq, ordubadlılar özlərinin tükənməz

[20] Məlumatçı: Quliyev Mehdi Rəcəb oğlu, 1956-cı ildə Dəstə kəndində anadan olmuşdur.

yaradıcı enerjisi, alın təri və ulularımızdan əxz etdikləri təcrübə və empirik biliklər sayəsində bu çılpaq dağların qoynunda, daşlı-çınqıllı ərazilərdə əməlli-başlı cənnət yaratmağı bacarıblar. Təsadüfi deyil ki, Ordubadda inkişaf səviyyəsindəki fərqlər nəzərə alınmaqla, demək olar ki, təsərrüfat məişətinin bütün sahələrinə rast gəlmək mümkündür.

Belə təsərrüfat sahələrindən biri də ***əkinçilik****dir*. Bu sahə tarixən rayonun bəzi kəndlərində (Gənzə, Nüs-Nüs, Kələki, Bist, Tivi və s.) daha çox şəxsi ehtiyacların ödənilməsinə xidmət etmişsə də, bəzi kəndlərində (Düylün, Vənənd, Üstüpü, Əndəmic, Dəstə və s.) qismən əmtəə-bazar xarakteri daşımışdır. Məsələn, məlumatçıların sözlərinə görə, vaxtilə Düylün kəndində haradasa 250 hektar sahədə taxıl (arpa, buğda, xüsusilə də lobya (maş)) və tütün əkilmişdir ki, bu da Ordubad şəraitində çox böyük rəqəmdir. Vənənd kəndinin “Yazı” adlanan ərazisində geniş taxıl sahələri (arpa, buğda) mövcud olmuşdur. Əndəmicdə isə taxıl bitkiləri ilə yanaşı, böyük həcmdə kartof əkilib-becərilmişdir. Ötən əsrin 70-ci illərində təkcə Biləv kəndinin taxıl sahələrindən 250-300 ton məhsul toplanmışdır. İnformatorlarımızın dediyinə görə, yalnız kəndlərdə deyil, Ordubad şəhərinin ətrafında da geniş əkin sahələri olmuş, burada müxtəlif taxıl və tərəvəz bitkiləri yetişdirilmişdir.

Lakin əkin sahələri daha çox Ordubadın dağ çaylarının – Gilançay, Parağaçay, Vənəndçay, Ordubadçay (Dübəndi), Əylisçay və Düylün çaylarının vadilərində salınmışdır. Digər ərazilərin əkin sahələri də bu çaylardan çəkilən arxlar, bəzən də kəhriz və çeşmə (bulaq) suları ilə suvarılmışdır. Həmin çaylar indi də Ordubad əhalisinin mühüm həyat və yaşam vasitələrindən biri olaraq qalmaqdadır.

Məlumatçıların sözlərindən aydın olur ki, keçmişdə torpağı ata və ya öküzə qoşulmuş xışla şumlayır, xurcunlara doldurulmuş toxumluq taxılı əllə səpir, yetişdikdə əllə – oraq və çinlə biçir, dərzləyib yenə də at və öküz arabaları ilə xırmana daşıyır və burada vəllə döyüb təmizləyirdilər.

Hər kəndin öz dəyirmanı (bir və ya bir neçə) olmuşdur. O dəyirmanlar ki, əksər hallarda qalıqları, nadir hallarda da modernləşdirilmiş halı günümüzədək gəlib çatmışdır: Unusda Heydər kişinin dəyirmanı, Dəstədə Abbasəlinin Vənənd çayı üzərindəki dəyirmanı (ötən əsrin



*Qoyun sürüsü. Ordubad rayonu, Aza kəndi*

50-ci illərinə qədər işləyib), Tivi kəndində Kəblə Qurbanəlinin, Teymurun və Kəblə Qədimin dəyirmanları, Kələkidə Rəhim kişinin dəyirmanı, Düylündə Haşımın dəyirmanı, Nüs-nüsdə Molla İsrafilin 4 dəyirmanı onlardan bəziləridir. Hazırda Ordubadın dünya görmüş sakinlərinin yaddaşlarında bu dəyirmanlarla bağlı çox maraqlı və şirin xatirələri qalmışdır.

Lakin onu da qeyd etməliyik ki, ümumilikdə əkinçilik Ordubadda heç vaxt təsərrüfatın aparıcı sahəsi olmamışdır ki, bunun da əsas səbəbi onun iqtisadi səmərəsizliyi idi. Çünki bölgənin sərt iqlim və relyef şəraiti, eləcə də bu sahənin kütləvi inkişafı üçün tələb olunan xərclərin gəlirləri artıq dərəcədə üstələməsi onun inkişaf etdirilməsinə imkan verməmişdir.

Əkinçilik kimi maldarlıq da Ordubad rayonunda otlaq sahələrinin azlığı üzündən nisbətən zəif inkişaf etmişdir. Çünki yuxarıda da deyildiyi kimi, rayon ərazisinin çox hissəsi çılpaq dağlardan, daşlı-qumlu sahələrdən ibarətdir. Bununla belə, yerli sakinlər min bir zəhmət hesabına irili-xırdalı maldarlıq təsərrüfatları yaratmış və nə qədər təəccüblü görünsə də, müəyyən uğurlara nail ola bilmişlər. Belə ki, Ordubad rayonunun bir sıra kəndlərində, həmçinin şəhərin özündə, şəxsi təsərrüfatlarda kifayət qədər qoyun keçi, camış, inək, at, qatır və s. bəslənilmişdir.

Belə kəndlərdən biri də Kotam kəndidir. Keçmişdə Kotamda maldarlığın qoyunçuluq sahəsi daha geniş yayılmışdı. Məlumatçıların sözlərinə görə, yay mövsümündə qoyunçular Sübhanverdi və Ətapar yaylaqlarına qalxır, payız-qış mövsümünü isə kəndin özündə keçirirdilər.

Kələki çobanlarının yaylaq yeri isə kənddən 10-15 km aralıda yerləşən Xəlil yurdu deyilən yaylaq idi. Onlar da kotamlılar kimi, payız-qış mövsümünü kəndin özündə keçirirdilər. Gənzədə, Nüs-nüsdə, Vənənddə də maldarlıqla (əsasən qoyunçuluq və keçiçilik) məşğul olan əhali qrupları olmuşdur.

Düylün kəndində maldarlıq yaxşı inkişaf etmişdir ki, bu da kəndin müəyyən qədər yararlı torpaq və otlaq sahələrinə malik olması ilə əlaqədar idi. Məlumatçılar bildirirlər ki, sovet dönəmində ən kasıb düylünlünün heç olmasa 2 inəyi və 30-a qədər davarı vardı. Ət-süd məhsulları kənd əhalisinin əsas gəlir mənbələrindən sayılırdı.

Maldarlıq təsərrüfatı rayonun Unus, Bist, Əndəmic, Dəstə, Üstüpü və Biləv kəndlərində də nisbətən geniş yayılmışdı. Xüsusilə də, Bilədvə qoyunçuluq çox inkişaf etmişdi. Sovet hakimiyyəti illərində burada qoyunçuluq ferması mövcud olmuş və qoyunçular yaylaq-qışlaq həyat tərzi yaşamışlar. “Tuzar” və “Şəvgə” Biləv qoyunçularının qışlaq yerləri, “Qız-gəlin çuxuru”, “Nazağa”, “Ayı dərəsi” isə yaylaqları olmuşdur. Ordubad şəhərinin maldar sakinlərinin əsas örüş yerləri isə əsasən Araz çayının sahilləri idi.

Maldarlıq təsərrüfatının ayrı-ayrı sahələri bu günün özündə də bəzi Ordubad kəndlərində qalmaqdadır. Biləv, Üstüpü, Düylün, Aza, Sabirkənd və digər yaşayış məntəqələrində hələ də müəyyən sayda qoyun, keçi, qaramal bəsləyən sakinlər vardır. Sözügedən kəndlərdə səhər saatlarında örüşə aparılan, axşam saatlarında isə örüşdən qayıdan qaramal və azsaylı qoyun-keçi sürüləri ilə tez-tez rastlaşmaq mümkündür.

Bu kəndlərdə istehsal olunan süd məhsulları, xüsusilə də üzlü, üzsüz, qaşar, sərmə, axtarma, ovma, döymə, motal kimi dadlı və yüksək keyfiyyətli pendir növləri yalnız Ordubadda və Naxçıvanda deyil, Azərbaycanın hər yerində məşhurdur.

Məlumatçılarımız bunun səbəbini aşağıdakı şəkildə izah edirlər: *“Ordubadın torpağı şorandır, duzludur. Buranın heyvanları da şoran torpaqda bitən otla qidalandığından, əti də, südü, pendiri də başqa dadda olur”*.



*Tövlə. Ordubad rayonu, Üstüpü kəndi*

Ordubad şəhərində və kəndlərində mövcud olan təsərrüfat sahələrindən biri də tərəvəzçilikdir. Nisbətən yeni olan bu təsərrüfat sahəsinin inkişaf etdiyi kəndlərdən biri Üstüpü kəndidir. Kəndin *“Nəbili yurdu”* adlanan ərazisi əlverişli coğrafi mövqeyi, iqlimi, su ehtiyatları və münbit torpaqları ilə tərəvəzçilik üçün çox yararlıdır. Burada xiyar, bibər, xüsusilə də yerli əhalinin “maş” adlandırdığı lobya və digər tərəvəz bitkiləri yaxşı yetişir. Kəndin torpaqları kələm və kartof yetişdirilməsi üçün də çox uyğundur və sakinlərin də dediyi kimi, buradan tədarük olunan məhsul may ayına qədər yerli bazarı təmin etməyə imkan verir.

Gənzə, Biləv, Düylün, Dırnıs, Vənənd və digər kəndlərdə də növbənöv tərəvəzlər, lobya, bir çox hallarda hətta qovun, qarpız, soğan, sarımsaq və xiyar da yetişdirməkdədir. Məsələn, məlumatçıların sözlərinə görə, ötən əsrin 70-ci illərində Biləvdə bu məqsədlə 1800 hektar torpaq sahəsi ayrılmış və yaxşı da nəticə əldə edilmişdi.

Lakin pomidor əkinçiliyi Ordubadda o qədər də populyar olmamışdır. Bunun bir səbəbi bitkinin yerli şəraitdə məhsuldarlığının aşağı olması idisə, digər səbəbi də ordubadlıların inancları və psixoloji amillərlə bağlı idi. Belə ki, buranın əhalisi keçmişdə “rus yeməyidir”, – deyə pomidor əkmir və yemirdilər. Bununla belə, hazırda rayonun bəzi kəndlərində pomidor əkilib-becərilir. Xüsusilə, “Aza pomidoru” təkcə Ordubadda deyil, bütün Naxçıvanda məşhurdur.

Məlumatçılarımızın sözlərinə görə, sovet dönəmində Biləv camaatı Ordubad konserv zavoduna hər il 600 tondan çox meyvə-tərəvəz verirdi. Biləv tərəvəzi Qapıcıq yolu ilə İrəvan və Naxçıvan bazarlarına da çıxarılırdı. Torpaqlarının bərəkətinə, məhsuldarlığına görə, Ordubad əhalisi arasında belə bir deyim də yayılmışdı: “Göy Allahın, yer biləvlilərindir”.

Unus və Dəstədə də tərəvəzçilik inkişaf etmiş təsərrüfat sahələrindən idi. İnformatorlardan aldığımız məlumata görə, bir vaxtlar Dəstənin lobyası, kələmi, qovun-qarpızı Moskvaya qədər gedib çıxardı.

Tarixən Ordubadın aparıcı təsərrüfat sahələrindən biri də arıçılıq olmuşdur. Arıçılıq demək olar ki, rayonun bütün kəndlərində inkişaf etmişdi. Gənzə, Düylün, Üstüpü, Vənənd, Anaqut, Pəzməri, Dırnıs və s. kəndlərin əhalsinin əsas məşğuliy-yətlərindən biri məhz arıçılıq olmuşdur. Sakinlərin sözlərinə görə, bir vaxtlar Üstüpünün əsrarəngiz "Nəbili yurdu"nda 1400 arı ailəsi bəslənirdi. Biləv, Kələki, Tivi, Dəstə kəndlərində də arıçılıq təsərrüfatının dirçəldilməsinə böyük diqqət və qayğı olmuşdur. Əla dada və keyfiyyətə malik Ordubad balı respublikanın hüdudlarını aşaraq, Təbriz və Tiflis kimi böyük şəhərlərin bazarlarında da satılırdı.

Yeri gəlmişkən, arıçılıq indi də Ordubad əhalisinin ən gəlirli sahələrindən biri olaraq qalmaqdadır. Burada yerli şəraitə daha yaxşı uyğunlaşan Qafqaz arısı və Qara arı bəslənilir. Arıçılığın inkişaf etdirilməsində əksər hallarda müasir texnolo-giyalardan istifadə olunsa da, ordubadlılar dədə-babadan əxz etdikləri empirik bilik və təcrübəni də tətbiq etməkdən çəkinmirlər. Səyyar arıçılıqla məşğul olan peşəkar arıçılar da var. Onlar erkən yazda arı ailələrini aran ərazilərə endirir, yayda – iyunun sonlarında isə dağa qaldırırdılar.

Bəzən xalq arasında Ordubadı obrazlı şəkildə *"böyük bir gül bağçası"*na bənzədirlər. İlk baxışda bu bənzətmə poetik düşüncənin məhsulu kimi görünsə də, əslində həqiqəti əks etdirən bir reallıqdır. Belə ki, Ordubad vaxtilə doğrudan da bir gül bağçası, növbənöv güllərin, çiçəklərin, xüsusilə də qərənfillərin yetişdirildiyi məşhur və çox səfalı bir məkan olmuşdur. Deyilənə görə, Səfəvi sarayının əksər nümayəndələrinin Ordubadda mülkləri, istirahət yerləri varmış və buradan Təbrizə tay-tay gül göndərilirmiş. Məlumatçımızın da dediyi kimi, *"Təbrizin gül bağçası"* deyimi də, çox güman ki, buradan qaynaqlanmışdır.

Aldığımız məlumata görə, indinin özündə də Ordubad Azərbaycanın gül ticarətinin mərkəzlərindən biri sayılır. Çox çətin iqlim şəraitində istixanalarda yetişdirilən Ordubad qərənfilləri göz oxşayır. Belə demək mümkünsə, gül ticarəti üzrə Ordubad Bakı kəndlərinə sözün yaxşı mənasında ciddi rəqiblərdən biri hesab olunur.

Bütün bunlarla yanaşı, etiraf etmək lazımdır ki, tarixən ordubadlıların başlıca təsərrüfat sahəsi bağçılıq olmuş və indinin özündə də belədir. Başqa sözlə desək, Ordubadı şöhrətləndirən, bütün Qafqazda və Yaxın Şərqdə tanıtdıran da elə onun meyvə bağları və dillər əzbəri bağçılıq məhsulları olmuşdur.

Bir vaxtlar Ordubad şəhəri də daxil olmaqla, bütün bölgə bağlarla əhatə olunmuşdu. Məlumatlara görə, XIX əsrin sonlarına doğru təkcə Ordubad şəhərində 500-ə yaxın irili-xırdalı meyvə bağları var idi. Xüsusilə, müasir Ordubadın yeni his-səsinin tamamilə bağ-bağat olduğu deyilir. Ötən əsrin ortalarından etibarən bu bağları məhv edib, ərazisini isə yaşayış evləri tikmək üçün əhaliyə satmışlar.

Sakinlərin sözlərinə görə, şəhərdə və rayonun kəndlərində mer-meyvə o qədər çox olardı ki, Ordubad konserv zavodunun qarşısında məhsul gətirənlərin uzun növ-bələri əmələ gəlirdi. Zavodun həyəti maşınların yük yerindən axan meyvə şirəsi ilə büsbütün islanırdı.

Yerli şəraitdə təsərrüfatın digər sahələri ilə müqayisədə bağçılıq Ordubad əhalisinin əsas gəlir mənbəyi olaraq daha çox fayda vermişdir. Çöl-etnoqrafik materiallarının təhlili göstərir ki, yığılan məhsul qismən ordubadlıların gündəlik tələbatının ödənilməsinə, qismən də taxılçılıq, maldarlıq və ehtiyac duyulan digər kənd təsərrüfatı məhsullarının alınmasına sərf olunurdu. Bir az da konkretləşdirsək, tarixən Ordubad iqtisadiyyatının və təsərrüfat həyatının əsasını bağçılıq təşkil etmişdir və indi də belədir.

Ordubad bağları əsasən Ordubadçay və Araz çayı boyu ərazilərdə, Ordubad düzündə, qismən Dəstə və Culfa düzlərində yerləşmiş və ticarət xarakteri daşımışdır. Bu bağlar iri sahibkarlara məxsus idi. Lakin şəxsi torpaq sahələrində də kiçik bağlar mövcud olmuşdur ki, onlara da el arasında *"xanə bağça"* deyirdilər.

Ordubad bağlarında demək olar ki, bütün növ meyvələr – alma, armud, heyva, əncir, ərik, şaftalı, üzüm, gilas, gilənar, qoz (cəviz), tut və s. becərilirdi. Yaşlı sakinlərin sözlərindən məlum olur ki, burada çox sayda alma növü yetişdirilmişdir ki, onlardan da *müşki, rəcəbi, yay alması, cənnət alması, sultanı, girdə şirin, dolma alması, yer alması, daş alma, nəfli alma, cəfəri, gülabi, şəkəri, darağı, əkbəri, nüsnüsü* (Ordubad kəndinin adından götürülüb), *zoğalbəyi, ordubadi* və s. qeyd etmək olar.

Armudun isə *əndiryani, Xoy armudu* (Cənubi Azərbaycanda Xoy şəhərinin adından), *bildirçin budu, qış armudu, daş armudu, peyğəmbəri, hindi (hind), Krım armudu, abbasi, nar armudu* və s. kimi növləri yetişdirilmişdir ki, adlarından da göründüyü kimi, onların bir çoxu yerli, bir çoxu da gətirilmə sortlardır.

Ordubadın bağçılıq təsərrüfatında əsas yer tutan meyvələrdən biri də *şaftalıdır*. Tarixən şaftalı əsasən Ordubad şəhərinin özündə, Vənənd və Xanağa kəndlərində becərilmişdir. Digər meyvələrdən fərqli olaraq, şaftalı peyvənd üsulu ilə deyil, budaqları və toxum vasitəsilə çoxaldılırdı. Ordubad bağbanları çoxəsrlik təcrübəyə əsaslanaraq yalnız Ordubad və onun kəndlərində bitən *terelli, şerelli* və *səlami, ağ şaftalı, növrəstə, zəfərani, narıncı, məxməri, sarı nazlı, qırmızı nazlı, ağ nazlı, qırmızı kerdi* və s. kimi növlərinə üstünlük vermişlər. Məlumatlara görə, Cənubi Qafqazda ən yaxşı hesab edilən Ordubad şaftalısı dəfələrlə yerli və beynəlxalq sərgilərdə iştirak etmiş və mükafatlara layiq yerlər tutmuşdur.



*Ordubad şəhər bazarı*

Hazırda Ordubad şaftalısının keçmiş şöhrətini qaytarmaq üçün mühüm işlər görülür. Belə ki, son illər iməcliklər yolu ilə rayon ərazi-

sində salınan hektarlarla meyvə bağları arasında şaftalı bağları üstünlük təşkil edir.

*Ordubad əriyi* isə ayrı bir mövzunun söhbətidir. Məlumatçılarımızın sözlərinə görə, tarixən Ordubadda 40 növdə ərik yetişdirilmişdir. Ərik təsərrüfatları Dəstə, Vənənd və bir sıra digər kəndlərdə daha geniş yayılmışdı. Təkcə Dəstədə 600 hektardan çox meyvə bağı olmuşdur ki, onun da çoxunu ərik bağları təşkil etmişdir. Burada öz dadı və ətri ilə seçilən *əbutalibi, haqverdi, şalax, göycənabat, ağcanabat, badam-ərik, növrəstə, balyarım, kababı, ağ ərik* və digər ərik növləri yetişdirilmişdir. Meyvəçilik sovxozları mövcud olmuşdur. Lakin təəssüflər olsun ki, keçən əsrin 90-cı illərində həmin bağlar kütləvi şəkildə məhv edilmişdir. Hazırda onların bərpası üçün dövlət səviyyəsində mühüm işlər görülməkdədir.

Əylisdən olan məlumatçımız bildirdi ki, bir vaxtlar Ordubad əriyi Tiflis və İrəvan bazarlarında o qədər qiymətli sayılırdı ki, oranın tacirləri deyirmişlər: "Əriyi satıb, nə alacaqsınız ki?" (yəni, bazarda ərikdən qiymətli nə var ki?).

İkinci dünya müharibəsi illərində ordubadlılar əriyi, taxıla və digər ərzaq məhsullarına dəyişirdilər.

Məlumatçıların sözlərinə görə, ərik ağacları adətən, toxum və calaqla çoxaldılırdı. Toxumlar əsasən noyabr ayında əkilir, ağac bir metr boy atdıqdan sonra ona calaq vurulurdu. Əriyi əsasən başqa növ ərik, şaftalı, alça, bəzən də badam və gavalı ilə calaq edirdilər.

Ordubad həmçinin Azərbaycanın əsas *üzümçülük* bölgələrindən biri olmuşdur. Burada becərilən üzüm sortlarını iki qrupa ayırmaq olar: yerli və gətirilmə. Məlumatçıların sözlərinə görə, bəzi yerli sortlar buranın iqlim şəraitinə görə geniş yayılmamışdır. Buna baxmayaraq, Ordubad üzüm təsərrüfatının əsasını hələ də çoxəsrlik empirik təcrübə əsasında yetişdirilən yerli sortlar təşkil edir. Onların arasında elələri vardır ki, digərlərindən fərqli olaraq, yalnız Ordubadda becərilir. Məsələn, *Ordubadi, nəxşəbi, şafeyi, arazbar, taifə* və s.

Gətirilmə üzüm sortlarından isə *xəlili, hüseyni, gülabi, sabahı, nəbi, xatın barmağı, keçi yelini, əsgəri, rişi baba, səhabə, təbərzi, şirşir, ağ şanı, qara, dana gözü, şəkəri, Şahtaxtı, arazbarı, xərci, xəzani, kaxeti, tula gözü* və s. qeyd etmək olar. Məlumatçıların sözlərinə görə, ötən əsrin 70-80-ci illərində yalnız kiçik Kotam kəndinin 40 ləvin (hektar) üzüm bağı olmuşdur. Nüsnüsdə də geniş üzüm plantasiyaları salınmış və buradan toplanan məhsul Tiflis, İrəvan, İmişli, Saatlı və Sabirabad bazarlarına aparılmışdır.

Keçmişdə olduğu kimi, bu gün də ordubadlıların təsərrüfat məişətində qoz (cəviz) tədarükü mühüm yer tutur. Ordubadda qoz az qala "ikinci çörək" sayılmışdır. Biləv, Kələki, Nüsnüs, Düylün, Üstüpü, Vənənd, Tivi, Bist, Əylis, Əndəmic, ümumiyyətlə, Ordubadın demək olar bütün kəndləri qoz tədarükü ilə məşğul olmuşlar. Sakinlərin sözlərinə görə, bir vaxtlar Biləvdə həyətyanı sahələrdə yığılan qoz məhsulundan alınan gəlir, əhalinin bütün illik ehtiyaclarını ödəyə bilirdi. Kələki qozu isə o qədər keyfiyyətli olurdu ki, onu yağ əvəzi xörəyə tökürdülər.

Ümumiyyətlə, Ordubad qozu həmişə öz dadı və keyfiyyəti ilə seçilmişdir. Sındırılanda parçalanmır və qabığından bütöv halda çıxır. Ordubadda yetişdirilən qozun ayrı-ayrı kəndlər üzrə ölçüsünə və dadına görə fərqləndiyini də söyləyirlər.

Nəhayət, ordubadlıların çay süfrələrini qoz mürəbbəsi olmadan təsəvvür etmək mümkün deyil.

Hazırda Ordubad bağçılığında müxtəlif növ gilas (*sarı tara, ağ gilas, Əylis gilası, Nüs-nüs gilası, növrəstə* və s.), gavalı (*albuxara, nazirəli, tumbul, sarı alu, bəylər alu* və s.), alça (*yaz mələsi, yay mələsi, rəcəbi, təbərzə, göycə* və s.), gilənar və s. yetişdirilir. Elə meyvə sortları da vardır ki, onlar öz keyfiyyətinə görə, yetişdirildiyi kəndin adı ilə şöhrətlənmişdir. Bu baxımdan *Kotam əncirini, Kələki cəvizini, Dəstə əriyini, Biləv və Unus tutunu, Nüsnüs zoğalını* və s. misal göstərmək olar.

Nəhayət, Ordubad bağçılığından bəhs edərkən, Ordubad limonundan danışmamaq mümkün deyil. Əlbəttə, Ordubadda düşündüyümüz kimi, geniş limon bağları yoxdur. Limon yalnız şəxsi təsərrüfatlarda və yalnız məhdud həcmdə yetişdirilir. Yəni, bu rayonun hər sakininin həyətində, ya torpaqda becərilən, ya da dibçəkdə yetişdirilən ən azı bir və bir neçə limon kolu vardır. Böyük zəhmət, diqqət və qulluq tələb edən limon tədarükü rayonun Yuxarı və Aşağı Əndəmic kəndlərində daha geniş yayılmışdır. Amma digər kəndlərdə də bu sahəyə xüsusi diqqət yetirilir.

Bu gün Ordubadda qonağı ilk növbədə çeşid-çeşid mürəbbəli və limonlu çay dəsgahına qonaq etmək bir ənənəyə çevrilmiş və bu xoş ənənə tədricən evlərdən çayxanalara və müasir çay evlərinə də yol tapmışdır. Lakin qiymətinin baha olmasına görə (1 ədədi 5-15 manat arası), çayxanalarda müştəriyə çay təklif olunarkən, ayrıca yanında öz dadı, tamı, ətri və faydaları ilə seçilən Ordubad limonunun olub-olmayacağını mütləq soruşurlar.

Bir vacib cəhəti də qeyd edək ki, ordubadlılar üçün limonçuluq gəlir mənbəyi olmaqdan daha çox, simvolik məna və əhəmiyyət daşıyır. Bu, ən azından daşlı-qayalı bir diyarda insan əməyinin, insanın yaradıcılıq qüdrətinin və inamının nəyə qadir olduğunun göstəricisi kimi çıxış edir. Bir atalar sözündə deyildiyi kimi:

*Şəbr elə, halva bişər, ey qora səndən,*
*Bəsləsən atlas olar tut yarpağından.*

Bundan əlavə, ordubadlılar limonu bir bərəkət simvolu, dosta-tanışa veriləcək ən dəyərli sovqat kimi qəbul edirlər. Ən əsası isə müasir Ordubadda bolluq-bərəkət rəmzi sayılan limon ağacı gəlin köçən qızların zəngin cehiz dəstini tamamlayan ən mühüm atributlardan birinə çevrilmişdir.

Mənbələrin də yazdığı kimi, bütün Orta əsrlər boyu, XIX əsrdə və hətta Sovet hakimiyyəti illərində Ordubad Azərbaycanın ən iri ipək istehsalı mərkəzlərindən olmuşdur. 1865-ci ildə Ordubad şəhərində baramaaçan (ipək) fabriki fəaliyyətə başlayır. Bu gün də Ordubadda hamının hörmətlə xatırladığı Rzaqulu Rzayev həmin fabrikin ilk sahibi olur (həmin fabrikə xalq arasında "Ərbab Rzaqulunun (Rzaqulu Rzayev) fabriki" də deyilmişdir. O, zavodu yaradarkən buraya 96 çeşməli 24 ədəd dəzgah gətirdir, çoxlu işçi qüvvəsi cəlb edir, qədim baramaçılıq ənənələri yenidən dirçəldilir.

Sovet hakimiyyəti illərində, konkret olaraq 1935-ci ildə baramaaçan fabrik yenidən qurulur. Müəssisəyə o dövr üçün müasir sayılan 42 ədəd mexaniki dəzgah gətirilir. 1969-cu ildə Ulu öndər Heydər Əliyevin ölkəmizdə hakimiyyətə gəlişindən

sonra fabrik tamamilə yenidən təşkil olunur və onun üçün yeni bina inşa edilir. Burada yeni avtomat baramaaçan dəzgahlar quraşdırılır.

Deyilənə görə, XIX-XX əsrin əvvəllərində Ordubad şəhərindəki əsas ipəkçilik fabrikindən əlavə, Çənnəb, Vənənd və Yuxarı Əylis kəndlərində də buxar mühərriki ilə işləyən 4 böyük və onlarla kiçik ipəksarıma müəssisələri fəaliyyət göstərmişdir. Ordubad və onun ətrafında saysız-hesabsız tut bağları (çəkilliklər) mövcud olmuşdur. Rayonun 46 kəndinin 41-də barama qurdu bəslənilmişdir.

Bu gün isə həmin çəkiliklərdən və həmin ipəkçilik müəssisələrindən əsər-əlamət yoxdur. Bununla belə, sevindirici məqam ondan ibarətdir ki, hazırda Naxçıvanda ipəkçiliyin yenidən dirçəldilməsi istiqamətində qəbul olunmuş Dövlət Proqramı çərçivəsində Ordubad ipəkçilik ənənələrinin bərpası da nəzərdə tutulmuşdur.

***Mədəni mühit. Təhsil.*** Ordubad tarix boyu Azərbaycanın ən mühüm mədəniyyət mərkəzlərindən biri olmuşdur. Ordubadda təhsil, elm, ədəbiyyat həmişə ön planda olmuşdur. Bu haqda mənbələrdə və ədəbiyyatda da kifayət qədər məlumat vardır. XVIII əsrin əvvəllərindən fəaliyyətə başladığı deyilən *Ordubad mədrəsəsi* bu zəngin tarixin ən mühüm yadigarlarındandır. Mədrəsə Azərbaycanda sovet hökuməti qurulana qədər fəaliyyət göstərmişdir. Burada din və şəriətlə yanaşı, təbiət elmlərinin tədrisi də həyata keçirilmişdir. Məmməd Səid Ordubadi, Məhəmməd Tağı Sidqi və başqa görkəmli şəxsiyyətlər ilkin təhsillərini məhz bu mədrəsədə alıblar.

Sovet hakimiyyəti illərində mədrəsə binası dövlətin balansına keçirilib və orada Ordubad ipəkçilik kombinatının idarəsi (ofisi) yerləşdirilib. Binada həmçinin şəhər sovetinin idarə heyəti, partkom, fabrikin kassası, direktorun otağı və s. yerləşdirilmişdir.

Ordubad mədrəsəsinin yetirməsi olan M.T.Sidqi 1892-ci ildə Ordubadda "Əxtər" (ulduz) adlı yeni bir ibtidai məktəb təsis etmişdir. Məktəbdə dərslər ana dilində aparılmışdır. Lakin Azərbaycan dilində dərsliklər olmadığından, M.T.Sidqi özü ana dili, coğrafiya və hesabdan dərsliklər hazırlamışdır.

Əhalinin verdiyi ianələr hesabına yaşayan bu təhsil ocağı 1896-cı ildə "Rus-tatar" (Rus-Azərbaycan) məktəbinə çevrilmişdir. Azərbaycanın ilk diplomatlarından olan İbrahim Əbilov, görkəmli yazıçı M.S.Ordubadi və bir çox başqaları öz ilk təhsillərini məhz bu məktəbdə almışlar.

Sovet hakimiyyətinə qədər Ordubadda mədrəsələrdən başqa, "ev təhsili" deyilən dini təhsil növü də mövcud idi. Həm də bu ənənə təkcə Ordubad şəhərinin özündə deyil, kəndlərdə də geniş yayılmışdı. Məsələn, Biləv kəndində Molla Gülmalı və Molla Kərəmin məktəbləri yalnız Ordubadda deyil, bütün Naxçıvanda məşhur olmuşdur. Dəstə kəndində də dini təhsil verən 2 hücrə – mollaxana fəaliyyət göstərmişdir.

Sovet hakimiyyətinin ilk illərində Ordubadda "axşam məktəbi" deyilən məktəblər fəaliyyət göstərmişdir ki, onlardan biri də şəhərin özündə olmuşdur. İnsanlar gündüzlər işləyib, axşamlar burada təhsil alırdılar. Məşhur ordubadlı şair Davud Ordubadi də həmin məktəbdə oxumuşdur. Məktəb 1966-1967-ci illərə qədər fəaliyyət göstərmişdir.

Bundan əlavə, Ordubad şəhərindəki indiki 1 saylı məktəbin nəzdində də axşam sinifləri fəaliyyət göstərmişdir. Məktəbə kiçik yaşlı uşaqlarla yanaşı, yuxarı yaşlı, yetkin çadralı qız-gəlinlər də gəlirdi. Vaxtilə bu məktəbdə müəllim işləmiş məlumatçımızın dediyinə görə, məktəbə çadrada gələn qız-gəlinlər, dərs zamanı çadralarını partanın altında gizlədib otururdular.

Məlumatçıların dediklərindən görünür ki, XX əsrin əvvəllərində Ordubada sürgün edilmiş bir rus generalı öz təşəbbüsü ilə burada məktəb açmış və uşaqlara rus dilini öyrətməklə məşğul olmuşdur. Həmin məktəbin fəaliyyət göstərdiyi yer indi əhali arasında *"şkol qapısı"* kimi tanınır.

Bundan əlavə, XX əsrin əvvəllərində rayonun Vənənd kəndində "Üsuli-cədid" adlanan məktəb fəaliyyət göstərmişdir. Məlumatçımız söhbət zamanı qeyd etdi ki, 1914-cü ildə həmin məktəbin direktoru vəzifəsinə bir etnik gürcü təyin olunmuşdur. Onun fəaliyyəti sakinləri tam qane edirmiş. Bu səbəbdən həmin müəllim məktəbi tərk etməsin deyə, kənd camaatı ona böyük bir meyvə bağı hədiyyə etmişdir ki, məhsulunu satıb gəlir götürsün.

Biləv kənd məktəbinin də tarixi çox qədimdir. Məlumatçıların dediyinə görə, hələ 1896-cı ildə burada "Rus-tatar" məktəbi yaradılmışdır və həmin məktəb Naxçıvanın ilk dünyəvi təhsil müəssisələrindən hesab olunur.

Hazırda Ordubadın məktəb problemi yoxdur. İrili-xırdalı bütün kəndlərdə ən müasir tələblərə cavab verən məktəblər fəaliyyət göstərir. Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, bütövlükdə rayon üzrə 39 ümumtəhsil məktəbi, 1 peşə məktəbi, 5 məktəbdənkənar, 2 məktəbəqədər tərbiyə müəssisəsi mövcuddur. Əsas problem şagird azlığıdır. Sosial çətinliklər və blokada şəraiti səbəbindən baş verən daxili miqrasiyalar səbəbindən, rayonda əhali sayının azalması məktəblərdə şagird kontingentinin formalaşmasına da mənfi təsir göstərməkdədir. Məsələn, 19 müəllimin dərs dediyi Tivi məktəbində 80 şagird oxuyur. Ötən dərs ilində məktəbin 1-ci sinfinə cəmi 8 uşaq qəbul olunmuşdur.

Bir vaxtlar 250-300 şagirdin oxuduğu Kələki kənd orta məktəbində bu gün cəmi 28 şagird təhsil alır. Elə siniflər var ki, 1 nəfərdən ibarətdir. Bist kənd orta məktəbində isə 22 uşaq vardır. Şagird çatışmazlığı səbəbindən bəzi siniflər komplektləşdirilə bilmir. Digər kənd məktəblərində də oxşar vəziyyət hökm sürür.

Ordubad tarixən həm də şairlər məskəni, musiqiçilər yurdu olmuşdur. XIX əsrin ikinci yarısında burada məşhur *"Əncüməni-şüəra"* adlı şairlər məclisi fəaliyyət göstərmişdir. Məclisin 25-ə yaxın üzvü olmuşdur. Fəqir Ordubadi, Məhəmməd Tağı Sidqi, Usta Zeynal Nəqqaş, Hacı Molla Hüseyn Bikəs, Məşədi Həsən Dəbbağ, Əhməd ağa Şəmi, Məşədi Möhsün Saatsaz, Kəblə Əliqulu Müznib, Ağa Rəsul Əttar, Məhəmmədqulu Salik, Aslanxan Gövhər, Mirzə ağa Rəhim Qüdsi Vənəndi, Hüseyn Nadim Naxçıvani və başqaları bu məclisin ən fəal üzvləri olmuşdur.

"Əncüməni-şüəra"nın ən istedadlı üzvlərindən olan Usta Zeynal Nəqqaş şairliklə yanaşı, nəqqaşlıq sənəti ilə də məşğul olmuş və buna görə əsərlərində "Nəqqaş" təxəllüsü ilə çıxış etmişdir. Böyük maarifçi-ziyalının işlədiyi nəqş və rəsmlər indi də Ordubad, Naxçıvan, Tiflis, Təbriz və başqa şəhərlərin memarlıq abidələrində qorunub saxlanmaqdadır. Ordubad şəhərində olarkən bələdçilərimiz bizi Nəqqaşın sənət əsərlərinin bir çoxu ilə əyani şəkildə tanış etdilər.

"Əncüməni-şüəra"nın digər fəal üzvü – Hacı Ağamirzə Qüdsü Ordubadinin (Vənəndi) də maarifçi əsərləri Ordubad ədəbi mühitində mühüm rol oynamışdır. Deyilə görə, onun ərəb, fars və Azərbaycan dillərində yazdığı şer və qəzəllərdən ibarət iki divanı əlyazma şəklində günümüzə qədər gəlib çatmışdır.

XIX əsrin 70-80-ci illərində məclisə F.Ordubadi, sonralar isə M.T.Sidqi rəhbərlik etmişdir. Fəqirin vəfatından və Sidqinin Naxçıvana köçməsindən sonra isə məclisin işində durğunluq yaranmış və məclis 1890-1895-ci illərdə öz fəaliyyətini dayandırmışdır.

Vənənd kəndində olarkən, Qüdsü Vənəndi haqqında müəyyən məlumatlar əldə etməyə çalışdıq. Öyrəndik şairin nəslindən hazırda nə kənddə, nə də Ordubadda heç kim yaşamır. Belə ki, onun övladları vaxtilə Ordubadı və bütövlükdə Azərbaycanı tərk etmiş, Türkiyə və İrana çıxıb getmişlər.

Kənd sakini, tarix müəllimi Hüseyn Məmmədov Qüdsü Vənəndinin yaradıcılığından bir bənd şeir də bizə təqdim etdi:

*Basəfalıqda behiştdən dəm vurar bağı-Vənənd,*
*Gəzəsən aləmi hərçənd ki, tapılmaz belə kənd.*
*Özü bir guşeyi-cənnətdir, dutum çeşməsi qənd,*
*Qocalıq salıb boynuma bir şəxti-kəmənd,*
*Yoxdur bir özgə qəmim, fikri xəyalım qocalıq.*

Böyük yazıçı Məmməd Səid Ordubadi də Ordubad diyarının yetirməsidir. O, Azərbaycan ədəbiyyatında tarixi romançılığın banisi kimi, "Döyüşən şəhər" (1938), "Gizli Bakı" (1940), "Qılınc və qələm" (1946-1948), "Dumanlı Təbriz" (1933-1948) və s. kimi çox qiymətli əsərlərin müəllifidir. M.S.Ordubadinin həm Azərbaycanda, həm də Azərbaycandan kənarda çox geniş maarifçilik və ictimai fəaliyyəti də məlumdur.

Ordubad ədiblərinin yaradıcılıq ənənələri bu gün də davam etdirilir ki, onun da ən tanınmış nümayəndələrindən biri, rayonun səfər etdiyimiz Behrud kəndində boya-başa çatmış Rüstəm Behrudidir (1957).

Ordubadlıların Azərbaycan elminin inkişafında da böyük xidmətləri vardır. Tam olmayan məlumata görə, bu diyarda müxtəlif sahələr üzrə 365 nəfərdən çox alim yetişmişdir ki, onların arasında çox sayda akademiklər, professorlar və dosentlər vardır.

Ordubadın bugünkü mədəni mühitindən bəhs edərkən, ilk növbədə qeyd etməliyik ki, rayon Azərbaycanın hazırkı ümumi iqtisadi və sosial prosesləri kontekstində inkişafını davam etdirir ki, bu inkişaf da mədəniyyətin ayrı-sahələrində qabarıq şəkildə müşahidə olunur. Hazırda Ordubad şəhərində bu diyarın tarixi və mədəni yaddaşını qoruyub saxlayan, eksponatlarla zəngin üç muzey fəaliyyət göstərir: 1980-ci ilin dekabrında yaradılan və 3500-ə qədər tarixi-arxeoloji eksponat və fraqmentin toplandığı Ordubad rayon Tarix-diyarşünaslıq muzeyi (Qeysəriyyə), görkəmli ədib M.S.Ordubadinin 1972-ci ildə yaradılan ev-muzeyi və 1975-ci ildən fəaliyyət göstərən akademik Y.Məmmədəliyevin ev-muzeyi.

***Sosial-mədəni infrastruktur və mətbuat.*** Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, hazırda rayon ərazisində 47 kitabxana, 42 klub müəssisəsi, Həsən Əliyev adına Milli Park, Ordubad Tarix-Memarlıq qoruğu, 2 uşaq musiqi məktəbi, "Araz" kinoteatrı, mərkəzi xəstəxana, 4 sahə xəstəxanası, 7 həkim ambulatoriyası, 17 feldşer-mama məntəqəsi, 14 feldşer məntəqəsi, Gigiyena və Epidemiologiya Mərkəzi və başqa qurum və təşkilatlar mövcuddur.

Ordubadda 1964-cü ildə yaradılmış xalq teatrı fəaliyyət göstərir. İndiyədək bu teatrın səhnəsində Azərbaycan ədəbiyyatının çox sayda seçilmiş əsərləri tamaşaya qoyulmuşdur. Əlamətdar günlərdə, xüsusilə də Novruz bayramı günlərində teatrın fəaliyyəti bir qədər də canlanır. Təntənəli şəkildə keçirilən Novruz şənliklərində müxtəlif oyun-tamaşalar, xüsusilə də həm uşaqların, həm də böyüklərin maraqla baxdığı "Xan oyunu" tamaşası nümayiş etdirilir.

Bu cür mədəni-maarif müəssisələri rayonun digər iri kəndlərində də fəaliyyət göstərməkdədir.

Rayonda ayrı-ayrı illərdə "Ordubad fəhləsi", "Ordubad işçisi", "Yeni Ordubad" və hazırda "El həyatı" adlanan qəzet nəşr olunur. Qəzet bölgənin ictimai, iqtisadi və mədəni həyatını əks etdirən ən mühüm yenilikləri barədə operativ xəbərlər yayır.

***Çayxana mədəniyyəti.*** Ordubad camaatının gündəlik həyatını çayxanasız təsəvvür etmək mümkün deyil. Çayxanalar ordubadlıların gündəlik məişət həyatının ayrılmaz bir parçasına çevrilmişdir. Keçmişdə də belə olub, indi də belədir. Burada "yeməyə gedək" təklifini də çox vaxt "gedək çay içək" ifadəsi ilə bildirirlər.

Ordubaddakı çayxanaların çoxu iri gövdəli, başı buludlara çatan çinar ağaclarının kölgəsindədir. Müştərilərinin də demək olar hamısı kişilərdir. Bu baxımdan yalnız Ordubad şəhərinin mərkəzində – Dübəndiçayın üzərində salınan yeni tipli "Çay evi" istisnalıq təşkil edir. Axşam saatlarında oraya yalnız şəhər sakinləri deyil, yaxın-uzaq kəndlilərin əhalisi də ailəliklə axışıb gəlir. Ordubada gələn xarici və yerli turistlərin də ən sevimli istirahət yerlərindən biri məhz "Dübəndi" çay evidir: gözəl musiqi, ətirli çay, ləzzətli quru meyvələr, növbənöv mürəbbələr və Ordubad limonu.

Bu çay evinin yaxınlığında – qoca çinarların kölgəsində fəaliyyət göstərən digər bir çayxanaya isə ancaq kişilər təşrif buyurur. Səhərin gözü açılar-açılmaz çayxana adamla dolmağa başlayır. Burada dünyada baş verən hadisələrin müzakirəsindən tutmuş, sosial-abadlıq məsələləri və ehtiyacı olanlara yardım göstərilməsinə qədər hər mövzuda müzakirələr gedir. Bundan əlavə, çay süfrəsi arxasında nərd və domino oyunları oynayır, belə demək mümkünsə, mini-çempionatlar keçirilir. Çayxanalarda çay servisi adətən 3 əsas elementdən – armudu stəkanda qara çay, kəllə qənd və Ordubad limonundan ibarət olur. Dadlı-duzlu söhbətlər, gözlənilməz görüşlər, yaxından-uzaqdan gələn xəbərlər də öz yerində.

Ordubad çayxanalarında müşahidə edilən daha bir cəhət də diqqətəlayiqdir. Burada unudulan əşyanı çinar ağacının budaqlarından asırlar. Onlara "əmanət"dir deyə, sahibi gəlib çıxana qədər heç kim toxunmur. Əşyanın sahibi də "çayxanada unutmuşam" deyə, heç bir narahatlıq hissi keçirmir. Bu isə o deməkdir ki, çayxanalar Ordubadda sadəcə bir çay içilən məkan kimi deyil, mənəvi-əxlaqi dəyərlərin qorunduğu və təbliğ edildiyi bir mədəni mərkəz kimi də çox dəyərlidir. Belə

çayxanalar Ordubad şəhəri ilə bərabər, rayonun əksər iri kəndlərində də fəaliyyət göstərir.

**T.ü.f.d. Nigar Rza qızı Coşkunsu "Ailə məişətində mərasimlər"** mövzusu üzrə araşdırma aparmaq üçün Ordubad rayonuna elmi ezamiyyətə getmişdir. Etnoloq yazır:

Ordubad rayonu istər təsərrüfat məişəti, istər maddi və mənəvi mədəniyyəti, istərsə də ailə-məişət ənənələri ilə seçilən ən maraqlı bölgələrimizdəndir. Ezamiyyət müddətində topladığımız materialların təhlili göstərir ki, mühafizəkar Ordubad ailəsinin tarixi çox qədimlərə dayanan zəngin və kifayət qədər spesifik mərasim və ayinlər sisteminə malikdir. Zaman-zaman müəyyən transformasiyalara və dövrün xarakterindən doğan etnik-mədəni təsirlərə məruz qalmasına baxmayaraq, onların bir çoxu yaşamaqda davam etmiş və günümüzə qədər gəlib çatmışdır.

Yuxarıda qeyd olunan yaşayış məntəqələrində topladığımız çöl materiallarından görünür ki, XIX və XX əsrlər ərzində Ordubadda ailə formasının əsasını daha çox iki nəslin nümayəndələrindən – valideyn və uşaqlardan ibarət kiçik ailələr təşkil etmişdir. Lakin nadir hallarda buraya atanın valideynləri, onun subay bacısı və ya subay qardaşı da daxil olurdu. Belə ailələrin optimal olaraq 5-dən 10-a qədər üzvü vardı. Lakin bəzən istər şəhərdə, istərsə də kəndlərdə bir neçə nəsli təmsil edən böyük ailələrə də rast gəlinir. Məsələn, Bist kəndində səfərdə olarkən üç nəslin nümayəndələrinin bir çatı altında mehriban yaşadığının şahidi olduq.

Ailələrdə bir qayda olaraq, kişilər bağçılıq, əkinçilik, sənətkarlıq, ticarətlə məşğul olurdular. Ev təsərrüfatını idarə etmək, çörək bişirmək, məhsul yığımı, meyvə qurudulması, uşaqların böyüdülməsi, xüsusilə qız övladlarının milli ruhda tərbiyələndirilməsi, kiçik yaşlarından onlara əməksevərlik, səbir, düzlük və s. əxlaqi keyfiyyətlərin aşılanması isə qadınların – ananın öhdəsinə düşürdü. Ailənin yeniyetmə və gənc üzvlərinin də əsas vəzifəsi bu fəaliyyət sahələrində valideynlərə kömək etməkdən ibarət idi.

Kiçik ailə təsərrüfat vahidi təşkil etməklə, böyük ailəyə xas olan ənənələri möhkəm qoruyub saxlayır və davam etdirirdi. Bütün ailə üzvləri istisnasız olaraq, ailədaxili münasibətlərlə əlaqəli hər şeydə onun başçısına – atanın iradəsinə tabe olmağa borclu idilər.

Etnoqrafik materiallarının təhlili göstərir ki, XIX əsrdə Ordubad şəhəri ayrı-ayrı patronomik məhəllələrdən ibarət olmuşdur. Belə məhəllələrdə yaşayan ailələr eyni nəsildən olmaqla çox vaxt həmin nəslin və ya soyun adı ilə tanınmışdır. Bu cür məhəllələrə bir sıra kənd yaşayış məntəqələrində də təsadüf olunmuşdur.

Hər kəs özünün yeddi arxa dönənini tanımalı idi: çünki bu nəsillər bir-biri ilə qan qohumu sayılırdı. Yeddi nəslin xaricində olan insanlar və onların törəmələri artıq uzaq qohum hesab edilirdi.

Azərbaycanın hər yerində olduğu kimi, ənənəvi Ordubad ailəsinin də bütün məişəti müxtəlif məzmunlu mərasim və ayinlərlə müşayiət olunmuşdur. Bu mərasim və ayinlər sistemi uşaqların dünyaya gəlməsi, gözdən, bədnəzərdən və zərərli ruhlardan "mühafizəsi", tərbiyəsi, toy, yas və s. ailə həyatının demək olar ki, bütün

mərhələlərini əhatə etmiş, onların hamısı ənənəvi olaraq şəriət normaları ilə tənzimlənib həyata keçirilmişdir.

Bütün dövrlərdə Ordubadda nikaha girmənin iki əsas forması üstünlük təşkil etmişdir: 1) elçilik və tərəflərin qarşılıqlı razılığı; 2) qızın öz razılığı və ya razılığı nəzərə alınmadan baş tutan qaçırma yolu ilə. İkinci forma Ordubadda o qədər də geniş yayılmamış və əksər hallarda təsadüfi xarakter daşımışdır. Çünki ordubadlılar arasında endoqam nikahlar daha geniş yayıldığına görə, qızqaçırma xüsusi əsaslara malik olmamış və əhali tərəfindən pislənilmişdir. Burada evlilik ənənələri patronomik səciyyə daşıdığından və daha mühafizəkar olduğundan, valideynlər qızlarını nəinki kənar ailələrə, hətta şəhərin qonşu məhəllələrinə belə ərə vermirdilər. Bununla bağlı ordubadlılar arasında müxtəlif deyimlər də mövcuddur: *"Yaxşı qızı vermək heyifdir, pis qızdan imtina etmək isə ayıbdır!".*

Gənzəlilər isə belə deyirlər*: "Arxdan (kəndin içindən keçən arx nəzərdə tutulur) aşağı qız verməyin, arxdan yuxarı qız almayın".*

Keçmişdə (nadir hallarda indi də) bütün Azərbaycanda olduğu kimi, Ordubadda da nikahın beşikkərtmə (göbəkkəsdi) formasına rast gəlinmişdir. Belə nikahlar adətən qohum ailələrin uşaqları arasında baş tuturdu və əsas mahiyyəti ondan ibarət idi ki, təxminən eyni vaxtda doğulan oğlan və qız uşaqların göbək bağı kəsilərkən, valideynlər onların evləndiriləcəyini elan edirdilər. Bundan sonra oğlan "nişanlı", qız isə "deyikli" sayılırdı.

Ordubad ailəsinin ən təntənəli mərasimi isə şübhəsiz ki, toy sayılırdı. Azərbaycanın hər yerində olduğu kimi, burada da toyun bir-birini tamamlayan bir neçə mərhələsi var idi: toyaqədərki, toy və toydan sonrakı mərhələlər.

Ordubad kəndlərindən topladığımız materiallardan aydın olur ki, toyaqədərki mərhələnin ilk tədbiri *qızbəyənmədən* ibarət olmuşdur. Belə ki, oğlan qızı bəyəndikdən və onun valideynləri bu seçimlə razılaşandan sonra ilk olaraq oğlanın anası, bacısı və yaxud xalası bir bəhanə ilə qız evinə gedirdi. Bu elçilik gizli baş verdiyi üçün ona el arasında *"ağızarama"* da deyilmişdir. Məsələni qızın atasına və yaxud onu əvəz edən ailə başçısına çatdırmaq xahiş olunurdu. Qızın atası bundan imtina edirdisə, məsələ açılıb-ağardılmır və bağlanmış hesab olunurdu. Buna da el arasında "bir daş altdan, bir daş üstdən" də deyirdilər.

Qız evinin rəyi müsbət olardısa, ilk elçiliyin vaxtı təyin olunur və həmin gün oğlanın ailəsindən və yaxın qohumlarından ibarət bir heyət qız evinə gedirdi. Buna Ordubadda "hə vermə", "söz kəsdi", "söz almaq", "bəlgə", bəzən də "nişan" deyilirdi.

Elçiliyin bu mərhələsində adətən qız üçün bir ədəd qırmızı qaş qızıl üzük və bir ədəd baş örtüyü – "çarqat" (yaylıq) gətirilirdi. XX əsrin 60-cı illərindən başlayaraq qırmızı qaşlı üzük "barmaqcıq" deyilən qaşsız üzüklə əvəz olunmuşdur.

Qız tərəfinin vəkili "hə" deyəndən sonra oğlanın bacısı xonçaları açır, üzüyü qızın barmağına taxır və yaylığı başına örtürdü. Qızın anası üzük taxana hədiyyə verirdi. Bundan sonra xonçalardakı şirniyyatlar məclis iştirakçılarına paylanırdı. Buna da "ağız şirin etmə" deyilirdi.

"Hə" alınandan və "şirni içmə" mərasimindən sonra, yəni birinci həftənin şənbə günü *"şənbə tabağı*" və yaxud "işıqlıq" adlanan mərasim keçirilirdi. "Şənbə tabağı"na

güzgü, lampa, qızıl zinət əşyaları, paltarlar və şirniyyat qoyulurdu. Bu ərəfədə oğlanın "vəkil"i kəbin kəsdirirdi ki, bu da oğlanın qız evinə "ayaqaçdı"sı hesab olunurdu.

Mərasimin "şənbə tabağı" adlandırılması və məhz şənbə günü yerinə yetirilməsi də özlüyündə böyük maraq doğurur. Bununla əlaqədar Düylündə belə deyirlər: *"Şənbə günü şadlıq olarsa, hər gün olar".*

Kəbin kəsmə – şəriət normaları əsasında nikah müqaviləsinin bağlanmasıdır. Onu tərtib edərkən, özləri iştirak etməsələr də, mütləq bəylə gəlinin rəsmi razılığı tələb olunurdu. Bu mərasimdə onları etibarlı şahidlər və ya valideynləri təmsil edirdi.

Kəbin müqaviləsinin tərkib hissəsi olan "mehr"də gələcəkdə baş verə biləcək boşanma halında ərin arvada verəcəyi məbləğin (pul, taxıl, mal-qara və s.) miqdarı da ayrıca bir maddə ilə qeyd olunurdu.

Bundan sonra qız evində cehiz hazırlığına başlayırdılar. Ordubadın orta gəlirli ailəsində gəlin cehizi adətən dörd dəst yorğan-döşək (yun döşək və yorğan), iki balış (yastıq), məfrəş (ev əşyalarını saxlamaq üçün xalça parçasından hazırlanmış böyük sak), sandıq, canamaz (namaz ləvazimatı), rəhil (Quran oxumaq üçün), müxtəlif qablar və bir-iki limon ağacından ibarət olurdu. Son illər şübhəsiz ki, cehiz siyahısı xeyli genişlənmiş və yenilənmişdir.

Toy mərasiminin toyaqədərki mərhələlərindən digəri *parça biçdi* – gəlin paltarı parçasının təntənəli şəkildə kəsilməsi idi. "Parça biçdi" qız evində – hər iki tərəfin qadınlarının iştirakı ilə haxışta oxumaqla müşayiət olunurdu. Məsələn,

*Bu gün ayın onudur, haxışta!*
*Zərxaradan donudur, haxışta!*
*Qurban olum qardaşa, haxışta!*
*Bu gün onun toyudur, haxışta!*
Və yaxud;
*Əzizim aydın olsun, haxışta!*
*Ay doğsun, aydın olsun, haxışta!*
*İki həsrət qovuşdu, haxışta!*
*Gözlərin aydın olsun, haxışta!*

Parçanın kəsilməsi isə adətən gəlinin yengəsi tərəfindən həyata keçirilirdi.

Toydan bir gün əvvəl oğlan evi qız evinə xına göndərirdi. Həmin gecə qızın yanına kəndin və ya məhəllənin gənc qızları və nişanlı qızın yaxın rəfiqələri ziyafətə dəvət olunurdu. Bu mərasim *"qız başı"* adlanırdı. Camda isladılmış xına gəlinin başına, əlləri və ayaqlarına yaxılırdı. *"Xınayaxdı"* mərasiminin iştirakçıları çalıb-oxuyur və kişi paltarı geyinib müxtəlif oyunlar oynayırdılar.

Bütün hazırlıqlar tamamlandıqdan sonra *toy* baş tuturdu. Bunun üçün mağar – xüsusi toy otağı qurulurdu. Süfrəyə və toya rəhbərlik etmək, nizam-intizamı təmin etmək üçün *toybaba,* ya da *toybəyi* – təyin olunurdu. Azərbaycanın digər bölgələrindən fərqli olaraq, Ordubadda toy, bəy və gəlin evində eyni vaxtda keçirilir və 2-3 gün davam edirdi. Bəy evindəki toy mərasimi daha möhtəşəm olurdu. Təsərrüfat işləri ilə əlaqədar olaraq onu ya Novruz bayramından əvvəl, yəni, yaz işlərinin başlamamış, ya da payızda – məhsul yığımından sonra keçirir və adətən həftənin

müqəddəs cümə günü başa çatırdı. Müsəlman təqviminin Məhərrəm ayı "matəm ayı" sayıldığına görə toy etməzdilər.

Ordubad toylarında, eləcə də nişan və xına mərasimlərində kollektiv rəqslər və mahnılar geniş yayılmışdı. Belə ki, burada 60-a qədər yallı növü məlum idi: *Köçəri, Tello, Qopu, Tənzərək, Üçayaq, Dördayaq, İrəvani, Şərur, Sarı gəlin* və s. Oxuma ilə rəqslərdə – haxıştalarda eyni vaxtda 10-20-yə qədər qadın iştirak edirdi. Onlar qarşı-qarşıya düzülmüş iki qrupdan ibarət olurdu. Qrupların rəhbərləri növbə ilə misralar ifa edir, qalanları "haxışta" nəqarətini təkrarlayır, əl çalır, bəzən solo və qoşa rəqslər, məsələn, *mirzəyi, təbrizi, ordubadi* və s. də ifa edirdilər. Ənənəvi "musiqi üçlüyü" çox vaxt Naxçıvandan və ya Əylisdən dəvət olunurdu.

Toyda bəylə gəlin iştirak etmirdi. Bəy və onun sağdış və soldışı adlanan yaxınları ayrıca bir otaqda olur, toy ziyafətinin bütün günlərində qonaq-qaradan və qohumlarından gizlənirdilər. Yalnız toyun axırıncı günü ağsaqqalların icazəsi ilə onlar qonaqların qarşısına çıxır və onların xahişi ilə yoldaşlarının müşayiətində bəy yallısını – kollektiv dairəvi rəqsi ifa edirdilər. Musiqiçilər bəyin şərəfinə ənənəvi bəy tərifi ifa etdikdən sonra onlar ziyafəti tərk edirdilər.

Gəlinin ata evindən çıxarılmasından dörd saat əvvəl oğlan evinin qadınları gəlib gəlini bəzəyirdilər. Buna da el arasında "gəlin bəzəyi", yaxud da "qaş aldı" deyirdilər. Gəlinin aparıldığı gün isə qız evində çalıb-oynayır, cürbəcür mahnı və rəqslər ifa edirdilər.

Gəlin evdən çıxan zaman məcməyidə bir neçə şam yandırır və üstünə süzgəc qoyurdular. Başına qırmızı yaylıq salınan gəlin bu süzgəcin üstünə çıxırdı. Oğlanın bacısı gəlinin başının üstünə yeddi cür ipək parçanı qayçı ilə doğrayıb tökürdü ki, bu da ər evində "gəlinin dilinin gödək olması" anlamına gəlirdi. Gəlinin qaynı isə onun belini bağlayırdı. Bu ayində isə qohumların "gəlinin belinin möhkəm olması" və nəsil artırmaq arzuları ifadə olunurdu.

Daha sonra qaynı gəlinin başına imkanına görə pul qoyurdu. *"Süd pulu"* adlanan bu məbləğ gəlinin anasına çatırdı. Sonra gəlinin yaxınlarından biri (atası, əmisi və s.) qıza xeyir-dua verirdi. Oğlan və qız yengələri gəlini süzgəcin üzərindən endirib, birinin əlində güzgü, o birinin əlində yanan lampa qoluna girib evdən çıxarırdılar. Güzgü və lampa gəlinin yolunun aydın olması anlamına gəlirdi.

Artıq deyildiyi kimi, adətən həftənin cümə gününə təsadüf edən toyun sonuncu axşamı insanlar gəlini götürmək üçün bəy evindən yola düşürdülər. Onu atla və ya araba ilə, imkanlı ailələr isə faytonla gətirirdilər. Bəyin evi yaxın idisə, piyada gətirilirdi və mərasim musiqi ilə müşayiət olunurdu.

Oğlan tərəfinin adamları musiqiçilər dəstəsi ilə qız evinə yaxınlaşanda, qız evindəki musiqiçilər öz yerini onlara verirdi. Bəyin evində gəlinin qarşılanması zamanı onun ayağının altında qoç kəsirdilər. Toy iştirakçıları evin damına çıxıb, gəlinin başına doğranmış almalar, metal pullar, quru meyvələr, şirniyyat yağdırırdılar. Pullar bərəkət simvolu, alma isə inanca görə, "min bir dərdin dərmanı" sayılırdı.

Daha sonra gəlin onun üçün hazırlanmış otağa keçir, amma oturmurdu. Adətə görə, qayınana-qayınata ona "diz dirəyi" verməli idi. "Diz dirəyi" üçün müxtəlif hədiyyələr (üzük, palaz, inək, arı pətəyi və s.) vəd olunandan sonra o, əyləşirdi. Əgər

gəlin gələn həyətdən çeşmə axırdısa, onda "bu çeşmə sənin olsun", yəni həyatın su kimi axarlı və aydın olsun – deyirdilər.

Gəlinlə gələn yengələr üçün çay süfrəsi açılırdı. Gəlin üçün də şirin çay gətirilirdi. O, çaydan bir qurtum içir, sonra oturanların hərəsi bu çaydan içib dağılışırdılar. Qızla gələn yengələr oğlanın valideynlərinə gözaydınlığı verirdilər ki, bu da *"xətircamlıq"* adlanırdı.

Toy gününün səhəri "duvaqqapma" mərasimi keçirilirdi. Bu mərasimə oğlan evinin qonaqları ilə bərabər qız evindən də adamlar dəvət olunurdu. Süfrəyə beş nimçə ballı qayğanaq və südaşı qoyulurdu ki, ona da "toy beçə" deyilirdi. Yengələr gəlinin başına qırmızı duvaq salır və qonaqların arasına gətirirdilər. Bu mərhələni bəy evində "qadın toyu" da adlandırırlar. İştirak edənlərin xahişi ilə yeni evlənənlər təqdim olunur və onlar çadra altında əyləşdirilirdilər. Bu zaman bir oğlan uşağına iki oxlov verilirdi. O, oxlovla gəlinin başından duvağı götürüb bar verən ağacın ən hündür budağına atırdı. Bundan sonra mərasim başa çatır və artıq gəlin ailənin tamhüquqlu bir üzvü hesab olunurdu. Hər iki tərəf onu təbrik edib, xeyir-dua verirdi. Qeyd edək ki, "Duvaqqapma" mərasimində yalnız qadınlar iştirak edirdilər.

Uşağın doğulması ilə bağlı ayinlər, zahının və uşağın zərərli ruhlardan "mühafizəsi" də ailə mərasimlərinin mühüm tərkib hissəsi sayıla bilər. Məsələn, çətin doğuşlar zamanı insanlar ən müxtəlif vasitələrə əl atır, cürbəcür magik ayinlər icra edirdilər. Burada doğuşun çətin keçməsini "Hal anasının müdaxiləsi" ilə əlaqəli olduğuna inanırdılar. Guya bu şər qüvvə qadını taqətdən məhrum edir, onu qorxudur və ciyərini çəkib aparır. Zahını qorumaq üçün tüfəngdən atəş açaraq qışqırır, səs-küy salır və bu üsulla "Hal anası"nı qovmağa çalışırdılar.

Bundan əlavə xəncərlə axar suyu "kəsir", zahının kürəyinə bir tikə çiy ət qoyub ovucları ilə yanaqlarına döyürdülər ki, qadın ayılsın.

Məlumatçıların sözlərinə görə, zahı və körpəni 40 gün ərzində "qara qüvvələrdən", pis gözdən qorumaq lazımdır. Bunun üçün də keçmişdə müxtəlif hərəkətlərə və magik ayinlərə əl atırdılar. Məsələn, uşağın olduğu otağa yad adamlar, xüsusən də uşaqları ölən, yaxud da ümumiyyətlə uşağı olmayan qadınlar buraxılmırdı. Evə girən hər kəsi astanada uşaqla qarşılayırdılar ki, bu da uşağı mümkün bəladan çəkindirmək məqsədi daşıyırdı.

Bundan əlavə, körpənin başının altına metal əşya – bıçaq, qayçı, çörək və ya kağız parçasına yazılmış xüsusi dua qoyur, papağına, yaxud da köynəyinə "şəvə" adlanan gözmuncuğu tikirdilər.

"Adqoyma" mərasimləri xüsusi təntənə ilə keçirilməsə də, ailə üçün ən yaddaqalan günlərdən sayılırdı. "Yeddi-yeddi" adlanan bu mərasim adətən uşağın doğulmasından sonra yeddinci gün keçirilir və daha çox qadınların bayram məclisinə çevrilirdi. Oğlan uşaqlarına adətən babasının və ya əmisinin, bəzən də atanın adının verilməsi ənənəsi mövcud olmuşdur.

Uşağın ilk dişi çıxarkən yeddi paxlalı bitkinin məhsulundan hədik bişirirdilər. Bu mərasim yeməyi bütün qonşulara və qohumlara paylanırdı. Onu alanlar qabları qaytararkən içinə kiçik bir hədiyyə qoyur və yeni doğulan körpənin tezliklə başqa dişlərinin çıxmasını arzulayırdılar.

Məlumdur ki, ailə həyatının vacib ayinlərdən biri də sünnətdir. Sünnət, adətən oğlan uşaqları 5-6 yaşına çatmazdan əvvəl həyata keçirilirdi. Keçmişdə sünnət Ordubad kəndlərində böyük hörmətə sahib dəlləklər tərəfindən həyata keçirilmişdir. Tivi və Bist kəndlərində dəllək Mürfüti, dəllək Məşədi Həbib, dəllək Zöhrab və başqaları çox məşhur olmuşlar.

Kiçik toy və ya sünnət toyu adlanan mərasimə yaxın qonşular və qohumlar da dəvət olunurdu. Müxtəlif yeməklər hazırlanırdı. Dəvət olunanların hər biri uşağa hədiyyə verir və "Böyük toyuna gələk", "Mübarək olsun" və s. kimi alqışlar edirdilər.

Sünnət zamanı uşaq ailənin ən yaxın bir adamının qucağına verilirdi ki, ona da kirvə deyilirdi. Kirvə az qala uşağın ikinci atası sayılırdı. Ona xüsusi hörmət və ehtiram göstərilirdi. Təsadüfi deyil ki, Ordubadda kirvə haqqında kifayət qədər şeir və təkərləmələr mövcuddur. Bəzən də kirvəlik nəsillikcə davam edirdi. Yəni hər kəs bilirdi ki, məsələn, bu ailənin uşaqlarının kirvəsi filan ailədəndir.

Beləliklə deyilənlərdən aydın olur ki, Ordubad əhalisinin ənənəvi ailə və ailə məişəti, bununla bağlı adət-ənənə və mərasimlər ümumazərbaycan ailə məişətinin tərkib hissəsi olmaqla yanaşı, eyni zamanda bir sıra özünəməxsus xüsusiyyətlərə və yerli variasiyalara da malik olmuşdur.

**T.ü.f.d. Təranə Quluzadə "Qərbi azərbaycanlıların Ordubadda məskunlaşması və məişəti"** mövzusunda tədqiqat aparmışdır. Əylis, Parağa və digər kəndlərdə məcburi məskunlaşan qərbi azərbaycanlılar arasında sorğu keçirən müəllif yazır:

Azərbaycanın qədim şəhərlərindən biri olan Ordubad çox zəngin tarixə və mədəni irsə sahibdir. Ən qədim dövrlərdən günümüzə qədər uzun bir tarixi dövrü əhatə edən həmin mədəni irsin bir çox nümunələri bu və ya digər şəkildə günümüzədək gəlib çatmışdır. Lakin Ordubadın ən böyük sərvəti heç şübhəsiz ki, əsrlər boyu düşmən əhatəsində yaşayaraq, oranı qoruyan, mühafizə edən və gələcək nəsillərə çatdıran insanlarıdır. Etnoqrafik səfərimiz zamanı topladığımız məlumatlar və ordubadlıların qonaqpərvərlik adətləri, xalq təbabəti və təbibləri, o cümlədən, XIX-XX əsrlərdə Qərbi Azərbaycan əhalisinin Ordubada məcburi miqrasiyası - bunun səbəbləri və nəticələri ilə bağlı apardığımız etnoqrafik sorğuların nəticələri də deyilənləri təsdiq edir.

Əvvəla qeyd edək ki, tarix boyu ordubadlılar öz adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə, o cümlədən özünəməxsus qonaqpərvərlik adətlərinə sadiq qalmış, zaman-zaman onu daha da zənginləşdirərək bu günümüzə çatdırmışlar. Ayrı-ayrı vaxtlarda bura gələn yerli və xarici qonaqlar da yerli əhalinin səxavətindən, əliaçıqlığından bəhs etmiş, ordubadlıların zəngin süfrəsindən və süfrə mədəniyyətindən geniş bəhs etmişlər. Bu günün özündə də bu qədim diyarda kimin evinə qonaq getsən, qapının girişində və ya masada gülabdanla – gülabla qarşılanacaqsınız. Gülər üz, hörmət və ehtiram, zəngin süfrə, qonağın mənzilinə qədər yola salınması və s. Ordubad qonaqpərvərliyinin ən mühüm komponentləridir. Səfərimiz zamanı özümüz də canlı olaraq bu mühafizəkar münasibətin şahidi olduq.

Ordubad təbiətinin möcüzələri, onun şəfalı bitkiləri və digər müalicə vasitələri də tədqiqatımızın əsas istiqamətlərindən olmuşdur. Odur ki, səfər çərçivəsində bu

qədim diyarın xalq təbibləri – sınıqçılar, çöpçülər, bitkilərlə müalicə edən insanlarla görüşüb, əsrləri adlayıb gələn xalq təbabəti – xalq müalicə üsulları və vasitələri ilə bağlı xeyli məlumat topladıq. Öyrəndik ki, Ordubad rayonunun unikal təbiəti müalicəvi bitkilərlə çox zəngindir və tarixən onların hər biri fərqli xəstəliklərin müalicəsində istifadə olunmuşdur. Bu bitkilərin müalicəvi xüsusiyyətləri uzun əsrlər boyu yerli sakinlər tərəfindən öyrənilmiş və empirik təcrübədən keçirilmişdir. Belə bitkilər arasında *Gülümbahar* adlanan bitki öz təbii xüsusiyyətlərinə görə ənənəvi təbabətdə mühüm yer tutur. Məlumatçıların sözlərinə görə, bu bitkinin çiçəkləri iltihab əleyhinə və antiseptik təsirə malikdir. Xalq təbabətində ondan yaraların sağaldılmasında, yanıq və dəri infeksiyalarının müalicəsində geniş istifadə olunur. Gülümbahar dəmləməsi isə mədə-bağırsaq xəstəliklərinə qarşı təsirlidir.

*Çobanyastığı* sakitləşdirici və ağrıkəsici xüsusiyyətlərinə malikdir. Ordubadda bu bitkidən sinir sistemi xəstəlikləri, yuxusuzluq, baş ağrıları və mədə pozuntularının müalicəsində istifadə edilmişdir. Çobanyastığı çayı həmçinin stressin azaldılmasında və yuxu keyfiyyətinin artırılmasında mühüm rol oynamışdır.

*Boymadərən* bitkisi dəri, bronxit və qadın xəstəliklərində geniş istifadə olunmuşdur. Məlumatçıların sözlərinə görə, onun bütün şəfalı xüsusiyyətləri suda dəmləməsində ortaya çıxır. “Boymadərən arağı” deyilən sulu məhlul isə istənilən ağır yeməyi həzm etməyə kömək edir. Yemək zamanı 2 xörək qaşığı içilsə, yeməkdən sonra heç bir köp əlamətləri olmur. Hətta bağırsaqlarında şiş xəstəliyi olanlar belə köpdən əziyyət çəkirlərsə, yenə də yemək zamanı 2-3 qaşıq bu məhluldan içsələr köpdən azad olarlar.

Ordubad *kəklikotusunun* faydaları isə danışmaqla bitməz. Xüsusi dada və ətirə malik Ordubad kəklikotusu keçmişdə olduğu kimi, bu gün də xalq təbabətində geniş tətbiq olunur. Məlumatçılarımızın söylədiklərinə görə, kəklikotulu çay və kəklikotundan hazırlanmış dəmləmələr bir çox xəstəliklər – ağız boşluğunun və udlağın iltihabında, bəlğəmgətirici və antiseptik vasitə kimi laringitdə, bronxitdə, göy öskürəkdə, mədə turşuluğu və köp zamanı, eləcə də digər mədə-bağırsaq xəstəliklərində istifadə olunur. Kəklikotu həm də sakitləşdirici təsirə malikdir. İmmuniteti artırır, soyuqdəyməyə və ağciyər xəstəliklərinə qarşı, revmatizm, spazma, zökəm və qripin müalicəsində effektli sayılır. Diş ağrısını və öskürəyi kəsir, damaqları möhkəmləndirir.



*Palaz nümunəsi. Ordubad. Parağa kəndi*

Bundan əlavə, insanlar hələ qədim dövrlərdən *quşburunu* bitkisini dərman əvəzi kimi istifadə ediblər. Çünki itburnu bir çox dərdlərə dərmandır. Öz zəngin tərkibinə görə onun sağlamlığı üçün saymaqla bitməyən faydaları var.



*Etnoloqlar Tivi kəndində. 15.07.2024*

Quşburununun tərkibi A, B1, B2, P, K və C vitaminləri, zülal, minerallar, potasyum, sodium, maqnezium, kalsium və fosforla zəngindir

Ümumiyyətlə, Ordubad təbiətində geniş yayılmış dağ otları xalq təbabətində müxtəlif formalarda – dəmləmələr və çaylar şəklində istifadə olunur. Xüsusilə dağ otundan dəmlənən çaylar həzm sisteminin yaxşılaşdırılması, soyuqdəymənin qarşısının alınması və orqanizmin müqavimətinin gücləndirilməsi üçün təsirlidir. Lakin ordubadlıların xalq təbabəti xəzinəsi təkcə bitkilərlə məhdudlaşmır. Bir çox təbii vasitələr, o cümlədən, gil, arıçılıq məhsulları və müxtəlif minerallar da müalicə məqsədilə istifadə edilmişdir. Məsələn, gil xalq dərinin təmizlənməsi, iltihabın azaldılması və müxtəlif dəri xəstəliklərinin müalicəsində çox əhəmiyyətlidir. Bundan əlavə, gil maskaları üz və bədən dərisinin sağlamlığını qorumaq və dəri problemlərini həll etmək üçün həmişə geniş istifadə olunmuş və indinin özündə də olunmaqdadır.

Ordubad müalicəvi *mineral sularla* da zəngindir. Ordubad rayonu ərazisində mövcud olan belə sulara Biləv, Ələhi, Gənzə, Kilit, Kotam, Nəsirvaz, Nüsnüs, Parağa, Pəzməri, Tivi kəndləri ərazisində rast gəlmək mümkündür. Bu bulaqların suyu ən müxtəlif xəstəliklərin müalicəsi üçün faydalı hesab olunur.

Arıçılıq Ordubadın ənənəvi təsərrüfat sahələrindən biri olduğundan, arıçılıq məhsulları da xalq təbabətində geniş tətbiq olunmuşdur. Məsələn, bal xalq təbabətində

tənəffüs yolları xəstəliklərindən tutmuş, yara və yanıqların müalicəsinə qədər ən müxtəlif məqsədlər üçün ən effektiv müalicə vasitəsi sayılmışdır. Propolis isə antibakterial və antivirus xüsusiyyətləri ilə tanınır və müxtəlif infeksiyaların müalicəsində geniş istifadə olunmuşdur.

Müasir tibb elmində çox böyük nailiyyətlər əldə edilsə də, xalq təbabəti öz aktuallığını itirməmişdir. Əksinə, son illər ordubadlıların, həmçinin Azərbaycanın digər şəhər və kənd sakinlərinin təbii vasitələrlə müalicəyə marağı və inamı daha da artmaqdadır. Bu baxımdan yerli əhali ululardan əxz etdikləri bu zəngin irsi və təcrübəni göz bəbəyi kimi qoruyur və nəsildən-nəslə ötürməkdə davam edir.

İnformatorlardan aldığımız məlumatlardan aydın olur ki, XIX-XX əsrlərdə həyata keçirilmiş silsilə erməni qırğınları nəticəsində on minlərlə azərbaycanlı öz doğma yurd yerlərini tərk edərək Azərbaycan Respublikasının müxtəlif bölgələrində, o cümlədən Ordubadda (Parağa, Əylis və s. kəndlərdə) məskunlaşmışlar. Onlar burada ayrı-ayrı kəndlər üzrə kompakt şəkildə yaşamasalar və yerli əhali ilə qaynayıb-qarışsalar da, adət-ənənələrini, mədəni-məişət spesifikliklərini qoruyub saxlamış, əsasən maldarlıq, əkinçilik, arıçılıq və s. təsərrüfat sahələri ilə məşğul olmaqda davam etmişlər. Onu da qeyd edək ki, ötən müddət ərzində Qərbi azərbaycanlılar ordubadlıların əhatəsində özlərini yad, özgə hesab etməsələr də, həmişə doğma yurdlarının həsrəti və ora qayıtmaq arzusu ilə yaşamışlar. Bu arzu və istəkləri səfərimiz zamanı görüşdüyümüz soydaşlarımızın birbaşa özlərinin dilindən də eşitdik.

Nəhayət, Ordubadda apardığımız etnoqrafik-çöl tədqiqatları onu da göstərdi ki, müasir qloballaşma prosesləri və ənənəvi mənəvi dəyərlərin tədricən aradan çıxdığı bir vaxtda Azərbaycan xalqının ənənəvi məişət mədəniyyətinin ayrı-ayrı tarixi-etnoqrafik bölgələr üzrə etnoloji öyrənilməsinə ciddi ehtiyac vardır.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES


1. **Azərbaycan tarixi**: Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı, "Elm", 1999.
2. **Naxçıvan abidələri ensiklopediyası**. Naxçıvan, 2008.
3. **Naxçıvan sancağının müfəssəl dəftəri**. Tərcümə edənlər: Ziya Bünyadov və **Hüsaməddin Məmmədov (Qaramanlı)**. Bakı, "Elm", 2001.
4. حمدالله موستوفی، حمدالله بن ابی بکر. نزهت القلوب. تهران، اساطیر، ۱۳۸۹


## MƏLUMATÇILAR

1. İbrahim Murtuz oğlu Rzayev 1934-cü ildə Vənənd kəndində anadan olmuşdur.
2. Hüseyn Mustafa oğlu Məmmədov 1958-ci ildə Vənənd kəndində anadan olmuşdur.
3. Əhməd Yusif oğlu Hüseynov 1938-ci ildə Kotam kəndində doğulmuşdur.

Hacı Abbas Müzəffər oğlu Məmmədov 1935-ci ildə Gənzə kəndində anadan olmuşdur.

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.231-252*

# GƏNCƏ ŞƏHƏRİNƏ ETNOLOJİ SƏFƏR

©2025
İLHAMƏ MƏMMƏDOVA, ƏSƏD ƏLİYEV,
TAHİR ŞAHBAZOV, HƏQİQƏT ZAHİDOVA,
TƏRANƏ QULUZADƏ, NİGAR COŞKUNSU,
BAHAR ƏMƏNOVA, GÜLNAR TAĞIYEVA

2024-cü ilin yay və payız aylarında AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Tarixi etnologiya" şöbəsinin etnoloqları Gəncə şəhərində 5 günlük elmi ezamiyyətdə olmuşlar. Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan, dünyaya Nizami kimi dühanı, Cavad xan qeyrətli sərkərdəni, neçə-neçə elm və incəsənət xadimini bəxş edən Gəncə qədim dövrdən özünün təsərrüfat həyatı, zəngin maddi və mənəvi mədəniyyəti, söz abidələri, ailə məişəti, qonaqpərvərliyi, sənət və sənətkarlıq nümunələri ilə zəngin şəhərlərdən biridir. Gəncə şəhərinin ənənə və müasirlik baxımından tarixi-etnoloji tədqiqi Azərbaycanın şəhər mədəniyyətinin öyrənilməsində elmi əhəmiyyət daşıyır.

Ezamiyyət müddətində etnoloqlar Gəncənin müxtəlif idarə, təşkilat və muzeylərində (Gəncə şəhər Heydər Əliyev Mərkəzi, AMEA Gəncə Bölməsi, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsi, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Məhsəti Gəncəvi Mərkəzi, Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası, Gəncə Dövlət Rəsm Qalereyası, Gəncə Tarix-Diyarşünaslıq Muzeyi,



*Gəncəçay*

Gəncə Qala Qapıları – Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə Kompleksi, Azərbaycan Xalq Cümhuriyyəti Muzeyi, Nəsib bəy Yusifbəylinin ev-muzeyi, İsrafil Məmmədovun ev-muzeyi, Gəncə İmamzadəsi (İmamzadə Türbəsi), Şah Abbas Cümə məscidi, Şah Abbas Karvansarası, Çökək hamam və s.) olmuş, yaşlı sakinlərlə görüşmüş, tarixi etnologiya üçün əhəmiyyət kəsb edən, xüsusilə də qloballaşan dünyada öyrənilməsi vacib sayılan məsələləri araşdırmışlar. Gəncənin tarixi məhəllələri, yaşayış məskənləri, sənətkarlıq sahələri, ənənəvi mətbəxi, ailə məişəti, xalq bayramları və əhalinin dini görüşləri, təbabət, qonaqpərvərlik və digər məsələlər araşdırma mövzusu kimi seçilmişdi.

**T.e.d. İlhamə Məmmədova** gənc tədqiqatçı **Gülnar Tağıyeva** ilə birgə **“Gəncə şəhərinin məhəllələri”** və **“Gəncədə sənətkarlığın müasir vəziyyəti”** mövzularını araşdırmış, şəhərin çoxsaylı məhəllələrinin bir qismində olmuş və onlar haqqında məlumat toplamışlar:

Gəncə şəhəri eyniadlı çayın sahilində salınmışdır. Orta əsrlərdə özünün rövnəqli çağlarını yaşayan Gəncə Azərbaycanın ikinci böyük şəhəridir. XIV əsr tarixçisi Həmdullah Mustofi yazır: “Arranda xəzinə dolu Gəncə, İraqda Sefahan (İsfahan – İ.M)”.[1] Müəllif qeyd edir ki, Gəncə 5-ci iqlimə daxildir...İslam şəhəridir. Xoş havası olan və yüksəklikdə yerləşən şəhərdir.[2]

Şərqin əksər müsəlman şəhərləri kimi Gəncə də məhəllələrə bölünür, hər məhəllədə məscid, hamam, meydan, kəhriz və digər ictimai məkanlar var. Gəncə məhəllələri, onların adlanması şəhərin etnik tarixinə dair təkzibedilməz faktlar ortaya çıxarır. Ölkənin müəyyən tarixi dövr ərzində sosial-mədəni, siyasi-iqtisadi, etnomədəni inkişaf dinamikasının tədqiqində məhəllələrin öyrənilməsi aktuallıq doğurur.

Məhəllələrin bölünməsində əhalinin etnik və dini tərkibi, peşə yönümü, sosial vəziyyəti, ərazinin fi-



*Xan arxı*

[1] حمدالله موستوفی، حمدالله بن ابی بکر. نزهت القلوب. تهران، اساطیر، ۱۳۸۹ ، ص. ۹۲

[2] Yenə orada, s.91.

ziki quruluşu və digər həlledici amillər rol oynayırdı. Məhəllələrdə sosial mühit qohumluq-qonşuluq münasibətlərinə əsaslanırdı. Ədəbiyyat materiallarından məlumdur ki, XIX əsrin sonundan başlayaraq XX əsrin 30-cu illərinədək Azərbaycanda ailə icmaları dağılaraq yerini patronimik qruplara vermişdir[3]. Böyük ailələrin seqmentasiyası nəticəsində yaranan patronimik qruplar eyni məhəllədə yaşayır, təsərrüfatda birgə çalışır, rəhmətə gedənini eyni qəbiristanlıqda dəfn edirdilər. Kiçik ailələrin təsərrüfat, ictimai və mənəvi birliyindən ibarət patronimik qruplar eyni nəsli təmsil edir, onlar təsərrüfatla yanaşı, ailə və ictimai məsələlərin həllində bir-birinə hayan olurdular. Onların məskunlaşdığı yaşayış məskənləri monogen səciyyə daşıyırdı. Lakin zaman keçdikcə sənət və ticarətin inkişafı, miqrasiyalar və digər səbəblərdən xüsusilə şəhərlərdə məhəllələrin qarışıq tərkibi formalaşırdı. Gəncə şəhəri də əsasən qarışıq tərkibli əhalidən ibarətdir. Qeyd edək ki, gəncəlilər məhəllələrə "basalaq", həyətlərə isə "məhlə" deyirlər.

Qısamüddətli ezamiyyət dövründə bir neçə məhəllədə olduq, artıq tarixə qovuşmuş bəzi məhəllələr haqqında sorğular apardıq:

***Böyükbağman məhəlləsi*** tarixi məxəzlərdə tez-tez adına rast gəlinir. Sahəsi əvvəllər əkin, bağ-bağat yeri olmuş, sonralar burada yaşayış evlərinin sayı artmışdır. Məlumatçıların dediyinə görə, ilk dəfə bu ərazidə Cavad xan bağ saldırmış və urbanonim həmin vaxtdan formalaşmışdır. Əhalisinin əsas məşğuliyyəti meyvəçilik, tərəvəzçilik, bostançılıq, həmçinin maldarlıq olmuşdur. Hazırda Böyükbağman məhəlləsinin sakinləri *Hacıalılar (Hajalılar), Nəsiblilər, Ququşlular, Qaraboğazlılar, Şiləyeyənlər, Usuflular, Şabanlılar* və digər nəsillərdən ibarətdir.



*Şahsevənlər məscidi*

Məhəllədə Gəncəçaydan çəkilmiş *Xan arxı* ilə vaxtilə tarlalar suvarılır və əhali içməli su ilə təmin olunurdu. Deyilənə görə, bu arxı Cavad xan şəhər mərkəzindəki Xan bağını suvarmaq üçün çəkdirdiyindən bura xalq arasında "Xan arxı" adını almışdır.

Gəncə şəhərində keçmişdə xeyli sayda kəhriz vardı. Ədəbiyyat materiallarına istinadən qeyd edə bilərik ki, XX əsrin əvvəllərində Gəncədə 8 kəhriz fəaliyyət göstərirdi.[4] Bir neçə yüz il yaşı olan kəhrizlərlə yanaşı, XIX əsrdə yeniləri də qazılmışdı. Lakin zaman keçdikcə onların əhəmiyyəti azal-

---

[3] Qəzənfər Rəcəbli. **Ailə və ailə məişəti.** Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007, s.137-138.
[4] Шик И.Р. Питьевые воды Азербайджана. – «Известия Общества обследования и изучения Азербайджана». Баку, №6, 1928, с.160.

mış və hazırda quyuların ağzı bağlı vəziyyətdədir. Məlumatçılara görə, 1923-cü ildə tekstil fabrikinin su ilə təminatı məqsədilə Böyükbağman məhəlləsində yeni kəhriz basılmışdır. Onun yeraltı lağımı Qızılqayadan başlayaraq toxuculuq kombinatınadək davam edirdi.[5] Ümumiyyətlə, Gəncə kəhrizləri *Qızılqayadan* və ya *Üçtəpədən* başlayaraq məhəllələrədək uzanırdı.

Bir sıra məscidlər qapalı olsa da, *Şah Abbas məscidi, İmamzadə məscidi, Qırıxlı məscid, Qazaxlar məscidi, Şahsevənlər məscidi* hazırda fəaliyyətdədir. Sovet dövründə Azərbaycanın hər yerində olduğu kimi, Gəncədə də ibadət yerləri qapadılaraq, güclü ateizm təbliğatı aparılırdı. Bu məqsədlə şəhərin əksər məscidləri kitabxanaya, mədəniyyət evinə çevrilmiş və indiyədək qapalı vəziyyətdədir. Məscidlər hər məhəllənin vacib ictimai məkanı olub, dini maraqların mühafizəsi ilə yanaşı, sakinlər arasında qarşılıqlı yardımlaşmaların, qohumluq-qonşuluq münasibətlərinin gücləndirilməsi funksiyasını üzərinə götürürdü.


*Balabağman məscidi*

***Bağmanlar (Balabağman) məhəlləsi*** Gəncənin tarixi məhəllələrindən olub, deyilənə görə bu məskənin əsasını vaxtilə Təbriz şəhərindən gələnlər qoymuşlar. Sakinlərin əsas məşğuliyyəti bağçılıq, tərəvəzçilik, heyvandarlıq və s.-dən ibarət olmuşdur. Əsas əkin sahəsi *Qızıl qaya* və *Topdanlı* idi. Burada "təbrizi" adlı yerli üzüm sortu yetişdirilirdi. Məhəllədə Gəncə çayının suyu ilə üç su dəyirmanı (*İkidaşlı Tümən dəyirmanı, İkidaşlı Aşırqulu dəyirmanı, Üçdaşlı Söyüdlü dəyirmanı*) işləyirdi. Vaxtilə burada bolsulu kəhrizlər fəaliyyət göstərirdi. XIX əsrə aid *Ozan kəhrizi* və XX əsrin əvvəllərində qazılmış *Hacı Mir Qasımağa* kəhrizləri su təchizatında əhəmiyyətli rol oynayırdılar.

***Şahsevənlər məhəlləsinin*** sakinləri öz dindarlığı ilə seçilirdilər. Məhəllədə iki məscid, *Hacı Mir Qasım kəhrizi* (hazırda işlək deyil) vardı. Məhəllə sakinləri olan şahsevənlər Şah Abbas (1587-1629) tərəfindən Gəncə və ətrafına köçürülmüşlər. Onlar əvvəlcə köçmə maldarlıqla məşğul olmuş, tədricən oturaq həyata keçərək

---

[5] Məlumatçı: Şahin Ənvər oğlu Məmmədov 1964-cü ildə Gəncədə anadan olmuş, Böyükbağmanlar məhəlləsinin sakini, ali təhsilli mexanik.

papaqçılıq, dabbağlıq, pinəçilik, bənnalıq, qəssablıq və s. peşələri özlərinə əsas məşğuliyyət seçmişlər. Məhəllədə eyni adlı məscid fəaliyyət göstərir.

***Sofulu məhəlləsi:*** Gəncənin qədimi məhəllələrindəndir. Məlumatçıların söylədiyinə əsasən, məhəllənin adı buraya miqrasiya edənlərlə əlaqəlidir. Sakinləri Ərdəbil tərəfdən Sofulu ərazisindən gəlmişlər. *Hacıqədimlilər, qalalılar, heydərxanlılar, əlləzlilər, şeyxzamanovlar* əsas nəsillər sayılırlar. Əhalinin mühüm məşğuliyyəti üzümçülük, bağçılıq, sənətkarlıq olmuşdur. Bağların su təchizatında *Hacıqədimli* və *Kərbəlayi Abiş oğlu (Kəlbəabış) kəhrizlərinin, Şatır arxının* əhəmiyyəti böyük idi. Kəlbəabış kəhrizi sovet dövründə bağlanmışdır. Bu məhəllə həm də atçılıq, arabaçılıq, faytonçuluq üzrə ixtisaslaşmışdı. Deyilənə görə, ötən əsrin ortalarında məhəllə sakini Mişka Məmməd adlı faytonçu məşhur idi.[6]

***Köşkülülər məhəlləsi*:** Köşkü kəndi Hacıkəndə gedən yolun üstündə yerləşir və məlumatçılara görə, gəncəlilər hər il oraya yaylağa gedərdilər. Eyni zamanda, Gəncə sakinləri də yay aylarında bu kənddə istirahət edərdilər. Beləliklə, kənd böyüyüb məhəlləyə çevrilmişdir.

***Çaylı məhəlləsi:*** Gəncə çayının sahilində yerləşir. Bəziləri oykonimi çaylı tayfasının adı ilə əlaqələndirirlər. Ərazinin çayın qırağını əhatə etməsi və tarixi məxəzlərdə müxtəlif bölgələrdən, əsasən Qazax, Ağstafa və s. ərazilərdən buraya əhali axınlarının olması faktı məhəllənin adının coğrafi terminlə bağlı olduğunu təsdiqləyir. Çaylı sakinləri dulusçuluq, dabbağlıq, arabaçılıqla, qismən də əkinçiliklə məşğul olurdular.

***Şatırlar (Fəttahlar) məhəlləsində*** məşhur nəsillər yaşamışlar. *Hacı Qədimlilər, Şeyxzamanlılar, Hacı Əlilər* və digər nəsillər indi də məhəllədə yaşamaqda davam edirlər. XIX əsrdə Hacı Fəttah adlı bir nəfər öz xeyirxahlığı ilə ad qazanmışdı. Ona görə buraya həm də “*Fəttahlar məhəlləsi*” deyilir. Burada *Şatır arxı* və kəhriz vardı. Şatır arxı Şah Abbas məscidinin yaxınlığından axır.

Şatırlar məhəlləsinin yaranma tarixi ilə bağlı hələlik əlimizdə dəqiq məlumat yoxdur. Məlumdur ki, Azərbaycanda, eləcə də Şərq ölkələrində şatırlıq peşəsi məşhur idi. Səfəvilər dövründə şatır peşəsi və yarışları geniş yayılmışdı. Onlar peşəkar qaçış ustaları idilər. 7 yaşından etibarən qaçışa öyrədilir, 18 yaşında yarışa qoşulurdular. Qaçışa şəhər meydanından başlayıb 2 fərsəx aralıda qurulmuş çadıra çatmalı idilər. Çadırda gözləyən əmir şatırın torbasına bir ox qoyar və o qaçaraq şəhərə geri dönməli idi. Bu hərəkət on iki dəfə təkrarlanır, qalibə vəliəhdin hədiyyəsi çatırdı. Şatır seçimi təbillərlə, musiqi sədaları altında baş tuturdu. Şatırlar irsi olaraq əyanların xidmətində dururdular.

XIX əsrdə texnikanın, nəqliyyat sisteminin inkişafı ilə əlaqədar şatırlıq peşəsi sıradan çıxdı. Lakin bəzi peşə sahiblərinə də “şatır” deyilməyə başladı. Bazar və meydanlarda su satanlar, həmçinin çörəkçilər “şatırçı”, onların bişirdiyi uzun və nazik çöreklər isə “şatır” adlanırdı.

---

[6] Məlumatçı: Məsimov Akif Yusif oğlu 1946-cı il təvəllüdlü, sandıqsaz, hazırda Gəncədə Hacı Məlikli küçəsində yaşayır.

Şatırçılar məhəlləsinin yaxınlığında ***Şatırgörən məhəlləsi*** yerləşir. Sakinlərin əsas məşğuliyyəti şatır çörəyi satmaq olmuşdur. Bu səbəbdən həmin məhəllə "Çörəkçilər məhəlləsi" də adlanırdı. Burada həmçinin faytonçuluqla, arabaçılıqla, ticarətlə də məşğul olurdular.

***Sandıqçılar məhəlləsi***. 1905-ci ildə erməni-müsəlman savaşından sonra çayın o tayından gələnlər evlər tikib məhəllənin əsasını qoydular. Məhəllənin adı sakinlərin peşə məşğuliyyətini əks etdirir. Məhəllə sakini Sandıqçı Seyid bütün bölgədə məşhur idi.

***Aşıqlar məhəlləsi*** adından bəlli olduğu kimi aşıqlar və musiqiçilər məskəni kimi tanınırdı. Aşıq Zeynal, Aşıq Qara, Aşıq Ağarza və b. ötən əsrdə bu məhəllədə yaşamış və bütün bölgədə məşhur olmuşlar. Burada *Şahsevən kəhrizi* fəaliyyət göstərirdi.

***Tatabad məhəlləsi.*** XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda kapitalizmin sürətli inkişafı ilə əlaqədar buraya kəsbkarlığa gələnlərin sayı artdı. Cənubi Azərbaycan əhalisi Bakı ilə yanaşı, digər şəhərlərə də iş dalınca gəlirdilər. *Qoca xan qəbiristanlığı* onlara məxsus idi. XIX əsrin sonunda məhəllədə Kərbəlayi Abışoğlunun kərpic zavodu vardı. Hazırda tarixə qovuşan Tatabad məhəlləsində *Kərbəlayi Abışoğlunun buzxanası, üzüm bağı, kəhrizi* fəaliyyət göstərirdi.

***Tatlar məhəlləsi*** deyilənə görə, Səttarxan və Bağırxan hərəkatından (1905-1911-ci illər Məşrutə inqilabı) sonra İrandan, əsasən Arazbar və Əhərdən kəsbkarlığa gələnlər tərəfindən salınmışdır. Kəsbkarlar arasında səriştəli kənkanlar vardı. Məhz, onların sayəsində Gəncədə bir sıra yeni kəhrizlər qazılmış, şəhərin su təchizatında yenilik yaranmışdır.

1875-ci ildə Tatlar məscidi tikilmişdir. Məscidin əsas inşaat materialını çaydaşı, bişmiş kərpic, əhəng, qum və s. qarışığı təşkil edirdi. Rəsmi adı "Hüseyniyyə" olan məscidin qibləsi səhv istiqamətdə inşa olunduğundan buraya ibadət əhli az gəlirdi[7]. Sovet dövründə Tatlar məscidi kitabxanaya çevrilmişdir.

Bu məhəllə özünəməxsus mətbəx mədəniyyəti ilə diqqəti cəlb edir. Burada Gəncənin məşhur Novruz şirniyyatı olan *ziviyə (zilviyyə*) hazırlanır.

Gəncədə sözügedən etnonimlə bağlı bir sıra ictimai məkanlar – *Tatlar məscidi,* Şah Abbas meydanında *Tatoğlu karvansarası, Tatlar hamamı* da vardı.

Bəzi məlumatçıların dediyinə görə, məhəllədə Lahıcdan gələnlər məskunlaşmış və ənənəvi məşğuliyyətləri olan misgərliyi burada da davam etdirmişlər.

***Qızılhacılı məhəlləsində*** Goranboyun eyniadlı kəndindən köç edənlər məskunlaşmışlar. Kənd məscidinin binasında sovet dövründə stomotoloji poliklinika yerləşmiş, indi isə bina qapalı vəziyyətdədir.

---

[7] Məlumatçı: Allahverdiyev Namlet Əli oğlu 1940-cı ildə Gəncədə anadan olmuş, Sofulu məhəlləsinin sakini, tədqiqatçı.



*Qazaxlar məscidi*

***Qazaxlar məhəlləsində*** Qazax mahalından köç edənlər məskunlaşmış, məşğuliyyətləri maldarlıq, bağçılıq, bostançılıq və s. olmuşdur. Əhali *Xan arxının* suyundan istifadə edirdi. Sovet dövründə dini ocaqlar qadağan olunsa da, Böyük Bağban məhəlləsindəki *Qazaxlar məscidi* qapanmamış və hazırda da fəaliyyət göstərir.

***Qaraçılar məhəlləsi*** ötən əsrin 50-ci illərində Yevlax rayonundan gələnlər tərəfindən formalaşmışdır. Qaraçılara burada pasport verilmiş və onlar oturaq həyata keçmişlər.

Gəncənin tarixi oykonimlərinə nəzər salsaq məlum olur ki, onların formalaşması əsasən ərazinin fiziki quruluşu və buraya müxtəlif səbəblərdən miqrasiya edən etnoslarla, eyni zamanda əhalinin sənət-peşə ixtisaslaşması ilə bağlı olmuşdur.

Yuxarıda qeyd olunduğu kimi, etnoqrafik-çöl tədqiqatı zamanı **“Gəncədə sənətkarlığın müasir vəziyyəti”** mövzusunda da material topladıq. Vaxtilə sənətkarlığın müxtəlif sahələrinin rövnəq tapdığı, peşəkar ustaları ilə məşhur olan Gəncə hazırda el sənətkarlarının qıtlığı ilə üzləşir. Məlumdur ki, texnikanın inkişafı, bazar iqtisadiyyatının genişlənməsi və ucuz xarici əmtəənin əhalinin məişətinə sürətlə daxil olması ilə baha başa gələn və ağır zəhmət tələb edən kustar istehsalı tənəzzülə uğradır.

Hazırda Gəncə şəhərində ***misgərlik*** sənəti xeyli zəifləmişdir. *Karvansara bazarında* bir misgər-qalayçı emalatxanası fəaliyyət göstərir. Həmin emalatxana əslən lahıclı Fəhimov Məmməd Soltan oğlu (1961-ci ildə Gəncədə anadan olmuşdur) tərəfindən açılmışdır. 1979, 1980-ci illərdə Sosializm yarışının qalibi, bir sıra medal və ordenlərlə təltif olunan, Gəncə Xalq Deputatları sovetinə deputat seçilən misgər Məmməd həmçinin xeyriyyə işlərilə ad qazanmışdı. Övladları Ruslan Fəhimov (1987-ci ildə Gəncədə anadan olmuşdur) və Royal Fəhimov (1990-cı ildə Gəncədə anadan olmuşdur) atalarının sənətini davam etdirir, misgər-qalayçı kimi fəaliyyət göstərirlər. Deyilənə görə, onların babaları Hacı Gülməmməd də Lahıcda peşəkar misgər imiş.

Misgərlər bildirdilər ki, qabaqlar xammalı zavodlardan alar, əsasən Şəmkirdən, Bakıdan gətirərdilər, lakin son 15-20 ildə mis qıtlığı ilə üzləşirlər. Bu səbəbdən köhnə qabları əridib yenisini düzəldirlər.[8] Son illər mis qabların sifarişi azalmış və onların

---

[8] Məlumatçı: Ruslan Məmməd oğlu Fəhimov 1987-ci ildə Gəncədə anadan olmuşdur, misgər-qalayçı.

düzəldilməsinə qismən ehtiyac var. Gəncə paxlavası indiyədək közdə mis məcməyidə bişirildiyindən sifarişlərdə məcməyilər üstünlük təşkil edir. Misgər-qalayçılar əsasən məcməyi, qazan, kəfgir, samovar və digər mis əşyaları bərpa edir, qalaylayır, həm də mis qabların alış-satışı ilə məşğul olurlar. Əzilmiş samovarların düzəldilməsi, parıldadılması üçün Bakıdan daha çox sifariş alırlar.

Etnoqrafik müşahidələr göstərir ki, Gəncədəki misgərlik emalatxanasının daxili sahmanı, oradakı əmək alətləri digər şəhər və qəsəbələrdəki (Bakı, Lahıc, Zəncan və s.) eyni profilli sexlərlə oxşarlıq təşkil edir. Ənənəvi olaraq emalatxananın bir hissəsində ocaq yerləşir. Ocağın alovlandırılmasında əvvəllər körükdən istifadə olunsa da, Gəncədə 1990-cı illərdə aradan qaldırılmışdır. Müşahidələrimizə əsasən Bakıda, Zəncanda ocaq qazla, Gəncədə isə hələ də kömür və taxta ilə yandırılır. Bir neçə zindandan (buynuz zindan, düz zindan, məcməyi zindanı, əyri zindan) istifadə olunur, onların bəzisi yerə bərkidilmişdir. Ustalar bildirdilər ki, alətlərin (tıraqqa çəkic, lovzəni çəkic, yumru çəkic, düz çəkic, biz çəkic və s.) əksəriyyəti ata-babadan qalmadır.[9]



*Müəllif misgərlik emalatxanasında. Gəncə. Karvansara bazarı*

Keçmişdə məişət qabları narın qumla sürtülüb yuyulduğundan onların müddətcə qalaylanmasına ehtiyac yaranırdı. Mis tez oksidləşdiyindən belə məmulatın uzun müddət istifadəsi orqanizmə zərər verə bilər. Qalay misi qoruduğundan mis qablar hər il qalaylanmalıdır ki, materialın özü zədələnməsin. Müasir dövrdə mis məmulatını qalaylamaq üçün xaricdən gətirilən müxtəlif kimyəvi maddələrdən istifadə olunur. Bizimlə müsahib olduğu zaman usta Ruslan iri "xeyir-şər qazanı"nı qalayladı. Məmulat əvvəlcə ocaqda qızdırılır, quru parça ilə təmizlənir və dərmanlanır. Sulfat turşusu, sink və su qarışdırılır və bu zaman qaynama baş verir. Qaynama prosesi başa çatdıqdan sonra maşa vasitəsilə tutulan pambıq həmin qarışı-

[9] Məlumatçı: Royal Məmməd oğlu Fəhimov 1990-cı ildə Gəncədə anadan olmuşdur, misgər-qalayçı.

ğa batırılaraq qaba sürtülür və ocaqda qızdırılır. Soyuduqdan sonra yuyulur. Gəncə misgərləri dərmanlama prosesində Türkiyədən idxal olunan hazır maye dərmandan istifadə edirlər. Qalaylanma üçün qalay, toz halında naşatır və s. maddələr lazımdır. Mis qablar dərmanlanma prosesindən sonra parça ilə silinir və yenidən ocaqda qızdırılaraq üzərinə ərinmiş qalay cəldliklə çəkilir. Qalaylandıqdan sonra pambıq parça ilə silinib "varaqlanır", yəni parıldadılır.

Nəsildən-nəslə irsən keçən misgərlik sənəti əsasən mətbəx və süfrə mədəniyyəti ilə bağlı maddi tələbatın ödənilməsinə xidmət etməklə bahəm, həm də mis qabların estetik əhəmiyyəti ustaların və onların istifadəçilərinin zövqü baxışlarını əks etdirir. Mis qabların üzəri klassiklərin şeir nümunələri, dini yazılar, müxtəlif nəbati və həndəsi naxışlarla bəzədildiyindən onlar həm də bədii sənətkarlıq baxımından Azərbaycan xalqının identifiklik nümunəsi sayılırlar. Zərif naxışlarla bəzədilən mis qablar praktik və estetik olduğundan keçmişdə xalq yaşayış evlərinin daxili sahmanında əsas yer tutur və ailənin sosial göstəricisi hesab olunurdular. Müasir dövrdə də misin faydaları nəzərə alınaraq imkanlı ailələrdə belə qablara müəyyən meyl yaranmaqdadır.

***Boyaqçılıq.*** Bildiyimiz kimi, Azərbaycanın ipək istehsalı mərkəzlərindən olan Gəncə həm də boyaqçılıq üzrə ixtisaslaşmışdı. İndi isə şəhərdə Nağıyevlər ailəsinə məxsus bir boyaqxana fəaliyyət göstərir. Boyaqçı Rəşad ilə həmsöhbət olub, bu sənətin müasir vəziyyəti haqqında suallara cavab aldıq.[10] Məlum oldu ki, onun atası Nağıyev Rüfət Eyyub oğlu (1960-cı ildə Gəncədə anadan olmuşdur) və babası Nağıyev Eyyub Məmmədəli oğlu (1923-cü ildə Gəncədə anadan olmuşdur) tanınmış boyaqçılar olmuşlar. Boyaqçılar nəsli Şahsevənlər məhəlləsində məskunlaşmışlar.

Keçmişdə ot və bitki yarpaqları, kökləri (nar, qoz, tut, heyva, palıd və digər ağacların qabığı, yarpağı, boyaqotu, soğan qabığı, indiqo və s.) ilə təbii boyalarla kəlağayılar, ipliklər boyanırdı. XX əsrin 70-ci illərindən isə süni boyalardan istifadə genişləndi. Son illər süni boya İran və Pakistandan gətirilir və əsasən geyimlər, gəvə və xalça toxumaq üçün yun və pambıq ipliklər boyanır. Boyaqçı dükanında çalışan usta Rəşad sifarişi özü qəbul edir və məhsulu evindəki emalatxanada hazırlayır. Gəncəlilərlə yanaşı, Qazax, Bərdə və ətraf yerlərin sakinləri də ona müraciət edirlər. Emalatxanada boyama prosesində toz halında olan süni boya suda həll olunub, kustar qaz sobasının üstündə iri mis və ya alüminium qazanlarda qaynayan suya qatışdırılır. İpliklər dağ suya salınıb 30 dəqiqə qarışdırılaraq qaynadılır. Sonra ılıq suda 30 dəqiqə sabun vurulmadan durulanır və ipə sərilib qurudulur.

***Sandıqsazlıq***. Gəncə şəhərində sandıqsazlıq XX əsrin ortalarından başlayaraq genişlənmiş, hazırda isə tələbat olmadığından bu peşə yox olmaq üzrədir. Məsimovlar ailəsi sandıqsazlıqla ixtisaslaşmış, bu peşəni ataları usta Yusifdən öyrənən Doktor Səməd, Çingiz, Aqil, Nadir, Akif qardaşları güzəranlarını demək olar ki, sandıqsazlıqla təmin edərdilər. Sandıqsaz Akif ustanın dediyinə görə, sandığın əsas xammalı

[10] Məlumatçı: Rəşad Rüfət oğlu Nağıyev 1983-cü ildə Gəncə şəhərində anadan olmuşdur, boyaqçı.

şam ağacı yerli meşələrdən tədarük olunar, qıfıl, rəzə, siyirmə və düyməsi isə Leninqraddan (Sankt-Peterburq) və Tbilisidən gətirilərdi.[11]

Sandıqlar müxtəlif ölçülərdə düzəldilirdi: 85X42 sm, 100X50 sm, 150X50 sm. Bundan əlavə, zinət əşyalarını saxlamaq üçün kiçik ölçülü mücrü də hazırlayırdılar. Mücrülərə və bəzi imkanlı şəxslərin sandıqlarına musiqili qıfıllar qoyulurdu.

Mişar ("pışkı"), uzun rəndə ("fuqan"), müxtəlif ölçülərdə çəkiclər və s. ustanın əsas əmək alətləri idi. Sandıqlar keçirtmə taxta və başı kəsilmiş mismarla bərkidilir, qapaqları düz və oval olurdu. İçəri divarlarına duru xəmirlə "şpal" deyilən rəngli kağız yapışdırılırdı. Gəlinlər üçün çəhrayı, digərləri üçün şux və tünd rəngli kağızlar nəzərdə tutulurdu.

Sandığın üzəri basma naxışlarla bəzədilirdi. Boyalar indi bazarda hazır satılsa da, keçmişdə dəmirağac, qətranlı ağac və digər bitki və otlardan rəng alınırdı. Xalq arasında "qətranlı ağac" və ya "qaraağac" adlanan ağac kəsildikdən dərhal sonra doğranıb rəndələnir və yonqarlarının üzərinə ağır əşya qoyulurdu. Ondan süzülən yağa xüsusi maddələr qatılıb rəng alınırdı.

Sandığın arxa tərəfinə mürəkkəb çəkilirdi. Klassik naxışlardan əlavə, hər bir ustanın sandığın üzərinə vurduğu öz möhürü, yəni naxışı vardı. Naxışlar daha çox qırmızı, sarı, yaşıl, göy və ağ rəngli boyaya batırılmış qəliblə vurulurdu. Metaldan düzəldilən qəliblər bir əsas və 4 kiçik nüsxədən ibarət idi. Gəncəli usta Akif düzəltdiyi sandıqların üzərində klassik naxışlardan əlavə, ceyran rəsmi də çəkirdi.

Gəncəlilərin dialektində "daqqa" adlanan böyük sandıqlar yük, gəvə və digər iri həcmli məişət əşyaları saxlamaq üçün nəzərdə tutulurdu. Yorğan-döşək uzun müddət saxlandıqda güvə düşməsin deyə sandığın içinə tütün də qoyulurdu.

Etnoloji tədqiqat qısa müddətə başa çatdığından sənətkarlıq sahələrini tam əhatə edə bilmədik. Hesab edirik ki, dünyanın bir sıra xalqlarına, o cümlədən azərbaycanlılara xas sənətkarlıq sahələrinin yaşadılması mədəni irsin qorunmasından ötrü olduqca zəruridir.

**T.ü.f.d., dos. Əsəd Əliyev "Ailə və ailə məişəti"** mövzusunda tədqiqat aparmış, Gəncə şəhərində ailənin ənənəvi xüsusiyyətlərinin müasir transformasiyalarını qələmə almışdır. Müəllif yazır:

Məlumdur ki, Azərbaycanda, o cümlədən Gəncədə müxtəlif nikah formaları mövcud olmuşdur. Məsələn: təkkəbinlik (monoqam) və ikiarvadlılıq (poliqam); nikah qaydaları – ekzoqam və endoqam; nikah adətləri – göbəkkəsmə (beşikkərtmə), levirat, sororat və kuzen; nikahagirmə üsulları – qızqaçırma və elçilik yolu ilə.

İnformatorların verdiyi məlumata görə, Gəncədə əsas nikah forması təkkəbinlik olmuşdur. Səbəb olmadan ikinci qadınla evlənənə qohum-əqrəba, tanış-biliş mənfi münasibət göstərərdi. Əgər birinci qadın vəfat edərdisə və yaxud ana olmaq imkanından məhrum idisə, onda ərin (birincinin özünün razılığı əsasında) ikinci qadınla evlənməsi məqbul sayılardı.

[11] Məlumatçı: Məsimov Akif Yusif oğlu 1946-cı il təvəllüdlü, sandıqsaz, hazırda Gəncədə Hacı Məlikli küçəsində yaşayır.

Aldığımız bilgiyə əsasən, Azərbaycanın müxtəlif bölgələrində olduğu kimi, Gəncədə də ekzoqam (yad adamlarla) və endoqam (qohum şəxslərlə) nikah qaydaları mövcud idi. Endoqam nikahın özü də bir neçə yerə bölünürdü: dayıoğlu ilə bibiqızı və bibioğlu ilə dayıqızı; xalaoğlu ilə xalaqızı, həmçinin də əmioğlu və əmiqızı arasındakı nikahlar.

Sorğu zamanı bəlli oldu ki, şəhər əhalisi içərisində dayıoğlu ilə bibiqızı və bibiqızı ilə dayıoğlu, eləcə də xala oğlu ilə xala qızı arasında nikahlar yox deyilmiş. Gəncə şəhər sakini Heydər (Boran) Yusif oğlu Tağıyev bizə məlumat verdi ki, onun ata və anası xala uşağıdırlar. Müsahibimizin söyləməsinə görə, çox geniş yayılmasa da, şəhər əhalisi arasında belə nikahlara ara-sıra rast gəlinir.

Apardığımız sorğu göstərir ki, Gəncə şəhərində qan qohumu, yəni əmioğlu və əmiqızının evlənməsi çox pis qınağa, tənbehə səbəb olduğundan, belə nikah bağlantısından qaçılarmış. Şəhər sakini Sədi İsmayıl oğlu Mirzəyevin dediyinə görə, əmisi qızı ilə evlənən, ailə quran kəslərə elə də xoş münasibət göstərilməzdi. Buna baxmayaraq, belə evliliklərə rast gəlinməkdədir. Bu barədə digər məlumatçılarımız da eyni sözləri dedilər.

Azərbaycanın bu və ya digər yerlərində olduğu kimi, Gəncə şəhər sakinlərinin keçmiş ailə məişətində yer alan nikah adətlərindən biri "beşikkərtmə" idi. Məlumatçımızın dediyinə görə, bu adət fərqli terminlərlə, məsələn, "sözkəsdi", "köbəkkəsdi" və s. kimi də ifadə olunurdu. Sorğu apardığımız məlumatlı şəxslərin söyləmələrinə görə, sözügedən adət iki yaxın şəxsin uşaqlarının simasında öz icrasını tapırdı. Lap körpəlikdən, bəzən də ana bətnində olarkən göbəkkəsdi edilən uşaqlar böyüyəndə vaxtilə valideynləri arasında aparılan sövdələşməyə sadiq qalardılar. Göbəkkəsdinin pozulması iki ailə, bəzən də uşaqların mənsub olduqları nəsillər arasında incikliyə, hətta düşmənçiliyə gətirib çıxarırdı.

Uzun illər öncə azərbaycanlılar arasında "levirat" (subay qardaşın vəfat etmiş qardaşın dul qalmış arvadı ilə evlənməsi) nikah adətinin mövcudluğu barədə də məlumatlar, yazılı bilgilər vardır. Lakin müxtəlif yaş qrupuna mənsub gəncəlilərlə apardığımız sorğu zamanı bu nikah adətinin ərazidə yayılmadığını, hətta belə düşüncə sahiblərinin şəhər əhalisi tərəfindən nifrətlə qarşılandığını söylədilər. Əksinə, ölən qardaşın qadınına toxunulmadığını və onun uşaqlarına əminin həyan olduğunu, onları bütün xətalardan, kənar şəxs və yad nəzərlərdən qoruduğunu dilə gətirdilər. Bəzi informatorlarımız isə bu nikah adətinə çox-çox əvvəllər, daha doğrusu, 1941-45-ci il müharibəsi ərəfəsində ara-sıra təsadüf edildiyini, sonrakı illərdə tamamilə sıradan çıxdığını söylədilər.

Keçmişdə Azərbaycanda "sororat" – yəni arvadı ölən kişinin öz subay baldızı (mərhum arvadının bacısı) ilə evlənməsi adəti də olmuşdur. Sözügedən adətin Gəncə şəhərində varlığını, yaxud bu üsulun əhali tərəfindən necə qarşılandığını bilmək üçün sorğu apardıq. Məlum oldu ki, subay baldızı ilə evlənmə məsələsində kürəkənin mərhum arvadını necə yola aparması ciddi şəkildə nəzərə alınmışdır. Əgər kürəkən mərhum arvadına qarşı həlim xasiyyətli və xoş münasibətli olmuşdursa, onda qızın ata-anası, qohum-əqrəbası bu evliliyə icazə verirdi. Digər tərəfdən isə, anadan yetim qalmış uşaqların qayğısına xala daha yaxşı qalırdı. Bütün bunlar ölçülüb-biçilir və sonra son nəticəyə gəlinirdi.

Etnoqrafik tədqiqat göstərdi ki, digər türkdilli xalqlardakı kimi Gəncə şəhər əhalisi arasında nikahın elçilik və qızqaçırma yolu ilə iki üsulu mövcud olmuşdur. Adından da göründüyü kimi, birinci üsul iki ailənin razılığı əsasında bağlanan nikah idi. Bu nikah qaydasına görə gənclərə bəlgə, nişan və el-obanın geniş tərkibdə iştirak etdiyi toy mərasimi keçirilirdi. İkinci nikah isə qızı qaçırmaqla baş tutardı. Məlumatçıların dediyinə görə, qızqaçırmada könüllü və könülsüz olmaqla iki istiqamət özünü göstərirdi. Yəni, əgər oğlanla qız bir-birini sevərdilərsə, lakin onların ailə qurmasına kənar şəxslər mane olardılarsa, onda hər iki gənc bir-birinə qoşulub qaçardılar. Könülsüz qaçırılmaya isə müəyyən səbəblər şərait yaradardı. Artıq bu məsələ hər iki ailə üçün baş ağrısına çevrilirdi. Belə ki, uzun müddət oğlan və qız ailəsi bir-birini köntöy nəzərlərlə süzür, küsülülük saxlayır, hətta qan-qırğın törədilirdi.

Gəncə şəhər sakini Sədi İsmayıloğlunun dediyinə görə, zorla qaçırılan, lakin bir gün ərzində bakirəliyinə toxunulmayan qızı valideynləri müxtəlif yollarla tapıb geri gətirirdilər. Sonralar həmin qız başqa oğlanla ailə qururdu.

Gəncə sakinlərinin dediyinə görə, bəzən elçilik yolu ilə nişanlanan qızı öz adaxlısı qaçırırdı. Buna səbəb oğlan evinin toy etməyə, tələb olunan cehiz əşyalarını almağa gücü çatmadığı göstərilirdi.

Çöl materialı toplayarkən, Gəncə əhalisi arasında "qız-qıza" nikah adətinə, həmçinin, iki qardaşın iki bacıya evlənməsinə də rast gəlindiyini söylədilər.

**T.ü.f.d., dos. Tahir Şahbazov** Gəncə şəhər sakinlərinin mənəvi mədəniyyət məsələlərini araşdırmış, "**Bayramlar"**, **"Xalq teatrı**" ilə bağlı yeni materiallar elmi dövriyyəyə gətirmişdir. Müəllif yazır:

Sovet hakimiyyəti illərində Azərbaycanda Novruz bayramında (həmçinin, Orucluq və Qurban bayramlarında) adamları "könüllü olaraq" işə çıxarır və hətta onları bir günlük əmək haqlarını "könüllülük əsasında" kolxozların nəzdində yaradılan fondlara köçürməyə məcbur edirdilər.

Bütün bu antimilli tədbirlər Gəncədən də yan keçməmişdir. Lakin bütün qadağalara, təqib və təzyiqlərə baxmayaraq, xalq bu bayramın unudulmasına imkan verməmiş, onu bütün gözəllikləri və xeyirxah mahiyyəti ilə qoruyub saxlayaraq günümüzə qədər gətirib çıxarmışdır.

İlaxır çərşənbələrdən bəhs edən müəllif qeyd edir ki, gəncəlilər arasında da Novruzqabağı qeyd olunan çərşənbələrin məxsusi adları olmuşdur. "Əzəl çərşənbə" adlanan ilk çərşənbədə səhər tezdən hamı su üstünə gedərdi. O zamanlar hər məhəllənin öz bulağı, kəhrizi var idi. Həmin bulaqdan, kəhrizdən su götürər, axar suyun üstündən atıla-atıla şən nəğmələr oxuyardılar. Qızlar əllərinin baş barmaqlarını iplə bağlayar, bir neçə dəfə o tərəf-bu tərəfə tullandıqdan sonra ipi kəsib suya atardılar ki, bəxtləri açılsın.

İkinci çərşənbəyə el arasında "Məzar üstü" deyirdilər. Həmin gün ili çıxmayan mərhumlara "Qara bayram" keçirir, ehsan verir, məzarlığa gedib "Yasin" oxutdurur, mərhumun qəbri üstünə səməni və evdə hazırlanan bayram nemətlərindən bəzədilən xonçalar düzürdülər.

İlaxır çərşənbə və ya ilin axır çərşənbəsi xüsusi təntənə ilə qeyd olunurdu. Uzaqda-yaxında olmasından asılı olmayaraq, bütün ailə üzvləri ata ocağına yığışardı.

Gəncəlilər arasında mövcud olan bir inanca görə, İlaxır çərşənbənin ovqatı necə olacaqsa, il də həmin ovqatda keçəcək. Odur ki, hər evdə yalnız yaxşı söz-söhbətlər edər, acı danışmaz, çeşid-çeşid yeməklər hazırlanar, bərəkətli süfrə açılardı. Gəncə paxlavası, şəkərbura, badambura, şəkərçörəyi, qoz, fındıq, püstə, badam, kişmiş və s. bu süfrənin əvəzedilməz nemətləri idi. Qırmızı, yaşıl, sarı rəngdə boyadılan yumurtalar bayram süfrəsinin vacib atributlarından idi. Əlbəttə ki, Gəncənin bayram süfrələrinin əvəzedilməz neməti olan *Gəncə zilviyyəsi* də öz yerində.

Məlumatçıların sözlərinə istinadən müəllif yazır ki, İlaxır çərşənbə ərəfəsində Gəncənin bazar-dükanları qaynayardı. Yalnız şəhər əhalisi deyil, ətraf kənd və qəsəbələrin adamları da buraya bayram bazarlığına gəlirdi. Axşama doğru bütün şəhər qalanan tonqalların alovuna işıqlanırdı. Evlərdə gəlinlər qırmızı, qadın analar abı və yaşıl paltar geyinib şadlıq edərdilər. Uşaqlar qapı-qapı gəzib papaq atır, bayramlıq toplayırdılar.

“Dan atmaq”, yəni, gecəni oyaq keçirmək ayini icra olunardı. Əsas iştirakçıları qızlar olan bu ayin zamanı kimi fal açar, kimi qapıları pusar, kimi də müxtəlif mahnılar ifa edərək dan sökülənə kimi yatmazdı. Yatanın paltarını palaza tikər, onu oxutmaqla, yaxud oynatmaqla “cərimə edərdilər”. Dan ulduzunun çıxmağını birinci kim görürdüsə, onun arzusunun həyata keçəcəyi düşünülərdi.

Azərbaycanın bir sıra bölgələrində olduğu kimi, dan yeri ağaran kimi, hamı bulaq başına gedər, su götürər, axar suda əl-üzlərini yuyardılar. Bulağın gözündən götürüb səhəngin dibinə yeddi balaca daş salardılar. Oğlanlar üç ədəd böyürtkən qanadını gətirib qapının başına və astanasına vurardılar. İl uzunu davam edən kifirlikdən, kəsalətdən qurtarmaq üçün gəlinlər, qızlar, arvadlar evlərindən sınıq, çatlaq saxsı qabları götürüb dəyirmanlara üz tutar, qada-baladan uzaq olmaq üçün bu saxsıları dəyirman yüştəsinin yanında vurub sındırardılar. Qızlar dəyirman arxının üstündən atılardılar ki, bəxtləri açılsın, ərə getsinlər. Arvadlar çillə kəsdirərdilər.

Bundan əlavə, Axır çərşənbə bayramında Gəncədə xoruz döyüşdürmək, müxtəlif oyunlar (xüsusilə, ənzəli) oynamaq, heyva çubuğundan gözmuncuğu, uşaqlara beşik düzəltmək, gün çıxmamış su üstündən hoppanmaq, tonqal yandırmaq, kəlin buynuzuna qırmızı bağlamaq, qorxanların başından su töküb qorxuluğunu almaq, toy üçün ayrılmış qoyunların boynuna qırmızı bağlamaq və s. kimi adətlərə də əməl olunmuşdur.

Lakin bu müqəddəs günün özünəməxsus tabuları, yasaqları, əməl etməyi vacib sayılan qayda-qanunları da vardı. Məsələn, Axır çərşənbədə evdən pul, qonşuya ələk və ya borc un, od, kibrit, neft, ağartı və s. vermək olmazdı, “evin bərəkəti gedər”, – deyirdilər. Ailə üzvlərinin sayına görə yandırılan şamı yarımçıq söndürməz, “zahı üstünə getməzdilər”. Bu adətlərin və tabuların bəziləri günümüzə qədər qorunub saxlanmaqdadır.

Bayram mərasimlərinin kulminasiya nöqtəsini heç şübhəsiz ki, Novruz şənlikləri təşkil edirdi. Məlumatlara görə, əhali axşamüstü şəhərin kənarındakı geniş düzənliyə toplaşar, orada böyük tonqal qalayardılar. Cavanlar, qızlı-oğlanlı hər kəs öz lopası ilə bura gələrdi. Çalğıçılar, xanəndələr və nağılçılar da burada olardı. Hamı şənlənər, əylənər və məzəli oyunlara tamaşa edərdilər.

Yaxşı rəqs bacaran bir uşağın əyninə tərsinə çevrilmiş kürk geyindirər, üzünə kağızdan düzəldilmiş üzlük taxıb başına şəkilli uzun şişpapaq qoyar, belinə zınqırovlu kəmər bağlayardılar. Ən çevik Kosa uşaqları başına yığıb, həyətləri gəzib cürbəcür mahnılar oxuyardılar.

Müəllifin qeydinə görə, şəhərin Şahsevən, Səfərabad, Toyuqçu, Tatabad, Əttarlar kimi qədim, köklü məhəllələrdə Novruz bayramı daha təntənəli keçirilirdi. Cıdır yarışları Novruzun ən ehtişamlı və coşqun bir əyləncəli tədbiri idi. Böyüklü-kiçikli hamı Cıdır meydanına yığışardı. Bu meydan Gəncə şəhərinin ortasındakı Şah Abbas məscidinin yanında idi. Çaparlar gələnə kimi şəhərin hər yerindən gəlmiş uşaqlar, gənclər yumurta döyüşdürər, oynayar, gülər və şənlənərdilər. Meydanın başından zurna-balaban səsi gələn kimi hamı atlıları görməyə çalışardı. Bellərində oxları, çiyinlərində aynalı tüfəngləri qıvraq geyimli bığıburma minicilər ikibir, üçbir meydanın ortasında ağır-ağır at oynadırdılar. Cıdır qızışdıqca, kimi kəhər atı, kimi boz atı, kimi kürəni tərifləyər, hərdən mərc gələr və sonda qaliblərə mükafat – nəmər verərdilər.

Yeri gəlmişkən, bu gün də Gəncədə istər Novruz bayramı, istərsə də Orucluq və Qurban bayramları böyük təntənə ilə, milli ruhda və əcdadlardan əxz edilən adət-ənənələrə uyğun şəkildə keçirilir.

Gəncə şəhərinin teatr tarixi də olduqca zəngin və maraqlıdır. Gəncə teatrının əməkdaşı, teatrşünas Anar Bürcəliyevin məlumatına istinad edən müəllif yazır ki, hələ XIX əsrin sonlarında Gəncədə həvəskarlardan ibarət teatr truppası fəaliyyət göstərmişdir. 1895-ci ildə yerli həvəskarlar Mirzə Fətəli Axundzadənin “Hacı Qara” pyesini tamaşaya qoymağa müvəffəq olmuşdular.

1906-cı ildə Gəncə Müsəlman Dram məclisi adlı 38 nəfərdən ibarət truppa təşkil edilmiş və bu truppaya rəhbərlik Ələsgər bəy Xasməmmədova tapşırılmışdır. Truppanın fəallarından Mirzə Məhəmməd Axundzadəni, Məmmədbağır Şıxzamanzadəni, Rüstəm bəy Mirzəzadəni, Talıb bəy Məmmədzadəni və digərlərinin adlarını qeyd etmək olar.



*Hacı Mürsəl ocağı* **Gəncə şəhəri**

1909-cu ildə yerli həvəskarların dram cəmiyyəti, Gəncə sənət məktəbinin türk dili müəllimi olmuş Mirzə Məhəmməd Axundzadənin teatr sənətinin dövrü üçün nəzəri problemlərini özündə əks etdirən “Teatro nədir?” əsərini çap etdirmişdir. Bütün bunlarla yanaşı həmçinin qeyd etmək lazımdır ki, 1915-ci ildə isə ilk dəfə olaraq Gəncədə “Qız məktəb”i tələbələrinin ilk dram truppası yaradılmışdır.

1932-ci ilin dekabr ayının 28-dən Gəncədə fəaliyyət göstərən teatrın tarixi XX əsrin əvvəllərində Bakıda yaradılan, 1921-ci ilin noyabr ayının 13-də görkəmli aktyor Hacıağa Abbasovun təşəbbüsü və rəhbərliyi ilə “Bakı Azad Tənqid-Təbliğ Teatrı” kimi fəaliyyətə başlayan, 1925-ci

ildən 1927-ci ilədək fəaliyyət göstərən "Bakı Türk İşçi və Kəndli Teatrı"nın tarixi ilə üzvü şəkildə bağlıdır. 1927-ci ildən 1932-ci ilədək teatr "Bakı Türk İşçi Teatrı" kimi fəaliyyətini davam etdirib. Məhz 1932-ci ilin dekabr ayının 28-dən (bəzi mənbələrdə isə dekabr ayının 15-də – A.Ə.B.) bu teatrın yaradıcı kollektivi bütünlükdə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi eləcə də Xalq Komissarları Sovetinin qərarı ilə Gəncəyə köçürülür və "Tənqid-Təbliğ" teatrı kimi fəaliyyətini burada davam etdirir. Bu illərdə Gəncəyə köçən teatrın yaradıcı heyətinə Abbas Mirzə Şərifzadə, Ağasadıq Gəraybəyli, Fatma Qədri, İsmayıl Talıblı, Əhməd Salahlı, Atamoğlan Rzayev, İsmayıl Əfəndiyev kimi sənətkarlar daxil idilər.

129 illik tarixi bir yol keçən Gəncə Dövlət Milli Dram Teatrı bu gün də öz maraqlı və zəngin repertuarı ilə tamaşaçılarının görüşündədir.

Tahir Şahbazov həmkarı **t.ü.f.d. Nigar Coşkunsu** ilə birgə "**İbtidai inamlar və din"** mövzusunda da materiallar toplamışdır. Həmin materialları təhlil edən müəllif yazır:

Azərbaycanın hər yerində olduğu kimi, gəncəlilər arasında da ağac, daş, dağ kimi fetişizm, zərərli və xeyirxah ruhlarla bağlı animizm, müxtəlif heyvan və quşlarla bağlı totemizm təsəvvürlərini əks etdirən təsəvvürlərin geniş bir sistemi də mövcud olmuşdur. Məsələn, uzaq keçmişdən bəri insanlar Gəncə yaxınlığındakı düzənlikdə ucalan *tək ağacı* pir hesab etmiş, onun dibində qurbanlar kəsmiş (əsasən xoruz) və bu qurbanın əti ilə şəfa tapacaqlarına ümid etmişlər.

Bundan əlavə, yenə də Gəncə yaxınlığında, indiki Samux rayonu ərazisində yerləşən *"Dül-dül çinarı"* belə ağac-pirlərdən sayılmışdır.

Köhnə Gəncənin ərazisində, "Comərd Qəssab türbəsi"ndən təqribən yarım kilometrlik məsafədə və hal-hazırda Samux rayonuna daxil olan ərazidə yerləşən *"İlan piri"* də gəncəlilərin sitayiş yerlərindən biri olmuşdur. Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısında pirin yaranma tarixi kimi XVII əsr qeyd edilmişdir. Deyilənə görə, vaxtilə pirin ərazisində böyük bir çinar ağacı da olmuşdur. Yerli əhali ona *"İlan oğlunun çinarı"* deyirmiş. Ağacın yanında isə bir köhnə, balaca daxma olub. Məlumatçıların sözlərinə görə, həmin daxmaya ilan sancmış adamları gətirirmişlər və onlar burada müalicə alarmışlar. İlan pirinin XX əsrin əvvəllərinə qədər mövcud olduğu deyilir.

Günümüzün özündə də Gəncə əhalisi arasında səma cisimlərinə sitayişin izlərinə rast gəlmək mümkündür. Bu baxımdan şəhərdəki *"Mahrasa məhəlləsi"* və *"Mahrasa bağı"* adı xüsusilə diqqəti cəlb edir. "Mahrasa" fars dilindən tərcümədə "Ay" və yaxud da "Ayın şərəfinə ucaldılan abidə" mənasını verir. Bu adla əlaqəli yer-yurd adlarına Gəncə ilə yanaşı, Gədəbəy, Kəlbəcər və digər bölgələrdə də rast gəlinir.

Gəncə İslam dini abidələri ilə də zəngindir. Məşhur *İmamzadə türbəsi* (VIII əsr), VIII-IX əsrlərə (bəzi mənbələrdə VII əsrin 30-40-cı illəri) aid edilən *Comərd Qəssab türbəs*i, XVII əsrin yadigarı olan *Mürsəl ağa ocağı* və s. də şəhərin mənəvi mədəniyyət tarixi ilə bağlı çox dəyərli mənbələrdir.

Gəncədə xalq və dini bayram (Novruz bayramı, Qurban bayramı, Orucluq bayramı) və mərasimlərinin ümumi xarakteri ilə yanaşı, yerli şəraitdən irəli gələn lokal cəhətləri də mövcud olmuşdur.

Məlum olduğu kimi, Sovet hakimiyyəti illərində həm dini, həm də xalq bayramlarına qarşı güclü əks-təbliğat kampaniyası aparılmışdır. Xüsusilə, xalqın ən əziz günü sayılan Novruza “köhnəliyin qalığı”, “vəhşilik və bütpərəstlik dövründən qalma” donu geyindirilərək, onu dinə və millətçiliyə xidmət edən uydurma bir bayram kimi təqdim etmişlər. XX əsrin 30-cu illərinin əvvəllərində dinə qarşı mübarizə pərdəsi altında Novruzun keçirilməsi də yasaqlanmışdır. “Mübariz Allahsızlar İttifaqı”nın üzvləri gecə saatlarında drujinalar şəklində evlərə, həyətlərə reydlər təşkil edir, səməni qoyub bayram süfrəsi açan və ya həyətində tonqal qalayan komsomolçuları müəyyənləşdirir və onların məsələsini komsomol iclaslarında müzakirəyə çıxarırdılar.

**T.ü.f.d., dos. Həqiqət Zahidova** Gəncə şəhərində **“Xalq təbabəti”** mövzusunda tədqiqat aparmış, maraqlı çöl materialları əldə etmişdir:

Gəncənin yerləşdiyi təbii-coğrafi şərait, ərazinin bol sulu çayları, münbit torpağı, müalicəvi əhəmiyyətə malik zəngin bitki örtüyü burada hələ qədim dövrlərdən insanların xalq təbabəti ilə məşğul olmalarına şərait yaratmışdır.

Görkəmli mütəfəkkir Əbdürrəzzaq İsfahani Gəncənin malik olduğu təbii şəraiti yüksək dəyərləndirərək yazırdı: “*Bütün dünya üzündə Gəncə kimi bir şəhər görməmişəm. Behişt rəngli, müşk qoxuludur Gəncə. Suyu gülabdır, torpağı zəfərandır onun. Sərin, səfalı havası vardır. Orada torpaq hər anda sanki vəcdə gəlir, oyanmaq istəyir*”.[12]

Şübhəsiz, göstərilən faktlar Gəncədə xalq təbabətinin formalaşmasında mühüm rol oynamışdır. Beş gün davam edən çöl-etnoqrafik səfərimiz zamanı Gəncə şəhərində xalq təbabətinin geniş yayıldığı bir neçə məhəlləsində olduq. Bunlardan biri Gəncənin ən qədim məhəllələrindən sayılan *Əttarlar* məhəlləsidir ki, hal-hazırda burada sözügedən qədim peşə sahəsi qorunub saxlanılmaqdadır. Topladığımız etnoqrafik materiallardan aydın olur ki, vaxtilə əttarlar burada müalicəvi bitkilərdən istifadə etməklə dərmanlar hazırlamışlar. Həmçinin, Gəncədə ətriyyat və ədviyyat satan tacirlərə də “əttarlar” deyirmişlər. Onların evləri Əttarlar məhəlləsində yerləşirdi. Sözügedən məhəllədə “Şeytan bazar” deyilən yerin yaxınlığında müalicəvi otlarla yanaşı zəfəran, sarıkök, istiot, zirə, darçın, hil, mixək, xaşxaş və s.



*1 №-li türbə. XIX əsr abidəsi. İnvertar №3831. Gəncə şəhəri*

[12] **https://www.ens.az/az/qedim-gence-seheri-dahilerin-gozu-ile**

ədviyyat satılan ticarət cərgələrinin qalıqları hələ də qalmaqdadır. Əttarlar məhəlləsinə xalq arasında həm də "Çayqıraqlılar" deyilirmiş. Tədqiqatçı Namlet Allahverdiyevin söylədiyinə görə, buna səbəb əttarlar dərman hazırlayarkən lazımi soyuq suyu Gəncəçaydan götürmələri olmuşdur.



*Qırıxlı məscidi. Yaşıl aptek*

Əttarlar məhəlləsinin yaşlı sakinləri ötən əsrdə məşhur gəncəli əttarlardan Məşədi Hilal, Məşədi Məmmədəli, Məşədi Hüseynalı, Kəblə Zəhra, Məşədi Sürəyya, Seyid Suqra, Məşədi Züleyxa, Kəlbə Seyidbəyim və digər loğmanların adlarını çəkdilər. Qeyd etdilər ki, əczaxanalarda həm yerli, həm də dünyanın müxtəlif ölkələrindən gətirilən dərman bitkiləri satılardı.

Gəncə şəhərində *Çöpçülər* məhəlləsində də olduq. Xalq arasında çöpçülərə münasibət birmənalı olmasa da, hazırda onlara müraciət edənlər az deyil. Orada bir neçə "çöpçü" var ki, adla tanınırlar. Məhəllə sakinləri, vaxtilə başqa bölgələrdən də Pakizə, Nailə, Kifayət, Sevda adlı məşhur çöpçülərin yanına çoxsaylı insanların gəldiyini bildirdilər. Məlumatçı Əsədova Elmira ilə apardığımız sorğuda Gəncə şəhər sakini loğman-təbib kimi tanınan, səriştəli çöpçü və sınıqçı kimi ad qazanan Gilas və Tamamın tətbiq etdiyi müalicə üsulları haqqında material topladıq.

1980-ci illərdə Gəncədə "Şəfa çiçəyi" və ya "Yaşıl aptek" adı ilə tanınan əczaxana fəaliyyət göstərirdi. Həmin əczaxana Qırıxlı məscidinin binasında yerləşirdi. "Nedelya" (1980, №47) qəzetindəki məqalədə Şəfa çiçəyi əczaxanası haqqında yazılır: "*Şəfa çiçəyinin içərisi çox əlverişlidir. Burada çay içmək olar, qəfəslərdə ötən bülbüllərin cəh-cəhini dinləmək də, rəngarəng akvariuma baxmaq da maraqlıdır, sadəcə əyləşib istirahət etmək də…*". Sakinlərin dediyinə görə, qəzetdəki bu yazıdan sonra şəfa ocağı kimi məşhurlaşan Yaşıl aptekə tək Gəncə və Azərbaycandan deyil, keçmiş digər sovet respublikalarından da müraciət edənlərin sayı artmağa başladı. Əsasən, buraya Ukrayna və Belarusdan axın daha çox idi.

Məlumatçıların dediyinə görə, Gəncə əhalisi arasında müalicəvi bitkilərdən hal-hazırda da geniş istifadə olunur. Belə ki, otlardan hazırlanmış bəzi həblər şəhərdə "Yaşıl aptek"də satılırdı.

Xalq arasında sağaltma üsul və vasitələri əsasən ustaddan şagirdə keçməklə ənənə vasitəsilə yaşadılır. Türkəçarəçilər öz peşələrini daha çox öz övladlarına, yaxın qohumlarına, bəzən də xüsusi istedadı olan qeyri-qohumlarına öyrədirlər.

**T.ü.f.d. Təranə Quluzadə "Şifahi xalq yaradıcılığı"** mövzusunda tədqiqat aparmış və xalq məişətini ifadə edən bir sıra nümunələr toplamışdır. Müəllif yazır:

Ezamiyyə müddətində Gəncə şəhərinin tarixi abidələrini gəzdik, bir çox məhəllələrində olduq, yaşlı nəslin nümayəndələri ilə adət və ənənələrlə bağlı sorğular apardıq. Məlum oldu ki, gəncəlilər öz adət-ənənələri, milli-mənəvi dəyərləri və s.-lə bərabər, şifahi xalq yaradıcılığı irsini də qoruyub saxlamış, zaman-zaman daha da zənginləşdirərək bu günümüzə çatdırmışlar. Məlumatçılarımızın təqdim etdiyi bəzi folklor nümunələri o qədər səmimidir ki, insanlara öz düşüncə və duyğularını ifadə etməyə, arzu və istəklərini çatdırmağa tam olaraq çatdırmağa imkan verir. Məsələn:

*Mən aşiq Gəncəm, haray,*
*Aşiq, dağın Gəncədi,*
*Sən çəkdiyin quru dərd,*
*Mən çəkən işgəncədi.*

***

*Mən aşiq Gəncəm, haray,*
*Tiflisdən Gəncəm, haray.*
*Qurbani öldü, getdi,*
*Mənə bir əncam, haray.*

***

*Eləmi, bir əzbəri,*
*Gəncədən bir az bəri.*
*Gecələr yuxumdasan,*
*Gündüzlər dil əzbəri.*

Səfər zamanı Gəncədə məskunlaşan Qərbi azərbaycanlıların məişəti haqqında da məlumat topladıq. Öyrəndik ki, ermənilərin azərbaycanlılara qarşı yürütdüyü etnik təmizləmə siyasəti nəticəsində, ayrı-ayrı dövrlərdə, son olaraq isə 1988-1989-cu illərdə minlərlə Qərbi azərbaycanlı öz doğma torpaqlarından məcburi köçkün düşərək, respublikamızın müxtəlif bölgələrdə, o cümlədən Gəncə şəhərində məskunlaşmalı olublar. Lakin etnoqrafik müşahidələrimizin də göstərdiyi kimi, burada onlar özlərinin ənənəvi, özünəməxsus məişət xüsusiyyətlərini nəinki unutmamış, əksinə, yeni və daha doğma olan mühitdə, yerli əhali ilə qarşılıqlı münasibətlər sistemində onu daha da zənginləşdirmiş və inkişaf etdirmişdir.

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.231-252*




*Etnoloqlar Cavad xan türbəsində*
*20 sentyabr 2024-cü il*

**Bahar Əmənovanın "Qonaqpərvərlik"** mövzusunda apardığı çöl tədqiqatından məlum olur ki, gəncəlilər öz adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə, qonaqpərvərliklərinə sadiq qalmış, onları daha da zənginləşdirərək bu günümüzə çatdırmışlar. Şəhərə gələn yerli və əcnəbi qonaqlar əhalinin səxavətindən, əliaçıqlığından danışmış, onların zəngin süfrəsindən bəhs etmişlər. Biz bunu etnoqrafik səfər zamanı bir daha gördük.



*Etnoloqlar Nizami məqbərəsində, 2 iyul 2024-cü il*

İnformatorların məlumatına əsasən, Gəncə əhalisi həmişə qonağa qarşı comərd, diqqətli və qayğıkeş olmuşlar. Deyilənlərə sübut kimi Şah Abbasın Gəncə şəhərinə gələn yadelli qonaqların, həmçinin buradan keçib gedən yolçuların, səyyah və tacirlərin gecələmələri üçün tikdirdiyi qonaq evini – Karvansaranı göstərmək kifayətdir. Gəncə şəhər əhalisi arasında Məşədi Əsgər Ələkbərov, Əliyev İsa Ələkbər oğlu, Dəyirman İsa, Məşədi Kazım və s. kimi qonaqpərvər insanlar bu gün də xatırlanırlar.

Nizami Gəncəvi, Məhsəti Gəncəvi kimi dahi şair, yazıçı və mütəfəkkirlər, Ziyadoğluların timsalında xanlar, bəylər, hökmdarlar yetişdirən, qədim siması ilə yanaşı, müasirliyini də qoruyub saxlayan, günü-gündən gözəlləşən, inkişaf edən Gəncə şəhəri müxtəlif zamanların sərt sınaqlarına, dağıntılarına məruz qalsa da, qoynunda tarixin qədim izlərini qoruyub saxlamışdır. Bu şəhərin əhalisi özlərinə xas maddi mədəniyyət nümunələri və zəngin ədəbiyyatları, eləcə də məşhur şəxsiyyətləri ilə haqlı olaraq qürur duyur, öyünürlər.

Tədqiqatların nəticəsi göstərir ki, Gəncə şəhərinin tarixi-etnoloji tədqiqi davam etdirilməli, elmi dövriyyəyə yeni çöl-etnoqrafik materialları gətirməkdən ötrü növbəti etnoloji səfərlər təşkil olunmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI – REFERENCES

1. Rəcəbli Q.Ə. (2007). Ailə və ailə məişəti. Azərbaycan Milli Ensiklopediyası, Bakı, səh.137-138
2. Шик И.Р. Питьевые воды Азербайджана. «Известия Общества обследования и изучения Азербайджана», №6, Баку, 1928, стр.160
2. https://www.ens.az/az/qedim-gence-seheri-dahilerin-gozu-ile
3. حمدالله موستوفی، حمدالله بن ابی بکر. نزهت القلوب. تهران، اساطیر، ۱۳۸۹

## MƏLUMATÇILAR

1. Abbasov Rasim Bilal oğlu 1983-cü ildə Gəncə şəhərində anadan olmuşdur.
2. Abbasova Züleyxa Mustafa qızı 1936-cı ildə Gəncə şəhərində anadan olmuºdur.
3. Abdinova Sənubər Sabir qızı 1965-ci ildə Gəncə şəhərində anadan olmuşdur.
4. Abdullayeva Sonaxanım Şirin qızı 1938 ci il doğumlu, Gəncə şəhərində anadan olmuşdur.
5. Abdullayeva Qumru Elman qızı 1985-ci il doğumlu, Gəncə şəhərində anadan olmuşdur.
6. Allahverdiyev Namlet Əli oğlu 1940-cı ildə Gəncədə anadan olmuş, Sofulu məhəlləsinin sakini, tədqiqatçı
7. Bağırov Əsli Nəsrullah qızı 1945-ci ildə Gəncə şəhərində anadan olmuşdur.
8. Əliyev Yunus İsa oğlu 1951-ci il doğumlu, Gəncə şəhərində anadan olmuş, Çöp-çülər məhəlləsində yaşayır.
9. Əliyev Qabil İslam oğlu 1953-cü il doğumlu, Gəncə şəhərində anadan olmuş, Köhnə məhəllədə yaşayır.
10. Əliyev Asif Nurəddin oğlu 1982-ci il təvəllüdlü, ilahiyyatçı, Qazaxlar məscidinin Axundu, Yeni İrəvan qəsəbəsində yaşayır.
11. Ələkbərova Zemfira Ələkbər qızı 1957-ci ildə Gəncədə anadan olmuşdur.
12. Ələkbərova Gülnaz Əjdər qızı 1984-cü ildə Gəncədə anadan olmuşdur.
13. Əliyeva Aygün Mübariz qızı 1983-cü ildə Gəncədə anadan olmuşdur.
14. Əliyeva Quba Xeyrəddin qızı 1951-ci ildə Gəncədə anadan olmuşdur.
15. Əsədova Elmira Kamal qızı 1965-ci ildə Gəncədə anadan olmuşdur.
16. Ələkbərova Zemfira Ələkbər qızı 1957-ci ildə Gəncə şəhərində anadan olmuşdur.
17. Əkbərova Minurə Mirsadiq qızı 1945-ci ildə Gəncədə anadan olmuşdur.
18. Fəhimov Ruslan Məmməd oğlu 1987-ci ildə Gəncədə anadan olmuşdur, misgər-qalayçı
19. Fəhimov Royal Məmməd oğlu 1990-ci ildə Gəncədə anadan olmuşdur, misgər-qalayçı
20. Hacıyev Südef Əbil oğlu 1930-cu ildə Gəncədə anadan olmuşdur.
21. Həsənov Tahir Qəşəm oğlu 1936-cı ildə Gədəbəydə anadan olmuş, çilingər, 1976-cı ildən Gəncədə Sevinc qəsəbəsində yaşayır.
22. İbrahimov Xəlil Əsəd oğlu 1983-cü ildə Gəncədə anadan olmuşdur.
26. İsmayılova Gülnaz Veysəl qızı 1972-ci ildə Gəncədə anadan olmuşdur.

27. Namazova Şəfaqət Məhəmməd qızı 1959-cu ildə Gəncədə anadan olmuşdur.
28. Nəsibova Roza İsmayıl qızı 1959-cu ildə Gəncədə anadan olmuşdur.
29. Mirzəyev Sədi İsmayıl oğlu 1961-ci ildə Gəncədə anadan olmuşdur.
30. Məmmədova Rəhilə 1955-ci ildə Gəncədə anadan olmuşdur.
31. Məmmədov Asif Arif oğlu 1985-ci ildə Gəncədə anadan olmuşdur.
32. Məsimov Akif Yusif oğlu 1946-cı ildə Gəncədə anadan olmuş, sandıqsaz, Sofulu məhəlləsinin sakini, hazırda Gəncədə Hacı Məlikli küçəsində yaşayır.
33. Məhərrəmov Bəxtiyar Elman oğlu 1974-cü ildə Gəncədə anadan olmuş, tarix müəllimi, Molla Cəlilli məhəlləsində yaşayır.
34. Nəzərova Elmira Fərrux qızı 1953-cü ildə Gəncədə anadan olmuş, Köşkülü məhəlləsinin sakini, tarix müəlliməsi, hazırda Bakıda yaşayır.
35. Rüstəmova Qəmər Şaban qızı 1937-ci ildə Gəncədə anadan olmuş, təqaüdçü, Bağmanlar məhəlləsində yaşayır.
36. Qasımov İmran Qasım oğlu 1949-cu ildə Gəncədə anadan olmuşdur.
37. Quliyeva Viladə Zaman qızı 1958-ci ildə Gəncədə anadan olmuşdur.
38. Səfiyev Mehman Fərhad oğlu 1966-cı ildə Gəncədə anadan olmuşdur.
39. Şirinova Aysel Ələsgər qızı 1989-cu ildə Gəncədə anadan olmuşdur.
40. Şirinova Elmira Məhərrəm qızı 1954-cü ildə Gəncədə anadan olmuşdur.
41. Tağıyev Heydər Yusif oğlu, 1974-cü ildə Gəncədə anadan olmuşdur.

Zeynalzadə Tərlan Əmir qızı 1976-cı ildə Gəncədə anadan olmuşdur.

*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.253-25*

# ŞAMAXI RAYONUNA ELMİ EZAMİYYƏT
(24-28 iyun 2025-ci il)

©2025 NƏRGİZ QULİYEVA, KÖNÜL ƏSƏDLİ

AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Müasir dövr etnologiyası" şöbəsinin baş elmi işçisi, t.e.d., professor Nərgiz Quliyeva və aparıcı elmi işçi, t.ü.f.d., dosent Könül Əsədli 2024-cü il iyun ayının 24-28-də müasir ailə-məişət, ailə dəyərləri, mənəvi mədəniyyət və s. mövzuda çöl-etnoloji materialları toplamaq üçün Şamaxı rayonuna elmi-etnoqrafik ezamiyyətə getmişdir.

Səfər zamanı Şamaxı şəhərində, rayonun Dəmirçi, Göylər, Məlhəm, Dədəgünəş və başqa kəndlərində olduq. Əhalinin məişət və mədəniyyətinə, ailə dəyərlərinə dair müxtəlif materiallar topladıq. Rayon mərkəzində və bəzi kəndlərdə yerləşən tarix-diyarşünaslıq muzeylərində saxlanılan eksponatlarla tanış olduq. Rayon Statistika idarəsində, Şamaxı rayon Tarix-Diyarşünaslıq muzeyində və Dəmirçi Arxeologiya Muzeyində olduq. Tarix-Diyarşünaslıq Muzeyində bölgənin maddi və mənəvi mədəniyyətini əks etdirən bir sıra maraqlı eksponatlar qorunub saxlanmaqdadır.

Qədim tarixə malik olan Şamaxı Dağlıq Şirvan iqtisadi rayonunun ərazisinə daxildir. Baş Qafqaz silsiləsinin cənub-şərq ətəklərində yerləşir. Rayonun ərazisi 1667,1 kvadrat kilometrdir.

Rayon 1 şəhər, 5 qəsəbə, 57 kənddən ibarətdir. 01 yanvar 2023-cü il tarixində rayonda 104848 nəfər əhali mövcud idi. Əhalinin 50,7 faizini kişilər, 49,3 faizini isə qadınlar təşkil edir. Şamaxı əhalisinin 46,9 faizi şəhər, 53,1 faizi isə kənd yerlərində yaşayırlar. Əhalinin 26,6 faizi 0-14 yaşda, 65,5 faizi 15-64 yaşda, 7,9 faizi isə 65 və yuxarı yaşda olanlardır. 14-29 yaşda olan gənclər rayon əhalisinin 25, 3 faizini təşkil edir.

Şamaxı rayonu üzrə ev təsərrüfatlarının sayı 19765-dir. Bir üzvü olan ev təsərrüfatlarının sayı 975; 2 – 1361; 3-1816; 4-3205; 5-4420; 6-3752; 7-2050; 8-939; 9-462; 10 və daha çox üzvü olan ev təsərrüfatlarının sayı 785, onlarda olan üzvlərin sayı 9247; ev təsərrüfatlarının orta ölçüsü 5,15-dir. Şamaxı rayonunun 63 yaşayış məntəqəsində 29 bələdiyyə və Şamaxı rayon İcra Hakimiyyətinin 37 ərazi üzrə nümayəndəliyi, "Gülsam" əlillər ictimai birliyi fəaliyyət göstərir. Şamaxı rayonunda – Şamaxı şəhəri, Sabir, Şəhriyar, Mədrəsə, Yusif Məmmədəliyev, Aşkar qəsəbəsi, Göylər, Quşçu, Çarhan, Mirkənd, Məlhəm, Bağırlı, Məlikçobanlı, Birinci Çaylı, Qəleybuğurd, Həmyəli, Dağ Bağırlı, Qızmeydan və digər kənd ərazi dairələri yerləşir.

Şamaxı rayonu 08.08.1930-cu ildə yaradılmışdır. Şamaxıda 2022-ci ildə azərbaycanlılar 100981 nəfər, ləzgilər 17, ruslar 114, türklər 686, saxurlar 1, digər etnik qrup nümayəndələri 40 nəfər idilər. İl ərzində rayonda 1630 nəfər doğulan, 654 nəfər ölən olmuşdur. Rayon əhalisinin əsas məşğuliyyəti – şəkər çuğunduru, dən üçün günəbaxan, kartof, tərəvəz, bostan bitkiləri, meyvə və giləmeyvə, üzüm və s. yetişdirməkdir. 01 yanvar 2023-cü il tarixində Şamaxı rayonunda 780 qaçqın ailəsi yaşayırdı. Ailə üzvlərinin sayı 3900 nəfərdir. Məcburi köçkün ailələrinin sayı 241, ailə üzvlərinin sayı isə 823 nəfərdir. 2022-ci il ərzində rayonda 1630 nəfər, 1 gündə

təxminən 4 körpə doğulmuşdur ki, onların da 56,1 faizini oğlanlar, 44,9 faizini isə qızlar təşkil edir.

Rayonda 2022-ci ildə 660 nikah, 127 boşanma halları qeydə alınmışdır. Boşananların 70 nəfəri şəhər, 57 nəfəri kəndlərdə qeydə alınmışdır. Deməli, şəhərdə boşanma hadisəsi çoxdur.

Şamaxıda ənənəvi olaraq kişi öz arvadını çox vaxt adı ilə deyil, "ay qız, "ay arvad" və s. adlarla çağırardı. Xüsusilə kənar adamların yanında kişi arvadının adını çəkməz sadəcə olaraq "uşaqların anası", "əhli-əyal", "arvad-uşaq" və s. adlarla müraciət edərdi. Çünki tarixən formalaşmış adət-ənənəyə görə, arvadın, qızın adını yad adam yanında çəkmək qəbahət sayılardı. Kənar adamların, o cümlədən ərin kişi qohumlarının yanında qadının üzünü örtməsi, yəni yaşınması da bu qəbildəndir. Aparılan etnoqrafik müşahidələr göstərir ki, hazırda Şamaxıda kişinin ailə başçılığı əsasən təcrübə və ənənəyə uyğun böyüyə hörmət ruhunda qurulmaqdadır. Bununla belə, kişilərin üstün mövqeyi qalmaqda davam edir. Müasir Azərbaycan ailəsində qadın hüquqsuzluğundan danışmaq sadəcə mümkün deyil.

Məsələn, hazırda bir çox ailələrin büdcəsi demək olar ki, evin qadınının sərəncamındadır, kişi ilə bərabər o, həmin büdcədən istədiyi kimi ailənin məsrəflərinə xərcləyir. Bu isə ailədə qadının rolunun və nüfuzunun artdığını sübut edən əsas göstəricilərdən biridir. Ailəyə aid olan bütün məsələlərdə evin xanımı ilə məsləhətləşir, ailənin bütün məxariclərində onun rəyi nəzərə alınır.

Hazırda Şamaxıda bütün ailələrdə ər və arvad bir-birinə adları ilə müraciət edirlər. Ev işlərinin əsas ağırlığı, o cümlədən uşaqların tərbiyəsi, ev təsərrüfatının idarə olunması və s. qadınların üzərinə düşür.

Şamaxıda ailənin əsas forması ər-arvad və onların uşaqlarından ibarət kiçik – nuklear ailələrdir. Sayca isə ailələrin əksəriyyətini iki nəsilli ailələr təşkil edir. Üç nəsilli ailələr ata-ana, oğul və onun uşaqlarından ibarət olur. Bəzi hallarda, müstəqil yaşayış sahəsi olmayanda müvəqqəti olaraq iki evli oğulun valideynlərlə bir mənzildə yaşamasına da təsadüf olunur. Belə hallarda çox vaxt oğullardan biri müstəqil təsərrüfat başçısı kimi qalır.

Sorğulardan məlum olur ki, müasir dövrdə ailə quran gənclər valideynlərindən ayrı yaşamağa daha çox meyl edirlər. Bunun səbəbləri isə ilk növbədə sosial-iqtisadi amillərlə bağlıdır.

Hazırda Şamaxı rayonunda say etibarilə 3-4 uşaqlı ailələr çoxluq təşkil edir. Ailədaxili münasibətlərdə milli etiket əsas yer tutur. Səfər zamanı Azərbaycanın qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidində olduq. Məscid memarlıq üslubu, orijinallığı saxlanılmaqla əsaslı şəkildə təmir olunmuşdur. Bölgədə qəbirüstü abidə kimi daş qoç heykəllərinə də rast gəlinir. Şamaxı rayon Dəmirçi Arxeologiya Muzeyində qəbirüstü daş qoç heykəlləri qorunub saxlanılır. İri qoç fiqurları Şirvan ustaları tərəfindən məharətlə yonulmuş və üzərində oyma üsulu ilə naxışlar həkk edilmişdir. Daş qoç fiqurlarının üzərində oyma üsulu ilə müxtəlif rəsmlər cızılmışdır. Şirvanda qəbirüstü daş qoç heykəllər adətən hörmətli şəxslərə qoyulurdu. Şamaxının Dəmirçi kəndində yerləşən Dəmirçi məscidi 755-ci ildə inşa olunub. Azərbaycanda ən qədim məscidlərdən biri hesab olunur.

Məscidin mehrabı, gümbəzi, "Güldəstə" minarəsi və digər detalları təmir olunmuşdur. Şamaxı rayonunun Çarhan kəndində informator İsgəndərova Narıncdan mənəvi dəyərlərə aid bəzi məlumatlar əldə etdik. Pirsaat Baba ziyarətgahı Şamaxı rayonunda Pirsaat çayı sahilində yerləşir. Pirsaat Baba ziyarətgahının dövrü barədə əlimizdə səhih məlumat yoxdur. 1918-ci ildə Hacı Cəfərqulu tərəfindən türbə olaraq istifadəyə verilib. Azərbaycanda əhali tərəfindən daha çox ziyarət edilən ocaq hesab olunur. Kompleksə ocaq və məscid binası daxildir. Məsciddə hazırda ibadət zalı və mərasim zalları fəaliyyət göstərir. "Yeddigümbəz türbələr kompleksi mərkəzdən 3 km aralıdadır. Şamaxı xanı Mustafanın ailə üzvləri üçün salınan məzarlıqdır. Burada xan nəslinə aid olan 7 türbə var. Səkkizguşəli formada tikilmiş türbələrdən sadəcə bir dənəsinin üzərindəki yazılı daş kitabə salamat qalıb. Kələxana kəndi türbələr kompleksi ilə məşhurdur. Hündürlüyü və formaları eynidir. Hamısı səkkiz guşəlidir. Əvvəl sayı 9 olan türbələrdən bir dənəsi tamamilə dağılıb. Birinci türbə 1663-cü ildə tikilib. Bu ərazilər vaxtilə Şirvanşah sülalələrinin ailə məzarlığı olub. Üzərində ərəbcə yazılar olan sənduqələr vardır. Şirvanda əhalinin dini inamları ilə əlaqədar olaraq xeyli sayda pir vardır. Bölgə camaatı müvafiq pirləri ziyarət edir və nəzir-niyaz verirdilər. Ümumiyyətlə, Şirvan bölgəsinin dini inanclar sistemində övliyalara, pirlərə inam keçmişdə mövcud olmuşdur. Şamaxı rayonunun Dədəgünəş kəndində eyni adlı qədim qəbiristanlıqda XX əsrin əvvəllərinə aid bəzi qəbirlər diqqətimizi çəkdi. Üzərində "şıx" yazılan bir neçə qəbir tərəfimizdən aşkar edilmişdir. Diqqətimizi çəkən məqam ondan ibarətdir ki, şıx yazılı qəbirlər dini ziyarətgah Dədəgünəş pirinin ətrafında idi. Məlumdur ki, şıx bölgədə övliya və ya təriqət başçılarına verilən ləqəb idi. Bölgə əhalisi pirlərə ziyarətgahlara ehtiram göstərirlər. Şamaxı rayonunda Pirmərdəkan məqbərəsi, Qoşa minarəli Cümə məscidi, şəhərin mərkəzində, İmamlı küçəsindəki İmamzadə piri və Şahixəndan məqbərəsi, Kələxana kəndindəki türbələr kompleksi, Yeddigümbəz türbələr kompleksi tarixi əhəmiyyətli abidələr olmaqla bərabər, keçmişdə və müasir dövrdə müsəlman əhalinin hörmət və ehtiramla ziyarət etdikləri ocaq pir yerləri olmuşdur. Verilən məlumatlara görə vaxtilə şəhərdə 36 məscid var idi, tez-tez baş verən zəlzələlər nəticəsində onların əksəriyyəti dağılmışdır. Azərbaycanın mühüm tarixi-etnoqrafik bölgələrindən biri olan Şirvan bölgəsində – Şamaxı əhalisinin milli-mənəvi dəyərlərinin və ailə məişətinin araşdırılması bütövlükdə Azərbaycanın mədəni irsinin öyrənilməsi, tədqiq edilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. XXI əsrin əvvəllərində mədəni dəyərlərin qorunub saxlanılması zərurəti, bu sferada elmi-tədqiqat işlərinə diqqət nəzərə çarpacaq qədər artmışdır. Son vaxtlar mənəvi irsimizi tanıtmaq, xalqımızın çoxəsrlik, zəngin mədəniyyətinin səciyyəvi mənzərəsini canlandırmaq istiqamətində hərtərəfli işlər görülməkdədir.

# QUBA RAYONUNA ELMİ EZAMİYYƏT
(1-5 iyul 2024-cü il)

©2025 KAMALƏ ƏLİYEVA

Elmi ezamiyyət Quba rayonu "Qırmızı qəsəbə"nin sakinləri olan dağ yəhudilərinin ənənəvi geyim və bəzəklərinin tədqiqatı ilə əlaqədar idi, bu haqda səfərimin ilk günü – 2024-cü il iyul ayının 1-də Quba şəhər icra hakimiyyətinin rəhbər şəxsləri ilə görüş zamanı məlumat verdim. Bu məqsədlə dağ yəhudilərinin sıx məskunlaşdığı Quba ərazisində Qudyalçayın şimal sahilində yerləşən "Qırmızı qəsəbə"də oldum. Qırmızı kirəmitli damları ilə seçilən bu kənd İsrail və ABŞ hüdudlarından kənarda yəhudilərin kompakt yaşadığı azsaylı məkanlardan biridir. XVIII əsrin ortalarında salınmış bu kənd Quba xanlığının himayəsi altında olmuş, indiyədək öz mədəniyyət və ənənələrini, o cümlədən cuhud dilini qoruyub saxlamışlar. Bəzən söhbət zamanı "Qafqazın Yerusəlimi" və ya "kiçik İsrail" kimi də adlandırılan 280 yaşlı qəsəbədə ömür sürənlərin böyük hissəsi – təqribən 4 min nəfəri dağ yəhudilərindən ibarət olsa da, burada Azərbaycan türkləri, ləzgilər də bir ailə kimi mehriban yaşayırlar.

Dağ yəhudilərinin dini icmasının sədri Pesax İsakovun müşayiəti ilə Dağ Yəhudiləri Muzeyində oldum. 2020-ci ildə Qubada açılmış, dağ yəhudilərinə həsr edilmiş, XIX əsrə aid Karcoq sinaqoqunda yerləşən muzeydir. Muzeyin ekspozisiyasında dağ yəhudilərinin adət-ənənələrini, ümumi tarixlərini, ənənəvi məşğuliyyətlərini, Qırmızı Qəsəbədəki tarixlərini göstərən eksponatlar yer alıb. Qafqazın müxtəlif yerlərindən gətirilən milli geyimlər, zərgərlik, ayin qabları, XIX əsr antik əşyalar, dağ icmasının irsi və ənənələri qorunub saxlanılır. Burada milli geyimlər, zərgərlik nümunələri, XIX əsr antik əşyalar, dağ icmasının irsi və ənənələri ilə tanış oldum. Geyim və bəzək eksponatlarının foto şəkillərini çəkdim. Bu da tədqiqat işində mənə faydalı oldu. Muzeydə geyim və zərgərlik nümunələri ilə yaxından tanış oldum. Azərbaycan xalqının bir parçası və ortaq mədəni dəyərlərin daşıyıcılarından biri olan dağ yəhudilərinin geyim və bəzəklərində də çoxlu oxşar və fərqli cəhətləri görmək mümkündür. Xalqlarımızın geyim və bəzəklərdəki oxşar və fərqli cəhətləri tədqiq etmək mənim tədqiqat işimin əsas prioritetidir. Muzeydə XX əsrin əvvəllərinə aid olan qadın və kişi geyimlərini tədqiq etdiyim zaman aydın görmək olur ki, Azərbaycan türklərinin, tatların milli paltarlarından qətiyyən seçilmirdi. Geyim və bəzək əşyalarında, hətta xalça nümunələrində də "david ulduzu"nu görmək olur. Qadın baş bəzəyində, paltarların sinəsində, qadın kəmərlərində altı guşəli ulduz həkk olunmuşdur.

Qırmızı qəsəbədə doğulub boya-başa çatan, hazırda İsraildə yaşayan və İsrail Muzeyinin işçisi-dağ yəhudilərinin sərgisinin əlaqələndiricisi olan tarix elmləri doktoru Liya Mikdaşiyeva ilə söhbət zamanı verdiyi məlumatlar çox dəyərli oldu. Liya Mikdaşiyeva bilavasitə dağ yəhudilərinin geyim və bəzəkləri mövzusunda araşdırmalar aparıb. Baxmayaraq ki, bəzi ölkələr, o cümlədən (Qafqaz yəhudilərinin çoxunun mənşəyi olduğu torpaq) yəhudilər üçün fərqli geyim formasını vacib etsə də, Qafqazda yəhudi geyimini qeyri-yəhudi geyimindən fərqləndirmək üçün çox az şey

var. Yəhudilər və qeyri-yəhudilər geyim hazırlamaq üçün eyni parçalardan, zərgərlik üçün isə eyni material və texnikadan istifadə edirdilər.

Qadınlar pambıqdan hazırlanmış paltar və ya alt paltarı (zir-şey) geyinirdilər. Ayağa qədər bütün bədəni əhatə edirdi və ön hissəsində yaxasız yarığı var idi, qolları uzun və enli idi. Üstünə geyilən üst paltar (bulshei və ya burshei) ipəkdən və müxtəlif rəngli parçalardan tikilirdi. Beldən içəri çəkirdi və beldən aşağı qatlanırdı. Üst paltarın üstündən yəhudi qadınları adətən "qobo" kimi tanınan xalat geyinirdilər. Pambıqdan tikilirdi. Qobo beldən sıx, alt hissəsi isə ətək kimi uzun və enli olurdu. Hər qolun dirsəkdən aşağıya doğru bir yarığı var idi; kənarları gümüş muncuqlarla və qızıl lentlərlə bəzədilmişdir. Mərasimlər üçün qadınlar ipəkdən, qış üçün isə pambıq və ya yunla örtülmüş bir qobo hazırlayırdılar. Bel ətrafında gümüş toqqalı dəri və ya parça kəmərlər taxırdılar. Qoboya taxılan pambıq önlük (pişozin) əsasən qadının hamiləliyini gizlətməyə xidmət edirdi. Palto altından qadınlar krujeva ilə yığılmış geniş şalvar geyirdilər. Şalvar pambıq və ya ipək parçadan, qışda isə yundan tikilirdi. Onların kənarları paltarın altından görünürdü və gümüş muncuqlar və qızıl lentlərlə bəzədilmişdir. Yəhudi qadınlar özünəməxsus zərgərlik məmulatlarını, o cümlədən qızıl filiqran (quşvoy poi) oval sırğalar, onlardan sallanan kiçik kulonları, yuvarlaq qızıl muncuqlardan boyunbağılar və qızıl zəncirləri (zindgil-bebei) taxırdılar.

Dağ yəhudilərinin qadın və kişi geyimləri şimal bölgələrində Azərbaycan türklərinin, tatların milli paltarlarından qətiyyən seçilmirdi. Dağ yəhudilərinin bir çox ənənəvi geyim və bəzək elementlərinin adları Azərbaycan dili vasitəsilə izah olunur: arxalıq, boğazaltı. Həmçinin dağ yəhudilərinin ənənəvi geyimləri və bəzəkləri ümumi Qafqaz səciyyəsi daşıyır.

Səfər zamanı görüşdüyüm informatorlardan biri də Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı Heydər Əliyev Lektoriyasının müdiri, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Şirinova Nəhayət xanım oldu. Onunla Azərbaycanın bölgəsi olan Qubada multikultural dəyərlərdən geniş bəhs etdik. Azərbaycan multikulturalizmin əsas məkanlarından biri kimi hələ uzun əsrlər sonra da nümunə olaraq qalacaq. Dağ yəhudilərinin Qubada sülh, əmin-amanlıq, qarşılıqlı hörmət, adət-ənənələrinə sadiq, sərbəst din, bütün özünəməxsusluqlarını qoruyub yaşatmasının başlıca səbəbi Azərbaycan multikulturalizmdir.

Səfərin nəticələri çox uğurlu və məhsuldar hesab oluna bilər. Etnoqrafik səfərlər ölkəmizdə yaşayan Azərbaycan xalqının, onun bütün etnik qruplarının ,o cümlədən azsaylı xalqların, etnik qrupların, həmçinin miqrantların qarşılıqlı münasibətlərini, həyat tərzini, mədəniyyətini öyrənmək üçün əhəmiyyətlidir.




*Dağ yəhudilərinin muzeyi*



*Dağ yəhudilərinin ənənəvi geyim və bəzəkləri (XX əsrin əvvəli)*





*Qadın baş geyimi (XX əsrin əvvəli)*



*Qızıl suyuna salınmış bürünc kəmər (XIX əsr)*



*Qadın gümüş kəməri (XX əsrin əvvəli)*




*Gümüş kəmər  XIX əsr*




*Gəlbənd – Boyunbağı, Gümüş, firuzə daşları  XX əsr*




*Sundukçə – gümüş, əqiq  XX əsr*



*Dağ yəhudilərinin simvolu olan altı guşəli ulduz – "Davud ulduzu"*

# NAXÇIVAN ŞƏHƏRİNƏ ELMİ EZAMİYYƏT
(15-19 iyul 2024-cü il)

©2025 SEVİL YUSİFOVA

Elmi-etnoqrafik ezamiyyətin məqsədi Naxçıvan şəhər əhalisinin müstəqillik illərində milli mərasimlər (toy mərasimləri) üzrə tədqiqat işi aparmaq idi. Bu baxımdan ilk növbədə şəhərin yaşlı, məlumatlı sakinləri ilə görüşməyə çalışdım.

İnformatorların söylədiklərinə əsasən yaxın keçmişdə adətə görə Naxçıvanda toylar üç gün davam edirdi. Toy şənlikləri mağarda, toyxanalarda keçirilirdi. Naxçıvan toyları ənənəvi Azərbaycan toyları kimi rəngarəng ritualları ilə üç mərhələdən ibarət idi: toyaqədərki, toyun özü və toydan sonrakı dövr. Toy törəni gəncin, onun ailəsinin qız bəyənməsindən, elçilikdən başlayır. Elçiliyə gedib söz almada ilk söhbəti oğlan tərəfinin ağsaqqalları açar. Qızın atası, yaxud ağsaqqal əmisi, dayısı "hə" ya "yox" deyər. Qızın "hə"yisi verildisə bundan sonra nişanqoyma (nişantaxma) mərasimi icra edilir və bunun xərcini qız evi çəkirdi.

Elin adəti ilə əlaqədar olaraq nişanlı olduqları dövrdə oğlan tərəfi qıza "Çillə" axşamında Çillə qarpızı, Axır çərşənbədə bayram xonçası, Qurban bayramında qurban payı, yaxud boynu qırmızı lentli (yaylıqlı) bir qoç aparırlar. Təzə meyvə çıxanda tabaq tutub gəlinə nubarçılıq gətirirlər. Toy ziyafətinə bir neçə gün qalmış oğlan və qız evində toy çörəyi yapılır və eşidən-bilən müəyyən hədiyyələrlə gəlib toy sahibinə gözaydınlığı verirlər.

Toyun birinci günü (yığıncaq) musiqi çalınır, iştirak edənlər rəqs edib əylənirlər. Toy adamları, dəvət olunanlar toy həyətinə yığışar, axşama qədər oynayar, axşam üstü bəzən çalğıçıların (sazandarların) müşayiəti ilə qızgilə xına aparırlar. Toyun bu hissəsi "xına gecəsi" adlanır. Oğlan tərəfinə yaxın olan bir hörmətli başıbütöv xanım gəlinin əllərinə xına yaxır. "Xına gecəsi"ndə qız-gəlinlər haxışta gedir, çalıb oynayır, şənlik edirlər. Bu gecə çalışırlar ki, yatmasınlar, çünki yatanı döşəyə, palaza tikirdilər.

Qız ata evindən köçürülən zaman onun belini bəyin qardaşı üç dəfə bağlayıb-açır. Evin ağsaqqalı gəlinə xeyir-dua verir və evdən çıxarılarkən "qapı kəsmə" adəti icra olunur. Onunla bir bəzəkli toyuq da verilir ki, o çoxuşaqlı ana, ruzisi bol olsun, yanar çıraq (işıqlı, ağ gün mənasında), güzgü (paklıq rəmzi), balaca oğlan uşağı qucağına qoyurlar ki, siftə oğlu olsun. Əlinə bir qədər düyü verilir ki, yol boyu onu səpsin ki, ərlik yaşında olan rəfiqələrin, qonşu qızların da bəxtləri açılsın.

Ər evinin astanasında qoyulmuş bir mis məcməyinin üstündən keçir, ayağı ilə oradakı nimçəni çalışıb sındırmalıdır ki, bədnəzərlər yox olsun, uzaqlaşsın. Qapının girəcəyində bəyin gəlinin başına qırmızı alma, şirniyyat atması, qucağına körpə oğlanın oturdulması və digər rituallar magik xarakter daşıyır.

Toyun gedişində "duvaqqappa" mərasimi keçirilir, gəlinin qarşısındakı masaya bir kasada şərbət, çıraq (şam) yandırıb qoyurlar. Bəyin qohumlarından sayılıb-seçilən bir qadın gəlinin başına salınmış qırmızı duvağı barlı ağacın budağı ilə nəsihət mahiyyətli sözlər söyləyərək "xoşgəldin" ritualı icra edir. Gəlinin duvağını yenə də bir oğlan uşağı qapır, atır bir barlı ağacın üstünə və xələt alır. Mərasim iştirakçılarına

şirin çay, yemək verilir. Toydan üç gün sonra elin adətinə uyğun olaraq gənc ər-arvad gəlinin ata evinə "əl öpmə"yə qonaq gedirlər.

Etnoqrafik materiallarını araşdırarkən son illərdə naxçıvanlıların toy mərasimlərində bir sıra adətlər ("deyikli" adəti, yaşınma, mehr pulu, başlıq, süd pulu, toy xərci, parçabiçmə və s.) aradan çıxdığını müəyyənləşdirdik. Toylar artıq üç gün deyil, bir günə başa çatır. Bəylə gəlin öz toylarında fəal iştirak edirlər. Toyla bağlı adət və inamlar transformasiyaya uğrayaraq bir sıra ənənəvi xüsusiyyətlərini qoruyub saxlamışdır.

# AĞSTAFA RAYONUNA ETNOLOJİ SƏFƏR

©2025 İSMAYIL UMUDLU

Gəncə Regional Turizm İdarəsi və "Cavad Xan" Tarix və Mədəniyyət Fondunun Göygöl rayonunda uca dağlıq məkanda – Gəncə xanlarının ənənəvi yaylaq yeri olmuş Xan Yurdunda təşkil etdiyi **"Gəncəbasarda köç yolu və elat ənənəsi: əcdadlarımızın izi ilə" adlı Etnoturizm Qurultayında (6-7 iyul 2024-cü il)** iştirak etmişəm. Tədbirin başlanğıcında ən müxtəlif türk ölkələrinin milli çadırlarının etnoqrafik təqdimatı keçirildi. Geniş tutumlu "Xan çadırında" keçirilən etnoturizm qurultayında "Keçmiş Qazax qəzasının ənənəvi köç yolları və tarixi yaylaqlar" adlı məruzə ilə çıxış etdim.

Məruzədə Kür çayının sol-sahilini əhatə edən Qarayazı və Ceyrançöl çoxəsrlik qış otlaqlarından başlanan, Kür çayındakı münasib keçidlərdən sonra Kiçik Qafqaz dağ silsilələri istiqamətində yoluna davam edən, ənənəvi düşərgə yerlərində dayana-dayana, tələsmədən qət olunan 60-100 km-lik marşrutların təsvirini verdim. İnsanlar və hərəkətdə olan sürülərin, naxırların, ilxıların dincələ-dincələ qət etdiyi aşağıdakı marşrutlardan danışdım:

Kür üstündən Şıxlı keçidi – Şıxlı – Qalaça – Qulp yolu – daha sonra yaylaqlar;

Kür üstündən Salahlı keçidi – Aslanbəyli – Qaymaqlı – Kəmərli yolu – burada Şıxlı yoluna birləşir – və yaylaqlar;

Kür üstündən Salahlı keçidi – Salahlı – Daş Salahlı – Əskipara dərəsi – Sultanyurd və uzaq yaylaqlar;

Kür üstündən Poylu keçidi – Ağstafaçayın dərəsi ilə Dilican istiqamətinə – oradan qərb, cənub səmtlərdəki yaylaqlar;

Poylu keçidi və Qızıl Yulğun keçidi – Kəsəmən elinin Həsənsu çayının dərəsi ilə yaylaqlara qalxıb orada şaxələnən ənənəvi yolu;

Daha sonra Qazax qəzasının Şəmsəddin nahiyəsi kəndlərinin istifadə etdiyi, Ceyrançöldən başlanan, Kürü keçdikdən sonra Tovuz-çay və Zəyəm-çay boyunca yaylaqlara aparan köç yolları üzərində təfsilatı ilə dayandım.

Qazax qəzasının inzibati ərazisinə daxil olmuş, 1920-ci ildən sonra Ermənistan SSR-ə aid edilmiş yaylaqlarımız, onların hər birinin tarixi adı, sahəsi (desyatinlə), onlarda ənənəvi olaraq yaylayan elatlar, hər bir yaylaq üzrə tüstü (ailə təsərrüfatı) sayı barədə ilk dəfə səsləndirdiyim məlumat (1884-1888-ci illərin rəqəmlərində) qurultay iştirakçılarının böyük marağına səbəb oldu.

Qeyd edim ki, Qazax, Ağstafa, Tovuz inzibati rayonlarında söhbət apardığımız yaşlı insanların yaddaşında ənənəvi Qazax yaylaqları, köç yolları hələ də canlıdır. Bir-birini əvəz edən etnoqrafik ekspedisiyaların, elmi ezamiyyətlərin gedişində Ermənistan sərhədləri daxilində qalmış, keçmişdə yerli azərbaycanlıların ənənəvi təsərrüfatçılıq arealı olmuş məkanların etnoqrafik təsvirləri yazıya alınmışdır. Gör-

müşük ki, o yerlərin təbii gözəllikləri, iqtisadi imkanları hələ də unudulmayıb, insanlar yaylaqlarımızın xiffətini çəkirlər.

Bəlli olduğu kimi, Azərbaycan coğrafiyasının qərb bölgəsinə aid tarixi Qazağın dağlıq torpaqlarının mühüm qismi, hardasa əlli faizi qayçılanıb Ermənistan SSR-ə aid edilsə də, Azərbaycanın heyvandarlıq təsərrüfatlarının və ailələrin dağlardan həm iqtisadi zəmində, həm də yay mövsümündə dincəlmə məkanı olaraq istifadə hüququ saxlanırdı. Lakin tədricən bu formal hüquq məhdudlaşdırılmış, Azərbaycanlıların 1988-ci ildə Ermənistandan elliklə deportasiyasından sonra isə Qərb bölgəsi əhalisinin maddi və mənəvi həyatında tarixən böyük önəm kəsb etmiş bu məkanda türk etnik varlığına ümumiyyətlə son qoyulmuşdur.

Məruzədə belə bir məqamın üzərində ayrıca dayandım ki, 1920-ci ildə sovetləşmədən sonra Güney Qafqazda sərhədlər müəyyən edilərkən İttifaq rəhbərliyi tərəfindən ədalətsiz olaraq Ermənistan SSR-ə verilmiş tarixi ərazilərimiz, yaylaqlardan dincəlmək və heyvandarlıq məqsədilə istifadəni ənənəvi olaraq davam etdirən Qərb bölgəsinin azərbaycanlı əhalisi üçün əyani idi. 1988-ci ilin elliklə deportasiya və sərhədlərin bağlanmasından sonrakı ilk onilliklərdə bu yaddaş güclü olaraq qalırdı. İndi isə, arada təqribən 40 ilə yaxın tam ayrılıq dövrü var. Deportasiya və aradakı şərti sərhədlər bağlanana qədər 20 yaşlarında olanlar indi ömürlərinin ahıllıq çağını yaşayırlar. Eyni zamanda, tarixi yurdlardan kənarda nəsil dəyişməsi baş vermişdir. Doğrudur, gənc nəsildə ata-baba yurdlarına, məhəlli coğrafiyaya virtual maraq var, amma real məkan yaddaşı artıq silinmək üzrədir, lakin buna yol verməməliyik.

Ümumiyyətlə, son dönəmdə Qərbi Azərbaycan məsələsinin aktuallaşması, millətimizin siyasi və etnik tarixində ağır iz buraxmış bu məsələnin milli ideyaya çevrilməsi bizdən etnoloji diqqəti onun ayrı-ayrı aspektlərinə yönəltməyi tələb edir. Qazax qəzasının tarixi yaylaqlarının 1920-ci ildən sonra Azərbaycan dövlətinin sərhədlərindən kənarda qalması, ondan sovet dönəmindəki formal istifadə hüququnun 1988-ci ildən sonra mümkünsüz olması çox ciddi etno-siyasi məsələdir.

Əlavə etdim ki, bu gün azərbaycanlılar arasında tarixi ədalətin bərpa olunacağına, tarixi yaylaqların yenidən ana vətənə qovuşacağına inam güclüdür. Tarixi yurdları bilmək, tanımaq və etnik yaddaşda möhkəmlətmək zəruri məsələdir. Qayıdışdan sonra öz dədə-baba torpaqlarında yaşayacaq insanlarda məhəlli etno-tarixi, etno-coğrafi yaddaşın möhkəmləndirilməsi, məkanı unudanlarda onun rekonstruksiyası vacibdir.

İyulun 8-dən 12-dək bölgə epiqrafikasının öyrənilməsi istiqamətində tədqiqatlarımı davam etdirmək üçün Ağstafa rayonunda elmi ezamiyyətdə olmuşam. Ezamiyyə çərçivəsində iyulun 8-də "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunda dəyirmi masa təşkil olunmuşdur.

İyulun 9-da "Keşikçidağ" DTMQ əməkdaşlarının müşayiəti ilə Ağstafa inzibati rayonunun Qıraq Kəsəmən kəndində oldum, "min evli Kəsəmənin" köhnə qəbiristanlıq ərazisini növbəti dəfə gəzdim, keçmişdə kəndin mötəbər ruhanilərinin, bəzi

yerli bəylərin, məşhur Qaçaq Kərəmin atası və qardaşının məzar daşlarının, türbələrin epiqrafik mətnlərini yazıya aldım, fotoşəkillərini çəkdim. Daha sonra qonşu Zəlimxan kəndinə gedərək kəndin ətrafını gəzdik.

İyulun 10-da "Keşikçidağ" DTMQ əməkdaşlarının müşayiəti ilə Ağstafa rayonunun iri yaşayış məntəqələrindən olan Poylu kəndinə getdim. Maraq kəsb edən bir neçə yeni epiqrafik mətni yazıya aldım, fotoşəkillərini çəkdim.

Son zamanlar Azərbaycan ordusu Qazax rayonunun Qızılhacılı, Bağanıs Ayrım, Aşağı Əskipara və Xeyrimli kəndləri üzərində nəzarəti bərpa etmişdir. İyulun 11-də Qızılhacılı və onun qonşuluğundakı Taharbəyli kəndlərinin ərazilərini "Aveydağ" DTMQ əməkdaşlarının müşayiəti ilə gəzdik. Taharbəyli və Qızılhacılı kəndlərinin köhnə qəbiristanlıqlarına baş çəkdik, bir sıra epiqrafik mətnləri yazıya aldım, fotoşəkillərini çəkdim.

Daha sonra şərti sərhəddə yerləşən Fərəhli kəndinə yollandıq. "Aveydağ" DTMQ əməkdaşlarının müşayiəti ilə kənd ərazisini gəzdik, kəndin köhnə qəbristanlığına baş çəkdik, elmi maraq doğuran epiqrafik mətnləri yazıya aldım, onların fotoşəkillərini çəkdim.

İyulun 12-də yenidən Ağstafa rayonunun Dağ Kəsəmən kəndində oldum, kənd qəbiristanlığının köhnə hissəsini dolaşdım. Bəzi səciyyəvi epiqrafik mətnlərə təkrarən diqqət yetirdim, bəzilərini yazıya aldım. Həmin gün "Keşikçidağ" DTMQ-nun təşkilatçılığı ilə keçirilən "Qərb bölgəsinin etnoqrafiyası" adlı onlayn konfransda çıxış etdim.



*Etnoturizm Qurultayında. Göygöl rayonu. 06-07 iyul 2024*



*Qazax rayonunun Fərəhli kəndi (Odun dağının ətəkləri).*
*11 iyul 2024-cü il*

# ANKARA ŞƏHƏRİNƏ ELMİ EZAMİYYƏT
(01-07 dekabr 2024-cü il)

©2025 BƏHMƏN ƏLİYEV

Həyatın bütün sahələrini əhatə edən qloballaşma xalqların ənənəvi maddi və qeyri-maddi irsinin sıradan çıxmasına böyük təsir göstərir, bu prosesin sürəti və miqyası isə həndəsi silsilə ilə artmaqdadır. Etnoloji ekspedisiyalar zamanı ənənəviliyin, ayrı-ayrı etnoqrafik materialların bərpa edilməz şəkildə yoxa çıxması qeydə alınır. Müasir dövrdə ənənəvi maddi və qeyri-maddi irsi qoruyub-saxlamaq, zamanından və məkanından qoparılmadan gələcək nəsillərə ötürülməsi üçün etnoqrafik muzeylərin yaradılması təcrübəsini öyrənilməsi, həyata keçirilməsi mühüm əhəmiyyət daşıyır. Müasir dünyada etnoloji (etnoqrafiya) muzeylərin əhəmiyyəti daha da artmaqdadır, bu muzeylər xalqın qədim maddi mədəniyyətinin sərgiləndiyi hafizə-yaddaş məkanı olmaqla yanaşı, ənənələrdən kənarda mümkün olmayan gələcəyə baxışdır. Etnoloji muzeylər xalqın maddi və mənəvi irsini əks etdirməsi, nəsildən-nəsilə ötürməsi baxımdan önəmli rol oynayır, geyim, ev alətləri, geyimlər, bəzək əşyaları, xalq sənətlərinə aid alətlər bu sahə daxilində dəyərləndirir.

Həm tarixçilərin, həm də etnoloqların xarici təcrübə ilə yaxından tanış olmasına, xarici elmi təcrübəni mənimsəməsinə mühüm önəm verən AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürovun təşəbbüsü və tapşırığı ilə (1-7 dekabr 2024-cü il tarixində) Ankaraya elmi ezamiyyətə göndərildim.

Elmi ezamiyyət zamanı Ankaradakı müxtəlif muzeyləri ziyarət etdim, bu muzeylərin eksponatları ilə yanaşı, ekspedisiya fondları, arxivləri ilə maraqlandım, Azərbaycanla bağlı materialların olub-olmamasını müəyyənləşdirməyə çalışdım.

Türkiyənin ilk etnoqrafiya muzeyi olan Ankara Etnoqrafiya Muzeyi şəhərin Namazgah adlanan hissəsində Mustafa Kamal Atatürkün göstərişi ilə tikilmişdir. Tarixən Səlcuqlu hökmdarı İzzəddin Keykavus burada mədrəsə tikdirmiş, Osmanlı dövründə xalqın bayram namazı qıldığı, milli mücadilə dövründə müxtəlif milli və dini toplantılara səhnə olmuşdur. 1925-ci ildə tikintisinə başlanmış muzey Səlcuqlu memarlığı əsasında tikilmiş, cəmi iki ilə tamamlanmış, 1930-cu ildə fəaliyyətə başlamışdır. Mustafa Kamal Atatürkün nəşi 1938-ci ildən 1953-cü ildə Anıt qəbirə aparılanadək muzeydə saxlanılmışdır, muzey 1956-cı ildən yenidən açılmışdır.

Ziyarət zamanı prof. Kərim Şükürovun məktubunu Ankara Etnoqrafiya Muzeyinin müdiri Veysi Günə təqdim etdim, tədqiqat məqsədim və məramım haqqında məlumat verdim. Muzey əməkdaşlarının eksponatlar haqqında ilkin məlumatları maraqlı oldu. Muzeyin "Ağac əsərlər salonu", "Hacı Bayramı Vəli və təsəffüv əsərləri", "Yazma əsərlər salonu", "Güc və iqtidar salonu", "Çini əsərlər salonu", "Gələnəksəl Ankara evi", "Seramik, metal, cam əsərlər salonu", "Xalı və kilim salonu", "Zərafət və estetik salonu" çoxsaylı və hərəsində bir tarix gizlənən eksponatlarla zəngindir.

Anadolu Mədəniyyətlər Muzeyindəki eksponatlar ən qədimi bir milyon il əvvələ aid olmaqla, müasir Türkiyə ərazisində olmuş səkkiz sivilizasiyanın mövcud-

luq tarixini özündə əks etdirir. Bu muzeyi gəzəndə əslində Anadolu ilə yanaşı, bütün Yaxın Şərqin, Şimali Afrikanın, eləcə də İran, Azərbaycan coğrafiyasında mövcud olmuş mədəniyyətlər, dövlətlər haqqında geniş təsəvvür yaranır. Arxeoloji, etnoqrafik, etnoloji materiallar qədim əhalinin dini inanclarını, məişətini, dolanışığını, təsərrüfatını izah edir. Müxtəlif kitablarda, filmlərdə dünyaca məşhur Şumer, Frikiya, Assur, Ellin, Roma və s. obrazların Anadoluda, elə bu muzeydə olması maraq doğurur. Makedoniyalı İsgəndərin kəsdiyi Qordion düyününün Ankaranın yaxınlığında olması, Qardion yaşayış məntəqəsi ilə bağlı çoxsaylı materialların Anadolu Mədəniyyətlər Muzeyində saxlanması xoş təəssürat yaradır.

Türkiyə Cümhuriyyəti qurulmamışdan əvvəl, 1921-ci ildə Mustafa Kamal Atatürkün göstərişi ilə yaradılmış muzey 1997-ci ildə Avropanın ən yaxşı muzeyi seçilmişdir.

Elmi ezamiyyəmin gedişində Anadolu Mədəniyyətlər Muzeyinin müdiri Yusuf Kıraçla görüşdüm, daha sonra muzeyin direktor müavini Umut Alagözlü, Müzey təhsil mütəxəssisi, arxeoloq Tolğa Çelik, etnoloq Adem Sevgili və sənətşünas mütəxəssislərlə maraqlı müzakirələr apardıq. Tolga Çelikin izahatları ilə muzey materialları, muzeyin tarixi haqqında geniş məlumat əldə etdim. Qeyd edim ki, muzeyin qədim tarixi vardır, Sultan Fateh dönəminin baş vəzirlərindən olmuş Mahmud Paşa tərəfindən 1464-1471-ci ildə tikdirilmişdir. Muzeyin ikinci hissəsi olan Kurşunlu Han isə Mahmud Paşanın İstanbuldakı imarətinə vəqf olaraq tikilmişdir. Ən qədim dövrlərdən Səlcuqlu, Osmanlı dönəminədək gəlib çıxan eksponatların hər biri tarixdir.

Ankaradakı Rahmi M. Koç muzeyində XX əsrin ikinci yarısında Türkiyənin, xüsusi ilə paytaxt Ankara etnoqrafiyası ilə bağlı qiymətli eksponatlarla üzləşdim. Koç Muzeyçilik və Kültür Vəqfinə bağlı olan, 1994-cü ildə İstanbulda fəaliyyətə başlayan muzey üç ayrı vilayətdə fəaliyyət göstərən muzeyə çevrilmişdir. Ankaradakı muzey 2005-ci ildə fəaliyyətə başlamışdır. Muzey əvvəlcə kirayələnmiş, restorasiya edilmiş Çəngəlxan binasında fəaliyyət göstərsə də daha sonra Safranhan karvansarası bura əlavə edilmişdir. Safranhan karvansarasını Hacı İbrahim 1511-ci ildə tikdirmişdir, bina karvansaray, həbsxana kimi istifadə edilmişdir. Bu bina da düz 4 il restavrasiya edilmişdir, muzey 42 otaqdan, sərgi salonundan ibarətdir.

Tarixən Ankaranın 4 hanından, yəni karvansarasından olan, Mihrimah sultanın əri Rüstəm Paşa tərəfindən 1522-1523-cü illərdə inşa edilmiş Çəngəlxan karvansarası Ankara qalasının qonşuluğunda, Atbazarı məhəlləsində və ya Hərgələn meydanında Qala önündə yerləşir. Bu karvansaranın havlusunu da oğru və quldurları çəngəldən asırmışlar. Ona görə də Çəngəlxan adı ilə məşhurlaşmışdır. Digər bir məlumata görə karvansaranı tikdirən Birinci Mehmetin kürəkəni, Anadolu bəylərbəyi Karacapaşadır, o, 1444-cü ildə Varna döyüşündə həlak olmuşdur. Karvansaranı 1991-ci ildə Karacabəyin nəvələrindən olan Raifə Kocabəy oğlu Öngənin övladları dövlətə vermişlər. XIX-XX əsrlərdə karvansara funksiyasını yerinə yetirməklə yanaşı, bazara çevrilmişdir. Burada tütün, tiftik, yun, kürk satılan yer olmuşdur. Muzeydə 1850-ci ildən bəri sənaye sahələrində istehsal və istifadə edilmiş traktor, qatar, gəmi modelləri sərgilənir.




Ankaranın XX əsr həyatına, məişətinə dair materiallar diqqətimi daha çox cəlb etdi. Məsələn, Sərraf Zeynalın nəvələri babalarının hazırladığı yəhərləri, yüyənləri, qamçıları, üzəngiləri, bütövlükdə bir yəhərçinin bütün ləvazimatını Rahmi Mustafa Koç muzeyinə hədiyyə etmişlər. Ötən əsrin əvvəllərin Ankarada işləmiş pinəçi-kunduraçı İsmayıl Gözəlaydının qızı atasının ləvazimatını, sexinin muzeyə vermişdir. Ankara xalçaçıları, toxucuları, sənətkarlıq birlikləri də muzeyi öz eksponatları ilə zənginləşdirmişlər.

Elmi ezamiyyətin gedişində Ankara Etnoqrafiya Muzeyi, Anadolu Mədəniyyətlər Muzeyi, Rahmi Mustafa Koç Muzeyi ilə yanaşı, Ankara İstiqlal Muzeyi (Türkiyə Böyük Millət Məclisinin I binası), Ankara Cümhuriyyət Muzeyi (Türkiyə Böyük Millət Məclisinin II binası), Ankara qalası, Atatürk Qurtuluş Savaşı Muzeyi, Ankara Dövlət Rəsm və Heykəl Muzeyi, Kəlmə (Söz) Muzeyi, Türkpusat Müzeyi, Erimtan Arxeoloji və Sənət Muzeyi və s. muzeylər ziyarət olundu, hər bir eksponat diqqətlə nəzərdən keçirildi.

Gələcək məqalələrimizdə bu elmi ezamiyyətin nəticələri daha geniş şəkildə əksini tapacaqdır. Qısa olaraq bildirək ki, Türkiyədə etnoqrafiya muzeyləri tarixi, etnoloji, mədəni tədqiqatların nəticələrini özündə əks etdirən milli hafizə (milli yaddaş) məkanı kimi qəbul edilir. Muzeylərdəki hər bir eksponata öz zamanından, məkanından, ənənəviliyindən qoparmamaq şərti ilə, yeni anlamlar qazandırılır, kollektiv yaddaşın ünsürləri sanki canlandırılaraq, müasir yaşamın tərkib hissəsinə çevrilirlər. Xalqın etnoqrafik xəzinəsini qorumaq, gələcək nəsillərə çatdırılmasında ayrı-ayrı vətəndaşların zövqlərinə, təşəbbüslərinə xüsusi yer verilir.





*Azərbaycan etnologiyası 2025 / Cild (1) №1* *ISSN 0000-0000*
*Səh.273-277*

## RESENZİYALAR-REVIEWS

**UOT:39**

# "ESKİ ORTA ASYA TÜRK DEVLETLERİ'NDE AİLE" ("QƏDİM ORTA ASİYA TÜRK DÖVLƏTLƏRİNDƏ AİLƏ") KİTABINA RƏY

2025 BƏHMƏN ƏLİYEV

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
https://orcid.org/0000-0003-0281-9899, email: behmenaa@gmail.com

Azərbaycan tarix və etnologiya elmlərinin inkişafında başqa ölkələrdə aparılan tədqiqatların öyrənilməsi, metod və metodologiyaların araşdırılması mühüm əhəmiyyət daşıyır. Ortaq tarix, ortaq dil və dini dəyərlər, eləcə də təsərrüfat həyatı maddi və mənəvi mədəniyyətin öyrənilməsi baxımdan Türkiyədə, Orta Asiya türk cümhuriyyətlərində aparılan tədqiqatlar təhlili maraq doğurur.

Türkiyənin Atatürk Kültür, Dil və tarix Yüksək Qurumu Türk Tarix Qurumunun yayınladığı Yasəmin Kurtoğlunun "Qədim Orta Asiya türk dövlətlərində ailə" (Yasemin Kurtoğlu. Eski Orta Asya Türk Devletleri'nde Aile. Ankara: Türk Tarih Kurumu, 2021, 123 s.) adlı monoqrafiyasında Orta Asiyada yaşayan türklərin islamiyyəti qəbul etməmişdən əvvəlki dönəmdə ailə hüququ adət və ənənələrinin ayrıntılı bir şəkildə tədqiq etmək məqsədi qarşıya qoyulmuşdur. Müəllif bildirir ki, qədim türk ailəsi ilə bağlı əsərlərdə bu məlumatların az olduğunu müəyyənləşdirmişdir. Tədqiqat zamanı müxtəlif əsərlərə istinad edən Yasəmən Kurtoğlu türk ailəsinə dair məlumat və yanaşmaları təhlil etməklə yanaşı, yeni faktları elmi dövriyyəyə gətirərək bir sıra nəticələrə gəlmişdir. Müəllif qədim türk ailəsini türk hüquq tarixi müstəvisində araşdırmaqla maraqlı əsər ortaya qoymuşdur.

Etnoloji baxımdan diqqəti cəlb edən monoqrafiyada ailəyə türk hüquq tarixi müstəvisində baxılır, qeyd olunur ki, qədim türklərdə ailə hüququ yazılı qanunlarla sistemləşməmişdir. Bu sahənin sərhədləri qədimdən bəri həyata keçirilən örf və adətlərlə müəyyənləşmişdir. Bu örf və adətlər elə geniş və ardıcıl şəkildə həyata keçirilmişdir ki, artıq bunlar adi ənənə və adət halından çıxaraq örf və adət hüququ halına gəlmişdir. Ailə ilə bağlı qaydaların örf və adətlərə əsaslanması, daha dəqiq desək dövlətin bu qaydalara həddindən artıq müdaxiləsinin hiss edilməməsi qədim türk toplumlarında ailə hüququ qaydalarının demək olar ki, eyni şəkildə həyata keçirilməsini təmin etmiş, topluluqlar arasında böyük fərqliliklərin yaranmasını əngəlləmişdir.

Çox sürətli və dinamik yaşam tərzinə baxmayaraq, türk topluluqları tarix yazılmasına önəm verməməsini vurğulayan Yasəmin Kurtoğlu yazır ki, qədim ailə adət və ənənələri haqqında məlumatlar müxtəlif yazılı qaynaqlarda əksini tapır.


ESKİ ORTA ASYA
TÜRK DEVLETLERİ'NDE
AİLE
Yasemin KURTOĞLU
TÜRK TARİH KURUMU
2. Baskı

Müəllif həmin mənbələri aşağıdakı şəkildə qruplaşdırır: Çin qaynaqları, epiqrafik mənbələr (Orhun yazıları və s.), Uyğur dövlətinin hüquqi sənədləri, qədim türk dillərinin tədqiqi nəticəsində əldə edilən materiallar, "Kitabi-Dədə Qorqud dastanları" və s.

Müəllifin gəldiyi nəticəyə görə, qədim türklərlə bağlı maraqlı məlumatlar Çin qaynaqlarında əksini tapmışdır. Kurtoğlu göstərir ki, çinlilərin düşmən münasibət bəslədikləri qonşu türklərlə bağlı məlumatlarının tam dəqiq olmaması, bu dilin tərcüməsində yaşanan çətinliklərin nəzərə alınması vacibdir. Qədim türklər və çinlilər arasında münasibətlərin çox zaman yaxşı olmaması çinlilərin tərəfsiz bir tarixçi olmasına şübhə yaradır. Dil ilə bağlı incələmələr də qədim türklərin ailə münasibətləri haqqında bir qaynaq hesab edilir. Bu sahədəki araşdırmalar qədim türk ailəsi ilə ilgili atət-ənənələrin dəqiqləşdirilməsinə imkan vermişdir.

Qədim türklərin ailə hüququna dair məlumatların əksini tapdığı digər mühüm qaynaq dastanlardır. Millətlərin öz keçmişləri haqqında düşüncələrini, təsəvvürlərini anladan dastanları mühüm mənbə sayan Yasəmin Kurtoğlunun vurğulayır ki, qədim toplumlar yaşanılan və böyük olayları sonrakı nəsillərə çatdırmaq üçün dastanlara müraciət edir. Belə dastanların ən önəmlisi isə türk boylarından olan oğuzlara məxsus "Kitabi-Dədə Qorqud dastanları"dır, bu dastanlar oğuzların islamiyyətlə tanış olmasından sonra yazıya alınmışdır. Lakin oğuzların qədim ailə ənənələrinin bir çox elementlərini qoruyub saxladıqları dastanlarda aydın şəkildə görünür. Dastanlar qədim Orta Asiya türk toplumlarının həyat tərzi ilə bağlı sözlü qaynaqlar olsa da, nəsildən-nəslə keçərkən onların dəyişikliyə uğraması monoqrafiyada nəzərə alınmış, qeyd edilmişdir ki, boylar hüquq qaynağı olmasa da, burada dövrün örf və adətləri haqqında kifayət qədər məlumat mühafizə olunmuşdur.

"Ön söz", "Giriş" ilə yanaşı, kitabın mündəricatı müəllifin qarşıya qoyduğu məqsəd və vəzifələri, tədqiqat istiqamətlərini müəyyənləşdirmək baxımdan maraq doğurur.

"Qədim Orta Asiya türk dövlətlərində ailə qavramı" adlanan birinci fəsildə qədim türk ailəsinin ailə quruluşu, ailə üzvlərinin rolu, ailədə atanın rolu, ailədə ananın rolu, ailədə uşaqların rolu adlanan bölmələrdən ibarətdir.

"Qədim orta Asiya türk dövlətlərində ailə birliyinin qurulması" adlanan ikinci fəsli isə nişanlanma (nişanlanmanın şərtləri, nişanlanmanın hökmləri), evlənmə (evliliyin şərtləri, maddi şərtlər, yaş, qan qohumluğu, razılıq, sosial durumun bərabərliyi, kalın, kalının tanımı və termiologiyası, kalının hissələri, kalının hüququ mahiyyəti, kalının hüquqi növləri və məqsədi, kalının miqdarı, kalının ödənməsini istisna edən hallar, kalının forma və şərtləri), evliliyin hökmləri və qədim türklərdə çoxarvadlılıq) bölümlərindən ibarətdir.

Kitabın "Qədim orta Asiya türk dövlətlərində ailə birliyinin sona çatması" üçüncü fəslində isə ölüm və onun nəticələri, levirat (leviratın tanıtımı, leviratın səbəbləri- dini səbəb, iqtisadi səbəb, sosial səbəb, leviratın ödənməsi, leviratın hüquqi nəticələri, sororat) boşanmanın səbəb və sonucları (boşanmanın səbəbləri, boşanmanın sonucları) bölümlərindən ibarətdir. Kitabda nəticə, qaynaqca (istifadə edilmiş ədəbiyyat siyahısı) dizin (adların, terminlərin səhifələr üzrə göstəricisi) əksini tapır.

Qədim Orta Asiya türk toplumlarında ailəyə böyük önəm verildiyini vurğulayan müəllif bir sıra maraqlı nəticələrə gəlmişdir. İlk növbədə yazır ki, toplum

həyatının təməlini yaradan ailə ilə bağlı qaydalar qədimdən örf və adətlər şəklində özünü göstərmişdir. Qədim Orta Asiya türk toplumlarında ailə hüququ ilə bağlı bəzi məsələlər türklərin ənənəvi şamanizm inanclarının təsiri altında formalaşmışdır. Orta Asiyada yaşayan türklər ataxaqanlıq (peder) ailə quruluşunu qəbul etsələr də atanın (babanın) haqq və səlahiyyətlərinin məhdudiyyətsiz olduğu quruluşa daxil olmamışlar. Ataxaqanlıq (pədərşahlıq) ailə quruluşunda ana və atanın soyları bir-birinə uyğun olmuş, ailədə işində yaşayan bütün üzvlər azad və bərabər sayılmışlar. Bu baxımdan yanaşıldığında qədim Orta Asiya türk topluluqları ilə eyni dövrdə yaşamış bir çox xalqlara görə qadın haqları sahəsində çox irəliləmiş, olduqca gəlişmiş hüquq sistemi formalaşdırdıqlarını söylənə bilər. Bu məsələ ilə bağlı Çin qaynaqları, Orhun Yazıları, səyyah və tarixçilərin səyahətnamələrində ölduqca önəmli bilgilər vardır.

Qədim Orta Asiya türklərində ailə birliyinin qurulması nişanlama ilə başlamışdır. Nişanlama kişi tərəfinin qızı istəməsi, qızın atasının bu istəyi qəbul etməsi və tərəflərin kalın (qaramal, yelü, süd haqqı) üzərində anlaşmaqla tamamlansa da qızın iradəsi də nəzərə alınmışdır. Qızın razılığından kənar heç bir şəkildə evlənməyə məcbur edlimədiyi tarixi və etnoqrafik materiallarla təsdiqlənir. Nişanlanmadan sonra gələn evlənməyə türklər elə önəm vermişlər ki, bu toplumda bir vəzifə (görəv) olaraq qıbul edilmiş, subay qalmaq qınanmışdır. İnanca görə, evlənmənin həm bu dünya, həm də o biri dünya üçün anlam və önəmi böyükdür. Evlilik üçün yaş, qan qohumluğu, razılıq və social durumun bərabərliyi kimi şərtlər mühüm sayılmış, bu şərtlər daxilində soyun davamın təmin ediləcəyi düşünülmüşdür. Digər evlilik şərti olan kalın ödənməsi isə ilkin hüquq sistemlərinə aid ritualın Orta Asiyada da yayıldığını göstərir. Kalın evliliyin təməl şərtlərindən biridir, yerinə yetirilməzsə evlilik baş tutmamış sayılır. Müəllif belə nəticəyə gəlir ki, qədim türklərdə əsas ailə formasının tək eşlilik (tək arvadlılıq) olmuş, lakin toplumların qarşılaşdığı bəzi problemlər nəticəsində çox eşlilik də türklərin yaşamına daxil olmuşdur. "Levirat"ın hunlardan başlayaraq türk toplumlarında yayılması hüquqi nəticələr doğurmuşdur, bu kişilər arasında çoxarvadlılığın ortaya çıxması, dul qadının miras və vilayət haqqının məhdudlaşdırılması ilə bağlı idi: "Ruhların öldükdən sonra yaşadıqlarına inanılması səbəbi ilə dul qalan qadının, ərinin ölümündən sonra onun ruhuna xidmət etməyə davam etməsi gərək idi. Bu, leviratın dini səbəbini təşkil edirdi. Digər tərəfdən, ərinin ölümü ilə öz qəbiləsinə geri dönməsinə izn verilən qadın ərindən qalmış mirası da özü ilə aparacaq, üstəlik ailədə də bir də işgücü çatışmazlığı yaşanacaqdır. Bunların əngəllənmək istənməsi isə leviratın iqtisadi səbəbləri olaraq qəbul edilmişdir. Bu halda qadının levirat evliliyinə girməsi ilə yaranacaq problemlərin qarşıcını almaq istəmişlər". Kitabda sororat, boşanma haqqında da məlumat verilmişdir. Müəllifin gəldiyi ən maraqlı nəticələrdən biri budur ki, Orta Asiya türk dövlətlərinin hüquq sistemi tarixdə qalmış bir system kimi düşünülməməli, bu ailə hüquq düzəni tarixdə müxtəlif dövlətlərə və onların hüquq sistemlərinə də təsirləri olmuşdur.

Yasəmin Kurtoğlunun "Qədim Orta Asiya türk dövlətlərində ailə" monoqrafiyasında ailə hüququnun tədqiqatı qarşıya məqsəd qoyulsa da etnoqrafik materiallarının zənginliyi, etnoloji təhlili xüsusi maraq doğurur. Monoqrafiyada Azərbaycan milli düşüncəsinin formalaşmasında xüsusi rolu olan Əhməd Ağaoğlunun, Türkiyənin və dünyanın məşhur mütəfəkkirləri və tarixçiləri- Ziya Göyalp, Fuat Köprülü,

V.V.Bartold, Baheddin Ögel, İnan Abdulqədir, Faruk Sümer, Volfram Eberhard, A.Von Gabain, İbrahim Kafesoğlu, Lev Qumilyov, V.Radlov, Əhməd Cəfəroğlu, Mori Masau, Jean Paul Roux və başqalarının əsərləri tədqiqata cəlb edilmiş, eyni zamanda ailə hüququ sahəsində tədqiqatlar aparmış A.Afetinan, Əhməd Akgündüz, Ülkər Akkutay, Mustafa Aksoy, Sədri Maksidi Arsal, Mehmet Akif Aydın, Gülçin Çandaroğlu, Ali Erkul, Sevinc Necdet, Gülnisə Aynakulova və başqalarının əsərlərinə istinad edilmişdir. Həmin monoqrafiya və məqalələrin bəzilərinin adları aşağıda ədəbiyyat siyahısında verilmişdir.

Eyni zamanda qeyd etmək lazımdır ki, qədim Orta Asiya dövlətlərində ailəni təkcə Türkiyə müəlliflərinin əsərlərinə istinad etməklə tədqiq etmək düzgün deyildir, bunun üçün Orta Asiya respublikalarında çapdan çıxmış monoqrafiyaları, məqalələri daha geniş şəkildə tədqiqata cəlb etmək vacibdir. Monoqrafiyanın istifadə edilmiş ədəbiyyat siyahısında başqa ölkə, xüsusi ilə türk respublikalarında tədqiqatlar aparmış müəlliflərin əsərləri geniş yer almamışdır.

Y.Kurtoğlunun monoqrafiyasının mövzusuna uyğun olaraq Azərbaycanda da qədim dövr ailələri tədqiqata cəlb edilmişdir. Lakin burada ailə quruluşunun ayrı-ayrı məsələlərinə hər hansı bir dövlət çərçivəsində, xronoloji inkişaf müstəvisində deyil, əsasən qədim ailənin mövcudluq elementi kimi baxılmışdır. Bu reallığı dövrün siyasi tələbləri, eləcə də ailəyə yanaşmada ənənəvi elmi təcrübə ilə əlaqələndirmək daha düzgün olardı. Eyni zamanda qeyd etmək lazımdır ki, Ə.Əhmədov, Q.Qeybullayev, Q.Qədirzadə, N.Quliyeva, F.Vəliyev, M. Paşayeva, Ş.Bünyadova və başqalarının əsərlərində islamiyyətin yayılmasından əvvəlki dövrdə ailə quruluşunun müxtəlif elementləri ilə bağlı məlumatlar tədqiq edilmişdir. Xüsusi ilə Q.Qeybullayev, Ə.Əhmədov, G.Yoloğlu, Ş.Bünyadova və başqalarının əsərlərində qədim dövr ailə quruluşu tədqiqata cəlb edilmişdir. Bu əsərlərdə qədim ailənin inkişaf xüsusiyyətləri, kuzen, levirat, sororat nikahları, aldəyişik etmə, başlıq vermə, beşikgərtməsi, adqoyma, nikah əqdi, talaq və s. məsələlər öyrənilmişdir.

Fikrimizcə, Yasəmin Kurtoğlunun “Qədim Orta Asiya türk dövlətlərində ailə” monoqrafiyası etnoloji baxımdan xüsusi maraq doğurmaqla yanaşı, qədim türk tarixinə, türk ailə hüquq tarixinə yeni baxışın nümunələrindən biri və maraqlı örnəkdir. Azərbaycanda da ailə hüququnun etnoloji baxımdan dövlətçilik tarixi müstəvisində tədqiqi aktual elmi məsələlərdəndir. Qədim dövr ailə hüququna dair materialların az olduğunu nəzərə almaqla yanaşı, qeyd edək ki, qədim türk ailə hüququna, ailə institutuna Orta Asiya, Anadolu türk dövlətlərinin materialları əsasında müqayisəli şəkildə tədqiqata cəlb etmək Azərbaycanın qədim ailə institutunun, ailədaxili münasibətlərin daha dərindən tədqiqinə imkan yaradar, maraqlı nəticələr əldə olunar.

## MÜƏLLİF HAQQINDA MƏLUMAT – INFORMATION ABOUT AUTHOR

Əliyev Bəhmən Fazil oğlu – tarix üzrə fəlsəfə doktoru, dosent, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu. Azərbaycan, Bakı

Aliyev Bahman Fazil – Doctor of Philosophy in history, associate professor. A.A.Bakikhanov Institute of History and Ethnology, ANAS. Azerbaijan, Baku

**“AZƏRBAYCAN ETNOLOGİYASI”**

**JURNALI**

AZƏRBAYCAN ETNOLOGİYASI
(ELMİ ƏSƏRLƏR)
2025, cild 1, №1

AZERBAIJAN ETHNOLOGY
(SCIENTIFIC WORKS)
2025, Vol.1, N1

Format: 70*100 $^{1}/_{16.}$ Tiraj: 100.
Buraxılışa məsul: **Ramilə Gül**
Kompüter dizaynı: **Esmira Kərimova**

"Parlaq imzalar" Nəşriyyatında çap olunmuşdur

AZ1096, Azərbaycan, Qara Qarayev prospekti, 82 A